# KONFLİKTOLOGİYA

**DƏRSLİK**

**Bakı - 2006**

**Abbasbəyli A.N. – tarix elmləri doktoru,**
**siyasi elmlər professoru**
**Darabadi P.Q. – tarix elmləri doktoru,**
**professor**
**İbrahimov Ə.G.**

**Redaktorlar – filologiya elmləri namizədi,**
**dosent V.B.Cəfərov**
**Q,Q.Məmmədov**

**Rəyçilər:**

**H.Q.Əlibəyli – tarix elmləri doktoru**
**S.Z.Yusifzadə – tarix elmləri doktoru**

**Konfliktologiya. Dərslik. B.: 2006. Bakı Dövlət Universitetinin nəşriyyatı.**

Dərslikdə müasir şəraitdə münaqişələrin hüquqi, siyasi, hərbi, diplomatik, ideoloji, sosial, milli, dini və beynəlxalq aspektləri nəzərdən keçirilir. Siyasi-hüquqi baxımdan münaqişəli vəziyyətlərin xüsusiyyətləri, onların kökləri və inkişaf xüsusiyyətləri tədqiq olunur. Dərslikdə konkret misallar əsasında müasir beynəlxalq münasibətlərdə mövcud olan müxtəlif xarakterə və kəskinliyə malik münaqişələr göstərilir.

Dərslik diplomatik kadrların hazırlığı ilə məşğul olan ali məktəblərin tələbələri, magistrantları, professor-müəllim heyəti, müasir dünyada münaqişələri öyrənən alim və tədqiqatçılar, hərbi və mülki analitiklər, konfliktologiya ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.

**© A.N.Abbasbəyli**
**P.Q.Dərabadi**
**Ə.G.İbrahimov**

**Mündəricat**

**Giriş**

**1-ci Mövzu. Konfliktologiyanın predmeti və mahiyyəti**

**§ 1. Münaqişəyə dair elmi baxışların təkamülü**

**§ 2.Konfliktologiya nəzəriyyəsində əsas istiqamətlər**

2.1.Psixologiyada münaqişə problemi

2.2.Münaqişənin sosioloji nəzəriyyələri

2.3.Münaqişənin politoloji nəzəriyyələri

**§3. Konfliktologiyanın nəzəri əsasları**

3.1. Münaqişələrin öyrənilməsinə sistemli yanaşma

3.2.Münaqişələrin təsnifləşdirilimasinin əsas növləri

3.3.Münaqişədə davranış strategiyası

3.4.Münaqişənin dinamikası

**2-ci Mövzu. Münaqişə və böhran: beynədxalq münasibətlər nəzəriyyəsində kateqorial komplekslər**

**§1. Münaqişə və onun ölcüləri**

**§2. Münaqişənin inkişaf dinamikası**

**§3. Münaqişənin yaranmasının və eskalasiyasının səbəbləri**

**3-cü Mövzu. Beynəlxalq siyasi münaqişələr**

**§1. Beynəlxalq siyasi münaqişənin anlayışı**

**§2.iyasi və silahlı münaqişələrin nisbəti**

**§3.Beynəlxalq münasibətlərdə münaqişələrin və sabitliyin qarşılıqlı əlaqəsi**

**§4.Beynəlxalq siyasi münaqişənin nizama salınmasında «üçüncü tərəf»in rolu.**

**§5.Hakimiyyət və münaqişə**

**§6.Avtoritar hakimiyyət münaqişələri**

**§7.Demokratik hakimiyyət münaqişələri**

**§8.Siyasi münaqişələrin yaranma səbəbləri və tipologiyası**

**§9.Daxili siyasi münaqişənin mahiyyəti və növləri**

**§10.Daxili siyasi münaqişələrin qarşısının alınması yolları**

**§11.Siyasi münaqişələrin tənzimlənməsi və həlli**

## 4-cü Mövzu. Sosial münaqişələr

**§ 1. Sosial münaqişənin təbiəti**

**§ 2. Sosial münaqişələrin kökləri**

**§ 3. Sosial münaqişələrin tipləri**

**§4. Sosial münaqişələrin funksiyaları**

**§ 5 . Sosial münaqişələrin növləri və əsas inkişaf mərhələləri**

**§ 6. İqtisadi münaqişələr**

**§ 7. Kütləvi iğtişaşlar və kütlə fenomeni.**

## 5-ci mövzu.Millətlərarası münaqişələr

**§ 1.Millətlərarası münaqişələrin spesifikası**

**§ 2. Millətlərarası münaqişələrin səbəbləri**

**§ 3. Millətlərarası münaqişənin inkişaf xüsusiyyətləri**

**§ 4.Millətlərarası münaqişələrin tipləri**

**§ 5. Millətlərarası münaqişələrin həlli yolları**

## 6-ci Mövzu. Beynəlxalq və dövlətlərarası münaqişələr

**§ 1. Dövlətlərarası münaqişələrin xüsusiyyətləri və növləri**

**§ 2. Dövlətlərarası münaqişələrin qarşısının alınması**

## 7-ci Mövzu. Beynəlxalq münasibətlərdə hərbi güc faktoru

**§1.Müharibə və siyasət**

**§2.Siyasi və hərbi metodların nisbəti problemi**

**§3.Hərbi gücün elementləri**

**3.1.Sənayeyə qədərki cəmiyyət**

**3.2.Mərhələ fərqi probleminin yaranması**

**3.3.Erkən sənaye cəmiyyəti**

**3.4.Yetkin sənaye cəmiyyəti**

**3.5.Sənayedən sonrakı cəmiyyətə keçid**

## 8-ci Mövzu. Siyasi-etnik və hərbi münaqişələrin psixoloji aspektləri

**§1. Seçimin psixoloji aspektləri**

**§2.Kollektiv seçimin ideoloji və psixoloji aspektləri**

**§3.Münaqişənin nizamlanmasında ideoloji amillər**

**§4.Beynəlxalq əlaqələrlə bağlı nəzəriyyələrin psixoloji aspektləri və təhlili.**

**9-cu Mövzu. Münaqişələrin həlli texnologiyası**

**§ 1. Münaqişələrin həllində çoxvariantlılıq**

**§ 2. Münaqişələrin həlli şərtləri və amilləri**

**§ 3. Münaqişələrin həlli strategiyası və üsulları**

**§ 4. Münaqişədən çıxış strategiyası**

**§ 5. Mediatorluq**

**§ 6. Danışıqlar prosesi və danışıq üslubları**

**10-cu Mövzu. Qafqaz münaqişələr reallığında**

**11-ci Mövzu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin geosiyasi nəticələri**

**12-ci Mövzu. Ermənistanın terror-separatizmi siyasəti münaqişədə əsas məqsəddir**

**Nəticə**

**Sözlük**

**Tövsiyyə olunan ədəbiyyat siyahısı**

## Giriş

Təqdim olunan «Konfliktologiya» dərsliyi ümumiyyətlə beynəlxalq münaqişələrin, o cümlədən postsovet məkanındakı münaqişələrin elmi-nəzəri və elmi-metodiki təhlilindən ibarətdir.

Dərsliyin xüsusiyyəti onda təzahür edir ki, müəlliflər tələbə gənclərə beynəlxalq münaqişələrin mahiyyətini, qaynaqlarını, köklərini və nəticələrini anlamaq, qiymətləndirmək və müstəqil təhlil etmək bacarığını aşılamağa çalışırlar. Biz beynəlxalq siyasi münaqişələri təhlil edərkən, onların yaranma və inkişaf tarixini, nəzəri bazasını təhlil edərkən gəldiyimiz nəticələrdə Cənubi Qafqazdakı dövlətlərarası, siyasi münaqişələrin xarakterik xüsusiyyətlərinə istinad etmişik. Məlumdur ki, bütün postsovet məkanında ilk belə münaqişə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi olmuş, onun ardınca Gürcüstanda, Moldovada və s. belə münaqişələr meydana çıxmışdır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini konseptual mövqedən nəzərdən keçirsək, onun nəzəri əsası bir çox Avropa ölkələrindəki, o cümlədən keçmiş Yuqoslaviyadakı siyasi münaqişələr (məsələn, Kosovo münaqişəsi) üçün təməl olmuşdur.

Cənubi Qafqazda Rusiya Federasiyasının yeritdiyi hegemonçu geostrateji siyasət nəticəsində məhz bu məqsədlər üçün yaradılmış Ermənistan xüsusi rol oynayır. Ermənistan XIX əsrin əvvəlində Sankt-Peterburqda verilmiş imperator fərmanı əsasında Azərbaycanın ləğv olunmuş İrəvan xanlığınqın yerində yaradıldığı gündən etibarən ilk əvvəl «Erməni vilayəti» adlandırılmışdır. O indi də Rusiyanın erməni vilayəti olaraq, 200 ildən bəri çar, sovet və müasir Rusiyanın Cənubi Qafqazda başlıca və uzunmüddətli strateji müttəfiqi və dayağı qismində çıxış etməkdədir. Bu, Rusiya Federasiyası və Ermənistan Respublikası arasında XXI əsrə istiqamətlənmiş müttəfiqlik

münasibətləri haqqında 2002-ci il sentyabrın 26-da Moskva şəhərində imzalanan Birgə Bəyannamədə öz ifadəsini tapmışdır. Həmin Bəyannamədə deyilir: «Rusiya Federasiyası və Ermənistan Respublikası XXI əsrin astanasında öz münasibətlərini genişmiqyaslı strateji əməkdaşlıq əsasında quracaqlar».

Müasir münaqişələrin təbiəti elədir ki, onlar bir yerdə yaranaraq, başqa yerdə davam edirlər. Bu, xüsusilə həmin münaqişələrin böyük dövlətlər, yaxud region dövlətləri tərəfindən dstəkləndiyi hallara aiddir. Postsovet məkanında –Cənubi Qafqazda, Moldovada və s. dövlətlərarası siyasi münaqişələrin təcrübəsi təsdiqləyir ki, onların hamısı bir-biri ilə sıx qarşılıqlı əlaqəyə malikdir, eyni mənbədən qidalanır, vahid xarakterə və eyni niyyətlərə malikdir. Konseptual baxımdan siyasi münaqişələr silahlı münaqişələrdən əmələ gəlir və onların davamı kimi çıxış edir. Daxili, yaxud xarici münaqişənin təşəbbüskarı olan dövlət silahlı yolla birinci mərhələdə müəyyən nəticələr əldə etdikdən sonra müəyyən siyasi şərtlər irəli sürməyə başlayır. Bütün bunlar Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin, habelə Gürcüstandakı Abxaziya və Cənubi Osetiya, Moldovadakı Dnestryanı, Serbiyadakı Kosovo münaqişələrinin nümunəsində aydın surətdə görünür.

Təqdim olunan dərslikdə dövlətlərarası siyasi münaqişələrin nəzəri əsasları, onların inkişaf dinamikası, xarakterik xüsusiyyətləri, həmin münaqişələrin iştirakçılarının ideoloji, siyasi və hərbi bazası, onların psixologiyası və kəskinləşmə mənbələri nəzərdən keçirilmişdir.

## 1-ci Mövzu.
## Konfliktologiyanın predmeti və mahiyyəti

**Suallar:**

**1. Münaqişəyə dair elmi baxışların təkamülü**

**2.Konfliktologiya nəzəriyyəsində əsas istiqamətlər**

2.1.Psixologiyada münaqişə problemi

2.2.Münaqişənin sosioloji nəzəriyyələri

2.3.Münaqişənin politoloji nəzəriyyələri

**3. Konfliktologiyanın nəzəri əsasları**

3.1. Münaqişələrin öyrənilməsinə sistemli yanaşma

3.2.Münaqişələrin təsnifləşdiriliməsinin əsas növləri

3.3.Münaqişədə davranış strategiyası

3.4.Münaqişənin dinamikası

**Konflikt sözü** latınca **«conflistus»** sözündən olub, **«toqquşma»** mənasını verir.Konfliktologiyanın sosiologiya, psixologiya və digər elmlərin qovuşuğunda yerləşən ayrıca, müstəqil elm, yaxud kompleks elmi fənn hesab olunması sualına «hər ikisi» cavabını vermək olar.

**Konfliktologiya elm kimi hal-hazırda tədricən kompleks xarakterə malik müstəqil elmi fənn statusu kəsb etməkdədir**.

Lakin konfliktologiyanın müstəqilliyi nisbidir. O, münaqişələrin öyrənilməsinə kömək göstərən istənilən elmin məlumatlarından, nəzəri modellərindən, metod və üsullarından istifadə edir. Bu elm ayrıldığı bilik sahələri – sosiologiya və psixologiya ilə xüsusilə sıx surətdə bağlıdır. Bir çox digər elm sahələri – politologiya, tarix, kulturologiya, iqtisadi elmlər, hüquqşünaslıq, pedaqogika, hərb elmi ona faktiki material verir və onun konsepsiyalarının tətbiq sahəsi kimi çıxış edir.

O, fəlsəfədən münaqişənin əksliklərin ziddiyyəti, toşşuqması və qarşılıqlı təsirinin bir növü kimi anlayışının ümumi prinsiplərini əxz edir. Konfliktologiyanın problemlərinə riyazi aparatın cəlb edilməsi imkanları da nəzərdən keçirilir.

Konfliktologiyanın digər elm sahələri ilə nisbəti 1-ci şəkildə verilmişdir.

## § 1. Münaqişəyə dair elmi baxışların təkamülü

Konfliktoloji ideyaların toplanması ənənələri çoxəsrlik tarixə malikdir. Münaqişənin ilk bütöv konsepsiyaları X1X-XX əsrlərin ayrıcında yaransa da, əvvəlki yüzilliklərdə də bəşəriyyətin ən yaxşı zəkaları bu fenomenin təbiətinə, münaqişələrin qarşısının alınması və həlli yollarına dair baxışlarını açıqlamışlar.

İlk insan toplumları ilə birlikdə meydana çıxan münaqişələr gündəlik təzahür olmuş və uzun müddət elmi tədqiqat obyektinə çevrilməmişdir, hərçənd onların barəsində ayrı-ayrı dahiyanə fikirlərə bizə gəlib çatmış ən qədim mənbələrdə rast gəlmək olar. Zaman keçdikcə həyat şəraiti dəyişmiş, bununla birlikdə münaqişələrin şəkli də dəyişmişdir. Onların fiziki, iqtisadi və sosial nəticələri fərqlənmişdir. İctimai fikrin onlara münasibəti də dəyişməz qalmamışdır. **Antik dövrdən** müharibələrin müfəssəl təsviri və buk imi münaqişələrin ilk qiymətləndirilmələri qalmışdır. **Orta əsrlərdə** və **Yeni dövrdə** bu təzahürün mahiyyətini mənalandırmağa cəhd göstərilmişdir. Humanist mütəfəkkirlərin bütöv bir nəsli münaqişələr, bəşəriyyətin inkişafına onların mənfi təsiri, müharibənin cəmiyyət həyatından kənar edilməsi və əbədi sülhün bərqərar edilməsi haqqında təsəvvürlərini ifadə etmişlər.

**Qədim dövr.** Qədim filosoflar belə hesab edirdilər ki, öz-özlüyündə münaqişə nə pis, nə də yaxşıdır, o, insanların rəyindən asılı olmayaraq, hər yerdə mövcuddur.

Nəzərdən keçirilən problemə dair bizə gəlib çatmış ilk tədqiqatlar b.e.ə. VII-VI əsrlərə aiddir. Həmin dövrün Çin mütəfəkkirləri belə hesab edirdilər ki, bütün varlığın inkişaf mənbəyini materiyaya xas olan, daimi ziddiyyətdə olan və daşıyıcılarının cəbhələşməsinə gətirib çıxaran müsbət (yan) və mənfi (in) cəhətlərin qarşılıqlı münasibətləri təşkil edir.

Çin filosofu Lao-tszı (b.e.ə. 579-499-cu illər) müharibə və mübarizəni deyil, sülh və barışığı ali dəyər hesab edirdi. O öyrədirdi: Döyüşlərdə müharibə istəməyənlər qalib gəlir, ən başlıcası sakitliyə riayət etməkdir.

Qədim Yunanıstanda əksliklər və şeylərin yaranışında onların rolu haqqında fəlsəfi təlim meydana çıxır. Anaksimaqor (b.e.ə. 610-547) göstərirdi ki, şeylər əksliklərin ayrılmasına gətirib çıxaran vahid maddi başlanğıcın – «apeyron»un daimi hərəkəti nəticəsində əmələ gəlir. Heraklit (b.e.ə. 535-475) hərəkətin səbəbini açmağa, şeylərin və təzahürlərin hərəkətini əksliklərin mübarizəsinin doğurduğu zəruri, qanunauyğun proses kimi təqdim etməyə cəhd göstərmişdi. O yazırdı: «Mübarizə ümumidir və hər şey zərurət üzrə mübarizədən keçir».

Müharibə kimi sosial münaqişənin roluna dair ilk ümumiləşdirmələr bu dövrə aiddir. Belə ki, Heraklitin fikrincə, «müharibə bütün şeylərin atasıdır, sülh isə onların

anasıdır». Platon (b.e.ə. 428-348) isə onu ən böyük bəla kimi nəzərdən keçirirdi. Onun fikrincə, bir vaxtlar «qızıl əsr» mövcud olmuş, «adamlar bir-birini sevmiş və bir-birinə xeyirxah münasibət bəsləmişlər». Buna baxmayaraq, Platonun «ideal dövlət»ində istənilən vaxt yürüşə çıxmağa hazır olan döyüşçülər vardır.

Herodot (b.e.ə. 490-425) da Heraklitə qarşı çıxırdı. O göstərirdi ki, «heç kim müharibəni sülhdən üstün tutacaq qədər ağılsız deyildir. Axı müharibə vaxtı atalar övladlarını, sülh dövründə isə övladlar atalarını basdırırlar». Materialist filosof Epikür (b.e.ə. 341-270) də belə hesab edirdi ki, toqquşmaarın mənfi nəticələri nə vaxtsa insanları sülh şəraitində yaşamağa məcbur edəcəkdir.

Keçmişin mütəfəkkirləri ictimai həyatda cəbhələşmənin labüdlüyünü dərk edərək, hələ o zaman «ədalətli» və «ədalətsiz» zorakılığın meyarlarını müəyyən etməyə cəhd göstərirdilər. Məsələn, Siseron (b.e.ə. 106-43) özünün «Dövlət haqqında» əsərində şərin qisasının alınması, düşmənin ölkədən qovulması uğrunda aparıla biləcək «ədalətli və şərəfli müharibə» haqqında tezis irəli sürmüşdü.

Avreli Avqustin (345-430) Siseronun şərtlərinə müharibə aparanın «ədalətli niyyətləri»ni də əlavə etmişdi.

**Orta əsrlər. Foma Akvinski (1225-1274)** cəmiyyət həyatında müharibələrə yol verilməsi haqqında fikirlərini inkişaf etdirərək, ədalətli müharibənin daha bir şərtini müəyyən etmişdi: ondan ötrü «avtorizə olunmuş səahiyyət», yəni dövlət hakimiyyətinin sanksiyası zəruridir. Hərçənd bütövlükdə, onun fikrincə, «müharibə və zorakılıq həmişə günahdır».

Sosial münaqişələrin sistemli təhlilinə ilk cəhdlərdən biri Florensiyalı nəzəriyyəçi və dövlət xadimi Nikkolo Makiavelliyə (1469-1527) məxsusdur. Onun konsepsiyasının dəyəri həmin dövrdə hökmran olan ictimai inkişafın mənbələrinə dini baxışlardan uzaqlaşmasında idi. Orta əsrlərin böyük nəzəriyyəçisi münaqişəni cəmiyyətin insan təbiətinin qüsurlu olması, müxtəlif insan qruplarının daimi və qeyri-məhdud maddi zənginləşməyə can atması ilə şərtlənən universal və fasiləsiz halı hesab edirdi. N.Makiavelli bütün dövlət hakimiyyətini öz əllərində cəmləşdirən əyanları sosial münaqişənin mənbələrindən biri hesab edirdi. Buna baxmayaraq, Makiavelli münaqişənin yalnız dağıdıcı funksiyasını deyil, həm də yaradıcı funksiyasını görürdü. Münaqişənin mənfi rolunu azaltmaq üçün ona düzgün təsir etməyi bacarmaq lazımdır. Bu missiyanı dövlət yerinə yetirməlidir.

Rotterdamlı Erazm (1469-1536) qeyd edirdi ki, «müharibə onu bilməyənlərin ruhu üçün şirindir». O, həmçinin münaqişənin öz məntiqinə malik olduğunu, zəncirvari reaksiya kimi yayılaraq, özünün təsir dairəsinə əhalinin və ölkənin yeni-yeni təbəqələrini cəlb etdiyini göstərirdi. Rotterdamlı Erazm müharibələrin səbəblərini

təhlil edərkən vurğulayırdı ki, çox vaxt hökmdarların xəbis və tamahkar keyfiyyətləri xalqları müharibələrə sürükləyir.

Hüqo Qratsi (1583-1645) suveren dövlətlər arasında hər iki tərəfin özünün haqlı olduğuna əmin olduğu müharibə imkanını nəzərdə tuturdu. Onun mülahizələri sonralar bitərəflik anlayışının nəzəri əsasını qoymuşdur.

Münaqişələrin təbiətinə dair ingilis filosofu Frensis Bekonun (1561-1626) irəli sürdüyü ideyalar maraq doğurur. O, ilk dəfə ölkə daxilində sosial münaqişələrin səbəbləri sistemini əsaslı nəzəri təhlildən keçirmişdi. Onların arasında xalqın acınacaqlı maddi vəziyyəti aparıcı rol oynayır. Münaqişələrin yaranmasına hökmdarların senatın və silklərin rəyinə etinasızlığı, idarəetmədəki siyasi səhvlər, şayiələrin yayılması, habelə «paskvillər və müxalif nitqlər» də təkan verir.

Tomas Hobbs (1588-1679) özünün «Leviafan» əsərində «hamının hamıya qarşı müharibəsi» konsepsiyasını əsaslandırmışdı. O, adamlarda eyni ümidlərin yaranmasına, özünü qoruyub saxlama, yaxud həzz alma üçün zəruri olan obyektlərə sahib olmaq istəyinə gətirib çıxaran bərabərliyə canatmanı münaqişənin başlıca səbəbi hesab edirdi, bu isə insanları düşmənlərə çevirir, rəqabət, etimadsızlıq və şöhrətpərəstlik doğurur. Hobbs insanların qüsurlarının aradan qaldırılmasının dövlət zorakılığının tətbiqindən başqa bir yolunu görmürdü.

**Yeni dövr.** Bu dövrdə Jan-Jak Russonun (1712-1778) ideyalaraı populyar idi. Hobbsdan fərqli olaraq, o, belə hesab edirdi ki, insan özünün təbiəti etibarilə xeyirxah, sülhsevərdir, səadət üçün yaradılmışdır.

Onun ümumdünya-tarixi prosesin mərhələviliyi konsepsiyasına görə, əvvəlcə «təbii hal» mövcud olur, bu zaman insanlar azad və bərabərdir, sonra sivilizasiyanın inkişafı bərabərlik, azadlıq və səadət halının itirilməsinə gətirib çıxarır və nəhayət, insanlar «ictimai müqavilə» bağlamaqla yenidən ictimai münasibətlərin itirimiş harmoniyasını, «əbədi sülh» və həmrəylik əldə edirlər. J-J.Russonun fikrincə, ictimai müqavilə xalqın sərt nəzarəti altında mümkündür, çünki müharibələr nazirlərə lazımdır, buna görə də onlar xoş məram göstərmirlər. Məsələ «artıq dilə tutmada deyil, məcbur etmədədir».

Çoxsəviyyəli sosial təzahür kimi münaqişə ilk dəfə Adam Smitin «Xalqların sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat» əsərində öyrənilmişdir.

Münaqişənin əsasında cəmiyyətin siniflərə (kapitalistlər, torpaq mülkiyyətçiləri, muzdlu fəhlələr) bölünməsi və iqtisadi rəqabət durur. A.Smit siniflər arasında qarşıdurmanı cəmiyyətin irəliyə doğru inkişafının mənbəyi kimi, sosial münaqişəni isə bəşəriyyətin müəyyən neməti kimi nəzərdən keçirirdi.

Alman filosofu İmmanuil Kant (1724-1804) belə hesab edirdi ki, «qonşuluqla

yaşayan adamlar arasında sülh vəziyyəti təbii hal deyildir…Əksinə, təbii hal müharibə vəziyyətidir, yəni fasiləsiz hərbi əməliyyatlar olmasa da, daimi müharibə təhdididir. Deməli, sülh vəziyyəti bərqərar olunmalıdır». Burada J.-J.Russonun «ictimai müqavilə» haqqında ideyaları ilə əlaqə sezilir.

Alman filosofu Georq Hegelin (1770-1831) fikrincə, münaqişənin başlıca səbəbi bir tərəfdən «sərvət yığımı» ilə digər tərəfdən «əməyə bağlı sinif» arasında sosial qütbləşmədən irəli gəlir. Güclü dövlət hakimiyyətinintərəfdarı olan Hegel ölkə daxilində dövlətin birliyini sarsıdan iğtişaşlara qarşı çıxırdı. O belə hesab edirdi ki, dövlət bütün cəmiyyətin mənafelərini təmsil edir və münaqişələri tənzimləməyə borcludur.

Prussiya hərbi nəzəriyyəçisi Karl klauzevits (1780-1831) «Müharibə haqqında» əsərində beynəlxalq hərbi münaqişənin təbiətini müəyyən edərək, məşhur «Müharibə siyasətin başqa vasitələrlə davamıdır» düsturunu təklif etmişdi. Bütün tarix boyunca beynəlxalq hərbi münaqişələr bioloji labüdlük, bu və ya digər dövlətin siyasətində normadan kənaraçıxma, yaxud monarxın özbaşınalığının təzahürü deyil, dövlət daxilində və dünya meydanında münaqişəyə keçənə qədər proseslərin qanunauyğun inkişafı olmuşdur.

Mövcudluq uğrunda mübarizə problemi ingilis bioloqu Çarlz Darvinin (1809-1902) yaradıcılığında mərkəzi yer tutmuşdur. Onun bioloji təkamül nəzəriyyəsinin məzmunu 1859-cu ildə nəşr olunmuş «Təbii seçmə yolu ilə növlərin mənşəyi, yaxud həyat uğrunda mübarizədə nəcib cinslərin saxlanması» kitabında açıqlanmışdır. Bu əsərin başlıca ideyası onun adında ifadə olunmuşdur: canlı təbiətin inkişafı yaşamaq uğrunda daimi mübarizə şəraitində həyata keçirilir ki, bu da ən çox uyğunlaşan növlərin təbii seçmə mexanizmini təşkil edir. Sonralar Ç.Darvinin baxışları münaqişənin bəzi sosioloji və psixoloji nəzəriyyələrində inkişaf etdirilmişdir.

X1X əsrin ikinci yarısında alman filosofu F.Nitsşe (1844-1900) insan davranışındakı təcavühkar təzahürləri patologiya və onun təbiətindəki kənaraçıxma kimi deyil, insanın təbiətinin diqtə etdiyi təbii hal kimi nəzərdən keçirmişdir. Onun fikrincə, məhz buna görə də əbədi sülhə can atan bəşəriyyət labüd surətdə müharibəyə qayıdır.

## § 2.Konfliktologiya nəzəriyyəsində əsas istiqamətlər

### 2.1.Psixologiyada münaqişə problemi

Qərb psixologiyası şəxsiyyətdaxili və sosial münaqişələrin öyrənilməsində mühüm ənənələrə malikdir. Yüz ilə yaxın bir dövr ərzində toplanmış böyük nəzəri və

empirik material yanaşmaların və nəzəri platformaların müxtəliflində öz əksini tapır. Münaqişənin öyrənilməsi tarixində şərti olaraq iki mərhələni fərqləndirmək olar. Birinci mərhələ XX əsrin 50-ci illərinə qədər davam etmişdir, ikinci mərhələ isə keçən əsrin 50-ci illərinin sonundan indiyə qədər olan dövrü əhatə edir. Fərqləndirmənin əsası qismində münaqişə probleminin psixologiyanın nəzərdən keçirdiyi digər problemlər sırasında fərqləndirilməsi çıxış edir. XX əsrin birinci yarısında münaqişə ayrıca tədqiqat obyekti kimi fərqləndirilməyib, daha geniş konsepsiyaların tərkib hissəsi kimi nəzərdən keçirilirdi (məsələn, psixoanaliz, yaxud sosiometriyada). Psixoloqları ya münaqişələrin nəticələri, ya da ona gətirib çıxaran ayrı-ayrı səbəblər maraqlandırırdı, lakin münaqişə özü tədqiqatın mərkəzi həlqəsini təşkil etmirdi.

50-60-cı illərin ayrıcında psixoloqların elmi marağının bilavasitə bu fenomenə yönəldiyi tədqiqatlar meydana çıxır. Əsas anlayışlar fərqləndirilir, münaqişənin psixoloji nəzəriyyəsinin anlayışlar aparatı işlənilir.

XX əsrin birinci yarısında münaqişənin xarici psixoloji tədqiqatlarının istiqamətləri arasında aşağıdakılar fərqləndirilir:

-psixoanalitik (Z.Freyd, A.Adler, K.Xorni, E.Fromm);

- sosiotrop (U.Mak-Dauqall, S.Siqele və b.);
- etoloji (K.Lorens, N.Tinberqen);
- qrup dinamikası nəzəriyyəsi (K.Levin, D.Kreç, L.Lindsey);
- frustrasiya-təcavüzkar (D.Dollard, L.Berkovits, N.Miller);
- davranış (A.Bass, A.Bandura, R.Sire);
- sosiometrik (D. Moreno, E.Ceniqs, S.Dodd, Q.Qurviç);
- interaksionist (D.Mid, T.Şibutani, D.Şpigel).

**Psixoanalitik yanaşma,** ilk növbədə, insanın münaqişəliliyinə (konfliktliliyinə) dair ilk konsepsiyalardan birini yaratmış Avstriya psixoloqu ***Ziqmund Freydin*** (1856-1939) adı ilə bağlıdır. Z.Freydin əsasən şəxsiyyətdaxili münaqişələrlə məşğul olmasına baxmayaraq, onun xidməti şəxsiyyətlərarası münaqişələrin səbəblərinin şüursuzluq səviyyəsində axtarılması zərurətini göstərməsi ilə bağlıdır. O belə hesab edirdi ki, başlıca mənbə insan psixikasına əvvəlcədən xas olan şüur və şüursuzluq, dolaşıq instinktiv meyllərlə əxlaq və hüquq normalarının tələbləri arasındakı münaqişədir. Məhz insan qəlbinin bu disharmoniyası büün sosial münaqişələrin –şəxsiyyətdaxili, şəxsiyyətlərarası, qruplararası münaqişələrin başlıca mənbəyini təşkil edir.

Z.Freydin davamçısı olae ***Alfred Adler*** (1870-1937) şəxsiyyətin mikromühitlə münaqişələrinin məzmununu fərdin natamamlıq və birinin digəri üzərində üstünlüyü hissindən qurtulmaq cəhdlərində görürdü.

Amerika psixoloqları K.Xorni, E.Fromm, Q. Salliven münaqişənin təbiətinin anlayışını genişləndirərək, ona sosial kontekst verməyə çalışmışlar. Belə ki, ***K.Xorni*** (1885-1952) fərdlə onun mühiti arasındakı münaqişələrin əsas səbəbini yaxın şəxslər, ilk növbədə, valideynlər tərəfindən xeyirxahlığın çatışmamasında görürdü.

***E..Frommun*** (1900-1980) fikrincə, münaqişələr şəxsi istək və tələbatları cəmiyyətdə reallaşdırmağın mümkün olmaması ucbatından yaranır.

20-30-cu illərdə münaqişə sosial psixoloqların diqqətini cəlb etməyə başlayır. Anqloamerikan psixoloqu ***U.Mak-Dauqallın*** (1871-1938) fikrincə, cəmiyyətdə münaqişələr labüddür, çünki insanlara qorxu, sürü hissi, özünütəsdiq kimi sosial instinktlər xasdır. Onlar nəsildən-nəslə ötürülür, buna görə də adamlar daim münaqişəyə, ziddiyyətə girirlər. Ç.Darvinin yaşamaq uğrunda mübarizə instinktinin növün mövcudluğunu, inkişafını təmin etməsi fikrinə istinadən U.Mak-Dauqall onu insan toplumuna da şamil edirdi. Onun yaratdığı sosial instinktlər nəzəriyyəsi özünə tərəfdarlar tapdı ki, bu da münaqişələrin öyrənilməsində sosiotrop istiqaməti müəyyən etdi (S.Sigele və b.).

Münaqişəyə etoloji yanaşmanın başlanğıcı 30-cu illərdə Avstriya təbiətşüası, Nobel mükafatı laureatı ***Konrad Lorentsin*** (1903-1989) əsərlərində qoyuldu. O, dünya elmində ilk dəfə belə bir fərziyyə irəli sürdü ki, sosial münaqişələrin başlıca səbəbi fərdin və kütlənin təcavüzkarlığıdır. K.Lorentsin fikrincə, heyvanlarda və insanlarda təcavüzkarlığın yaranması mexanizmləri eynitiplidir, təcavüz isə canlı orqanizmin daimi halıdır. K.Lorentsin etoloji ideyaları holland alimi ***N.Tinbergenin*** (1907-1988) tədqiqatlarında inkişaf etdirilmişdir.

Алман-американ психологу ***Kurt Levin*** (1890-1947) qrup dinamikası problemlərini araşdıraraq, fərdlə mühit arasında tarazlıq pozularkən gərginlik altına düşən dinamik davranış sistemi konsepsiyasını işləyib hazırlamışdı. Bu gərginlik münaqişələr şəklində təzahür edir. Münaqişənin mənbəyi qismində qrup liderinin xoşagəlməz fəaliyyət üslubu çıxış edə bilər. K.Levin münaqişələnrin həlli yollarını şəxsiyyətin motivləşmə sahələrinin və fərdlərin qarşılıqlı fəaliyyət strukturunun yenidən təşkilində görürdü.

Yel universitetinin (ABŞ) bir qrupp psixoloqu C***on Dollard*** (1900-1980) başda olmaqla, 3. Freyd və K. Levinin əsərləri əsasında münaqişənin yeni - frustrasiya-təcavüzkar fərziyyəsini təklif etdi.

Bu konsepsiyada münaqişələrin biososial səbəbi – fərdin təcavüzkarlığı və sosial səbəbi – frustrasiya birləşdirilmişdir. Təcavüz həmişə frustrasiyadan sonra gəlir, təcavüzkar davranış halları, adətən, frustrasiyanın mövcudluğunu nəzərdə tutur.

Davranış istiqamətinin məşhur nümayəndəsi Amerika psixoloqu ***Arnold Bassdır.*** O, münaqişələrin səbəblərini yalnız insanın biologiyasında, anadangəlmə keyfiyyətlərində deyil, həm də şəxsiyyətin ətraf sosial mühitlə qarşılıqlı təsiri nəticəsində bu keyfiyyətləri dəyişdirən sosial əhatədə (çevrədə) axtarır.

Sosial psixoloq **Yakob Morenonun** (1892-1974) işləyib hazırladığı sosiometriya nəzəriyyəsinə müvafiq surətdə şəxsiyyətlərarası münaqişələr insanlar arasındakı emosional münasibətlərin vəziyyəti, onların bir-birinə rəğbət, yaxud nifrət bəsləməsi ilə müəyyən olunur. Y.Moreno belə bir nəticəyə gəlmişdi ki, şəxsiyyətlərarası münaqişələrdən tutmuş beynəlxalq münaqişələrə qədər bütün münaqişələr insanların emosional üstünlüyünə müvafiq surətdə onların elə düzülüşü yolu ilə həll edilə bilər ki, «sosiometrik inqilab» ictimai münasibətlərin ahəngdarlığını təmin etməyə imkan versin.

Simvolik interaksionizmin banisi olan Amerika psixoloqu və sosioloqu C***orc Midin*** (1863-1931) əsərlərinin ardınca Çikaqo məktəbinin nümayəndəsi ***T.Şibutaninin*** tədqiqatları geniş əks-səda doğurdu. Onun fikrincə, münaqişələrin səbəbləri sosial qarşılıqlı fəaliyyət prosesindədir. «Fərd-mühit» münasibətlərində hiddətlənmə baş verdikdə subyekt daxili disharmoniya və narahatlıq keçirməyə başlayır. Onları aradan qaldırmağa çalışan fərd mühitə uyğunlaşmaq üçün fəal hərəkətlər həyata keçirir. Məhz uyğunlaşmanın gedişində münaqişələr yaranır.

Nəzərdən keçirilən dövrdə münaqişənin tədqiqinə yanaşmaların təhlili göstərir ki, onlar psixologiyanın ənənəvi istiqamətləri məcrasında formalaşaraq, həmin cərəyana xas olan nəzəri konstruksiyaları əks etdirmişlər. Bu yanaşmalar son 40-45 ildə münaqişələri öyrənərkən Qərb psixoloqlarının istinad etdikləri əsasa çevrilmişlər.

Məsələn, 60-cı illərdə psixoanaliz və interaksionizm ideyalarının sintezi əsasında transakt analiz nəzəriyyəsini yaratmış Amerika psixoterapevti Erik Börnün (1902-1970) əsərləri nəşr olunmuşdur. E.Börnün fikrincə, şəxsiyyətin strukturu («Mən»i) üç hal-komponenti ehtiva edir: «uşaq» (kortəbii emosiyaların, istəklərin və həyəcanların mənbəyi), «valideyn» (stereotiplərə, köhnə düşüncələrə, ümumiləşdirmələrə, nəsihətlərə meyl) və «yaşlı» (həyata rasional və situativ yanaşma. İnsanların qarşılıqlı fəaliyyətinin gedişində transaksiyalar həyata keçirilir. Kəsişməyən transaksiya reallaşdırıldıqda o, münaqişəsiz münasibətləri təmin edir. Kəsişən transaksiya yarandıqda bu, ünsiyyət prosesinin pozulduğunu göstərir və münaqişələr gətirib çıxara bilər.

Hal-hazırda müasir Qərb psixologiyasında münaqişələrin tədqiqatları aşağıdakı istiqamətlər üzrə aparılır:

-nəzəri-oyun (M.Doyç);

-təşkilati sistemlər nəzəriyyəsi (R.Bleyk, C.Muton);

-danışıqlar prosesinin nəzəriyyəsi və təcrübəsi (D.Prüitt, D.Rubin, R.Fişer, U.Yuri).

Nəzəri-oyun yanaşmasının nümayəndələri münaqişəli vəziyyətdə universal qarşılıqlı fəaliyyət sxeminin qurulmasını və onun həllini əsas vəzifə hesab edirlər. Onun əsasında «dustaq dilemması» kimi oyunlar durur. Vəzifənin həllini dəqiq nəzarət olunan eksperimental şərtlər asanlaşdırır. Münaqişə vəziyyətində davranış üslublarının müxtəlifliyi iki əsas davranış tipində üiumiləşdirilir: kooperativ və rəqabət.

Sistem şəklində bu yanaşma Amerika sosial psixoloqu M.Doyçun əsərlərində öz ifadəsini tapmışdır. Onun konsepsiyası münaqişə probleminə sosial-psixoloji yanaşmanın tam işlənməsindən ibarətdir. M,Doyçun fikrincə, münaqişənin əsasında şəxsiyyətlərarası qarşılıqlı fəaliyyətin iştirakçılarının məqsədlərinin uzlaşmaması durur. Diqqətin qarşıduran tərəflərin motivləri üzərində cəmləşdirilməsi sayəsində bu istiqamətə aid əsərlər çox vaxt motivləşmə konsepsiyasına aid edilir.

Nəzəri-oyun yanaşmasının tərəfdarları belə hesab edirlər ki, münaqişələr həm konstruktiv, həm də destruktiv yolla həll oluna bilər. İştirakçılarının qoyulmuş məqsədlərə çatdıqlarına əmin olduqları münaqişə nəticəvi münaqişə hesab olunur.

Müasir Qərb tədqiqatçıları M.Doyçun ideyalarını inkişaf etdirərək, real qruplarda eksperimental situasiyalar yaradırlar. Situasiya tipləri arasında rəqabət, kooperasiya və qarıqıq situasiyalar fərqləndirilir. Təlim prosesində rəqabət situasiyası motivləşdirici təsirə malik ola bilər, lakin bu, əməkdaşlıq və qarşılıqlı yardım münasibətlərinə rəğmən deyil, onlarla yanaşı baş verir. Kooperativ təlim situasiyası ənənəvi fərdi təlimdən daha böyük səmərə verir.

Müasir psixologiyada münaqişənin öyrənilməsinə ikinci yanaşma təşkilati sistemlər nəzəriyyəsidir. Bu konsepsiya oyunlar nəzəriyyəsinə alternativ və onun təklif etdiyi həll yollarının tənqidinin nəticəsi kimi meydana çıxmışdır. R.Bleyk, C.Muton və K.Tomasın təşkilati sistemlər əsasında şəxsiyyətlərarası münaqişələr probleminə dair işləyib hazırladıqları yanaşma real şəraitdə insanların münaqişəli davranış üslublarının orijinal tədqiqi proqramından ibarətdir. Müəlliflər rəqibə münasibət və öz məqsədlərinin əldə olunmasına yönəlişlərin uzlaşmasından münaqişəli vəziyyətdə mümkün olan beş davranış strategiyasını müəyyən etmişlər: rəqabət, uyğunlaşma, qaçınma, uzlaşma, əməkdaşlıq.

Bütövlükdə tədqiqatçılar real davranışın öyrənilməsinə can atırlar. Eyni zamanda, münaqişənin həlli üslubunun diaqnostikası üçün istifadə olunan sorğu metodları real davranışdan daha çox subyektlərin niyyətlərini tədqiq etməyə imkan verir. Sorğulananlar bəzi kateqoriyaları fərqləndirməkdə çətinlik çəkirlər. Bu

çatışmazlıqları aradan qaldırmaq üçün münaqişəli vəziyyətdə davranışın özünüqiymətləndirməsini qarşılıqlı qiymətləndirmələr və ekspert qiymətləndirmələri ilə uzlaşdırmaq təklif olunur.

60-70-ci illərin ayrıcında münaqişəli qarşılıqlı fəaliyyətin bir hissəsi kimi danışıqlar prosesininöyrənilməsi üzrə müstəqil istiqamət formalaşmağa başlayır.

Hal-hazırda danışıqlar prosesinin nəzəriyyəsi və təcrübəsi tətbiqi psixologiyanın perspektiv istiqamətlərindən biri kimi nəzərdən keçirilir. Tədqiqatlar iki problemin həlli: münaqişə tərəflərinin danışıqlara başlamaq qərarı qəbul etməsinə təkan verən şərtlər məcmusunun aşkara çıxarılması və münaqişə tərəflərinin artıq razılaşma axtarışına çıxmaq qərarı qəbul etməsindən sonra danışıqlar prosesinin öyrənilməsi üzərində cəmləşdirilmişdir. Danışıqlar prosesinin texnologiyası daha çox işlənilmişdir.

Beləliklə, xarici psixologiyada şəxsiyyətlərarası münaqişənin öyrənilməsinin mühüm ənənələri toplanmışdır. Onların xarici psixoloqlar tərəfindən öyrənilməsi tarixində iki mərhələni fərqləndirmək olar: əsrin əvvəlindən 50-ci illərə qədər və 50-ci illərin sonundan indiyə qədər. Birinci mərhələdə münaqişə aşağıdakı yanaşmalar çərçivəsində öyrənilmişdir: psixoanaliz, sosiotropiya, etologiya, qrup dinamikası nəzəriyyəsi, frustrasiya-təcavüz, davranış, sosiometriya və interaksionizm. İkinci mərhələdə şəxsiyyətlərarası münaqişələrin tədqiqinin yeni istiqamətləri də inkişaf etmişdir. Bunlar nəzəri-oyun yanaşması, təşkilati sistemlər nəzəriyyəsi və danışıqlar prosesi təcrübəsidir.

## 2.2.Münaqişənin sosioloji nəzəriyyələri

**Sosial-darvinizm.** Münaqişənin rolunun əsaslandırıldığı sosial sistemin təkmilləşdirilməsinin sosioloji nəzəriyyəsini yaratmağa ilk cəhdlər XIX əsrin ikinci yarısına aiddir. Bu dövrdə ingilis sosioloqu ***Herbert Spenserin*** (1820-1903) əsərləri, məsələn, münaqişənin ümumiliyi və universallığı tezisinin inkişaf etdirildiyi «Sosiologiyanın əsasları» əsəri meydana çıxmışdır.

Spenser göstərirdi ki, yaşamaq uğrunda mübarizə, fərdlər və qruplar arasında münaqişələr cəmiyyətdə tarazlığa təkan verir, ictimai inkişaf prosesini təmin edir. H.Spenser həmin dövrdə inkişaf edən sosial-darvinizmin tərəfdarı idi. Sosial-darvinistlər göstərirdilər ki, cəmiyyət orqanizmə eyniləşdirilə bilər.

Bu, sosial həyatı bioloji qanunauyğunluqlarla izah etməyə imkan verir. Spenserlə yanaşı, sosial mübarizə və mənafelərin toqquşması, irsi normalar və yeni ideyalarla bağlı təzahürləri təsvir etməklə, münaqişə probleminə diqqəti cəlb etmiş

U.Becqot, U.Samner, L.Qumploviç, Q.Ratsengofer, A.Smoll bu təlimin ən parlaq nümayəndələri olmuşlar.

**Marksizm nəzəriyyəsi.** Sosial münaqişə nəzəriyyəsində Karl Marksın (1818-1883) əsərləri xüsusi yer tutur, onun tarixin materialist dərkini kəşf etməsi sosial münasibətlərin inkişafına yeni tərzdə baxmağa imkan verdi. K.Marksa görə, cəmiyyətdə insanlar bir-biri ilə onların iradəsindən və şüurundan asılı olmayan zəruri sosial münasibətlərə girirlər. Bu, sosial substansiyanın, cəmiyyətin formalaşmasının başlıca şərtidir.Onun inkişafı dialektik əksliklərin vəhdəti və mübarizəsi qanununa müvafiq surətdə həyata keçirilir, cəmiyyətdə onlar böyük sosial qruplar, yaxud siniflərlə təmsil olunmuşdur. Onların münasibətlərində əsas problem ehtiyatların bölüşdürülməsi sistemi ilə bağlıdır. Bütövlükdə, sinfi münaşiqəni o, müxtəlif davranış formalarını nəzəri cəhətdən təhlil etmədən nəzərdən keçirirdi. Sosial münaqişənin yaranmasında iqtisadi münasibətlərin rolunun mütləqləşməsi göstərilir. Marks belə hesab edirdi ki, hər bir münaqişə tərəfi bircə məqsəd güdür – çatışmayan ehtiyatların barəsində sərəncam verməyə can atma, lakin sosial təcrübə bunu inkar etmişdir.

**M.Veberin ümumi sosial münaqişə nəzəriyyəsi.** Sosiologiyada ümumi sosial münaqişə nəzəriyyəsi X1X əsrin sonu – XX əsrin əvvəlində yaranmağa başlanmışdır. Belə ki, **M.Veberin** (1864-1920) fikrincə, cəmiyyət status etibarilə fərqlənən qrupların məcmusudur. Buna görə də onların mənafeləri toqquşur və son nəticədə sosial münaqişələr meydana çıxır. Cəmiyyət həyatında münaqişələrin aradan qaldırılmasına olan hər hansı ümid əsassızdır. Yer üzərində adamların bir-biri ilə əbədi mübarizəsinin labüdlüyü etiraf olunmalıdır. Lakin insanların mənafeləri yalnız toqquşmayıb, həm də müəyyən dərəcədə uzlaşdığından, bu, qüvvələr balansı, sosial konsensusun əldə edilməsi üçün əsas yaradır.

Münaqişələr sosial həyatdan tamamilə aradan qaldırıla bilməz, lakin bu, onun daimi qeyri-sabitliklə xarakterizə olunduğunu ifadə etmir.

**Q.Zimmelin funksional münaqişə nəzəriyyəsi.** Alman sosioloqu Georq Zimmelin (1858-1918) əsərləri Qərb sosiologiyası tərəfindən münaqişənin öyrənilməsində nəzərəçarpan addım olmuşdur. 1908-ci ildə nəşr olunmuş «Sosiologiya» və 1918-ci ildə nəşr olunmuş «Müasir mədəniyyətin münaqişəsi» əsərlərinin müəllifi funksional münaqişə nəzəriyyəsinin banisi hesab olunur. Zimmelə görə, münaqişə universal təzahürdür; tam vahid və ahəngdar qrupp, yaxud cəmiyyət ümumiyyətlə təsəvvür oluna bilməz. Hətta onlar mövcud olsaydılar belə, özünü inkişaf etdirmə mexanizminə malik olmadan və dəyişiklikləri stimullaşdıran impulsların təsirinə məruz qalmadan onlar həyat qabiliyyətli olmazdılar.

Zimmelin münaqişənin qrupun daxili strukturuna təsiri haqqında nəticələri böyük əhəmiyyətə malikdir. Ekstremal vəziyyətlərdə, məsələn, müharibələr zamanı despotik rejimin qurulmasına qədər mərkəzləşdirmə meyli güclənir. Belə struktur yarandıqdan sonra özünü qorumağa can atır və bu məqsədlə yeni xarici münaqişələrin yaranması üçün yeni rəqib axtarmağa meyllənir.Zimmelin münaqişə nəzəriyyəsinə töhfəsi üçüncü tərəfi daxil etməsi ilə bağlıdır. Diada çərçivəsində münasibətlər yalnız düzxətli münaqişə imkanını nəzərdə tutur. «Üçüncü tərəf»in meydana çıxması ilə çoxplanlı münasibətlər, fərqlərin dərki, koalisiyaların formalaşdırılması, qrup həmrəyliyinin təşəkkülü üçün imkanlar açılır, yəni mürəkkəb sosial qarşılıqlı fəaliyyət imkanı yaranır. Məhz Zimmelin əsərlərindən sonra elmi dövriyyəyə «münaqişənin sosiologiyası» termini daxil olmuşdur.

Beləliklə, XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinə qədərki dövrdə funksional konsepsiyaya görə, münaqişə ictimai varlığın normal təzahürü, sosial münasibətlərin ayrılmaz xassəsi hesab olunurdu. Münaqişələrə ictimai prosesdə mühüm pozitiv rol ayrılırdı. Nəzərdən keçirilən konsepsiyaların ümumi cəhəti münaqişənin makrosəviyyədə (sinif, xalq, dövlət) nəzərdən keçirilməsi ilə bağlı idi.

**T.Parsonsun struktur funksionalizmi.** XX əsrin birinci yarısında sosiologiyada münaqişə problemi sistemli-funksional məktəb çərçivəsində inkişaf edirdi. Bu dövrdə mikrosəviyyədə – kiçik qruplarda və ayrı-ayrı adamlar arasında münaqişələrin yaranması və cərəyan etməsi şərtlərinin müəyyənləşdirilməsi üzrə tətbiti sosioloji araşdırmalar inkişaf etdi. Təşkilatlarda, istehsalatda münaqişəli vəziyyətlərin həllinin səmərəli metodikalarını tapmaq vəzifəsi qoyulurdu. Bu münaqişələr cəmiyyətin inkişafını ləngidən mənfi proseslər kimi qiymətləndirilirdi. Sosioloqların diqqətini tətillər, etiraz nümayişləri, qiyamlar, hərbi münaqişələr və sosial gerçəkliyin digər «anomaliyalar»ı cəlb edirdi.

Sosial münaqişənin öyrənilməsinə yanaşmada belə dəyişiklik Amerika sosioloqu Tolkott Parsons (1902-1979) tərəfindən «Sosial fəaliyyətin strukturu» əsərində əsaslandırılmışdı. T.Parsons münaqişəni ictimai həyatın sabitliyinin və mütəşəkkilliyinin pozulmasının səbəbi kimi nəzərdən keçirirdi. O, münaqişəni sosial anomaliya kimi müəyyən edərək, başlıca vəzifəni cəmiyyətin müxtəlif elementləri arasında münaqişəsiz münasibətlərin qorunmasında görürdü ki, bu da sosial tarazlığı, anlaşmanı və əməkdaşlığı təmin etmiş olardı. Sosial sistem çərçivəsində birləşdirici funksiyanı hüquq institutları, din və adətlər yerinə yetirir. İnkişaf etdikcə cəmiyyət «ümumiləşdirilmiş adaptiv qabiliyyəti»ni yüksəldir və daha az münaqişəli olur. Onun fikrincə, norma məhz münaqişəsizlik, sosial sistemin ahəngdarlığı, sosial gərginliyin olmamasıdır. T.Parsonsun konsepsiyası «həyat qabiliyyətsizliyinə» görə əsaslı tənqidə

məruz qalmış və 50-ci illərdə Qərb sosiologiyasında cəmiyyətin münaqişə modelinə qayıdış baş vermişdir.

**L.Kozerin «pozitiv-funksonal münaqişə» nəzəriyyəsi.** 1956-cı ildə Amerika sosioloqu Lyüis Kozerin «Sosial münaqişənin funksiyaları» əsərinin işıq üzü görməsi müasir Qərb münaqişə sosiologiyasının təməlini qoymuşdur. L.Kozer «pozitiv-funksional münaqişə» konsepsiyasında sosial sistemlərin dayanıqlığının təmin edilməsində münaqişələrin müsbət rolunu əsaslandırmışdı.

Kozer Veber və Zimmelin münaqişənin ümumiliyi və universallığı haqqında ideyalarını inkişaf etdirərək, göstərirdi ki, münaqişəli münasibətləri olmayan sosial qruplar mövcud deyildir və mövcud ola bilməz. Bu nəzəriyyədə münaqişə dəyərlər və sosial status, hakimiyyət və kifayət etməyən maddi və mənəvi nemətlər uğrunda mübarizə kimi nəzərdən keçirilir.Bu mübarizədə tərəflərin məqsədlərini rəqibin zərərsihləşdirilməsi, ona ziyan vurulması, yaxud onun məhvi təşkil edir. Kozerin fikrincə, sosial qruplar və ayrı-ayrı fərqlər arasında maddi sərvətlərin yenidən bölüşdürülməsi və hakimiyyət uğrunda mübarizə pozitiv funksiyaları yerinə yetirir. Birincisi, başa çatmış münaqişə iştirakçılar arasında gərgin münasibətləri sakitləşdirməklə və mənfi emosiyaları üzə çıxarmaqla münaqişə tərəfləri arasında qarşılıqlı münasibətləri saxlamağa, yəni onları ilkin vəziyyətə qaytarmağa imkan verir. İkincisi, münaqişəli qarşılıqlı fəaliyyətin gedişində insanlar bir-birlərini daha yaxşı tanıyırlar, çünki münaqişə sınaq funksiyasını yerinə yetirir. Qarşılıqlı dərketmə düşmənçilik münasibətlərinin əməkdaşlıq münasibətlərinə transformasiyasına təkan verir. L.Kozer qrupun birləşməsində xarici münaqişənin birmənalı rol oynamadığını qeyd edir. Qrup kifayət qədər mütəşəkkil olduqda və xarici təhlükə qrupun bir hissəsini deyil, bütün qrupu təhdid etdikdə və qrupun bütün üzvləri tərəfindən ümumi təhlükə kimi qavranıldıqda daxili birlik artır. Kifayət qədər mütəşəkkil olmayan qruplar üçün narazı üzvlərə münasibətdə sərtlik, daxili münaqişə təzahürlərini yatırmaq meyli səciyyəvidir. Kozer sosial münaqişənin sosial dəyişiklikləri, yeni ictimai qayda, norma və münasibətlərin meydana çıxmasını stimullaşdırmasını onun pozitiv funksiya hesab edirdi.

**R.Darendorfun «cəmiyyətin münaqişə modeli».** 50-ci illərin sonlarında alman sosioloqu ***Ralf Darendorf*** (d..1929) sosial münaqişənin «cəmiyyətin münaqişə modeli» adını almış yeni nəzəriyyəsini əsaslandırmışdır. «Sənaye cəmiyyətində siniflər və sinfi münaqişə» (1957) və «Müasir sosial münaqişə» (1988) əsərlərində K.Marksın sinfi qütbləşmə, mübarizə və sinfi münaqişənin inqilabi yolla həlli haqqında ideyalarının təsiri hiss olunur.

Darendorfun fikrincə, marksist sinfi mübarizə nəzəriyyəsi müasir kapitalizmin münaqişələrini izah edə bilmir. K.Marksdan fərqli olaraq, R.Darendorf belə hesab edirdi ki, münaqişənin başlıca mənbəyini sosial qruplar arasında iqtisadi ziddiyyətlər deyil, bir qrupun hakimiyyəti öz əlində cəmləşdirməsi və digər qrupun hakimiyyətə malik olmaması ilə bağlı olan siykasi ziddiyyətlər təşkil edir.

R.Darendorf göstərir ki, cəmiyyət hər an dəyişikliklərə məruz qala bilər, bu dəyişikliklər hər yerə nüfuz edir. Buna görə də istənilən cəmiyyət müxtəlif səviyyələrdə baş verən sosial münaqişələrlə üzləşir. İstənilən cəmiyyət rnun üzvlərinin bir hissəsinin digərini məcbur etməsinə əsaslanır. Buna görə də sinfi münaqişə hakimiyyətin xarakteri ilə müəyyən olunur. R.Darendorf sosial antaqonizmlərin dərin səbəblərinin ləğvi cəhdlərini səmərəsiz hesab edir və münaqişənin spesifik gedişatının dəyişməsinə təsir imkanını mümkün sayır. Bu, müasir cəmiyyət qarşısında inqilabi çevrilişlər deyil, təkamüli dəyişikliklər perspektivini açır.

**K.Bouldinqin ümümi münaqişəli qarşılıqlı fəaliyyət nəzəriyyəsi**. 60-cı illərin əvvəllərində Amerika sosioloqu Kennet Bouldinq münaqişə haqqında universal təlim – «ümumi münaqişəli qarşılıqlı fəaliyyət nəzəriyyəsi» yaratmağa cəhd göstərmişdir («Münaqişə və müdafiə: ümumi nəzəriyyə, 1963). Həmin nəzəriyyəyə müvafiq surətdə münaqişə canlı və cansız aləmə xas olan, sosial, fiziki, kimyəvi və bioloji mühit proseslərinin təhlili üçün təməl anlayış təşkil edən ümumi kateqoriyadır. Bütün münaqişələr ümumi funksiyalara, xassələrə və yaranma, cərəyan və həll meyllərinə malikdir. Bouldinqin fikrincə, insan təbiətində özünə bənzərlərlə daimi mübarizə, zorakılıq meyli gizlənir. Lakin münaqişələr aradan qaldırılmalı, məhdudlaşdırılmalıdır.

Nəzəriyyədə münaqişənin iki modeli – statik və dinamik modellər nəzərdən keçirilir. Statik modeldə Bouldinq «münaqişə tərəfləri»ni və onların arasında münasibətlər sistemini təhlil edir. Bu münasibətlər rəqabət prinsipi üzərində qurulur.

Dinamik modeldə Bouldinq tərəflərin mənafelərini insanların münaqişəli davranışında sövqedici qüvvə kimi nəzərdən keçirir. O, biheviorizm ideyalarından istifadə edərək, münaqişənin dinamikasını əks tərəflərin xarici stimullara reaksiyalarından əmələ gələn proses kimi müəyyən edir. Buna görə də ictimai münaqişələr «reaktiv proseslər» kimi çıxış edir.

Beləliklə, Qərb sosiologiyasında münaqişənin öyrənilməsi tarixində üç mərhələ fərqləndirilir: XIX əsrin ikinci yarısı; XX əsrin birinci yarısı və XX əsrin ikinci yarısı. Birinci mərhələdə münaqişənin əsas tədqiqi sosial-darvinizm və marksizm nəzəriyyəsi məcrasında getmişdir.XX əsrin birinci yarısında G.Zimmnelin funksional münaqişə nəzəriyyəsi və T.Parsonsun struktur funksionalizmi ən fəal surətdə işlənilmişdir. Son

onilliklərdə əsas sosioloji tədqiqatlar L.Kozerin pozitiv-funksional münaqişə nəzəriyyəsi, R.Darendorfun münaqişəli cəmiyyət modeli və K.Bouldinqin ümumi münaqişəli qarşılıqlı fəaliyyət nəzəriyyəsi kimi istiqamətlər çərçivəsində aparılmışdır.

## 2.3. Münaqişənin sosioloji nəzəriyyələri

Münaqişə konsepsiyalarının artıq klassik xarakter kəsb etdiyi psixologiya və sosiologiyadan fərqli olaraq, politologiyada sırf konfliktoloji nəzəriyyələri fərqləndirmək çətindir. Bir qayda olaraq, münaqişə problemi daha geniş nəzəriyyəyə daxil edilir. Bütövlükdə isə münaqişələrin politoloqlar tərəfindən tədqiqinin üç istiqaməti fərqləndirilir: siyasi strukturlar (qruplar) nəzəriyyələri; siyasi sabitlik nəzəriyyələri; etnosiyasi nəzəriyyələr.

**Siyasi qruplar nəzəriyyələri.** Elita nəzəriyyəsinin yaradıcısı olan italyan tədqiqatçısı ***Vilfredo Pareto*** (1848-1923) belə hesab edirdi ki, insanların sosial davranışı ağıldan və psixikanın irrasional səviyyələrindən asılıdır. İnsanlar biopsixoloji keyfiyyətlərinə görə fərqləndikləri kimi, cəmiyyət də sosial cəhətdən yekcins deyildir.

Sosial dəyişkənlik cəmiyyətin idarə olunan fərdlər kütləsinə və elita adı az saylı idarəçilərə bölünməsini ifadə edir.

Elitalar arasında mübarizə və onların əvəzlənməsi istənilən cəmiyyətin mahiyyətini təşkil edir. Hakim elita deqradasiyaya uğradıqda və aşağı siniflərdən müvafiq keyfiyyətlərə malik yeni üzvlərin cəlb edilməsi yolu ilə buna qarşı çıxmağa cəhd göstərmədikdə inqilab şəklində sosial münaqişə yaranır. Onun bütün mənası hakim yuarı təbəqənin – cəmiyyətin elitasının fərdi tərkibinin yeniləşdirilməsindən ibarətdir. İnqilablardan başqa, elitaların daimi dövranı prosesini təmin edən digər sosial münaqişələr də mümkündür.

Politologiyanın yaradıcılarından biri olan «Siyasət elminin elementləri»nin (1896) müəllifi **Qaetano Moska** (1858-1941) cəmiyyətin iki sinfə: dövlət funksiyalarını öz üzərinə götürən və imtiyazlardan istifadə edən hakim «siyasi sinfə» və qeyri-mütəşəkkil çoxluğu təmsil edən idarə olunanlar sinfinə bölgüsünü vacib sayırdı. Real hakimiyyət həmişə siyasi sinfin əlindədir. Cəmiyyətdə həmişə köhnə hakim azlığı əvəz etməyə hazır olan qüvvələr mövcuddur. Əvəzetmə sosial münaqişələr şəklində baş verir.

Fransız sosial mütəfəkkiri ***Jorj Sorel*** (1847-1922) özünün «Zorakılıq haqqında düşüncələr» (1907) adlı əsas əsərində tarixdə cəmiyyətin rasionalist təfsirini, sosial tərəqqi ideyasınıi inkar edirdi. Sorel kütlələrin kortəbii, irrasional hərəkətini mütəşəkkil siyasi mübarizəyə, (tarixin ali yaradıcı başlanğıcı kimi) zorakılığı isə (avtoritar dövlətçiliyin ifadəsi kimi) gücə qarşı qoyurdu. Yalnız zorakılığın və sosial

münaqişələrin (inqilabların, ümuimi tətillərin) köməyi ilə fəhlə sinfi öz niyyətlərini reallaşdıra bilər.

Alman tədqiqatçısı ***Frans Oppenheymer*** (1864-1943) dövlət tarixini öyrənərkən, belə bir nəticəyə gəlmişdi ki, dövlətçiliyin yaranması iqtisadi səbəblərlə deyil, hüquqi səbəblərlə şərtlənir. Cəmiyyətin bir hissəsi zorakılıq yolu ilə hakimiyyəti ələ keçirərək, bütün qalanları tabeçilikdə saxlamaq üçün hüquqi təsisatı – dövləti təsis edir. Cəmiyyətin təkamülünün gedişində zorakılığın forması dəyişsə də, dövlətin mahiyyəti dəyişməz qalır. Amerika politoloqu Artur Bentlinin konsepsiyasının mərkəzi bəndini siyasi qrup təşkil edir. Siyasi qrupun fəaliyyəti ona öz mənafelərini reallaşdırmağa imkan verir.

Lakin cəmiyyətdə bir çox digər siyasi qruplar: partiyalar, hərəkatlar, birliklər fəaliyyət göstərir ki, bu da onların mənafelərinin kəsişməsinə gətirib çıxarır. Siyasi qrupp öz mənafelərini reallaşdırmaq üçün güc tətbiq edə bilər. Güc fiziki məcburetmədən daha çox təzyiq, təhdid, nümayişləri, siyasi mübahisələri və s. ehtiva edir. Onların çevik tətbiqi sayəsində siyasi qruplar tərəfindən cəmiyyətin siyasi həyatı reallaşır.

**Siyasi sabitlik nəzəriyyələri.** Bu istiqamətə mənsub konsepsiyalar XX əsrin 60-cı illərinin əvvəllərində meydana çıxmışdır. Onlarda əsas diqqət müasir cəmiyyətdə münaqişələrə yol verilməməsi amillərinin öyrənilməsinə yetirilir. Belə ki, C.Blondel ənənəvi dixotomiyadan (demokratiya-diktatura) fərqli olaraq, siyasi sistemin üçölçülü quruluşunu təklif etmişdir. Onun fikrincə, totalitar-demokratik ölçüdən başqa, hökumətin yeritdiyi mövcud vəziyyətin dəyişdirilməsi, yaxud saxlanması siyasətinin istiqamətini müəyyənləşdirən «radikal mühafizəkar oxu», habelə hökumətin özünün siyasi məqsədlərini həyata keçirməsinə kömək göstərən vasitələri (razılıq, yaxud məcburetmə) qiymətləndirən «liberal-avtoritar oxu» nəzərə almaq zəruridir.

1965-ci ildə Amerika politoloqu ***D.İston*** «Siyasi həyatın sistemli analizi» əsərində sabitliyin mühafizəkar modelini təklif etmişdir. Onun fikrincə, siyasi sistemin saxlanması obyektlərini siyasi hakimiyyət, yəni siyasətin müəyyən edilməsində iştirak edən aparıcı şəxslər – hökumət; rejim, yəni sistem daxilində münaqişələrin həlli üçün tətbiq olunan hüquqi və qeyri-rəsmi qaydalar məcmusu; siyasi birlik, yəni bir-biri ilə siyasi əmək bölgüsü ilə bağlanan sistem üzvlərinin məcmusu təşkil edir.

Amerika sosioloqu ***S.Lipset*** (d.1922) «Siyasi şəxsiyyət» kitabında (1963-cü il) açıqlanmış demokratik sabitlik konsepsiyasını təklif etmişdir. Lipsetə görə, «siyasi demokratiyanın fasiləsiz surətdə davam etdirilməsi təcrübəsinə malik və demokratik oyun qaydalarına müxalif əhəmiyyətli siyasi hərəkatların mövcud olmadığı» sistemlər

sabit olur. Demokratik sabitlik səhiyyənin, sənayeləşdirmənin, təhsilin və cəmiyyətin urbanizasiyasının müəyyən səviyyəsi ilə təmin olunur.

Cəmiyyətin lazımi sosial-iqtisadi inkişaf səviyyəsinə çatmaması demokratiyanın, deməli, həm də sabitliyin mövcud olmaması kimi qiymətləndirilir. Sabitlik və qeyri-sabitlik vəziyyətləri statikdir və bir-biri ilə alternativ təşkil edir.

**D.Sandersin** işləyib hazırladığı «daxili münaqişəli davranış» nəzəriyyəsində sabitliyi pozan bütün hadisələr ölkədən-ölkəyə və dövrdən-dövrə fərqlənən spesifik «normallıq» sistemindən kənaraçıxmalar kimi nəzərdən keçirilir. Sanders belə hadisələr dedikdə rejimdə, hakimiyyətdə və birlikdə baş verən dəyişiklikləri, siyasi sistemə dinc və zorakı çağırışları, yəni daxili münaqişəli davranışın müxtəlif formalarını başa düşür.Kənaraçıxmanın münaqişələrə gətirib çıxardığı normallıq kateqoriyası cəmiyyətdə həmin dövrdə hakim olan sosial dəyərlərdə ifadə olunmuş kütlə şüuru səviyyəsi ilə bağlıdır.

**Etnosiyasi nəzəriyyələr.** Bu konsepsiyalar 70-ci illərin ikinci yarısında meydana çıxmışdır. Vaşinqton universitetinin professoru M.Hekterin 1975-ci ildə təklif etdiyi daxili müstəmləkəçilik konsepsiyası şöhrət qazanmışdır. O, sosial-iqtisadi inkişafın qeyri-bərabərliyi problemlərini dövlət əhalisinin etnik fərqləri ilə bağlayır. Çoxmillətli dövlətin modernləşdirilməsi prosesində mərkəzi hökumətlə etnik əyalət qrupları arasında siyasi münaqişə vacibdir. Etnomilli qrupların sosial-iqtisadi inkişafındakı fərqlərin güclənməsi onların qeyri-bərabər modernləşdirilməsi ilə izah olunur. Əmələ gəlmiş iqtisadi bərabərsizlik etnomilli həmrəyliyin, sonradan isə etnomillətçiliyin meydana çıxmasına səbəb olur.

Şotlandiya Beynəlxalq İnstitutunun direktoru T.Neyrnin «qeyri-bərabər inkişaf» nəzəriyyəsi bu konsepsiyaya yaxındır. Onun fikrincə, etnomilli münanqişə inkişaf etmiş mərkəzin nümunələrinin ölkənin daha az inkişaf etmiş rayonlarına qəbul etdirilməsinin nəticəsidir(40). T.Neyrn belə hesab edir ki, «kapitalizm yayılaraq onunla təmasa girən qədim cəmiyyətləri özünə tabe etdikcə həmin cəmiyyətlər özlərinin daxilinldəki «ayrılma xətləri» boyunca ayrı-ayrı hissələrə bölünürdü».

Bu xətlər həmişə etniklik xətti olmuşdur, lakin bəzən eyni funksiyanı dərin dini fərqlər də yerinə yetirə bilərdi.

Etnomilli münaqişələrin genezisində siyasi amillərin üstün mövqeyi Kolumbiya universitetinin professoru C.Rotşildin etnosiyasi konsepsiysında təmsil olunmuşdur. O, «Etnopolitika» (1981) əsərində qeyd edir ki, modernləşdirmənin gedişində milli azlıq liderlərinin siyasiləşməsi, deməli, bütün sosial qrupun siyasiləşməsi baş verir. Bu prosesin başlanmasının sövqedici amilini etnospesifik əlamətlərin saxlanmasından narahatlıq və onların daşıyıcılarını mütəşəkkil qrupda səfərbər etmək niyyəti təşkil

edir. Konsolidasiyanın davamı uçün «qrupun etnik əlamətlərin daşıyıcılarını fəal birlikdə səfərbər etməyə qabil və maraqlı olan elitası», habelə «böyük» birlik çərçivəsində ehtiyatların məhdudluğu ilə əlaqədar rəqabət zəruridir. İkinci şərtin variantlarından birini etnomilli əsasda mərkəz-əyalət münaqişəsi təşkil edə bilər.

Beləliklə, münaqişənin politoloji tədqiqatları siyasi qruplar nəzəriyyələri, siyasi sabitlik nəzəriyyələri və etnosiyasi nəzəriyyələr istiqamətləri ilə bağlıdır. Siyasi qruplar nəzəriyyələri V.Pareto və Q.Moska (elita nəzəriyyəsi), J.Sorel, F.Oppenheymer, A.Bentli və b. kimi alimlərin konsepsiyaları ilə təmsil olunmuşdur. Siyasi sabitlik nəzəriyyələri sırasında C.Blondel, D.İston, S.Lipset və D.Sandersin konsepsiyaları fərqləndirilir. Etnosiyasi nəzəriyyələr daxili müstəmləkəçilik nəzəriyyəsini (İ.Hekter), qeyri-bərabər inkişaf nəzəriyyəsini (T.Neyrn) və C.Rotşildin etnosiyasi konsepsiyasını ehtiva edir.

## § 3. Konfliktologiyanın nəzəri əsasları

### 3.1. Münaqişələrin öyrənilməsinə sistemli yanaşma

**Sistemli yanaşma** elmi idrak metodologiyasının və sosial təcrübənin əsasında obyektlərin sistemlər kimi nəzərdən keçirilməsi duran istiqamətidir. O, konfliktoloqu münaqişənin təzahür kimi bütövlüyünün açıqlanmasına, onda bütün əsas rəngarəng əlaqə tiplərinin axtarışına və onların real münaqişələri maksimum hərtərəfli və dərindən əks etdirən vahid nəzəri mənzərədə birləşdirilməsinə istiqamətləndirir.

Sistemli yanaşma tarixən XVII-XIX əsrlərdə geniş yayılan mexanisizm konsepsiyalarını əvəz etmişdir. O, mürəkkəb, çoxsəviyyəli, iyerarxik, inkişaf etməkdə olan obyektlərin tədqiqi mənafeyi baxımından işlənib hazırlanmışdır. Belə obyektləri yalnız inkişaf, ümumi əlaqə, konkret-tarixi yanaşma və s. prinsiplərinə istinad edərək öyrənmək çətindir. Münaqişə tədqiqində sistemli yanaşmadan, yaxud heç olmasa, onun elementlərindən istifadə edilməsi arzuolunan təzahürlər sinfinə aiddir.

Sistemli yanaşma prinsipi aşağıdakıları nəzərdə tutur:

-öyrənilən təzahürün sistem kimi, qarşılıqlı fəaliyyətdə olan elementlərin fərqləndirilmiş çoxluğu kimi nəzərdən keçirilməsi;

-sistemin elementlərinin və hissələrinin tərkibinin, strukturunun, təşkilinin müəyyən edilməsi, onların arasındakı aparıcı qarşılıqlı fəaliyyətin aşkara çıxarılması;

-sistemin xarici əlaqələrinin aşkara çıxarılması, başlıca əlaqələrin fərqləndirilməsi;

-sistemin funksiyasının, digər sistemlər sırasında onun yerinin və rolunun müəyyən edilməsi;

-sistemin inkişaf qanunauyğunluqlarının və meyllərinin aşkara çıxarılması.

Sistemli yanaşma ümumi sistemlər nəzəriyyəsi ilə yanaşı, sistemli analizin metodoloji və nəzəri əsaslarını təşkil edir. Münaqişələrin tədqiqində sistemli analizin bütün əsas növləri məqsədəuyğundur: sistemli-struktur, sistemli-funksional, sistemli-genetik və sistemli-informasiya.

**Münaqişənin sistemli-struktur analizi**, birincisi, onun yarımstrukturlara bölünməyəən elementlərdən ibarət yarımstrukturlar sistemindən ibarət tam kimi nəzərdən keçirilməsindən ibarətdir. İkincisi, istənilən münaqişə yarımsistem qismində daha yüksək səviyyəli sistemə daxildir. Sistemli struktur analiz aşağıdakı mərhələləri ehtiva edir:

-tam kimi münaqişənin məkan-zaman və məzmun sərhədlərinin müəyyən edilməsi;

-münaqişənin strukturunu təşkil edən mümkün qədər çox sayda yarımstruktur və elementlərin aşkara çıxarılması;

-elementlərin əsaslandırılmış sayda yarımstrukturda qruplaşdırılması;

-yarımstruktur və elementlərin aşağı səviyyələrin yuxarı səviyyələrə tabe olduğu iyerarxiyasının müəyyən edilməsi;

-yarımsistemi tədqiq olunan münaqişədən ibarət sistemdə bütün əsas yarımstrukturların və daha yüksək səviyyəli sistemin strukturunda münaqişənin yerinin aşkara çıxarılması.

**Münaqişənin sistemli-funksional analizi**, birincisi, münaqişənin inkişaf etdiyi xarici mühitlə büiün əsas qarşılıqlı əlaqələrinin müəyyən edilməsindən, ikincisi,münaqişənin yarımstrukturlarının bəzi elementlərinin digər elementlərə təsirinin xarakterinin və üsullarının aşkara çıxarılmasından ibarətdir.

**Münaqişənin sistemli-genetik analizi** münaqişələrin təkamülünün, inkişafının və dinamikasının hərəkətverici qüvvələrinin tədqiqinə yönəlmişdir. O, münaqişələrin makro- və mikromühit amilləri ilə şərtlənməsinin, münaqişə iştirakçılarının subyektiv aləmindən asılılığının açıqlanmasından, münaqişələri doğuran səbəblərin iyerarxiyasının müəyyən edilməsindən ibarətdir.

**Münaqişənin sistemli-informasiya analizi** münaqişələrin təşəkkülündə, inkişafında və başa çatmasında informasiyanın rolunun və funksiyalarının aşkara çıxarılmasından ibartədir. O, münaqişənin əsas yarımstrukturları arasında informasiya mübadiləsinin qanunauyğunluqlarının, opponentlərin və digər münaqişə iştirakçılarının psixikasındakı dərketmə proseslərinin dinamikasının, subyektlərin münaqişə

vəziyyətinin tam və obyektiv informasiya modellərinə təsir göstərən əsas amilərin təhlilindən ibarətdir.

Sistemli analizin dörd əsas növü əsasında nəzəri-tətbiqi əhəmiyyətə malik üç əlavə növ fərqləndirilir.

**Münaqişənin sistemli-situasiya analizi** münaqişələrin empirik tədqiqinin perspektivli elmi metodlarından biridir. Sistemli-situasiya analizində münaqişə sadəcə öz elementlərinin cəmindən ibarət olmayan, elementin xassələrinin onun strukturdakı yeri ilə müəyyən olunduğu sosial cəhətdən şərtlənən və dinamik sistem kimi nəzərdən keçirilir. Münaqişənin sistemli—situasiya analizinin vahidi qismində müəyyən məzmun və dinamika xarakteristikalarına, zaman və məkan sərhədlərinə malik münaqişə vəziyyətindən istifadə olunur. Retrospektiv analizin köməyi ilə münaqişə vəziyyətləri «bankı» yaradılır. O, riyazi statistika metodlarını tətbiq etməklə, münaqişənin inkişafının ümumiləşdirmələrə və tövsiyələrə əsas verən bir sıra asılılıq, meyl və inkişaf qanunauyğunluqlarını aşkara çıxarmağa imkan verir.

**Fənlərarası analiz** münaqişənin sistemli analizinin mühüm növlərindən birini təşkil edir. Onun zəruriliyi tədqiqi ilə on bir elmin məşğul olduğu təzahür kimi münaqişənin unikallığı ilə şərtlənir. Fənlərarası analiz bir elm çərçivəsində münaqişəni öyrənərkən konfliktoloqun qalan on konfliktoloji elmdə alınmış biliklərdən maksimum tam istifadə etməsini tələb edir.

## 3.2. Münaqişələrin təsnifatının əsas növləri

Münaqişənin mühüm əlamətlərindən birini onda iştirak edən tərəflərin xarakteri və xüsusiyyətləri təşkil edir. Münaqişənin xarakteristikası həlledici surətdə münaqişə tərəflərinin kiminlə təmsil olunmasından asılıdır.

Konfliktologiyanın əsas obyektini sosial münaqişələrin altı növü təşkil edir. Şəxsiyyətlərarası münaqişələr iki adamın mənafelərinin toqquşmasından ibarətdir. Şöbə rəisi özünü tabeçiliyində olan bir qrup işçiyə qarşı qoyduqda bu, «şəxsiyyət-qrup» tipli münaqişə olacaqdır. Orta məktəbin şagird kollektivində direktorun tərəfdarları və əleyhdarları arasında mübarizə kiçik qruplar arasında mübarizədir. Orta sosial qruplar kəmiyyət tərkibi etibarilə kiçik və böyük qruplar arasında aralıq mövqe tutur. Münaqişə iştirakçılarının sayı bir neçə yüz adamdan artıq olduqda bu, böyük sosial qruplar arasında münaqişədir.

Dövlətlərarası münaqişələr iki dövlət, yaxud dövlətlərin koalisiyaları arasında mübarizədən ibarətdir. Dövlətlə dövlətlər qrupu arasında da münaqişə yarana bilər.

Bundan başqa, dövlətlərin koalisiyaları bir neçə iştirakçıdan çoxlu sayda iştirakçıya qədər dövlətləri əhatə edə bilər. Bu, beynəlxalq münaqişənin xarakterinə təsir göstərir.

Münaqişənin ən mühüm xüsusiyyətini insanın təmin edilməsi uğrunda mübarizə apardığı tələbatının xarakteri təşkil edir. A.Maslounun nəzəriyyəsinə görə, tələbatları beş iyerarxik əlaqəli səviyyəni fərqləndirməklə qruplaşdırmaq olar. Onlara aşağıdakı tələbatlar aiddir:

1) fizioloji;
2) təhlükəsizlik və müdafiə;
3) sosial;
4) ehtiram;
5) özünüifadə.

Bu tələbatlardan hər hansı birinin təmin edilməməsi halında insan münaqişəyə gedə bilər. Nəticədə münaqişələrin beş tipini fərqləndirmək olar.

Ziddiyyətin tipindən asılı olaraq, münaqişələri antaqonist ziddiyyətin nəticəsi kimi və qeyri-antaqonist ziddiyyətin nəticəsi kimi yaranmış münaqişələrə ayırmaq olar.

Münaqişənin mühüm xarakteristikasını onda iştirak edən tərəflərin qarşıdurmasının kəskinliyi təşkil edir. Qərb konfliktologiyasında bu xarakteristika münaqişənin intensivliyi adlandırılır. Bu əsas üzrə aşağı, orta və yüksək intensivliyə malik münaqişələr fərqləndirilir. Aşağı intensivliyə malik münaqişə opponentlər arasında mübahisə formasında cərəyan edir. Ən yüksək intensivliyə malik münaqişə tərəflərdən birinin fiziki məhvi ilə başa çatır.

Münaqişələrin baş verdiyi insan fəaliyyəti sahələrindən asılı olaraq, onlar sosial, siyasi, millətlərarası, dövlətlərarası və s. münaqişələrə ayrılır.

### 3.3.Münaqişədə davranış strategiyası

Həm biznesdə, həm də danışıqlar sahəsində ən məşhur və geniş istifadə olunan konsepsiyalardan biri münaqişəli vəziyyətdə insan davranışının beş əsas strategiyasının fərqləndirildiyi Tomas-Killmen konsepsiyasıdır.

Həmin davranış sitrategiyalarının fərqləndiriməsi üçün əsas qismində öz mənafelərinin təmin edilməsində əzmkarlıq dərəcəsi (Y oxu) ilə digərinin mənafelərinin təmin edilməsində ona güzəştə getməyə hazırlıq dərəcəsi (X oxu) arasında nisbətin dinamikası çıxış edir.

1.Oxların başlanğıcında heç kimin mənafelərinin təmin edilmədiyi sıfır nöqtəsi yerləşir. Bu nöqtə yayınma, yaxud qaçma strategiyasına uyğun gəlir. Bu strategiya onu

ifadə edir ki, insan münaqişəli vəziyyətə məhəl qoymur, özünü münaqişə olmamış kimi aparır və onun həlli, yaxud dəyişdirilməsi üçün heç bir tədbir görmür.

Bəzi hallarda məhz belə strategiya optimaldır. Onlara bizim üçün xüsusi əhəmiyyət kəsb etməyən və həlli üçün güc və maddi ehtiyat sərfinə ehtiyac olmayan vəziyyətlər aid edilməlidir.

Bəzən «baş qoşmamaq» daha yaxşıdır, çünki nəyisə yaxşılaşdırsmaq imkanımız sıfra yaxındır.

Digər tərəfdən, çox vaxt qarışmama münaqişənin kəskinləşməsinə gətirib çıxara bilər, çünki problem həllini tapmır və münaqişə iştirakçılarının mənafeləri təmin olunmur. Nəticədə əvvəlcə həlli mümkün olan vəziyyət bəzən həlledilməz olur.

2. Şaquli ox tərəfdaşın mənafelərini nəzərə almadan yalnız öz mənafeyini təmin etmək niyyətini ifadə edir. Bu ox üzrə nöqtə nə qədər yüksəkdə yerləşmişdirsə, o, öz mənafelərinin maksimum təmin edilməsi niyyətində bir o qədər yüksək əzmkarlığa uyğun gəlir. Bu davranış xəttini rəqabət strategiyası adlandıraq.

Rəqabət zəruri nəticəyə nail olmağa imkan verir, inkişafı stimullaşdırır, tərəqqiyə təkan verir. Bir sıra vəziyyətlərdə rəqabətin mövcudluğu onların hərəkətverici qüvvəsinə və mahiyyətinə çevrilir, məsələn, idman yarışları, incəsənət yarışmaları, bir sıra işədüzəlmə halları, müsabiqə üzrə tədris müəssisəsinə qəbul və s.

Eyni zamanda, rəqabət bütün gücün sərfini tələb edir ki, bu da gücün tükənməsinə, xəstəliyə gətirib çıxara bilər. Bir qayda olaraq, rəqabət insanlar arasında münasibətləri pozur, özü də bu, yalnız bilavasitə rəqiblərə aid olmur. Çox vaxt insanın şəxsi münasibətlərə qüvvəsi çatmır. Qüvvələr nisbəti dəyişdikdə keçmiş məğlublar əvvəlki qalibi «məhv etməyə» çalışacaqdır. Rəqabət vicdansız və amansız metodların tətbiqinə qədər nəyin bahasına olursa-olsun qalib gəlmək istəyi doğurur.

Danışıqların güclü mövqeyə malik bacarıqlı iştirakçıları opponentlərinə qarşı gücəşt göstərməyə meylli olurlar. Digər tərəfdən, gücə malik insanlar öz imkanlarını şişirtməyə meylli olur və tərəfdaşın mövqeyinin gücünün dəyişməsinə kifayət qədər sürətlə reaksiya vermirlər. Çox vaxi rəqabət avtomatik surətdə, ətraflı düşünülmədən, sadəcə əlverişsiz təsirə emosional reaksiya kimi seçilir.

3. Opponentə güzəştə meylin artması istiqamətinə yönəlmiş üfüqi ox opponentin tələbləri qarşısında təslim olmağa qədər ona uyğunlaşma strategiyasını nümayiş etdirir. X nöqtəsinin koordinatları nə qədər böyük rəqəmlə ifadə olunursa, tərəfdaşın tələblərinə güzəştə getmək meyli bir o qədər güclü şəkildə təzahür edir.

Güzəştlər xoş məramı nümayiş etdirə və opponent üçün müsbət davranış modeli kimi çıxış edə bilər. Çox vaxt güzəşt gərgin vəziyyətdə dönüş anı olaraq, onun gedişatını yaxşılığa doğru dəyişə bilər. Bu strategiya daha əlverişli məqama qədər

ehtiyatları qoruyub saxlamağa imkan verir.Qüvvələr nisbəti əks tərəfin xeyrinə dəyişdikdə təslim olmaq ən yaxşı çıxış yoluna çevrilə bilər. Bəzən biz opponentin haqlı olduğunu etiraf etdiyimiz üçün güzəştə gedirik.

Lakin güzəşt pis nəticə də verə bilər. O, opponent tərəfindən zəifliyin təzahürü kimi qiymətləndirilə və onun təzyiq və tələblərinin sərtləşməsinə gətirib çıxara bilər. Biz opponent tərəfindən cavab güzəştləri gözləyərkən yanıla bilərik. Son nəticədə güzəştə getməklə biz nəticə əldə etməyə və öz mənafelərimizi təmin etməyə bilərik.

4. Oxlar arasındakı məkanın mərkəzi hissəsində çoxlu mümkün kompromis nöqtələri yerləşir. Hər bir tərəfin mənafelərinin yarıbayarı təmin olunmasını ideal kompromis hesab etmək olar. Bəzən kompromiss problemin həllinin yeganə mümkün və ən yaxşı dinct variantına çevrilir. Hər bir tərəf müharibəni davam etdirərək hər şeyi itirməyin əvəzinə onu qane edən nəsə qazanır.  Lakin çox vaxt kompromiss yalnız müvəqqəti çıxış yoludur, çünki tərəflərin heç biri öz mənafelərini tam təmin edə bilmir və münaqişə üçün əsas qalır. Kompromis hər iki tərəf üçün bərabər olmadıqda, bir tərəfin digərinə nisbətin daha çox güzəştə getməsi halında isə  münaqişənin yenidən başlanması riski daha yüksək olur.

5. Nəhayət, münaqişəli vəziyyətdə daha bir davranış strategiyası eyni vaxtda yüksək rəqəmlə ifadə olunan X və V koordinat nöqtələri ilə ifadə olunur.

Bu, əməkdaşlıq strategiyasıdır. O, həm öz mənafelərinin, həm də tərəfdaşın mənafelərinin maksimum mümkün olduğu qədər təmin edilməsinə nail olmaq istəyi ilə fərqlənir. Çox vaxt adamlar bu variantı arzuolunan, lakin konkret münaqişə vəziyyətində qeyri-real hesab edirlər. Lakin bir çox hallarda vəziyyət yalnız ona görə çıxılmaz görünür ki, opponentlərin hər biri digərinin tələbləri ilə ziddiyyət təşkil edən tələblər irəli sürür və öz mənafelərini təmin etməyin başqa variantını axtarmır. Kompromisdən fərqli olaraq, əməkdaşlıq üçün öz mövqelərinin müdafiəsindən mənafelərinə uzlaşdırılmasının və ümumiliyinin aşkara çıxdığı daha dərin səviyyəyə keçid zəruridir.

Əməkdaşlıq problemin həllinin möhkəmliyi, onuni gedişində münasibətlərin tərəfdaşlıq xarakteri ilə cəlbedicidir. Bu, münaqişədən çıxmağın yeganə üsuludur ki, eyni zamanda istənilən nəticəyə nail olmağa və tərəfdaşlar arasında münasibətləri pozmamağa imkan verir. Uğurlu əməkdaşlıq münasibətlərin yaxşılaşmasına və gələcəkdə qarşılıqlı fəaliyyəti davam etdirmək istəyinə təkan verir.

«Əməkdaşlıq» sözünün özü «əmək» kökündəndir. Bu, əməkdaşlığın həyata keçirilməsi üçün intellektual, emosional və digər səylərin tətbiqinə olan real zərurəti əks etdirir. Çox vaxt bu strategiya həm də onun uğurla həyata keçirilməsi üçün vaxt tələb edir.

Eyni zamanda, əməkdaşlıq həmişə mümkün olmur. Onun üçün problemi birgə, bütün tərəflərin həqiqi mənafeləri nəzərə alınmaqla həll etməyə qarşılıqlı istək zəruridir.

Yuxarıda sadalanan strategiyaların heç birini birmənalı şəkildə «yaxşı», yaxud «pis» adlandırmaq olmaz. Onların hər biri optimal ola və münaqişənin yarandığı və inkişaf etdiyi konkret şəraitdən asılı olaraq ən yaxşı nəticəni təmin edəbilər. Eyni zamanda, məhz əməkdaşlıq insanlar arasında konstruktiv uzunmüddətli qarşılıqlı fəaliyyət haqqında təsəvvürlərə daha çox uyğundur.

Bütün münaqişə tərəflərinin mənafelərinin təmin edilməsi ona gətirib çıxarır ki, bu münaqişə üçün zəmini aradan qalxır və münaqişədən sonra vəziyyətin mürəkkəbləşməsi riski minimuma endirilir.

Münaqişəli davranış münaqişə iştirakçılarının əks istiqamətli hərəkətlərindən ibarətdir. Bu hərəkətlərlə opponentlərin fikri, emosional və iradəvi sahələrində xarici təsirdən gizli proseslər realizə olunur. Hər bir tərəfin mənafelərinin realizəsinə yönəlmiş qarşılıqlı reaksiyaların əvəzlənməsi və opponentin mənafelərinin məhdudlaşdırılması münaqişənin görünən sosial reallığını təşkil edir. Opponentlərin hərəkətləri daha çox bir-birinə təsir göstərdiyindən, dijər tərəfin əvvəlki hərəkətlərindən irəli gəldiyindən, yəni bir-birini qarşılıqlı surətdə şərtləndirdirdiyindən, istənilən münaqişədə onlar qarşılıqlı fəaliyyət xarakteri kəsb edir.

Münaqişəli davranış öz prinsiplərinə, strategiyalarına (üsullarına) və taktikalarına (fəndlərinə) malikdir. Münaqişəli qarşıdurmanın əsas prinsipləri sırasında qüvvələrin cəmləşdirilməsi, qüvvələrin əlaqələndirilməsi, rəqibin mövqeyindəki ən zəif nöqtəyə zərbə endirilməsi, gücə və vaxta qənaət və s. fərqləndirilir.

### 3.4.Münaqişənin dinamikası

Hər bir sosial təzahür kimi, münaqişə zaman çərçivəsində cərəyan edən proses kimi nəzərdən keçirilə bilər. Münaqişə müəyyən dövrlərə və mərhələlərə malikdir, onların gedişində münaqişə yaranır, inkişaf edir və başa çatır. Münaqişənin dinamikası daxili mexanizmlərin və xarici amillərin təsirii altında münaqişənin inkişafının, dəyişməsinin gedişini təmsil edir.

Münaqişənin inkişaf mərhələlərini nəzərdən keçirməzdən əvvəl onun vaxt sərhədlərini – başlanğıcını və sonunu müəyyən etmək zəruridir. Bu, onun

«münaqişəyəbənzər» təzahürlərdən fərqlərinin anlaşılması və münaqişəyə idarəedici təsirin məqsədyönlü strategiyalarının işlənib hazırlanması üçün vacibdir.

**Münaqişənin başlanması.** Tərəflərin ilk qarşıdurma aktları şəklində təsbit oluna bilər. Münaqişənin başlanmış hesab olunması üçün üç şərtin üst-üstə düşməsi tələb olunur:

-birinci iştirakçı şüurlu və fəal şəkildə digər iştirakçının zərərinə fəaliyyət göstərir (fəaliyyət dedikdə həm fiziki hərəkətlər, həm də informasiya öğürülməsi başa düşülür);

-ikinci iştirakçı (rəqib) həmin hərəkətlərin onun mənafelərinə qarşı yönəldiyini dərk edir;

-bununla əlaqədar rəqib birinci iştirakçıya qarşı cavab hərəkətlərini həyata keçirir.

Qarşılıqlı fəaliyyətdə olan tərəflərin biri təcavüzkar hərəkətlər törətdikdə, ikinci tərəf isə passiv mövqe tutduqda münaqişəbaş vermir. Tərəflərin biri münaqişəli qarşılıqlı fəaliyyət barədə düşündükdə, yəni davranış hərəkətləri deyil, fikri hərəkətlər həyata keçirdikdə münaqişə mövcud olmur.

**Münaqişənin sonu.** Müxtəlif forma və nəticələrə malik ola bilər. Lakin istənilən halda söhbət bir-birinə qarşı yönəlmiş hərəkətlərin başa çatmasından gedir. Münaqişənin dinamikasında aşağıdakı dövr və mərhələləri fərqləndirmək olar (şəkil 5).

**Latent dövr (münaqişə ərəfəsi).** Aşağıdakı mərhələləri ehtiva edir: problemli vəziyyətin yaranması; qarşılıqlı fəaliyyət subyektlərinin obyektiv problemli vəziyyəti dərk etməsi; tərəflərin obyektiv problemli vəziyyəti qeyri-münaqişə üsulları ilə həll etmək cəhdləri; münaqişəqabağı vəziyyətin yaranması.

**Obyektiv problemli vəziyyətin yaranması.** Yalançı münaqişənin yarandığı halları hesaba almasaq, adətən, münaqişə obyektiv problemli vəziyyətlə şərtlənir. Belə vəziyyətin mahiyyəti subyektlər (onların məqsədləri, motivləri, hərəkətləri, niyyətləri və s.) arasında ziddiyyətin yaranmasından ibarətdir. Ziddiyyət hələ dərk olunmadığından və münaqişə hərəkətləri mövcud olmadığından, bu, problemli vəziyyət adlandırılır. O, əsasən, obyektiv səbəblərin təsirinin nəticəsi kimi çıxış edir.

Hər gün istehsalatda, biznesdə, məişətdə, ailədə və həyatın digər sahələrində bir çox problemli vəziyyətlər uzun müddət üzə çıxmadan mövcud olur. İnsanların fəaliyyətində yaranan obyektiv problemli vəziyyətlər potensial münaqişənin yaranması imkanı doğurur, həmin imkan subyektiv amillərlə vəhdətdə reallığa çevrilir. Belə çevrilmənin şərtlərindən birini obyektiv problemli vəziyyətin dərki təşkil edir.

**Obyektiv problemli vəziyyətin dərki.** Reallığın problemli vəziyyət kimi qavranılması, ziddiyyətin həlli üçün hansısa həriəkətləri həyata keçirmək zərurətinin başa düşülməsi bu mərhələnin mənasını təşkil edir. Mənafelərin reallaşdırılması yolunda maneələrin mövcudluğu problemli vəziyyətin subyektiv, təhrif olunmuş şəkildə qavranılmasına təkan verir.Qavramanın subyektivliyi yalnız psixikanın təbiəti ilə deyil, həm də ünsiyyət

iştirakçılarının sosial fərqləri ilə şərtlənir. Buraya dəyərlər, sosial yönəlişlər, ideallar və mənafelər aid edilir. Dərktetmənin fərdiliyi həm də qarşılıqlı fəaliyyət iştirakçılarının biliklərində, tələbatlarında, digər xüsusiyyətlərində mövcud olan fərqlərlə şərtlənir. Vəziyyət nə qədər mürəkkəbdirsə və nə qədər sürətlə inkişaf edirsə, opponentlər tərəfindən onun təhrif olunması ehtimalı bir o qədər yüksəkdir.

**Tərəflərin obyektiv problemli vəziyyət qeyri-münaqişə üsulları ilə həll etmək cəhdləri.** Vəziyyətin ziddiyyətliliyinin dərki heç də həmişə avtomatik surətdə tərəflərin münaqişəli qarşıdurmasını doğurmur. Çox vaxt onların hər ikisi, yaxud biri problemi qeyri-münaqişə üsulları (inandırma, izahetmə, xahiş, əks tərəfi məlumatlandırma) ilə həll etməyə cəhd göstərir. Bəzən qarşılıqlı fəaliyyətin iştirakçısı problemli vəziyyətin münaqişəyə çevrilməsini istəməyib güzəştə gedir. İstənilən halda bu mərhələdə tərəflər öz mənafelərini əsaslandırır və mövqelərini təsbit edirlər.

**Münaqişəqabağı vəziyyətin yaranması.** Vəziyyətin münaqişəliliyi qarşılıqlı fəaliyyət tərəflərindən birinin təhlükəsizliyi üçün təhdid kimi qavranılır. Hansısa mühüm ictimai mənafelər üçün təhlükə yarandıqda da vəziyyət münaqişəqabağı vəziyyət kimi dərk oluna bilər.

Özü də opponentin hərəkətləri (problemli vəziyyətdəki kimi) potensial təhlükə kimi deyil, birbaşa təhlükə kimi nəzərdən keçirilir. Məhz bilavasitə təhlükənin dərki vəziyyətin münaqişəyə doğru inkişafına təkan verir, münaqişəli davranışın «buraxılış mexanizmi» kimi çıxış edir.

**Açıq dövr.** Çox vaxt onu münaqişəli qarqılıqlı fəaliyyət, yaxud bilavasitə münaqişə adlandırırlar. O, aşağıdakıları ehtiva edir: insident, münaqişənin kəskinləşməsi, tarazlaşdırılmış qarşıdurma, münaqişənin başa çatması.

İnsident tərəflərin ilk toqquşması, qüvvələr sınağı, gücün köməyi ilə problemi öz xeyrinə həll etmək cəhdidir. Tərəflərdən birinin istifadə etdiyi ehtiyatlar qüvvələr nisbətinin öz xeyrinə dəyişilməsi üçün kifayət etdikdə münaqişə insidentlə məhdudlaşa bilər. Çox vaxt münaqişə münaqişəli hadisələr, insidentlər zənciri kimi inkişaf edir.

Qarşılıqlı münaqişəli hərəkətlər münaqişənin ilkin strukturunun şəklini dəyişərək, onu mürəkkəbləşdirərək, sonrakı hərəkətlər üçün yeni stimullar gətirməyə qadirdir. Bu prosesi aşağıdakı kimi təsəvvür etmək olar: danışıqlardan mübarizəyə keçid – mübarizə emosiyaları kəskinləşdirir – emosiyalar qavrama səhvlərini artırır – bu, mübarizənin intensivləşməsinə aparıb çıxarır – və s. Belə proses «münaqişənin kəskinləşməsi» adını almışdır.

Kəskinləşmə opponentlərin mübarizəsinin kəskin surətdə intensivləşməsindən ibarətdir. Bu mərhələ vacib olduğundan, o, sonrakı paraqrafda daha ətraflı surətdə nəzərdən keçirilmişdir. Münaqişənin kəskinləşməsi dedikdə münaqişənin zaman

çərçivəsində tərəqqisi, qarşıdurmanın kəskinləşməsi başa düşülür, bu zaman opponentlərin bir-birinə qarşı sonrakı dağıdıcı təsirləri intensivlik baxımından əvvəlkiləri üstələyir.

Münaqişənin kəskinləşməsi onun insidentdən başlanan və mübarizənin zəifləməsi, münaqişənin başa çatmasına keçidlə bitən hissəsini təmsil edir.

## Münaqişənin inkişaf mərhələləri

**Tərəflərin açıq qarşıdurmasının başlanması münaqişəli davranışın nəticəsidir,** münaqişəli davranış dedikdə mübahisəli obyektin tutulması, saxlanması, yaxud opponentin öz məqsədlərindən imtina etməyə, yaxud onların dəyişdirilməsinə məcbur edilməsi məqsədilə əks tərəfə yönəlmiş hərəkətləri başa düşülür.Konfliktoloqlar münaqişəli davranışın bir neçə formasını fərqləndirir:

1. aktiv-münaqişəli davranış (çağırış);
2. passiv-münaqişəli davranış (çağırıqa cavab);
3. münaqişəli –güzəştli davranış;
4. güzəştli davranış.

Tərəflərin münaqişə yönəlişindən və davranış formasından asılı olaraq, münaqişə inkişaf məntiqi kəsb edir. İnkişaf edən münaqişə dərinləşmə və genişlənmə üçün əlavə səbəblər yaratmaq meylinə malikdir. Hər bir yeni «qurban» münaqişənin kəskinləşməsi üçün «dəlil» rolunu oynayır. «Ona heç kim mane olmur, o, öz-özünü qidalandırmağa başlayır, gələcək inkişaf üçün yeni-yeni əsaslar doğurur».

Buna görə də hər bir münaqişə müəyyən dərəcədə yeganədir. Münaqişənin ikinci inkişaf mərhələsində üç əsas dövrü ayırmaq olar:

1. Münaqişənin latent vəziyyətdən tərəflərin açıq qarşıdursmasına keçməsi. Mübarizə hələ məhdud ehtiyatlarla aparılır və lokal xarakter daşıyır. İlk qüvvə sınağı baş verir. Bu dövrdə hələ açıq mübarizəni dayandırmaq və münaqişəni başqa yollarla həll etmək üçün real imkanlar mövcuddur.

2. Qarşıdurmaanın daha da kəskinləşməsi. Öz məqsədlərinə nail olmaq və rəqibin hərəkətlərini əngəlləmək üçün tərəflərin yeni ehtiyatları daxil edilir. Komromisə nail olmaq üçün. demək olar ki, bütün imkanlar itirilmişdir. Münaqişə daha da idarəolunmaz və gözlənilməz xarakter kəsb edir.

3.Münaqişə öz apogeyinə çatı rvə bütün mümkün qüvvələr və vasitələr tətbiq olunmaqla total müharibə forması kəsb edir. Bu dövrdə münaqişə tərəfləri sanki münaqişənin həqiqi səbəb və məqsədlərini unudurlar. Rəqibə maksimum zərbə vurmaq

qarşıdurmanın başlıca məqsədinə çevrilir.

**Tarazlaşdırılmış qarşıdurma.** Tərəflər bir-birinə qarşı durmaqda davam edirlər, lakin mübarizənin intensivliyi aşağı düşür. Tərəflər dərk edirlər ki, münaqişənin güc metodları ilə davam etdirilməsi nəticə vermir, lakin razılıq əldə olunması üzrə hərəkətlər hələ həyata keçirilmir.

**Münaqişənin başa çatması** münaqişəli qarşıdurmadan problemin həllinin axtarışına və hər hansı səbəbdən münaqişənin bitirilməsinə keçiddən ibarətdir. Münaqişənin başa çatdırılmasının əsas formaları: həll, tənzimlənmə, sönmə, aradan qaldırılma, yaxud başqa münaqişəyə keçmə.

**Münaqişədən sonrakı dövr.** İki mərhələdən ibarətdir: opponentlərin münasibətlərinin qismən normallaşması və onların münasibətlərinin tam normallaşması.

Münasibətlərin qismən normallaşması münaqişədə mövcud olan mənfi emosiyaların hələ aradan qalxmadığı şəraitdə baş verir. Bu mərhələ öz mövqeyinin qiymətləndirilməsi ilə xarakterizə olunur. Özünüqiymətləndirmədə, iddia səviyyələrində, tərəfdaşa münasibətdə düzəliş aparılır. Özünün münaqişədəki hərəkətlərinə görə təqsir hissi kəskinləşir. Bir-birinə münasibətdə mənfi yönəlişlər münasibətləri dərhal normallaşdırmağa imkan vermir. Münasibətlərin tam normallaşdırılması tərəflər gələcək konstruktiv qarşılıqlı fəaliyyətin vacibliyini dərk etdikdə yaranır. Buna mənfi yönəlişlərin aradan qaldırılması, birgə fəaliyyətdə səmərəli iştirak, etimadın qərarlaşması təkan verir. Nəzərdən keçirilən mərhələlər və dövrlər müxtəlif müddətə malik ola bilər: bir neçə andan (məsələn şagirdlərin tənəffüsdəki münaqişəsi) onilliklərə qədər (Amerikadakı İspaniya müstəmləkələrinin müstəqillik uğrunda 1810-1826-cı illər müharibəsi,y axud 1959-1973-cü illər Vyetnam müharibəsi). Bəzi mərhələlər olmaya da bilər, məsələn, insidentdən sonra tərəflərin biri güzəştə gedir və münaqişə başa çatır. Münaqişədə tərəflərin diferensiasiyası ilə xarakterizə olunan zaman kəsimini fərqləndirmək olar. Münaqişə yüksələn xətlə inkişaf edir, tərəflər arasında fikir ayrılıqları güclənir. Cəbhələşmə sonrakı kəskinləşmə mənasını itirənə qədər davam edir. Bu andan etibarən inteqrasiya prosesi başlanır. İştirakçılar hər iki tərəf üçün məqbul razılaşmaya can atmağa başlayırlar.

Münaqişənin dövrlərə və mərhələlərə bölünməsi onu mürəkkəb dinamikaya malik təzahür kimi nəzərdən keçirməyə imkan verir. Ayrı-ayrı strategiyalar və taktikalar münaqişənin cərəyan etdiyi müxtəlif zaman kəsimlərində fərqli mənaya malik olurlar. Münaqişə çox vaxt rəqibin imkanlarının və öz ehtiyatlarının «tədqiqi» anlarını ehtiva edir, bu zaman birbaşa cəbhələşmə mövcud olmur.

## Ədəbiyyat:


1. Конфликтология.//под.ред.В.П.Ратникова.- М.,2005.
2. Конфликтология./ /под. Ред.А.С.Кармина. – Санкт-Петербург, 1999.
3. Козырев Г.И. Введение в конфликтологию. – М.,1999.
4. Дмитриев А.В. Конфликтология. – М.,2000.
5. Анцупов А.Я. , Шипилов А.И.    Конфликтология. – М.,2002.
6.Здравомыслов А.Г. Социология конфликта. – М., 1995.
7. Диксон Ч. Конфликт. – СПб.,1997.
8. Основы конфликтологии //под ред. В.Н.Кудрявцева. – М.,1997.
9.Əliyev G. Dayızadə H. Konfliktolociyaya giriş. – Bakı.Təbib.1998.
10. Вебер М. Избранные произведения. М., 1990.
11. Ле Бон Г. Психология народов и масс. СПб., 1995. С.163-164.
12.Simmel G. Conflict. – N.Y. 1955.
13.Darendorf R. Class and Class Conflict in Industrial Society. – N.Y. 1959.

2-ci Mövzu

# MÜNAQİŞƏ VƏ BÖHRAN: BEYNƏDXALQ MÜNASİBƏTLƏR NƏZƏRİYYƏSİNDƏ KATEQORİAL KOMPLEKSLƏR

**Suallar**

1. **Münaqişə və onun ölcüləri**
2. **Münaqişənin inkişaf dinamikası**
3. **Münaqişənin yaranmasının və eskalasiyasının səbəbləri**

## § 1. Münaqişə və onun ölçüləri

«Münaqişə» ifadəsi və onun mümkün izahları ətrafında mübahisələrin mövcüdluğu tamamilə qanunauyğun haldır. Təkcə 1945-ci ildən sonra dünyada 300-dən artıq dövlətlərarası münaqişə baş vermiş və onların 200-dən çoxunda sistematik şəkildə silahlı qüvvələr tətbiq edilmişdir.

Bir çox tədqiqatçılar beynəlxalq münasibətlərdəki münaqişələrə digər dövlətlərin birbaşa və ya dolayı iştiraki ilə ayrı-ayrı ölkələr arasında baş verən vətəndaş müharibələrini də aid etməyə meyl edirlər(bu kimi hallar bu gün «beynəlmiləlləşdirilmiş daxili münaqişələr» adlanır). Digər alimlər münaqişələri «infra-səviyyədən» (dövlətdaxili koliziyadan) hipotetik ABC (atomic-biochemical, yəni bütün növ kütləvi qırğın silahlarından istifadə etməklə) səviyyəli irimiqsaylı müharibələrədək təsnif edirlər. Çox vaxt hərbi mütəxəsislər münaqişələri yalnız silahlı zorakılığın tətbigi hallarına aid edirlər və müvafiq olaraq, «aşağı intensivliyə malik» münaqişələri döyüş əməliyyatlarının aparılması xüsusiyyətinə malik xüsusi müharibə kateqoriyasına aid edirlər və sinonim kimi «yerli münaqişə» və digər terminlərdən istifadə edirlər. Sosioloqlar isə, əksinə, fərdlərlə sosial qruplar arasındakı münasibətlərin qanunauyğunluqlarını, zorakılığın tətbiq edilib-edilməsindən asılı olmayaraq tamamilə başqa, xüsusən beynəlxalq münaqişələrə aid etməyə çalışırlar. Müvafiq olaraq, müasir elm münaqişələrin tipoloqiyası məsələləri üzrə çoxsaylı baxışlar təqdim edir – onları «hərbi», «sosial», «siyasi», «etnosiyasi» və ya «etnomilli», «etik», «hüquqi» və s. munaqişələr adlandırırlar.

Münaqişələrlə əlaqədar anlayışlar haqqında məsələlərin qoyuluşunda qeyd etmək lazımdır ki, beynəlxalq qarşılıqlı təsir iştirakçılarının mənafe və məqsədlərinin toqquşması və mübarizəsi hər zaman beynəlxalq münasibətlər sisteminin özünün təbii və bir çox hallarda qaçılmaz şərti olmuşdur. şubhəsiz ki, müasir elm sahələrində istifadə olunan münaqişə kateqoriyası bu fəsildə nəzərdən keşirilməsi ehtimal edildiyindən daha genişdir. Münaqişə və onun təzahürlərini (iştirakçiların münaqişəli davranışlarının struktur və növləri) bu gün insanı, sosial qrupları, cəmiyyəti və dövləti öyrənən bütün elmlər təhlil edir. Problem bilavasitə beynəlxalq-siyasi münaqişələr sahəsinə nəyin aid olduğunu aşkara şıxarmaqda, bu hadisənin nəzərdən keçirilməsini mümkün edən amillər yaratmaqda, eləcə də beynəlxalq münasibətlər sistemində ümumi inkişaf vektorunu formalaşdıran çoxsaylı müxtəlif amillərin bu münaqişədə necə həyata keşirilməsinin göstərilməsindədir. Münaqişəni həm ictimayi siyasi hadisə, həm də proses kimi göstərmək lazımdır. Hər iki halda münaqişə müəyyən funksiallar daşıyır və onların iştirakçıları arasındakı münasibətləri tənzimləyir. Münaqışəni həmçinin, beynəlxalq münasibətlərin sistemli modellərinin dəyişməsi şəraiti kimi, bir beynəlxalq siyasi reallığdan digərinə keşid üsulu kimi nəzərdən keçirmək olar. Bəs beynəlxalq münasibətlər fenomeni kimi,münaqişənin dərk edilməsi üçün şüurlu üsulu necə tapmalı? Bunun üçün başqa üsula əl atmaq –nəzərdən keçirilən predmetin növünün ümümilikdə münaqişənin yalnız təsadüfi hadisəsi olduğunu qöstərməklə həmin predmeti yalnız beynəlxalq siyasi münaqişələrlə məhdudlaşdırmaq olar. Bu zaman ayrı-ayrı şəxsiyyətlər, sosial və siyasi qruplar arasındaki münaqışəli qarşılıqlı əlaqələri digər təsadüfu münaqişə haları kimi kənara qoymaq olar. Şübhəsiz, bununla əlaqədar qeyd etmək lazımdır ki, hər hansı sosium (cəmiyyət) daxilində şəxsi və qrup halında baş verən münaqişələr dolayısı yola beynəlxalq münaqişələrin xarakterinə və tipinə təsir qöstərə bilər. Məhz dövlətlər və onların birləşmələri,eləcə də dövlətlər və dövlətlərarası təşkilatlar arasında baş verən beynəlxalq-siyasi münaqişələrdə sosiumların bir araya gətirilmış maraqları özünün daha geniş əksini tapır. Fikrimizcə, dövlətlərarası qarşılıqlı əlaqələr sahəsində bütünlüklə dünya inkişafının gedişinə təsir göstərən nisbətən ümumi qanunauyğunluqların təzahürünü görmək olar.

Ümumi mənada, bir-birini qarşılıqlı şəkildə istisna edən və ya əvəzləyən məqsədlər güdən beynəlxalq münasibətlər sisteminin iki və ya daha artıq elementinin qarşılıqlı əlaqəsini beynəlxalq münaqişə hesab etmək olar. Bizim diqqət mərkəzimizdə dövlətin mövcüdluğuna toxunan münaqişələr – onun əsas əlamətləri (əvvələr qeyd etdiymiz kimi, funksional və atributiv) dayanacaq. Beynəlxalq siyasi münaqişə çoxölçülü hadisədir və bu hadisənin ölçülərinin strukturu aşağıda nəzərdən keçiriləcək.

Bu izah beynəlxalq münasibətlər sisteminin özünüqorumaya, güctoplamaya və öz inkişafı üçün əlverişli xarici mühit yaratmağa cəhd etmə kimi prinsipial səciyyə daşıyan əsas

elementi kimi dövlətin əvvələr verilmiş şərhi ilə bilavasitə əlaqədədir. Münaqişənin iştirakçısı (dövlət) özqarşısına nail ola biləcəyi məqsədlər qoyur və eyni zamanda,«rəqibin» öz məqsədlərinə nail ola bilməməsinə çalışır.

Münaqişə içtirakçıları öz məqsədlərinə(uzunmüddətli və digər) nail olmaq üçün öz gücündən istifadə edirlər(bi anlayış «qüvvə» ilə eyniyyət təşkil etmir).

Mübarizə aparan tərəflər bir-birinə öz məqsədlərinə nail olmaq yolunda mövcüd olan maneə və təhlükə mənbəyi kimi baxırlar.

Bu çox kəskin beynəlxalq münaqişələr çox vaxt tədqiqatçılar tərəfindən «sıfır məbləqli oyun»versiyası kimi baxırlar. Bu o deməkdir ki münaqişə iştirakçısı öz uduşunu, mübahisəli məsələlərdə «qələbəsini» rəqib üçün itkiyə bərabər hesab edirlər, yəni əgər tərəflərdən biri, məsələ, öz məcmu qüvvəsini 50 «şərti vahidini» itirmişsə (hansı amillər hesabına olursa-olsun), onun rəqibi olan digər tərəf həmin 50 vahid həcmində «güclənmiş» hesab olunur. Əlbəttə münaqişənin inkişafı heç də həmişə bu üsula dərk olunmur.Bu halda dövlət liderləri, siyasi elitalar, bəzən isə bütünlüklə cəmiyyət tərəfindən münaqişənin məhz də şəkildə dərkolunması haqında məsələ qaldırmaq olar. Tərəddüd etmədən demək olar ki, «soyuq müharibənin» ilkin mərhələsinə iştirakçılar tərəfindən, hətta ümumiyyətlə, bütün dünya tərəfindən «sıfır məbləğli oyun» kimi baxılır. Planetin, geostrateji cəhətdən hər iki nəhəng superdövlətin idarə olunan və ya az-çox nəzarət altında olan «təsir sahələrinə» bölünməsi oniliklər ərzində sırf «neytral» sahələrinin mövcüdluğuna seçim imkanı vermirdi. Bu şəraitdə iştirakçılardan birinin hərbi-siyasi müttəfiq və ya hətta elmi-texniki nailiyyət qazanmasında uğuru digərinin «məğlubiyyəti» hesab olunurdu. Məsələn, Çində baş verən vətəndaş müharubəsində kommunistlərin qələbəsi və ÇXR-lə SSRİ arasında ittifaq münasibətlərinin qurulması ABŞ-da «Çinin itirilməsi», ölkənin uzunmüddətli xarici siyasi maraqlarına ağır zərbə kimi qəbul edilmişdi. Beynəlxalq münaqişələrin mahiyyətinin tədqiqində təhlil edilməli olan əsas amillər aşağıdakılardır:

– **məkan** (münaqişənin coğrafı konteksti və miqyası);

– **zaman** (münaqişənin vaxt müddəti, daxili mərhələləri və ya xronoloji mərhələləri);

– **münaqişənin intensivliyi** və onun zaman daxilində dəyişməsi;

– **münaqişənin strukturu (**iştirakçıların sayı, keyfiyyət xüsusiyyətləri);

– **münaqişənin motivləşdirilməsi və iştirakçıların məqsədləri (**o cümlədən, münaqişəli hərəkətlərin ideoloji izahı);

– **«münaqişə obyektlərinin»** (yəni iştirakçıların münaqişəli hərəkətlərinin həll etməyə yönəldiyi mübahisəli məsələlərin) **tipi, səciyyəsi və sayı;**

– **iştirakçıların bir-birinə münasibəti (**rəqib obrazı, stereotipləri, rəqib haqqında bilgilərin xarakteri);

– **münaqişə iştirakçılarının davranış tipi** (məqsədlərə nail olmaq vasitələri və üsulları,

strategiya və taktikası)

– beynəlxalq münasibətlərin bilavasitə iştirakçıları və bütünlüklə sistemi üçün **münaqişə funksiyaları.**

Münaqişənin nəzərdən keçirilməsinin göstərilən istiqamətləri, onun ölçüləri bir-biri ilə sıx əlaqədardır.

Münaqişənin **məkan ölçüsü** bu hadisənin tədqiqatında iştirakçıların coğrafi və hətta topoqrafik xüsusiyyətlərin rol oynayacağını nəzərdə tutur. Bu məqam o mənada zəruridir ki,o dövlətlərin qüvvəsinin komponenti kimi onların ərazi vəziyyətinin «üstünlükləri» və «çatışmazlıqları» haqqında təsəvvür yarada bilər.

Dövlətlərin «coğrafı yaxınılıq» səviyyəsi («əlaqə sıxlığı») yüksək intensivlik səviyyəsində malik münaqişəli münasibətlərin motivləşmə analizi üçün ciddi amil kimi çıxış edə bilər. Bu halda söhbət ondan gedir ki, ümumi sərhəd və ya rejional yaxınlıq (subregionda qonşuluq) şəklində bilavasitə yaxınlıq şəraitində məhz coğrafı problemlərin (ərazi iddiaları, etnosiyasi səciyyəli ciddi zidiyyətlər və s.) «münaqişə obyekti»olacağı, yəni həll olunması yolunda qonşu dövlətlərin rəqabət aparacağı mübahisəli məsələlərə çevrilməsi ehtimalı böyük olur. Dövlətlərin coğrafı yaxınlıq səviyyəsi hərbi-siyasi ittifaqların formalaşdırılmasında da rol oynaya bilər.

Münaqişənin məkan ölçüsü dedikdə bilavasitə iştirakçıların yox, həm də onların ən yaxın qonşularının coğrafı vəziyyəti başa düşülür. Bunu bəzən dövlətlərin bir-birinə münasibətdə «məkan asılılığı» (spatial dependence) də adlandırırlar. Məsələn, yüksək intensivliyə malik (hərbi qüvvə tətbiq etməklə) münaqişəli vəziyyətlərin mövcudluğu bəzi dövlətlərdə ən yaxın qonşular qrupunda münaqişələrin kəskinləşməsinin «zəncirvari reaksiyasına» səbəb ola bilər. 1945-ci ildən sonra bu cür münaqişələrin daha tez-tez baş verdiyi bu cür region Yaxın Şərqdir.

Nəhayət, münaqişənin məkan ölçüsü onun miqyası kimi başa düşülür – bu, xüsusilə, münaqişənin bir növü kimi müharibəyə aiddir. Miqyasına görə qlobal silahlı münaqişə İkinci dünya müharibəsi idi – bütün qitələrin dövlətləri birbaşa və ya dolayı yolla həmin müharibəyə cəlb olunmuşdular. Miqyası üzrə qlobal münaqişə ABŞ-la SSRİ arasında baş verən və «soyuq müharibə» adını almış uzunmüddətli münaqişə idi. Sovet-Amerika münaqişəsi bütün dünyada baş verən siyasi hadisələrə təsir qöstərmək naminə aparılırdı. «Yerlı münaqişə» anlayışına gəldikdə isə, buraya aid olan müharibələrin gedişində iki dövlət öz məqsədlərinə hərbi yola nail olmağa can atırlar. «Regional» münaqişə rubrikasına, bir qayda olaraq, iki və daha artıq ölkə arasında aparılan bütünlüklə regiondaki vəziyyətə ciddi təsir göstərən və çox vaxt nəhəng dövlətlərin birbaşa və ya dolayısı iştirakı ilə, yaxud beynəlxalq səciyyəli hərbi siyasi birlikləri cəlb etməklə baş verən müharibələr daxildir. Bu kimi münaqişələrə, məsələn 1990-ci illərdə Yuqoslaviya İttifaqı ərazisində baş verən

hadisələri misal göstərmək olar-bu zaman bir neçə keçmiş respublikalar arasında baş verən ardıcıl hərbi toqquşmalar NATO-nun güc yolu ilə müdaxiləsini şərtləndirməklə bərabər, Cənubi Avropada vəziyyəti uzun müddətə gərginləşdirdi.

### § 2. Munaqişənin inkişaf dinamikası

**Münaqişənin zaman ölçüsü** münaqişənin xronoloji ardıcılığı kim başa düşülməlidir – bu ardıcılıqda çıxış nöqtəsini və başaçatma məqamını müəyyənləşdirmək olar. Həmin vaxt müddətini münaqişənin inkişafının müəyyən fazalarına – mərhələrinə bölmək olar. Fikrimizcə, münaqişə fazaları daha çox zaman və intensivlik kateqorialarını ehtiva edən kompleksdə tanınır.

Dövlətləri beynəlxalq münaqişələrin əsas iştirakçıları hesab etsək, o zaman belə bir məqamdan çıxış etmək lazımdır ki, onların «ali maraqlarının» müxtəlifliyi üzündən onlar «mahiyyət etibarı ilə rəqibdirlər». Beləliklə, bütün dövlətlər arasında münaqişəli münasibətlər mövcuddur və bu münaqişələr zaman daxilində inkişaf edir və məlum intensivliyə malik olur. Çoxlu sayda dövlətlərarası qarşılıqlı əlaqələr üçün bu cur münaqişəli münasibətlər latentdir, görünmür və dərk olunmur, yəni onların intensivliyi sıfra bərabərdir. Məsələn, ABŞ-la Nepal, yaxud Almaniya ilə Somali arasındaki münasibətlər məhz bu cürdür.

Beləliklə, beynəlxalq təcrübədə münaqişə adlanan amil dövlətlərin maraqlarının yuxarıda göstərilən prinsipial uyğunluğundan, ilk növbədə, bu və ya digər səviyyədə məcburiyyətin və / və ya zorakılığın mövcüdluğunun əlamətlərinə görə fərqlənir. Başqa sözlə, münaqişəni anlamaq üçün zamanı və intensivliyi kombinə edən bu və ya digər şkala qurmaq lazımdır. İntensivliyin dəyişməsini və münaqişəli münasibətlərin bir neçə faza üzrə inkişafını göstərən aşağıdaki variantda şkala təqdim etmək olar:




A fazası iştirakçıların (dövlətlərin) ən azı biri tərəfindən məcburedici davranışın tətbiqinə başlanmasınadək onların adı, «normal» qarşılıqlı əlaqələrini səciyyələndirir. Bu fazanın sonunda münaqişənin latent potensialı – buna qədər nəzərə çarpmayan, yaxud dərk

edilməyən münasibət uyğunsuzluğu – tərəflərin münaqişəli əlaqəsi kimi təzahür edir,iştirakçılar tərəfindən əyani sürətdə dərk olunur və burada münasibətləri qöstərilən struktur kəsikləri-məkan, zaman, motivlər, məqsədlər, onlara nail olma üsulları və s. mövcud olmağa başlayır.

Latent qapalı fazadan daha aşkar fazaya keçid «məcburedici davranış» adlanan amilin tətbiqinin başlaması ilə müəyyən olunur. «Məcburedici davranış» anlayışı diplomatik və digər təzyiqdən istifadə olunmasını, iqtisadi münasibətlərin pozulmasını, sanksiyaların tətbiqini, hərbi qüvvələrin manipulyasiyasını və onun tətbiqi təhlükəsini, eləcə də digər bu kimi amilləri nəzərdə tutur, amma bu amillər mütəşəkkil silahlı zorakılıq deyil.

B fazası müddətində kütləvi və mütəşəkkil şəkildə silahlı zorakılığın tətbiqinin astanasından qabaq iştirakçıların biri və ya hamısı tərəfindən məcburedici davranışın tətbiq olunması şəklində münaqişənin inkişafı baş verir. Bu astananı bizim **böhran** adlandıracağımız və aşağıda ona əsas diqqət yetirəcəyimiz B fazasının hissəsindən sonra yerləşdirmək olar. Böhran, sayı birdən çox olan iştirakçi tərəfindən münaqişəli qarşılıqlı əlaqənin intensivliyinin yüksəlməsi ilə səciyyələnir. Beləliklə, böhran münaqişənin sub-fazası kimi, ən yüksək intensivliyə malik və tamamilə «xalis», açıq olan münaqişəyə keçid potensialını, yəni **müharibəni** ehtiva edir.

Münaqişənin intensivliyi nöqteyi-nəzərində onun iştirakçıları olan dövlətlərin hərbi toqquşmasını təsvir etsək, onda müharibə münaqişənin «ali forması» olur və bu formada silahlı zorakılığın mütəşəkkil və kütləvi qaydada tətbiqi məcbuedici davranışa malik olur. Bununla belə, münaqişənin böhrandan hərbi əməliyyatlara keçməsi məcburi deyil, intensivlik şkala üzrə yuxarıda göstərilən münaqişənin hipotetik inkişafı iştirakçıların latent zidiyyətlər vəziyyətindən zorakılığın tətbiqi astanasına keçməsi deyil. Tarixi misallar sübüt edir ki, münaqişə qeyri-xətti inkişaf xüsusiyətinə malikdir, ən yüksək fazadan ən aşağı fazaya, yəni kəskin böhrandan nisbətən aşağı intensivliyə malik B fazasının başlanğıc hissəsinə, bəzən isə A latent fazasına qayıda bilər. Münaqişənin intensivliyi problemi və bu parametrin zaman xüsusiyyətləyiilə əlaqələri tətqiqatçıların diqqətini çoxdan bəri özünə cəlb etmişdir. Herman Kann tərəfindən təqdim olunmuş münaqişənin intensivliyi şkalası daha çox xatırlanır. Kanın təsnifatına əsasən münaqişəni 9 əsas mərhələyə bölmək olar və bu mərhələlərə məcburedici davranışın istifadə olunan forma və üsullarının genişləndirilməsi və itensivliyi səviyyəsinin artırılması üzrə 44 mümkün eskalasiya pilləsi daxildir. Qeyd etmək lazımdır ki, Kann tərəfindən təklif dilən «eskalasiya nərdivanı» 1960-ci illərin astanasında dəbdə olan «strateji tədqiqatların» bəhrələrindən bir idi. Onun yaradılmasının çıxış nöqtəsi nüvə derjavalarının birbaşa toqquşmasının mümkün «ssenarisini» təsvir etmək arzusundan ibarət idi – ilk növbədə ABŞ və SSRİ nəzərdə tutulurdu.

Kanın sxemi «maraqların üst-üstə düşməməsi» mərhələsi ilə başlanır və «ənənəvi

böhran» mərhələsindən keçir – buraya «mövqelərin möhkəmləndirilməsi», «gücün nümayış etdirilməsi», «rəqibə həmlə» «əhəmiyyətli hərbi konfrontasiya» daxildir. Daha sonra, Kanın fikrincə, münaqişənin «nüvədənqabaqki astanasında» iştirakçılar arasındaki münasibətlər diplomatik münasibətlərin pozulmasını, müharibənin elan olunmasını, «nüvə ultimatumunun» verilməsini, təhlükəli zonanın blokadasını və əhalinin 20%-nin həmin zonadan təhliyyə edilməsinə başlanmasını nəzərdən tutan «intensiv böhran» rejimində istifadə oluna bilər.

Kann hesab edirdi ki,münaqişənin inkişafının növbəti mərhələsi iştirakçı tərəflərdən biri tərəfindən nüvə zərbələrinin endirilməsi və düşmənin «əks tədbirlərini» və artıq 70% əhalinin təhliyyəsini nəzərdə tutan «yerli nüvə müharibəsinin elan edilməsi (21-25-ci pillələr) olmalıdır. Daha sonra, bu nəzəriyyəçinin fikrincə, tərəflər bir-birinin ərazisinə, hərbi obyektlərinə, əhalisinə və maddi resurslarına hücum etməklə «müharibənin mərkəzi astanasından» keçirlər. Bu zaman hər iki tərəf əhalinin əksər hissəsini təhliyyə etməyə çalışır və «ramediçi» zərbələr enfirməklə düşmənin ərazisindəki şəhərlərin və digər maddi obyektlərin məqsədyönlü şəkildə dağıdılmasına başlayırlar.

Kann öz sxeminin yekün mərhələsini (pillə 39-44) «şəhərlərə qarşı müharibələrdə» kütləvi qırğın silahlarının digər növlərindən istifadə edilməsində və hərbi əməliyyatların «spazmatik», yəni demək olar ki, mənasız şəkildə davam etdirilməsində görürdü.

Göründüyü kimi, Kann tərəfindən təklif olunan «eskalasiya nərdivanı» münaqişənin primitiv xətti inkişafın halından (üzə çıxmış dövlətlərarası zidiyyətlərdən düşməni məhv etmək məqsədi ilə kəllə-kəlləyə gəlməyədək) irəli gəlir.

## §3. Münaqişənin yaranmasının və eskalasiyasının səbəbləri

İstənilən sxem kimi, «Kann şkalası» da münaqişənin yaranmasının və eskalasiyasının səbəblərini heç də adekvat şəkildə əks etdirmir. Bizi maraqlandıran hadisənin analizi üçün zəruri olanbir çox zəruri parametrlərbi şkalada öz əksiin tapmamışdır. Bununla əlaqədar olaraq, münaqişənin öyrənilməsi zamanı istifadə olunan bir neçə əsas anlayışları ayırmaq lazımdır. Bu sırada birinci yeri **münaqişənin strukturu** anlayışı,yəni onun iştirakçının sayı və onların əsas xüsusiyyətləri tutur. Bazasında bizi maraqlandıran hadisənin əsas mövcudluq qanunauyğunluqlarının nəzərdən keçirildiyi münaqişə strukturunun ən sadə növü «diadik münaqişədir» – burada yalnız «diada», yəni iki iştirakçı münaqişəli əlaqəyə girir. Bu cür münaqişələr tarixdə nadir hadisə olmasa da, onlar beynəlxalq münasibətlərin sistemli modellərinin əvəzlənməsinə səbəb olan ən əhəmiyyətli və məşhur münaqişələr sırasında çoxluq təşkil etmir. Kəskin beynəlxalq-siyasi

münaqişələrin və əsasən, tez-gec «böyük» (məsələn, qitə miqyaslı, müharibələrə şevrilən münaqişələrin iştirakçılarının sayı bir qayda olaraq daha çox idi. Eyni zamanda,nəzəri quruşuların daha asan şərh olunması üçün məhz münaqişədə iki iştirakçının münasibətlərindən istifadə etmək yerinə düşər ki, bu da aşağıda məhz belə olacaq.

İştirakçıların keyfiyyət xüsusiyyətlərinə gəldikdə isə, bu və ya digər münaqişənin analizi zamanı aşağıdakıları ayırmaq daha zəruridir:

– münaqişəli əməliyyatların həyata keçirilməsi üçün potensial şəklində səfərbər edilən güc səviyyəsinə görə uyğunluq (yəni, ilk növbədə iştirakçıların beynəlxalq-siyasi iyerarxiyanın hansı sinfinə (böyük dövlət regional hegemon) mənsub olması,müasirlik üçün-nüvə ölkəsiolub-olmaması və s.);

– iqtisadi, siyasi və sosial-mədəni inkişaf səviyyəsinə görə müqayisə;

– beynəlxalq siyasi əlaqələrdə iştirak etmə ənənəsi və tarixi təcrübə xətti üzrə müqayisə.

İştirakçıların cəhətlərinin fərqlənməsi münaqişənin gedişinə və onun əsas xüsusiyyətlərinə birbaşa təsir göstərə bilər. Məsələn, nəhəng dövlətlər arasındakı mqnaqişə, bir qayda olaraq, uzun tarixi zaman kəsiyində inkişaf edir, kəskin münaqişələrlə müşaiyət oluna və hətta müharibəyə çevrilə bilər. Təbii ki, iri dövlətlər, qeyri-rəsmi beynəlxalq-siyasi iyerarxiyada daha aşağı sinfə mənsub dövlətlərə nisbətən, öz gücü hesabına münaqişələrdə daha çoxlu sayda məqsədlərə nail olma üsullarından istifadə edirlər.

Nəhəng dövlət ilə ondan gücsüz dövlət arasında münaqişənin inkişafı başqa cür görünə bilər. O, bir qayda olaraq, sürətlə cərəyan edir, burada daha güclünü qələbəsini ehtimal etmək daha asandır. Silahlı qüvvələrin tətbiqi ilə aparılan bu cür münaqişə 1982-ci ildə İngiltərə ilə Argentina arasında Folklend adalanının mənsubiyyət məsələsinə görə baş vermişdi və bu münaqişədə Argentina məğlub olmuşdu.

Təxminən bərabər gücə malik olan və münaqişədə təxminən eyni məqsədlər güdən münaqişələr daha başqa növə malikdir. Buna misal olaraq, «regional lider» (və yə hətta hegemon) statusuna iddialı olan iki qonşu dövlətin toqquşmasını göstərmək olar. Daha bir parlaq misal 1979-1989-cu illərdə İranla İraq arasında aparılan müharibədir. Başqa sözlə, münaqişənin strukturunun və onun iştirakçılarının xüsusiyyətlərinin nəzərdən keçirilməsi münaqişənin inkişafının potensial gedişinin, onun zaman və digər xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün vacib şərt olmalıdır.

Münaqişənin təsviri və analizi üçün əsas parametrlərin ayrılması xətti ilə irəliləyərək biz qarşılıqlı əlaqədə olan iki problemə – **münaqişənin motivləşdirilməsinə və «münaqişə obyektlərinin» xarakterinə,** yəni obyektiv şəkildə münaqişəli əlaqənin mərkəzində olan və bir qayda olaraq iştirakçılar tərəfindən olduğu kimi qəbul edilən süjetlərə yaxınlaşırıq.

**Münaqişənin motivləşdirilməsi problemi**. Əgər münaqişənin, tərəflərin maraq və

məqsədlərinin fərqlənməsi və ya açıq-aşkar üst-üstə düşməməsi üzündə baş verdiyni ehtimal eysək, o zaman konkret bir münaqişənin iri mənbələri kimi ümumi planda formullaşdırılmış aşağıdakı adlandırıla bilər.

**1. İştirakçıların dəyər sistemlərinin antaqonizmi.** Münaqışə iştirakçılarının dəyər sistemlərinin antaqonizmi problemi ilə əlaqədar olaraq, zəruri qeydlər etmək lazımdır. Burada dəyər dedikdə o amillər nəzərdə tutur ki, onların qorunub saxlanması üçün insanlar (cəmiyyət, ölkə) ta güc tətbiq edilməsinədək münaqişədə işturak edə bilər. Bu, suveren dövlətin öz ərazi bütövlüyünü,sosial-iqtisadi dəyərlərin strukturunu, siyasi quruluşun əsasını və s. qoruyub saxlamaq arzusundan irəli gələ bilər. Bu, cəmiyyətin dini, ideoloji və digər dünyagörüşü səciyyəli dəyərləri, eləcə də mədəni, etnik və dil vəhdəti uğrunda ola bilər.

Cəmiyyət və dövlət üçün dəyər qismində, beynəlxalq siyasətdə nüfuz, həmçinin regionda, qitədə, bütün dünyada baş verən siyasi və digər proseslərin inkişafının gedişinə təsir səviyyəsi çıxış edə bilər. Dəyər sistemlərinin antaqonizmi müxtəlif formalarda özünü biruzə verir.

Məsələn, hər hansı bir dövlət güc yolu ilə xarici mühitin bir hissəsinə öz dəyər sistemini – «yeganə düzgün», universal elan olunan sosial-iqtisadi, siyasi, ideoloji və sair dəyərlər kompleksini şamil etməyə cəhd etdikdə dəyər sistemlərinin antaqonizmi tez bir zamanda yüksək intensivliyə malik münaqişəyə gətirib çıxarır. Güman ki, güc tətbiq etməklə irimiqyaslı münaqişədə özüni büruzə verən bu cür antaqonizmə İkinci Dünya müharibəsini misal qöstərmək olar. Şübhəsiz ki,bəşər tarixində ən böyük hərbi kataklizm olan bu çoxölçülü müharibədə müxtəlif səbəblər üzündən onlarla dövlət və milyonlarla insan iştirak etmişdi. Amma Dünya müharibəsinin başlanmasının səbəblərindən biri o idi ki, müharibənin təşəbbüskarının – faşist Almaniyasının – aşkar şəkildə reklam olunan məqsədi Avropa qitəsində, uğur qazandıqda isə daha geniş miqyasda «yeni qaydaqanun» yaratmaqdan ibarət idi.

Bu halda millətçilik dəyərlərinin təcavüzkarcasına və güc yolu ilə təlqin olunması digər dövlətləri hüquqi maraqları ilə toqquşdu və həmin derjavalar öz təhlükəsizliyinin, ictimai və iqtisadi quruluşu əsaslarının, eləcə də digər də dəyərlərinin (o cümlədən ideoloji dəyərlərinin) qorunub saxlanması naminə münaqişəyə girdilər.

İkinci dünya müharibəsindən sonrakı dövr başqa bir misaldır. Oyektiv şəkildə yaranmış qlobal uzunmüddətli münaqişədə – ABş-la SSRİ-nin başçılıq etdiyi birləşmələr arasındakı «soyuq müharibədə» rəqiblərin bir başa toqquşması baş vermədi. Münaqişənin əsaslandırılması və ritorik şəkildə izahı nöqteyi-nəzərindən burada ön plana kommunist doktrinasının sovet versiyası və «qərb sivilizasiyasının» ideoloji dəyərləri çıxdı. Hər iki dəyər sistemi onların daşıyıcıları (dövlətlər) tərəfindən qlobal miqyasda universal elan olundular. Həmin dəyərlərin bütün dünyada yayılması prosesində nəhənq derjavaların

toqquşması da (çox vaxt açıq-açığına güc tətbiqi ilə olmasa da) bu səbəbdən baş verir.

**2. Dövlətlərin «arzuolunan gələcək» yaratmaq, yaxud bütünlüklə beynəlxalq aləmlər və qismən bilavasitə opponentlə münasibətlərdə «arzuolunmayan gələcəkdən» qaçmaq cəhdləri.**

Dövlətin funksional əlamətləri ilə əlaqədar olaraq, bu məqamı qeyd etmək xüsusilə zəruridir. Dövlətin öxü üçün əlverişli xarici mühit yaratmaq haqqında abyektiv arzusu beynəlxalq arenada konkret fəaliyyəti nəzərdə tutr. Bu strateji cəhətdən mühüm regionlarda qonşularla və ya dövlətlərlə hərbi-siyasi ittifaqı yaratmaqcəhdi ola bilər. Məsələn,1930-cu illərdə millətçi Almaniya Avropanın bir sıra kiçik ölkələrinə onlarüçün sərfəli müttəfiqlik münasibətləri təklif etməklə ümumavropa kollektiv təhlükəsizlik sisteminin yaradılmasına yol verməmək üçün ciddi səy göstərdi. Bu mərhələdə Almaniyanın məqsədi aydın idi – o,dünya müharibəsinə hazırlıq üçün əlverişli mühit taratmaq, ingilis-fransız koalisiyası yaratmaq, eləcə də Avropa və qlobal miqyaslı uzunmüddətli vəzifələrin yerinə yetirilməsi istiqamətində hərəkət etmək niyyətində idi.

Məsələnin digər tərəfi «arzuolunmaz gələcəkdən» qaçmaq idi. Bu mənada dövlət, öz maraqlarına eventual təhlükənin zəiflənməsinə yönələn əməliyyatlar həyata keçirə bilər. Buna misal olaraq potensial münaqişədə təhlükəli rəqiblə müqavilələrin bağlanmasını göstərmək olar – bu müqavilələr təhlükəsizliyin möhkəmləndirilməsi və digər tədbirlərin görülməsi üçün vaxt qazandırır. Bu kimi aktlara məsələn, hücüm etməmək haqqında 5 illik sovet-yapon sazişini (Moskva, aprel, 1941-ci), mübahisələrin sülh yolu ilə həlli haqqında Almaniya-Polşa müqaviləsini (Berlin, yanvar, 1934-cü il) və s. göstərmək olar.

Bəzən dövlətlərin davranışının motivləşdirilməsinin bu növü «preventiv münaqişənin»inisiasiyasına gətirib çıxara bilər ki, bunun də əsas məqsədi iştirakçılardan birinə qarşı yönələn birbaşa təhlükənin (həqiqi və ya yalançı) aradan qaldırılmasıdır. Dövlət, beynəlxalq münasibətlərin bir elementi kimi, kompromissə gəlməyin, mübahisə və zidiyyət mərhələsində münaqişənin eskalasiyasını dayandırmağın digər yolu olmadığı hallarda münaqişəyə (onun bir növü kimi müharibəyə) qoşulmağa məcbur olur. Bu səbəblərdən biri ikinci tərəfin, diplomatik proses çərçivəsində kompromis axtarmaq arzusunda olmaması (yəni, 1935-ci ildə façist İtaliyasının HəbəŞistana qarşı etdiyi kimi, problemlərin hərb yolu ilə həll olunmasına aşıq-aydın cəhd göstərilməsi), yaxud da həmin dövlətin (birinci iştirakşının) ərazisinə təcavüz faktı və ya artıq elan olunmuş müharibə ola bilər. Bu halda münaqişənin qərəzli təçəbbüskarı ilə ilkin olaraq münaqişəli hərəkətlə yol verilməsi obyekti kimi çıxış edən digər tərəfi fərgləndirmək lazımdır.

**Münaqişədən birbaşa mənfəət əldə etmək arzusu** (maddi və digər inikasda öz gücünün artırılması və müvafiq olaraq, rəqibin zəiflədilməsi hesabına), yaxud iştirakçılardan birinin malik olduğu amillərin kifayət qədər olmamasının dərk edilməsi və münaqişə yolu ilə real və ya yalançı çatışlazmığı aradan qaldırmaq cəhdi.

Bəzi alimlərin fikrincə, münaqişə iştirakçısı münaqişə güc yolu ilə münaqişəyə, yəni müharibəyə başlamaq haqqında qərar qəbul edərkən şüurlu məhsuldar seçimə əsaslana bilər. B.Bueno de Meskita və onun görüşlərinin davamçıları bu cür nöqteyi-nəzəri daha təmərküzləşmiş qaydada izhar edir. De Meskita hesab edir ki, bu qərarın qəbul edilməsinin əsas tərkib hissəsi bir dövlətin digərinə hücüm etməsindən «gözlənilən mənfəətin» (expected utility) hesablanması və dərk olunmasıdır. Bu halda düşüncələrin gedişi məhz bu cürdür.

De Meskitanın rəyincə,münaqişənin başlanması və aparılması nəticəsində gücün artırılması ehtimalı U(g) > U(m) > U(I) bərabərsizliyindən uzaqlaşır – burada birinci üzv gücün artırılması, ikinci üzv əvvəlki səviyyədə saxlanılması, üçüncü üzv isə onun itirilməsidir. Bu zaman yüksək intansivliyə malik münaqişənin (müharibənin) xeyrinə edilən seçim ehtimalı aşağıdakı kimi olacaq:

$$[ P (Ug) + (1-P) (UI) - C] > U(m)$$

Burada P həmin əməliyyatlar nəticəsində gücün artması ehtimalı, C isə həmin əməliyyatların təşəbbüskar dövlətə yetirəcəyi mümkün ziyanların (itkilərin) dəyəridir.

Dövlətin qücünün artırılması vasitəsi kimi müharibənin xeyrinə edilən seçimin bu cür inkişafı o halda mümkün olur ki, xarici siyasi və hərbi qərarları qəbul edən orqan «mənfəət» ehtimalının 0,5-dən artıq (50% və daha artıq) olması kimi nəzərdə tutsun. Məsələn, SSRİ üçün sovet-fin münaqişəsi halında müharibədən əldə edilən «mənfəət» ehtimalı, bu istiqaməti öyrənən alimlərin fikrincə, 0,842 təşkil edirdi və müvafiq olaraq, hərbi qələbə və Finlandiyanın Sovet İttifaqının tələblərini yerinə yetirməsi məqsədini güdən hücum qərarı verilmişdi.

Çox güman ki, gücün artırılmasından irəli qələn mənfəət öz təzahürünü təkcə əyani, dərk olunan və ölçülə bilən formalarda tapmır. Mənfəət kimi təkcə maddi obyektlər (münaqişənin inkişaf etdiyi ərazi, münaqişə ilə əhatə olunan insanı və təbii resurslar) yox, həm də uzunmüddətli statuslu anlayışlar – güc özünün birbaşa anlamında yox, həm də dünya siyasətindəki «dostların» və «düşmənlərin» düşüncəsində çıxış edir (bəzən münaqişənin tədqiqatçıları «güc qavrayışı» termininindən istifadə edirlər).

Bəzən dövlətlər arasında nifaq yarada bilən maddi obyektlərin üzərində də statuslu parametrlərin izləri olur. Münaqişəli qarşılıqlı əlaqələrin obyektində maddi və statuslu amillərin ehtiva edilməsinə misal olaraq tarixi Elzas və Lotaringiya vilayətləri ilə bağlı münaqişəni misal göstərmək olar. Münaqişənin hər iki iştirakçısının (Fransanın və Almaniyanın) həmin amillərə malik olması təkcə həmin ərazinin güclü iqtisadi potensialından istifadə olunması nöqteyi-nəzərindən yox, həm də müəyyən dərəcədə həmin vilayətlərin, «tarixi rəqibə münasibətdə üstünlük təşkil edən vəziyyətin rəmzi kimi çıxış etməsi səbəbindən prinsipial səciyyə daşıyırdı. 1945-ci ildən sonra ABŞ-SSRİ münaqişəsində bir çox obyektlər də «statuslu» səciyyə daşıyırdı: «superdövlətlərin» qarşıdurma xətlərindən

biri məhz digər dövlətlərin davranışına və müvafiq olaraq, dünyanın siyasi inkişafının gedişinə təsir göstərilməsinin yüksək səviyyəsinin təyin edilməsindən keçirdi.

4. Beynəlxalq münaqişənin inisiasiyası hesabına cəmiyyətin, ölkənin daxili problemlərini həll etmək cəhdi («münaqişənin eksternalizasiyası», yəni daxili disharmoniyanın, cəmiyyətdəki gərginliyin xarici mühitə çıxarılması).

Çox vaxt hakimiyyətdən olan siyasi qüvvələrin və ya rejimlərin xarici siyasi uğurlar hesabına öz mövqeyini möhkəmləndirməsi və ya hakimiyyət üçün əlverişli olmayan daxili siyasi tendensiyaların dayandırılması cəhdi də mümkündür.

Bu cür misallar tarixdən yaxşı məlumdur. Bunlardan biri kimi, İkinci imperiya (1852-1870) dövründə Fransanın düşmənlərlə açıq münaqişəyə yönəldilmiş xarici siyasətini göstərmək olar. İmperator Lui Bonapart (III Napoleon) hesab edir ki, xüsusilə 1848-1849-cu illərdəki gur inqilab koliziyalarından sonra öz hakimiyyət rejimini möhkəmləndirmək və cəmiyyətdə aşkar sabitlik yaratmaq üçün yeni imperiyanın böyük səs-küyə səbəb ola biləcək xarici siyasi və hərbi uğurlar qazanması zəruridir. Bu cür yanaşma əsasən, Fransanın Rusiya əleyhinə Krım müharibəsində (1853-1856) və İtaliyada Avstriya imperiyasına qarşı aparılan müharibədə (1859) fəal iştirak etmək arzusunu diktə etdi, Meksikada avantüralara və ABŞ-dakı vətəndaş müharibəsində(1861-1865) baş verən hadisələrə dolayısı yola müdaxilə edilməsinə təkan verdi.

Dünya səhnəsində dövlətlərin münaqişəli davranışının motivlərini izah edən həmin amillərdən əlavə müxtəlif «meqa-nəzəriyyələr» mövcuddur ki, onların da müəllifləri ilk növbədə ya bütünlüklə bəşəriyyət tarixi ərzində, ya da yeni və ən yeni tarix dövründə münaqişənin bir növü kimi məhz müharibənin baş verməsini izah edən ümumi «qanun» çıxarmağa çalışırlar. Adi çəkilən Bueno de Meskitadan, başqa çoxlu sayda misallar mövcuddur. Bir neçə ilüstrasiyası ilə kifayətlənək.

Məsələn, təxminən 30 il bundan əvvəl A.Orqanskinin konsepsiyası kifayət qədər geniş yatılmışdı – o, «realizm» ənənəsi çərçivəsində müharibələrin baş verməsinin əsas səbəbini beynəlxalq arenada gücün qeyri-bərabər çəkildə bölüşdürülməsində görməyə meylli idi. Bu nöqteyi-nəzərə müvafiq olaraq, «müasirləşmənin differensiasiyası» – dövlətlərin sosial-iqtisadi inkişafının müxtəlif templəri – onlardan birinin münaqişədə gələcək artımla əlaqədar onun qarşısında duran vəzifələri həll etməyə çalışaraq digərinə və ya digərlərinə meydan oxunmasına gətirib çıxarır.

C.Modelski və U.Tompson müharibənin baş verməsi problemlərini (dövlətlərin münaqişəli davranışlarının motivlərini) başqa cür görürlər. Onlar «uzun sikllər nəzəriyyəsi» adlanan nəzəriyyəni dəstəkləməyə meyl edirlər. Bu nəzəriyyənin mahiyyəti ondan ibarətdir ki, «böyük müharibələr» və müvafiq olaraq, beynəlxalq münasibətlərin sistemli modellərinin dəyişilməsi təxminən 100 ildə bir dəfə baş verir və buna da böyük derjavaların dünyada

liderlik uğrunda apardığı mübarizə səbəb olur. Modelski və onun davamçıları XVII əsrin ortalarındakı ingilis-holland rəqabətini, XIV Ludovikin müharibələrini, Yeddiillik müharibəni, ABŞ-n müstəqillik uğrunda apardığı müharibəni, Napoleon müharibələrini və əlbəttə ki, hər iki dünya müharibəsini bu cür münaqişələrdən hesab etməyə meyl edirlər.

Nəhayət, sonuncu iki onillik ərzində «kənar təzyiq» 9 (lateral pressure) nəzəriyyəsi geniş vüsət almışdır. Bu nəzəriyyənin müəllifləri Nazli çukri və Robert Nort hesab olunur. Onların nöqteyi-nəzəri belə bir inama əsaslanır ki, əhalinin artımı və sənaye texnologiyasında baş verən dəyişikliklər bu və ya digər dövlətin resurslarının məhdudlaşdırılmasına gətirib çıxarır. Bu cür titrəyişlər dövlətləri xarici mühitdə zəruri resursların əldə edilməsi yollarını axtarmağa səy göstərməyə sövq edir və başqalarının da bu cür səyi ilə qarşılaşır. Nəticə etibarı ilə dövlətlərin «maraqlarının kəsişməsi» səviyyəsi artır ki, bu da kəskin münaqişələrə və müharibələrə səbəb ola bilər. Bununla belə, nəzəri quruluşların çoxluğuna baxmayaraq, elm hələlik dövlətlərin münaqişəli davranışının motivləşdirilməsinin analizinin müəyyən dərəcədə universal – isbat edilə bilən və tarixi reallığa müvəffəqiyyətlə uyğunlaşdırılan sxemini işləyib hazırlamamışdır.

Beynəlxalq münasibət elementlərinin münaqişəli davranışının motivləşdirilməsi probleminin **münaqişəli obyektləri** haqqında məsələ ilə, yəni həmin dövlətlərin arasındakı zidiyyətin mərkəzinə qoyulan konkret problemlərə əlaqələndirmək daha düzgündür. Tərəflər üçün münaqişədə mübahisəli olan süjetlərin əhəmiyyəti ilə onun miqyası və intensivliyi arasında birbaşa əlaqə olduğunu ehtimal edən tədqiqatçılarla razılaşmaq olar. Əgər münaqişənin miqyasını M (kf) kimi işarə etsək, o zaman M(kf) + Vi – Vj, burada i və j münaqişənin iştirakçısı olan dövlətlər, Vi birinci iştirakçının qalib gələcəyi təqdirdə nəticənin dəyəri, Vj isə ikinci iştirakçının(j dövlətinin) qalib gələcəyi təqdirdə münaqişənin nəticəsinin dəyəridir.

Bir sıra müasir tətqiqatçılar dövlətlərarası və ya bloklararası münaqişənin inkişafına səbəb ola biləcək mübahisəli problemləri, «münaqişəli obyektləri»ön plana çıxarırlar. Məsələn, məşhur «Sülh və hərb» əsərinin müəllifi K.Holsti hesab edirdi ki,məhz dövlətlər arasındakı münasibətlərdə bu mübahisəli problemlərin mahiyyətinin dərk edilməsi beynəlxalq münasibətlər tarixinın və gələcək inkişafının düzgün qiymətləndirilməsi üçün açar ola bilər. K.Holstinin fikrincə, 1945-1989-cu illər ərzində dövlətlərin və ya onların birliklərinin münaqişəli münasibətlərinin mərkəzində dayanan məsələləri bütünlüklə zərurət səviyyəsinə və potensial «münaqişənin galerasiyası» səviyyəsinə görə ayırmaq olar. Holsti hesab edirdi ki, həmin dövr çərçivəsində 183 münaqişəni nəzərdən keçirmək olar – bunların arasında say etibarı ilə «münaqişənin generatorları» qismində birinci yerdə aşağıdakı üç amil dayanırdı (hər biri ümumi sayın 9% həcmində):

- **münaqişəyə cəlb olunan ölkədə siyasi rejimin səciyyəsi;**

**• dünyada siyasi vahid kimi yeni dövlətin yaradılması;**

**• dövlətin suverenliyinin dəstəklənməsi və ,/və ya qorunub saxlanması.**

Holstinin hesablamalarına görə,bu üç «meqa-problemin» ardınca aşağıdakılar gəlir (8%-dən 5%-dək):

• Ərazi məsələləri (məkanın qəsb edilməsi, ərazi ekspansiyası və ya əksinə, hər hansı ərazinin qorunub saxlanması)

Dövlətin və müvafiq siyasi rejimin yaşaması masələləri;

• «Strateji əraziyə »nəzarət;

Milli birlik və ya «millətlərin konsolidasiyası»;

• Hərbi-siyasi müttəfiqin müdafiəsi və ya dəstəklənməsi

Baş verən münaqişələrdəki digər məsələlərin (iqtisadi və ticarət maraqlarının müdafiəsi, dini-etnik səbəblər, ittifaq öhdəliklərinin yerinə yetirilməsi zərurəti, regional hegemonluq uğrunda mübarizə və s.) göstəriciləri 1-4% təşkil edir.

Təklif olunan statistikanın,analizin və nəticələrin maraqlı cəhəti ondadır ki,onlar Yeni və ən yeni dövr, yəni 1968-1989-cu illər arası dövr ərzində – Vestfal sülhündən «soyuq müharibənin» sonunadək olan dövrdə «münaqişəli obyektlər» xətti üzrə dövlətlərarası münaqişəli münasibətlərin inkişaf dinamikasını izləməyə imkan verir.

Holstinin hesablamalarına görə, dövlətlərarası münaqişələrdə bilavasitə rəqiblərin ərazilərinin və resurslarının ələ keçirilməsi ilə bilavasitə əlaqədar olan məsələlərin payı durmadan azalır (1648-1714-cü illər arası dövr ərzindəki 25%-dən 1918-1941-ci illərdəki 14% və 1945-1989-cu illərdə 8%-dək). Belə tendensiya «strateji ərazilərin» qorunub saxlanması, ticarət maraqlarının və naviqasiyanın müdafiəsi kimi məsələlərdə də özünü göstərir. Bu, əlbəttə ki, dövlətlər arasındakı qarşılıqlı əlaqələrin şərtləri ilə, eləcə də dünya təsərrüfatının funksiyasının digər səciyyəsi ilə izah olunur.

Bu və ya digər dövlətlərarası münaqişənin cərəyan etməsinin vəziyyət **kontekstinin** nəzərə alınması problemi ən azı iki nlanda irəli sürülə bilər. Bunlardan birincisi münaqiçənin müxtəlif mərhələrində iştirakçıların **daxili vəziyyətidir**. Bu məqam, ilk növbədə, dövlətin münaqişədə öz məqsədlərinə çatması üçün onun imkanları anlamında zəruridir. Daxili siyasi qeyri-sabitlik, hakimiyyətdəki qüvvələrin arasında qarşıdurmalar, ictimai şüurun xarici siyasət istiqamətlərindəki tərəddüdlər, iqtisadi problemlərin kəskinləşməsi, bu cür xüsusiyyətə malik digər problemlər dövlətin münaqişədə etdiyi cəhdlərə mənfi təsir göstərir, beynəlxalq-siyasi qarşıdurmada ölkənin maraqlarının təmin olunması yolunda maneəyə çevrilir.

Münaqişənin vəziyyət kontekstinin ikinci tərəfi beynəlxalq münasibətlər mühitinin ümumi vəziyyətidir. Məsələn, mühitdəki nisbi sabitlik və münaqişənin aşağı səviyyədə olması ümimilikdə münaqişənin inisiasiyası üşün maneəli amil ola bilər. Tarixi təcrübənin

göstərdiyi kimi, bu cür vəziyyət o zaman baş verir ki, beynəlxalq münasibətlərin bu və ya digər sistemli modeli öz yaranma mərhələsini keçmiş və bir qayda olaraq ən güclü dövlətlər (superdövlətlər) qrupunun öz mənafeyini güddüyü iyerarxiya üsulunun mövcüdluğuna əsaslanan müvazinətə yetmiş olmuş. Buna misal olaraq, 1923-1929-vu illəri göstərmək olar – həmin dövrdə beynəlxalq sistemin Versal-Vaşinqton modeli bu və ya digər dərəcədə «yerində möhkəm dayanırdı».

Digər hallarda beynəlxalq-siyasi mühitin (şəraitin) vəziyyəti münaqişə iştirakçılarından biri üçün əlverişli şərait, digəri üçün isə ciddi çətinliklər yarada bilər.Buna səciyyəvi misal kimi, Krım müharibəsini (1853-1856) göstərmək olar – həmin müharibənin gedişində Rusiya imperiyası, mahiyyət etibarı ilə beynəlxalq aləmdən təcrid olundu, onun rəqibləri (İngiltərə, Fransa) isə nəinki ona hərbi zərbə vurmağa, həm də onu uzun müddətə zəiflətməyə nail oldular. Başqa bir misal kimi, 1990-ci ildə Küveytə hücum edərkən İraqın beynəlxalq-siyasi mühitin vəziyyətini düzgün təhlil etməməsini göstərmək olar. Həmin dövrdə aydın idi ki, SSRİ-nin kəskin surətdə zəifləməsi və «şərq blokunun» faktiki süqutu ilə beynəlxalq münasibətlər sisteminin köklü şəkildə yenidən qurulması başlanır və Amerika Birləşmiş Ştatları dünyada yeni qayda-qanunun qoyulması roluna əsas namizəd olan potensial hegemon olur. «Soyuq müharibədən» sonra ABŞ-n eventual lider və dünyada yeni qayda-qanunun yaradıcısı kimi reaksiyası da gözlənilən idi. Yaranmış vəziyyət hərbi əməliyyatların həyata keçirilməsi üçün ABŞ-a əlavə imkanlar verirdi – bu əməliyyatlar həm ölkə daxilində,həm də bütün dünyada beynəlxalq içtimai rəylə dəstəklənirdi. İraq üçün isə bu vəziyyət konteksti həm müharibənin getdiyi dövrdə,həm də ondan çox-çox sonra daxili və xarici iqtisadi planda eləcə də qonşularla və potensial şəkildə dost dövlətlərdə münasibətlərdə problemlər yaratdı.

Münaqişələrin səbəblərini izah edən müxtəlif nəzəri konstruksiyalar bu və ya digər şəkildə **münaqiçə iştirakçılarının bir-birini dərk etməsi** problemini də ortaya çıxarır. Görünür, rəqiblərin bir-birini dərk etməsi, münaqişədəki maraqları və məqsədləri haqqında təsəvvürlərinin xarakteri iştirakçıların öz davranış növünü seçməsində, öz məqsədlərinə şatma vasitələrini təyin etməsində əhəmiyyətli bəlkə də əsas rol oynayır. Təsəvvür edildiyi kimi, burada aşağıdaki amillərin təsiri də mövcuddur:

- İştirakçıların eyniyyət (oxşarlıq) dərəcəsi yəni, eyni obyektlər «sinfinə» mənsubluğu-məsələn, münaqişənin hər iki iştirakçısı dövlət ola bilər, amma belə bir vəziyyət də yarana bilər ki, iştirakçılardan biri dövlət, ikincisi isə dövlətlər qrupu və ya beynəlxalq orqan olsun, yaxud digər halda, münaqişənin iştirakçıları mütəşəkkil sosial-siyasi qruplar olsun). Gördüyümüz kimi, bu aspekt yuxarıda nəzərdən keçirilən münaqişə strukturunun problemi ilə bilavasitə əlaqəlidir.
- Rəqiblər arasında mövcüd olan coğrafı və digər əlaqənin səviyyəsi və onların

məasəd və maraqları arasındakı uzlaşmayan fərqlərin görünmə səviyyəsi;

– İştirakçıların özünüeyniləşdirilməsi;

• Rəqiblərin bir-birini keyfiyyət cəhətdən qiymətləndirilməsi.

Göstərilən amillər kompleksinin rəqibin dərk edilməsinə və münaqişədəki mümkün davranışına təsir göstərməsi özünü belə büruzə verir: münaqişə içtirakçıları bir-birini dərk edərkən ümumi qəbul edilmiş hər hansı universal anlayışlardan yox, öz biliklərindən və dünyaqörüşlərindən çıxış edirlər. Müvafiq olaraq, onların bir-birini dərk etməsi oxşar olmamaqla bərabər, ümumiyyətlə reallıqdan uzaq ola bilər. Təbii ki, rəqibin konkret praktik hərəkətlərinin və münaqişədəki davranış strategiyalarının motivləşdirliməsi ilə əlaqədar gözlənilənlər heç də həmişə dəqiq və düzgün olmur. Bundan əlavə, burada açıq-aşkar subyektiv element – rəqib haqqında bilgilərə əlavə süni rəmzlərin və onların törəmə xüsusiyyətlərinin daxil edilməsi elementi işə düşür. Bu, məsələn, elə bir halda adi hadisə hesab olunur ki, dövlətin cəmiyyətdə lazımı sosial kontest yaratması və münaqişədə qəti addımların atılmasının labüdlüyünü ideoloji cəhətdən əsaslandırması zəruri olsun.

Buna bir qayda olaraq, ictimai şüurun uzunmüddətli ideoloji formalaşması, yaxud münaqişənin kəskinləşməsindən əvvəl birbaşa təbliğat yolu ilə nail olunur.

Münaqişədəki rəqib cəmiyyət üçün müəyyən «şər qüvvə» mücəssəməsinə çevrilir və həmin qüvvəyə qarşı bütün mübarizə üsullarından, o cümlədən zorakılıqdan istifadə olunmasına bəraət qazandırılır. Rəqibin fövqəladə, yaxud qərəzli şəkildə «demonizasiya» edilməsi hallarına beynəlxalq münasibətlər və xüsusilə də müharibələr tarixində kifayət qədər tez-tez rast gəlinir. Bunu XIX əsrin ortalarından İkinci dünya müharibəsinin sonlarınadək olan dövrdə Fransa ilə Almaniyanın münaqişəsinə münasibətdə ictimai süurun formalaşmasının timsalında görmək olar. Məsələn, 1870-ci il Fransa-Prussiya müharibəsindən qabaq bir şox almanlar fransızları «yalandan, özbaşınalıqdan, təkkəbbürdən yoğrulmuş» tarixi düşmən, alman dövlətlərinin milli birliyi qarşısında duran əsas maneə hesab edirdilər. Münaqişədə rəqibin «demonizasiya olunmuş»şəkildə dərk edilməsinə başqa bir misal «soyuq müharibə»dövründə SSRİ ilə ABŞ-ın təbliğat yolu ilə yaradılmış ictimai dərk stereotiplərindən irəli gəlir. Çox vaxt bu münaqişə onun iştirakçıları tərəfindən təxminən «dünya imperializminin» istinatgahına( ABŞ-a) qarşı «sülh və tərəqqi istehkamı» (SSRİ), yaxud əksinə, «şər imperiyasına» (SSRİ-yə) qarşı «qərb sivilizasiyasının müdafiəçisi» (ABŞ) kimi ritorik şəkildə dərk edilərək təsvir olunurdu.

Yeni tarixin misallarından ən parlağı rəqiblərin bir-birini şəri xəyanətin, etik və mənəvi normaların inkar edilməsinin, zorakılığa və qarşısıalınmaz sülmə can atmağın təcəssümü kimi qiymətləndirməsidir. Bu məqam ABŞ-İran. ABŞ-İraq, İsrail-ərəb dövlətləri və ya NATO-Yuqoslaviya kimi münaqişəli cütlüklərdə öz əksini tapır.

Münaqişə iştirakçılarının bir-birini maraqlarını və davranışlarını düzgün dərk

etməməsinə heç də həmişə iştirakçıların öz daxilində mövcud olan və münaqişənin alovlanmasında maraqlı olan siyasi dövlət elitalarının və ya hər hansı digər qruplaşmaların məqsədyönlü siyasəti səbəb olmur. Amma münaqişənin dərk olunmasında özünü büruzə verən bu məqam son dərəcə zəruri ola bilər, çünki bir muddətdən sonra bir çox hallarda, ilk növbədə, münaqişənin və bir çox hallarda olduğu kimi, münaqişənin aparılması üçün vasitələrin seçiminin intensivliyinin dəyişməsi haqqında mühüm qərarlar qəbul edilməsi prosesi məhz həmin məqamın üzərində formalaşacaqdır.

Nəhayət, beynəlxalq-siyasi qarşılıqlı əlaqələrin qiymətləndirilməsindəki ən zəruri mövqelərdən birinə – **münaqişə funksiyaları** probleminə nəzər salaq. Yuxarıda qeyd olunduğu kimi,münaqişə bu və ya digər şəkildə beynəlxalq münasibətlər mühitinin keyfiyyət baxımından dəyişilməsini özündə əks etdirir. Münaqişənin əsas ümumi funksiyası ondan ibarətdir ki, o dəyişikliklər potensialını – həm iştirakçıların özünün həm də beynəlxalq mühitinin keyfiyyət baxımından dəyişilməsini özündə əks etdirir. Münaqişənin səciyyəsi və onun gedişi həmin potensialın məhz necə realizə olunacağını və hansı nəticələrə gətirib çıxaracağını müəyyən edir. Münaqişənin bir sıra özəl funksiyalarını da göstərmək olar:

1. Münaqişə (və ya münaqişələr seriyası) beynəlxalq münasibətlərin sistemli modelini yarada və ya məhv edə bilər. Bu cür münaqişələr, bir qayda olaraq, «böyük» müharibələrdir.

2. Beynəlxalq-siyasi münaqişə dövlətlərin (blokların, ittifaqların, inteqrasiya strukturlarının və s.) hərbi-siyasi və digər birliklərinin yaranmasına və birləşməsinə şərait yaradır.

3. Münaqişə beynəlxalq münasibətlərin regional alt sistemlərinin formalaşmasına və regionlarda dövlətlər arasındakı münasibətləri tənzimləyən iyerarxiya strukturlarının yaranmasına gətirib çıxara bilər.

4. Münaqişə öz inkişaf prosesində onun uzunmüddətli «özünübərpasına» kömək edən iştirakçıların yeni, əlavə dəyər və məqsəd motivlərini yarada bilər. Münaqişənin inkişafı həmçinin davranış strategiyaları ilə bərabər, münaqişəli hərəkətlər üçün yeni vasitələrin yaranması ilə nəticələnə bilər.

Bununla əlaqədar olaraq, qeyd etmək lazımdır ki,münaqişə transformasiya oluna,yəni öz inkişafı boyunca «münaqişəli obyektlər», dövlətlərarası zidiyyətlərin mərkəzində dayanan məsələlər toplusunu və iyerarxiyasının dəyişə bilər. SSRİ ilə ABŞ arasındakı qlobal münaqişə 1945-ci ildən sonra bir neçə inkişaf mərhələsi keçmişdir. Kəskin Karib böhranı rəqiblərin baş-başa toqquşmasında arzuolunan siyasi nəticələrə nail olmağın qeyri-mümkünlüyünün dərk olunmasına gətirib çıxardı. İlk növbədə, «münaqişəli obyektlərin» seçimindəki intensivliyin və dəyişiklərin azaldılması hesabına münaqişənin məlum transformasiyası baş verdi. Bu zaman Sovet İttifaqı ilə ABŞ-ın dövlət

maraqlarındakı münaqişələr qətiyyən bitib-tükənməsə də, hərbi toqquşma ehtimalı az olan qarşılıqlı təsirə çevrildi. Başqa sözlə, bu münaqişədə rəqiblərin güc yolu ilə hər hansı hərəkətlərə məcbur edilməsi «münaqişəli obyekylərin» iyerarxiyasının üst hissəsindən yığışdırıldı.

5. Münaqişənin daxil təbiəti (onun iştirakçılarının əsas keyfiyyət xüsusiyyətləri) – güc səviyyəsini, cəmiyyətdəki sosial-iqtisadi və siyasi münasibətləri dəyişə bilər.

6. Münaqişə tez-tez inteqrativ funksiyanı yerinə yetirir – yəni iştirakçı dövlətlərin daxilində sosiumun (cəmiyyətin, onun siyasi strukturlarının) vəhdətinə, onların daxili resurslarının səfərbər edilməsinə şərait yaradır. Bir qayda olaraq, bu funksiyanın yerinə yetirilməsi beynəlxalq-siyasi münaqişədə iştirakçılığın əsaslandırılmasına və ona bəraət qazandırılmasına xidmət edən müvafiq («səfərbəredici») ideologiyanın yaradılması və yayılması ilə müşayiət olunur.

7. İnteqrativ funksiyanın əks tərəfi differensiasiya funksiyasıdır. O özünü elə şəkildə büruzə verir ki, məsələn, sosiumun hər hansı bir hissəsi beynəlxalq-siyasi münaqişəni zəruri və ya qaçılmaz bir münaqişə kimi dərk etməkdən imtina edir, bu münaqiçəyə münasibət xətti ilə özünü cəmiyyətin digər hissəsindən ayırır.

Beynəlxalq mühitdə differensiasiya özünü belə bir amildə də büruzə verə bilər ki, münaqişə cəmiyyətdə beynəlxalq münasibətlərin digər subyektlərinin «biz və onlar» xətti ilə dərk olunmasına, dünyanın «dostlara» və «düşmənlərə» bölünməsinə şərait yaradır ki, bi da çox vaxt rəqiblərin adı çəkilən «demonizasiyası» ilə müşaiyət olunur.

8. Beynəlxalq-siyasi münaqişə bir və ya daha çox iştirakçının beynəlxalq statusunun (eləcə də bu cür statusla əlaqəli olan nüfüz anlayışının) dəyişilməsinə gətirib çıxara bilər. Məsələn, 1901-1902-ci illərdə Yaponiyanın Çindəki qiyamın yatırılmasında iştirak etməsi və daha sonra 1904-1905-ci illər rus-yapon müharibəsində qələbə çalması «gündoğar ölkəni» iri dövlətlər sırasına çıxardı və Avropa da bunu tanıdı.

**Böhran münaqişənin xüsusi fazası kimi.** Beynəlxalq-siyasi böhranların baş verməsi probleminə xüsusi diqqət yetirmək lazımdır, çünki böhranı təkcə münaqişənin fazası yox, həm də onun «mikrokosmosu» hesab etmək olar ki, burada da münaqişəli münasibətlərin qanunauyğunluqları özünü daha aydın şəkildə büruzə verə bilər.

Dünya siyasətşünaslıq elmində vahid «böhran nəziriyyəsi» mövcüd deyil və bir şox alimlər hər hansı beynəlxalq böhranı unikal fenomen hesab etməyə meyl edirlər və düşünürlər ki, bu fenomen üşün heç bir ümimi qanun və universal sxem mövcud deyl. Bununla belə, bizim nəzərimizdəki münaqişə anlayışı kontekstində böhran kimi nəzərdən keçirdiyimiz amilə müəyyən izahlar vermək və böhranlı vəziyyətlərin öyrənilməsinə mümkün yanaşmanı göstərmək olar.

Böhran münaqişənin elə bir subfazasıdır ki, bu subfaza bir və ya bir neçə iştirakçı

tərəfindən münaqişəli addımların intensivliyinin kəskin surətdə artması ilə səciyyələnir və münaqişənin daha yüksək və təhlükəli fazaya keçid potensialını ehtiva edir. Böhranı münaqişəli münasibətlərin «qeyri-normal» inkişafı kimi anlamaq düzgün deyil: bu, içtirakçılardan birinin və ya bir neçəsinin hər hansı məqsdlərə tezliklə çatmaq cəhdinin tamamilə qanunauyğun nəticəsi ola bilər. Müvafiq olaraq, böhran zamanı münaqişəli münasibətlərin tam həcminin dinamizmi kəskin surətdə artır. Böhran münaqişənin bir fazası kim həm «sülh» həm də «müharibə» elementlərini ehtiva edir. «Sülh» fazasında olduğu kimi, burada da diplomatik üsul və vasitələrdən istifadə olunur, amma diplomatiyanın məzmunu tamamilə olur və məcburi səciyyə daşıyır. Müvafiq olaraq, «böhranlı diplomatiyada» sözlərin, tərəflərin təklif etdirikləri qərarların «qiyməti, eləcə də mübahisəli məsələlər üzrə diplomatik müzakirələrin nəticələrinin «ehtimalları» nəzərə çarpacaq dərəcədə artır. Böhranda «müharibə» elementləri də aşkardır: tərəflər, bir qayda olaraq, söz tətbiq edilməsi təhlükəsi, hərbi qüvvələrin manipulyasiya edilməsi şəklində zəruri hesab etdikləri amillərin müdafiə olunmasında, zor tətbiq edilməsi şəklində icbarı davranış formalarından istifadə edirlər. Böhranın bütün iştirakçıları üçün onların zəruri hesab etdikləri amillər müdafiə olunmasında zor tətbiq edilməsi ilə qeyri-zorakı vasitələrdən istifadə olunması arasında gərgin seçim problemi durur. Buna görə də, böhrana cəlb olunan bütün dövlətlər üçün əsas problem öz maraqlarının qorunub saxlanması və müdafiəsi, eləcə də müharibə ilə əlaqədar olan ciddi itkilərdən yaxa qurtarmaqdan ibarətdir.

Müasir elmdə münaqişənin yeknəsəq tipologiyasının mövcud olmamasına baxmayaraq, bir çox alimlər böhranı bir fenomen kimi beynəlxalq münasibətlərin inkişafındakı digər məqamlardan fərqləndirməkdə həmrəylik nümayiş etdirirlər.

**Ədəbiyyat:**

**1.Holsti K. Peace and the War Armed Conflikt and ınternational Order. N.Y. 1991.**

**2.James P. Crisis and War. Montreat, 1988.**

**3.Эфендиев О.Ф. Вооруженные конфликты и военные преступления на Центральном Кавказе: международно-правовой аспект. Баку, 2006.**

## 3-cü MÖVZU

# BEYNƏLXALQ SİYASİ MÜNAQİŞƏLƏR

**Suallar:**

1. **Beynəlxalq siyasi münaqişənin anlayışı**
2. **Siyasi və silahlı münaqişələrin nisbəti**
3. **Beynəlxalq münasibətlərdə münaqişələrin və sabitliyin qarşılıqlı əlaqəsi**
4. **Beynəlxalq siyasi münaqişənin nizama salınmasında «üçüncü tərəf»in rolu.**
5. **Hakimiyyət və münaqişə**
6. **Avtoritar hakimiyyət münaqişələri**
7. **Demokratik hakimiyyət münaqişələri**
8. **Siyasi münaqişələrin yaranma səbəbləri və tipologiyası**
9. **Daxili siyasi münaqişənin mahiyyəti və növləri**
10. **Daxili siyasi münaqişələrin qarşısının alınması yolları**
11. **Siyasi münaqişələrin tənzimlənməsi və həlli**

Siyasi münaqişə sosial münaqişənin növlərindən biri, hakimiyyət münasibətləri ilə bağlı siyasi subyektlərin toqquşmasıdır (hakimiyyət və hakimiyyət səlahiyyətləri uğrunda mübarizədir).Siyasi münaqişənin xüsusiyyətlərindən biri bundan ibarətdir ki, o, bilavasitə, yaxud dolayı surətdə böyük sosial qrupların, sosial təbəqələrin, siniflərin, bütövlkdə cəmiyyətin mənafelərinə toxunur. Buna görə də siyasi münaqişənin subyektləri (siyasi təşkilatlar, institutlar və ayrı-ayrı liderlər) həmişə müəyyən sosial birliyin adından çıxış edirlər. Ayrı-ayrı vətəndaşlar öz mənafelərini və dəyərlərini müdafiə etmək üçün birliklər, təşkilatlar və institutlar yaradır, beləliklə, siyasi münaqişənin subyektlərinə çevrilirlər. Deməli, siyasi münaqişə həmişə mütəşəkkil, institutlaşmış münaqişədir.

Siyasi münaqişənin başqa bir xüsusiyyəti hakimiyyət, hakimiyyət səlahiyyətləri uğrunda mübarizədir. Cəmiyyətdə hakimiyyət başqa adamların idarə olunması və öz məqsədlərinə çatmaq üçün təsirli idarəetmə üsul və vasitələrindən biridir. Buna görə də o, böyük cazibə qüvvəsinə malikdir. Bəşəriyyət tarixində hakimiyyət uğrunda mübarizə siyasətin müxtəlif subyektləri (sosial qruplar, silklər, siniflər, etnoslar, ayrı-ayrı liderlər) arasında ən sərt və güzəştsiz münaqişələr doğurmuşdur. Siyasi münaqişənin xüsusiyyətlərinə onun ideoloji əsaslara malik olan dəyər aspektini də aid etmək olar. Siyasi ideologiya xüsusi olaraq vətəndaşların siyasi davranışının məqsəd və ideya yönümü üçün nəzərdə tutulmuş mənəvi təsisatdır. O, siyasi münaqişə subyektlərinin və tərəfdarlarının təşkili, eyniləşdirilməsi və səfərbərliyə alınması funksiyalarını yerinə yetirir. Nəzəri-konseptual

səviyyədən siyasi-proqram səviyyəsinə keçən ideologiya bilavasitə siyasi mübarizə proqramında öz təcəssümünü tapır. Normalarda təsbitini tapmış siyasi dəyər yönümləri siyasətin bütün subyektləri üçün vahid hüquqi sahə (vahid oyun qaydaları) təşkil edir. Lakin burada da siyasi münaqişə öz spesifikliyinə malikdir. Münaqişədə yalnız hakimiyyət tərəfindən zorakılığın tətbiqi qanuni sayılır.

## § 1.Beynəlxalq siyasi münaqişənin anlayışı

Beynəlxalq münasibətlər bəşər tarixindən ayrılmaz olduğu kimi, beynəlxalq siyasi münaqişələr də beynəlxalq münasibətlərdən ayrılmazdır. Min illər boyunca təkrarlanan, fərqli sivilizasiya, sosial, geosiyasi əsasda cərəyan edən beynəlxalq siyasi münaqişə hələ tam öyrənilməmişdir.

«Beynəlxalq münaqişə» anlayışının özünə indiyə qədər dəqiq tərif verilməmişdir. Belə bir yayğın tərif daha geniş yayılmışdır: beynəlxalq münaqişə dövlətlər arasında bütün səviyyələrdə və müxtəlif dərəcədə mövcud ola biləcək münasibətdir. Bu mənada münaqişənin dörd mərhələsini göstərmək olar:

1) uyğunsuzluğun dərk olunması;
2) gərginliyin artması;
3) hərbi güc işlətmədən təzyiq;
4) müharibə.

Dar mənada münaqişə ölkələrin bir-birinə qarşı hərəkət etdiyi vəziyyətlərə aiddir.

Bir qayda olaraq, bu tərifi dəqiqləşdirərkən münaqişənin və əməkdaşlığın sıx əlaqəsi vurğulanır. Qeyd olunur ki, münaqişə kontekstində sülh, məhdud və total müharibə qarşılıqlı surətdə bağlıdır. Dostluq, müttəfiqlik münasibətləri və əməkdaşlıq heç də düşmənçiliyi istisna etmir, dinc münasibətlərin əldə edilməsi isə hərbi əməliyyatların səbəbinə çevrilə bilər.

Bu baxımdan dünya səhnəsində siyasətin və bütün beynəlxalq münasibətlər sisteminin mahiyyəti kimi münaqişənin anlamını qarışdırmaq lazım deyildir. Belə hesab olunur ki, dünya siyasətinin mahiyyəti münaqişə və dünya səhnəsində ali hakimiyyətin mövcudluğunu qəbul etməyən insan qrupları tərəfindən onun nizama salınmasıdır. Münaqişənin belə anlamına əsaslanan alimlər çox vaxt diqqəti zorakılığın rolu üzərində cəmləşdirərək, onda beynəlxalq münaqişənin əsas məzmununu görürlər. Belə ki, həmin alimlərin anlamında beynəlxalq münaqişə özlərini mədəni, yaxud (və ya habelə) siyasi cəhətdən bir-birinə zidd hesab edən və ya etnik qrupla, ya da dövlətlə təmsil olunan qruplar arasında mütəşəkkil zorakılığın təzahürüdür.

Beynəlxalq münaqişənin anlayışını konkretləşdirərkən, bəzi tədqiqatçılar onun bu və ya digər sosial birliklə əlaqəsini göstərməyə çalışırlar. Onlar qeyd edirlər ki, «münaqişə»

anlayışı bir insan qrupunun (tayfa, etnik, dil, yaxud başqa qrupun) başqa qrupla (yaxud qruplarla) şüurlu qarşıdurmada olduğu vəziyyətlərə tətbiqən işlədilir, çünki qruplar uyuşmayan məqsədlər güdürlər. Bu zaman mərkəzi yer «hakimiyyət» anlayışına verilir.

Bizim fikrimizcə, beynəlxalq münaqişə və beynəlxalq münasibətlər sistemində onun yeri son onilliklərdə daim siyasi xarakter daşımışdır. İstənilən beynəlxalq münaqişə siyasi xarakterə malikdir. Dünya siyasəti sahəsində münaqişələrə gəlincə, bu yanaşmanın tərəfdarları onu dövlətlərarası münasibətlər sistemi kimi təhlil edərkən, belə hesab edirlər ki, ona xas olan münaqişələr dövlətlərin xarisi siyasi qarşılıqlı fəaliyyətinin onların mənafe və məqsədlərinin toqquşmasında ifadə olunan xüsusi növü kimi nəzərdən keçirilməlidir.

Ədəbiyyatda, adətən, gedişat formasından və iştirakçıların konkret tərkibindən asılı olmayaraq beynəlxalq və dövlətlərarası münaqişələr fərqləndirilməmişdir. Belə ki, beynəlxalq münaqişəni beynəlxalq münasibətlər sisteminin iştirakçılarının qarşılıqlı münasibətlərindəki bu və ya digər ziddiyyətlərin həmin ziddiyyətlərin kəskinləşməsi mərhələsində, tərəflərin bu zərurəti dərk edərək mövcud beynəlxalq şəraitdə tətbiq oluna biləcək bütün məqbul vasitələrdən istifadə etməklə qarşılıqlı açıq hərəkətləri həyata keçirməsi zamanı təzahür formalarından biri kimi başa düşmək təklif olunurdu. Başqa sözlərlə, beynəlxalq münaqişə dövlətlər arasında birbaşa siyasi münaqişədir.

Ölkəmizdə və dünya miqyasında baş verən kəskin sosial dəyişikliklər, bəzi münaqişələrin həlli və əvvəlki beynəlxalq münasibətlər sisteminin dağılmasını müşayiət edən bir çox başqa siyasi münaqişələrin meydana çıxması beynəlxalq və dvölətlərarası münaqişənin siyasi əsasının və spesifik siyasi əhəmiyyətinin fərqləndirilməsi zərurətini göstərdi. Müasir beynəlxalq münasibətlər sistemində münaqişənin siyasi məzmununu aşkara çıxarmaq meyli dəyişən reallığın nəzəri cəhətdən qiymətləndirilməsinə yeni cəhdlər doğurmaqdadır. Bu cəhdlər aşağıdakı tərifi ifadə etməyə imkan verir:

**Beynəlxalq siyasi münaqişə dünya meydanında qarşılıqlı fəaliyyətdə olan sosial birliklər arasında hakimiyyət münasibətləri sisteminə daxil olan mənafelərin toqquşmasıdır.**

Başqa sözlə, beynəlxalq siyasi münaqişələr sırasına yalnız dövlətlərin və onların birliklərinin siyasi fəaliyyətinin nəticələri olan münaqişələri deyil, həm də beynəlxalq münasibətlərin digər iştirakçılarının istənilən (iqtisadi, informasiya, dini, mədəni, elmi və s.) hərəkətlərinin siyasi aspektləri ilə şərtlənən münaqişələri aid etmək məqsədəuyğundur.

Beynəlxalq siyasi münaqişənin belə anlamı həm daxidi, həm də beynəlxalq siyasi münaqişələrin, habelə siyasi münasibətlərin öyrənilməsi üçün vacib olan bir neçə nəticəyə gəlməyə imkan verir:

-«beynəlxalq siyasi münaqişə» anlayışı yalnız dövlətlər arasındakı münaqişəyə deyil, həm də dünya meydanındakı hakimiyyət münasibətləri sistemində qarşılıqlı fəaliyyətdə olan istənilən sosial birliklər arasındakı münaqişəyə tətbiq oluna bilər;

-beynəlxalq siyasi münaqişənin tam öyrənilməsi onun özünəməxsus daxili məzmununun, yaranmasının və həllinin ilkin şərtlərinin aşkara çıxarılması ilə yanaşı, daxili və dünya siyasətində onun yerinin və əhəmiyyətinin müəyyən olunmasını tələb edir;

-beynəlxalq siyasi münaqişənin öyrənilməsinə müxtəlif yanaşmalardan istifadə edən müxtəlif milli və beynəlxalq tədqiqat mərkəzlərinin və məktəblərinin mütəxəssisləri tərəfindən əldə olunmuş nəticələrin müqayisəsi üçün prinsipial imkan açılır.

Tarix göstərir ki, bu və ya digər beynəlxalq siyasi münaqişədə iştirak, onun gedişi və nəticələri ölkələrin, dövlətlərin, xalqların və ayrı-ayrı sosial qrupların taleyinə köklü təsir göstərə bilər. Müxtəlif ölkələrin və xalqların çoxəsrlik tarixi boyunca saysız-hesabsız belə hadisələr baş vermişdir. Beynəlxalq siyasi münaqişələr nəticəsində bir çox ölkələr və xalqlar özlərinin siyasi təsirini, müstəqilliyini, bəzən isə ərazisini itirmiş, yaxud, əksinə, dünyadakı mövqeyini möhkəmləndirmişdir.

Təəccüblü deyildir ki, insanlar həmişə münaqişələri öyrənməyə, beynəlxalq münaqişələrin anlamına dünya meydanındakı siyasi qarşıdurmanı dəyərləndirməyə imkan verən yanaşmalar tapmağa çalışmışlar. Belə yanaşmalardan birini münaqişənin «insanın təbiəti»ndən qaynaqlanması təşkil edir. Əsrlər boyunca insanlar münaqişələrin səbəblərinin və təbiətinin izahını özlərinin və başqalarının təkəbbüründə, məhəbbətində, nifrətində, bəzən isə tibbi müdaxilə tələb edən patologiyada axtarmağa çalışmışlar. Bütün bunları yalnız sülalə mübahisələri, siyasi, yaxud dini çəkişmələr kimi «tipik» münaqişələrdə deyil, həm də münaqişə xarakterli digər sosial təzahürlərdə və proseslərdə (Avropa mətbuatında müsəlman müqəddəslərinin karikaturalarının dərc olunması, korrupsiya, cinayətkarlığın artması və s.) görmək olar. Müasir tədqiqatçılar münaqişələrin təbiəti və səbəbləri haqqında oxşar təsəvvürləri hələ Fukididin b.e.ə. V əsrdə yaratdığı «Tarix»də tapırlar. Bu anlamın tərəfdarları münaqişənin yaşarılığını insan təbiətinin dəyişməzliyi ilə izah edirlər. Əməli siyasətdə belə yanaşmadan istifadəyə misal kimi müharibənin səbəblərinin siyasətdən daha çox patologiya sahəsinə aid olması barədə mülahizələr göstərilə bilər; belə ki, həmin səbəblər fayda və üstünlüyün ayıq başla qiymətləndirilməsindən daha çox xəstə mənəmlik hissi ilə bağlı olur. Bu baxımdan Şərq və Qərb arasında barışıq, ilk növbədə, əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinin və əməli məqsədlərin əldə olunmasında ümumilik hissinin dərinləşdirilməsinin psixoloji problemləri ilə bağlıdır. Bu zaman münaqişə bütün ölkələrdə və bütün dövrlərdə mövcud olan, yəni ümumi xarakterə malik əsas ziddiyyətdən törəmə ziddiyyətlərin nəticəsi kimi başa düşülür.

Münaqişələrin anlamına mənafelərin toqquşması kimi başqa bir yanaşma onunla bağlıdır ki, bu yanaşma tərəfdarlarının fikrincə, istənilən münaqişənin əsasında mənafe durur. Müxtəlif dövrlərdə bu yanaşmaya N.Makiavelli, T. Hobbs, M.Veber, R. Darendorf tərəfdar çıxmışlar. Mənafenin özünün təfsirlərinin insan təbiətindən tutmuş ictimai

münasibətlərin sinfi mahiyyətinə qədər fərqlənməsinə rəğmən, bu yanaşmanın tərəfdarları istənilən sosial münaqişəni mənafelərin münaqişəsi kimi anlamağa, nizamlamağa və son nəticədə həll etməyə çalışırlar.

Münaqişənin mənafelərin, o cümlədən əks, bir-birini tamamlayan və hətta eyni mənafelərin toqquşması kimi anlamı onun həqiqi səbəblərinin axtarılmasını şərtləndirir. Bu, həm də xammal və satış bazarları ucbatından transmilli korporasiyaların mənafelərinin toqquşması, dünyanın bu və ya digər regionunda siyasi təsir uğrunda dövlətlərin mübarizəsi, bəzi etnosların digər etnosları tabe, hətta məhv etməyə can atması kimi təzahürlərə də aiddir. Burada mənafeyin, habelə cəmiyyət həyatının müxtəlif sahələrində mənafelərin təzahür xüsusiyyətlərinin müəyyən edilərək açıqlanması xüsusi əhəmiyyətə malikdir.

Bu barədə irəli sürülən mülahizələrin bütün müxtəlifliyinə rəğmən onların əksəriyyətində belə bir fikir təkrarlanır ki, mənafe insanın, sosial qrupların, dövlətlərin, yaxud istənilən başqa sosial birliyin həmin sosial birliyin, ölkənin, yaxud dövlətin qorunmasını və inkişafını təmin edən maddi və mənəvi nemətlərə, ehtiyatlara və şəraitə dərk olunmuş tələbatıdır.

Münaqişələrin öyrənilməsi onların təsnifləşdirilməsini, münaqişələrin özünəməxsus xüsusiyyətlər üzrə qruplaşdırılmasını tələb edir.

Tipləşdirmə, yəni münaqişənin bu və ya digər növə aid edilməsi üçün əsas qismində aşağıdakılar çıxış edə bilər: münaqişənin iştirakçıları (məsələn, dövlətlərarası münaqişələr); onların sayı (ikitərəfli, çoxtərəfli münaqişələr); münaqişə iştirakçılarının mənafelərinin toqquşduğu sahələr (iqtisadi, dini, siyasi münaqişələr); münaqişənin xarakteri və gedişat forması (gizli, açıq, silahlı münaqişələr), münaqişənin müddəti, yaranma səbəbləri və s. Münaqişələrin təsnifləşdirilməsi – müxtəlif konkret münaqişələrin bir qrupda birləşdirilməsi, yaxud eyni tipə aid edilməsi yalnız onların obyektiv xarakteristikalarını əks etdirmir, həm də onların öyrənilməsinin asanlaşdırılmasına xidmət edir.

Siyasi münaqişələr öyrənilərkən onların arasında, birincisi, daxili siyasi və beynəlxalq siyasi münaqişələr fərqləndirilir. Daxili siyasi münaqişələrə dövlətin sərhədləri daxilində cərəyan edən münaqişələr aiddir. Məsələn, bu və ya digər dövlət vəzifəsinə iddaçıların qarşıdurması, siyasi partiyaların arasında, yaxud partiya rəhbərliyində yer uğrunda siyasi xadimlərin arasında rəqabətlə şərtlənən münaqişəli vəziyyətlər, eyni ölkənin müxtəlif siyasi tələblərlə çıxış edən ictimat hərəkatlarının toqquşması və s.

Beynəlxalq siyasi münaqişələrə dünya meydanında, yəni milli-dövlət sərhədlərindən kənarda baş verən siyasi münaqişələr aiddir. Məsələn, müxtəlif dövlətlər və onların ittifaqları, beynəlxalq təşkilatlar, müxtəlif ölkələrdə fəaliyyət göstərən ictimai-siyasi birliklər arasında münaqişələr və s. Burada vurğulamaq vacibdir ki, bütün beynəlxalq münaqişələr

siyasi münaqişə deyildir.Ermənistanın Azərbaycan ərazisinin 20 %-ni işğal etməsi ilə nəticələnmiş ermənistan-azərbaycan, Dağlıq Qarabağ münaqişəsi siyasi münaqişələrin konkret təcəssümüdür.

İkincisi, beynəlxalq siyasi münaqişələr silahlı və silahsız münaqişələrə ayrılır. Silahlı münaqişə (daha geniş mənada müharibə) dedikdə müasir hərbi konfliktologiyada aşağıdakı xarakteristkalara malik olan münaqişə başa düşülür: mübarizədə iki və ya daha artıq silahlı tərəf bilavasitə iştirak edir; döyüş əməliyyatları heç olmasa minimum mərkəzləşdirilmiş rəhbərlik səviyyəsində aparılır; silahlı əməliyyatlar münaqişə tərəflərinin kortəbii hərəkətləri kimi deyil, müəyyən daimiliklə həyata keçirilir. Silahlı siyasi münaqişələrə misal kimi 1980-ci illərdə İngiltərə və Argentina arasında Folklend (Malvina) adaları uğrunda baş verən münaqişəni, Ermənistan-Azərbaycan münaqişəsini və s. göstərmək olar.

Üçüncüsü, beynəlxalq siyasi münaqişələr onların nizama salınması perspektivi baxımından nəzərdən keçirilərkən siyasi münaqişələrin «çarpışmalar2a (yaxud «döyüşlər»ə), oyunlar»a və «deyişmələr»ə (yaxud «mübahisələr»ə) bölünməsindən istifadə olunur. Bu bölgü ədəbiyyatda geniş yayılmışdır və beynəlxalq siyasi münaqişələrin spesifik xüsusiyyətlərinin və dinamikasının öyrənilməsində çox fəal surətdə cəlb olunur.

«Çarpışma» tipli münaqişələrdə hər bir iştirakçı tərəf digər tərəfi nəyin bahasına olursa-olsun məhv, tabe, yaxud təcrid edilməli olan düşmən kimi qavrayır.

Düşmənə mümkün qədər böyük ziyan vurmağa çalışan münaqişə tərəfləri öz məsrəfləri ilə hesablaşmadan, optimal fəaliyyət strategiyasının işlənib hazırlanmasının qeydinə qalmırlar. Bu münaqişənin iştirakçılarına yalnız qələbə lazımdır, qarşıdurmanın başqa nəticəsi onları qane etmir.

«Oyunlar» iştirakçılarının onların qarşıdurmasını məhdudlaşdıran özünəməxsus çərçivələr yaradan qaydaları rəhbər tutaraq, uzlaşmaz məqsədlərin əldə edilməsi uğrunda mübarizə apardıqları münaqişələrdir.

Bu tip münaqişələrdə rəqiblər özlərini rasional tərzdə aparır, öz hərəkətlərini hesablayır və mümkün qazanc və məsrəfləri ölçüb-biçirlər. Onlar qələbəyə can atarkən münaqişə qurtardıqdan sonra, yaxud hətta münaqişənin gedişində əməkdaşlıq imkanını istisna etmir, digər münaqişə iştirakçısını rasional düşüncəli tərəfdaş kimi qavrayırlar. Belə münaqişələr bütün iştirakçıların qəbul etdikləri norma və qaydalara sadiqliyi, habelə həmin qaydaların institusional təsbitini nəzərdə tutur.

«Mübahisə», yaxud «deyişmə» tipli münaqişələr üçün münaqişə tərəflərinin bir-birini inandırma metodu ilə, öz dəlillərini irəli sürməklə və əks dəlilləri təkhib etməklə fikrini dəyişdirmək, öz tərəfinə çəkmək lazım olan yanılan, səhv edən opponent kimi qavraması xarakterikdir. Bu, çeviklik, digər münaqişə tərəfinin mövqeyində baş verən dəyişikliklərin təsiri altında öz mövqeyini və baxışını dəyişdirmək bacarığı tələb edən yüksək rasional

qarşılıqlı fəaliyyətdir. Bu tip münaqişələrdə qarşılıqlı fəaliyyət qaydalarının dəyişdirilməsinə, yaxud fikir ayrılıqları sahəsini məhdudlaşdıran, yaxud əldə edilmiş razılaşmaları təsbit edən yeni qaydaoarın ifadə edilməsinə yol verilir. Buna misal kimi Rusiya və Yaponiya arasında dörd Kuril adası uğrunda münaqişə göstərilə bilər.

Beləliklə, qarşıdurma ilə yanaşı, əməkdaşlıq bu tip münaqişələrin tərkib hissəsidir. Belə münaqişələrə misal kimi mbahisəli problemə dair iştirakçılarının qarşılıqlı münasibətlərin, o cümlədən ticarət münasibətlərinin inkişaf etdirilməsində maraqlı olduqları beynəlxalq danışıqları göstərmək olar. Müzakirələrin gedişində onlar həm mübahisəli problemin həllində əsas götürüləcək qaydaları, həm də onunla bağlı yaranmış münaqişənin qarşılıqlı münasibətlərin digər sahələrinə təsirini azaltmağa imkan verən üsulu işləyib hazırlayırlar.

Hansısa münaqişənin sadalanan növlərdən və tiplərdən hər hansı birinə aid edilməsi bu münaqişəni, rəqib tərəflərin məqsədlərini, qarşılıqlı təsir və bir-birini qavrama üsullarını təsnifləşdirməyə kömək göstərməklə münaqişəli vəziyyətin xarakteri, yaxud inkişaf dinamikası haqqında təxmini təsəvvür yaradır.

Qeyd etmək lazımdır ki, heç bir beynəlxalq siyasi münaqişə insanların fəal, şüurlu məqsədyönlü fəaliyyəti olmadan yarana, inkişaf edə və nizama salına bilməz. Onlar xüsusilə silahlı xarakter daşıyan qarşıdurmanın yalnız qurbanı deyil, həm də fayda əldə etmək məqsədilə münaqişə alovunu qızışdıran təşəbbüsçüsü qismində çıxış edirlər. Müxtəlif hallarda bu fayda ehtiyatların, sərvətlərin əldə edilməsindən, öz dəyərlərinin təsdiqindən ibarət ola bilər. Lakin siyasət aləmində fayda həmişə bu və ya digər dərəcədə hakimiyyətə münasibətlə müəyyən olunur. Sübut olunmuş hesab etmək olar ki, sosial harmoniya, münaqişəsizlik vəziyyəti real, həqiqi ictimai münasibətlərdə əldə edilə bilməz. Beynəlxalq siyasi münaqişələrin anlamından asılı olmayaraq, istənilən halda onlar düşünən şəxslərin, yəni şüurlu surətdə öz qarşısında məqsədlər qoyan və həmin məqsədlərə çatmağa çalışan kəslərin münaqişəsidir.

Bütün bunlar beynəlxalq siyasi münaqişələrə tam surətdə aiddir. Həmin münaqişələrdə ayrı-ayrı fərdlər, dövlətlər, ictimai hərəkatlar, korporasiyalar, habelə etnik, dini, yaş, peşə, yaxud hər hansı başqa əlamət üzrə birləşmiş ayrı-ayrı sosial qruplar iştirak edir (yaxud iştirak edə bilər). Münaqişə, birincisi, onun predmetini hakimiyyətin əldə edilməsi, yenidən bölüşdürülməsi, saxlanması, yəni siyasət təşkil etdikdə, ikincisi, münaqişə tərəfləri arasında qarşıdurma milli-dövlət sərhədlərindən kənara çıxdıqda beynəlxalq siyasi münaqişəyə çevrilir.

Beləliklə, taxt-taca iddia edən müxtəlif sülalələrin nümayəndələri, yaxud hökuməti formalaşdırmağa çalışan partiyalar arasında hakmiyyət uğrunda mübarizə daxili münaqişələrin xarakterik olduğu siyasət sahəsidir. Müstəmləkələr, faydalı qazıntı

mənbələri, yaxud başqa ehtiyatlar üzərində hakimiyyət uğrunda dövlətlər, dövlətlərarası ittifaqlar, yaxud fəaliyyəti beynəlxalq meydanda cərəyan edən hər hansı başqa birliklər arasında mübarizə beynəlxalq siyasi münaqişələrlə müşayiət olunur. Başqa sözlə, beynəlxalq siyasi münaqişənin iştirakçısı qismində dünya meydanında siyasi qarşıdurma ilə məşğul olan hər hansı sosial birlik çıxış edə bilər.

Müasir siyasi elmdə «güc», ilk növbədə, siyasi münasibətlərin iştirakçısının qüdrətini ifadə edir.

Siyasətin dövlət kimi mühüm subyektinə tətbiqən gücün belə anlamı həm ifrat mənəviyyatçılıqdan, həm də siyasi düşüncəsizlikdən qorunma vasitəsi kimi çıxış edir. Dövlətin qabiliyyətinin adekvat qiymətləndirilməsi yalnız onun özünün güc ifadəsində müəyyən edilmiş mənafelərinin realizəsinə çalışan siyasi birlik kimi nəzərdən keçirilməsi halında mümkündür. Belə müəyyənetmə iki imkan açır: bütün dövlətləri öz dövləti kimi nəzərdən keçirib qiymətləndirmək üsulu verir, belə qiymətləndirmədə isə yalnız öz mənafelərinin müdafiəsinə və realizəsinə təkan verməklə kifayətlənməyib, həm də digər dövlətlərin mənafelərini nəzərə alan siyasət yetirməyə imkan yaradır.

Bu yanaşmanın tərəfdarları gücün anlayışını dövlət qüdrətinin sinonimii kimi nəzərdən keçirərək, qüdrətin amillərinə aşağıdakıları aid edirlər: coğrafi mövqe; təbii ehtiyatlar (ilk növbədə, ərzaq və xammal); sənaye potensialı; hərbi potensial (hərbi texnikanın inkişaf səviyyəsi, hərbi rəhbərliyin keyfiyyəti, silahlı qüvvələrin kəmiyyəti və keyfiyyəti); əhalinin sayı; milli xarakter; cəmiyyətin mənəvi ruhu; diplomatiyanın keyfiyyəti və hökumətin ölkənin ictimai rəyi tərəfindən özünün xarici siyasətinin dəstəklənməsinə nail olmaq qabiliyyəti.

Beynəlxalq siyasi münaqişələri öyrənərkən gücün zəiflik kimi bir təzahürünə də rast gəlinir. Zəiflik, sadəcə, «əks işarəli» güc olmayıb, özünəməxsus güc – beynəlxalq münaqişə iştirakçısının öz məqsəd və mənafelərinə çatmaq üçün istifadə etdiyi vasitə, məsələn, vətəndaşların düşmənlə mübarizəyə kütləvi səfərbərliyinin əsaslandırılması qismində çıxış edir.

Beynəlxalq siyasi münaqişədə iştirakçılardan birinin gücü digərinin zəifliyindən ayrılmazdır. Burada həm güc, həm də zəiflik yalnız bir-birinə münasibətdə qiymətləndirilir. Güclü-zəif gütlüyünün mövcudluğu labüd olub, istənilən siyasi münaqişə üçün xarakterikdir. Onun iştirakçıları zaman-zaman gah güclənərək, gah da zəifləyərək, yerlərini dəyişə bilərlər, lakin onlar heç vaxt mütləq güclü və mütləq zəif tərəfə çevrilmirlər.

Zəifin gücü, bir qayda olaraq, özünün mənəvi üstünlüyünün təsdiqindən ibarət olur, zəifin fikrincə, nə qədər miqyaslı və inandırıcı olmasından asılı olmayaraq, heç bir məğlubiyyət həmin üstünlüyü aradan qaldıra bilməz.

Uduzulmuş müharibələrin, uğursuz tətillərin, məğlub olmuş üsyanların, yaxud

seçkilərdə uduzmuş partiyaların iştirakçıları yalnız özlərinin mənəvi üstünlüyündə təsəlli axtarmırlar. Psixoloq alimlərin apardıqları eksperimentlər göstərir ki, hər hansı daim uduzan komandanın üzvləri öz məğlubiyyətlərini rəqibin dürüst olmaması, yaxud oyun qaydalarının ədalətsizliyi ilə izah etməyə meylli olurlar, öz uğursuzluqlarını isə öz mənəviyyatını çox yüksək qiymətləndirməklə kompensasiya edirlər. Bununla əlaqədar demək olar ki, yaxşı niyyətlərdən başqa bir gücə sahib olanlar onların barəsində nəticələrə görə mühakimə yürüdülməsini tələb edirlər; nəticəyə nail olmayanlar isə ilk növbədə onların xeyirxah niyyətlərinin qiymətləndirilməsini tələb edirlər.

Müxtəlif formalarda təzahür edən zorakılıq gücdən istifadənin geniş tətbiq olunan əsas üsullarından biridir. Silahlı, iqtisadi, psixoloji zorakılıq siyasətdə, ilk növbədə, siyasi münaqişələrdə mühüm, çox vaxt həlledici rol oynayır.

«Zorakılıq» anlayışının çoxlu elmi və məişət təfsirləri mövcuddur. Onların dairəsi çox geniş olub, demək olar ki, münaqişədə bütün davranış vartiantlarını ehtiva edir. Belə ki, hüquqçular zorakılığı başqa adamlara ağrı və fiziki ziyan vurulmasına yönəlmiş, qəsdən törədilən hərəkətlər kimi nrəzərdən keçirirlər; bu zaman onlar təsbit edirlər ki, belə dar anlamda zorakılıq bəşər tarixinin bütün dövrlərində müşahidə olunmuşdur. Zorakılıq sosial davranışın geniş yayılmış forması, insanın, dövlətin, yaxud hər hansı başqa sosial birliyin başqalarını öz iradələri ilə etməyəcəkləri hərəkətləri yerinə yetirməyə məcbur etmə imkanını xarakterizə edən ən mühüm əlamətdir. Siyasi münaqişədə zorakılıq bu və ya digər münaqişə tərəfinin rəqibin iradəsinə qarşı hakimiyyət münasibətləri sistemindəki məqsədlərinə çatmaq üçün sərəncamında olan məcburetmə vasitələrinin tətbiqindən ibarətdir.

Siyasətdə zorakılıq vasitəsi, aləti qismində gücün istənilən komponentindən, siyasi münaqişənin bu və ya digər iştirakçısının qüdrətinin istənilən tərkib hissəsindən istifadə oluna bilər. Bunlar həm dövlətin, yaxud regionun coğrafi mövqeyi, həm iqtisadi sanksiyalar, həm də hətta idmançıların, yaxud mədəniyyət xadimlərinin boykotu ola bilər.

Siyasi münaqişələrdə öz mənafelərinin müdafiəsi üçün sonuncu, bəzən isə yeganə dəlil qismində silahlı zorakılıq, hərbi güc çıxış edir. Onun tətbiqinin miqyasını belə bir fakt göstərir ki, BMT üzvü olan dövlətlərin üçdə birindən çoxu 1990-cı illərin birinci yarısında silahlı münaqişələrə girmişlər. 200-ə yaxın submilli qrup və təşkilat müntəzəm surətdə silahlı zorakılıq aktlarından istifadə edir.

Artıq XIX əsrdə belə bir fikir irəli sürülmüşdür ki, hərbi gücün və ümumiyyətlə zorakılığın tətbiqi üçün sadəcə iradəvi akt deyil, real ilkin şərtlər tələb olunur. Zorakılığın qələbəsi silah istehsalına, deməli, iqtisadi gücə, təsərrüfat vəziyyətinə, maddi vasitələrə əsaslanır. Hərbi güc silahın və hərbi birləşmələrin yalnız kəmiyyət göstəriciləri ilə deyil, həm də keyfiyyət xarakteristikaları ilə ölçülür. Heç nə ordu və donanma qədər iqtisadi imkanlardan asılı deyildir. Silahlar, heyət, təşkilat, taktika və strategiya, ilk növbədə,

istehsalın və nəqliyyat vasitələrin əldə olunmuş inkişaf səviyyəsindən asılıdır.

Dünya müharibələri və sosial inqilablar dövründə bəşər cəmiyyətinin inkişafı belə bir inam doğurmuşdur ki, yaranan problemlərin həlli yalnız zorakılıq,güc sayəsində mümkündür, özü də müvafiq fikirlər müxtəlif və hətta əks ideya-siyasi mövqelərdən səsləndirilmişdir.

Görkəmli alman sosioloqu M.Veber dövlət və zorakılığın ayrılmaz əlaqəsini göstərmişdir. O yazırdı ki, hər hansı dövlət zorakılığa əsaslanır. Zorakılıq heç də dövlətin normal, yaxud yeganə vasitəsi deyildir, lakin o, dövlət üçün spesifik vasitə təşkil edir.

Zorakılığı geniş tətbiq etmiş totalitar rejimlərin süqutu zorakılığın cəmiyyət həyatından kənar edildiyini göstərmir. Zorakılıqdan yalnız siyasi ifratçıların deyil. həm də istənilən siyasi rejimin aləti kimi ən demokratik ölkələrdə belə geniş istifadə olunur. Cəsarətlə demək olar ki, zorakılıq siyasi münaqişənin tərkib hissələrindən biri kimi siyasi münasibətlərin istər daxili, istərsə də beynəlxalq sahəsindən ayrılmazdır.

## §2.Siyasi və silahlı münaqişələrin nisbəti

Silahlı münaqişələrin iki əsas tipii mövcuddur. Birinci tip əsasən daxili siyasi mübarizə, sosial-siyasi, milli, dini və s. mənafelərin toqquşması vasitəsi kimi silahlı zorakılıqdan istifadə edilməsi ilə bağlıdır. Tarixdə o, vətəndaş müharibələri, üsyan hərəkatları, silahlı qiyam və çevrilişlərlə təmsil olunur. Əfsanəvi Babəkin rəhbərliyi altında azadlıq müharibəsini buna misal gətirmək olar. Belə müharibələr və silahlı münaqişələr üçün qeyri-nizami hərbi birləşmələrin – partizan dəstələrinin, xalq qoşunlarının, özünümüdafiə dəstələrinin, döyüş drujinalarının, qeyri-dövlət təşkilatlarının və hətta ayrı-ayrı şəxslərin vəsaiti hesabına yaradılmış silahlı birliklərin iştirak etdiyi, aşağı intensivliyə malik döyüş əməliyyatları xarakterikdir.

İkinci tip dövlətlərin, dövlətlərarası ittifaqların və hərbi-siyasi blokların mənafelərinin siyasi toqquşması ilə şərtlənir. Bu tip müharibələri və silahlı münaqişələri, bir qayda olaraq, bütövlükdə cəmiyyətin adından fəaliyyət göstərən dövlətin sərəncamına verməyə hazır olduğu silahlı mübarizə vasitələrinə malik nizami ordular aparırlar. Müharibələrin və silahlı münaqişələrin bu tipinə 1991-ci ildə İran körfəzindəki hərbi əməliyyatlar, ABŞ başda olmaqla beynəlxalq koalisiyanın hal-hazırda İraqda apardığı müharibə və s. aiddir.

Vurğulamaq vacibdir ki, sidahlı münaqişələrin göstərilən tipləri arasında qəti sərhəd yoxdur. Vətəndaş müharibələrinin xarici dövlətlərin müdaxiləsinə aparıb çıxardığı, dövlətlər arasındakı müharibələrin isə vətəndaşların silahlanmasını və dövlətlərarası qarşudurmada müvafiq iştirak formalarını doğurduğu çoxlu misallar gətirmək olar.

Silahların daim təkmilləşdirilməsi nəticəsində hərbi gücün tətbiqinin forma və

məqsədləri də dəyişmişdir. Nüvə və istilik-nüvə silahının yaranması və yayılması, nüvə silahı ilə sürətlə silahlanma dövlətlər və xalqlar arasındakı münasibətlərdə ziddiyyətlərin həlli üçün müharibələrin aparılması haqqında çoxillik təcrübəni yekunlaşdıran «müharibə siyasi münasibətlərin başqa vasitələrlə davamıdır» ifadəsinə düzəliş edilməsini şərtləndirir. Məşhur hərb nəzəriyyəçisi K.Klauzevitsin bu ifadəsi keçən əsrin ortalarından başlayaraq həmişə hamı üçün ümumi və şəksiz əhəmiyyətə malik həqiqət kimi nəzərdən keçirilə bilməz.

Həm siyasət, həm də hərb elmi belə bir tezisi inandırıcı surətdə əsaslandırmışdır ki, dünya nüvə müharibəsi kimi bir müharibə növü dünyanın, hakimiyyətin, yaxud ehtiyatların yenidən bölüşdürülməsinə aparıb çıxaran rasional siyasət vasitəsi deyildir, çünki bütövlükdə bəşəriyyətin məhvinə aparır.

Bu fikri irəli sürərkən, nəzərə alınmalıdır ki, birincisi, bu gün «kiçik», yəni lokal nüvə müharibəsinin «böyük» dünya müharibəsinə keçməsi kimi mütləq labüdlük mövcud deyildir, deməli, «kiçik» nüvə müharibəsi təhlükəsi də mövcuddur. İkincisi, adi silahın və nüvə silahının yalnız gücü və dağıdıcı qüvvəsi deyil, həm də onların tətbiqinin nəticələri daim yaxınlaşmaqdadır ki, bu da adi silahlardan kütləvi surətdə istifadə olunmasına heç də maneçilik törətmir. Üçüncüsü, müharibə özü olmasa da, istənilən müharibəyə hazırlıq siyasət vasitəsi, siyasi münaqişə iştirakçılarının qarşılarına qoyduqları məqsədlərə çatma aləti olmuşdur, olaraq qalır və qalacaqdır. Dördüncüsü, tarixdən və müasir dövrdən məlum olan bir çox böyük və kiçik müharibələr heç də rasional siyasətlə şərtlənmir. Çox vaxt silahlı zorakılıqdan istifadə haqqında siyasi qərar qəbul edən şəxslər emosiyaları, dini, sülaləvi, yaxud millətçi meylləri rəhbər tuturlar.

XXI əsrin ilk illəri ehtiyatlı nikbinliklə belə bir nəticəyə gəlməyə imkan verir: inkişaf etmiş dövlətlərin münasibətlərində hərbi gücün bilavasitə tətbiqinin əhəmiyyəti azalma meylinə malikdir. Bundan başqa, dünya səhnəsində müasir hərbi-strateji vəziyyət elədir ki, məsələn, terrordan istifadə edən dövlətlərin və ictimai-siyasi hərəkatların dəstəklənməsi kimi məqsədlərə çatılması üçün hərbi gücdən istifadə beynəlxalq birliyin cavab reaksiyasını doğurur.

Təəssüf ki, bu, heç də siyasi münaqişələrin artıb silahlı münaqişələrə keçmədiyini ifadə etmir. Əvvəlki tək dünyanın ayrı-ayrı regionlarında hərbi gücdən siyasi münaqişələrdə fəal surətdə istifadə olunmaqdadır.

Silahlı zorakılıqdan istifadə çox vaxt yeri doldurulmayan ziyan vurmaqla və insan həyatlarını aparmaqla münaqişəni kəskinləşdirir və dərinləşdirir, əks tərəflərin motivləşməsini qisas istəyi ilə gücləndirir. Buna görə də belə bir asılılıq yaranır: «zorakılıq zorakılıq doğurur». Əksər siyasi münaqişələrdə silahlı zorakılıqdan istifadə gec-tez adekvat cavab doğurur.

Lakin buradan həm də yeni bir ideya meydana çıxmışdır: hərbi gücdən məhdud və

tənzimlənən istifadə. Bu ideya belə bir ehtimala əsaslanır ki, münaqişənin kəskinliyini artırmaqla (yaxud azaltmaqla), gücdən istifadə olunmasına qarşı tərəfin cavab reaksiyasını diqqətlə təhlil etməklə hətta açıq hərbi əməliyyatlara əl atmadan belə arzuolunan nəticələrə nail olmaq mümkündür. Bir qayda olaraq, silahlı gücdən «siyasi istifadə» silahlı qüvvələrin səfərbərliyə alınması; digər münaqişə tərəfi üçün maraq doğuran bölgədə öz bayrağının qaldırılması; açıq, yaxud gizli hərbi təhdid və s. kimi hərəkətləri ehtiva edir. Hərbi gücdən belə istifadə həm daxili, həm də beynəlxalq siyasi münaqişələrə xasdır. Bu zaman siyasətçilərin düşündükləri «güc nümayişi» çox vaxt hərbçilər tərəfindən onun məcburi surətdə əməli tətbiqi zərurətinə aparıb çıxarır.

Bir qayda olaraq, ölkənin, millətin, sosial qrupun beynəlxalq münaqişədə iştirakı onların daxili möhkəmliyinə, daxili münaqişələrin aradan qalxmasına səbəb olur. Çox vaxt bu nəticə sosial birliyin qütbləşməsi vasitəsilə əldə olunur: o, öz tərəfinin beynəlxalq münaqişədəki fəaliyyətini və məqsədlərini dəstəkləyən və dəstəkləməyən qütblərə ayrılır. Sonuncular xarici düşmənin dolayı, yaxud hətta birbaşa dəstəkçisi kimi çıxış etməklə, daxili düşmənlərə çevrililər. Nəticədə tədricən beynəlxalq münaqişənin daxili münaqişəyə, dövlətlər arasında müharibənin isə vətəndaş müharibəsinə çevrilməsi imkanı artır.

Bu risk daxili siyasi şəraitin kəsknləşməsi ilə eyni vaxtda artır. Bununla yanaşı, beynəlxalq münaqişənin birləşdirici funksiyasından öz mənafeləri naminə istifadə etmək istəyi hakimiyyətdə olanların N.Makiavellinin aşağıdakı məsləhətini rəhbər tutmağa bənzər davranışını şərtləndirir: «Müdrik hökmdar özü də şərait imkanverdikdə özünə məharətlə düşmənlər yaratmalıdır ki, onlara üstün gəlməklə daha böyük əzəmət kəsb etsin».

Lakin tarixin təcrübəsi göstərir ki, «özünə düşmənlər yaratmaq müdrikliyi və məharəti» böhranlı vəziyyətdə köhnə ictimai quruluşu saxlamağa kömək etmir. Beynəlxalq siyasi münaqişə daxili siyasi böhranın detonatoru funksiyasını yerinə yetirməyə başlayır, onun inkişafına təkan verir və iflasa aparır. Bununla əlaqədar Fransanın Əlcəzairdə, ABŞ-nın Vyetnamda, SSRİ-nin Əfqanıstanda apardıqları müharibələri göstərmək olar.

Bu münaqişələrin «dağıdıcı» və «təmizləyici» təsirlərinin nisbəti fərqli qiymətlər doğurur, lakin həmin münaqişələrin onlarda iştirak etmiş ölkələrdə sosial-siyasi vəziyyətin dəyişməsində aparıcı rol oynadığını inkar etmək çətindir.

Beynəlxalq siyasi münaqişə ölkənin real gücünün bahalı və qiyməti daim artan göstəricisidir. Bu mənada beynəlxalq siyasi münaqişələr indikator funksiyasını yerinə yetirərək, toqquşan mənafelərin əhəmiyyətini, hər bir münaqişə tərəfinin öz məqsədlərini reallaşdırmaq üçün tətbiq etməyə qadir olduğu gücü və onun həmin məqsədlər naminə getməyə hazır olduğu qurbanları müəyyən etməyə imkan verir. Bu, münaqişə iştirakçılarının özləri, bəzən isə bütün bəşəriyyətin taleyi üçün çox böyük əhəmiyyət kəsb edir.

Beynəlxalq siyasi münaqişənin ən mühüm funksiyalarından biri onun öz iştirakçıları arasındakı münasibətlərdə mövcud olan problemlərin həllində yerinə yetirdiyi funksiya təşkil edir. Bu funksiyaya verilən ən müxtəlif qiymətləri birləşdirən ümumi fikir ondan ibarətdir ki, münaqişə problemlərin həllinin çox bahalı yoludur. Təəccüblü deyil ki, bu hallarda diqqət mərkəzinə münaqişənin siyasət aləti kimi rolu deyil, münaqişənin qarşısının alınması və həlli yollarının axtarışı gətirilir.

Belə yanaşma qanunauyğundur və prinsipial etiraz doğurmur. Bununla yanaşı, etiraf olunmalıdır ki, beynəlxalq siyasi münaqişələrin iştirakçıları heç də həmişə özlərinin qarşılıqlı fəaliyyət üsulunu və formasını seçmək, münaqişənin qarşısının alınması və həlli üçün ödəməyə hazır olduqları qiyməti müəyyən etmək imkanına malik olmurlar. Bundan başqa, hətta belə imkan mövcud olduqda belə daha «güclü» tərəf çox vaxt şüurlu surətdə həmin qiyməti ödəməklə münasibətləri münaqişə həddinə qədər kəskinləşdirməyə çalışır. Məsələn, ABŞ və İngiltərə Əfqanıstanda İraqda problemlərin həllinin məhz bu üsulunu seçmişlər.

Bu münaqişələrin əsasında duran konkret tələbatların və mənafelərin təhlilinə varmadan qeyd etmək olar ki, onlar ABŞ-nın öz qarşısına qoyduğu xarici siyasət məqsədləri kimi dərk olunmuşdur. ABŞ-nın dünya meydanındakı potensial düşmənlərinə gücünün üstünlüyünü nümayiş etdirməyə çalışması, ölkə daxilində milli mənafelərin müdafiəsində qətiyyət və dönməzlik göstərmək və bununla da elektoratın dəstəyinə və hökumətin iqtidarda qalmasına nail olmaq istəməsi, ABŞ-nın hüdudları daxilində beynəlxalq hüququn prinsip və normaları ilə hesablaşmaya biləcəyi nüfuz dairəsini və sərhədləri cızmağa, siyasi məqsədəuyğunluq baxımından «əxlaqi siyasət» yeritməyə hazır olduğunu sərgiləməyə səy göstərməsi məhz bununla izah olunur. Sadalamanı davam etdirmək olardı, lakin deyilənlərdən aydındır ki, bütün bu məqsədlərin məzmunu həm daxili siyasi sabitliyin, həm də dünyanın Vaşinqton tərəfindən həyati əhəmiyyətə malik milli mənafelər sahəsi kimi nəzərdə keçirilən regionlarında ABŞ üçün sərfəli sabitliyin saxlanmasını və möhkəmləndirilməsini ehtiva edir.

### § 3.Beynəlxalq münasibətlərdə münaqişələrin və sabitliyin qarşılıqlı əlaqəsi

İstənilən sosial münasibətlər sisteminin sabitliyi onların öz mənafelərinin təmin edilməsinə can atan iştirakçılarının qarşılıqlı fəaliyyətinin, qarşıdurmasının və əməkdaşlığının nəticəsidir. Q. Morgentau yazırdı ki, ictimai münasibətlərdə sabitlik də tarazlıq kimi aydın siyasi mənaya malikdir: tarazlığa nəzarət edən qüvvələr balansı sistemində aparıcı mövqe tutur, çünki hökmranlıq uğrunda mübarizənin nəticəsi ondan asılıdır.

Belə dəyərləndirmə siyasi münaqişənin və sabitliyin əlaqəsini, bəzən isə onların yerinə yetirdikləri funksiyanın üst-üstə düşdüyünü göstərir. Bu zaman həm qarşıdurma, həm də əməkdaşlıq sabit və ya qeyri-sabit xarakterə malik ola, bu və ya digər siyasi münasibətlər sisteminə sabitləşdirici, yaxud sabitliyi pozucu təsir göstərə bilər. Aydındır ki, cinayətkar, yaxud terrorçu qruplaşmaların hətta ən möhkəm, uzunmüddətli, sabit beynəlxalq əməkdaşlığı belə heç də cəmiyyətdəki siyasi şəraitin sabitləşməsinə aparmır.

Beynəlxalq siyasi sistemin sabitliyi onun dinamik sabitliyi meyarı, onun qoruma qabiliyyətinin qarşılıqlı fəaliyyətdə olan sosial birliklərin konkret məqsəd və mənafelərinin uzlaşması ilə müəyyən edilən xarakteristikası kimi başa düşülə bilər. Vurğulamaq vacibdir ki, siyasi sabitlik heç də açıq surətdə siyasi münaqişəyə qarşı durmur və onunla «qarşılıqlı nəzərdə tutma» və «qarşılıqlı inkar» vəziyyətində deyildir. O, həm qarşıdurma, həm də əməkdaşlıq əsasında əldə oluna bilər. Tarix və müasir dövr onların iştirakçılarının istər sabit dostluq siyasi münasibətlərinə, həm də sabit düşmənçilik münasibətlərinə dair çoxlu nümunələrlə zəngindir.

Bu gün siyas sabitlik axtarışının ən məhsuldar yollarından birini onun siyas prosesin digər halları, ilk növbədə, münaqişə ilə şərtlənən bir halı kimi nəzərdən keçirilməsi təşkil edir. Bu yol onların qarşılıqlı əlaqəsinin, onlara xas olan funksiyaların üst-üstə düşməsinin və özünəməxsusluğunun aşkara çıxarılmasını, cəmiyyətin həyatında siyasi münaqişənin və siyasi sabitliyin rolunun təhlilini nəzərdə tutur. Burada ən azı iki imkan meydana çıxır.

Birinci imkan sabitliyin ali bəşəri dəyərlər dərəcəsinə qaldırılması və ona ən azı siyasi fəaliyyətdə prioritet (üstünlük) verilməsi ilə bağlıdır. Belə cəhdlər tədqiqatçılar tərəfindən göstərilərək, sabitlik müstəqil dəyər kimi nəzərdən keçirilmişdir. Lakin siyasi sabitliyi diqqətlə nəzərdən keçirdikdə aydın olur ki, reallıqda sabitlik və münaqişəlilik dəyərlər iyerarxiyası vasitəsilə deyil, daha çox özlərinin funksional xarakteristikalarına görə bağlıdır. Belə bir fikir heç də təsadüfən yaranmamışdır ki, Avropa Birliyi kimi birliyin sabitliyi bir çox cəhətdən son onilliklərdə iki ideoloji əks hərbi-siyasi birliyin münaqişəli və ifrat münaqişəli sabitliyi şəraitində təmin olunmuşdur.

Siyasi sabitlik konsepsiyasının işlənib hazırlanmasına ikinci mümkün yanaşma variantı sabitliyin sosial sistemin obyektiv funksional xarakteristikası kimi nəzərdən keçirilməsi ilə bağlıdır. Politoloqlar arasında belə bir fikir geniş yayılmaqdadır ki, siyasi sabitliyin tədqiqatçılarının siyasətin sosial-sinfi və geniş mənada sosial əsaslarının qiymətləndirilməsinin aktuallığını tam dərk etmələri zəruridir. Bu əsaslar latent surətdə cəmiyyət üçün məhvedici sarsıntılara transformasiya edə biləcək bütün münaqişə və gərginlikləri ehtiva edirlər. Fikrimizcə, belə yanaşma yalnız münaqişə və sabitliyin funksional təzahürlərinin deyil, həm də siyasi həyatın bütün mümkün hal və təzahürlərinin

təhlilinə tətbiq oluna bilər.

Aydınlaşdırmaq vacibdir ki, siyasi sabitlik və siyasi münaqişə heç də qeyd-şərtsiz bir-birinə qarşı yönəlmədikləri kimi, dialektik «bir-birini nəzərdə tutma» və «qarşılıqlı inkar» vəziyyətində də deyildir. Sosial tələbat və mənafelərin təzahürü olaraq, ictimai münasibətlərin iştirakçılarının dəyişən qüvvələr nisbətini əks etdirərək, həm siyasi münaqişə, həm də siyasi sabitlik sosial prosesləri qiymətləndirməyə, münaqişəlilik və sabitlik «şkalası» qurmağa imkan verir. Lakin bunlar bir-birini nəzərdə tutan, yaxud istisna edən xarakteristikalar olmayıb, bir-biri ilə bağlı olan iki fərqli meyardır.

Münaqişənin idarə olunması münaqişənin dəstəklənməsinə, bitməsinə, yaxud onun gedişinə hər hansı başqa təsir göstərilməsindən ibarət məqsədlərə çatılmasına yönəlmiş fəaliyyətdir.

Buradan aydın olur ki, beynəlxalq siyasi münaqişənin idarə olunması onun hər bir iştirakçısının (heç olmasa, onlardan bəzilərinin) öz qazancının maksimuma çatdırılmasını və məsrəflərinin minimuma endirilməsini təmin edən strategiya işləyib hazırlamasını, yaxud seçməsini nəzərdə tutur.

«Strategiya» anlayışı perspektivli, köklü, prioritet əhəmiyyətli məqsədin onun əldə edilməsi vasitələri ilə uzlaşdırılmasını, birləşdirilməsini ifadə edir. Müasir beynəlxalq münasibətlər elmində belə bir anlam təşəkkül tapmışdır ki, istənilən strategiya perspektiv istiqamətləndirici məqsədin məzmunu; kiməyə və ya nəyəsə mühüm təsir; bu təsir üsulları və vasitələri ilə müəyyən olunur. Münaqişənin idarə olunması strategiyası bütün sadalanan komponentləri ehtiva edir. Bu strategiyanın seçilməsi xeyli dərəcədə bəyan olunan məqsədlərin real, həqiqi məqsədlərə nə qədər uyğun gəlməsi və mövcud vasitələrin köməyi ilə onların nə dərəcədə əldə edilə bilməsi sualının cavabından asılıdır. Bu sual yalnız rəqibin niyyətlərini aydınlaşdırmaq istəyənlərini qarşısında deyil, həm də «öz» siyasətini və strategiyasını işləyib hazırlayanlar, «öz» vasitələrindən səmərəli istifadə imkanlarını və variantlarını təhlil edənlər qarşısında durur.

Dövlətlərarası siyasi münaqişənin gedişində çox vaxt qarşıduran tərəflərin mövcudluğunun özü göstərilən sualın cavabından asılıdır. Buna görə də onlar rəqibin niyyətlərinə nüfuz etmənin bütün üsullarından – ənənəvi casusluqdan ən yeni kosmik kəşfiyyat vasitələrinə, kompüter modelləşdirməsinə və açıq mətnlərin təhlilinə qədər istifadə etməyə çalışırlar. Bununla yanaşı, istənilən siyasi münaqişə kimi, burada onun iştirakçılarının məqsədləri onların öz tələbat və mənafelərini dərk etməsinin nəticəsi kimi çıxış edir. Bu zaman bəyan olunan məqsədlər heç də həmişə həqiqi məqsədlərlə üst-üstə düşmür. Təcrübə göstərir ki, hər iki məqsədlər çox vaxt mənafelərin yanlış, təhrif olunmuqş dərkinin nəticəsi kimi çıxış edir və istər həmin mənafelərin məzmununu, istərsə də onların təmin edilməsi imkanlarını obyektiv surətdə təsbit edən real məqsədlərdən fərqlənir.

Rəsmən bəyan olunmuş, həqiqi və real məqsədlərin strateji əhəmiyyətinin aşkara çıxarılması vəzifəsi yalnız faktiki materialın toplanması və təhlili vasitə və metodlarından istifadənin köməyi ilə həll oluna bilməz.

O, nəzəri, bəzən isə həm də dünyagörüşü baxımından qiymətləndirmə tələb edir. Dünya siyasəti səhnəsində cərəyan edəi bir çox münaqişələrin barəsində belə bir fikir düzgündür ki, məqsəd və vasitələri diqqətlə uzdlaşdıran məqsəd rasionallığından əlavə, dəyər rasionallığı da mövcuddur. O, sağlam məntiq, yaxud özünüqoruma instinkti baxımından ağılsız, lakin başqa dəyərlərin, şərəf, ideal haqqında təsəvvürlərin prioriteti ilə əsaslandırılan əməlləri nəzərdə tutur.

Beynəlxalq siyasi münaqişənin idarə olunması və bu münaqişə iştirakçılarının strateji ideyaları haqqında mülahizə yürüdərkən, məqsədin həyata keçirilməsi üzrə fəaliyyətin məqsədin məzmununa göstərdiyi təsiri göstərməmək olmaz. Siyasi fəaliyyətin gedişində onun iştirakçılarının məqsədlərinə düzəlişlər edilir, onlar təkmilləşdirilir, dəyişdirilir, yaxud ümumiyyətlə onlardan imtina olunur, yeni tələbatların və mənafelərin, yaxud onların reallaşdırılması şərtlərinin yarandığını göstərən yeni məqsədlər meydana çıxır.

Münaqişəli davranışın müxtəlif strategiyaları müxtəlif cür həyata keçirilir. Misal kimi qarşıdurmanın tipik strategiyalarından biri olan çəkindirmə strategiyasının üzərində dayanaq. Bu strategiya münaqişəni səmərəli surətdə idarə etməyə, sosial-siyasi gərginlik dərəcəsini artırmağa, yaxud azaltmağa, münaqişənin kəskinləşməsində bir pillədən başqasına keçməyə, onun arzuolunmaz kəskinləməsindən qaçmağa imkan verir.

«Çəkindirmə» strategiyasının mahiyyəti özünün istifadə edilməsi rəqib üçün qəbuledilməz ziyan təhlükəsi doğuran potensialını yaratmaqla rəqibi zorakılığın genişmiqyaslı tətbiqində çəkindirməkdən ibarətdir. 19-cu əsrin ortalarına qədər uduzan tərəf üçün belə ziyan ərazinin bir hissəsinin itirilməsində, sülalənin, yaxud hökumətin dəyişməsində, qalibin hökmranlığı altına keçmədə, hakimiyyət münasibətləri sistemində öz rolunu və mövqeyini itirməkdə ifadə olunurdu. Nüvə silahının yaranması və yayılması bu strategiyaya daha böyük əhəmiyyət verdi. Təhlükə silahlı münaqişənin gedişində məğlubiyyətlə deyil, toqquşmanın nəticəsindən asılı olmayaraq onun iştirakçılarının mövcudluğunun özü üçün risklə bağlanmağa başlandı.

Nüvə əsrində çəkindirmə strategiyasının yeridilməsi təcrübəsi sübuta yetirmişdir ki, mümkün çəkindirmə üçün zəruri olan strateji paritet heç də münaqişə tərəflərinin qüvvə bərabərliyini nəzərdə tutmur. Çəkindirmə ayrı-ayrı silah növlərinin mövcudluğunda, sayında, yaxud səmərəliliyində asimmetriya əsasında da mümkündür. Lakin həmişə və hər yerdə çəkindirmənin səmərəliliyi rəqibə vurula biləcək ziyanla müəyyən olunur. Məhz mümkün ziyanın qəbuledilməz səviyyəsi 20-ci əsrin ortalarında yalnız SSRİ və ABŞ-nın milli müdafiə mənafelərini deyil, həm də nisbətən möhkəm beynəlxalq sülhü və dünyada

siyasi sabitliyi təmin edirdi. Bu vəziyyətlə mübahisə edərək, əxlaqi, dini, yaxud hərbi-siyasi xarakterli dəlillər irəli sürmək olar. Lakin belə bir fakt mövcud idi ki, hətta SSRİ-nin və ABŞ-nın iqtisadi və hərbi potensialının qeyri-bərabərliyi şəraitində belə onların dostlarının, müttəfiqlərinin və tərəfdaşlarının apardıqları çoxlu münaqişələr, həmin dövlətlərin bu münaqişələrin bir çoxunda bilavasitə iştirak etməsi, hətta Berlin, yaxud Karib böhranı kimi kəskin beynəlxalq siyasi böhranlarda onların bilavasitə toqquşması nüvə fəlakətinə çevrilmədi.

«Çəkindirmə» strategiyası nə nəzəri, nə də təcrübi cəhətdən beynəlxalq siyasi münaqişənin onu rəhbər tutan iştirakçısının qələbəsinə təminat vermir. Belə ki, «çəkindirmə» strategiyasının həyata keçirilməsi SSRİ-dən silahlı mübarizə vasitələrinin nəhəng arsenalının yaradılması üzrə hətta böyük dövlətin belə gücü xaricində olan gərginlik tələb etdi. Onlar strateji çəkindirmə üçün nəzərdə tutulduqları halda, real surətdə yalnız onun zəruri səviyyəsini xeyli üstələməklə kifayətlənməyib, həm də ölkənin imkanlarını üstələyirdi, ən başlıcası, onun təhlükəsizliyin, çiçəklənmənin və ərazi bütövlüyünün təmin edilməsi kimi köklü strateji məqsədlərinə və həqiqi mənafelərinə uyğun gəlmirdi.

Raket-nüvə silahının köməyi ilə «çəkindirmə» strategiyasının həyata keçirilməsi dünya siyasətinin dinc, sülhün etibarlı olmasına səbəb olmadı. «Nüvə çəkindirməsi» strategiyasından ən geniş istifadə dövründə beynəlxalq təhlükəsizliyin səviyyəsini belə bir fakt göstərir ki, həmin dövrdə dünyada qurbanlarının sayı milyonlara çatan 25-dən çox silahlı münaqişə baş vermişdir.

Müasir şəraitdə «yeni nüvə dövlətləri»nin münaqişəli davranış strategiyasını seçməsi və reallaşdırması xüsusi əhəmiyyət kəsb edir. Ümid etmək istərdik ki, Çin, Hindistan, Pakistan kimi ölkələr 20-ci əsrdə nüvə dövlətləri arasında münaqişənin idarə edilməsi təcrübəsindən dərs götürəcəklər.

Münaqişənin idarə olunması strategiyası nə nüvə çəkindirməsi, nə də hərbi güclə təhdid etmə ilə məhdudlaşmır. Hələ nüvə silahı ilə sürətlə silahlanmanın qızğın çağında görkəmli dövlət xadimi və beynəlxalq münasibətlər sahəsində mütəxəssis H.Kissincer «Milli strategiyanın problemləri» mühazirələr kursuna girişdə vurğulayırdı ki, güc obyektiv amillərdən olduğu kimi, psixoloji amillərdən də asılıdır. Müasir silahın ilkin məqsədi qorxutma olsa da, qorxutmanın özü yalnız hərbi deyil, həm də psixoloji problemdir.

Bu gün dünya səhnəsində siyasi məqsədlər çox vaxt qan axıdılmaqla, nəhəng orduların hesabına deyil, ilk növbədə, intellektlə, elmlə, qabaqcıl hərbi texnika və informasiya vasitələri ilə əldə olunur. Sülh və təhlükəsizlik, hərbi güc və müdafiə sənayesi getdikcə daha artıq dərəcədə elm və texnologiya amili üzərində cəmləşir. Lakin işlənib hazırlanan və həyata keçirilən siyasi strategiyaların heç də hamısı qoyulmuş siyasi məqsədlərin məzmununun formalaşdırılması və səmərəli şəkildə reallaşdırılması üçün elm və

texnologiyanın əhəmiyyətinin artdığını göstərmir. 20-21-ci əsrlərin qovuşuğunda beynəlxalq münaqişələrin idarə olunması strategiyalarının təhlili göstərir ki, seçilmiş strategiyanın reallaşdırılmasına əvvəlki tək əhalinin milli tərkibi, onun dini mənsubiyyəti və s. kimi ənənəvi amillər təsir göstərir. Bu amillərin tam nəzərə alınması münaqişənin idarə olunması strategiyasının düzgün seçilməsi və uğurla reallaşdırılması ehtimalını yüksəldir. Bu zaman çəkindirmə strategiyası heç də uzaq keçmişdə qalmamış, müasir şəraitdə aradan qalxmamışdır.

Beynəlxalq aləmdə siyasi qarşıdurma beynəlxalq siyasi münaqişənin iştirakçılarının mənafelərinin müəyyənedici təsiri altında baş verir. Bu, beynəlxalq münasibətlərin spesifikliyindən: mərkəzi hakimiyyətin – legitim məcburetmə inhisarına malik ali orqanın mövcud olmamasından, «suverenliklər plüralizmi»ndən, qeyri-müəyyənliyin qalmasından irəli gəlir. Təcrübə göstərir ki, bu şəraitdə münaqişə iştirakçıları beynəlxalq hüquq normalarının birtərəfli şərhindən və birbaşa pozulmasından çəkinmirlər, öz məqsədləri naminə mənəvi-əxlaqi kateqoriyalarla manipulyasiya edirlər.

Beynəlxalq münasibətlər sahəsində hüquqi və əxlaqi normalar mühüm xüsusiyyətlərə malik olub, mürəkkəbliyi ilə xarakterizə olunur və elmdə fərqli təfsirlər doğurur. Tədqiqatçılar, bir tərəfdən, dünyada hüquqi və mənəvi şüur səviyyəsinin ümumi artımını, beynəlxalq hüququn yaradılması, inkişafı və fəaliyyəti prosesində mənəviyyatın rolunun yüksəlməsini qeyd edir, digər tərəfdən isə həm beynəlxalq hüququn, həm də beynəlxalq əxlaqın dövlətlərin və xalqların münasibətlərinin xarakterinə təsirinin nisbətən az irəlilədiyini və buna görə də belə qarşılıqlı fəaliyyətin səmərəli tənzimləyicisi qismində nəzərdən keçirilə bilinməyəcəyini göstərirlər.

Beynəlxalq münasibətlərdə hüququn və əxlaqın tənzimləyici rolunun birmənalı qiymətləndirilməməsi heç də bu rolun nəzərə alınmaya biləcəyini ifadə etmir. Beynəlxalq siyasi münaqişələrin iştirakçıları arasında fərqlər nə qədər böyük olsa da, müasir şəraitdə onların hamısı bu və ya digər dərəcədə beynəlxalq münasibətlərin əsas prinsiplərinin təsirini hiss edirlər.

**Beynəlxalq münasibətlərin əsas prinsipləri dedikdə beynəlxalq münasibətlərin mövcud səviyyəsini və vəziyyətini, onların xarakterik əlamətlərini ifadə edən və beynəlxalq aktorların davranışına ən yüksək, imperativ təsir qüvvəsinə malik, tarixən şərtlənən, hamı tərəfindən qəbul edilmiş əsas normalar başa düşülür.**

Əsas prinsiplər müasir beynəlxalq münasibətlər sisteminin dayaqlarının normativ ifadəsini təmsil edir. Onlar beynəlxalq hüququn sosial sistemlərlə, ilk növbədə, siyasi münaqişənin çərçivələri daxilində cərəyan etdiyi beynəlxalq münasibətlər sistemi iəl qarşılıqlı təsir mexanizminə müəyyənedici təsir göstərirlər.

Bu prinsiplər aşağıdakılardır: dövlətlərin suveren bərabərliyi, gücün, yaxud güclə

hədələmənin tətbiq olunmaması, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, mübahisələrin dinc yolla nizama salınması, bir-birinin daxili işlərinə qarışmama, insan hüquqlarına və əsas azadlıqlara hörmət, hüquq bərabərliyi və xalqların öz müqəddəratını təyin etmə hüququ, dövlətlər arasında əməkdaşlıq, beynəlxalq hüquq üzrə öhdəliklərin vicdanla yerinə yetirilməsi.

Bu prinsiplərin bəziləri bir-birinə zidd olub, beynəlxalq aləmdə siyasi ziddiyyətləri tənzimləyən normalardan daha çox münaqişə iştirakçılarının iddialarının qanuniliyinin əsaslandırılması üçün istifadə olunur. Belə ki, xalqların öz müqqədəratını təyin etmə prinsipindən müxtəlif dövlətlərin separatçı hərəkatları tərəfindən onların milli suverenlik istəyinin əsaslandırılması üçün istifadə olunur.Öz növbəsində, bu dövlətlərin rəhbərliyi ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsiplərinə müraciət edir. Göstərilən prinsiplərdən belə münaqişəli istifadəyə misal kimi Çeçenistan, Tibet, Yuqoslaviya hadisələrini göstərmək olar.

Beynəlxalq hüquq yalnız müstəqil surətdə beynəlxalq münasibətlərin iştirakçısı qismində çıxış edə bilən subyektlərin qarşılıqlı münasibətlərini tənzimləyir. O, dövlətdaxili münasibətləri tənzimləmir və bilavasitə tənzimləyə bilməz. Beynəlxalq siyasi münaqişələrin tənzimləyicisi qismində istifadə olunan hüquq və əxlaq normalarının spesifik xüsusiyyətlərini nəzərdən keçirərkən, aşağıdakı amilləri nəzərə almaq zəruridir.

Birincisi, hüquq normaları müvafiq beynəlxalq sazişlərdə, müqavilələrdə və normativ əhəmiyyətə malik digər sənədlərdə təsbitini tapmışdır. Hüququn, o cümlədən beynəlxalq hüququn institusional xarakteri bununla şərtlənir: o, dövlət institutları və hökumətlərarası təşkilatlarla sıx surətdə bağlıdır (BMT və onun orqanları, Avropa Şurası, digər regional təşkilatlar). Beynəlxalq hüquq sistemi hüquq şüuru, hüquq normaları, hüquq münasibətləri və hüquq institutları kimi elementləri ehtiva edir. Ondan fərqli olaraq, beynəlxalq səhnədə qarşıdurmanın mənəvi tənzimlənməsi mexanizmində institutlar yoxdur.

İkincisi, beynəlxalq əxlaq və beynəlxalq hüquq özünün fəaliyyət sahəsinə görə fərqlənir: əxlaq normaları hərtərəfli xarakter daşıyır, hüquq isə hər an məhdud tətbiq sahəsinə malikdir. Beynəlxalq siyasi münaqişələr eyni zamanda hüquq və əxlaq normalarının təsirinə məruz qalır. Məsələn, silahlı münaqişə zamanı hərbi təcavüz həm hüquq normalarının pozulması, həm də mənəvi cinayətdir. Əxlaq normaları hüquq normalarından daha geniş və çevikdir.

Üçüncüsü, beynəlxalq hüquq və beynəlxalq əxlaq beynəlxalq münaqişələrin tənzimlənməsi formalarına, metodlarına, vasitələrinə və imkanlarına görə fərqlənir. Hüquqi tənzimləmə məcburetmə vasitələrindən (beynəlxalq məhkəmə, hərbi, ekoloji və siyasi sanksiyalar, hökumətlərarası təşkilatlardan xaricetmə, diplomatik münasibətlərin kəsilməsi və s.) istifadə olunmasını nəzərdə tutur. Beynəlxalq davranışın mənəvi normalarına riayət

olunmasının əsas tənzimləyicisi dünya ictimai rəyidir, onun beynəlxalq siyasi münaqişələrin iştirakçılarına təsiri beynəlxalq hüququn təsirindən daha səmərəli ola bilər.

Müasir mərhələdə dünya səhnəsində siyasi qarşılıqlı fəaliyyətin iştirakçılarının sayı artmış, onun xarakteri mürəkkəbləşmiş, köhnə dövlət qurumları dağılmış və yeni dövlət qurumları, o cümlədən beynəlxalq-hüquqi tanınmaya malik sərhədləri olan milli-ərazi qurumları yaranmış, bir sıra yeni milli-ərazi problemləri yaranmış və köhnə problemlər bərpa olunmuşdur, közərən münaqişələrə getdikcə daha çox «üçüncü tərəf» cəlb olunmağa başlanmışdır.

Dünya siyasi təcrübəsi göstərir ki, müasir dünyada münaqişəlilik beynəlxalq münasibətlərin yalnız iki dünya sisteminin, iki fövqəldövlətin və s. qarşıduması ilə bağlı olmayan ayrılmaz xarakteristikası kimi təzahür edir. 20-21-ci əsrlərin ayrıcında Şərqi Avropada, Balkanlarda, Mərkəzi Asiyada, İran körfəzində, Qafqazda, dünyanın digər regionlarında beynəlxalq münaşiqələr əslində müxtəlif siyasi elitaların, beynəlxalq aləmdə fəal siyasət yeritməyə can atan milli, dini və digər sosial qrupların mənafelərinin toqquşması olmuşdur.

Qərbdə çox vaxt deyirlər ki, demokratik cəmiyyət liderlərinin münaqişəyə girməmək üçün çoxlu siyasi stimulları mövcuddur. Demokratik ictimaiyyət çox vaxt başqa demokratik dövlətə hücumu xarici siyasətdə uğursuzluq, rəhbərliyin səhvlərinin nəticəsi kimi qəbul edir. Bunu nəzərə alaraq, demokrativ dövlətlərin liderləri öz dövlətlərinin qarşılıqlı münasibətlərində hərbi gücdən istifadə etməyə daha az meylli olurlar və əhalinin diqqətini daxili problemlərdən yayındırmaq üçün beynəlxalq münaqişələrə daha az ehtimalla müraciət edirlər. Lakin bu tezis heç də həmişə hətta Qərbin ən demokratik ölkələrinin siyasətində belə öz təsdiqini tapmıp.

Demokratii-zm, plüralizm və çəkişmənin başqa cəhəti də mövcuddur. Əməkldaşlıqla yanaşı, rəqabəti və mənafelərin toqquşmasını da ehtiva edən çəkişmə sahəsini həm cəmiyyətdaxili, o cümlədən daxili siyasi, həm də beynəlxalq münasibətlər sahəsi təşkil edir. Buna görə də ictimai həyatın istənilən sahəsinin plüralist təşkili totalitar, yaxud avtoritar, ümumiyyətlə hər hansı konkret inhisarçı-mərkəzləşdirilmiş sistemin münaqişəsiz antipodu deyildir. Lakin onun münaqişə potensalı prinsipcə fərqli məzmuna malikdir.

Onun əsasını yaxşı məlum olan hallar təşkil edir: dövlət, kollektivçiliyin istənilən konkret forması onların fəaliyyətinin nə dərəcədə səmərəli və demokratik olmasından asılı olmayaraq, nə bu gün, nə də yaxın gələcəkdə bütün insanların mənafelərini təmin edə bilməz. İnsanların sayı durmadan artır, onların mənafeləri də eyni fasiləsizliklə çoxalır və ən mühümü, daha rəngarəng olur, çünki hər bir insan təkrarolunmazdır, onun həyatı, şüuru və hissləri də bir çox cəhətdən təkrarolunmazdır və belə insanın onun daxil edildiyi istənilən sosial birliyin mənafeləri ilə tam üst-üstə düşməyən təkrarolunmaz mənafeləri olmaya

bilməz.

Bu «təkrarolunmaz» və çox vaxt bir-birinə qarşı duran mənafelərin siyasi münaqişə formasında mövcudluğu qaydaları təsbit edən və siyasi qarşıdurmanın gedişini tənzimləyən hüquq institutları sayəsində yumşalır. Bu zaman cəmiyyətdə ictimai münasibətlərin siyasi sabitliyi münaqişənin yatırılmasına deyil, onun iştirakçı tərəflərin mənafelərinin ödənilməsini təmin edən həllinə əsaslanır. Aydındır ki, belə nəticəyə nail olmaq hətta nəzəri cəhətdən belə çətindir, təcrübədə isə münaqişə potensialının xeyli hissəsi ya çoxlu lokal toqquşmalarda sərf olunur, ya da qrupun xarici möhkəmliyinə təkan verməklə, hamin sosial qrup üçün xarici sahəyə keçirilir. Əlbəttə, siyasi plüralizmin təsdiqi, demokratikləşdirmə, o cümlədən qəbul edilmişt xarici siyasət qərarlarının qəbul edilməsinin demokratikləşdirilməsi, dövlətin hüquqi xarakteri cəmiyyətin müxtəlif qruplarının mənafelərinin ifadə edilməsi, onların dünya səhnəsində təmsil olunması imkanlarını genişləndirir.

Bundan əlavə, vətəndaş cəmiyyətinin normalarına görə, müxtəlif və çox vaxt bir-birinə zidd olan ictimai mənafelərin dünya səhnəsində təzahürü daha aydın xarakter kəsb etməkdədir. Bu, onunla bağlıdır ki, demokratik cəmiyyətdə beynəlxalq, ilk növbədə, xarici siyasi fəaliyyətə dünya siyasətində özlərinin çox vaxt üst-üstə düşməyən, bəzən isə bir-birinə zidd olan mənafelərinin təmsil olunmasına iddia edən ayrı-ayrı sosial qruplar daim təsir göstərir. Bundan başqa, beynəlxalq fəaliyyətə elektoratın genişlənməsi, beynəlxalq aləmdə onların mənafeləri naminə müxtəlif aksiyaların keçirilməsi yolu ilə nüfuzlu sosial qrupların dəstəyinin alınmasına meyl də təsir göstərir.

Köhnə ictimai quruluşun süqutu həmişə cəmiyyətin qütbləşməsi, açıq və kəskin ideya və siyasi rəqabətlə müşayiət olunur. Mübarizə yalnız dünya səhnəsində ayrı-ayrı sosial qrupların spesifik mənafelərini ifadə etmək hüququ uğrunda deyil, həm də onların mümkün qədər tam reallaşdırılması uğrunda gedir. Bu zaman hətta müxtəlif sosial qrupların zahirən siyasi mənafelərdən uzaq olan mənafeləri belə aydın siyasi xarakter kəsb edir. Bütün təsərrüfat sisteminin böhranı, istehsalın tənəzzülü kəskin sosial-siyasi dəyişikliklər şəraitində labüd olan hakimiyyət strukturlarının səmərəliliyinin aşağı düşməsi artan ictimai narazılıq doğurur və bu, partlayış təhlükəli xarakter kəsb edir. Dünya səhnəsində köhnə nümayəndəlik formalarından imtina edən cəmiyyətdə gərginlik və yeni formaların təşəkkülü prosesinin başa çatması beynəlxalq təhlükəsizliyə təhdid edən kəskin, çox vaxt silahlı beynəlxalq münaqişələr doğurur. Üstəlik, yeni hakimiyyət köhnə sınanmış vasitələrdən imtina etmir: siyasi sabitliyin və cəmiyyətdə nüfuzun möhkəmləndirilməsi məqsədilə bu gərginliyi beynəlxalq, millətlərarası, milli-ərazi problemləri sahəsinə yönəltməyə çalışırlar.

Milli-ərazi problemlərinin, milli və etnik münaqişələrin kəskinləşməsinin ictimai-siyasi sistemin dəyişməsi şəraitində nəyə gətirib çıxarmasını Yuqoslaviyanın,

Çexoslovakiyanın və Rusiyanın nümunəsində başa düşmək olar.

Dar mənada «münaqişənin tənzimlənməsi» münaqişənin idarə olunması üsullarından birini ifadə edir. Ondan istifadə olunması münaqişələrin xitamını, ləğv edilməsini deyil, onların intensivliyinə nəzarət olunmasını nəzərdə tutur. Bu halda məqsəd münaqişənin aradan qaldırılmasından, yaxud qarşısının alınmasından deyil, onun məhsuldar edilməsindən ibarətdir.

Münaqişələrin nizama salınması üçün onların labüdlüyünü etiraf etmək zəruridir. Onların rolunu dərk etmək, funksiyalarını və təzahür şəraitini, xarakterini aşkara çıxarmaq zəruridir. Münaqişələr prinsipcə siyasətdən ayrılmaz olduğundan, belə yanaşmada başlıca səylər münaqişənin cərəyanının və inkişafının formaları, ssenariləri, müxtəlif variantları üzərində cəmləşdirilir.

Belə ki, münaqişənin legitimləşdirilməsinə və institutlaşdırılmasına böyük diqqət yetirilir. Bu, yalnız münaqişənin labüdlüyünün, hüquqauyğunluğunun tanınmasında deyil, həm də onun barəsində bütün münaqişə tərəflərinin işləyib hazırladıqları, yaxud qəbul etdikləri müəyyən qaydaların, normaların, qanunların tətbiqində ifadə olunur. Belə qaydalar qismində beynəlxalq sazişlər və konvensiyalar, beynəlxalq təşkilatların nizamnamələri və reqlamentləri, müqavilələr çıxış edə bilər. Münaqişənin tənzimlənməsi üçün onların səmərəliliyi və yararlılığı bütün münaqişə iştirakçıları tərəfindən tanınması, bir tərəfin ziyanına digərinə üstünlük verilməməsi, onların tətbiqində heç olmasa formal bərabərliyin təmin edilməsi şərtilə əldə olunur.

Bu qaydaların konkret məzmunu və forması siyasi həyatın özü qədər rəngarəngdir. Tarixin müxtəlif dövrlərində, müxtəlif cəmiyyətlərdə və dövlətlərdə, müxtəlif siyasi sistemlərdə və müxtəlif siyasi rejimlərdə «yaxşı» beynəlxalq müqaviləyə, beynəlxalq təşkilatların, yaxud birliklərin «yaxşı» nizamnaməsinə verilən tələblər nəinki eyniyyət təşkil edir, həm də ictimai tələbatların məzmunu və təzahür forması dəyişdirildikcə onlara yenidən baxılır.

Demək olar ki, münaqişədə iştirakın qayda və normaları bu və ya digər şəkildə təsbitini tapmış şüurlu, mütəşəkkil və tənzimlənən davranış variantları sistemini təşkil etdikdə institutlaşır. Duel, demək olar ki, tamamilə institutlaşmış münaqişəyə misaldır. Məlum olduğu kimi, onun iştirakçılarının qarşıdurma qaydası, onun vasitələri, vaxt, məsafə, habelə şahidlərin, sekundantların və iştirakçıların duelə qədərki, duel vaxtı və dueldən sonrakı davranışı özünəməxsus məcəllə ilə tənzimlənir. Siyasi münaqişənin institutlaşmasının əsasında sosial cəhətdən legitimləşdirilmiş vasitə və sanksiyaların məcmusu, bu və ya digər hərəkətlərin yerinə yetirilməsinin təsbit olunmuş qaydası durur.

Elmi və tədris ədəbiyyatında münaqişələrin nizama salınması dedikdə çox vaxt tərəflərin münasibətlərindəki düşmənçilik səviyyəsinin aşağı salınması, münaqişənin

problemlərin birgə həllinin axtarışı məcrasına keçirilməsi ilə bağlı olan məsələlərin işlənilməsi başa düşülür. Bu zaman münaqişəli vəziyyətdə nizamasalma, qərarların qəbul edilməsi texnologiyasının, münaqişənin dinc həlli, danışıqlar prosesinin, vasitəçiliyin təşkili şərtlərinin öyrənilməsinə və öyrədilməsinə, münaqişəyə mümkün təsir metodlarının təhlilinə xüsusi diqqət yetirilir.

## § 4.Beynəlxalq siyasi münaqişənin nizama salınmasında «üçüncü tərəf»in rolu

«Üçüncü tərəf» termini geniş və ümumi olub, «vasitəçi», «danışıqlar prosesinin müşahidəçisi», «arbitr» kimi mənalarda işlədilir. Üçüncü tərəf qismində vasitəçi, yaxud müşahidəçi statusu daşımayan, lakin tərəflər arasında münaqişəli vəziyyətlərin nizama salınması məsələləri ilə məşğul olan istənilən şəxs çıxış edə bilər. Vurğulamaq vacibdir ki, üçüncü tərəf münaqişəyə iştirakçılardan birinə yardım göstərmək məqsədilə deyil, məhz onun dinc yolla nizama salınması məqsədilə müdaxilə edir. Birinci halda müdaxilənin xarakterindən asılı olaraq üçüncü tərəf münaqişənin birbaşa, yaxud dolayı iştirakçısına çevrilir. Üçüncü tərəfin danışıqlar yoluna istiqamətlənməsi nəzərdə tutulduqda, adətən, vasitəçilik, xeyirxah xidmətlərin göstərilməsi, arbitraj fərqləndirilir.

Bir qayda olaraq, vasitəçilik dedikdə qarşılıqlı surətdə məqbul qərarın axtarışı prosesinin asanlaşdırılması və optimallaşdırılması məqsədilə üçüncü tərəfin iştirakı başa düşülür.

Özünün məzmunu etibarilə xeyirxah xidmətlər göstərmə anlayışı vasitəçiliyə yaxındır. Onlar özünün son məqsədinə – münaqişənin dinc yolla nizama salınmasına görə üst-üstə düşür, lakin ən yaxın vəzifələrinə, yəni bu istiqamətdə nəyin və necə edilməsinə görə fərqlənir. Xeyirxah xidmətlər münaqişə tərəflərini münaqişəni dinc vasitələrlə həll etməyə sövq etməyə və onlara belə həll üçün şərait təqdim etməyə yönəlmişdir. Bu halda üçüncü tərəf, məsələn, yalnız beynəlxalq siyasi münaqişənin iştirakçıları arasında görüşlərin keçirilməsi üçün öz ərazisini verməklə, yaxud «poçtalyon» rolunda çıxış edərək, bir münaqişə iştirakçısının məlumatlarını digərinə çatdırmaqla kifayətlənə bilər. Vasitəçilik isə, bir qayda olaraq, üçüncü tərəfin münaqişənin nizama salınmasında daha geniş iştirakını nəzərdə tutur. Onun vəzifəsi yalnız danışıqların təşkil edilməsi deyil, həm də onlarda iştirak edərək, qarşılıqlı surətdə məqbul həll düsturunu tapmağa kömək göstərməkdir. Buna görə də bəzən vasitəçiliyi və xeyirxah xidmətlər göstərilməsini üçüncü tərəfin münaqişənin nizama salınması prosesində oynadığı fəal (vasitəçilik), yaxud qeyri-fəal (xeyirxah xidmətlər göstərmə) rola görə fərqləndirmək təklif olunur.

Arbitrajın xarakterik əlamətləri (şərtləri) aşağıdakılardan ibarətdir:

1) onun qərarlarının mübahisə tərəfləri üçün məcburi hüquqi qüvvəsi; münaqişə

iştirakçıları arbitrajın qərarı ilə razı olmasalar belə, ona riayət etməyə borcludurlar;

2) arbitri (arbitrləri) mübahisə tərəflərinin özlərinin seçməsi.

Sonuncu şərt həm vasitəçilik, həm də arbitraj üçün ümumidir. Vasitəçilik zamanı qarşıduran tərəflər münaqişənin nizama salınması barədə müstəqil surətdə qərar qəbul edirlər. Adətən, vasitəçi qarşılıqlı məqbul qərarın tapılmasında onlara kömək göstərir.

Üçüncü tərəfin münaqişə iştirakçılarına təsir vasitələrinin məcmusunda məhdudiyyətlər və məcburetmələr, məsələn, münaqişənin davam etdirilməsi halında iqtisadi yardım göstərməkdən imtina, iştirakçılara qarşı sanksiyaların tətbiqi, qarşıduran tərəfləri ayırmaq üçün sülhyaratma qüvvələrinin yeridilməsi, hərbi əməliyyatların həyata keçirilməsi istisna olunmur.

Bütün bu vasitələrdən silahlı münaqişə hallarında onun iştirakçılarını zorakılığa son qoymağa sövq etmək məqsədilə intensiv surətdə istifadə olunur. Lakin onlara çox vaxt tərəfləri dinc həll yolu tapmağa məcbur etmək üçün vasitəçiliklə eyni vaxtda müraciət olunur.

Məcburedici və məhdudlaşdırıcı tədbirlər bəzən razılaşma əldə edildikdən sonra da tətbiq olunur ki, sazişin yerinə yetirilməsi təmin olunsun.

Danışıqlar sadəcə münaqişənin başa çatdırılması, nizama salınması, həlli üsulu olmayıb, həm də münaqişədə iştirak üsulu, onun inkişaf formalarından biridir. Danışıqlara hazırlıq və bu prosesin gedişindəki labüd əməkdaşlıq daxil olmaqla, danışıqlar prosesinin özü həm münaqişənin mərhələlərindən biri kimi, həm də onun iştirakçılarının qarşıdurmasının idarə olunması üsulu kimi başa düşülə bilər.

İndiyə qədər «danışıqlar» anlayışının məzmununun dəqiq və aydın tərifi yoxdur. Bəzi alimlərin fikrincə, danışıqlar, ilk növbədə, ümumi mənafelər güdən əməkdaşlığı nəzərdə tutan tədbirdir. Danışıqlar zamanı təzahür edən rəqabət əslində əməkdaşlığın qələbəsini ifadə edir.

Digər alimlər onu əsas götürürlər ki, danışıqlar fərqli mənafelərin toqquşması zamanı reallaşdırılan strategiyadır, lakin bununla yanaşı, iştirakçı tərəflərin qarşılıqlı asılılığının bütün iştirakçılar üçün əlverişli razılaşmaya gəlməyə imkan verən müəyyən dərəcəsi mövcuddur. Şübhəsiz, tərəflər bir-biri ilə razılaşmayacaqdır, lakin onlar razılaşmaya gəlmək istərdi, çünki nə ləngimə, nə də öz mənafeləri uğrunda mübarizə onlara fayda gətirmir.

Danışıqların iştirakçılarının qüvvələr nisbətindən, onlardan hər birinin mənafelərinin məzmunundan və əhəmiyyətindən, danışıqçıların şəxsi üslubundan, danışıqların formasından, mərhələsindən və aparılma üsulundan asılı olaraq, qarşıdurma və əməkdaşlıq arasında balans gah bir, gah da digər tərəfə doğru dəyişir. Əlbəttə, danışıqlarda istər münaqişə iştirakçılarının qüvvələr nisbəti, istərsə də onların digər qarşıdurma formalarına

qabil və hazır olması fövqəladə əhəmiyyətə malikdir, lakin başlıcası ondan ibarətdir ki, siyasi münaqişə danışıqlar mərhələsində, yaxud formasında əməkdaşlıq elementlərini ehtiva edir, deməli, daha idarəedilən olur.

Hamı:ayrı-ayrı dövlətlər, beynəlxalq təşkilatlar, hakimiyyətdə olan və hakmiyyətə can atan ayrı-ayrı vətəndaşlar, vasitəçilər və bilavasitə maraqlı tərəflər münaqişələrdə iştirak edə, eləcə də danışıqlar apara bilərlər. Lakin təcrübə göstərir ki, bu fəaliyyət sahəsində ixtisaslaşmış, müvafiq hazırlıq keçmiş və zəruri ixtisasa malik şəxslər danışıqları daha uğurla aparırlar. Belə danışıqçının klassik nümunəsi başqası ilə dialoqda öz dövlətinin mənafelərini təmsil edən diplomatdır.

1990-cı illərin əvvəllərində soyuq müharibənin başa çatması həm də köhnə dünya qaydasının sonunu ifadə etdi. Bu, ikiqütblü dünya idi, beynəlxalq səhnədə əsas güc mərkəzlərini ABŞ və SSRİ təşkil edirdi.

Müxtəlif ölkələrin alim və siyasətçiləri indiyə qədər bu qarşıdurmanın və onunla bağlı münaqişələrin başa çatmasının nəticələrini və əhəmiyyətini müzakirə edirlər. Bəzilərinin fikrincə, soyuq müharibədə ümumiyyətlə qalib olmamışdır və ola da bilməzdi , bütün iştirakçılar uduzmuşdur. Digərlərinin fikrincə, Qərbin soyuq müharibədə qələbəsi aşkardır və sübuta yetirilmişdir. Üçüncülərin fikrincə, SSRİ və ABŞ başda olmaqla iki dünya sisteminin ideoloji və hərbi qarşıdurmasının başa çatması soyuq müharibənin özü üzərində qələbəni ifadə etdi.

Lakin hələ ikiqütblü dünyanı hansı dünyanın əvəz etməsi və yeni dünyada hakimiyyət uğrunda mübarizədə hakimiyyət uğrunda mübarizədə dünya siyasətində hansı münaqişələrin yarana bilməsi suallarının qəti cavabı yoxdur.

Birinci sualın müzakirəsi müasir dünya elmi üçün xarakterik olan iki konsepsiyanı irəli sürməyə və əsaslandırmağa imkan vermişdir. Birinci konsepsiyaya görə, müasir dünya birqütblüdür. Faktiki olaraq mövcud olan bir qütb ABŞ başda olmaqla demokratik sənaye dövlərlərindən ibarətdir. İlk növbədə ABŞ-da yayılmış olan bu konsepsiyanın tərəfdarları arasında yalnız nəzəriyyəçi alimlər deyil, həm də ABŞ-nın siyasi xəttini işləyib hazırlayan və həyata keçirən əməli siyasətçilər vardır. Bir qayda olaraq, onlar etiraf edirlər ki, birtərəfli liderlik onun itirilməsinə gətirib çıxara bilərdi, buna görə də onlar vurğulayırlar ki, ABŞ-nın tək qütb çərçivəsində liderliyi bir dövlətin ona tabe xalqlar üzərində hökmranlığı deyil, bərabərlər və dostlar arasında birincilik xarakteri daşıyır. Bu nəticə ikinci sualın da cavabını təyin edir: təkqütblü dünyada münaqişələr tək qütblə qarşıdurma ilə bağlı olacaqdır. Çin, Rusiya, Hindistan, yaxud hər hansı başqa ölkə tək qütbə qoşulmadıqda onlara qarşı dura biləcək güclü və nüfuzlu dövlətin meydana çıxmasının qarşısını almaq ABŞ-nın və onun müttəfiqlərinin mənafelərinə uyğundur. Beləliklə, təkqütblülük konsepsiyası Pax Americana, yəni ABŞ-nın dünyada üstünlüyü ideyasını ehtiva edir. Bu zaman ABŞ-nın

aparıcı rolu icra etməsi tabeçilikdə olanlarla münaqişəni şərtləndirir. Bu, özünün mahiyyəti etibarilə qlobal münaqişə olaraq, dünya meydanında hakimiyyət münasibətlərinin bütün sisteminə toxunmuş olardı.

Təəccüblənməyə dəyməz ki, Rusiyada, Avropada, Çində, Yaponiyada, müsəlman ölkələrində və bir çox başqa dövlətlərdə olduğu kimi, belə ideyalar özünə qızğın tərəfdarlar tapmır. Burada yayılan başqa bir konsepsiyaya görə, dünya bir neçə güc mərkəzinin və qütbün qarşılıql fəaliyyəti əsasında inkişaf etməlidir. Bu dünyanın müxtəlif modelləri Qərbi Avropa ölkələrinin müstəqilliyi, Çinin, habelə Asiya-Sakit okean regionunun digər ölkələrinin iqtisadi potensialının və beynəlxalq siyasi nüfuzunun artması kimi amilləri nəzərə alır. Lakin bu modellərin heç biri onun iştirakçıları arasında münaqişələri istisna etmir.

ABŞ-nın özündə verilən proqnozlar dünya səhnəsində dövlətlər arasında, sivilizasiyalar arasında hakimiyyət uğrunda mübarizənin saxlanmasını, yaxud hərbi münaqişələrin iqtisadiyyat səviyyəsinə keçirilməsini nəzərdə tutur. Lakin bu ssenarilərin heç birində dünya siyasətinin gələcəyi münaqişəsiz harmoniya səltənəti kimi təsvir olunmur. Nə Çin, nə də Rusiya qütblər, sivilizasiyalar, yaxud dövlətlər arasında ehtimali qarşıdurma sahəsindən kənar edilmir.

1990-cı illərin ikinci yarısında dünyada münaşiqələrin, habelə münaqişə regionlarının sayının azalmağa başlamasına baxmayaraq, müasir münaqişələr onların ifrat qloballaşması, ekoloji fəlakətlər nəticəsində bəşəriyyət üçün ciddi təhlükə doğurur. Soyuq müharibə illərində Şərq və Qərbin qlobal qarşıdurması müəyyən dərəcədə daha aşağı səviyyəli münaşiqələrə səbəb olurdu. Fövqəldövlətlər çox vaxt özlərinin hərbi-siyasi rəqabətində onlardan istifadə edərək, eyni zamanda, həmin münaqişələri nəzarət altında saxlamağa çalışırdılar, ən təhlükəli hallarda isə ikiqütblü dünyanın liderləri birbaşa toqquşmadan qaçmaq üçün gərginliyin aşağı salınması üzrə hərəkətlərini əlaqələndirirdilər.

Bu gün mövcud olan bir sıra əlamətlər müasir dünyada dövlətlərin rolunun azaldığını və beynəlxalq təşkilatların və beynəlxalq millətlərin qeyri-dövlət iştirakçılarının rolunun artdığını göstərir. Buna görə də «klassik» dövlətlərarası münaqişələr, demək olar ki, dünya səhnəsindən itmişdir. İsveçli tədqiqatçıların fikrincə, 1989-1994-cü illərdə dünyada mövcud olmuş 94 münaqişədən yalnız dördünü dövlətlərarası münaqişə hesab etmək olar. Bir sıra müasir münaqişələrdə tərəflərin biri onun dövlətlərarası xarakter daşımasında təkid edir. Klassik dövlətlərarası münaqişələrin yerini eyniləşdirmə münaqişələri tutur. Çox vaxt onlar dövlət əsası üzərində deyil, başqa, əsasən milli, dini başlanğıclar üzərində cərəyan edir.

Lakin müasir dünyada hansı dəyişikliklərin baş verməsindən asılı olmayaraq, beynəlxalq münaqişələrin tezliklə beynəlxalq münasibətlər təcrübəsindən yoxa çıxacağını düşünməyə əsas yoxdur.

## §5. Hakimiyyət və münaqişə

Siyasi mnaqişənin predmetini həmişə hakimiyyət təşkil edir. Özlərinin predmetli fəaliyyətində insanlar əşyalar aləminə müraciət edir, onları emal edir, birləşdirir, dəyişdirirlər. Qrup üzvləri kimi təmasa girərkən, insanlar qarşılıqlı münasibətlər və qarşılıqlı təsirlər sistemi qururlar. Öz növbəsində, həmin sistem idarəetmə səviyyələri pirmidasına çevrilir. Bu piramidanın zirvəsini məhz siyasi hakimiyyət təşkil edir.

Siyasi hakimiyyətin ən mühüm funksiyası ictimai həyatın ümumicbari normalarının müəyyən edilməsindən və onlara riayət olunmasına nəzarətin həyata keçirilməsindən ibarətdir. Bu funksiyalar artıq özünün mahiyyəti etibarilə ictimai asayişin yaradılmasını və qorunub saxlanmasını nəzərdə tutur. Deməli, bu asayişi pozan münaqişələrin nizamlanması üçün şərait yaradılmalı və qorunub saxlanmalıdır.

Cəmiyyət həyatının qəbilə-tayfa təşkilinin dağılmasından bəri cəmiyyətdə ali hakimiyyətin təcəssümü qismində dövlət çıxış edir. Marksist ictimai inkişaf nəzəriyyəsində dövlətin yaranması bununla ixah olunur ki, ibtidai icmaların dağılması nəticəsində bir-biri ilə permanent münaqişə vəziyyətində olan antaqonist siniflər (istismarçılar sinfi və istismar olunanlar sinfi) meydana çıxmışdır. Dövlət bu mübarizənini məhsuludur: o, istismar olunan (məzlum) sinfin istismarçı sinfə qarşı mübarizəsini yatırmağa və bununla da sinfi münaqişənin cəmiyyəti dağıtmasına yol verməməyə qadir olan qüvvə kimi meydana çıxır. Marks dövlətə hakim (istismarçı) sinfin malik olduğu və məzlum kütlələri itaətdə saxlamaq üçün istifadə etdiyi zorakılıq aparatı kimi tərif verirdi. Beləliklə, o, dövlət hakimiyyətinin sinfi xarakterini, onun hakim sinfin mənafelərinin qorunması funksiyasını vurğulayırdı: bu nöqteyi-nəzərdən dövlətin başlıca vəzifəsi siniflərarası münaqişələrin hakim sinfin xeyrinə həllindən ibarətdir.

Bir çox filosof və sosioloqlar, Marksdan fərqli olaraq, ilk növbədə, başqa məqama diqqət yetirərək, cəmiyyətdə asayiş yaradılmasını dövlətin başlıca vəzifəsi hesab etmişlər.

Bu nöqteyi-nəzərdən yanaşdıqda dövlət münaqişə edən siniflərin fövqündə duran və onların münaqişə hərəkətlərini qanun çərçivələri ilə məhdudlaşdıran qüvvədir. Burada dövlətə sinifləri barışdıran, onların mübarizəsini sahmanlayan qüvvə kimi tərif verilir. Dövlətin belə izahını Hobbs, Russo və «ictimai müqavilə» nəzəriyyəsinin digər tərəfdarları inkişaf etdirmişlər.Məsələn, Hobbsa görə, dövlət yaranana qədər cəmiyyətdə yaşamaq təhlükəli olmuş, «hamının hamıya qarşı müharibəsi» («bella omnia contra omnes») getimşdir. Bu müharibə insanların bir-birini məhv etməsinə

gətirib çıxara bilərdi. Buna yol verməmək üçün güclü hakimiyyət lazımdır.Bu hakimiyyət məhz dövlət forması kəsb etmiş, insanlar öz aralarında bağladıqları «ictimai müqavilə»yə əsasən, dövlətə hamının məhvinin qarşısını almaq məqsədilə fövqəladə zorakılıq səlahiyyətləri vermişlər. Hobbs Bibliyada xatırlanan dəhşətli mifik varlığın adı ilə dövləti «Leviafan» adlandırır. M.Veberin anlamında da dövlət qorxuncdur. O göstərir ki, «Dövlət …müəyyən sahə daxilində legitim fiziki zorakılıq üzərində inhisara (uğurla) iddia edən insan birliyidir… Bütün qalan ittifaqların, yaxud ayrı-ayrı şəxslərin fiziki zorakılıq hüququ dövlətin öz tərəfindən bu zorakılığa yol verdiyi dərəcədə tanınır, zorakılıq «hüququ»nun yeganə mənbəyi dövlətdir».

Dövlətin dünya sivilizasiyasına töhfəsi böyükdür. Bunu demək kifayətdir ki, yalnız dövlətə malik cəmiyyətlərdə dünyaya və insana rasional yanaşma formalaşmışdır. Dini sistemlər, elm, hüquq, təhsil meydana çıxmışdır. İnsanın yaradıcı dühasının bir çox kəşfləri bəşəriyyətin əbədi sərvətinə çevrilmişdir, çünki onlar dövlət müəssisələrində qorunub saxlanmışdır. Vahid tarixi xronologiya; nitqin yazıya alınmasının və hesabın varislik forması; uzunluq, çəki, istilik ölçüləri; vahid hüquqi ənənə (Roma hüququndan başlayaraq) və bir çox başqa nailiyyətlər mümkün olmuşdur. Bütün bunlar qrupdaxili və qruplararası münaqişələrin tənzimlənməsi vasitələridir.Dövlətin iştirakı ilə yaradılan belə vasitələrin siyahısını davam etdirmək olar: məhkəmələr, seçkilər, parlamentlər, səfirliklər, muzeylər, pul, nəhayət, kitab çapı.

Lakin konkret dövlətlər müxtəlif olur və həmin dövlətlərdə münaqişələr müxtəlif şəkildə cərəyan edir. Onların xarakteri hakimiyyətin inkişaf istiqaməti ilə müəyyən olunur. Burada ən mühüm məqam hakimyyətin cəmiyyətə münasibətindən ibarətdir.

## §6. Avtoritar hakimiyyətin münaqişələri

Avtoritar tipli cəmiyyət maddi və mənəvi nemətləri çox ləng əldə edir. Hökumət özünü qorumaq və özünə haqq qazandırmaqda məşğuldur. Əməkçilər yoxsulluq həddindədir. Lakin hakimiyyət strukturları da bu idarəetmə tipi üçün spesifik olan münaqişələrdən xali deyildir.

Düşmən axtarışı aşağı silklərdən olan narazıların kənar edilməsi ilə məhdudlaşmır. Hökumət aparatını əldə saxlamaq üçün hakimiyyət daim guya onu nüfuzdan salan nümayəndələrini kütlənin qəzəbinə qurban verməlidir. Faydalı dialoqu rasional qaydada aparmaq daha yaxşıdır. Lakin müti və sözsüz tabeçilik irrasionallıq zəminində artır. Qorxmaq və müdiriyyətə sədaqətini nümayiş etdirmək tələb olunur. İndiki vəziyyətini hakimiyyətin lütfkarlığı kimi qiymətləndirmək lazımdır. Bu şəraitdə

vicdanlı və rasional düşüncəli funksionerin nə kimi çətinliklərlə üzləşdiyini təsəvvür etmək mümkündür. O, canavar sürüsünün qanunları üzrə cərəyan edən münaqişələr zonasına düşür: zəifə güc, güclüyə itaət göstərməlisən, məhvə məhkumun təqibində hökmən iştirak etməlisən; öz fikrin olmamalıdır; özünü gözə soxmamalısan.

Vəziyyət onunla kəskinləşir ki, totalitar hakimiyyətdə təqsirsiz adam olmur. Funksionerin itaəti yalnız təqsiri anlaşılmaz olan şəxsə divan tutulmasının nümayiş etdirilməsi hesabına əldə olunmur. Divan tutmada iştirak etmək tələb olunur. Funksioneri təqsirsizliyinə şübhə etmədiyi şəxsi (dostunu, yaxın qohumunu) satmağa, mühakimə etməyə məcbur etmək xüsusilə vacibdir. Sonra koqnitiv dissonans mexanizmi işə düşür: əgər belə etmişəmsə, deməli, belə lazım imiş.

Vicdan yarası isə qalır. Onun sağalmaması üçün eksperiment sonradan təkrarlanmalıdır.

Totalitar cəmiyyətdə idarəetmə sarsılmaz qanunlar əsasında deyil, hökmdarın iradəsinə görə həyata keçirildiyindən, səhvləri düzəltmək çox çətin olur. Böhran vəziyyəti yarandıqda hökmdar hakimiyyətdə qaldıqca onu düzəltmək, demək olar ki, mümkün deyildir. Hökmdar artıq özünün əsatiri aləmində yaşayır. Buna görə də çox vaxt hakimiyyətin labüd iflası aydın surətdə dərk edilərək, kəskinləşən münaqişə qəsd və saray çevrilişi yolu ilə həll olunur. Risk isə o qədərböyükdür ki, çevriliş amansızlıqla həyata keçirilir.

## §7. Demokratik hakimiyyətin münaqişələri

Demokratik cəmiyyətdə «oyun qaydaları» müzakirə olunarkən, onların əməli nəticələri barədə düşünürlər. Qədim Roma senaatı su kəmərlərinin inşası variantını seçərkən belə bir qaydanı rəhbər tuturdu: kəmərin üç yüz il işləyəcəyi layihəyə üstünlük verilməlidir. Hazır konstruksiyada səhvin aşkar edildiyi andansa, planın qəbul edildiyi mərhələdə mübahisə etmək daha yaxşıdır. Öz fikrini ifadə və müdafiə etmək azadlığı məntiqi, elmi, hüquq şüurunu doğurmuşdur. Yeni qaydaların işlənib hazırlanmasında iştirak edən hər bir cəmiyyət üzvü yalnız özünün intellektual töhfəsini verməklə kifayətlənmir, həm də əksəriyyətin təsdiq etdiyi qaydanın saxlanmasına görə öz üzərinə məsuliyyət götürmüş olur.Burada qəbul edilmiş qaydanın icrasının ən yüksək təminatı təsbit olunur.

Totalitar cəmiyyətdə hüquq və qanun fərqləndirilmir. Hüquq qanunun verdiyi imtiyazdır. Qanun isə hökmdarın iradəsinin təsbit olunmuş ifadəsidir. Hökmdar istəyəndə qanunu, həm də hüquq münasibətlərini dəyişdirir. Kiminsə imtiyazlarını artırır, kimisə imtiyazlardan məhrum edir.

Sabit demokratik ənənələrə malik cəmiyyətdə isə hüquq ictimai şüurda təsbitini tapmış, cəmiyyətin nüfuzu ilə qorunan, müəyyən hərəkətlərin icrasında, müəyyən tələbatların təmin olunmasında azadlığa təminat verən qaydalardır. Qanun yalnız hüququ ifadə edir. Buna görə də hakimiyyət cəmiyyətin qeyri-hüquqi hesab etdiyi qanun qəbul edə bilər.Bu halda cəmiyyət hökuməti devirmək üçün əsas əldə edir.

Orta əsr Avropa dövlətləri siyasi quruluş etibarilə demokratik olmamışlar. Lakin bu dövlətlərdə demokratik yarımsistemlər mövcud olmuşdur. Məsələn, silki institutlar: sənətkar sexləri, şəhər vergi parlamentləri, imperiya seymləri, silki məhkəmələr fəaliyyət göstərmişdir. Avropa Roma hüququnu qəbul etmişdir. Buna görə də sosial həyatda ən mühüm vassallıq sistemi müqavilə əsası üzərində qurulurdu. Senyor müqaviləni pozduqda vassal öz hüquqlarını ya silki məhkəmədə, ya da əlində silah qorumağa borclu idi. Bir çox hakimlər öz vassalları tərəfindən andını, len hüquqlarını pozduqlarına görə devrilmişdi.

Qanun yalnız hökmdarın iradəsinə əsaslandıqda həmişə dəyişdirilə biləcək hüquqi ifadəni təmsil etmiş olur. Qanun hüquq sisteminə istinad etdikldə isə onu hazırlayıb təcəssüm etdirənlərin iradəsi ilə möhkəmləndirilir. Hüquq onun hər bir daşıyıcısının şüuruna sosial ədalət norması kimi nüfuz edir və bu daşıyıcını onun ən fəal müdafiəçisinə çevirir.

Qanunlar öz-özlüyündə gücə malik hökmdara lazım deyildir, Real qanun özünün mahiyyəti etibarilə hakimiyyətin müəyyən normanın könüllü dəstəklənməsi haqqında cəmiyyətlə müqaviləsidir. Bu halda sosial aşağıların hüquqları təsbit olunur. Bu hüquqların mövcud qanun vasitəsilə qorunması və yeni qanun vasitəsilə genişləndirilməsi hüquq münasibətləri sistemini möhkəmləndirir. Buna görə də hakimiyyət və cəmiyyət arasında yaranan münaqişələr hüquq qaydasının təsbitinə və genişləndirilməsinə yönəlmişdir. Avropa müaqişənin seymlərdə, parlamentlərdə, andlılar məhkəmələrində və hətta universitetlərdə qanunlar haqqında mübahisələr forması kəsb etməsindən yalnız qazanmışdır.

Konkret hallara (presedentlərə) dair qərarlar qanunvericilik korpusuna daxil olaraq, hüquq sistemini möhkəmləndirmişdir.

İngiltərə kralının 1215-ci ildə təsdiq etdiyi Böyük Azadlıqlar Xartiyası indiyə qədər qüvvədə olan hüquqi sənəddir, ingilis hüquq sisteminin əsasıdır.

Bundan əlavə, hakimiyyət qərarları işlənib hazırlanarkən münaqişə idarəetmə sisteminin fəaliyyətinin əsasında qoyulmuşdur. Avropada silki birliklərdən başqa, real surətdə taxt-tacdan müəyyən müstəqilliyə malik daha bir neçə birlik mövcud olmuşdur. Bunlar mənəvi nüfuza malik və Roma papasına tabe olan katolik kilsəsi, dövlət hakimiyyətinin inzibati nəzarəti olmadan elmi həqiqət məsələlərini müzakirə

edən universitetlərdir. Universitet elmində müxtəlif məktəblər mövcud olmuşdur. Hətta kilsə belə monax ordenlərinə öz nizamnaməsini, davranış normalarını yaratmaq, mənəvi sahəyə spesifik yanaşma işləyib hazırlamaq imkanı verirdi.

XVII-XVIII əsrlərdə Lokk və Monteskyö hakimiyyət bölgüsü ideyasını nəzəri cəhətdən əsaslandıraraq, üç müstəqil budağı: qanunverici, icraedici və məhkəmə hakimiyyətini fərqləndirirdilər. Bu ideya ABŞ-nın konstitusion quruluşunun əsasını təşkil etmiş, sonralar demokratik sivilizasiyanın ümumi nailiyyətinə çevrilmişdi. Hər üç hakimiyyət budağı ictimai iradə (millətin, xalqın iradəsi) əsasında yaradılmış konstitusiyaya tabedir. Millətin rifahı hakimiyyət institutlarının hərəkətlərini müəyyən edir və məhdudlaşdırır. Konstitusiya əsas və birbaşa qüvvəli qanundur. Heç bir hökumət, yaxud məhkəmə qərarı konstitusiya ilə ziddiyyət təşkil edə bilməz.

Bu, o deməkdir ki, bütövlükdə cəmiyyət hakimiyyətin hərəkətlərinə nəzarət edərək, onun qərarlarını konstitusiya qanunu ilə tutuşdura bilər. Cəmiyyət idarəetmə orqanlarına seçkilər vasitəsilə qanunvericilik hakimiyyətinə nəzarət edir, zərurət yarandıqda qanuni yolla onu devirir, yaxud dəyişdirir. Hər üç budaq öz səlahiyyətlərinə malikdir, heç bir hakimiyyət digərinin fəaliyyətini əvəz edə bilməz. Hakimiyyət bölgüsü gerçəkliyin qiymətləndirilməsində və planların işlənib hazırlanmasında idraki tamlığı, obyektivliyi təmin edir. İki hakimiyyət üçüncüyə müvəqqəti fayda naminə öz imkanlarından sui-istifadə etməyə imkan vermir. Onların arasında razılıq isə çox vacibdir.

Üç müstəqil sistemin informasiyanın işlənilməsi sahəsində nəticələri üst-üstə düşürsə, həmin nəticələrin oybektivliyi artır. Qeyd olunmalıdır ki, real hakimiyyətin bölüşdürülməsi yalnız üç məcrada cərəyan etmir. İctimai rəyin gücünə malik olan kütləvi informasiya vasitələri dördüncü hakimiyyət kimi qəbul olunur. Özünəməxsus həqiqət meyarlarına malik elmin cəmiyyət həyatına təsiri durmadan artır. Siyasi partiyalar sadəəc tərəfdarlar toplamaqla kifayətlənmir, müəyyən dünyabaxışı və hadisələrin gedişatına təsir proqramları formalaşdırırlar. Səmərəli əks əlaqə sistemi inkişaf etdirilir. Hər bir böyük hadisə hakimiyyət və cəmiyyət strukturları daxilində və onların arasında müzakirə olunur.Başqalarının mümkün reaksiyası öz qrupunun fəaliyyəti planlaşdırılarkən nəzərə alınır.

Demokratiya və liberalizm prinsipləri hakimiyyəti daha çevik, daha dayanıqlı və daha humanist edir. Lakin bu, heç də oun kamiləşdiyini ifadə etmir. Siyasi mifologiyanın pərəstişkarları öz ardıcıllarına ideal həyat vəd edirlər. Lakin onlar belə bir qaydanı əsas götürürlər: arzuya qadağan yoxdur. Demokratiya tərəfdarları belə utopizmdən imtina edirlər.

**Demokratiya cənnəti təmin etməsə də, cəhənnəmin qalib gəlməsinə yol vermir.**

Demokratiya özünün şəxsi rifahı barədə niyyətlərini fəal surətdə reallaşdıran insana doğru yönəlmişdir. Demokratik hakimiyyətin uğuru məcmu şəxsiyyət potensialından asılı olmasaydı, bu, təəccüb doğurardı. İnsanlar müxtəlifdir: onların arasında ağıllılar və səfehlər, tənbəllər və əməksevərlər, məsuliyyətlilər və biganələr vardır. Onların hamısına eyni vətəndaş hüquqları vverilsə də, sosial qarşılıqlı fəaliyyətə və sosial yaradıcılığa müxtəlif töhfə verirlər. Bərabər seçki hüququ (bir adam- bir səs) vətəndaşlara ona görə verilməmişdir ki, onlar eyni dərəcədə kamil və ictimai ideallara sadiqdir. Sadəcə, «layiqlilər»in seçilməsinin istənilən üsulu seçənlərin mövcudluğunu və onların kamilliyin dəqiq meyarlarını bilməsini nəzərdə tutur. Seçim hüququna malik qruplar mövcuddur: bunlar idman yarışlarında hakimlər, elmi dərəcələrin verilməsi üzrə elmi şuralar, hərbi və digər rütbələrin verilməsi üzrə ekspert şuralarıdır. Lakin onların hamısı xüsusi seçimi həyata keçirir və onlarla razılaşmayanlar məhkəməyə, yaxud ictimai rəyə müraciət edərək, öz fikrini bildirə bilərlər. Bəs «ictimai rifah» mütəxəssislərinin yanlış hərəkətlərindən necə şikayət etməli? İctimai rifahın müdafiəsi səlahiyyəti yalnız bütün cəmiyyətin sərəncamında olmalıdır.

Bu şəraitdə cəmiyyət daim bürokratik aparatla münaqişələrə girir. Veber bürokratiyanın səmərəliliyini onun yüksək səviyyəli mütəxəssislərdən istifadə etmək (funksional prinsip) və onların tabeçilik sistemini qurmaq (iyerarxiya prinsipi) qabiliyyəti ilə əlaqələndirirdi. Bürokratiya ona aidiyyatı olan bütün münaqişəli vəziyyətlərin həllində bitərəf qalmalıdır; formal qaydalar sistemindən istifadə etməlidir; mübahisə edənlərin şəxslərinə və mənafelərinə deyil, onların dəlillərinin əsaslı olmasına reaksiya verməlidir; hər hansı qərar qəbul edərkən ondan özü üçü heç bir fayda götürməməlidir. Sözün qısası, qayda və qanunlara ciddi riayət edərək, «şəxslərə deyil, işə» xidmət etməli, satqın olmamalıdır. Lakin hətta XX əsrin riyaziyyatı belə dərk etmişdir ki, mütləq dəqiq bilik olmur. Hedel teoreminə görə, istənilən riyazi sistem yalan, yoxsa həqiqi olduğuna qərar verə bilmədiyi müddəalarla qarşılaşır. Belə olduğu halda, dolaşıq sosial həyat istisna təşkil edə bilməz. İstənilən qanunda «boşluqlar» mövcuddur və təbii ki, bürokratiya onlardan öz xeyrinə istifadə edəcəkdir. Cəmiyyətin bürokratiya ilə münaqişəsinin nizamlanması bir neçə istiqamətdə cərəyan edir.

Bürokratiya vətəndaşlardan prinsipcə fərqli hüquqi statusa malikdir. Vətəndaş qanunla qadağan olunmamış hər şeyi etmək hüququna malikdir. Buna görə də vətəndaşın potensial mümkün hərəkətləri heç bir siyahı ilə tükənmir. Məmur isə əksinə, yalnız qanunla müəyyən edilənləri etmək hüququna malikdir.Məmurun hərəkətləri onun səlahiyyətlərinin siyahısında sadalana bilər. Maksimum miqdarda mülkiyyət bürokratiyanın sərəncamından çıxarılıb şəxsi əllərə verilməlidir. Yalnız o halda

bürokratik oğurluq azalacaqdır. Bürokratiyanın sərəncamındakı mülkiyyətin mümkün qədər çox hissəsi cəmiyyətin nəzarətində olmalıdır.

Qapalı arxivlərdəki sənədlər, muzey saxlanclarındakı şəkillər tarix və boyakarlıq həvəskarlarının marağından, təmiz havadan, yaxud günəş şüalarından məmur oğurluğu ilə müqayisədə qat-qat az ziyan çəkəcəkdir. Dövlət mülkiyyətindən istifadə edən hər bir cəmiyyət üzvü onun vəziyyətini dövlət intentarlaşdırma komissiyasından qat-qat yaxşı yoxlayır. Bürokratiyanın hərəkətlərindən məhkəmə qaydasında şikayət verilə bilər. Ona nəzarəti bütün xalq tərəfindən seçilmiş qanunvericilik orqanı həyata keçirir. Onun hərəkətlərini azad KİV müzakirə edir.

Vətəndaşların siyasi səriştəsi ilə bağlı münaqişə də eyni dərəcədə dayanıqlıdır. Bəzilərinin fikrincə, mexaniki surətdə hesablanmış səs çoxluğu öz-özlüyündə qoyulmuş problemlərin həllini ehtiva edir («xalq səhv etmir»). Digərləri siyasi elitanın məsuliyyətinə və səriştəsinə daha çox etimad bəsləyir. Populistlər demokratiyanın kəmiyyət aspektini, elitistlər keyfiyyət aspektini qabardırlar. Amerika sosioloqu Antonii Oberşell «Sosial münaqişə və sosial hərəkatlar» kitabında Amerika siyasətində iki meylin mübarizəsini belə təsvir edir: «Siyasi bərabərlik ideallarına və xalqın suverenliyi, çoxluğun hakimiyyəti prinsiplərinə əsaslanan Amerika demokratik siyasi ənənəsi daxilində həmişə elitist (hamiltonçu) və populist (ceffersonçu) yönümlər arasında gərginlik mövcud olmuşdur və olacaqdır. Xalqın müdrikliyinə inanmayanlar və əksinə, xalq elçilərinin motivlərinə etibar etməyib, vətəndaşların siyasi diferensiasiyasının nəticəsi olan bərabərsizliyi minimuma endirməyə çalışanlar demokratik prinsiplərin həyata keçirilməsinin struktur təşkilinin müxtəlif formalarına üstünlük verirlər. Populistlərin fikrincə, qanunvericilər zəruri bəladır və yalnız xalq iradəsinin icraçısı olmalıdır. Elitistlər qanunvericiləri ictimai rəylə ictimai siyasətin formalaşması arasında faydalı vasitəçi qismində nəzərdən keçirirlər. Populistlər birbaşa seçkilər uğrunda çıxış edərək, nəzərdə tuturlar ki, ilkin seçkilər qruplar şəklində hərəkət edən partiya bosslarının təsirini və birliyini yoxlayır.

Onlar qanunvericilərin təsirinin əksi kimi referendumdan istifadə edirlər. Elitistlər bu institutlara müxalifətdədir.

Elitizmin yayılması demokrtiyanı oliqarxiyaın xeyrinə sarsıdır. Populizmin yayılması isə diktaturanın qurulmasına və dözümsüz çoxluq tərəfindən azlığın hüquqlarının boğulmasına təkan verə bilər. Demokratik ənənənin uğuru xeyli dərəcədə bu iki münaqişəli yönüm arasında mövcud olan ziddiyyətlərə və gərgirnliyə əsaslanır».

Münaqişə kifayət qədər dərin əsasa malikdir. Bir tərəf maarifçi azlığa, digər tərəf isə sağlam düşüncəli çoxluğa rəğbət bəsləyir. Maarifçi azlığın incə intellekti qeyri-real plan meydana çıxara və bundan da betəri, öz gücünü ağıllı aristokratların

hakimiyyətinin möhkəmləndirilməsinə yönəldə (oliqarxiya doğura) bilər. Çoxluğun sağlam düşüncəsi isə incə siyasi problemlərin həlli üçün çox kobud alət olaraq bəsit varianta sövq etmək riski doğurur. Sonrakı uğursuzluq təqdirində isə çoxluq sadəcə diktaturaya yuvarlana bilər. Münaqişə tərəflərinin xoş məramı kəskin rəqabətə keçidə nisbətən ağlabatan variant haqqında razılığa gəlməyə daha çox imkan verir. Bu, o deməkdir ki, çoxluq siyasətdə səriştəlilik və peşəkarlığı qiymətləndirməyi, səriştəli siyasi azlıq isə öz planlarını çoxluğun dəstəkləyəcəyi şəkildə düzgün açıqlamağı öyrənməlidir.

Z. Freyd belə bir fikir irəli sürmüşdür ki, sağlam ideya sakit və astadan, lakin sabit və məqsədyönlü şəkildə dillənir. Dünyanın qarmaqarışıqlığında onu dərhal eşitmirlər, lakin tədricən o, daha çox tərəfdar qazanır. Demokratiya ideyası özünün ilk həyatını Qədim Yunanıstanda tapmışdır. Yunan şəhər-dövlətinin (polisinin) azad sakini torpaq sahəsinin sahibi, ailə başçısı, vətəndaş və döyüşçü idi. O, torpaq mülkiyyətçisi kimi işə məsul sahibkar qismində çıxış edirdi. Vətəndaş kimi dövlətin idarə olunmasında və xalq məclisi tərəfindən qəbul olunan qanunların işlənib hazırlanmasında iştirak edirdi. Döyüşçü kimi o, öz evinin və dövlətinin ardıcı müdafiəçisi idi. Afinada 20 minə yaxın belə vətəndaş var idi, halbuki bütün polisin əhalisi yüz minlərə çatırdı.

Müasir böyük şəhərdə bir rayonun sakinlərinin sayı bundan çoxdur. Lakin balaca Yunanıstan Avropa mədəniyyətinin anası və demokratik ideallarn beşiyi olmuşdur. Avropadan Romanın imperiya legionları, Atilla və Alarixin orduları, böyük katolik monarxlarının muzdlu döyüşçuləri keçmiş; səlib yürüşləri və dağıdığı dini müharibələr baş vermişdir. Lakin yunan demokratiyasının qığılcımı sönməmişdir. O, orta əsrlər İtaliyasının şəhər-respublikalarında alovlanaraq, İntibah ruhu doğurmuş, kiçik ölçülü Hollandiyaya gurlamışdır, sonra isə ingilis-amerikan siyasi sistemində müasir sivilizasiya nümunəsinə çevrilmişdir.

### §8.Siyasi münaşiqələrin yaranma səbəbləri və tipologiyası

Cəmiyyətdəki bütün siyasi münaqişələri iki əsas növə ayırmaq olar: üfüqi və şaquli.

**1. Üfüqi siyasi münaqişələr.** Belə münaqişələrdə hakimiyyət və hakimiyyət səlahiyyətləri uğrunda mübarizə mövcud rejim çərçivəsində aparılır. Məsələn, hökumət və parlament arasında, hakim elitadakı müxtəlif siyasi qruplaşmalar arasında, dövlət və siyasətin ayrı-ayrı subyektləri (şəxsiyyət, qrup, institut) arasında və s.

Üfüqi münaqişələrin yaranma məqsədləri və səbəbləri mövcud hakmiyyət sisteminin təkmilləşdirilməsi ilə bağlıdır. Məsələn, yararsız liderlərin, yaxud hakim elitanın

dəyişdirilməsi, siyasi xəttə qismən dəyişikliklər edilməsi, bu və ya digər siyasət subyektlərinin hakimiyyət səlahiyyətlərinin artırılması, yaxud azaldılması və s.

Demokratik siyasi sistemdə üfüqi siyasi münaqişələr institutlaşdırılmış və müəyyən dərəcədə proqramlaşdırılmışdır. Bu münaqişələrin əksəriyyəti açıq xarakter daşıyır, məsələn, parlament mükalimələri, parlamentin buraxılması və növbədənkənar seçkilərin təyin olunması, hökumətə etimadsızlıq göstərilməsi, konstitusiya məhkəməsinə müraciət və s.

Totalitar hakimiyyət rejimi heç bir siyasi münaqişə qəbul etmir və onlara yol verməməyə çalışır. Totalitar siyasi sistemdə üfüqi münaqişələr baş verəndə belə onlar qəsd, yaxud saray çevrilişi forması kəsb edir.

**2. Şaquli siyasi münaqişələr.** Belə münaqişələrdə cəbhələşmə «hakimiyyət-cəmiyyət» xətti üzrə baş verir. Cəmiyyətin sosial-siyasi strukturu yekcins deyildir. Müxtəlif sosial təbəqələr, siniflər və etnik qruplar bu strukturda müxtəlif mövqeyə (statusa) malikdir və müxtəlif rollar oynayır.

Status-rol strukturunun iyerarxiyalılığı, ehtiyatlara və hakimiyyətə çıxış imkanlarının qeyri-bərabərliyi «hakimiyyət-cəmiyyət» oxunun bütün səviyyələrində siyasi münaqişələr doğurur.

Öz növbəsində, şaquli siyasi münaqişələri iki yarımnövə ayırmaq olar:

a) status-rol münaqişələrindən cəmiyyətin siyasi strukturunda şəxsi və qrup statusunun (rolunun) yüksəldilməsi (siyasi hakimiyyət iyerarxiyasında yer, siyasi hüquq və azadlıqların məcmusu və həcmi, siyasi həyatda iştirak və ona təsir imkanı, status və rolun uyğunluğu və s.) uğrunda mübarizədə istifadə olunur. Müasir Rusiyada Mərkəz və regionlar arasındakı münaqişələr buna misaldır.

Status-rol münaqişələri yalnız «yuxarılar-aşağılar» oxu üzrə deyil, həm də üfüqi şəkildə – status-rol strukturunun təxminən eyni pillələrində olan siyasi subyektlər arasında yaranır (partiyaların və partiya fraksiyalarının mübarizəsi).

b) rejim siyasi münaqişələri mövcud siyasi quruluşu devirmək, yaxud siyasi xətti radikal surətdə dəyişdirmək məqsədi güdür.

Pejim münaqişələrinin yaranmasının bütün səbəblərini iki əsas hissəyə ayırmaq olar:

1. Ölkə əhalisinin xeyli hissəsinin təməl sosial-iqtisadi və siyasi tələbat və mənafelərinin pozulması.

2. Cəmiyyətin siyasi və sosial-iqtisadi inkişafı ilə bağlı qiymətləndirmələrdə, dəyər yönümlərində, məqsədlərdə, təsəvvürlərdə fərqlər (siyasi mədəniyyət fərqləri).

Təməl tələbatların pozulması həm obyektiv, həm də subyektiv amillərlə şərtlənə bilər.

Obyektiv amillər:

-cəmiyyətin təbii sosial-iqtisadi inkişafının böhranı (məsələn, keçən əsrin 80-ci illərində keçmiş SSRİ-də böhran);

-cəmiyyətin sosial-iqtisadi sistemində radikal isdahatla bağlı çətinliklər;

-gözlənilmməz halların (təbii fəlakət, dünya iqtisadi böhranı, xarici müharibələr və s.) nəticəsi.

Subyektiv amillər:

-sosial-iqtisadi siyasətdəki səhvlər (səriştəsizlik);

-hakim elitanın cəmiyyətdəki siniflərin və sosial təbəqələrin köklü mənafe və tələblərini nəzərə almaq istəməməsi;

-cəmiyyətdəki sosial təbəqələrin və siniflərin ehtiyatların (o cümlədən hakimiyyətin) bölgüsü üzrə siyasi sistemi ədalətsiz və qanunsuz hesab etməsi.

İnsanın təməl tələbatlarının pozulmasının hansı səbəblərlə şərtlənməsindən asılı olmayaraq, ölkə əhalisinin xeyli hissəsi cəmiyyətin mövcud sosial-siyasi strukturunda öz yerini tapa bilmədikdə və mövcud sosial-siyasi institutlar çərçivəsində özünün təməl tələbatlarını təmin edə bilmədikdə həmin institutları dağıtmağa, yaxud radikal surətdə dəyişdirməyə çalışacaqdır.

Siyasi münaşiqələrin növləri kimi dəyərlərin münaqişələri və mənafelərin münaqişələri də fərqləndirilir.

Dəyərlərin (dəyər yönümlərinin) münaqişəsində ziddiyyətlər siyasi sistem, ölkənin siyasi xətti və siyasi oyun qaydaları haqqında təsəvvürlərin fərqlənməsi ilə bağlıdır. Dəyər münaqişələrində «Nə etməli?» sualı qoyula bilər.

Mənafelərin münaqişəsində mübarizə müxtəlif ehtiyatların (hakimiyyət, maddi nemətlər, mənəvi dəyərlər və s.) bölüşdürülməsi və yenidən bölüşdürülməsi sahəsində cərəyan edir. Burada «Necə etməli?» sualı qoyulur.

Siyasi münaqişənin növlərindən birini siyasi mədəniyyətlərin münaqişəsi təşkil edir. Bu münaqişədə müxtəlif siyasi dəyərlərin, normaların, adətlərin, ənənələrin, siyasi davranış üsullarının, dəyər yönümlərinin və siyasi inkişaf məqsədlərinin toqquşması baş verir. Bu münaqişələr cəmiyyətdə radikal islahatlar dövründə, köhnə və yeni siyasi mədəniyyətlər toqquşduqda xüsusilə nəzərə çarpır.

Bundan başqa, siyasi münaqişələr obyektivlik əlamətinə görə fərqləndirilir:

-obyektiv ziddiyyətlərlə şərtlənən həqiqi münaqişə;

-iştirakçıların hələ dərk etmədikləri təsadüfi, şərti münaqişə;

-obyektiv ziddiyyətlərlə dolayı surətdə bağlı olan qarışıq münaqişə;

-münaqişədə olmayan subyektləri göstərən uydurma münaqişə;

-real səbəbləri olmayan yalançı münaqişə.

Bir qayda olaraq, çirkin siyasətdə real, obyektiv surətdə şərtlənən münaqişələr

yalançı, qarışıq, uydurma və digər münaqişələrlə əvəzlənir.

Siyasi münaqişələrin onların əsasında duran ziddiyyətlərin dərinliyinə görə fərqləndirilməsi xüsusilə vacibdir. Amerikalı politoloq A.Rapoportun fikrincə, münaqişənin əsasında barışmaz ziddiyyətlərin durduğu «çarpışma» tipli; uzlaşmanın mümkün olduğu «mükalimə» («deyişmə») tipli; hər iki tərəfin vahid qaydalar çərçivəsində hərəkət etdiyi və təşəkkül tapmış münasibətləri pozmadığı «oyun» tipli münaqişələr mövcuddur.

Digər sosial münaqişələr kimi, siyasi münaqişələr də lokal, ümumi, qısamüddətli, uzunmüddətli, subyektiv, obyektiv, zorakı, dinc münaqişələrə ayrılır, Mərkəz, region, ayrıca şəhər və rayon səviyyəsində baş verir.

Siyasi münaqişənin xüsusiyyəti cəmiyyətdə, yaxud beynəlxalq aləmdə nüfuz uğrunda mübarizədir. Siyasi münaqişəyə əks ictimai qüvvələrin müxtəlif yönümlü siyasi məqsəd və mənafelərlə şərtlənən toqquşması kimi tərif vermək olar. Siyasi münaqişələr xarici siyasi (dövlətlərarası) və daxili siyasi münaqişələrə ayrılır.

## §9. Daxili siyasi münaqişənin mahiyyəti və növləri

Dövlətin, cəmiyyətin siyasi həyatının məzmunu insanların (siniflərin, sosial qrupların, partiyaların, milli və dini birliklərin və s.) siyasi mənafelərini reallaşdırmasının xüsusi formasını təşkil edir.

Cəmiyyətin siyasi həyatı öz ifadəsini əldə olunmuş nailiyyətlərin müdafiəsinə, möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə, müəyyən siyasi qüvvələrin vəziyyətinin yaxşılaşdırılması üçün ilkin şərtlərin yaradılmasına, onların arasında balansın əldə edilməsinə yönəlmiş hakimiyyət münasibətlərində tapır.

Daxili siyasi münaqişənin xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

- cəmiyyətin bu və ya digər təbəqəsinin siyasi mənafe uğrunda mübarizəsi;

-forma etibarilə parlament mübarizəsindən vətəndaş müharibələrinə qədər fərqlənən siyasi hökmranlıq uğrunda mübarizə.

Aşağıdakı növləri fərqləndirmək olar.

1. **Sinfi daxili siyasi münaqişələr** ictimai siniflər arasında yaranır, adətən, anataqonist xarakter daşıyır, «sıfır məbləğinə malik» münaqişələr kimi nəzərdən keçirilir və sosial-demoqrafik, bəzən korporativ səviyyədən başlayaraq çox vaxt ümumvətəndaş münaqişələrinə çevrilir.

2. **Siyasi partiyalar (ictimai-siyasi hərəkatlar) arasında münaqişələr.** Dünya sivilizasiyası avtoritar idarəetmə formalarından demokratik formalara keçdikcə

demokratik dövlətlərdə cəmiyyətin inkişaf yolları haqqında məsələlərlə bağlı mübarizə siyasi partiyaların və ictimai-siyasi hərəkatların fəaliyyətinə doğru dəyişmişdir. Partiyaların siyasi mübarizəsi nadir hallarda konstitusiya normalarından kənara çıxır, hərçənd bəzən dramatik xarakter kəsb edir.

3. **Müxtəlif qruplaşmalar arasında dövlətdə, partiyada, hərəkatda və s. liderlik uğrunda münaqişələr.** Bu qruplaşmalar, bir qayda olaraq, rəsmən birləşmələrdə birləşməmişdir, lakin onların mənafeləri həmişə hakimiyyət uğrunda mübarizə ilə bağlıdır.

4. Bəzən aydın ifadə olunmuş siyasi çalara malik millətlərarası münaqişələr daxili siyasi münaqişələrin xüsusi qrupu kimi fərqləndirilir.

## § 10. Daxili siyasi münaqişələrin dayandırılması yolları

Sabit mövcudluq üçün cəmiyyətin daim moderləşdirilməsi, o cümlədən siyasi hakimiyyətin qanuniliyinin və sabitliyinin əsası kimi siyasi modernləşdirmə zəruridir. Lakin modernləşdirmə inkişaf prosesində yaranan ziddiyyət və münaqişələrin həlli prosesidir.

Siyasi təcrübə sistemin sabitləşdirilməsinin daxili siyasi münaqişələrin qarşısının alınmasına aparan yollarını işləyib hazırlamışdır. Bu metodların mənası siyasi hakimiyyətlə cəmiyyətin hüquqları pozulmuş hissəsinin mənafeləri arasında cəbhələşmənin zəiflədilməsindən, deməli, müxalifətin hökumətə ziddi siyasi yönümünün qeyri-münaqişə səviyyəsinə endirilməsindən ibarətdir.

**1. Sosial manevretmə** ictimai məhsulun bir hissəsinin müxalifətin mənafeləri naminə yenidən bölüşdürülməsindən ibarətdir. Yenidən bölüşdürmənin həcmi ictimai məhsulun həcmindən; sosial və siyasi gərginliyin səviyyəsindən; cəmiyyətin ictimai məhsuldan məhrum edilən hissəsinin çevikliyindən; siyasi rəhbərliyin peşəkarlığından və s. asılıdır. Bu metoddan istifadə formaları cəmiyyətin sosial-iqtisadi inkişafından asılıdır. Onlar Qədim Romada olduğu kimi pulsuz çörək paylanmasından inkişaf etmiş müasir ölkələrdə təşəkkül tapmış, pulsuz tibbi xidməti və təhsili, pensiya müavinətlərini, sosial sığortanı və s. ehtiva edən infrastruktura qədər dəyişir. Bu metod özünəməxsus «klapan» olaraq, xalqın narazılıq «buxar»ını çıxarmağa, hökumətə zidd ovqatların şiddətini azaltmağa imkan verir.

**2. Siyasi manevretmə** müxtəlif yönümlü mənafelərin faktiki olaraq mövcud siyasi hakimiyyətin fəaliyyətinə kömək göstərən sabit siyasi alyansa çevrilməsini təmin

edən tədbirlərin geniş spektrini ehtiva edir. Metodun reallaşdırılması formaları arasında aşağıdakılar fərqləndirilir:

- qarşıduran tərəflər arasında siyasi kompromis imkanlarının aşkara çıxarılması;

-məqsədin əldə edilməsi vasitələrin əvəzlənməsi (ölkə əhalisinin əksəriyyətinin mənafelərinə cavab verən məqsəd və onun əldə edilməsinə kömək göstərən vasitələr bəyan olunur. Bu zaman başqa sabitləşdirmə vasitələrinin tətbiqi üçün istifadə olunan vaxt udulur;

-siyasi liderin dəyişdirilməsi (əvvəl bəyan olunmuş məqsədlərə nail olmayan ölkə rəhbərliyi hakimiyyətdə qalaraq, məsələn, Nazirlər Kabinetini, yaxud konkret lideri istefaya göndərir).

Siyasi manevretmənin zəif cəhəti tətbiq olunan tədbirlərin müvəqqəti xarakter daşıması ilə bağlıdır.

**3. Siyasi manipulyasiya.** Bu ad altında geniş mənada siyasi hakimiyyətin özünün sabit mövcudluğu üçün həyata keçirdiyi hərəkətlər başa düşülür. Dar mənada siyasi manipulyasiya dedikdə ictimai şüura, ilk növbədə, kütləvi kommunikasiya vasitələri ilə məqsədyönlü təsir başa düşülür. Adətən, qəzetlər, radio, televiziya, əsasən, cəmiyyətdəki hakim qüvvələrin əlində olur. Buna görə də onların hərəkətləri mövcud siyasi sistemin sabitləşdirilməsinə yönəlmişdir.

Münaqişələrin qarşısının alınmasının «düşmən obrazının yaradılması» kimi üsulunun həyata keçirilməsində KİV-in, xüsusilə elektron KİV-in rolu böyükdür. O, həll olunmamış problemlərə görə məsuliyyətin digər (çox vaxt müxalif, bəzən isə mifik) siyasi qüvvələrin üzərinə qoyulmasından və əhalinin diqqətinin kəskin siyasi və sosial problemlərdən yayındırılmasından ibarətdir.

**4. Kontrelitanın inteqrasiyası.** İctimai sistemin sabitliyinin pozulması onda ictimai narazılığın inteqratoru rolunu oynayan kontrelitaların formalaşmasına təkan verir. Belə kontrelitalar qeyri-standart təfəkkürlü insanların inkarına gətirib çıxaran yanlış kadr siyasəti nəticəsində əmələ gəlir. Onlar siyasi elitanın tərkibinə düşmədikdə «əks qütbdə» toplaşır və eyni zamanda hökumətə qarşı fəallıq göstərirlər. Kontrelitanın əmələ gəlməsinə yol verməmək, yarandıqda isə onu siyasi elitaya inteqrə etmək məqsədəuyğundur.

Onun siyasi mənafeləri hakimiyyətdən ayrı deyildir, buna görə də onun nümayəndələrinin rəhbərliyin tərkibinə daxil edilməsi, yaxud kontrelitanın təsiri altında olan təşkilat və hərəkatların hakimiyyətə cəlb olunması mümkündür.

**5. «Sistemli müxalifətin zəiflədilməsi».** Kontrelitadan fərqli olaraq, o, öz qarşısına mövcud sistemin sabitliyini tam pozmaq və öz sistemini yaratmaq məqsədini

qoyur. Buna görə də siyasi rəhbərlik üçün «sistemli müxalifət»in hərəkətlərinin maksimum zəiflədilməsi vacibdir. Bundan ötrü aşağıdakı üsulları tətbiq oluna bilər:

-müxalifətin həyaa knçirmək istədiyi hərəkətlərdə təşəbbüsün ələ keçirilməsi;

-müxalifət üzvlərinin xudbin məqsədlərinin ifşası;

-müxalifətin qoyduğu məqsədlərin əldə olunmasının qeyri-mümkünlüyünün nümayiş etdirilməsi;

-arasında populyar olduğu sosial təbəqələr tərəfindən müxalifətə etimadsızlığın formalaşdırılması;

-müxalifətin tərkibində «təfriqəçi qruplar»ın yaradılması;

-müxalifət düşərgəsindən «fərarilər»in stimullaşdırılması, onların hakimiyyət strukturlarına cəlb edilməsi;

-müxalifətin qeyri-zorakı ləğvi (onun nümayəndələrinin hakimiyyət orqanlarına daxil edilməsi, qərarların işlənib hazırlanmasına cəlb edilməsi və s.;

-müxalifət liderlərinin zərərsizləşdirilməsi.

Müxalifət liderlərinin zərərsizləşdirilməsi aşağıdakı metodlarla reallaşdırıla bilər:

-iddiaların təmin edilməsi (hakimiyyətə cəlbetmə);

-rolların qarışdırılması (problemlərin həllində, çatışmazlıqların aradan qaldırılmasında iştirak etmək təklifi);

-psixoloji təcridetmə: müxalifət liderində müsbət cəhətlərin mütləqləşdirilməsi, ifrat mədhetmə və onun müxalifətdən ayrılması;

-formallaşdırma (müxalifət liderinin formallaşdırılmış hərəkətləri yüksək məqsəd müdafiəçisi kim cazibədarlıqdan məhrum edilir);

-psixoloji yaxınlaşma (rəhbərlik və müxalifət arasında qeyri-formal məsafənin azaldılması);

-dolayı yolla gözdən salma (nüfuzlu, lakin ümidsiz işə başçılıq etmək təklifi) ;

-psixoloji cəhətdən nüfuzdan salma: mövcud liderlərin rəqibi olan alternativ müxalifət liderlərinin dəstəklənməsi;

-qrupların parçalanması (liderin öz tərəfdarlarından təcrid edilməsi, onun «ordusuz general» vəziyyətinə salınması).

**6. Güc təzyiqi.** Güc təzyiqinin tətbiqi formaları sistemə mənfi münasibətin zorakı üsullarla aradan qaldırılmasına yönəlmiş açıq diktaturanın qurulmasından dolayı təzyiq metodlarının tətbiqinə qədər tərəddüd edir. Bu zaman fövqəladə vəziyyət elan olunması, repressiyalar, müxalifət partiyalarının qadağan edilməsi və s. kimi hüquq normalarına riayət olunur. Bu metod vətəndaşların siyasi fəallığının aşağı olduğu, mühafizəkar təfəkkürün və sərt iyerarxik strukturun saxlanması yönəlişinin

üstünlük təşkil etdiyi cəmiyyətlərdə tətbiq oluna bilər. Belə şəraitdə güc təzyiqi ağlabatan hədlərdən kənara çıxmadıqda xüsusi müqavimət olmadan qəbul edilir. Yüksək siyasi fəallığa malik cəmiyyətlərdə belə təzyiq çox vaxt müqavimətlə qarşılanır.

Beləliklə, daxili siyasi münaqişənin xüsusiyyəti cəmiyyətin bu və ya digər təbəqəsinin özünün siyasi mənafeyi uğrunda mübarizəsindən ibarətdir. Daxili siyasi münaqişələr sırasında sinfi münaqişələr, siyasi partiyalar və hərəkatlar arasında münaqişələr, habelə qruplaşmalar arasında dövlətdə, partiyada, ictimai-siyasi hərəkatda liderlik uğrunda mübarizə fərqləndirilir. Daxili siyasi münaqişələrin qarşısının alınması yolları sosial manevretmə, siyasi manevretmə, siyasi manipulyasiya, kontrelitanın inteqrasiyası, «sistemli müxalifət»in zəiflədilməsi və güc təzyiqidir.

## § 11. Siyasi münaqişələrin nizama salınması və həlli

Siyasi münaqişələrin nizama salınması üsulları, ilk növbədə, münaqişə növünün müəyyən edilməsindən asılıdır. Biz, bir qayda olaraq, subyektləri qismində mövcud siyasi sistem çərçivəsində fəaliyyət göstərən siyasi institutların və təşkilatların (məsələn, hakimiyyətin icraedici və qanunverici budaqlarının) çıxış etdikləri üfüqi münaqişə ilə qarşılaşdıqda həmin münaqişənin tam institutlaşdığını və onun nizama salınmasının siyasi mübarizənin qanunvericilik qaydasında təsbit olunmuş qaydaları (məsələn, Konstitusiya) ilə əvvəlcədən müəyyən olunduğunu müşahidə edirik. Belə münaqişələrin nizama salınması, bir çox cəhətdən, siyasi liderlərin dəstək qruplarından istifadə etməklə tərəfdarlar və uzlaşma əldə etmək qabiliyyətindən asılıdır. Müzakirələrin, mükalimələrin, danışıqların, razılaşdırıcı komissiyaların işinin gedişində kompromisə nail olmaq mümkün olmadıqda və münaqişə «dalana dirəndikdə» demokratik siyasi sistemdə onun həllinin aşağıdakı variantları mövcuddur:

-Konstitusiya Məhkəməsinə müraciət;

-hökumətin istefası;

-parlamentin buraxılması və növbədənkənar parlament seçkilərinin təyin olunması;

-mübahisəli məsələlərə dair referendumun təşkili və keçirilməsi və s.

Mərkəz və regionlar arasında yaranan şaquli status-rol münaqişələri nizama salınma baxımından daha mürəkkəbdir. Regionlar yalnız özünün sosial-iqtisadi və siyasi statusunun yüksəldilməsinə can atmayıb, həm də tam siyasi müstəqilliyə can ata bilər. Belə münaqişələr geniş miyqaslı döyüş əməliyyatlarına və çoxlu tələfata səbəb ola bilər. Belə münaqişənin uğursuz həllinə əyani nümunə kimi Çeçenistan müharibəsini göstərmək olar. Rusiyada Mərkəzlə Federasiyanın ayrı-ayrı subyektləri, məsələn, Tatarıstan arasında müqavilə bağlanması belə münaqişələrin həllinə dair uğurlu nümunə hesab oluna bilər.

Lakin şaquli rejim siyasi münaqişələrinin nizama salınması və həlli daha çətindir. Belə münaqişələrin subyektləri qismində, bir tərəfdən, əhalinin hakim təbəqələrinin və hakim elitanın mənafelərini ifadə edən dövlət institutları və təşkilatları, digər tərəfdən isə tabe kütlələri təmsil edən müxalifət təşkilatları çıxış edirlər. Rejim siyasi münaşiqəsinin son məqsədi mövcud siyasi sistemin dəyişdirilməsindən (yaxud saxlanmasından) ibarətdir. Belə münaşiqələrdə səhvlər xüsusilə baha başa gəlir. Mənfi inkişaf cəmiyyəti vətəndaş müharibəsinə gətirib çıxara bilər.

Rejim siyasi münaşiqələrinin həllindəki çətinlik həm də ondan ibarətdir ki, müxalif tərəf mövcud siyasi mübarizə qaydalarını poza, onların dəyişdirilməsini tələb edə, qanunsuz metodlarla hərəkət edə, əhalinin geniş təbəqələrini kütləvi  çıxışlara və hakimiyyətə itaətsizliyə təhrik edə bilər. Bu mübarizədə qanunilik (legitimlik) və qeyri-qanunilik (qeyri-legitimlik) qarşılıqlı surətdə bir-birinə keçir. Müxalifətin «qanunsuz) hərəkətləri onun qələbə qazanması halında qanunilik (legitimlik) kəsb edir, məğlubiyyətə uğramış hakim elitanın «qanuni» hərəkətləri isə qanunsuz hesab olunur. Radikal siyasi münaşiqənin mənfi inkişafına yol verməmək üçün münaqişəli vəziyyətin vaxtında hərtərəfli təhlili zəruridir, bu zaman aşağıdakı əsas suallara aydınlıq gətirilməlidir:

-Münaqişə yaranmasının əsas səbəbləri hansılardır?

-Tərəflərin həqiqi məqsəd və niyyətləri nədən ibarətdir?

-Münaqişədə hansı qüvvələr iştirak edir və münaqişənin inkişafına hansı qüvvələr cəlb oluna bilər?

-Vəziyyətin münaqişəli inkişafı kimə sərfəlidir?

Alınmış cavabların əsasında aşağıdakı imkanlar yaranır:

-hadisələrin mümkün inkişaf proqnozunun tərtib edilməsi;

-münaqişənin nizama salınmasının mümkün variantlarının müəyyən edilməsi;

-münaqişənin nizama salınması və həlli planının işlənib hazırlanması, taktiki və strateji vəzifələrin müəyyən edilməsi.

Planın təcrübədə reallaşdırılması hərəkətlərin aşağıdakı ardıcıllığını nəzərdə tutur:

1) münaqişə tərəflərinrin emosional gərginliyinin (məsələn, niyyətlər haqqında məlumatlandırmaqla)  azaldılması (aradan qaldırılması);

2) mübahisə predmetinin dəqiq müəyyən edilməsi və bununla da münaqişənin lokallaşdırılması;

3) münaqişə tərəflərinin qarşılıqlı fəaliyyət normalarını və qaydalarını müəyyən etmək (şərtləşdirmək);

4) münaqişə tərəfləri arasında dialoq təşkil etmək və tərəflərin mövqeləri, münaqişənin nizama salınması üzrə görülən tədbirlər haqqında ictimaiyyəti açıq surətdə məlumatlandırmaq;

5) problemləri münaqişə iştirakçılarının subyektiv marağından ayırmaq və diqqəti onların həlli üzərində cəmləşdirmək.

Görülmüş tədbirlər nəticəsində münaqişəni nizama salmaq, yaxud lokallaşdırmaq mümkün olmadıqda və onun sonrakı inkişafı cəmiyyət üçün təhlükə törətdikdə hakimiyyət strukturları güc tətbiq etməyə hazır olmalı, yaxud münaqişənin inkişafını güc işlətməklə qorxudaraq saxlamalıdır.

**Ədəbiyyat:**

1.Овчинников В.С. Политические конфликты в международных отношениях и пути их разрешения. – М., 1990.№5

2.Бэрон Р., Ричардсон Д. Агрессия. – СПб.,1997.

3.Блищенко В.И.,Солнцева М.М. Региональные конфликты и международное право(вторая половина XX – начало XX1 века). – Учебное пособие. – М.,2005.

4.Введение в теорию международного конфликта.- М.,1996.

5.Shikman S. Theory of political conflict. – N.Y. 1989.

## 4-cü mövzu
## Sosial münaqişələr

**Suallar:**

**1.Sosial münaqişənin təbiəti**

**2. Sosial münaqişələrin kökləri**

**3. Sosial münaqişələrin tipləri**

**4. Sosial münaqişələrin funksiyaları**

**5 . Sosial münaqişələrin növləri və əsas inkişaf mərhələləri**

**6. İqtisadi münaqişələr**

**7. Kütləvi iğtişaşlar və kütlə fenomeni.**

Sosial münaqişələr ehtiyat uğrunda mübarizə ilə bağlı olan münaqişələr kimi başa düşülür. Onlar insan və təbiətin sərhədində yaranır və istehsal və istehlak zonasında davam edir. İnsanın insan üzərində hakimiyyəti zonasına keçdikdə bu münaqişələr siyas münaqişələrə çevrilir, ali dəyərlər uğrunda mübarizə isə onları mənəvi münaqişələrə çevirir.

Uzun müddət təbiət insanlar üçün hüdudsuz xammal mənbəyi və istehsalatdan ona qaytarılan bütün tullantıların universal uducusu hesab olunmuşdur. Yalnız XX əsrdə dərk etməyə başladılar ki, təbiətin ahəngləşdirici gücü, habelə xammal ehtiyatları hüdudsuz deyildir. Yer kürəsi insanın artan texniki gücdən səmərəsiz istifadə etməsi ucbatından ekoloji fəlakət təhlükəsi ilə üzləşir. Lazımi həllini tapmamış sosial münaqişə fəlakət mənbəyini təşkil edir.

Problemin dərki və onun səmərəli tənzimi cəhdi, adətən, münaqişənin kəskinliyinin aşağı düşməsinə gətirib çıxarır, bəzən isə gələcəyə yol açır.

### §1. Sosial münaqişənin təbiəti

Ən müxtəlif tip cəmiyyətlərdə münaqişələrin mövcudluğu mübahisəsiz fakt olduğundan, siyasi sistelmər üçün onların əhəmiyyətini təhlil etmək vacibdir. Bundan ötrü sosial münaqişələri ümumi şəkildə xarakterizə edərək, onların səbəblərini göstərmək, onların müxtəlif tiplərini və alternativ formalarını aşkara çıxarmaq zəruridir.

İlk növbədə, qeyd olunmalıdır ki, münaqişələr subyektləri qismində fərdlərin, qrupların və təşkilatların çıxış etdiyi sosial qarşılıqlı fəaliyyət tipidir; bu, «patoloji

kənaraçıxma» deyil, kollektiv həyatın normal aspektidir. Cəmiyyətdə münaqişə və əməkdaşlıq, mübarizə və konsensus qırılmaz surətdə bağlıdır.

Münaqişə məqsədləri real, yaxud ehtimali surətdə bir araya sığmayan iki, yaxud daha çox tərəf arasında sosial münasibət kimi müəyyən oluna bilər.

Münaqişə iştiraksıları öz məqsədlərinin bir araya sığmadığını müxtəlif dərəcədə dərk edirlər. Bu uzlaşmazlıq minimum səviyyədə dərk olunmadan münaqişələr yalnız imkan kimi qalardı.

Münaqişələrin daha bir aspektini onların iştirakçılar tərəfindən keçirilmə intensivliyi təşkil edir. Bəzi münaqişələrdə iştirakçılar güclü qarşılıqlı düşmənçilik hiss edirlər, digər münaqişələrdə onların şəxsi münasibətləri pisləşmir. Digər tərəfdən, bəzi münaqişələr coşğun qasırğa kimi öz iştirakçılarını cəlb etdikləri halda, digər münaqişələr sakit şəraitdə cərəyan edir. Beləliklə, münaqişələnin intensivliyi müxtəlif ola bilər.

Sosial münaqişələr bu və ya digər dərəcədə onların iştirakçılarının qəbul etdikləri institut çərçivələri ilə tənzimlənə, yaxud belə çərçivələrə malik olmaya bilərlər. Belə çərçivələr məhkəmə hakimiyyəti və qüvvədə olan qanunvericilik kimi münaqişənin tənzimlənməsi üçün istifadə olunan xüsusi normalarla və təşkilatlar formalaşdırılır.

Münaqişə tərəfləri arasında münasibətlər iki tip ola bilər:

a) hansısa mənafe mövcud olmadıqda radikal münaqişəli;

b) toqquşmaya baxmayaraq, tərəflərin hansısa ümumi mənafeyə malik olduqları qismən münaqişəli.

Deyilənlərə münaqişədə olanların məcburetmədən istifadə etməsi imkanı əlavə olunmalıdır. Başqa sözlə, münaqişə iştirakçıları öz rəqibini müəyyən davranışa məcbur etmək üçün bərabər, yaxud qeyri-bərabər imkana malik ola bilərlər.

Beləliklə, **münaqişə iştirakçılarının uzlaşmayan (yaxud belə hesab etdikləri) məqsədlər səbəbindən bir-birinə qarşı durduqları sosial münasibət tipidir; o, müxtəlif intensivliyə malik ola, tənzimlənə, yaxud tənzimlənməyə, qismən, yaxud radikal ola bilər; nəhayət, münaqişədə məcburetmənin köməyi ilə rəqib üzərində üstünlük imkanı ən mühüm rol oynayır.**

## § 2.Sosial münaqişələrin kökləri

Sosial münaqişələnrin yuxarıda verilən xarakteristikası onların siyasi sistemlərlə əlaqəsini qiymətləndirməyə imkan verir. Həqiqətən, əgər cəmiyyətlərlərin daxilində münaqişə amilləri mövcud olmasaydı, münasibətlər ahəngdar olsaydı, məcburetmə və

münaqişələrin tənzimlənməsi funksiyalarını yerinə yetirən siyasi institutların yaranmasını və fəaliyyətini izah etmək mümkün olmazdı. Artıq qeyd etdiyimiz kimi, siyasi sistemlərdə elitaların əsas funksiyalarından birini münaqişə edən sosial siniflər və qruplar arasında arbitraj təşkil edir, bundan ötrü zərurət halında onlar fiziki zorakılıq tətbiq edirlər. Beləliklə, sosial münaqişələr siyasi sistemlərin yaranmasının və inkişafının əsas amillərindən birini təşkil edir.

Sosial münaqişələr ən müxtəlif tiplərə aid ola bilər, lakin siyasət baxımından hakimiyyət, maddi nemətlər və sosial nüfuz kimi sərvətlərin bölüşdürülməsi ilə bağlı olan münaqişələr daha mühümdür. Amerikalı politoloq Devid İston yazır ki, «bütün cəmiyyətlərdə kasıblıq üstünlük təşkil edir. Bu, siyasi analizin başlıca ilkin müddəasıdır. Cəmiyyət üzvlərinin tələbatlarını təmin edəcək miqdarda nemətlər (qiymətli əşyalar) yoxdur…Təklifi məhdud olan nemətlərlə bağlı fərqlər və münaqişələr labüddür». Aydındır ki, müxtəlif cəmiyyətlərdə kasıblıq səviyyəsi eyni deyildir, buna görə də onlar az inkişaf etmiş, orta inkişaf səviyyəsinə malik və yüksək inkişaf etmiş cəmiyyətlərə bölünür. Beləliklə, kasıblıq nisbi anlayışdır, hətta «bolluq cəmiyyətləri»ndə, məsələn, ABŞ-da belə marginal sosial qruplar mövcuddur, ticarət departamentinin rəsmi statistik məlumatlarına görə, 30 milyondan artıq Adam həmin qruplara aiddir. Başqa sözlə, Con Helbreytin bolluq cəmiyyəti adlandırdığı cəmiyyətdə hökumət sənədlərinin məlumatlarına görə, milyonlarla Adam son yoxsulluq həddində yaşayır.

Müxtəlif sosial qrupların can atdıqları müəyyən sərvətlərin çatışmazlığı tamamilə təbii surətdə yalnız siyasi elitalar tərəfindən institutlaşmış zorakılıqla nizamlana biləcək sosial münaqişələr doğura bilər.

Sosial münaqişələrin siyasi elitalar tərəfindən zorakılıqla nizamlanmasının ən mühüm nəticəsi müxtəlif qrupların uğrunda mübarizə apardıqları nemətlərin qeyri-bərabər bölüşdürülməsinin təsbiti olmuşdur. Münaqişələr cəmiyyətin bütövlüyünü təhdid etdiyindən və qruplar arasında danışıqlar yolu ilə razılaşma əldə etmək mümkün olmadığından, elitalar münaqişələri institutlaşdırılmış zorakılığı tətbiq etməklə aradan qaldırırdılar. Lakin artıq göstərildiyi kimi, elitaların münaqişələrə müdaxiləsi heç də tərəfsiz xarakter daşımır; əksinə, onlar müəyyən qrupların tərəfində çıxış edirlər.

Yuxarıda qeyd etdiyimiz kimi, sosial münaqişələrin əsas mənbəyini hakimiyyət, zənginlik, nüfuz kimi sərvətlərin çatışmaması təşkil edir. Bu tezisi hətta Marks kimi müəlliflər də bölüşərək göstərirlər ki, ictimai siniflər arasında münaqişələrin aradan qaldırılması üçün tələb olunan şərtlərdən biri «hər kəsə – tələbatına görə» prinsipi əsasında bölgünü təmin edən bolluqdur. Marks üçün sosializm strategiyası yalnız

məhsuldar qüvvələrin sürətli inkişafının «bolluq erası»nü mümkün etdiyi dərəcədə məna daşıyırdı. Beləliklə, Marksın fikrincə, kapitalizmdən sosializmə keçid sadəcə mülkiyyət rejiminin dəyişməsi ilə məhdudlaşmır, bütövlükdə cəmiyyət üçün əmtəə və xidmətlər təklifinin sürətli artımını nəzərdə tutur. Marksın fikrincə, yalnız bolluq şərtilə sosial siniflər arasında münaqişələr problemi uğurla həll oluna bilər.

## § 3.Sosial münaqişələrin tipləri

Bir qayda olaraq, münaqişələrin iki tipi fərqləndirilir:

a) cəmiyyətin təməl konsensusuna toxunmayan, yəni iştirakçıları münaqişənin həlli üçün bütövlükdə sosial sistemin dəyişdirilməsini tələb etməyən münaqişələr;

b) mövcud münaqişələrin həlli üçün bütövlükdə cəmiyyətin dəyişdirilməsini nəzərdə tutan münaqişələr.

Birinci tip münaqişələr tərəflər arasında razılaşma əsasında inkişaf edə biləcəyi halda, ikinci tip mnaqişələr cəmiyyəti rəqibini məhv etmək uğrunda mübarizə aparan barışmaz qruplara ayırır. Belə münaqişələrdə ən yaxşı halda müvəqqəti barışıq mümkündür, tərəflər arasında əsas məsələlər üzrə konsensus isə mümkün deyildir.

Həlli bütövlükdə cəmiyyətin dəyişdirilməsini tələb edən münaqişələrdə (məsələn, metropoliya və müstəmləkə ölkələri arasındakı münaqişələrdə) əsas mübarizə metodlarından birini hər iki tərəfdən zorakılıq təşkil edir. Belə münaqişələr dərhal həll oluna bilmədikdə elitaların başlıca vəzifəsini onların nizamlanması üçün səmərəli üsulların axtarılması təşkil edir. Əsas qrupların arasında barışmaz münaqişələrin mövcud olduğu cəmiyyətlər yalnız siyasi elitaların münaqişələrin vaxtında tənzimlənməsinin adekvat mexanizmlərini tapmağa qabil olması halında saxlana bilər. Bu baş verdikdə münaqişələrin didib-parçaladığı cəmiyyət hələ uzun müddət mövcud olaraq artıq labüd inqilabi partlayış gözləyənləri təəccübləndirə bilər. Keçən əsrin 20-ci illərində məhz belə oldu; o dövrdə sosialistlərin əksəriyyəti belə hesab edirdi ki, daxili sinfi münaqişələr səbəbindən kapitalizmin süqutu hər an baş verə bilər. Məlum olduğu kimi, kapitalist ölkələrinin siyasi elitaları müxtəlif üsullarla böhranı aradan qaldırıb, kapitalizmin tarixi həyatını uzada bildilər, hərçənd onun sosial münaqişələri öz həllini tapmadı.

## §4. Sosial münaqişələrin funksiyaları

Artıq qeyd olunduğu kimi, münaqişə və konsensus sosial həyatın iki ayrılmaz məqamını təşkil edir. Sosial münaqişələr çox vaxt insanlar tərəfindən mənfi

qiymətləndirilir; belə hesab olunur ki, onlar xaos və təhlükələr doğurur. Hərçənd şübhə yoxdur ki, müəyyən edilmiş qayda baxımından münaqişələr təhlükə daşıya bilər; ictimai proseslərin dinamikasının artırılmasında onların funksiyasının etirafı zəruridir.

Struktur-funksionalizm cərəyanına mənsub sosioloq Lü**is** **Kozer** yazır: «Münaqişə sosial sistemlərin daşlaşmasına mane olaraq, yeniləşmə və yaradıcılıq istəyi doğurur». Sosial münaşişələr ictimai dəyişikliklərin əsas mənbəyidir, çünki müəyyən qruplar məhz onların vasitəsilə dəyişiklikləri kollektiv həyata tətbiq etməyə çalışırlar. Qəti ifadə etsək, siyasi elitalar münaqişələri gizlətməyə çalışsa da, münaqişəsiz cəmiyyətlər mövcud deyildir. Adətən, siyasi elitalar real münaqişələrin mövcudluğunu inkar edərək, daxili, yaxud xarici qrupları süni surətdə münaqişə yaratmaqda ittiham edirlər. Əlbəttə, bəzi münaqişələr «süni surətdə» yaradıla bilər, lakin bu, yalnız müəyyən həddə qədər mümkündür. İstənilən halda münaqişələrin yaranmasının obyektiv əsası ola biləcək hansısa real faktların mövcudluğu tələb olunur. Əgər cəmiyyət üzvləri arasında tam həmrəylik qorunsaydı, tarixi inkişafı təsəvvür etmək çətin olardı. Müxtəlif və bəzən bir-birini istisna edən kollekriv layihələrə malik sosial qrupların mövcudluğu sosial sistemin inkişafına təkan verərək, institutlaşmış yanaşı mövcudluğun yeni frormalarını doğurur. Alman sosioloqu **Ralf Darendorf** məhz bunu nəzərdə tutaraq göstərir ki, «ümumi sosial dəyişiklik prosesinin amili kimi münaqişələr əvəzedilməzdir. Münaqişələr olmayan, yaxud yatırılan və ya görüntü üçün həll edilən yerdə dəyişiklik ləngiyir, yaxud dayanır».

Siyasi elitalar sosial münaqişələri onların dərin köklərinə toxunmadan nizamlamağa çalışdıqda sistematik surətdə fiziki zorakılıq tətbiq etməyə məcbur olurlar. Buna baxmayaraq, münaqişələr aradan qalxmır, yalnız müvəqqəti surətdə səngiyir, nəhayət, yeni amillər onları ikiqat qüvvə ilə fəallaşdırır. Artıq yuxarıda iqtibas gətirdiyimiz müəllif əlavə edir: «Sosial münaqişələrin yatırılmasına cəhd göstərildiyi dərəcədə onların virulent potensialı artır ki, bu da daha böyük repressiyalar doğurur, nəhayət, yer üzündə münaqişə enerjisini çərçivə daxilində saxlaya biləcək qüvvə qalmır».

Başqa sözlə, münaqişə və repressiyaların qüsurlu dairəsi yaranır, o, çox vaxt kütləvi terrora, yaxud inqilabi partlayışa gətirib çıxarır. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, ən müxtəlif tipli siyasi sistemlərdə elitalar, bir qayda olaraq, münaqişələrin nizamlanmasının aşağıdakı dörd metodundan istifadə edirlər:

a) «ahəngdarlığın bərqərar olması» haqqında mülahizələrə əsaslanaraq münaqişələrin inkarı;

b) kütləvi repressiyalar;

c) münaqişələrin köklü həlli cəhdləri;

ç) patrlayış təhlükəsi aradan qalxana qədər münaqişələri nizamlamaq cəhdləri.

Deməyə ehtiyac yoxdur ki, münaqişələrin inkarı və yatırılması uzunmüddətli perspektivdə məğlubiyyətə məhkumdur, çünki kütlələr və kontr-elita istənilən halda elitanı devirə bilərlər. Digər tərəfdən, tarixi inkişaf göstərir ki, sosial münaqişələrin qəti həlli cəhdləri siyasi utopiyaların başlıca mövzusunu təşkil edərək, bu məqsədə çatmaqdan çox uzaqdır. Hərçənd bu sahədə mühüm dəyişikliklər baş vermişdir. Nəhayət, münaqişələrin nizamlanması onların mövcudluğunun qəbul edilməsini və onların qəti həlli ideyasından imtina olunmasını əsas götürür. Münaqişələr nizamlanarkən heç də aradan qalxmır və onların intensivliyi həmişə dəyişmir, lakin bu zaman münaqişələr müəyyən institutlardan keçir ki, bu da siyasi elita tərəfindən onlara nəzarət imkanlarını artırır. Aydındır ki, real siyasi həyatda elitalar təsvir olunmuş metodikalardan həm eyni vaxtda, həm də alternativ əsasda istifadə edirlər.

İndiyə qədər biz sosial dəyşikliklərə tətbiqən sosial münaqişələrin funksiyalarından söz açdıq, lakin bu, onların yeganə funksiyası deyildir. Həqiqətən, münaqişələrdə iştirak edən qruplar onlardan xüsusi məqsədlərlə istifadə edə bilərlər.

Əvvəlki mövzudə biz siyasi sistemlərdə təşkilatın rolunu nəzərdən keçirdik. Aydındır ki, digər təşkilatlarla münaqişə şəraitində onlardan birinə, məsələn, siyasi partiyaya mənsubiyyət hissi kəskinləşir. Münaqişə münasibətləri çərçivəsində «biz» və «onlar» arasında fərq aydın şəkildə təzahür edir, beləliklə, sərhəd yaranır. Münaqişələr qrupun eyniləşməsini möhkəmləndirir, onun daxili mütəşəkkilliyinin qorunmasını asanlaşdırır. Belə bir fakt bununla izah olunur ki, böhran şəraitində siyasi elitalar düşməni aşkara çıxarır, lazım olduqda isə onu «yaradırlar». Yaxşı məlumdur ki, elitalar ciddi sosial münaqişələrlə rastlaşdıqda kontr-elitanın və kütlələrin diqqətini digər ölkələrlə sərhəd problemlərinə yönəltməyə çalışırlar. Xarici təhlükə siyasi sistem çərçivəsində münaqişədə olan qrupları vahid cəbhədə birləşdirə bilər. Beləliklə, xarici münaqişələr «qoruyucu klapan» rolunda çıxış edərək, təcavüzkarlığı başqa məqsədlərə yönəldə bilər. Siyasi elitalar rəqiblərinə qarşı fiziki zorakılıqdan istifadə etdikdə onların birləşməsinə təkan verirlər. Beləliklə, siyasi sistemlərin təşəkkülündə və inkişafında sosial münaqişələr ən mühüm rol oynayır. Məhz ona görə də bu problemlər tez-tez qarşımıza çıxır.

**Münaqişə həm müsbət, həm də mənfi sosial funksiyaları həyata keçirir.** Münaqişənin nəticələrinə obyektiv və subyektiv qiymətlər verilə bilər. Məsələn, istehsal (sosial-əmək) münaqişəsi nəticəsində müəssisənin yenidən qurulmasının mümkünlüyü obyektiv surətdə müsbət təzahürdür, lakin ştat ixtisarı nəticəsində işdən çıxarılmış işçilərin mövqeyindən yanaşdıqda, bu münaqişə mənfi qiymətləndiriləcəkdir.

Münaqişənin müsbət, yaxud mənfi təsiri bir çox cəhətdən sosial sistemlə

şərtlənir. Sərbəst strukturlu qruplarda və münaqişənin norma hesab olunduğu, onun nizamlanmasının müxtəlif mexanizmlərinin mövcud olduğu açıq cəmiyyətlərdə münaqişə, bir qayda olaraq, həyat qabiliyyətinin, dinamizmin və tərəqqiyə meylin artmasına təkan verir. Totalitar cəmiyyətdə sosial münaqişə prinsip etibarilə qəbul olunmur, onun həllinin yeganə mexanizmi isə güc hesabına yatırmaqdan ibarətdir (məsələn, 1962-ci ildə Novoçerkasskda fəhlələrin nümayişinin güllələbaran edilməsi). Yatırılmış münaqişə funksiyalarını itirir, cəmiyyəti parçalanmaya, köhnə ziddiyyətlərin kəskinləşməsinə və yeni ziddiyyətlərin yaranmasına aparıb çıxarır.

Sosial münaqişənin açıq sosial strukturlar üçün xarakterik olan bəzi müsbət funksiyalarını nəzərdən keçirək.

1. Münaqişə ziddiyyətləri üzə çıxararaq həll edir və bununla da ictimai inkişafa təkan verir. Vaxtında aşkara çıxarılmış və həll edilmiş münaqişə ağır nəticələrə aparıb çıxaran daha ciddi münaqişələrin qarşısını ala bilər.

2. Açıq cəmiyyətdə münaqişə qrupdaxili və qruplararası münasibətlərin sabitləşdirilməsi və birləşdirilməsi funksiyalarını yerinə yetirir, sosial gərginliyi aşağı salır.

3. Münaqişə əlaqə və münasibətlərin intensivliyini dəfələrlə artırır, sosial prosesləri stimullaşdırır, cəmiyyətə dinamiklik verir, yaradıcılıq və yeniliyi təşviq edir, ictimai tərəqqiyə təkan verir.

4. Münaqişə vəziyyətində insanlar həm öz mənafelərini, həm də onlara zidd mənafeləri daha dəqiq dərk edir, ictimai inkişafı obyektiv problem və ziddiyyətlərinin mövcudluğunu daha tam şəkildə üzə çıxarırlar.

5. Münaqişə ətraf sosial mühit, rəqib birliklərin güc potensialının nisbəti haqqında informasiya əldə olunmasına təkan verir.

6. Xarici münaqişə qrupdaxili inteqrasiyaya və eyniləşməyə təkan verir, qrupun, millətin, cəmiyyətin vəhdətini möhkəmləndirir, daxili ehtiyatları səfərbər edir. O, həmçinin dostlar və müttəfiqlər tapmağa kömək edir, düşmənləri və bədxahları üzə çıxarır.

7. Daxili münaqişələr (qrupda, təşkilatda, cəmiyyətdə) aşağıdakı funksiyaları yerinə yetirir:

-qüvvələr nisbətinin ( o cümlədən hakimiyyət nisbətinin) yaradılması və qorunması;

-hamı tərəfindən qəbul olunmuş norma, qayda və dəyərlərə riayət olunmasına sosial nəzarət;

-yeni sosial norma və institutların yaradılması, mövcud norma və institutların yeniləşdirilməsi;

-fərd və qrupların adaptasiyası və sosiallaşdırılması;

-qrup təşkili, qrupların normativ və fiziki sərhədlərinin müəyyə edilməsi və qorunması;

-qrupdaxili və qruplararası münasibətlərin nisbətən sabit strukturunun müəyyən edilməsi və qorunub saxlanması;

-qrupda və cəmiyyətdə qeyri-formal iyerarxiyanın müəyyən edilməsi, o cümlədən qeyri-formal liderlərin üzə çıxarılması.

8. Münaqişə iştirakçıların mövqelərini, mənafelərini və məqsədlərini üzə çıxarır, bununla da yaranan problemlərin tarazlaşdırılmış həllinə təkan verir. Açıq sosial sistemdə münaqişə «qoruyucu klapan» rolunu yerinə yetirərək, meydana çıxan ziddiyyətləri aşkarlayır və bütövlükdə sosial strukturu qoruyub saxlayır.

Sosial münaqişə aşağıdakı hallarda mənfi funksiyaları daşıyır:

-iğtişaş və qeyri-sabitliyə aparıb çıxardıqda;

- cəmiyyət sülh və asayişi təmin edə bilmədikdə;

-mübarizə zorakı metodlarla aparıldıqda;

-münaqişə nəticəsində böyük maddi və mənəvi itkilər baş verdikdə;

-insanların həyat və sağlamlığı üçün təhlükə yarandıqda.

Emlsional münaqişələrin əksəriyyəti, o cümlədən insanların sosial-psixoloji uzlaşmazlığı nəticəsində yaranan münaqişələr mənfi münaqişələrə aid edilməlidir. Zəruri qərarların qəbul edilməsini çətinləşdirən münaqişələr də mənfi münaqişələr hesab olunur. Müsbət münaqişənin uzanması da mənfi nəticələrə gətirib çıxara bilər.

## § 5 . Sosial münaqişələrin növləri və əsas inkişaf mərhələləri

Münaqişələrin əsas növləri təsnifləşdirmənin əsası qismində götürülən meyardan asılı olaraq müəyyən edilir. Əsas qismində tərəflərin xüsusiyyətləri götürüldükdə aşağıdakı münaqişələri fərqləndirmək olar: şəxsiyyətlərarası, şəxsiyyətlə qrup arasında, qrupdaxili, kiçik və böyük sosial birliklər arasında, millətlərarası və dövlətlərarası.

Təsnifləşdirmənin əsası qismində ictimai həyat sahələri götürüldükdə siyasi, iqtisadi, ideoloji, sosial, hüquqi, ailə-məişət, ictimai-mədəni və s. münaqişələrdən söz açmaq olar. Münaqişələrin motivlərindən asılı olaraq, sosial münaqişələrin üç bloku fərqləndirilir:

1) hakimiyyət səlahiyyətlərinin və mövqelərinin bölüşdürülməsi ilə əlaqədar yaranan münaqişələr;

2) maddi ehtiyatlarla əlaqədar yaranan münaqişələr;

3) ən mühüm həyati yönəliş dəyərləri ilə əlaqədar yaranan münaqişələr.

**Münaqişənin motivləri və vəziyyətin subyektiv qavranılması nəzərə alınmaqla münaqişələrin aşağıdakı növləri fərqləndirilir:**

**1. Yalançı münaqişə** – real səbəblər mövcud olmadığı halda subyekt vəziyyəti münaqişə kimi qavrayır;

**2. Potensial münaqişə** – münaqişənin yaranması üçün real əsaslar mövcuddur, lakin hələ tərəflərin heç biri, yaxud hər ikisi bu və ya digər səbəblərdən (məsələn, informasiya çatışmazlığı ucbatından) hələ vəziyyətin münaqişəli olduğunu dərk etməmişlər;

**3. Həqiqi münaqişə** – tərəflər arasında real toqquşma. Öz növbəsində, həqiqi münqaqişəni aşağıdakı yarımnövlərə ayırmaq olar:

**a) konstruktiv -** subyektlər arasında real surətdə mövcud olan ziddiyyətlər əsasında yaranmış münaqişə;

**b) təsadüfi** – anlaşılmazlıq, yaxud təsadüf nəticəsində yaranmış münaqişə;

**c) yeri dəyişdirilmiş (gizli) -** yalançı əsasla yaranmış, həqiqi səbəbin gizli olduğu münaqişə. Məsələn, biliyinə aşağı qiymət verilməsindən narazı tələbə imtahanı götürən müəllimlə qarşıdurmaya girmək üçün hər hansı bəhanədən istifadə edir;

**ç) yanlış aidiyyatlı münaqişə -** münaqişənin həqiqi müqəssirinin, subyektinin qarşıdurmada «pərdə arxası»nda qaldığı, münaqişəyə ona aiddiyyatı olmayan iştirakçıların cəlb olunduğu münaqişə. Məsələn, insan törətmədiyi cinayətdə ittiham olunur.

Təsnifləşdirmənin əsası qismində tərəflərin psixi halı və insanların münaqişəli vəziyyətlərdə bu hala uyğun davranışı götürüldükdə münaqişələr rasional və emosional münaqişələrə ayrılır. Münaqişənin məqsəd və nəticələrindən asılı olaraq, onlar müsbət və mənfi, konstruktiv və destruktiv münaqişələrə ayrılır.

Adətən, sosial münaqişədə dörd inkişaf mərhələsi fərqləndirilir:

1. Münaqişəqabağı mərhələ.
2. Münaqişə.
3. Münaqişənin həlli.
4. Münaqişədən sonrakı mərhələ.

Hər bir mərhələni ətraflı surətdə nəzərdə keçirək.

## Münaqişəqabağı vəziyyət

**Münaqişəqabağı vəziyyət** sosial münaqişənin potensial subyektləri arasındakı münasibətdə müəyyən ziddiyyətlərlə şərtlənən gərginliyin artmasında təzahür edir. Lakin ziddiyyətlər heç də həmişə münaqişəyə keçmir. Yalnız münaqişənin potensial

subyektlərinin uzlaşmaz ziddiyyət kimi dərk etdikləri ziddiyyətlər sosial gərginliyin artmasına gətirib çıxarır.

**Sosial gərginlik** heç də həmişə münaqişənin müjdəçis olmur. Bu, ən müxtəlif yaranma səbəblərinə malik ola biləcək mürəkkəb sosial fenomendir. Sosial gərginliyin artmasını şərtləndirən ən xarakterik səbəbləri sadalayaq:

1. İnsanların mənafe, tələbat və dəyərlərinin real surətdə pozulması.

2. Cəmiyyətlə, yaxud ayrı-ayrı sosial birliklərdə baş verən dəyişikliklərin qeyri-adekvat qavranılması.

3. Bu və ya digər real, yaxud yalançı faktlar, hadisələr haqqında yanlış, yaxud təhrif olunmuş informasiya və s.

Sosial gərginlik özünün mahiyyəti etibarilə insanların psixoloji vəziyyətini ifadə edir və münaqişə başlanana qədər latent (gizli) xarakter daşıyır.

Bu dövrdə sosial gərginliyin ən xarakterik təzahürü kimi qrup emosiyaları çıxış edir. Optimal cəmiyyətdə sosial gərginliyin müəyyən səviyyəsi sosial orqanizmin təbii müdafə və uyğunlaşma reaksiyasını ifadə edir. Lakin sosial gərginliyin optimal səviyyəsini aşma münaqişələrə gətirib çıxara bilər. Real həyatda sosial gərginliyin yaranma səbəbləri bir-birinə əlavə oluna, yaxud bir-birini əvəz edə bilər. Məsələn, vətəndaşların bir hissəsinin bazara mənfi münasibəti, ilk növbədə, iqtisadi çətinliklərlə şərtlənsə də, çox vaxt dəyər yönümü kimi təzahür edir. Əksinə, dəyər yönümü, bir qayda olaraq, iqtisadi səbəblərlə əsaslandırılır.

Sosial münaqişədə aparıcı anlayışlardan birini qane olmama təşkil edir. Mövcud vəziyyətdən, yaxud hadisələrin inkişafının gedişindən qane olmama sosial gərginliyin artmasına aparıb çıxarır. Bu zaman qane olmama subyektiv-obyektiv münasibətlərdən subyektiv-subyektiv münasibətlərə keçir. Bu keçidin mahiyyəti ondan ibarətdir ki, münaqişənin potensial subyekti qeyri-qənaətbəxşliyin real (yaxud ehtimali) müqəssirlərini fərdiləşdirir və eyni zamanda yaranmış vəziyyətin adi qarşılıqlı fəaliyyət üsulları ilə həllinin qeyri-mümkünlüyünü dərk edir.

**Münaqişəqabağı mərhələni şərti surətdə üç inkişaf dövrünə ayırmaq olar.** Həmin inkişaf dövrləri üçün tərəflərin qarşılıqlı münasibətlərində aşağıdakı xüsusiyyətlər səciyyəvidir:

1. Müəyyən mübahisəli obyektlə əlaqədar ziddiyyətlərin yaranması; etimadsızlığın və sosial gərginliyin artması; birtərəfli, yaxud qarşılıqlı iddiaların irəli sürülməsi; təmasların azalması və incikliyin toplanması.

2. Öz iddialarının hüquqauyğunluğunu sübuta yetirməyə can atma və rəqibi mübahisəli məsələləri «ədalətli üsullarla» həll etmək istəməməkdə ittihamlandırma; öz stereotiplərinə qapanma; emosional sahədə qərəz və nifrətin meydana çıxması.

3. Qarşılıqlı fəaliyyət strukturlarının dağılması;qarşılıqlı ittihamlardan təhdidlərə keçid; təcavüzkarlığın artması; «düşmən obrazı»nın formalaşması və mübarizəyə yönəliş.

Beləliklə, münaqişəli vəziyyət tədricən açın münaqişəyə çevrilir. Lakin öz-özlüyündə o, uzun müddət mövcudluğunu saxlaya və münaqişəyə çevrilməyə bilər. Münaqişənin real olması üçün insident zəruridir.

**İnsident** tərəflərin bilavasitə toqquşmasının başlanması üçün formal bəhanə, hadisədir. İnsident təsadüfən baş verə, habelə münaqişə subyekti (subyektləri) tərəfindən provokasiya oluna, hadisələrin təbii gedişatının nəticəsi ola bilər. Bəzən insidenti «özgələrin münaqişəsi»ndə müəyyən mənafelər güdən «üçüncü tərəf» hazırlayır və qızışdırır.

İnsident münaqişənin yeni keyfiyyətə keçməsini ifadə edir. Yaranmış vəziyyətdə münaqişə tərəflərinin üç davranış variantı mümkündür:

1. Tərəflər (tərəf) yaranmış ziddiyyətləri yoluna qoymağa və kompromis əldə etməyə can atırlar.

2. Tərəflərin biri özünü elə aparır ki, heç nə baş verməmişdir (münaqişədən qaçma).

3. İnsident açıq qarşıdurmanın başlanması üçün siqnala çevrilir. Bu və ya digər variantın seçilməsi bir çox cəhətdən tərəflərin münaqişə yönəlişindən (məqsədlərindən, gözləntilərindən, emosional yönümündən) asılıdır.

## § 6. İqtisadi münaqişələr

Sosial həyatın ən mühüm aspektini iqtisadi aspekt təşkil edir.

Sivilizasiyanın münaqişələrin səmərəli tənzimlənməsi mexanizmini yaratmağa imkan vermiş ən böyük nailiyyətlərindən biri bazar iqtisadiyyatı olmuşdur. Yalnız XVIII əsrin sonundan etibarən mütəfəkkirlər daha çox belə suallar verməyə başlamışlar: cəmiyyətin nəyin hesabına normal «işləyir?» Nəyə görə fərdlər öz mənafelərini güdmələrinə və çox məhdud informasiyaya malik olmalarına rəğmən xaos deyil, heyrətamiz dərəcədə mütəşəkkil cəmiyyət ortaya çıxır?

Belə mütəfəkkirlər sırasında ən uzaqgörən və böyük təsir göstərəni **Adam Smit** (1723-1790) olmuşdur.

Smit hətat ən yüksək təhsilli insanların belə yalnız dövlət xadimlərinin usanmaz diqqəti sayəsində cəmiyyətin iğtişaş və yoxsulluq vəziyyətinə labüd qayıdışdan qorunması fikrində olduğu bir dövrdə yaşamışdır. Smit bu fikirlə razılaşmamış və hamı tərəfindən qəbul olunmuş fikri inkar etmək üçün hökumətin dəstəyi olmadan

fəaliyyət göstərən ictimai əlaqələndirmə mexanizmini kəşf və təsvir etmişdir. Bu, elə güclü bir mexanizmdir ki, ona zidd olan hökumət tədbirləri çox vaxt iflasa uğramışdır. İqtisadi nəzəriyyə göstərir ki, öz mənafeləri naminə fəaliyyət göstərən insanlar başqaları üçün seçim imkanları yaradır və ictimai əlaqələndirmə xalis faydada onların qarşılıqlı fəaliyyəti nəticəsində yaranan dəyişikliklərə fasiləsiz qarşılıqlı uyğunlaşma prosesindən ibarətdir.

Burada iqtisadi nəzəriyyə istehsal və istehlak zonasında sosial münaqişənin həlli metodu kimi çıxış edir. İqtisadi nəzəriyyə insan tələbatları və sosial nəticələr arasında əlaqələri təsbit etməklə, insan və insan cəmiyyəti haqqında ən mühüm elmlərdən biri kimi çıxış edir. O təsbit edir ki, iqtisadi fəaliyyətində insan, əsasən, rasional hərəkət edir. O, öz ehtiyaclarını onların əldə edilməsi planları, məqsədləri və üsulları ilə uzlaşdırmağa çalışır. Deməli, sosial münaqişələrin uğurla tənzimlənməsi imkanları yaranır.

Kapitalist cəmiyyətinin rasionallığı ideyasını XX əsrin əvvəlində M.Veber xüsusilə ardıcıl surətdə müdafiə etmişdir. Sosial fəaliyyətin motivlərinin əsaslandırılma dərəcəsi müxtəlif ola bilər. Veber sosial fəaliyyətin dörd növünü göstərmişdir:

1) ənənəvi (vərdiş üzrə) sosial fəaliyyət;

2) affektiv(emosiyalara tabe olan) fəaliyyət;

3) dəyər-rasional (ali ədalət, gözəllik, inam ideallarına tabe olan, yəni konkret praktik vəziyyətin çərçivələrindən kənara çıxaran) fəaliyyət;

4) məqsədli-rasional fəaliyyət .

Məhz sonuncu fəaliyyət növü daha çox əsaslandırılmışdır, çünki konkret məqsədə malikdir və real vasitələrə istinad edir.

Məqsədli-rasional fəaliyyətin əsasında «xarici aləm predmetlərinin və başqa adamların müəyyən davranışının gözləntisi və özünün rasional surətdə qoyulmuş və düşünülmüş məqsədinin əldə edilməsi «şərtləri», yaxud «vasitələri» qismində bu gözləntidən istifadə durur».

«Gözəyarı» fəaliyyətdə rasionallıq qeyri-mümkündür. O, müvafiq şəraitdə ağlabatmayan kənar təsirlərin müdaxiləsini məhdudlaşdıran cəmləşmə tələb edir. Veber məqsədli-rasional və bütün qalan fəaliyyət arasında münaqişənin tarixən necə həll olunduğunu göstərmişdir. Emosiyalar və fantaziyalar üzvi və çoxşaxəli məişət həyatı ilə sıx surətdə bağlıdır. Buna görə də işçi məişətdən uzaqlaşır və süni istehsalat mühitinə yol tapır. Onun bu mühitdə qarşılaşdığı mexanizmlər insan bədənindən asılı olmadan fəaliyyət göstərir və onun hərəkətlərini öz məntiqinə tabe edir, onun artıq hərəkətlərini «yığışdırır», onları səmərəli və məqsədyönlü edir. Mühasibat uçotunda fikir abstrakt forma və sırf məntiqi əlaqələr kəsb edir, obrazlı-mətnli podtekstdən

məhrum olur. Həm işçinin fəaliyyəti, həm də onun nəticələrinin qiymətləndirilməsi son dərəcə məntiqi xarakter qazanır.

Rasionallaşdırılmış kapitalist istehsalı iki əsas tip münaqişələr doğurur. Birincisi, bu, əmtəə istehsalçıları arasında rəqabətdir. İkincisi, işəgötürənlərin və muzdlu işçilərin toqquşmasıdır. İş qüvvəsini əmtəə hesab etsək, hər iki münaqişə növü bazar adlandırılan ümumi sistemdə münasibətlərin yarımnövləridir.

Kapitalizm aşağı silklərin sosial və siyasi cəhətdən sıxışdırılması şəraitində təşəkkül tapdığından, iş qüvvəsi dərhal azad olmamış və birdən-birə refleksiya predmetinə çevrilməmişdir. İlk əvvəl istehsalçılar arasında rəqabət meydana çıxmış və üzə çıxan münaqişənin sivill həlli formaları işlənilməyə başlanılmışdır.

Müasir iqtisad elmi real münaqişələri həll edərkən intellektual axtarışı və sosial səmərəliliyi birləşdirməyə çalışanların çoxəsrlik və səmərəli zehni işinin nəticəsidir. Nəticəjə mühasibat kitabları, pul əskinasları və səhmlər, birjalar, qiymət indeksləri meydana çıxmışdır.

İnflyasiyaya, sənaye böhranlarına, devalvasiyaya qarşı mübarizə başlanmışdır. Sığorta şirkətləri, yığım fondları meydana çıxmışdır. İnsan fəaliyyətinin mürəkkəbliyi və onun nəzərə alınmasının çətinliyi onların təsvirinin və tənziminin ən orijinal sistemlərini doğurmuşdur.

Lakin iqtisadi həyat qeyri-müəyyənlik şəraitində oyundur. Mövcud iqtisadi prinsiplər bir çox amillərin qarşılıqlı təsiri nəticəsində təşəkkül tapan çox mürəkkəb vəziyyətə rasional yanaşmağa kömək edir. Üzdə isə ölkənin iqtisadi həyatının çətinlikləri: istehsalın tənəzzülü, inflyasiya, işsizliyin artımı və s. görünür.

Bu, sürətli konveyer dövrü olmuşdur. Konveyerlərdəucuz məhsullar sürətlə və keyfiyyətlə yığılırdı. Laki nonu işdə sazlanmış maşının vintciyi rolunu yerinə yetirən istehlakçı almalı idi.

Konveyer sistemində durğunluq yaranırdı, texnikaya əlavə sərmayələr nəzərəçarpacaq mənfəət gətirmirdi. Yaranmış çətinliklərin səbəblərini araşdırmaq lazım gəldi. Sənaye sosiologiyasının banisi E. Mayo hələ keçən əsrin 20-30-cu illərində göstərdi ki, insan işdə yalnız işləmir, həm də yaşayır. Buna görə də yalnız «insan münasibətləri» mənalı, mühüm şəxsi əhəmiyyətə malik fəaliyyət kimi əməyin uğurunu təmin edə bilər. Müsbət mənəvi iqlim, əməyin məzmunundan yüksək qənaətbəxşlik, demokratik istehsal üsulu müəssisənin uğurlu işi ilə bilavasitə bağlıdır.

Meyonun ideyaları F.Hersbergin «motivləşdirmə-gigiyena» nəzəriyyəsində daha da inkişaf etdirilmişdir. Onun fikrincə, əmək haqqı, həmkarlar və müdiriyyətlə münasibətlər, fiziki əmək şəraiti heç vaxt işçini tam qane edə bilməz. Bunlar yalnız gigiyenik şəraitdir. Onların normal mövcudluğuna işçi sürətlə alışır və vaxt keçdikcə

onları qiymətləndirmir. Ehtiyac və ətrafdakıların anlaşmazlığı altında əziləq işçi qeyzlə «gigiyena» amillərinin yaxşılaşdırılması uğrunda mübarizə aparmağa başlayır. Lakin dözüləsi «gigiyenik» şəraitdə o, zənginləşdirilmiş iş axtarır. Hersberq zənginləşmənin başlıca əlamətini ən yaxşı fəaliyyət üsulu haqqında işçinin özünün qərar qəbul etməsində görür.

Bunlar həm tapşırıqların yerinə yetirilməsinin fərqli qaydası, həm briqada üzvləri arasında funksiyaların yenidən bölüşdürülməsi, həm müxtəlif mürəkkəblik dərəcəsinə malik iş alma, həm ixtisasın artırılması, həm də mexanizmlərinin və onların iş rejiminin təkmilləşdirilməsində iştirakdır.

İstehsalatda münaqişələr yarandıqda onların təcavüzkar və dağıdıcı sinfi antaqonizm formaları almayıb, rasional surətdə təşkil olunmuş danışıqlar prosesində müzakirə predmetinə çevrilməsi üçün münbit şəraitin yaradılması mühüm rol oynayır.

İstənilən səviyyəli sinfi münaqişə vəziyyətində danışıqlar prosesinin təşkili prinsiplərini R.Darendorf ifadə etmişdir:

1. Münaqişə tərəflərinin hər biri opponentinin mövcudluq və öz baxışlarına malik olmaq hüququnu qəbul etməlidir. Buradan heç də belə bir nəticə çıxmır ki, həmin baxışlar opponent üçün ədalətlidir.

2. Münaqişə iştirakçıları fikir ayrılıqlarının və qarşıdurmanın mövcudluğunu etiraf etməlidir. Mənafelərin və vəziyyətin dərkinin tam ümumiliyinin bəyan olunması ya demaqogiya, ya da öz həqiqətini qəbul etdirməklə rəqibə üstün gəlmək cəhdidir.

3. Bütün iştirakçılar tərəflərin qarşılıqlı fəaliyyətinin bəzi qaydalarını, xüsusilə danışıqlar prosedurunda bərabərliyi qəbul edirlər.

4. Danışıqların nizamlanması parlament tipli sosial institutlarla təmin olunur, onlar:

a) səlahiyyətlərə malikdir;

b)öz tərəfinin mənafelərini təmsil etmək sahəsində inhisara malikdirlər;

c) məcburi qərarlar işləyib hazırlayırlar;

ç) demokratik qaydada fəaliyyət göstərirlər.

Danışıqların sosial-psixoloji «müşayiəti» aşağıdakıları ehtiva edir: münaqişənin genişləndirilməsindən və dərinləşdirilməsindən imtina; əldə olunmuş razılaşmaları birtərəfli qaydada ləğv etmədən onlara ciddi riayət etmə; xoş məram nümayiş etdirməyə hazırlıq; ümumi dəyərlərdə istinad axtarışı.

## §7. Kütləvi iğtişaşlar və kütlə fenomeni

Deyl Karneqi özünün mənəvi rahatlıq tapmağa dair məsləhətlərində gözlənilən ən pis hadisənin baş verəcəyi təqdirində nələrin baş verə biləcəyini təsəvvür etməyi təklif edir. Sonra dərk olunmalıdır ki, bu halda da dəhşətli bir hadisə baş verməyəcəkdir, öz taleyini yaxşılaşdırmağın yolları tapılmalıdır. Sosial münaqişələrin barəsində belə məsləhət həyəcanı aradan qaldırmağa qadir deyildir, çünki sosial münaqişə qızışdırılarkən baş verə biləcək ən pis hadisə dəhşətlidir: bu, kütlənin özbaşınalığı, yaxud kütləvi iğtişaşlardır. Kütlə nə qədər böyükdürsə, sosial qasırğa bir o qədər güclü olur. «Qaragüruh», «kütlə» anlayışları hələ antik dövrdən məlumdur. Romantiklər kütləyə mənsub olmamaları ilə qürurlanmışlar. Aristokratlar daim sadə xalqın ən aşağı mənafelərinə nifrət nümayiş etdirmişlər. Lakin yalnız XIX əsrin sosioloqları kütlə probleminə prinsipial əhəmiyyət vermişlər. Onların arasında birincilik Q.Lebona məxsusdur. 1890-cı illərdə o, bir sıra əsərlər nəşr etdirmişdir ki, bunların arasında «Kütlə psixologiyası» ən mühüm yer tutur.

«Kütlənin özbaşınalığı» daha çox insanların mövcudluq həddində olduqları şəraitdə yaranır. Daşqın, yaxud zəlzələlər zamanı çaşqınlıq, aclıq, yaxud vəba qiyamları, çörək, duz, yaxud araq vergisinin ifrat artımı ilə əlaqədar qiyamlar buna misaldır. Hüquqsuz aşağılar hakimiyyətin istibdadının qiymətini bilirdilər və yalnız mövcud dövrü dünyanın sonu kimi qəbul etdiklərinə görə qiyam edirdilər. Belə qiyam müsbət nəticə vermirdi, əslində, heç belə məqsəd də güdmürdü.

Lebon göstərmişdir ki, kütlə içərisində insanın davranışı köklü şəkildə dəyişir: «Şüurlu şəxsiyyətin yoxa çıxması, şüursux şəxsiyyətin üstünlük qazanması, hiss və fikirlərin təlqinlə müəyyənləşən eyni istiqaməti və təlqin olunmuş ideyaları dərhal əmələ çevirmək istəyi kütlə içərisində fərdi səciyyələndirən başlıca əlamətlərdir. O, artıq özü olmaqdan çıxır və öz iradəsindən məhrum avtomata çevrilir. Beləliklə, kütlənin bir hissəciyinə çevrilən insan sivilizasiya pilləkanı ilə bir neçə pilə aşağı enir. O, bəlkə də təcrid olunmuş vəziyyətdə mədəni bir insan olardı; kütlənin içərisində isə o, barbara, yəni instinktiv məxluqa çevrilir. Onda özbaşınalığa, qəzəbə, qeyzə meyl üzə çıxır, eyni zamanda, ibtidai insana xas olan fədakarlıq və qəhrəmanlıq təzahür edir. İnsanın kütlə içərisində təcrid olunmuş vəziyyətdə ona heç bir təsir göstərməyəcək söz və təsəvvürlərə asanlıqda tabe olması və öz mənafe və vərdişlərinə zidd əməllər törətməsi bu oxşarlığı daha da gücləndirir».

**Kütləyə qovuşduqda insan üçün ən ağır itki ağlabatanlıqdan imtinadır.**

Təklikdə insan tənqidi surətdə düşünməyə, reallıq və arzunu ayırmağa, bu və ya digər nəticələri eksperimental və məntiqi cəhətdən yoxlamağa, öz əqidələri ilə tutuşdurmağa qadirdir. Kütlə içərisində insan yuxulu, yaxud hipnoz altındadır; birləşməyən obrazlar və ideyalar onun beynində sərbəst surətdə birləşir, təlqinolunma

kəskin surətdə artır, xarici və daxili reallıq fərqləndirilmir, təfəkkür və davranış avtomatizmləri, şablonları fəallaşır, məqsəd və ovqat əvəzlənməsi asanlaşır. Lebon baş verənləri bununla izah edirdi ki, insanlar şüur formalaşarkən aldıqları şəxsi təcrübə baxımından fərqlənirlər. Onların hamısında şüursuzluq eynidir. Buna görə də kütlə mümkündür: onun içərisində bir növ müxtəlif fikirli beyinlər kənara qoyulur, eyni avtomatizmə malik - eyni ehtirasları, qorxuları və ümidləri daşıyan bədənlər qalır. Lebonun belə bir nəticəsi də tamamilə məntiqlidir ki, kütlə mühafizəkardır. O, zorakılıq törətməklə, sosial inkişaf yolunda hansısa maneəni aradan qaldıra bilər. Lakin kütlə sosial qarşılıqlı fəaliyyətin şablon, bəsit intellektual modelə istiqamətlənmiş arxaik üsulunu bərpa edir.

Kütlə isə səbatsızdır. O, yalnız birgə kortəbii hərəkət anında mövcuddur. Onun artım meyli həm də gələcək məhvinin səbəbini təşkil edir: kütlə, sadəcə, özünün nəhəng dərəcələ artmış qüvvəsini tətbiq etməyə obyekti tapa bilmir. Kütlənin davranışının irrasionallığı yalnız bütün qüvvənin bir istiqamətə yönəldiyi partlayış anında cəmləşə bilər. Sonra dayanıqlı hakimiyyət institutlarının mövcud oduqları daha rasional varlığa qayıtmaq lazım gəlir. Bunlar dövlət apparatı, ordu, silki birliklər, yerli özünüidarə qüvvələri, nəhayət, rasional əsaslarla birləşmiş qruplardır (elmi müəssisələr, maliyyə korporasiyaları, istehsalat birlikləri). Emosiyaların partlayışı məntiqi, riyaziyyatı, texnoloji fənni, hüquq münasibətlərini sıxışdıra bilər, lakin heç bir qəzəb və heç bir heyranlıq onları ləğv edə bilməz. Gec-tez kütlənin vuruşunun yerini əsgərlərin, vergi müfəttişlərinin, həkimlərin və müəllimlərin nizamlı cərgələri tutur. İqtisadi özünütənzimin (bazar vasitəsilə) siyasi direktivlərlə əvəz edilməsi sosial münaqişələri ləğv etməmişdir. İnsanlar həm ətraf təbiətlə, həm də öz aralarında təmasları davam etdirmişlər. Dövlət ailə və məişət normalarına qədər insanların həyatının tənzimlənməsinə dair maksimum mümkün hüquqları ələ keçirərək, cəmiyyəti suverenlikdən məhrum etməyə cəhd göstərdi. Lakin dövlət özü heç nə istehsal etmir. Bunu cəmiyyətdəki real vətəndaşlar edirlər. Deməli, bununla da vətəndaşlar bir-biri ilə münasibətlərini iqtisadi mənafelər zonasında aydınlaşdırmalı olurlar.

Bu bölmədə cəmiyyət haqqında söhbət daha çox hakimiyyət haqqında söhbətə çevrilir. Bu labüddür, çünki böyük qrupların münaqişələri arasında ən ağır münaqişələrdən birini cəmiyyət və dövlət arasında münaqişə təşkil edir. Sosial quruluş və siyasi strukturlar davamlı mübarizə aparırlar. Dövlət cəmiyyəti suverenlikdən məhrum edərək, onun enerjisini siyasi hakimiyyətə yönətlməyə çalışır. Cəmiyyət isə özünrün yaradıcı potensiyası uğrunda çarpışaraq, dövləti xidmətlər formasına çevirməyə, hakimiyyətin səlahiyyətlərini son həddə qədər daraltmağa çalışır. Mübarizə dəyişən uğurla cərəyan edir, hərçənd tarixi perspektivdə görünür ki, ictimai suverenlik

insanın və bəşəriyyətin yaradıcı inkişafının əsası kimi getdikcə daha böyük dəyər kəsb edir. Lakin belə bir fakt şübhə doğurmur ki, dövlətdə təcəssümünü tapmış hakimiyyət insanlığa, həqiqətə və mədəniyyətə qarşı ən ağır cinayətlərin mənbəyinə çevrilə bilər. Dövlət hakimiyyətinin heç nə ilə məhdudlaşdırılmayan zorakılığı həmişə milləti süquta aparır. O zaman zəif və xəstə cəmiyyət xarabalıqlar üzərində yaradıcı abadlaşdırmaya başlamaq imkanı qazanır.

## Ədəbiyyat:


1.Здравомыслов А.Г. Социология конфликта. – М., 1995.

2.Əliyev G. Dayızadə H. Konfliktologiyaya giriş. – Bakı.Təbib.1998.

3. Pruitt D., Rubin J. Social conflict: escalation, stalement, settlement. – N.Y., 1984.

4.Darendorf R. Class and Class Conflict in Industrial Society. – N.Y. 1959.

5-ci mövzu

# MİLLƏTLƏRARASI MÜNAQİŞƏLƏR

**Suallar:**

**1.Millətlərarası münaqişələrin spesifikası**

**2. Millətlərarası münaqişələrin səbəbləri**

**3. Millətlərarası münaqişənin inkişaf xüsusiyyətləri**

**4.Millətlərarası münaqişələrin tipləri**

**5. Millətlərarası münaqişələrin həlli yolları**

Tarixi inkişafın mühüm aspektlərindən birini millətlərarası əlaqələrin durmadan genişlənməsi təşkil edir. Kommunikasiyaların inkişafı, əhalinin çevikliyinin artması, kütləvi informasiya vasitələrinin təkmilləşdirilməsi kimi amillər etnosların qapalılığını aradan qaldırır, onların qarşılıqlı fəaliyyət və qarşılıqlı asılılıq sahəsini genişləndirir. Bununla yanaşı, əks meyl müşahidə olunmaqdadır. Hal-hazırda dünyada 2 mindən artıq etnos mövcuddur ki, bunlardan 96, 2 %-ni əhalisi bir milyon və daha çox olan etnoslar təşkil edir (dünyada 267 belə etnos mövcuddur). Say etibarilə böyük etnosların artması və azsaylı xalqların azalması baş verir. Etnik icmalar özünü, özlərinin tarixi təcrübəsini, mədəniyyətini, özünəməxsusluğunu qorumağa çalışır.

Bir sıra siyasətçilərin, coğrafiyaçıların, sosioloqların fikrincə, mövcud dövlət sərhədləri orada yaşyaş etnosların dil və ərazi sərhədlərinə uyğun olmadıqca öz əhəmiyyətini itirəcəkdir. Bu meylin nəticəsi müstəqil dövlətlərin sayının indiki 190-dan 250-30 ildən sonra 300-ə çatması ola bilər. Çox vaxt ikinci meyl millətlərarası münasibətlər sistemində müəyyənedici xarakter kəsb edir və millətlərarası münaqişələrə gətirib çıxarır.

## § 1. Millətlərarası münaqişələrin spesifikliyi

Milli-etnik birliklər xarakterik əlamətlərə (mədəniyyət, dil, ümumi ərazi, din, psixoloji quruluşun xüsusiyyətləri və s.) malik olan böyük sosial qruplardır. Belə əlamətləri etnikliyin obyektiv indikatorlarına aid etmək olar. Ayrı-ayrı fərdlər, yaxud insan qrupları bu əlamətlərdən hansılarınasa malik olmaya da, lakin özlərini müəyyən etnosla eyniləşdirə bilərlər. Etnik özünüeyniləşdirmənin əsas amilini etnik mənlik şüuru – müəyyən etnosa

mənsubluq hissi təşkil edir. Etnik mənlik şüuru etnikliyin subyektiv indikatorudur. Digər böyük sosial birliklərdən fərqli olaraq (ümumi ərazi, peşə, gəlir səviyyəsi, təhsil və s.), etnik birliklər daha sabitdir. İnsan həyatı boyu dəfələrlə peşəsini, yaşayış yerini dəyişə, varlana, yaxud kasıblaya bilər və s., etniklik isə onun ömürlük xarakteristikasıdır.

İnsan gündəlik həyatında, bir qayda olaraq, diqqəti etnik mənsubiyyətin üzərində cəmləşdirmir. Narahatlıq keçirdikdə, özünü incidilmiş, əzilmiş hiss etdikdə o, şüurlu, yaxud şüuraltı şəkildə (dəstək və müdafiə axtararaq) özünü müəyyən sosial qruplar və birliklərlə eyniləşdirir. Məsələn, ailə, dostlar, əmək kollektivi, həmkarlar, o cümlədən öz etnosu. Bu zaman etnik mənsubiyyət özünüeyniləşdirmənin ən məqbul formasıdır. İnsanın ailəsi və dostları ola da, olmaya bilər, o, kollektivdə işləyə də, işləməyə də bilər, bu və ya digər peşəyə malik ola da, olmaya da bilər, lakin istənilən halda o, özünü müəyyən etnosun nümayəndəsi hesab etməkdə davam edir.

İnsan milli-etnik stereotipləri uşaqlıqdan mənimsəyir və sonradan əsasən şüuraltı səviyyəsində onların təsirini hiss edir. Buna görə də etnik (milli) münaqişələr) üçün şüursuz davranışın emosiogenlik, qeyri-məntiqilik, simvolizm və törədilən hərəkətlərin rasional dəlillərlə zəif əsaslandırılması kimi xüsusiyyətləri səciyyəvidir.

Bu xüsusiyyətlərlə əlaqədar millətlərarası münaqişələrin yaranması, inkişafı və həlli cəmiyyətin həyat fəaliyyətinin istənilən sahəsində və istənilən səviyyədə öz spesifikliyinə malikdir.

Bütövlükdə, millətlərarası münaqişələr müxtəlif etnosların ayrı-ayrı nümayəndələri, sosial qrupları arasında baş verən münaqişələrdən və iki, yaxud bir neçə etnosun cəbhələşməsindən ibarətdir. Millətlərarası münaqişənin tipləri qismində şəxsiyyətlərarası, etnososial və terminin əsl mənasında millətəlarası münaqişələr fərqləndirilə bilər.

## § 2. Millətlərarası münaqişələrin yaranma səbəbləri

Etnik münaqişələrin yaranmasının əsas səbəblərindən birini millətlərin qarşılıqlı ərazi iddiaları təşkil edir. Belə münaqişələr dövlətlərarası, regionlarası, yerli səviyyədə yaranır. Ərazi iddialarının motivləri müxtəlif ola bilər, məsələn:

-millətlərin tarixi keçmişi ilə şərtlənmə, məsələn, müəyyən ərazidə millətin tarixi, mədəni, dini və sair abidələrinin mövcud olması;

-mövcud sərhədlərin demarkasiyasının qeyri-dəqiqliyi, yaxud əvvəl sərhəd mövcud olmadıqda millətlər arasında yeni demarkasiyanın keçirilməsi;

-əvvəllər deportasiya olunmuş millətin tarixi vətəninə qaytarılması;

-sərhədlərin özbaşına dəyişdirilməsi;

-millətin ərazisinin qonşu dövlətin tərkibinə zorla daxil edilməsi;

-millətin müxtəlif dövlətlər arasında bölünməsi.

Siyasi münaqişələrin yaranma səbəbləri və nəzərdə tutulan məqsədləri də çox müxtəlifdir, məsələn:

-bütün səviyyələrdə (yerli, regional, dövlət) müxtəlif etnik qruplar arasında hakimiyyət uğrunda siyasi mübarizə;

-millətin vahid dövlət çərçivəsində öz statusu uğrunda mübarizəsi;

-tam dövlət müstəqilliyi (siyasi müstəqillik uğrunda mübarizə) və s.

Millətlər arasında iqtisadi münaqişələr aşağıdakı səbəblərdən irəli gələ bilər:

-maddi ehtiyatlara sahib olmada, onların barəsində sərəncam verilməsində və istifadədə millətlərin bərabərsizliyi;

-Mərkəzlə eyni millətdən ibarət region (məsələn, Federasiyanın subyekti) arasında iqtisadi mənafelər balansının pozulması;

-malların və xidmətlərin istehsalının, bölgüsünün və istehlakının siyasi struktur-funksional sistemində dəyişikliklər (məsələn, mülkiyyətin yenidən bölüşdürülməsi, yaxud əhalinin miqrasiyası nəticəsində ənənəvi fəaliyyət növləri bir millətdən başqasına keçir). Cəmiyyətin siyasi struktur-funksional sistemində dəyişikliklər milli münaqişələrin digər növlərinə (siyasi, dəyər, sosial-psixoloji) də səbəb ola bilər.

Milli münaqişələrə islahatların (iqtisadi, siyasi, ictimai-mədəni) ayrı-ayrı regionlarda qeyri-bərabər gedişi də səbəb ola bilər. Bu hallarda münaqişələr bir tərəfdən, etnik qrupların iddiaları ilə digər tərəfdən, dövlətin vətəndaşların hüquqlarına təminat verilməsi üzrə real imkanları arasında mümkündür. Belə münaqişələr universal xarakter daşıyır.

Millətin dəyərlərinin pozulması nəticəsində yaranan münaqişələr daha ağrılı və emosional cəhətdən gərgin olur. Dəyər münaqişələri cəmiyyətin həyat fəaliyyətinin istənilən sahəsində mövcud ola bilər. M.Veberin fikrincə, hər bir insan aktı yalnız dəyərlərə müvafiq surətdə məna kəsb edir, insanların davranış normaları və məqsədləri dəyərlər baxımından müəyyən olunur. Lakin millətlərarası dəyər münaqişələrinin spesifikliyi mədəniyyət, dil, din və millətlərin digər ictimai-mədəni xüsusiyyətləri ilə bağlı fərqlərlə şərtlənən ziddiyyətlərdə daha aydın şəkildə təzahür edir. Məsələn, mütəxəssislərin fikrincə, Yuqoslaviyanın cənubunda vətəndaş müharibəsinin başlıca motivi din olmuşdur.

Müəyyən tarixi səbəblərlə əlaqədar din vahid etnik kökləri olan bir xalqı bir neçə dini submədəniyyətə bölmüşdür (pravoslav, katolik və müsəlman).

Məişət səviyyəsində sosial-psixoloji amillərlə – müəyyən millətin nümayəndələrinə ümumi şüuraltı nifrətlə şərtlənən etnik münaqişələr yarana bilər. Səbəblərindəni asılı olmayaraq, uzunmüddətli qarşıdurmanın gedişində münaqişə edən millətlər arasında bir-birinə qarşı belə nifrət kütləvi xarakter alır.

Etnik münaqişələrin tarixi səbəbləri millətin yaddaşında şüuraltı səviyyəsində

saxlanan keçmiş incikliklərlə bağlıdır. Bir qayda olaraq, onlar öz-özlüyündə münaqişənin bilavasitə səbəbi kimi çıxış etmir. Lakin münaqişə yetişdikdə, yaxud artıq mövcud olduqda keçmiş inciklikər real gerçəkliyə gətirilir və münaqişənin inkişafında əlavə amillərə çevrilir. Məsələn, onlardan öz hərəkətlərinə haqq qazandırmaq və rəqibin hərəkətlərini itiham etmək üçün istifadə oluna bilər.

Bu və ya digər münaqişənin əsasında hansı səbəblərin durmasından asılı olmayaraq, istənilən münaqişə öz inkişafında kiminsə mənafelərini ifadə edir və (bəzən münaqişə iştirakçılarının tam dərk etmədikləri) müəyyən məqsədlər güdür. Mənafelər öz-özlüyündə nemət deyil, fərdin, yaxud sosial təbəqənin bu nemətin əldə edilməsi imkanını təmin edən mövqeləridir.

Etnik mənafelərin ifadəçisi qismində bütün etnos deyil, onun kiçik bir hissəsi, şəxsi mənafelərini güdən elit qruplar çıxış edirlər. Məsələn, bu və ya digər etnik regionun federasiya subyekti elan olunması yerli elitaya özünün Mərkəzdən nisbətən avtonom hakimiyyət orqanlarını formalaşdırmağa və etnik mənafelərin müdafiəsi ideyasından öz məqsədləri naminə istifadə edərək, lazımi siyasət yeritməyə imkan verir.

Millətlərarası münaqişələrin yaranmasının ictimai-mədəni səbəblərinə həmçinin cəmiyyətdə mövcud olan normalar və dəyərlər arasındakı münaqişələri aid etmək olar. Çoxmillətli ölkələrdə hərbir milli mədəniyyət dəyərlərin, idealların, meyllərin, davranış nümunələrinin və məqsədlərə çatılmasının müvafiq vasitələrinin özünəməxsus sistemini təşkil edir.

Normalar və dəyərlər (sosial struktur və mədəniyyət) arasında münaqişə aşağıdakı səviyyələrdə yarana bilər:

-Mərkəz-region səviyyəsində;

-regionlararası səviyyədə;

-yerli (regiondaxili) səviyyədə.

Çox vaxt normalarla dəyərlər və müxtəlif mədəniyyətlərin dəyərləri arasında münaqişələr məişət səviyyəsində, gündəlik ünsiyyətin gedişində yaranır. Bu baxımdan əhalinin miqrasiyasının y üksək olduğu regionlar daha müqaqişəlidir. Bir qayda olaraq, köçkünlər yerli sakinlərin ictimai-mədəni xüsusiyyətlərini bilmirlər ki, bu da «aborigenlər»in onlara mənfi münasibət bəsləməsinə səbəb olur. Bundan başqa, nə doğma, nə də yerli mədəniyyət «yükünü» (əxlaq normaları, məhdudiyyətlər və s.) daşımayan «yadlar» çox vaxt biznesdə, kommersiyada, sahibkarlıqda mühüm uğurlar əldə edir və bununla yerli əhali ilə qarşılıqlı münasibətləri daha da kəskinləşdirirlər.

Nəzərə alınmalıdır ki, real həyatda, faktiki olaraq, münaqişələrin sırf millətlərarası səbəbləri mövcud deyildir. Etnik özünüeyniləşdirmə və həmrəylik yalnız öz mənafelərinin, məqsədlərinin, dəyərlərinin müdafiəsi üsulunu təşkil edir

Mtillətlərarası münaqişələr gözlənilmədən yaranır, lakin onlar uzun vaxt ərzində yetişir. Onları doğuran səbəblər müxtəlifdir. Hər bir konkret halda həmin səbəblərin uzlaşması müxtəlifdir. Münaqişənin yaranması üçün üç amilin mövcudluğu zəruridir. Birinci amil milli mənlik şüurunun səviyyəsi ilə bağlıdır, o, adekvat, aşağı, yaxud yuxarı ola bilər. Məhz sonuncu iki səviyyə mərkəzdənqaçma və ya mərkəzəqaçma meyllərinin yaranmasına təkan verir. İkinci amil cəmiyyətdə milli varlığın bütün cəhətlərinə təzyiq göstərən problemlərin «böhran» kütləsinin mövcudluğudur. Üçüncü amil – hakimiyyət uğrunda mübarizədə ilk iki amildən istifadə etməyə qabil olan siyasi qüvvələrin mövcudluğudur.

Millətlərarası münaqişələrin səbəblərinin obyektiv təhlili bu təzahürün bütün: etnopsixoloji, sosial-iqtisadi, siyasi, ictimai-mədəni aspektlərinin təhlili şərtilə mümkündür.

**1. Etnopsixoloji amil** münaqişəli vəziyyətdə milli mənafelərin ümumi komponentidir. Ənənəvi həyat tərzinin, maddi və mənəvi mədəniyyətin zorla dağıdılması təhlükəsi, dəyərlər sisteminin və ənənəvi normaların aşınması etnosdakı sosial qruplar və fərdlər tərəfindən müxtəlif cür qəbul olunur. Bütövlükdə onlar etnik birlikdə müdafiə reaksiyaları doğurur, çünki ənənəvi dəyərlərdən imtina aparıcı etnosun dəyərlərinin üstünlüyünün tanınmasını ifadə edir, ikinci növlülük hissi, milli bərabərsizlik təsəvvürü yaradır.

2. **İctimai-mədəni fərqlər** zəminində millətlərarası münaqişələr, bir qayda olaraq, məcburi sürətləndirilmiş dil assimilyasiyası, mədəniyyətin və dini, yaxud mülki normaların dağıdılması nəticəsində yaranır. Bu, ictimai-mədəni birlik kimi etnosuni dezinteqrasiyası kimi real perspektivin meydana çıxmasını şərtləndirir, müdafiə reaksiyaları doğurur.

3. **Sosial-iqtisadi amil** bütün millətlərarası münaqişələrdə mövcud olur, lakin onun əhəmiyyəti fərqlidir: o, müəyyənedici rol oynaya, müaqişənin səbəblərindən biri ola, real sosial-iqtisadi bərabərsizliyi, yalançı ayrı-seçkiliyi, yaxud məhdud qrupların iqtisadi mənafelərini əks etdirə bilər.

**4. Siyasi amil.** İstənilən ölkədə etnikliyin dirçəlişi azlığın yeni siyasi liderlərinin meydana çıxması ilə müşayiət olunur, onlar mərkəzdə daha artıq siyasi hakimiyyətə və yerli səviyyədə muxtariyyətə nail olmağa çalışırlar. Onlar əvvəlki ideya-siyasi ittifaqları pozur, mövcud dövlət sisteminin legitimliyini şübhə altına alır, beynəlxalq siyasi sistemin bərabərhüquqlu üzvü, millətlər arasında millət kimi azlığın öz müqəddəratını təyin etmək hüququnu müdafiə edirlər.

Beləliklə, millətlərarası münaqişə son nəticədə maddi və mənəvi ehtiyatların bölüşdürülməsi üzərində nəzarət uğrunda mübarizədir.

### § 3. Millətlərarası müqaqişənin inkişaf xüsusiyyətləri

Millətlərarası münaqişə istənilən münaqişə növü ilə eyni inkişaf mərhələlərini keçir, lakin özünün spesifik xüsusiyyətlərinə malikdir. O, münaqişələrin bütün qalan tiplərinə nüfuz edərək, sosial qarşılıqlı fəaliyyətin başqa istiqamətləri üzrə formalaşmış münaqişəli vəziyyətləri əhatə etməyə qadirdir. Münaqişənin yaranma səbəbindən asılı olmayaraq qarşıdurmanın subyektlərini müxtəlif etnik qrupların nümayəndələri təşkil etdikdə bu münaqişə öz inkişafında etnik çalar kəsb edəcəkdir və müəyyən mərhələdə etnik fərqlər üstün əhəmiyyət qazana bilər.

Millətlərarası münaqişənin başqa bir xüsusiyyəti bundan ibarətdir ki, onun inkişafında müəyyən ideologiya (millətçilik, separatçılıq, kommunizm, antikommunizm, faşizm, pansilamizm və s.) böyük rol oynayır. İdeologiya etnosun birləşməsinə və «doğmalar»la «yadlar»ın daha sərt şəkildə qarşılaşdırılmasına təkan verir. O, həmçinin qarşıdurmaya dəyər-məna istiqaməti verərək, etnosun inkişafının məqsəd və vəzifələrini müəyyən edir. Məsələn, etnik millətçilik mahiyyət etibarilə millətin öz müqəddəratını təyin etməsinin siyasi proqramından ibarətdir.

Millətlərarası qarşılıqlı təsirin xüsusiyyətlərinə «doğmalar»ın özünü şişirdilmiş şəkildə qiymətləndirməsini və «yadlar»ı qeyri-obyektiv surətdə aşağı qiymətləndirməsini; «doğmalar»a və «yadlar»a münasibətdə ikili standartı da aid etmək olar.

«Doğmalar»a və «yadlar»a bölgü istənilən sosial münaqişəyə xasdır. Lakin etnik (milli) mənsubiyyət ən qədim və ən sabit mənsubiyyətdir. Qruplararası münasibətlərdə etnik stereotip sanki müstəqil mövcudluq kəsb edir və psixoloji cəhətdən sosial münasibətləri qrup eqoizminin gələcək ümumbəşəri asılılığın cücərtilərini ən sadə və qədim yolla – davranışda, dəyərlərdə, fikirlərdə fərqliliyin
məhvi, boğulması yolu ilə aradan qaldırdığı tarixi keçmişə qaytarır.

Etnik münaqişələrdə əksər xüsusiyyətlər ictimai-mədəni xarakter daşıyır. Məsələn, dil, din, norma, dəyər, adət, ənənə, stereotip, milli simvol fərqləri, təfəkkür və davranış üsullarında fərqlər və s.

Bu fərqlərin hər biri cəmiyyətin böhranlı vəziyyətində millətlərarası münaqişənin yaranması üçün səbəb, yaxud vəsilə qismində çıxış edə bilər.

«Mifoloji təfəkkür» anlayışı mövcuddur, bu fenomen ictimai-mədəni münaşiqələrdə əyani surətdə təzahür edir. Bu fenomenin mahiyyəti ondan ibarətdir ki, yaddaş keçmişin müxtəlif faktlarını qoruyub saxlayır, «intellekt isə uğurlu təfsilatın mümkün variantları üzərində işləyir»; nəticədə ola biləcəyin…, bəlkə də olmuşun modeli yaradılır. Beləliklə, fəaliyyət proqramına çevrilə biləcək «mücərrəd model» («xəyali model») yaradılır.

Xalqın yaddaşı öz əsatirlərində, əfsanələrində, folklorunda, tarix, ədəbiyyat və s. abidələrində qələbə və məğlubiyyətləri, inciklikləri və «düşmən obrazları»nı, etnosların münaqişəli qarşılıqlı təsirinin stereotiplərini qoruyub saxlayır. Məziyyət və çatışmazlıqların bütün bu yükündən millətlərarası qarşıdurmada ədavətin qızışdırılmaıs üçün istifadə oluna bilər.

Öz-özlüyündə etnik xüsusiyyətlər cəmiyyətdə sabitliyi pozan daimi amil deyildir. Normal fəaliyyət göstərən sosial-siyasi və iqtisadi münasibətlər sistemində müxtəlif etnik qruplara mənsub adamlar yaxşı dil tapır. Lakin iqtisadi və siyasi qeyri-sabitlik və cəmiyyətdə böhran vəziyyəti şəraitində qruplararası, millətlərarası münasibətlərin bütün əvvəlki tənzimləyiciləri dağılır və dəyərsizləşir, yeni tənzimləyicilər isə birdən-birə yaranmır. Bu vəziyyətdə insanlara «anadandəlmə» verilən etnik tənzimləyici birinci sıraya çıxır.

Sadalanan xüsusiyyətlərlə əlaqədar millətlərarası münaqişələr qarşıdurmanın kəskinliyi və mübarizənin aparılması formalarının sərtliyi ilə fərqlənir. Yaranmış münaqişə zəncirvari reaksiya doğuraraq, öz sahəsinə yeni-yeni insan ehtiyatları və digər ehtiyatlar cəlb edir.

Millətlərarası münaqişə «qıf» prinsipi üzrə inkişaf edir:

-birinci mərhələdə «qarşıdurma qıfı» əmələ gəlir, inciklik toplanır, «düşmən obrazı» formalaşır;

-ikinci mərhələdə tərəflər öz əks oxşarlarını («yoluxucu yayılma» qanunu), «eyniölçüoü insanları», yaxud «insanabənzərləri» meydana gətirirlər;

-üçüncü mərhələdə qarşıdurma antaqonizmə keçir və indən belə hadisələr «güzgüdə inikas» prinsipi üzrə cərəyan edir, praktik olaraq, bütün hərəkətlər və əməllər bumeranq kimi geri qayıdır.

Bu «oxşarlar müharibəsi»ndə təsir həmişə əks-təsirə bərabərdir. Burada artıq qəti surətdə haqlılar və haqsızlar itir, yalnız əzabkeşlər qalır.

## § 4. Etnik münaqişələrin tipləri

Etnik münaşiqələri müxtəlif əsaslar üzrə təsnifləşdirmək olar. Təsnifatın əsası kimi millətin yaşadığı ərazini, dövlət, yaxud inzibati sərhədlərin mövcud olub-olmamasını götürdükdə etnik münaqişələrin aşağıdakı tiplərini fərqləndirmək olar:

1) dövlətlərarası, xarici münaqişələr;

2)vahid dövlət çərçivəsində ümumi inzibati (federasiyadaxili) sərhədlə ayrılan müxtəlif millərlər arasında regional münaqişələr;

3) Mərkəz və region (məsələn, Federasiya subyekti) arasında münaqişələr. Belə münaqişə dövlətdaxili xarakter daşısa da, regionun, yaxud Federasiya subyektinin

mövqeyindən subyekt tam dövlət müstəqilliyinə can atdıqda xarici münaqişə qismində nəzərdən keçirilə bilər. Məsələn, Rusiyanın federativ hakimiyyət orqanları Çeçenistan müharibəsini Rusiyadaxili münaqişə hesab etdikləri halda, çeçen separatçıları onu Rusiyanın müstəqil İçkeriya Respublikasına qarşı təcavüzü kimi qiymətləndirirlər;

4) yerli münaqişələr vahid dövlət, federal, yaxud inzibati sərhədlər çərçivəsində (məsələn, bir şəhərdə, vilayətdə, Federasiya subyektində) yaşayan müxtəlif etnik qurumlar arasında baş verir.

Yaranma motivlərindən asılı olaraq, etnik münaqişələri etnosların qarşılıqlı ərazi iddiaları ilə şərtlənən ərazi; iqtisadi, siyasi, dəyər, dini, sosial-məişət və s. tiplərinə ayırmaq olar.

Milli-etnik hərəkatların məqsədlərindən asılı olaraq, münaqişələrin aşağıdakı tipləri fərqləndirilir:

1. Sosial-iqtisadi – ictimai məhsulun bir hissəsinin öz xeyrinə yenidən bölüşdürülməsi uğrunda mübarizə;

2. Mədəni-dil – ana dilinin və milli mədəniyyətin müdafiəsi;

3. Ərazi-status – sərhədlərin dəyişdirilməsi, statusun yüksəldilməsi və etnosun real hüquq və səlahiyyətlərinin artırılması uğrunda mübarizə;

4. Separatçı – federasiyanın tərkibindən çıxaraq, müstəqil dövlətin yaradılması uğrunda mübarizə.

Mübarizə metodlarına və formalarına görə etnik münaqişələri zorakı və qeyri-zorakı münaqişələrə ayırmaq olar.

Bu zaman zorakı münaqişələr lokal və tərəflərin geniş döyüş əməliyyatlarını nəzərdə tutan genişmiqyaslı münaqişələrə ayrılır.

Qeyri-zorakı münaqişələrə (fiziki gücün tətbiq olunmadığı) siyasi, diplomatik, hüquqi, iqtisadi və digər münaqişələr aiddir.

Etnik münaqişənin vaxtından və inkişaf intensivliyindən asılı olaraq qısamüddətli və uzunmüddətli, fasiləsiz və kortəbii, çox intensiv və az intensiv müqaqişələri ayırmaq olar. Özü də müasir millətlərarası münaqişələrin kəskinliyi ifratçılıqla düz mütənasibdir, irəli sürülən tələblərin demokratikliyinə isə tərs mütənasibdir.

### § 5. Millətlərarası münaqişələrin həlli yolları

Bu və ya digər millətlərarası münaqişənin qəti həlli mümkün deyildir. Millətlər mövcud olduqca dövri surətdə onların qarşılıqlı münasibətlərində ziddiyyətlərin yaranması labüddür. Buna görə də problem millətlərarası ziddiyyətləri aşkara çıxarmaqdan, zorakılığın tətbiqinə yol verməməkdən, mübahisəli məsələlərin nizama salınmasının səmərəli

üsullarını tapmaqdan ibarətdir. Əslində, söhbət çoxmillətli cəmiyyətdə millətlərarası münaqişələrin idarə olunmasından gedir.

Milli münasibətlərin idarə olunması strategiyasını işləyib hazırlamaq üçün bütün çoxmillətli məkanda ümumi qarşılıqlı surətdə məqbul dəyərlər və normalar tapmaq zəruridir. Bir tərəfdən, dəyər-normativ sahəsi bütün çoxmillətli cəmiyyəti əhatə edəcək qədər kifayət qədər universal olan, digər tərəfdən isə çoxmillətli məkana daxil olan etnosların xüsusi ənənələrini, adətlərini, dəyər və mənafelərini pozmayan ümumi oyun qaydaları işləyib hazırlamaq zəruridir.

Buna görə də dövlətlə dövlətin tərkibinə daxil olan bütün etnoslar arasında özünəməxsus «ictimai müqavilə»nin bağlanması haqqında sual yaranır. Belə müqavilə millətlərarası münasibətlərin bütün məqamlarını tənzimləyə bilməsə də, əsas norma və prinsipləri; şəxsiyyətin və etnosun təhlükəsizlik təminatlarını, hüquq bərabərliyini, ziddiyyətlər yarandıqda zorakılığın tətbiqinin qadağan olunmasını, münaqişələrin dinc üsullarla həllini və s. təsbit etməlidir. Bu zaman oyun qaydaları münaqişə iştirakçılarından birinə üstünlük verməməlidir. Yalnız bu halda onlar səmərəli olacaqdır.

Mübahisəli problemlərin həllində ali münsif və müqavilənin yerinə yetirilməsinin qarantı rolu federal Mərkəzə (yaxud bu məqsədlə xüsusi yaradılan hakimiyyət institutuna) verilərək, onun səlahiyyətləri (legitimliyi) qeyd-şərtsiz tanınmalıdır.

Etnik qrupların özünün submədəniyyəti çərçivəsində özünü reallaşdırması üçün ictimai müqavilənin hamı tərəfindən qəbul olunmuş ümumi prinsiplərinə riayət olunması şərtilə federal hakimiyyətin bir hissəsinin onlara verilməsi zəruridir. Lakin hakimiyyəti bölüşmək üçün dövlət ( o cümlədən iqtisadi cəhətdən) kifayət qədər güclü olmalıdır ki, zərurət yarandıqda güc metodları ilə millətlərarası münasibətlərdə separatçı və ifratçı meyllərin qarşısını ala bilsin.

Millətlərarası münaqişəni təşəkkül mərhələsində aşkara çıxarmaq və onun qarşısını almaq mümkün olmadıqda zorakılığın (belə hal mövcud olduqda) dayandırılması birinci dərəcəli vəzifə təşkil edir. Daha sonra tərəflərin münaqişəli münasibətini dialoq formasına keçirmək zəruridir. Dialoqun iki səviyyəsi mövcuddur: qarşılıqlı fəaliyyətin məqsədi kimi dialoq və məqsədə çatılması vasitəsi kimi dialoq. Münaqişə subyektləri arasında dialoq bu və ya digər səbəblərdən mümkün olmadıqda vasitəçilərin cəlb edilməsi zərurəti yaranır. Vasitəçilik münaqişələrin nizama salınmasında üçüncü tərəfin iştirakının ən yumşaq formasıdır.

Münaqişənin nizama salınmasında növbəti addım qərarlarının icrası bütün münaqişə iştirakçıları üçün məcburi olan arbitraja müraciətdir. Münaqişənin nizamlanması ilə yatırılması arasında yerləşən məcburi arbitraj da mövcuddur.

Millətlərarası münaqişələrin nizama salınmasının ifrat forması onların güc işlətməklə

yatırılmasıdır. Qan axıdılmasına və vətəndaş müharibəsinə son qoymaq üçün keçmiş Yuqoslaviya ərazisində mərhələli surətdə vasitəçilik, arbitraj, məcburi arbitraj və qismən güc işlətməklə yatırma (serblərin döyüş mövqelərinin NATO aviasiyası tərəfindən bombardman edilməsi və güc işlətməklə hədələmə) tətbiq olunmuşdur. Osetin-inquş hərbi münaqişəsi də güc metodu ilə dayandırılmışdır.

Millətlərarası münaqişə ən çətin nizamlanan münaqişələrdən biridir. Bu münaqişələr, bir qayda olaraq, çoxillik müqəddiməyə malik olur, sosial-iqtisadi, siyasi, ictimai-mədəni və etnopsixoloji problemlər kompleksi ilə şərtlənir. Millətlərarası münaqişələrin nizamlanması institusional və instrumental yanaşmaların uzlaşdırılması əsasında baş verir.

Bütövlükdə isə millətlərarası münaqişələrin nizamlanmasındakı çətinliklər aşağıdakı amillərlə bağlıdır:

-onların bir çoxu dərin tarixi köklərə, çoxillik tarixə malikdir;

-onlar insanın şüursuzluğuna toxunur;

-onlar dinin güclü təsirinə məruz qalır.

Millətlərarası münaqişədən müxtəlif çıxış yolları mümkündür – kompromisdən güc tətbiqinə qədər. Millətlərarası münaqişələr aradan qaldırılarkən həm onlarda xarici hərbi iştirakdan, həm də hər hansı başqa kənar müdaxilədən qaçmaq, yəni hər bir əks tərəfin seçim azadlığını təmin etmək məqsədəuyğundur. Bu, birinci şərtdir. İkinci şərt döyüş əməliyyatlarının dayandırılması və münaqişə iştirakçıları arasında siyasi kompromisin əldə olunmasıdır.

Millətlərarası münaqişələrin nizamlanması sistemi institusional və instrumental yanaşmaların uzlaşdırılması əsasında yaradıla bilər.

**İnstitusional** yanaşma daxili münaqişələrin qarşısının alınması və nizamlanması üzrə təşkilatlar şəbəkəsinin, xüsusi infrastrukturun yaradılmasını nəzərdə tutur. O, milli, regional və qlobal səviyyəli institutları ehtiva etməlidir.

**İnstrumental yanaşma** millətlərarası münaqişəyə tənzimləyici təsir tədbirlərinin (alətlərinin) bacarıqla uzlaşdırılmasından ibarətdir. Onların arasında taktiki, operativ və strateji həll yollları fərqləndirilir.

**Taktiki həll yolları** münaqişələrin iştirakçılara güc təzyiqi, o cümlədən iqtisadi təzyiq, yaxud danışıqlar prosesinin qurulması yolu ilə nizamlanmasına yönəlmişdir.

Operativ həll yolları münaqişələrin genişlənməsinin məhdudlaşdırılmasına yönəlmiş birdəfəlik hərəkətlərlə («yaraqlıların» tərksilah edilməsi, döyüşən tərəflərin ayrılması, həyati əhəmiyyətli obyektlərin mühafizəsinin gücləndirilməsi), yaxud münaqişələrin nəticələrinin aradan qaldırılması üzrə tədbirlərlə (qaçqınların yerləşdirilməsi, kommunikasiyaların bərpası, talanların təşkilatçılarının cəzalandırılması və s.) bağlıdır.

Strateji həll yolları əvvəlcədən problemlərin ağrısız həllinin hüquqi, iqtisadi, siyasi və sosial-psixoloji şərtlərinin yaradılması əsasında millətlərarası münasibətlərdə böhranların qarşısının alınmasına yönəlmişdir.

## Ədəbiyyat:


1.Социально-политические конфликты и сфере межнациональных отношений и пути их разрешения. – М., 1990.

2. Мацнев А.А. Этнополитические конфликты: природа, типология и пути урегулирования // Социально-политический журнал, 1996. - № 4.

3. Михайлов К.А. Принцип «воронки» пли механизм развертывания межэтнического конфликта // Социологические исследования, 1993. - №5

4.Шевцов В.М. Межнациональные конфликты: механизмы их разрешения. – М.:ГАВС,1994.

5.Аклаев А.Р. Этнополитическая конфликтология. Анализ и менеджмент. Учебное пособие. – М., 2005.

## 6-cı mövzu
## Dövlətlərarası münaqişələr

**Suallar:**

**1. Dövlətlərarası münaqişələrin xüsusiyyətləri və növləri**

**2. Dövlətlərarası münaqişələrin qarşısının alınması**

### § 1. Dövlətlərarası münaqişələrin xüsusiyyətləri və növləri

Beynəlxalq münaqişələrin əsas subyektlərini dövlətlər təşkil edir. Bunun əsasında aşağıdakılar fərqləndirilir:

- dövlətlərarası münaqişələr (hər iki qarşıduran tərəf dövlətlər, yaxud onların koalisiyaları ilə təmsil olunmuşdur);

- milli-azadlıq müharibələri (tərəflərin biri dövlətlə təmsil olunmuşdur): müstəmləkəçilik əleyhinə, irqçilik əleyhinə, habelə demokratiya prinsiplərinə zidd fəaliyyət göstərən hökumətlərin əleyhinə;

-beynəlmiləlləşmiş daxili münaqişələr (dövlət başqa dövlətin ərazisindəki daxili münaqişədə tərəflərin birinə kömək edir).

Dövlətlərarası münaqişələrin spesifikliyi aşağıdakılarda ifadə olunur:

-onların subyektlərini dövlətlər, yaxud dövlətlərin koalisiyaları təşkil edir;

-dövlətlərarası münaqişələrin əsasında münaqişə tərəflərinin milli-dövlət mənafelərinin toqquşması durur;

-dövlətlərarası münaqişə iştirakçı dövlətlərin siyasətinin davamıdır;

-müasir dövlətlərarası münaqişələr beynəlxalq münasibətlərə eyni vaxtda lokal və qlobal təsir göstərir;

-bu gün dövlətlərarası münaqişə iştirakçı dövlətlərdə və bütün dünyada insanların kütləvi məhvi təhlükəsini doğurur.

Təsnifləşdirmələrin əsasında iştirakçıların sayı, miqyas, tətbiq edilən vasitələr, iştirakçıların strateji məqsədləri, münaqişənin xarakteri dura bilər.

Münaqişədə müdafiə olunan mənafelərdən çıxış etməklə aşağıdakı münaqişələr fərqləndirilir:

-ideologiyaların münaqişəsi (müxtəlif ictimai-siyasi sistemlərə malik dövlətlər arasında); XXI əsrin əvvəllərində onların kəskinliyi xeyli aşatı düşmüşdür;

-dünyada, yaxud ayrıca regionda siyasi hökmranlıq məqsədilə dövlətlər arasında münaqişələr;

-tərəflərin iqtisadi mənafelərini qoruduqları münaqişələr;

-ərazi ziddiyyətlərinə əsaslanan ərazi münaqişələri (özgə ərazilərinin tutulması, yaxud öz ərazilərinin azad edilməsi);

-dini münaqişələr; tarixə bu zəmində dövlətlərarası münaqişələrə dair çoxlu misallar məlumdur.

Göstərilən münaqişələrin hər biri öz xüsusiyyətlərinə malikdir. Onları ərazi münaqişələrinin nümunəsində nəzərdən keçirək. Bir qayda olaraq, ərazi münaqişələrindən əvvəl tərəflərin bir-birinə qarşı ərazi iddiaları gəlir.

Bunlar, birincisi, dövlətlərin artıq tərəflərin birinə məxsus olar ərazi barəsində iddiaları ola bilər. Belə iddialar İran və İraq, İraq və Küveyt arasında müharibələrə, Yaxın Şərq münaqişəsinə və bir çox başqa münaqişələrə gətirib çıxarmışdır.

İkincisi, bunlar yeni yaranan dövlətlərin sərhədlərinin formalaşması dövründə yaranan iddialardır. Bu əsasda münaqişələr bu gün keçmiş Yuqoslaviyada, Rusiyada,Gürcüstanda yaranır. Belə münaqişə meylləri Kanadada, Belçikada, İngiltərədə, İtaliyada, Hindistanda, İraqda, Türkiyədə və başqa ölkələrdə mövcuddur.

Dövlətin sərhədi müəyyən olunarkən qonşu etnosların və onların dövlət qurumlarının mənafeləri toqquşa bilər. Bir çox hallarda sərhədlər etnosun, mədəni və dini icmaların yaşadığı rayon nəzərə alınmadan müəyyən edilmişdir ki, bunun nəticəsində bəzi xalqlar müxtəlif dövlətlərdə yaşayırlar. Bu, dövlətlərin münasibətlərində xroniki münaqişəqabağı vəziyyətlərin saxlanmasına səbəb olur.

Buna misal kimi Asiyada, Afrikada, Latın Amerikasında müstəmləkəçilik imperiyalarının süqutundan sonra müstəqil dövlətlərin yaranması, SSRİ-nin dövlət qurumlarının – Mərkəzi Asiya, Qafqaz respublikalarının, Moldova və Pribalika respublikalarının sərhədlərinin formalaşması proseslərini göstərmək olar.

İstənilən dövlətlərarası münaqişə obyektiv və subyektiv amillərin geniş spektri ilə şərtlənir. Buna görə də konkret vəziyyəti təhlil edərkən onu yalnız bu və ya digər tipə aid etmək mümkün deyildir. Əsas səbəb və onu gücləndirən, tamamlayan bir neçə əlavə səbəb mövcud ola bilər. Bütün dövlətlərarası münaqişələrdə tərəflərin sosial-iqtisadi mənafeləri aparıcı rollardan birini oynayır.

Dövlətlərarası münaqişənin xüsusiyyəti onun daxili siyasi münaqişələrlə qraşılıqlı əlaqəsidir. O, müxtəlif variantlarda təzahür edə bilər:

-Daxili siyasi münaqişənin dövlətlərarası münaqişəyə keçməsi. Bu halda ölkədə daxili siyasi münaqişə onun daxili işlərinə başqa dövlətlərin müdaxiləsinə gətirib çıxarır, yaxud bu münaqişə ilə əlaqədar başqa dövlətlər arasında gərginlik doğurur. Buna misal kimi keçən əsrin 70-80-ci illərində Əfqamınstan münaqişəsinin, yaxud keçən əsrin 40-50-ci illərində Koreya münaqişəsinin təkamülünü göstərmək olar.

-dövlətlərarası münaqişənin daxili siyasi münaqişənin yaranmasına təsiri. Ölkənin beynəlxalq münaqişədə iştirakı nəticəsində daxili şəraitin kəskinləşməsində ifadə olunur;

-Dövlətlərarası münaqişə daxili siyasi münaqişənin müvəqqəti nizamlanmasının səbəblərindən birini təşkil edə bilər. Məsələn, İkinci Dünya müharibəsi illərində Fransada Müqavimət hərəkatı öz sıralarında dinc dövrdə münaqişədə olan siyasi partiyaların nümayəndələrini birləşdirirdi.

Dövlətlərarası münaqişənin spesifikliyi bunda təzahür edir ki, çox vaxt o, müharibə şəklində reallaşır.

Müharibənin dövlətlərarası silahlı münaqişədən fərqi aşağıdakılardan ibarətdir:

-Müharibə yalnız silahlı qarşıdurma ilə məhddulaşmır və mənbələrinə, habelə səbəblərinə görə fərqlənir. Müharibəyə çevrilməmiş silahlı münaqişələr, əsasən, ərazi, dini, milli, sinfi mübahisəli məsələlər kimi səbəblərdən yaranırdısa, müharibələrin əsasını dərin iqtisadi səbəblər, dövlətlər arasındakı kəskin siyasi, ideoloji ziddiyyətlər təşkil edir;

-Hərbi münaqişələr müharibələrdən daha az miqyaslıdır. Hərbi münaqişələrdə tərəflərin güddükləri məqsədlər miqyas və tətbiq olunan vasitələr baxımından kifayət qədər məhduddur;

-hərbi münaqişədən fərqli olaraq, müharibə onda iştirak edən bütün cəmiyyətin vəziyyətidir;

-müharibə dövlətlərin, beynəlxalq şəraitin sonrakı inkişafına daha mühüm təsir göstərir.

## § 2. Dövlətlərarası münaqişələrin qarşısının alınması

Dövlətlərarası münaqişələrin qarşısının alınması bir sıra xüsusiyyətlərə malikdir. Onlar aşağıdakılardan ibarətdir:

-ziddiyyətsiz cəmiyyət mövcud olmadığından, münaqişəsiz ictimai inkişaf üçün süni surətdə şərait yaratmaq çətindir;

-münaqişələrin qarşısının alınması üzrə əsas səylər obyektiv ziddiyyətlər nəticəsində yaranan problemlərin münaqişəsiz həllinə yönəldilməlidir;

-münaqişələrin qarşısının alınması potensial münaqişələrin mənfi nəticələrinin maksimum azaldılmasını nəzərdə tutur;

-dövlətlərarası münaqişələrin qarşısının alınması üzrə əsas səylər silahlı zorakılığın qarşısının alınmasına yönəldilir.

Dövlətlərarası münaqişələrin qarşısının alınmasının əsas istiqamətləri dünyanın demokratik inkişafı prinsirləri əsas götürülməklə müəyyən edilir.

1. Təsərrüfat-iqtisadi, siyasi və mədəni sahəoərdə **dünya birliyinin həyatının beynəlmiləlləşməsi.** Artıq on illər boyu mövcud olan və yeni yaradılan iqtisadi ittifaqlar, birliklər, birgə müəssisələr buna sübutdur.

2. Bütün ölkələrin və xalqların **dinc yanaşı qonşuluq** prinsipinə qəti surətdə riayət etməsi. Bu prinsipin məzmununda başlıca cəhət beynəlxalq münasibətlərin bütün subyektlərinin hər bir xalqın inkişaf yolunu sərbəst seçməsini vəhər hansı dövlətə inkişaf yolunun qəbul etdirilməsinin yolverilməzliyini tanıması, habelə ictimai inkişafın obyektiv surətdə mövcud olan çoxvariantlılığının tanınmasıdır.

3.**Hərbi qarşıdurma səviyyəsinin aşağı salınması** silahların, ilk növbədə, kütləvi qırğın silahlarının fasiləsiz, arlıcıl və eyni səviyyədə ahaldılmasıdır. Bu, silahlı qüvvələr tətbiq olunmaqla münaqişələrin qarşısının alınmasında, onların dağıdıcı nəticələrinin aşağı salınmasında ən mühüm istiqamətlərdən birini təşkil edir. Tərk-silah beynəlxalq təhlükəsizliyi daha yüksək səviyyəyə qaldıran, insanların həyat şəraitini yaxşılaşdıran, beləliklə, daxili siyasi münaqişələr təhlükəsini aşağı salan daha intensiv sosial-iqtisadi tərəqqinin əsasını təşkil edə bilər. Birincisi, tərk-silah bütün tərəflər üçün qarşılıqlı, bərabər səviyyəli və bərabər dəyərli olmalıdır. İkincisi, o cümlədən müdafiə xarakterinə malik yeni silahın işlənib hazırlanmasında tərəflərdən birinin inhisarı yolverilməzdir. Üçüncüsü, tərk-silah və yeni silahların hazırlanması proseslərinə mütləq nəzarətin mümkün olmadığı müasir şəraitdə bu sahələrdə etimad və əməkdaşlığın inkişaf etdirilməsi zəruridir.

4. Ölkələr arasında münasibətlərin hüquqi tənzimlənməsi sahəsində BMT,ATƏT və s. kimi **beynəlxalq hökumətlərarası təşkilatların rolunun gücləndirilməsi.** Nəzərdən keçirilən problem kontekstində bu təşkilatların başlıca vəzifəsi beynəlxalq regional və ümumi təhlükəsizlik sisteminin qurulmasına başçılıq etməkdir. Dövlətlərarası münaqişələrin qarşısının alınmasında BMT-nin birləşmiş silahlı qüvvələri mühüm rol oynaya bilər. Tarix göstərir ki, hətta müxtəlif sosial-siyasi sistemlərə belə aid olan dövlətlərin kollektiv səyləri, demək olar, həmişə səmərə verir. İkinci Dünya müharibəsi illərindəki antihitler koalisiyası buna parlaq misaldır. Dövlətlərin BMT qərarının yerinə yetirilməsinə dair birgə fəaliyyəti İraqın Küveytə münasibətdə təcavüzkar hərəkətlərinə son qoymağa imkan vermişdir.

Xarici siyasət təcrübəsində hərbi qüvvənin tətbiqinin qarşısının alınması problemi bu gün ən aktual problemlərdən birini təşkil edir. Onun həlli bütün sivilizasiyanın tərəqqisinə təminat verir və dövlətlərin daxili siyasi həyatında münaqişələrin qarşısının alınmasına kömək göstərir.

Beləliklə, dövlətlərarası münaqişələrin xüsusiyyətləri aşağıdakılardan ibarətdir: bir qayda olaraq, dövlətlərarası münaqişələr səbəblər kompleksi ilə şərtlənir; onlar daxili siyasi münaqişələrlə qarşılıqlı surətdə bağlıdır; çox vaxt dövlətlərarası münaqişələr müharibə şəklində reallaşır və beynəlxalq münasibətlərə mühüm təsir göstərir. Dövlətlərarası münaqişələrin qarşısının alınmasına bütün sahələrdə dünya birliyinin həyatının hərtərəfli beynəlmilləşməsi, bütün ölkələrin və xalqların dinc yanaşı qonşuluq prinsipinə dəqiq riayət etməsi, hərbi qarşıdurma səviyyəsinin aşağı salınması, beynəlxalq təşkilatlar (BMT, ATƏT və s.) sisteminin rolunun gücləndirilməsi təkan verir.

**Ədəbiyyat:**

1.Овчинников В.С. Политические конфликты в международных отношениях и пути их разрешения. – М., 1990.

2. Бэрон Р., Ричардсон Д. Агрессия. – СПб.,1997.

3. Диксон Ч. Конфликт. – СПб.,1997.

4.Блищенко В.И.,Солнцева М.М. Региональные конфликты и международное право(вторая половина XX – начало XX1 века). – Учебное пособие. – М.,2005.

5.Schelling T.C. The Strategy of Conflict. – Camridge.1960.

7-ci mövzu

# BEYNƏLXALQ MÜNASİBƏTLƏRDƏ HƏRBİ GÜC FAKTORU

**Suallar:**

1. **Müharibə və siyasət**
2. **Siyasi və hərbi metodların nisbəti problemi**
3. **Hərbi gücün elementləri**
4. **Sənayeyə qədərki cəmiyyət**
5. **Mərhələ fərqi probleminin yaranması**
6. **Erkən sənaye cəmiyyəti**
7. **Yetkin sənaye cəmiyyəti**
8. **Sənayedən sonrakı cəmiyyətə keçid**

Beynəlxalq münasibətlərdə hərbi gücun tətbiqi problemi ən mürəkkəb və geniş problemlərdən biridir. Siyasi prosesdə kompromis axtarışı, qarşılıqlı güzəştlər və razılaşma güc metodlarının tətbiqi və ya tətbiqi ilə hədələmə ilə sıx şəkildə bağlıdır. Onlar qarşılıqlı şəkildə bir-birini tamamlayır. Hər cür razılaşmaların, o cümlədən beynəlxalq hüququn köməyi ilə rəsmiləşdirilən istənilən razılaşmanın əldə edilməsi müəyyən qüvvələr balansını əks edir. Buna görə beynəlxalq münasibətlərədə zor tətbiqindən və ya zorla hədələnmədən imtina haqqında mühakimələr ya taktiki gediş, ya utopik düşüncənin yaranması, ya da bu münasibətlərin təbiətini dərk edilməməsi ola bilər. Şübhəsiz ki, zordan, xüsusi ilə dövlət müəssisələri, institutlarının tədbirlər sistemi çərçivəsində ixtisaslaşmış, strukturlaşmış zordan istifadənin ən «xalis» növü müharibədir. Müharibənin xüsusi növ ictimai-siyasi hadisə kimi xüsusiyyətləri tələb edir ki, hərbi gücə beynəlxalq münasibətlərin ümumi kontekstində xüsusi yer ayrılsın.

Beynəlxalq münasibətlərdə hərbi güc faktorunun nəzərdən keçirilməsi zamanı bu məsələnin ən azı iki tərəfini fərqləndirmək lazımdır. Birincisi, bu müharibənin və siyasətin nisbəti problemidir, onun təhlili isə nəinki onların qarşılıqlı təsirini, həmçinin beynəlxalq münasibətlərdə zorun açıq şəkildə tətbiq edilməsini nəticələrini aşkar etməyə imkan verir. İkincisi, bu problem dövlətin hərbi gücünə təsir edən və bu gücü təşkil edən faktorlar problemidir. Birinci tərəf daha sabitdir, o dövlət, dövlətlərarası münasibətlər, xarici siyasət kimi daha ümumi anlayışlar ilə bağlıdır. İkincisi daha hərəkətli və dinamikdir, çünki, burada cəmiyyətin ictimai-siyasi təşkilinin səviyyəsi, istehsal qüvvələrinin inkişaf səviyyəsi kimi faktorlar rol oynayır.

## §1. Müharibə və siyasət

Beynəlxalq münasibətlərdə hərbi gücün rolunun nəzərdən keçirilməsi üçün qədimdən klassik sayılan müharibə və siyasətin nisbətini xarakterizə edən bəzi əsas müddəaları xatırlatmaq vacibdir. Daha vacib və öz əhəmiyyətini itirməmiş müddəa isə K.Klauzeviçin aşağıdakı fikridir: «Müharibə özlüyündə siyasi aktdır. Müharibə nəiki siyasi akt, həm də siyasətin həqiqi vasitəsi, siyasi münasibətlərin davamı, onun başqa vasitələrlə aparılmasıdır. Onun özünəməxsusluğu isə yalnız vasitələrin özünəməxsusluğudur. …Siyasi məqsəd sadəcə məqsəddir, müharibə isə yalnız vasitədir və heç vaxt vasitəni məqsəddən ayrı düşünmək olmaz». Müharibə və siyasəti nə ayırmaq, nə müqayisə etmək olmaz, amma müharibə–siyasətin öz qanunlarına əsasən inkişaf edə bilən xüsusi növüdür.

Dövlətlər, dövlət qrupları arasında qarşılıqlı əlaqələr sistemi bir qayda olaraq mürəkkəb və rəngarəngdir, o heç bir halda yalnız güc metodları ilə bitmir. Ancaq qeyd etmək lazımdır ki, zor tətbiqi və ya daha çox rast gəlinən zorla hədələmə olmadan mümkün deyil. Müharibə beynəlxalq münasibətlərin mövcud sistemi çərçivəsində yaranmış ziddiyyətlərin digər metodlarla həll etmək səylərinin puça çıxmasının nəticəsidir. Bu növ ziddiyyətlər böhranın gedişində də həll edilə bilər, yəni tərəflər müharibə həddinə çatan zaman bu və ya digər mülahizələrə görə onu başlamırlar. Nəticədə isə beynəlxalq münasibətlər sisteminin mövcud modeli daha da möhkəmlənə, bu sistem çərçivəsində tarazlıq yenidən paylana, tamamilə başqa qüvvələr tarazlığına əsaslanmış yeni model yarana bilər. Yaranan problemlərin həllinin son üsulu kimi hərbi gücdən istifadə itkilər və fəlakətlər, konfliktin bütün iştirakçıları üçün gözlənilməz nəticələr ilə bağlıdır.

## §2.Siyasi və hərbi metodların nisbəti problemi

İlk növbədə dövlət rəhbərliyinin fəaliyyəti kimi siyasətin və dövlətin və onun hərbi qüvvələrini potensial müharibəyə hazırlığının nəzəriyyə və praktikasını əhatə edən hərbi sənət sahəsi kimi başa düşülən strategiyanın real qarşılıqlı təsirdə olduğu sahənin konkret istiqamətlərini müəyyən etmək lazımdır. Nəzərə alsaq ki, bu mürəkkəb problemdə ayrı-ayrı aspektləri fərqləndirmək çətindir, bu istiqamətləri qısaca olaraq belə formulə etmək olar.

***Birinci.*** Siyasət öz fəaliyyətinin əsasına dövlətin ən mühüm maraqlarına cavab verən rasional rəhbər ideyanı qoymalıdır və ona uyğun olaraq potensial müttəfiqlərini və düşmənlərini təyin etməlidir.

***İkinci.*** Müharibə təhlükəsi yaranan zaman siyasət onun rəhbərini müəyyən etməli və

sonra strategiyanı tam hərəkət azadlığı ilə təmin etməli və onu lazımsız yerə sıxışdırmamalıdır.

***Üçüncü.*** Siyasət əvvəlcədən strateji məqsədlərin həyata keçirilməsi üçün əlverişli şəraiti yaratmalıdır.

***Dördüncü.*** Siyasət güc metodlarından istifadə üçün daha münasib məqamı seçməlidir.

***Beşinci.*** Siyasi rəhbərlik strategiyanı kifayət qədər maddi resruslarla təmin etməlidir.

***Altıncı.*** Siyasət güc metodlarının tətbiqi ilə əldə edilmiş nəticələrindən bacarıqla istifadə etməlidir.

Siyasət və strategiyanın qarşılıqılı əlaqəsinin bütün yuxarıda sadalanan aspektlərini dövlətin müharibəyə hazırlığının müxtəlif mərhələlərini -müharibəyə başlaması, aparması və bitirməsini xarakterizə edən sistemin qarşılıqlı asılı olan halqaları kimi təqdim etmək olar.

Bu istiqamətlərdən hər birinin mahiyyətini açmağa çalışaq. İlk növbədə, ali siyasi rəhbərliyin dövlət qarşısında dayanan vəzifələrin xarakterini dərk etməsinin vacibliyindən danışmaq lazımdır. Dövlət inkişaf etdikcə bu məqsədlər də dəyişir, onların həyata keçirilməsi uzun illər sürə, bir neçə nəslin səylərini tələb edə bilər.

Yeni və ən yeni dövr ərzində bu problemlərin sırasına məsələn, bu və ya digər növ asılılıqdan azadlıq uğrunda, əvvələr itirilmiş torpaqların birləşdirilməsi, dünya ticarət yollarına çıxış, iqtisadiyyatın inkişafı üçün həyati əhəmiyyətli olan iqtisadi resurslara çıxış, az və ya çox dərəcədə təhlükəsiz inkişafı təmin edən müəyyən hüdudlara çatmaq uğrunda mübarizə daxil olmuşdur. Bu vəzifələr sosial və siyasi və texnoloji inkişafın səviyyəsindən, beynəlxalq münasibətlər sistemi çərçivəsində qruplaşmasından asılı olaraq dəyişir, ancaq yenə də onlar konkret olmalıdır.

Göründüyü kimi, dövlətin qarşısında onun inkişafının bu və ya digər dövründə duran vəzifələrin xarakteri onun beynəlxalq münasibətlər sistemində partnyorlarından hansının onların reallaşmasına mane olacağını, hansının isə şərait yaradacağını, yəni kimin düşmən və kimin mütəffiq olacağını, müəyyən edir. Vəzifələrin aktuallığından, onların həyata keçirilməsinə mümkün müqavimətin dərəcəsindən asılı olaraq, hərbi gücdən istifadə və müttəfiqlərin cəlb olunması məsələsi həll edilməlidir. Düzgün qoyulmuş sual və aydın cavab əhəmiyyətli dərəcədə məsələnin sonucunu müəyyən etməyə imkan verir, bu isə uzun müddətli maraqların reallaşhmasında xüsusilə vacibdir. Uzun müddətli maraqların reallaşması uğrunda mübarizə prosesində bir problem ətrafında birləşmiş bütöv bir silsilə müharibələrin yaranması mümkündür. Bu silsilənin dövrü ərzində əsasən düşmənin və müttəfiqin seçilməsində eyni meyarlardan istifadə edilir. Sosiali-qtisadi, siyasi, geosiyasi, demoqrafik və digər faktorların təsiri altında xarici siyasət kursuna belə dövrü yenidən baxılmada, məşhur fikir aşkar şəkildə özünü biruzə verir, yəni dövlətin daimi dostları

olmur, onun daimi maraqları vardır.

Bu sisilənin nümunəsi Ruusiyanın XVII əsr siyasəti ola bilər. Böhran və yadelli hücumlar nəticəsində əsrin əvvəlində həyati əhəmiyyətli qərb torpaqlarını itirdikdən sonra, onların arasında Moskvaya gedən yola nəzarət edən Smolensk də var idi, Rusiya öz qüvvələrini itirilmiş torpaqların qaytarılmasına yönəltməli olmuşdu. Bu zaman bütün digər vəzifələr, o cümlədən də Baltik və Qara dənizlərə çıxış ikinci plana keçirdi. Rusiyanın bu istiqamətdə apardığı müharibələr sisiləsi bir neçə onillik davam etmişdi. Bütün bu dövr ərzində əsrin əvvələrində baş verən hadisələrdə iştirak etmiş və rus torpaqlarını işğal etmiş İsveç dövləti Reç Pospolita ilə mübarizədə müttəfiq kimi nəzərdən keçirilir və ona münasibətdə əsasən isveçliləri iqtisadi imtiyazlarla təmin edən əlverişli siyasət yürüdülürdü. Türkiyə və Krım xanlığı ilə mübarizədə Rusiya həmin dövrdə aktiv hücum addımlarından çəkinirdi. Qeyd etmək lazımdır ki, qərb torpaqları uğrunda mübarizə xüsusilə inadlı xarakter daşıyırdı və ilkin qüvvələr balansı heç də Rusiyanın xeyrinə deyildi. Ancaq sonda torpaqlar geri qaytarılmışdı və XVII əsrin sonunda qüvvələr nisbəti o qədər dəyişmişdi ki, Reç Pospolita artıq təhlükə deyildi, onun Rusiyanın xarici siyasətinin obyektinə çevrilməsi üçün zəminlər yaranmışdı. Məhz həmin zaman xarici siyasət prioritetlərinə yenidən baxılması və dənizlərə çıxış vəzifəsi irəli sürüldü. Nəticədə, İsveç uzun müddətə düşmənə çevrildi, Ruusiya onunla qızğın müharibəyə girdi, həm də bu mübarizənin ilkin mərhələsində Rusiyanın müttəfiqlərindən biri zəifləmiş Polşa idi. Hərbi konfliktlərin Rusiya üçün növbəti silsiləsi Rus-türk müharibələri oldu. Avropada bu silsilələrdən biri Almaniyanın 1864, 1866 və 1870-71-ci illərdə birləşməsi ilə bağlı müharibələr oldu. Prussiya qoyulmuş məqsədə nail olmağa çalışır, ancaq bu müharibələrdən birində Avstriya onun müttəfiqi, digərində düşmən olur, üçüncüsündə isə Avstriya-Macarıstan neytral mövqe tutur.

Əks nümunələr də mövcuddur-dövlətlərin uzun müddətli maraqlarını dərk edilmədən, bəzən onlara qarşı hərbi konfliktlərdə iştirakı. Bu dövlət maraqlarının düzgün anlaşılmaması, xarici siyasətin həddən artıq ideologiyalaşması ilə əlaqədar ortaya çıxa bilər. Məsələn, XVII əsrin ikinci yarısı-XVII əsrdə Avropada sərhədlərin müəyyən edilməsi üzrə sülalə prinsipləri Pfaliya (1688-1697), Polşa (1733-1735), Avstriya (1740-1748), Bavariya (1778-1779) mirası uğrunda bir sıra müharibələrə gətirmişdi. Həmin dövrlərdə bu qanlı müharibələr çətin ki, iştirakçı dövlətlərin maraqlarına toxunurdu. O cümlədən, İspaniya mirası uğrunda müharibə və Yeddiillik müharibə də müəyyən aspektlərdə bu xüsusiyyətlərə malik idi. Yeddiillik müharibə illərində Fransa ingilislərə Kanada və Hindistanda qələbələr çalmağa imkan verərək, Avropa məkanında anti-Prussiya avantyurasına qoşulmuşdu. İdeololgiyalaşdırılmış monarxizm düşüncəsi Rusiyanı 1849-cu ildə Rusiya maraqlarına zidld olaraq, Macarıstana yürüşə təhrik etdi. Dövlət maraqlarına toxunmayan konfliktlərə

daha güclü partnyorun dalınca gedən (və ya bəzən məcbur edilən) qırğına göndərilən əsgərlər roluna kimi endirilən zəitf dövlətlər də cəlb oluna bilər.

***İkinci istiqamət*** müharibənin siyasi məqsədinin müəyyən edilməsidir. Müharibənin məqsədi düşmənin və müttəfiqin seçimini, qüvvələr nisbətini, müharibənin aparılması üçün ayrılmış resurs payını, itki verməyə hazır olmanı və s. müəyyən edir. Müharibənin siyasətin daıvamı olması (ancaq başqa vasitələrlə) mülahizəsindən çıxış etsək, aydındır ki, məqsədin dəqiq qoyulmaması və onun olmaması müharibəyə hazırlığa və onun aparılmasına doğru bütün fəaliyyət əzəldən zərərli, baha başa gələn və eyni zamanda müəyyən mənada mənasız və ciddi uğursuzluqlara və məğlubiyyətə düçar ola bilər.

Müharibənin dəqiq siyasi məqsədinin olmamasının nəticələrinə misal olaraq, Avstriya-Macarıstanın 1914-cü il yay böhranı zamanı fəaliyyətini göstərmək olar. Digər tərəfdən, Serbiyanı darmadağın etmək niyyəti aydın görünürdü, Avstriya rəhbər dairələri onu Yuqoslaviya xalqlarının azadlıq mübarizəsinin stimullaşdırıcısı kimi görürdülər. Digər tərəfdən, həmin dövrdə Avstriya-Macarıstanın dövlət xadimləri dərk edirdilər ki, Serbiyanın məhv edilməsi nəticəsində elə bir vəziyyət yaranardı ki, imperiya daxilində slavyan əhalisi üstünlük təşkil edərdi.

Məqsədin qeyri dəqiqliyi əvvəlcə qüvvələrin və vasitələrin parçalanmasına, həlledici istiqamətin, əsas düşmənin müəyən edilməməsinə gətirir. Müharibənin siyasi məqsədi müəyyən edildikdən sonra, strategiyaya seçilmiş məqsədin əldə edilməsi üçün mümkün hərəkət azadlığı vermək lazımdır. Bu xüsusilə əsas qüvvələrin düşmənlərdən hansına qarşı yönəltməyin vacib olduğu koalisiya müharibələrində vacibdir. Bəlkə də, bütün səyləri düşmən koalisiyanın aparıcı dövlətinə qarşı yönəltmək lazımdır. Ancaq belə bir variant da mümkündür ki, daha kiçik düşmənlərin əvvəlcə məhv edilməsi əsas düşmən üzərində qələbə çalmaq üçün müharibənin əvvəlinə nisbətən, daha əlverişli şərait yarada bilər. Artıq qeyd edildiyi kimi, Yeddilillik müharibə illərində Fransa bütün qüvvələrini Prussiya ilə mübarizəyə sərf edirdi, bununla ingilislərə digər məkanlarda imkan yaradırdı, ancaq Fransaya qarşı koalisiyanın «mühərriki» məhz İngiltərə idi, ona qarşı mübarizə fransızların müharibədə əsas məqsədi idi. Birinci dünya müharibəsinin başlanğıcında hələ sərf edilməmiş ehtiyatlara və kadr heyətinə malik olmaqla, Rusiya ordusu Avstriya-Macarıstanı məğlub etmək iqtidarında idi. Bu müharibənni gedişini kökündən dəyişə bilərdi. Ancaq Rusiyanın strategiyası siyasi tələbatlara tabe edilmişdi, o, müttəfiqlərin tələblərinə həddən artıq riayət edirdi və bu, yalnız qüvvələrin parçalanmasına deyil, həm də dəqiq strateji planının olmamasına gətirdi. 1914-cü ilin avqustunda müttəfiqlərin təhriki ilə, ilk növbədə siyasi mülahizələrə güdərək, Rusiya komandanlığı tələsik Şərqi Prussiyaya formalaşdırılması tam bitməyən iki qoşun göndərdi. Nəticədə, Rusiya üçün dəyərli olan kadr hissələri məhv edildi və ümumi müvəffəqiyyət əldə etmək şansı azaldı. Darmadağın edilikdən sonra əzəldən baş

verən uğursuzluq Rusiya qoşunlarının Almaniya ilə mübarizədə bütün cəbhə boyu fəaliyyyətinə təsir etdi.

Ən yeni dövrdə Əfqanıstanla müharibə diqqəti cəlb edir. Bir tərəfdən, bir sıra gərgin problemlərin mövcud olduğunu inkar etmək olmazdı, Sovet İttifaqı onların həllindən boyun qaçıra bilməzdi. Digər tərfdən, siyasi məqsədlərin qeyri dəqiqliyi, həmin dövrün rəhbərliyi tərəfindən bu ölkənin özünəməxsus cəhətlərinin dərk edilməməsi arzu olunan nəticənin-yəni qələbənin əldə edilməsinə yönəlmiş ölçülərin qarşılıqlı əlaqə sistemi kimi başa düşülən dəqiq strategiyanın hazırlanmamasına gətirdi. Daha da qeyri-müəyyən isə hansı nəticələrin məhz qələbə hesab edilməsidir. «Beynəlxalq borcun yerinə yetirilməsi» haqda dağınıq şüarlar, SSRİ-nin bu rayonda dövlət maraqlarının qorunması haqda məsələni daha da tutqunlaşdırdı. Həmçinin Sovet ordusunun bu müharibədə məğlub olduğunu demək olmaz, ona görə ki, onun hansı məqsədləri güddüyünü və buna nə qədər nail olduğunu söyləmək çətindir.

***Üçüncü istiqamət*** strategiyanın fəaliyyəti üçün əlverişil şərtlərin yaradılması siyasətinin hazırlanması ilə bağlıdır. Bu daha geniş sahələrdən biridir. Bura bəzi dövlətlərlə ittifaqların bağlanması, digərilərinin neytrallığının təmin edilməsi daxildir. Müttəfiqin seçilməsi bir sıra faktorlarla müəyyən olunur. Bu müttəfiqin gücüdür. O ilk növbədə, bir sıra amillərdən dövlətin hərbi sistemi, ictimai və dövlət quruluşu, onun demoqrafiyası və iqtisadiyyatı, mədəniyyətinin xüsusiyyətləri, əhalinin psiloji xüsusiyyətiləri, dövlət rəhbərlərinin şəxsi keyfiyyətləri və s. asılıdır. İkincisi, gələcək mübarizədə potensial müttəfiqin iştirakının dərəcəsi təkcə onun qüvvəsindən deyil, həm də maraqlı olmasından asılıdır. Burada söhbət ümumi maraqların axtarılmasından və ya ən azı real faydaların vəd edilməsindən gedir. (Çox zaman daha sıx birləşdirici maraq ümumi düşmənin olmasıdır. Bu zaman «Kimə qarşı dostlaşacayıq?» prinsipi işləyir). Müttəfiqin seçilməsi daha çox coğrafi faktordan asılıdır. O qüvvələrin ilkin qruplaşmasını və müttəfiqlərin gələcək qarşılıqlı əlaqələrini müəyyən edir. Buna misal kimi İtaliya və Prussiyanın Avstriyaya qarşı 1866-ci il müharibəsini göstərmək olar, bu zaman Prussiyalılar üçün əsas fakt italiyanın hərbi qüvvələrinin real gücündən asılı olmayaraq, Avstriya qüvvələrinin əsas teatrından uzaqlaşdırılması idi. Digər bir misal kimi, Almaniya Baş ştabının iki cəbhədə müharibəni strateji planlaşdırmasını və Almaniyaya qarşı koalisiyanın Birinci və İkinci Dünya Müharibəsi zamanı fəaliyyətini göstərmək olar.

Eləcə də, bu və ya digər dövlətin neytrallığının təmin edilməsi mühüm ola bilər. Məsələn, Fransa-Prussiya müharibəsinin hazırlanması zamanı Prusiyanın xarici siyasətinin həyati əhəmiyyətli məsələsi keçmiş düşmən-Avstriya-Marıstanın neytrallığının təmin edilməsi idi. 1939-1940-cı illərdə Almaniya üçün yalnız hələ də qeyri sabit olan və onu xammal və ərzaqla təchiz edən edən İspaniyanın franko rejmininin deyil, həm də İtaliyanın

neytrallığının saxlanması əlverişli idi. İtaliyanın iqtisadiyyatının və hərbi qüvvələrinin müharibəyə girən zaman zəifliyi almanları qüvvələri parçalamağa və ehtiyatları müttəfiqləri saxlamağa sərf etməyə məcbur edirdi. Rusiyanın xarici siyasətinin XIX əsrin sonu-XX əsriin əvvəlində səhvləri Yaponiya ilə müharibə ərəfəsində onu faktiki təcrid edilmiş vəziyyətə qoydu. Hətta müttəfiqi Fransa Rusiyanın Uzaq Şərqndə fəallığını dəstəkləmirdi. Bu da məhz hərbi əməliyyatların uğursuzluğunu, mövcud hərbi və iqtisadi ehtiyatlarla effektiv manevr etməsinin qeyri mümkünlüyünü əvvəlcədən müəyyən etdi.

ABŞ-ın İkinci Dünya müharibəsindən sonrakı təcrübəsi ibrətamizdir. Koreyada müharibə zamanı amerikanlar BMT-in bayrağı altında çıxış etməklə, kifayət qədər əlverişli şərait yarada bildilər. Onlar hərbi əməliyyatlarda birbaşa iştiraka bir sıra dövlətləri cəlb edə bildilər, baxmayaraq ki, onların müharibəyə ümumi payı o qədər də böyük deyildi, bununla ABŞ-ın fəaliyyətinə xarici siyasi dəstək təmin edilmiş oldu. Vyetnam müharibəsi bir başqa mənzərə təqdim etdi. ABŞ-ın əsas müttəfiqləri ondan uzaqlaşmağa üstünlük verdilər, amerikanlara birbaşa dəstəyi isə yalnız onun Asiya-Sakit okean regionundan olan ən dönməz tərəfdarları verdilər.

Siyasət əks tərəfin təbəələrinin hərəkətə gətirilməsi, düşmənin arxa cəbhəsinin yarılması kimi mürəkkəb məsələni həll etməklə, strategiyaya kömək edə bilər. Eyni zamanda siyasi rəhbərlik tərəfindən hazırlanacaq və həyata keçiriləcək müxtəlif variantlar da mümkündür. Bu öz tərəfinə dövlətin bütöv bir əyalətinin, rayonunun bu və ya digər səbəbdən düşmənin fəaliyyətini dəstəkləməyə meylli olan əhalisini öz tərəfinə çəkməkdir. Həmçinin hər hansı sosial qrupu, sinfi, dini qrupu, siyasi partiyanı, ayrı-ayrı şəxsləri, aparıcı xadimlərini öz tərəfinə çəkmək mümkündür. Bu zaman yalnız kəşfiyyat şəbəkəsinin yaradılması deyil, həmçinin əks tərəfə lazımi baxışlar və dəyərlər sistemini qəbul etdirmək kimi daha geniş və müəyyən qədər perspektivli vəzifələr nəzərdə tutulur.

Siyasətin həll etdiyi daha mühüm vəzifələrin sırasına strateji məqsədlərin həyata keçirilməsi üçün əlverişli şəraitin yaradılması üçün-ictimai rəyin formalaşdırılmasını aid etmək olar. Söhbət yalnız hərbi əməliyyatların ərəfəsində və ya gedişində təbliğatdan getmir. Daha əhəmiyyətli əhalinin müvafiq ruhda tərbiyə edilməsi kimi uzunmüddətli vəzifədir, onların reallaşdırılmasına tək bir onillik sərf olunmur. Belə bir deyim məşhurdur ki, Sadova və Sedan arasında arasında döyüşü Alman məktəb müəllimi udmuşdu. Bu qələbələri yalnız Prussiyaların daha yüksək savadı təmin etməmişdi, bu savad nəticəsində müasir texnikadan istifadə edən və öz vəzifələrini vicdanla yerinə yetirən etibarlı işçilər, dəmir yolçular, əsgərlər, məmurlar yaranmışdı. Uzun illər ərzində, məktəbdən başlayaraq, almanların düşüncəsində müəyyən ideyalar kompleksi yaranmışdı ki, hərbi gücün əsas komponenti olan mənəvi faktorun məqsədyönlü yaradılması aparılırdı. Bu möhkəm yeridilmiş baxışlar nəinki hökümətə sülh dövründə müəyyən siyasəti aparmağa aparmağa

imkan verirdi, həm də almanları nəyin naminə qan tökdüklərini aydın bilən və ya bildiklərini güman edən əsgərlərə çevirirdi. Məktəbin və dövrü mətbuatın həll etdiyi sonrakı vəzifələr, ictimai rəyi manipulyasiya edən bötüv bir sistemlə tamamlanmışdı.

Birinci Dünya müharibəsinin başlanğıcında Avropanın paytaxtlarının meydanlarında isterika həddinə çatmış qəzəblənmiş izdihamlar yığışırdı. Şüurun kütləvi formalaşdırılması (güclü təzyiq mexanizmi ilə yanaşı) təkcə müharibə dövrünün ağırlığını çəkmək üçün deyil, həm də müharibələrə hazırlıq üçün vacib oldu. Eləcə də, əks tərəfin ictimai rəyinin formalaşdırılması vəzifəsi mühüm ola bilər. Burada söhbət pasifist və digər beynəlxalq təşkilatların məqsədyönlü fəaliyyətindən, müharibənin dəhşətləri ilə, yaxud öz qüdrətini göstərməklə qorxutmaqdan, yəni müqavimət göstərmək iradəsini qıracaq hər şeydən gedir. Daha perspektiv isə əks tərəfə, və ya ən azı onun rəhbər təbəqəsinə öz dəyərlərini qəbul etdirmək ola bilər. Artıq XVII-XIX əsrlərin qovşağında bir çox Avropa dövlətlərinin Maarifçilik ideologiyasının ideyalarına şərik olan rəhbər dairələri bayraqlarında bu şüarlar yazılmış Fransa qoşunlarına effektiv müqaviməti təşkil edə bilmədi. XX əsrdə bu və ya digər ideologiyaları yaymaq prosesi əvvəlcə psixoloji müharibə mexanizmləri, daha sonra isə əks tərəfə nəinki ayrı-ayrı baxışları, həmçinin öz mədəniyyətini, dünya görüşünü, qarşıda duran problemləri və onların həllini qəbul etdirməyə imkan verən informasiya texnologiyaları ilə tamamlandı. Bu sahədə əldə edilən nəticələr çox zaman bütün ehtimalları üstələyirdi. İkinci Dünya müharibəsinin başlanğıcında nəinki Fransa cəmiyyətinin yuxarı təbəqələri, həm də daha geniş dairələri həlledici məqamda mübarizə etmək iradəsini iflic edən məğlubiyyətçiliyə məruz qalmışdılar.

Bəşər sivilizasiyasının müasir mərhələsində bu sahədə hərbi və siyasi metodların nisbəti daha mürəkkəb xarakter kəsb edir. Əhalinin elan olunmuş məqsədlər naminə itki verməyə hazır olması müharibənin gedişinə əhəmiyyətli təsir edə bilər. 1968-ci ilin əvvəlində Cənubi Vyetnamın milli azadlıq cəbhəsinin kütləvi hücumu hərbi nöqteyi nəzərdən onlar üçün baha başa gəldi, ancaq siyasi planda, müharibənin ümumi gedişi baxımından açıq üstünlük əldə edildi. Müharibəyə münasibəti Amerika Birləşmiş Ştatlarının özündə də kökündən dəyişməyə nail olunmuşdu və burada müharibəyə qarşı əhval ruhiyyə geniş yayılmaqda idi. Təsadüfi deyil ki, «Səhrada tufan» əməliyyatının gedişində, ABŞ-ın komandanlığı döyüşlər zonasında bütün məlumatı sərt nəzarət altına almışdı. Fars körfəzi və Yuqoslaviyada hərbi əməliyyatların gedişində «dünya ictimai rəyinin» formalaşdırılması üçün real faktlar deyil, kütləvi informasiya vasitələrinin yaratdığı obrazlar dəyərli idi. Cinayətkarların və qəhrəmanların rollarının əvvəlcədən təsvir olunduğu, yaxşı qurulmuş səhnələrin vaxtında verildiyi «virtual gerçəklik» kütləvi şüur üçün hadisələrin real vəziyyətindən olduqca daha böyük əhəmiyyətə malikdir.

Nəhayət, siyasət strategiya üçün dövlətin hərbi qüvvələrin yaradılması və saxlanması,

lazım olduqda isə, müharibənin aparması üçün nə qədər resurs vermək məsələsini də həll etməlidir. Qüdrətli iqtisad potensial özlüyündə dövlətin təhlükəsizliyini təmin etmir. İstehsalın inkişafında geriləmə, hərbi xərclərdə qənaət etmək səyləri faciə ilə nəticələrnə bilər. Ancaq əks ifratlılıq da təhlükəlidir. Silahlanma sisteminin vaxtından əvvəl genişləndirilməsi müharibənin başlamasına gətirir. Bu İkinci Dünya müharibəsinin ərəfəsində Fransa və İtaliyada olmuşdu.

Hərbi xərclərlə bağlı həddən artıq gərginlik bütövlükdə iqtisadiyyatın destabilizasiyasına, ciddi daxili sarsıntılara gətirə bilər, bu isə sonucda dövlətin xarici siyasi mövqeyini zəiflədə bilər. Bu mülahizələr heç də həmişə yeni silahlanma sistemlərini və hazırlıq proqramlarını inkişaf etdirməyə hazır olan hərbi rəhbərlər tərəfindən nəzərə alınmır. Eyni zamanda, nə yüksək dərəcə də effektiv silahlanma sistemlərinin yaradılması, nə geosiyasi proqramların uğurlu yerinə yetirilməsi millətin həddən artıq gərginlik nəticəsində zəifləmiş həyat potensialını kompensasiya edə bilməz. Əks tərəfə silahlanmanı qəbul etdirməklə, onun iqtisadi cəhətdən zəiflədilməsi aparıcı dövlətlərin xarici siyasi arsınalına daxil olmuşdu. Ona görə, şübhəsiz ki, bu növ məsələlər ilk növbədə siyasi rəhbərliyin səlahiyyətindədir, o, məsələni bütövlükdə nəzərdən keçirir, qərar qəbul edir və lazım olarsa, ona görə məsuliyyət daşıyır. Hərbi gücü təşkil edən problem xüsusi araşdırma tələb edir.

Hərbi gücdən uğurla istifadəni təmin edən siyasi rəhbərldiyin fəaliyyətinin ***dördüncü istiqamət*** hərbi əməliyyavtların başlanması üçün münasib məqamın seçilməsidir. Burada düşmənlərin dəqiq müəyyən edilməsi və koalisiyanın forrmalaşdırılması, lazımi dövlətlərin neytrallığının təmin edilməsi, daxili və xarici siyasi mövqeyin və onun perspektivlərinin qiymətləndirilməsi, iqtisadi və hərbi potensialların nisbəti, onların mümkün iştirakçılarının qüvvələr gərginliyinə tab gətirmək imkanları problemləri ilə sıx bağlıdır. Eləcə də vuruşan tərəflərin mümkün cavabdehliyi məsələsi vacibdir-kim və hansı şərtlərdə konıfliktin təşəbbüsçüsü, yəni təcavüzkar, və kim-müdafiə olunan tərəfdir. Çox zaman müharibənin başlaması üçün vaxtın seçilməsi hərbi qüvvələrin tez dəyişən birbaşa nisbəti ilə müəyyən olunurdu, bu zaman hərbi mülahizələr çox zaman üstün tutulurdu,

Uğurlu seçimə misal kimi, Prussiyanın Avstriyaya qarşı 1866-ci il müharibəsini göstərmək olar, bu zaman sonuncu hələ də 1859-cu il müharibəsindən dirçəlməmişddi. 1914-cü il iyul böhranı zamanı Almaniya hökümətі Almaniyanın 1914-cü il üçün yenidən silahlanmasının bitməsi faktını rəhbər tuturdu, Fransa və Rusiyanın yenidən silahlanma proqramı isə 1917-ci il üçün tamamlanmalı idi. 1914-cü il üçün Almaniya və onun potensial düşmənləri arasında parçalanma maksimal idi, bundan sonra o, ancaq azalmalı idi. Nəticədə, müharibənin qaçılmaz olduğun hesab edərək, Almaniya hökümətі müharibəni məhz 1914-cü ildə başlamağı qət etdi. Bu hal bir növ müharibənin başlamaq haqda qərarın

əsasən digər qrup faktorların təhlili əsasında qəbul olunmasına mənfi nümunədir. Nəticədə Almaniya hökuməti Klauzeviçin mülahizəsini baş ayaq etdi, böhran dövründə xarici siyasəti strategiya mülahizələrinə tabe etdi. Almaniya xarici siyasətinin manevr imkanları kəskin şəkildə azaldı, beynəlxalq təcrid olunma təhlükəsi yarandı.

Çox zaman, müharibəni başlamaq haqqında qərar qəbul edərkən, hökumət daxili problemləri də nəzərə almalı idi. Kəskin daxili siyasi böhran potensial düşmənin fəallığını iflic edə bilər. Digər tərəfdən, bu böhran onu daha da fəal, avantürist əməllərə sövq edə bilər, bu zaman müharibədə daxili ziddiyyətlərin azaltmaq üçün vasitələr axtarırlar. Tarixi təcrübə göstərir ki, burada edilən səhv xüsusilə baha başa gələ bilər. Bu səhvə misal kimi III Napoleonun Fransa-Prussiya müharibəsinni başlanğıcında fəaliyyətini göstərmək olar.

Ancaq müharibəni başlamaq üçün zamanın seçilməsinə həm də potensial düşmənin daxilində qeyri sabitliyin artması təsir edə bilər, bu isə onun qərarlılığının və imkanlarının azalmasına gətirir. Rejimi yeni qüvvə ilə yüksəltmək və narazı olanları susmağa məcbur etmək üçün «kiçik yenilməz müharibəni» başlamaq niyyəti müəyyən müddət üçün yerinə yetə bilər, ancaq uğursuzluq olarsa, daha güclü miqyaslı daxili sarsıntılar təhlükəsi yaranır.

***Beşinci istiqamət*** siyasi rəhbərlikldən hərbi komandanlığın sərəncamına kifayət qədər imkanları təqdim etməyi tələb edir. Burada söhbət yalnız məsələnin iqtisadi tərəfindən deyil, siyasi rəhbərliyin preroqativi olan uzunmüddətli siyasi planlaşdırmadan, proqnozlaşdırmadan gedir. Öz siyasətinin bütövlükdə əsas məqsədini müəyyən edərkən, müharibəyə hazırlıq və başlamaq haqda qərar qəbul edərkən, dövlətin rəhbərləri qoyulmuş məqsədlərə hansı konkret vasitələrlə nail olmağı müəyyən etməli və hərbi qüvvələri lazımi vasitələrlə təmin etməlidirlər. Yalnız ali siyasi rəhbərliyi həyata keçirən hökumət dövlətin iqtisadiyyatının hansı gərginliyə tab gətirəcəyini, əhalinin itkilərə nə qədər dözümlü olacağını və s. qət edə bilər.

Bu siyasi qərarların rolu hərbi qüvvələrin təchizatı və genişləndirilməsinin miqyası və bahalığı artdıqca, artmışdı. Artıq XVII-XVIII əsrlərdə müharibəyə hazırlıq vergilərin artırılması və vəsaitin yığılması, əsgərlərin çağırışı, təlimi donanmanın təchizatı üçün bir neçə il tələb edirdi. Bir neçə illər ərzində yaradılan və inkişaf etdirilən, daha baha başa gələn və mürəkkəb silahlanma sistemlərinin ortaya çıxması, lazımi infrastrukturun yaradılması, təşkilat tədbirlərinin aparılması-bütün bunlar siyasi qərarlara artan tələblər qoyur. Səhvin dəyəri həddən artıq artmışdır. Məsələn, dənizdə müharibəyə hazırlıq baha başa gələn gəmi tikintisi proqramlarının həyata keçirilməsi üçün bir-iki onillik çəkə bilər. Gələcək əməliyyatların xarakterini proqnozlaşdırarkən edilən səhv müharibə üçün az faydası olan çoxlu sayda gəmilərin yaranmasına və eyni zamanda lazımi gəmilərin olmamasına gətirmişdi. XIX əsrin ikirnci yarısında Rusiyanın dəniz nazirliyi əsas potensial düşməni İngiltərə hesab edərək, donanmanın yaradılmasını kreyser müharibəsi ideyasına yönəltdi.

Nəticədə, Yaponiya ilə müharibə zamanı böyük büdcə vəsaiti eskadra döyüşlərinin aparılması üçün az əlverişli olan kreyserlərin və kreyser tipli zirehli gəmilərin yaradılmasına sərf olunmuşdu. Onlar Rusiya-Yaponiya müharibəsinin gedişinə demək olar ki, heç bir təsir etməmişdilər. Birinci Dünya Müharibəsi ərəfəsində aparıcı dövlətlər yenidən dənizdə silahlanmaya başladılar, drednoutlar bir növ «böyük dövlətlər klubu»na buraxılış vərəqəsinə çevrildi. Ancaq sualtı gəmilərin, qayıq əleyhinə və desant gəmilərinin tikilməsinə, müvafiq əməliyyatların aparılmasına az diqqət ayrılırdı. Bununla belə məhz onlar (və ya onların olmaması) dənizdə müharibənin gedişinə mühüm təsir edir.

Silahlı mübarizənin aparılması üçün kifayət qədər vasitələrin təmin edilməsi məsələsində siyasi qərarların əhəmiyyəti xüsusilə ona görə böyükdür ki, peşəkar hərbçilər çox zaman keçmiş konfliktlərdə yaranmış təcrübələrinin əsiri ola bilərlər. Onun əsasında operativ planlar işlənib hazırlanır, silahların işlənməsinə tələblər qoyulur, qoşunlar hazırlanır və əhali mənəvi-psixoloji hazırlanır, iqtisadiyyata tələblər irəli sürülür. (belə bir həqiqət doğrudur ki, generallar həmişə keçmiş müharibəyə hazırlaşırlar). Birinci Dünya müharibəsinin mövqe cəbhəsini təkrar edən Majino xəttinə qoyulmuş minlərlə frank Fransaya vaxtında lazımi miqdarda müasir silahlı qüvvələr yaratmağa imkan vermədi. «Majino axmaqlığı» yalnız fransız hərbçilərinə deyil, həm də dövlətin siyasətinə bütövlükdə, əhalinin əhval-ruhiyyəsinə mənfi təsir etdi. Kifayət qədər qənaətbəxş iqtisadi potensialına malik olarkən, fransız siyasətçiləri öz silahlı qüvvələrini lazımi mübarizə vasitələri ilə təmin edə bilmədilər. Almanlar 1940-cı ildə fransızlara onların hazırlaşdıqları deyil, başqa növ müharibəni aparmağa vadar edə bildilər. Öz növbəsində Almaniya da İkinci Dünya müharibəsi dövründə hər biri xüsusi vasitələr tələb edən iki müxtəlif istiqamətlərdə mübarizə aparmalı oldu. Sovet İttifaqına qarşı müharibə üçün zirehli tank texnikası, səhra topları, müvafiq nəqliyyat vasitələri, ordunu dəstəkləyən aviasiya ilə təchiz olunmuş böyük quru qoşunları lazım idi. Məhz bu müharibə Almaniyanın iqtisadi potensialının böyük hissəsini apardı. Müharibənin həm Atlantik okeanı, həm də Aralıq dənizində aparılması tamamilə fərqli silahlar və hazırlıq aparmağı tələb edirdi. Hətta bütün Avropanın iqtisadiyyatını tabe etsə də, üçüncü Reyx bu müxtəlif istiqamətli vəzifənin öhdəsindən gələ bilmədi.

Siyasətçilərin müharibə aparmaq üçün irəli sürdükləri maddi vəsaitlərin kifayət etməsi problemi həmçinin müharibənin aparılması üçün hansı miqdarda iqtisadi resursların verilməsini, mövcud hərbi qüvvələrin hansı hissəsinin hərbi əməliyyatların gedişində «sərf olunması», hansının isə müharibədən sonra beynəlxalq münasibətlər sistemi üzrə partnyorları ilə qarşılıqlı əlaqələrində üçün saxlanması məsələlərinə toxunur.

İkinci Dünya Müharibəsindən sonra iki fövqəl dövlət arasında raket-nüvə silahlanması daha qüdrətli və bahalı sistemlərin yaradılmasına gətirdi. Bu silahlanmanın xarakteri şübhəyə yer qoymurdu. Amerika Birləşmiş Ştatları və Sovet İttifaqı onları bir-

birinə qarşı yaradırdılar. Nəticədə, ikinci və üçüncü dərəcəli hesab olunan istiqamətlərə lazımi diqqət verilmirdi və hər iki tərəf bəzən kiçik və lokal konfliktlərin həlli, üsyançıların yatırılması, sərhəd toqquşmalarında iştirak etmək üçün vasitələr axtarırdılar. «Çevik reaksiya», «bir böyük və bir kiçik müharibə», «bir yarım müharibə», «ikiyarım müharibə» konsepsiyaları ortaya çıxmağa başladı.

Nəhayət, ***altıncı istiqamət*** siyasətdən zor tətbiqi ilə əldə edilmiş nəticələrdən məharətlə istifadə etməyi tələb edir. İlk növbədə söhbət müharibəni sona yetirmək, onun nəticələrini rəsmiləşdirmək məharətindən, sonucda isə-sərf edilmiş səylərin və əldə edilən nəticələrin nisbətindən gedir. Siyasətçilər tərəfindən hərbi əməliyyatların gedişində əldə eldilən nəticələrin istifadə edilməsi tərkib elementləri–«strateji qərarın qəbul edilməsi»-«müharibəyə hazırlıq»-«müharibənin başlaması»-«müharibənin aparılması»-«müharibənin bitməsi»-«müharibənin nəticələrinin rəsmiləşdirilməsi» olan sistemin son halqasıdır. Əgər hərbi gücdən istifadə başqa vasitələrlə aparılan siyasətə daxil olmaqdırsa, müharibənin başa vurulması əvvəlki metodlara qayıtmaqdır. Bu ancaq müharibənin gedişində yaranan yeni qüvvələr balansı ilə müəyyən olunan keyfiyyətcə fərqli şərtlərdə baş verir. Siyasətin sistemin bu halqasında fəaliyyəti nəzərdə tutulan məqsədlə üst-üstə düşən və verilən itkilərlə müqayisə edilə bilən nəticələri təmin etməklə bu prosesin bütün gedişatını tamamlamaq və sərf edilmiş səylərin heçə çıxmasıdır. Bu mərhələdə siyasi və hərbi metodların nisbətini xarakterizə edən bütün problemlər-qoyulan məqsədlərin dəqiqliyi, müttəfiqlərin seçilməsi, lazımi iqtisadi və hərbi potensialın təmin editlməsi, hərbi əməliyyatların konkret gedişinin nəticələri-kəsişir və üzə çıxır. Müharibə çox zaman böhranın, bir sıra illər, bəzən hətta onilliklər ərzində yığılan ziddiyyətlərin- həllidir. Beynəlxalq münasibətlərin inkişafında bu özünəməxsus «həlledici məqamlarda» siyasətin rolu çox böyük olur.

Müharibənin gedişində əldə edilən nəticələrin uğurlu istifadəsinə misal kimi Bismarkın Almaniyanın 1864-1871-ci illər ərzində birləşdirilməsi ilə bağlı müharibələrin bütöv silsiləsi ərzində fəaliyyətidir. Birincisi, bu silsilənin bütün müharibələri vahid məqsədə xidmət edirdi. İkincisi, birinci və ikinci müharibələrin nəticələri elə rəsmiləşdirilmişdi ki, bu ikinnci və üçüncü müharibələrin başlanması və aparılması üçün daha əlverişli şərtləri təmin edirdi. Almaniya imperiyasının məğlub edilmiş düşmən ərazisində yaradılması əldə edilən qələbənin miqyası ilə müqayisə edilə bilən məntiqi siyasi nəticə oldu. Bir neçə ildən sonra tamamilə əks nümunəni görmək mümkündür. Rusiya diplomatiyası 1877-1878-ci illərdə Türkiyə ilə müharibədə əldə edilmiş qələbənin nəticələrindən tam istifadə etmək iqtidarında olmadı. Ordunun uğurları diplomatiyanın əzəldən qoyduğu məqsədlərin çərçivəsindən kənara çıxdı. Əldə edilən nəticələrin diplomatik yolla rəsmiləşdirmək üçün tələsik cəhdlər uğursuzluğa düçar oldu, Berlin konqresində Rusiya imperiyası geri çəkilməli oldu. Əldə edilən nəticələr sonucda verilən itkilərə proporsional olmadı. Rusiyanın Yeddiillik

müharibədə iştirakının sona yetməsi də açıq uğursuzluq idi, bütün işğal edilmiş torpaqlar dövlət maraqları anlayışını dərk etməyən həmin dövrün Rusiya monarxı III Pyotrun simpatiyası hesabına düşmənə qaytarıldı.

Bu növ problemlərin nəzərdən keçirilməsində Otuzillik müharibədən başlayaraq iri müharibələri tamamlayan çox-tərəfli sülh danışıqları xüsusilə böyük maraq doğurur. Bu növ tənzimləmənin gedişində koalisiyalar və alyanslar yaranır və dağılırdı, əvvəlki müttəfiq çox zaman düşmən olur, konflikt iştirakçılarının iqtisadi, texnoloji, siyasi və hərbi imkanları yeni qüvvələr düzümü nöqteyi nəzərdən yenidən qiymətləndirilirdi.

## §3. Hərbi gücün elementləri

Hərbi güc anlayışı tarixən şərtləşmişdir, inkişafın müxtəlif mərhələlərində bəzi elementlər birinci plana çıxır, digəriləri ikinci planda olur, və yaxud hamısı öz əhəmiyyətini itirirdi. Dövlətin hərbi gücü təşkil edən elementləri nəzərdən keçirərkən, onları üç qrupa bölmək məqsədə uyğundur: dövlətin sərəncamında olan insan və təbii resurslar, istehsal qüvvələrinin, texnologiyaların iinkişaf səviyyəsi, cəmiyyətin sosial və sosial-siyasi təşkilinin səviyyəsi.

Ənənəvi cəmiyyətin inkişafının hələ erkən mərhələlərində texnologiyalar və təşkilatçılıqda üstünlük bəzən hətta uzunmüddət davam edən hərbi ümstünlüyə çevrilirdi. Roma legionları daha çoxsaylı olan düşməni məhz təşkilatçılıqları və intizamları hesabına məhv edirdi. Öz dövrü üçün böyük miqdarda dəmir və bunun nəticəsi olaraq silahlar və yaraq-əsləhə istehsal etmək imkanı bu və ya digər ərazilərin irəli çıxmasına səbəb ola bilərdi (Orta əsrlərdə Burqundiya, XVI-XVII əsrlərdə İsveç). Cəngavər süvari dəstələrinin əhəmiyyəti odlu silahın üzə çıxmasına görə deyil, yaxşı təşkil olunmuş muzdluların fəaliyyəti hesabına azaldı. Cəngavərlərin hücumları intizamlı piyadaların dəqiq nizamının mizraqları önündə əzilirdi.

Yeni dövrün qovşağında dövlətin hərbi gücünü təşkil edən elementlərin qarşılıq asılılığı daha mürəkkəb və əlaqədar olur. XVI əsrdə Avropa demək olar ki, «ispan qızğınlı»- ispan muzdlu piyadalarının qarşısında qorxudan tir-tir əsirdi (bu piyadalar arasında ispanlar demək heç də çox deyildi). Muzdluların əməliyyatları isə Yeni Dünyadan daxil olan qiymətli metallar hesabına maliyyələşirdi. Coğrafi kəşflər və müstəmləkə imperiyalarının yaranması Avropada qüvvələr nisbətinə təsir etdi. XVII əsrdən başlayaraq, hərbi gücü təşkil edən elementilərin sayı artır və onların qarşılıqlı əlaqəsi mürəkkəbləşir. Cəmiyyətin inkişafının hər bir pilləsinə özəl texnologiyalar, təşkilatçılıq səviyyəsi, demorafik inkişaf xüsusilikləri və s. xasdır: bu ilk növbədə cəmiyyətinin inkişafının sənayeyə qədərki, sənaye (ilkin, orta və yetkin), sənayedən sonrakı mərhələsidir. Nəzərdən keçirdiyimiz

beynəlxalq münasibətlər sistemləri əksərən birinci iki mərhələ ilə üst-üstə düşür; təbii ki, bütün bu proseslər müvafiq modellərin yarandığı Avropaya aiddir.

## 3.1. Sənayeyə qədərki cəmiyyət

XVII əsrin ortalarından XVIII əsrin sonuna qədər dövlətlərin hərbi gücü necə müəyyən olunurdu? Bu suala cavab vermək üçün Otuzillik müharibədən başlayan həmin dövrün böyük konfliktlər təcrübəsinə nəzər yetirmək lazımdır. Bir tərəfdən, artıq yığılmış dəyişiliklərdən doğan proseslər davam edirdi. XVI-XVII əsrin əvvəllərində çox saylı müharibələr hərbi işdə, silahlanmada və taktikada dəyişiliklərə gətirmişdi. Tədricən gözəl, ancaq pis təşkil olunmuş və zəif zadəgan qeyri-nizami qoşunları keçmişdə qalırdı. Artıq müharibə aparma işində «xüsusi sahibkarlar» olan kondotyerlərin başçılıq etdiyi muzdlu dəstələr öz rolunu itirirdi. Hələ də əhali və maliyyə imkanları kimi faktorlar öz əhəmiyyətini saxlayırdı. Artıq əhalinin sayı deyil, sıxlığı, iqtisadiyata zərbə vurmadan böyük hərbi kontingentlər çıxarmaq qabiliyyəti rol oynamağa başlayırdı. Süvari qoşunlar və nəqliyyat üçün kifayət edən sayda atların olması (və ya onları qonşu dövlətlərdən maneəsiz almaq imkanları) vacib idi. Maliyyə imkanları qoşunların təchizatı və muzdluların vaxtında haqqının ödənilməsi üçün nəzərdə tutulmuşdu. Napoleon bununla əlaqədar qeyd etmişdi ki, müharibə üçün üç şey-pul, pul və yenə də pul lazımdır.

Qeyd etmək lazımdır ki, XX əsrin əvvəlinə kimi hərbi qüvvələrə olan ehtiyac əhalinin əsas kütləsinin tələbatları üçün olan eyni istehsal sahələrinin hesabına ödənilirdi. Hərbi xərclər, məvacib istisna olmaqla, mahud, ayaqqabı, qoşqu ləvazimatları, ərzaq və yem, at və qatırların alışından ibarət idi. Xüsusilə hərbi istehsal metal istehsalı və emalı üzrə xüsusi müəssisələr və az saylı dövlət arsenalları ilə təmin edilirdi. Hətta XVII-XIX əsrin əvvəlində əsgərlərin silahlarının misdən olan hissələri xüsusi qayğı ilə saxlanır və yenilərinin hazırlanması üçün təkrar əridilirdi. Eyni tərsanələr hərbi və mülki gəmilərin tikintisi üçün uğurla istifadə olunurdu. Artilleriya və artilleriya sursatlarının hazırlayan müəssisələr xüsusi ixtisaslaşmışdı. Nəticədə, iqtisadiyyatın inkişafının kifayət qədər yüksək səviyyəsi müvafiq hərbi potensialı təmin edə bilərdi. Yadda saxlamaq lazımdır ki, istehsalın həmin dövr üçün səviyyəsi və dövlət aparatının səviyyəsi hərbi qüvvələrin qısa zamanda cəbhəyə göndərilməyə elə də imkan vermirdi. Qısa müuddət ərzində kifayət qədər pul ehtiyatlarını, maddi və ərzaq ehtiyatları yapratmaq çətin idi. Əsgərlərin səfərbər edilməsi və muzdluların toplanması (hətta məcburi) də çox vaxt tələb edirdi. Nəticədə dövlət rəhbərləri tərəfindən hərbi güc tətbiqi haqda qərarın qəbul editlməsi və hərbi əməliyyatların başlanması arasında çox vaxt keçirdi və tərəflərin şansları tədricən bərabərləşirdi.

Artıq Otuzillik müharibənin gedişində aydın oldu ki, mövcud itqtisadi, demoqrafik

vıə digər imkanların reallaşdırılmasını, effektiv hərbi qüvvələrin yaradılmasını və genişləndirilməsini yalnız güclü mərkəzləşmiş dövlət həyata keçirə bilər. Məhz Fransa, İsveç, Avstriya, İngiltərə, Rusiya və sonra Prussiya kimi dövlətlər beynəlxalq münasibətlər sisteminin əsasını təşkil etməyə başlayır.

Qeyd etmək lazımdır ki, Otuzillik müharibənin gedişində Vallenşteyn tərəfindən geniş miqyasda yeni prinsip tətbiq olundu, yəni müharibə özü-özünü qidalandırmalıdır. Nizamsız soyğunçuluq keçmişdə qaldı. Onun yerinə işğal edilmiş torpaqların amansız talanı gəldi ki, o daha sistematik və hətta qanuniləşmiş xarakter- hədsiz təzminatların alınması kəsb etmişdi. Bu üsul Napoleon tərəfindən təkmilləşdirilmişdi.

Ancaq qeyd etmək lazımdır ki, hərbi texnikanın eyni inkişaf səviyyəsində də ayrı-ayrı dövlətlər önə çıxmışdır. İngiltərənin nümunəsində hər şey aydındır. XVI əsrin ikinci yarısı-XVII əsrin birinci yarısında iqtisadi yüksəlişlə əlaqədar olan üstünlüklər effektiv sosial-siyasi təşkilatla tamamlanmışdı. «Yeni nümunəli ordu»nun yaranması nəinki vətəndaş müharibəsində qələbəyə şərait yaratdı, həm də Şotlandiya və İrlandiyanın tabe edilməsinə, İngiltərə-Hollandiya ticarət müharibələrində uğurlara gətirdi. Ticarət yollarının Aralıq dənizindən Atlantik okeanına keçirilməsi İngiltərəni Avropanın «uzaq tənha yer»dən ticarət əlaqələrinin qovşağına çevirdi. Britaniyanın dəniz qüdrəti yüksəlməyə başladı. Qısa müddətdə ticarət və hərbi gəmilərin yeni növü formalaşırdı, o isə Aralıq dənizində həmin dövrdə iki min il ərzində hökmranlıq edən (XIX əsrin ortalarında buxarla işləyən və zirehli gəmi donanmasına keçiddən sonra bu tip on ildən az vaxtdə aradan çıxdı) gəmilərdən fərqlənirdi. İngiltərə donanmasının nizamı və ənənələri, komplektləşdirmə və sərt, hətta terrorist intizamı, baza, kəşfiyyat, məlumat sistemi dirçəlirdi. XIX əsrin əvvəli üçün bu cür səciyyələndirilən belə bir vəziyyət yaranmışdı: «Britaniya taxta divarlarla əhatə olunmuşdur. Bu divarlar-onun donanmasının gəmilərininin bortlarıdır», İngilislərin dənizlə sıx əlaqəsi, adada həyatın donanmadakı vəziyyətdən asılı olmasının dərk edilməsi dəniz qüdrətinin milli maraqla eyniləşdirilməsinə gətirib çıxarmışdı. Adanın mövqeyini təhlükəsiz edərək, İngiltərə hökuməti müstəmləkələr uğrunda mübarizə apara, lazım olan zaman subsidiyaları manipulyasiya etməklə, öz maraqlarını qorumaq üçün bu və ya digər dövləti cəlb edərək Avropanınr işlərinə müdaxilə edə bilərdi.

İsveçin vəziyyəti isə bir başqa idi, onun hərbi qüdrəti bütün Avropanı yüz illər ərzində qorxu altında saxlayırdı. İsveç kəndlilərinin özünəməxsus sosial-iqtisadi mövqeyi hesabına Otuzillik müharibənin gedişində tərifli təşkilatdan üstün olan dəqiq hərbi təşkilatı yaratmaq mümkün oldu. Hərbi qüdrətə dayaq olan isə bu zaman İsveçin dəmir istehsalçısı kimi Avropanın yarısını təchiz etməsi kimi müstəsna mövqeyi oldu. XVII əsrin ortalarında İsveç özünəməxsus «sahil imperiyasına» çevrildi, o, Baltik dənizinə tökülən çayların mənsəblərini və nəticə etibarilə Baltik çörək ticarətini nəzarət altına ala bildi. Hərbi

üstünlüklərin reallaşdırılması açıq iqtisadi faydalar gətirdi. İsveçin hərbi prestiji kifayət qədər yüksək idi və onun Şimal müharibəsi zamanı süqutu Avropa dövlətlərinə güclü təsir etdi.

Yeddiillik müharibəyə qədər hərbi gücün tərkib elementləri keyfiyyət dəyişiliklərinə məruz qalmadı. Həqiqi mənada Yeddiillik müharibə XVI əsrdən bəri tətbiq edilən metodlarla yaradılmış və sonradan təkmilləşdirilmiş hərbi qüvvələrin şahidi oldu: muzdlular və ya əsgərlədən təşkil olunmuş nisbətən kiçik yaxşı hazırlanmış ordu (uzun illər ərzində yaxşı «əhliləşdirilsmiş»), xarici subsidiyalar, əvəlcədən hazırlanmış ərzaq, yem sursatı, silah sursatı. Bu növ metodlar və müharibənin aparılması miqyası həmin dövrdə çiçəklənən «kabinet diplomatiyası»na uyğun gəlirdi. Təsadüfi deyil ki, həmin dövrdə daha çox müvəffəqiyyəti koalisiya qüvvələrinə qarşı duran II Fridrixin diplomatiyası və ordusu qazandı. Eyni zamanda, Avropada toqquşan dövlətlərin feodal-mütləqiyyətə əsaslanan hərbi və xarici siyasi təşkilatlarının eynicinsliyini vurğulamaq lazımdır.

### 3.2.Mərhələ fərqi probleminin yaranması

Avropanın özündə əsil qalibi müəyyən etmək çətin idi. Müstəmləkəçilərdə və dənizlərdə fransızların ingilislər tərəfindən tam məhvi açıq aşkar idi (doğrudur, Fransanın hərbi donanması müharibə ərəfəsində say etibarilə ingilislərə çatırdı). Şimali Amerikada qüvvələrin qeyri-bərabərliyi nəzərə çarpırdı. Orada əsasən hindularla ticarət aparan bir neçə min fransız sakini ingilis müstəmləkələrinin yüz minlərlə sakininə qarşı dura bilməzdi, onların təsərüfatı nəinki onların özünü, həm də metropoliyadan göndərilmiş qoşunları təmin edirdi (bu cür vəziyyət onunla bağlı idi ki, fransız və ingilis kolonizasiyası tamamilə fərqli cəhətlərə malik idi). Bu fərq, bunu vuruşan tərəflər arasında mərhələ fərqi də adlandırmaq olar, İngiltərəyə sözsüz qələbəni təmin etdi. Doğrudur, XVIII əsrin ikinci yarısında mərhələ fərqi faktoru tam özünü büruzə vermirdi, ancaq sonra o daha böyük rol oynamağa başladı.

Dövlətin hərbi qüdrəti və onu təşkil edən faktorlar müharibənin gedişində Fransada inqilab və imperiya ilə əlaqədar ciddi şəkildə yenidən qiymətləndirildi. Bu iyirmi ildən çox davam edən müharibə dövrü sənayeyə qədərki cəmiyyətə aid edilən bu miqyasda ən son konflikt oldu. Ancaq artıq bu müharibələrin gedişində dölvətin hərbi gücünə təsir edən yeni faktorlar ortaya çıxdı. Şübhəsiz ki, bu müharibələrin əksəriyyətində ən güclü ordu fransız ordusu idi. Onun düşmənləri hərbi əməliyyatların gedişində vuruşmağı öyrənməli olurdular. Bu təlimin dəyəri isə çoxsaylı məğlubiyyətlər və itkilər oldu. Belə güman olunur ki,

Fransanın hərbi potensialının artması XVIII əsrin sonunda inqilabın nəticələri ilə bağlıdır. Ancaq Fransanın hərbi gücünün bəzi gələcək elementləri artıq «köhnə nizamda» da mövcud idi: Qərbi Avropada ən böyük əhali, çoxsaylı müharibələrdə yaxşı təkmilləşdirilmiş silahlar, mərkəzləşmə ənənələri. Ancaq inqilabın nəticələri açıq üstünlüklər gətirdi. Ordunun şəxsi heyətinin keyfiyyəti əsaslı dəyişdi. Birincisi, əsgərlərin əsas kütləsini inqilabi sosial-iqtisadi və siyasi dəyişiliklərin real nəticələrindən dadmış və onları müdafiə etməyə hazır olan insanlar təşkil edirdi. İkincisi, öz dövrünə görə ən effektiv və insan resurslarının səfərbər edilməsinə şərait yaradan hərbi mükələfiyyət sistemi yaradıldı. Bu döyüşə əvəllcədən üstün olan və yüksək döyüş ruhu olan qüvvələr göndərilirdi. Üçüncüsü, inqilabdan sonrakı ilk illərdə fransız cəmiyyətinrə xas olan yüksək şaquli hərəkətlilik, yüksək komandanlıq və inzibati postlara həqiqətən də ağlına və cəsarətinə görə seçilən insanların, mənşəyindən asılı olmayaraq, gəlməsinə gətirdi. Qısa dövr ərzində Fransa ordusu unikal komanda heyətinə malik oldu. Sonra aşağı təbəqədən təşkil olunmuş komandanlıq heyətinin hazırlanması hərbi təlim idarələrinin yaranması ilə möhkəmləndirildi. Silk maneələrinin aradan qaldırılması, Maarifçilik dövrünün elmi nailiyyətləriin tətbiqi təkcə güclü zabit korpusunu yaratmağa deyil, həm də bütövlükdə hərbi qüvvələrə rəhbərlik sisteminin yaradılmasına imkan verdi. Məsələn, coğrafiyanın və xüsusilə kartoqrafiyanın nailiyyətlərindən intensiv istifadə olunurdu. Fransız komandirləri və onların ştabları xəritələrdən məharətlə istiifadə edirdilər və təsadüfi seçilmiş bələdçilərin məlumatlarına əsaslanmırdılar. Optik teleqraf Şappa (düzdür, yalnız gündüz və yaxşı havada) bir neçə saaata məlumat yüz kilometrlərə ötürməyə imkan verirdi. Unutmaq olmaz ki, hələ inqilab müharibələri dövründə müharibə aparmaq üçün ölkənin bütün mövcüd-insan və maddi potensialının səfərbər edilməsi ideyası uğurla həyata keçirilirdi, həm də bu əhalinin, onun əksər hissəsinin dəstəyi ilə intensiv ideoloji hazırlanması da aparılırdı.

Son nəticədə, Fransız ordusuna qalib gəlmək üçün müttəfiqlər çoxsaylı koalisiya müharibələrində böyük itkilər hesabına fransız ordusunun şəxsi heyətini məhv etməli oldu. Həmçinin 1814-cü il kampaniyasının çıxışsız günlərində də Napoleon formalaşmış təlim sisteminə əsaslaranaraq bir neçə həftəyə gənc çağırışçı əsgərləri yaxşı əsgərlərə çevirə bilirldi. Digər tərəfdən, qeyd edilməlidir ki, Fransa donanması matrosların yüksək döyüş ruhuna və gəmilərin fərqli keyfiyyətlərinə baxmayaraq, daim məğlubiyyətlərə düçar olurdu. İnqilabi tribunallar aristokratizmdə ittiham olunan və uzun illər ərzində peşəkar təcrübə əldə etmiş dəniz zabitlərini məhv etdilər. Onları aşağı təbəqədən olan istedadlı şəxslərlə əvəz etmək də qeyri mümkün oldu.

Napoleon müharibələri dövründə hərbi gücü təşkil edən müxtəlif elementlər bəzən qəfil büruzə olunurdu və onları nəzərə almaq çətin idi. 1812-ci il Rusiya kampaniyasında Napoleon öz ordusunun say çoxluğuna, komanda heyətinin yüksək təliminə, ştabların işinə

arxalanırdı. Ancaq, əhalinin əhval-ruhiyyəsindən başqa, o bir sıra maddi faktorları, o cümlədən Rusiyanın metal istehsalında üystünlüyünü, çoxlu və sərf edilməmiş atların sayını nəzərə almamışdı (bütün Avropada iyirmi illik müharibə ərzində onun at ehtiyatları zəifləmişdi). Nəticədə, Rusiya artilleriyası həmişə Fransa artilleriyasını üstələyirdi, süvari dəstələr isə fransız dəstələrinə sayda geri qalmayaraq, itkiləri tez bərpa edirdi.

Əgər bu dövrü dövlətin hərbi gücünün hansı elementlərinin həyati əhəmiyyyətli elementlər hesab edilməsi baxımından nəzərdən keçirsək, burada söhbət ilk növbədə qısa müddət ərzində çoxsaylı qoşunu cəbhəyə göndərmək və qoşunlara müntəzəm rəhbərliyi təşkil etmək imkanında olan sistemdən gedir. Ancaq hərbi qüvvələrə rəhbərlik mexanizminin yaradılması problemi sonuna qədər dərk edilməmişdi. Napoleonun təcrübəsi qeyri-tənqidi qarşılanırdı, hələ inqilab illərində formalaşmış bu mexanizm sonucda bir şəxs ətrafında qapanmışdı, onun qərarlarından tam asılı idi. Fransa imperatoru öz şəxsində sərkərdəni, diplomatı və dövlət rəhbərini birləşdirirdi. Təsadüfi deüyildi ki, onun təqlidçilərinin işləri daha da pisləşirdi, qanlı döyüşlər daha az nəzərə çarpan nəticələrə gətirirdi. Eyni zamanda iqtisadiyyatın rolu, həm də Fransaya qarşı koalisiyanın əsas gücünü digər dövlətlərdən keyfiyyətcə fərqli pillədə duran İngiltərənin yüksələn iqtisadiyyatı təşkil etməsi faktı tam qiymətləndirilməmişdi.

## 3.3.Erkən sənaye cəmiyyəti

Napoleon müharibələrinin bitməsindən XIX əsrin ortalarına qədər olan dövrü nəzərdən keçirərkən, qeyd etmək lazımdır ki, sənaye inqilabı və aparıcı dövlətlərin erkən sənaye cəmiyətinə daxil olması hərbi gücün meyarlarında bir sıra dəyişiliklərə gətirdi. İstehsal qüvvələri və texnologiya bəzən elə güclü inkişaf edirdi ki, hərbçilər baş verənlərin gedişatını dərk edə bilmir və köhnəlmiş təşkilat, taktika və silahlanma formalarında ilişib qalırdılar. Hərbi gücün ayrı-ayrı komponentlərin nisbətində dəyişiliklər Krım müharibəsi və Amerika Birləşmiş Ştatlarında vətəndaş müharibəsi zamanı aşkar olundu. Krım müharibəsinin gedişində mərhələ gerilənməsinin hansı təhlükəni yaratdığı aşkar olundu. İqtisadi faktor bu qədər parlaq ifadə olunmamışdı. Müttəfiqlərin texniki üstünlüyü yüksək idi, o onları dəfələrlə kobud səhv etməkdən xilas etmişdi. Rusiya müharibənin başlanğıcında cəbhəyə göndəriləcək təlim keçmiş ehtiyat hissələrə malik deyildi, dəmir yollarının olmaması qoşunları bir teatrdan digərinə göndərməyə imkan vermirdi. Sevastopol və onun müdafiəçiləri sadəcə olaraq onlara atılan metalların miqdarından məhv olmuşdular. Sinopda qələbə çalmış Qara dəniz donanması Sevastopol buxtasına düşmən buxar gəmilərinin girməsinin qarşısını almaq üçün batırılmalı oldu.

O cümlədən Amerika Birləşmiş Ştatlarında baş verən vətəndaş müharibəsi də

səciyyəvi oldu. Bu artıq erkən sənaye cəmiyyəti dövrünün müharibəsi idi. İttifaqın ordusunun silahlanması və təchizatı əksərən maşınların hesabına idi. Federal ordunun əsgərləri, keçmiş fermerlər, sənətkarlar, fəhlələr, kiçik sahibkarlar dəzgahlar olmadan hazırlanması qeyri mümkün olan tüfənglərlə döyüşə gedirdilər. Qoşunlar cəbhə xəttinə dəmir yolu ilə göndərilir, rabitə teleqraf xətləri ilə təmin olunurdu. Sahilyanı sularda və çaylarda əvvəllər görünməmiş artilleriya ilə silahlanmış zirehli gəmilər vuruşurdu Şimalın qələbəsi nəinki iqtisadi potensialın rolunu təsdiq etdi, həmçinin sənayenin, ağır sənayenin və maşınqayırmanın iqtisadi və hərbi potensialın əsası kimi rolunu təsdiq etdi. Diqqətli müşahidəçilər nəinki Şimalın demoqrafik və sənaye üstünlüyünü, həmçinin onun əhalisinin yüksək savadını, çoxlu sayda xəstəxanalar və həkimlərini, kitab-qəzet tirajlarını qiymətləndirdilər və nəzərə aldılar.

Şimalın Cənubla toqquşması beynəlxalq münasibətlər sistemində qüvvələrin qruplaşmasına təsir etmədi, ancaq ondan dərs götürənlər arasında Prussiyalılar da oldu. Fransa-Prussiya müharibəsi nəinkin beynəlxalq münaçibətlərin mövcud sisteminə düzəliş etdi, həmçinin sənaye cəmiyyətin dövründə hərbi gücün bütün əsas komponentlərini nümayiş etdirdi. Prussiyalılar fransızlardan demək olar ki, bütün meyarlarda üstün idilər. Onlar nəinki daha çox əhaliyə, həmçinin ən yaxşı səfərbərlik sisteminə malik idilər. Sənaye istehsalının həcminə və keyfiyyətinə görə üstünlüyü aşkar idi. Polad toplar onlara nəzərə çarpan üstünlüyü təmin edirdi. Almanlar təkcə sıx dəmir yolu şəbəkəsinə malik deyildi, həm də onlardan ordunun mərkəzləşməsi və genişləndirilməsi üçün istifadə edirdilər. «Soruşmayın ki, onların neçə batalyonu var, nə qədər dəmir yolları olduqları ilə maraqlanın»,-böyük Moltke öyrədirdi. O həmçinin istehkamlar əvəzinə dəmir yolları tikməyə səsləyirdi. Ənənəvi intizam yüksək savadla tamamlanmışdı, onun rolu haqda isə artıq yuxarıda danışılmışdı (1914-cü il üçün savadlılığın səviyyəsi Alman ordusunda 99,8%-ə çatmışdı). Ancaq müasirlərini daha çox təəcübləndirən Baş Ştabla Pursiya ordusunun idarə sistemi idi.  Artıq dahi tək bir sərkərdəyə ümid bəslənmirdi. Onun yerini hər biri etibarlı olan, digərini əvəz edə bilən, həmkarını izahsız başa düşən və komandada işləyə bilən yaxşı hazırlanmış «simasız insanlar»dan təşkil olunan nizamlı təşkilat tutmuşdu. Əvvəlcədən ardıcıl olaraq həyata keçirilən plan işlənib hazırlanmışdı. Təşkilatçılıq səviyyəsinə görə Almaniyanın Baş Ştabı həmin dövrdə daha çox inkişaf etmiş dövlətlərdə formalaşan iri korporasiyanın rəhbərliyini xatırladırdı. Alman hərbi maşınının lərzəyə gətirən effektivliyinə görə ona həsəd aparırdılar və həm müttəfiqlər, həm də düşmənlər onu təqlid etməyə çalışırdı.

### 3.4.Yetkin sənaye cəmiyyəti

XIX əsrin son rübündən və Birinci Dünya müharibəsinə qədər mürəkkəb təşkilati-texniki komplekslər yaranmağa başladı ki, onlar hərbi əməliyyatların hazırlanması və aparılmasını həyata keçirməli idi. Onlara planları hazırlayan baş ştablar, səfərbərlik sistemləri, kütləvi orduların cəbhəyə göndərilməsi, bütün mümkün ehtiyatların toplanması, uzun illər ərzində yaradılan nəqliyyat infrastrukturu daxil idi. Bütün bunlar sıx surətdə bir-biri ilə bağlı idi. 1914-cü il iyul böhranının göstərdiyi kimi, bu sistemlər artıq o qədər mürəkkəbləşmişdi ki, bir dəfə işə salındıqdan sonra onları praktik olaraq dayandırmaq qeyri mümkün idi. Ən mürəkkəb strukturlar öz yaradıcılarını özlərinə tabe etmişdilər. Onlara hərbi və mülki təlim müəssisələri, tədqiqat mərkəzləri, kütləvi informasiya vasitələri tabe edimişdi. Onların tərkib hissələri isə arxadan zərbə vurmaq məqsədilə düşmən haqqında məlumatları toplayan və ümumiləşdirən idarələr idi.

Bu zaman hərbi gücün iqtisadi və texnoloji komponentlərinə də diqqət vermək lazımdır. Texnologiyanın sürətli inkişaf tempi yenicə yaradılmış silahı köhnə edirdi. Silahlanma proqramında edilən dəyəri çox yüksək oldu. Uzun illər ərzində çoxlu pul kənara qoymaq, istehsalı yenidən qurmaq, silah ehtiyatları, silah sursatları, zirehli gəmi eskadraları və müdafiə zonaları yaratmaq olardı-ancaq həlledici məqamda bütün bunların köhnəldiyini və ya yeni qoyulmuş məqsədlərə cavab vermədiyini aşkar etmək olardı. Peşəkar hərbçilər böyük çətinliklə baş verənləri dərk etməyə çalışırdılar, eyni zamanda çoxdan əhəmiyyətini itirmiş taktiki gedişlərdən istifadə etməyə çalışırdılar. Hətta XX əsrin əvvəlində bütün donanmaların admiralları zirehli gəmilərdə taranların olmasını, o cümlədən əlavə olaraq uzaq millərə ağır mərmilər atan qüdrətli topların olmasını tələb edir və gəmilərə lazımi silahları yükləməklə, abordaj vuruşlarına hazırlayırdılar. Quruda isə generallar süvari qoşunlarının hücumlarına və süngü zərbələrinə hazırlaşır, avtomat silahın və kütləvi artilleriya atəşinin əhəmiyyətini anlamağa çalışırdılar. Əsasən generallar və iqtisadiyyat sahəsinin mütəxəssisləri müxtəlif səbəblərdən gələcək müharibəni qısa müddətli hesab edirdilər. Uzunsürən müharibənin mümkünlüyü fikri demək olar ki, cəfəngiyyat idi. Müvafiq olaraq iqtistisadiyyatın müharibəyə hazırlanması üçün bütün planlar işlənib hazırlanırdı. Maraqlıdır ki, Almaniya da birinci Dünya müharibəsinə partlayıcı maddələrin istehsalı üçün əsaslı ehtiyatlar olmadan daxil oldu, əsasən uzun sürməyəcək müharibəyə güman edərək, ancan anbarlarda olan döyüş sursatına arxalandı. Ümumilikdə isə cari tələbatlar mövcud istehsalın hesabına ödənilməsi planlaşdırılırdı. Birbaşa hərbi təhlükə dövründə xüsusi addımlar yalnız maliyyə sahəsində nəzərdə tutulurdu. İstehsal qüvvələrinin güclü artımı, iürəkkəb təşkilati və idarəçilik strukturlarının yarandığı dövrdə iqtisadiyyatın ekstremal şərtlərdə uzun müddət ərzində fəaliyyət göstərmək imkanlarına, müasir orduların qısa müddətdə bərpa olunması imkanlarına məhəl qoyulmurdu.

Birinci Dünya müharibəsi sənaye cəmiyyəti dövrünün müharibəsi oldu. Mövqe

cəbhəsi reallığa çevrildi. 1916-cı il üçün quruda, dənizdə, havada vuruşan maşınlar, milyonlarla mərmi atan minlərlə top lülərinin sayı və kalibri işin gedişini həll edirdi. Bu zaman texnologiyada hətta cüzi dəyişiliklər böyük rol oynayırdı. Almaniya generalitetin öz dəmir yol şəbəkəsinə həddən artıq arxalanması neft məhsulları tələb edən daxili yanma mühəriklərinin tətbiqinə diqqəti azaltdı. Nəticədə müttəfiqlər rezervləri atomobil nəqliyyatına yönəltməklə, Qərb cəbhəsində əldə edilən uğurları itirirdilər. Müharibənin son mərhələsində isə müttəfiqlərin zərbələrinə qarşı Almaniya cəbhəsini yararaq, çoxsaylı zirehli tank hissələri gedirdi. Sınaqlarda ingilis və alman linkorları təxminən eyni sürətə malik idi, ancaq döyüşlərdə alman ocaqçıları zirehli qutularda bağlı qalmaqla, çoxsaatlıq gərginliyə dözə bilmirdilər və gəmilərin gedişi ləngiyirdi. İngilislər üçün forsunkanı çevirməklə mazutu odluğa ötürülməni artırmaq kifayət edirdi.

Dövlətin hərbi gücünün əsas komponenti iqtisadi və slosial-siyasi sistemin ağır gənginliyə tab gətirmək qabiliyyəti oldu. «Total müharibə» konsepsiyasının Birinci Dünya müharibəsinin özünəməxsus yekunu kimi ortaya çıxması təsadüfi deyildi. Dövlətin demək olar ki, bütün əhalisinin müharibədə iştirakı nəzərdə tutulurdu: hər bir vətəndaş ya sənayedə, ya kənd təsərrüfatında, ya elm, təbliğat sferasında işləməli və eyni zamanda itaətlə müharibə dövrünün ağırlığını çəkməli idi, bəzən hətta özünün əsas tələbatlarını məhdudlaşdırmalı idi.

Birinci dünya müharibəsi yeni qüvvə ilə mərhələ geriləməsinin təhlükəli olduğunu nümayiş etdirdi. Sənaye cəmiyyətinə keçiddə ilişib qalmış Rusiya imperiyası bu keçidi başa vurmuş dövlətlə qarşılaşmışdı. Bunun nəticəsi müasir müharibənin ağırlığına tab gətirməyən Rusiya idarə sisteminin dağılması oldu.

Birinci və İkinci dünya müharibəsi ərzində dövlətin hərbi qüdrətinin tərkib elementləri olan, ərazinin ölçüsü, əhalinin sayı və savadlılıq səviyyəsi, hökümətin ölkədə əhval-ruhiyyəyə nəzarət dərəcəsi öz əhəmiyyətini itirməmişdi. Doğrudur, iki yüz bundan əvvəl olduğu kimi, hələ də aydın deyildi ki, inkişaf etməmiş infrastrukturu olan geniş ərazi düşmənə qarşı müdafiədir yoxsa öz qüvvələrinin səfərbər edilməsi və gecəbhəyə göndərilməsi üçün maneədir. Bununla belə hərbi gücün formalaşdırılmasında yeni tendensiyalar yaranmağa başladı. Onlardan bəziləri əvvəllər də üzə çıxmışdı, ancaq hələ eyham idi. Onlar yetkin sənaye cəmiyyətinin sonrakı inkişafı və sənayedən sonrakı cəmiyyətə keçid üçün ilkin kövrək tendensiyalarla əlaqədar idi. Hələ də sənayenin maddi və enerji tutumlu sahələri öz əhəmiyyətini itirməmişdi. İkinci dünya müharibəsinin ərəfəsində ümumiyyətlə milyonlarla ton poladsız və yüz minlərlə ton keyfiyyətli poladsız keçinmək qeyri mümkün idi. 30-cu illərin ikinci yarısında aşkar oldu ki, min at gücü və daha yuxarı gücü olan mühhəriklər olmadan müasir aviasiyanı yaratmağa cəhd etməyə belə dəyməz. Ancaq bu az oldu. Qüvvələr nisbətini öz xeyrinə dəyişmək olmasa da, ən azı bu sahədə düşmən qəfil üstünlük

əldə etməsinə yol verməmək məqsədilə daimi elmi tədqiqatlar, perspektiv hazırlıqlar tələb olunurdu. Dövlətin hərbi gücünün faktoru kimi onun təhsil sistemi, kifayət qədər bahalı avadanlıqla təchiz olunmuş iri elmi-tədqiqat institutlarının mövcudluğu çıxış edirdi. Etibarlı radio rabitə olmadan tank və təyyarə armadaları metal qırıntılara çevrilə bilərdi. Dənizdə və havada radarlardan istifadə olunması həlledici üstünlüyü təmin edə bilərdi. hospitallarda pensilindən istifadə edilməsi yüzlərlə yaralı şəxsin cəbhəyə qayıtmasına imkan verirdi. Raket texnikası və atom fizikası sahəsində aparılan tədqiqatlar haqqında danışmağa isə ehtiyac yoxdur. Bu istiqamətlərin çoxunun inkişaf etdirilməsi mahiyyətcə sənayenin ayrı-ayrı sahələrinin, xüsusilə bahalı sahələrin yaradılmasını tələb edirdi, bu isə böyük iqtisadi potensialı olan dövlətlərin gücündə deyildi.

Bu sahədə mənfi bir nümunə kimi İtaliyanı göstərmək olar. Mussolini rejimi müharibəyə hazırlaşan zaman öz sayına görə heyrət doğuran donanma və aviasiya yaratmışdı. Ancaq İtaliya gəmiləri, təyyarələri və tankları ümumilikdə müasir tələblərə cavab vermirdi, istehsalı yüksək texnoldogiya tələb edən avadanlığa malik deyildi və düşmənin qurbanına asanlıqla çevrilirdi. Yenidən silahlanma proqramı üçün toplanmış çoxlu vəsaitlər əbəs yerə sərf olunurdu. İtaliya rəhbərləri ölkəni müharibəyə hazırlayarkən hərbi gücün inkişaf istiqamətlərini qabaqcadan görə bilmədilər.

### 3.5.Sənayedən sonrakı cəmiyyətə keçid

Elm tutumlu istehsalın rolu İkinci dünya müharibəsi dövründə durmadan artırdı. 1943-1944-cü illər ərzində ingilislər və amerikanlar öz aviasiyalarını aşkar edən düşmən sistemlərini məhv etmək üzrə radioelektron mübarizəsinə başlamışdılar. Atlantik okeanda radiolokasiyadan istifadə alman sualtı qayıqlarını suyun dərinliyinə salmağa imkan verirdi ki, oradan onlar bir udums su milə də qayıda bilməzdilər. Müharibənin lap sonunda nüvə silahının tət biq olunması isə hələ Birinci Dünya müharibəsi zamanı başlanmış axtarışların müəyyən mənada tamamlanması idi. Dövlətin hərbi gücünün ikinci dünya müharibəsindən sonrakı dövrdə formalaşdırılması və qiymətləndirilməsi bir sıra faktorların, beynəlxalq münqasibətlər sisteminin yeni qütbləşmiş xarakterini, hərbi-siyasi blokların yaradılması və onların qarşıdurmasını nəzərə almağı tələb edirdi. Bir tərəfdən, əvvəlki dövrdə üzə çıxan tendensiyalar inkişaf edirdi. Bir-birinə qarşı duran dövlətlər soyuqqanlı şəkildə nüvə və termo-nüvə silahlarını yaradırdılar. Eyni zamanda onun təchizat sistemi işlənib hazırlanırdı. 90-cı illərin sonuna qədər nüvə silahı və onun təchizat vasitələrinə sahib olma bir növ böyük dövlətlər «klubuna» buraxılış demək idi. Artıq 50-ci illərin sonu-60-cı illərin birinci yarısında kosmik silahlanmanın bütün istiqamətləri müəyyən olunmuşdu. Artıq idarəetmə, müşahidə, məlumat sistemləri daha böyük əhəmiyyət əldə edirdi. Düşmənin «gözünü

çıxarmaq» və «qulağını batırmaq», onu rabitədən məhrum etmək imkanları, öz silahlı qüvvələrinə rəhbərlik etmək bacarığı bu qüvələrin məhv edilməsi qədər əhəmiyyətli sayılırdı. Bu vəziyyət bütövlükdə məlumat və rabitə üzərində nəzarətin həlledici rol oynadığı sənayedən sonrakı cəmiyyətin inkişaf tendensiyalarına uyğun gəlir.

Etiraf etmək lazımdır ki, müasir silahlanma sistemlərinin yaradılması elmi-texniki tərəqşqinin əsas istiqamətləri ilə əlaqədar oldu.

Raket-nüvə silahlanma yarışı, yeni hücum və müdafiə sistemlərinin yaradılması prosesində, bütün XX əsr ərzində üzə çıxmış tendensiyalar nəinki daha da inkişaf etdi, həm də yeni keyfiyyət kəsb etdi. Birincisi, «qorxu balansı» qəti olaraq təşəkkül etdi. Tərəflər daha yüksək dəyəri olan növbəti silahlanma sistemləri yaradırdılar. Onlar «qtəmin edilmiş qarşılıqlı məhv etmə»ni təmin etməyə çalışırdılar, bu zaman tərəflərdən birinin ümumi nüvə zərbəsindən sonra salamat qalan hətta ən kiçik nüvə silahı payı birinci zərbəni vurmuş tərəfin müdafiəsini qırmaq və onun insan, iqtisadi və digər potensialına yolverilməz zərbə vurmaq imkanını saxlayardı. Bu silahlanma yarışında önə çıxmaq üçün edilən hər bir cəhd daha da baha başa gəlirdi və qüvvələrin həddən artıq gərginliyi hesabına əldə edilmiş üstünlük tez itirilirdi. Artıq güclü kosmik quruplaşmaları daxil edən qarşılıqlı məhv etmə sistemləri qütbləşmiş dünyanın əsas qüvvələri arasında birbaşa konflikti mənasız edirdi.

Belə bir şey artıq 20-30-cu illərdə baş vermişdi, həmin dövrdə bir çox dövlətlər intensiv şəkildə kimyəvi silahın ehtiyatlarını yaradırdılar. İkinci dünya müharibəsinin gedişində tərəflərdən heç biri isə cavab tədbirlərindlən ehtiyat edərək onlardan geniş miqyasda istifadə etməkdən çəkinirdi. Sonucda belə bir sual yarandı-minlərlə ton köhnəlmiş, ancaq hələ də ölümcül silahların taleyi necə olsun.

İkincisi, raket-nüvə qarşıdurması özünün «təmin edilmiş qarşılıqlı məhv etməsi» ilə xüsusi bir tərzdə beynəlxalq münasibətlərin siyasi və hərbi-texniki tərkib hissələrinin nisbətinə təsir etdi. Yalnız güllələrin müəyyən miqdarını deyil, həm də təchizat, kəşfiyyat, aşkaretmə və rabitə, raket əleyhinə müdafiə və hava hücumundan müdafiə vasitələrini daxil edən nüvə potensialının müəyyən səviyyəsinin olması artıq «böyük dövlətlər klubuna» buraxılış sayılırdı. «Klub» üzvlərinni mövqeyinin qarantiyası bir sıra beynəlxalq-hüquqi qərarlar oldu. Onlardan biri nüvə silahının yayılmaması haqqında müqavilələr sistemi oldu ki, o, onun planet üzrə «səpələnməsinin» qarşısını almalı və eyni zamanda «nüvə klubu» üzvlərinin xüsusi statusunu möhkəmlətməli idi. Güclü və bahalı silahlanma sisteminin olması, onu isə bu sistemə sahib olan özü də bir qayda olaraq, işə salmağa hazır deyildi, bununla belə bu ona dövlətlərarası münasibətlər sistemində aşkar üstünlüklər verirdi. Buna bənzər bir hal XX əsrin əvvəlində, intensiv dəniz silahlanması dövründə də təşəkkül tapmışdı: drednoutların olması həmin dövrdə böyük dövlətin əlaməti idi. Hətta o qədər də varlı olmayan dövlətlər-İspaniya, Türkiyə, Braziliya, Argentina-öz iqtisadiyyatlarını

gərginləşdirir, borca girir, arzu edilən gəmilərə sahib olmağa çalışırdılar. Eyni zamanda aparıcı dövlətlərin dövlət xadimləri və admiralları donanmalar yaradaraq, dəniz nəhənglərini döyüşə atmağa tələsmirdilər. Onların qüvvələr nisbətinin hesabı üçün diqqətlə qoruyurdular. «Fleet in being» prinsipi təntənə edirdi-donanma siyasəti yalnız öz mövcudluğu və hipotetik döyüşə daxil olmaq hazırlığı ilə təsir göstərirdi. Artıq həmin zaman silahlanma yarışı bir növ maliyyə, sənaye və elmi potensialın yarışına çevrilirdi. Müvafiq olaraq, düşməni bu yarışdan çıxarmaq cazibəsi yaranırdı.

Açıq konflikt zamanı nüvə intiharı perspektivi əks tərəfin davranışına, onun daxili və xarici siyasətinə digər təsir vasitələrinə diqqəti yönəltdi. Nəticədə isə kütləvi şüuru manipulyasiya, o cümlədən ayrı-ayrı etnik və sosial qruplaraın davranışını idarə metodlarının geniş dəsti ortaya çıxdı.

Üçüncüsü, raket-nüvə tarazlığı, aralarındakı münasibətlər ikiqütblü beynəlxalq münasibətlər sisteminin əsasını təşkil edən əsas dövlətlər arasında birbaşa qarşıdurma imkanını məhdudlaşdırmaqla, saysız=-hesabsız periferiya müharibələri törətdilər. Onların arasında «etibarnamə üzrə müharibə» adlanan və lokal konflikt iştirakçılarının arxasında iri dövlətlərin durduğu müharibələr nəzərdə tutulurdu. Bu müharibələrin gedişində nəinki bilavasitə iştirakçılar arasında ziddiyyətlər həll olunur, həmçinin tərəflərdən biri öz əlaltısı ilə bu regionun dövlətlərinə təsir edirdi. Bu vəziyyətə nümunə kimi çox illik Ərəb-İsrail konfliktini göstərmək olar. Bu konfliktlərin gedişində çox zaman qüvvələrin açıq sınaqdan keçirilməsi, ən yeni texniki və taktik nailiyyətlərin real müqayisəsi baş verirdi. Livan üzərində hava döyüşlərinin nəticələri Mərkəzi Avropada qarşı duran qruplaşmaların tutuşmasına gətirə bilərdi. Bu cür konfliktlər Yaxın Şərqdə, Cənub-Şərqi Asiyada, Afrikada gedirdi. Onlarda qarşıduran blokların yüzlərlə texnika və minlərlə hərbçilər iştirak edirdi. Qızğın və dinməz mübarizə daim bütün Dünya okeanı və hava məkanında gedirdi.

Bu şərtlərdə elmi potensilaın inkişafı hərbi gücün saxlanmasının əsas şərti idi. İbtidai məktəbdən ixtisaslaşmış elmi-tədqiqat institutuna qədər hadisələrin gedişatını nəzarət altına alan məqsədyönlü dövlət siyasəti tələb olunurdu. Müvafiq olaraq, hökümətin yalnız əhalinin əhval-ruhiyyəsini deyil, öz dövlətinin informasiya məkanının effektiv nəzarət altına almaq imkanları kimi başa düşülən «informasiya təhlükəsizliyi»nin rolu artmaqda idi.

Fövqəl dövlətlərin qarşıdurması yalnız ən müasir və nəticə etibarilə ən dağıdıcı texnologiyalarla əlaqəli olan səviyyyədə baş vermirdi. Bu qarşıdurmanın tərkib elementi silahlanmanın və taktiki gedişlərin ənənəvi növləri ilə də bağlı olan digər səviyyələr idi. Onlar olmadan fövqəl dövlətlər və ya onların tərəfdarları arasında hər hansı konflikt ümumi nüvə qırğını ilə nəticələnə bilərdi. Bütün bunlar hərbi gücün müasir texnologiyaların təsiri altında bir qədər dəyişmiş ənənəvi elementlərinin hələ də qalmasından xəbər verir.

## Ədəbiyyat:

1. Овчинников В.С. Политические конфликты в международных отношениях и пути их разрешения. – М., 1990.

2. Бэрон Р., Ричардсон Д. Агрессия. – СПб.,1997.

3. Клаузевиц К. О войне. В 2 т. М., 1937. Т.1.

4.Schelling T.C. The Strategy of Conflict. – Camridge.1960.

5. Keegan J. The face of the Battle. N.Y., 1976.

6. Kennedy P. The Rice and Fall of the Great Powers. Economic Change and Military Conflict from 1500-2000. N.Y., 1987.

## 8-ci mövzu
## Siyasi-etnik və hərbi münaqişələrin psixoloji aspektləri

**Suallar:**

1. **Seçimin psixoloji aspektləri**
2. **Kollektiv seçimin ideoloji və psixoloji aspektləri**
3. **Münaqişənin nizamlanmasında ideoloji amillər**
4. **Beynəlxalq əlaqələrlə bağlı nəzəriyyələrin psixoloji aspektləri və təhlili.**

Beynəlxalq münaqişələr dünya siyasəti kontekstində meydana çıxan əks-əlaqəli və qarşılıqlı asılı qərar qəbul etmə problemlərinin dəsti kimi təsəvvür edilə bilər. Kontekst rəhbərlərin etdiyi seçimləri uyğunlaşdırır, lakin müəyyən etmir və rəhbərlər, şübhəsiz ki, seçimləri vasitəsilə dünya siyasətinin kontekstini və strukturunu dəyişirlər. Kollektivləri-dövlətlər və ya qrupların nəklikdə və ya qrupun bir hissəsi kimi fəaliyyət göstərən rəhbərlərinin təkcə özləri üçün deyil başqaları üçün də müəyyən nəticələrə malik olan qərarlar qəbul etməsi etiraf edildikdən sonra, idrakı və sosial psixologiyada sistemlielmi-tədqiqatların mərkəzi olan fərdi və kollektiv seçim nəzəriyyələri beynəlxalq siyasət üçün də münasib olmağa başlamışdır. Bir rəhbərin etdiyi seçim həm qərar qəbul etmə probleminin özünün, həm də başqalarının seçim imkanının strukturuna güclü təsir edə bilər.

Psixoloci yanaşmalar sistem modellərinin struktur izahları çərçivəsində davam edən mübahisələrdə sərhəd şərtlərini qurmaq üçün faydalıdır. Eləcə də onlar mənsubiyyətin formalaşması və dəyişməsi,bütün sistem üçün norma yaradılması və ona riayət edilməsinə əsaslanan nəzəriyyələri müəyyən etməyə imkan verir. Psixoloci nəzəriyyələr həm də siyasi rəhbərlərin münaqişələri zəiflətmək və ya gücləndirmək üçün qəbul etdikləri məhdud seçimləri izah etməkdə və bir-biri ilə bağlı olan seçimlər silsiləsinin nəticəsi olan qarşılıqlı təsir modellərinin təhlilində faydalıdır.

Beynəlxalq münaqişədə qərar qəbul etmənin vacib problemləri adətən pis strukturlaşdırılır. Problemin müəyyən edilməsi çox vaxt tərəflər arasında mübahisə doğurur və oyuna qoyulmuş şeylərin təbiəti və ya dəyəri ilə əlaqədar razılıq çox az olur. Problemin qoyuluşu mübahisə doğurmayanda belə, çox vaxt ətraf mühit vaxtında və səliqəli əks əlaqə təmin etmir və rəhbərlər müəyyən vaxtdan sonra ağılabatan ehtimal paylanması hazırlamaq üçün yenidən cəhd göstərmək imkanına malik olmurlar. Beləliklə, rəhbərlər çox vaxt problem, oyuna qoyulanlar, dəyərlər və başqalarının məramı, problemi yaradan məhdudiyyətlər barəsində qeyri-müəyyən mövqedə olurlar. Mücərrəd dəyərlər konkret

mümkün şərait işığında dəqiq məqsədlər kimi qurulmalı, yozulmalı və yenidən formalaşdırılmalıdır. Çox vaxt variantlarının özü də məlum olmur və rəhbərlər həm variantları, həm də onların nəticələrini müəyyən etməlidirlər. Vaxtaşırı problemin qoyuluşunu fərdi və ya kollektiv qurmaq prosesi vasitəsilə təzahür edir. Rəhbərlərin həll problemi haqqında təsəvvürləri onların üstünlükləri (prioritetləri) qurmasına və seçimləri müəyyən etməsinə, eləcə də onların seçiminə mühüm təsir göstərir.

Psixoloci nəzəriyyələr problemin qoyuluşunun mübahisə doğurduğu, problemin sıravi olmadığı, oyuna qoyulanların tərəflər üçün yüksək dəyərə malik olduğu və ətraf mühitin seçim etmək üçün kifayət dərəcədə sərbəstlik verdiyi beynəlxalq münaqişələrin izah edilməsində xüsusilə yararlıdır. Belə şəraitdə cari təsisatı işlər adekvat hesab edilmir, fərdi və ya kollektiv qaydada fəaliyyət göstərən rəhbərlərin rolu həlledici olur. Mən fəslin birinci hissəsini idrakı psixologiyanın beynəlxalq siyasətdə sıravi olmayan münaqişə mühiti üçün tipik olan pis strukturlaşdırılmış problemlərdə problemin qoyuluşunun izahına verdiyi payı şərh etməklə başlayıram. Bunun ardınca isə seçimi subyektiv gözlənilən maksimallaşdırılmış həllər kimi modelləşdirən nəzəriyyələrə aparıcı alternativ olan perspektiv nəzəriyyəsinin verdiyi töhfəni, daha sonra isə fərdi səviyyədən sosial psixologiyanın kiçik qrupların qərarlarının qəbul edilməsinin izahına verdiyi payı tədqiq etməyə doğru hərəkət edirəm. Xarici siyasət qərarlarının çoxu kollektiv seçici və ya yekun icra məsuliyyətini daşıyan rəhbərlərin müşavirləri kimi fəaliyyət göstərən kiçik qrup kontekstində qəbul edilir.

Fəslin ikinci hissəsində sosial psixologiyanın beynəlxalq sistemdə, mühüm idarə edicilərinin mənsubiyyət və qrup dinamikası olduğu, kütləvi etnik münaqişələrin təhlilinə verdiyi payı tədqiq etmək üçün izahın mərkəzi kimi seçimdən kənara çıxıram.

## §1.SEÇİMİN PSİXOLOJİ ASPEKTLƏRİ

İdrakı psixologiyada rasional seçim normalarından bir sıra sistemli sapmalar müəyyən etmişdi. Mühakimə, qiymətləndirmə və seçim haqqında rasional aktyor fərziyyələrindən sapmalar mürəkkəb, çox vaxt pis strukturlaşdırılmış problemlərə və siyasi rəhbərlərin ənənəvi olaraq beynəlxalq əlaqələrdə üzləşdiyi növ qeyri-müəyyən ətraf mühitə vaxtında reaksiya verməyə imkan verən sadə qaydalara ehtiyac olması izah edilirdi. Adi, gündəlik şəraitdə yaxşı strukturlaşmış mühitlərdə bu reaksiyalar uyğunlaşma yönlüdür, lakin mürəkkəb, zəif strukturlaşmış mühitdə əhəmiyyətli təhriflərə gətirə bilər. Seçimin vahid idraki nəzəriyyəsi yoxdur və idraki psixoloqlar hər hansı üstün seçim qaydası müəyyən etməmişlər. Əvəzində onlar insanların məlumatı emal etdiyi süzgəcləri və onların

dünyaya müəyyən məna vermək üçün işlətdikləri sadələşdirmə mexanizmlərini müəyyən etmiş və çeşidləmişlər. Siyasi psixoloqlar idraki psixologiyada aparılmış tədqiqatdan istifadə edərək, münaqişə ilə əlaqədar seçimlə üzləşən kollektivlərin liderlərini məxsusi qeyri-müəyyənlik və mürəkkəblikləri tipik idraki ixtisarlar (sadələşdirmə) vasitəsilə idarə etməyə çalışan idraki idarəçilər kimi görür. İdraki psixologiya vahid seçim nəzəriyyəsi təmin etmirsə də, insanların ideal rasional seçimdən niyə sapmalarını izah edir və beynəlxalq siyasət təhlilçilərini həm rəhbərlərin problemi özlərinə necə təsəvvür etmələrinin mühüm olduğu, həm də rəhbərlərin güman ki, istifadə edəcəkləri sistemli sadələşdirmə strategiyalarının menyusu haqqında xəbərdar edir.

İdraki psixologiya göstərmişdir ki, insanların əvvəlki inamları məlumatın emalına güclü təsir göstərir. İdraki ardıcıllıq nəzəriyyələri postulə edir ki, fərdlər özlərinin uyğun gəlməyən məlumata qarşı «inam sistemlərinin» ardıcıllığını onları rasional nəticə çıxarma və seçim etmə normalarından kənara aparan yollarla təmin etməyə çalışır. Doğrudan da, uyğun gəlməyən məlumatın təsirinə məruz qalma çox vaxt inamın möhkəmlənməsi ilə nəticələnir.

Uyğun olmayan məlumatın təsirinə məruz qaldıqdan sonra inamların möhkəmlənməsi, insanların ortaya çıxan uyğunsuzluğu izah etmək üçün istifadə etdikləri əsaslandırma proseslərinin nəticəsidir. Uyğun gəlməyən məlumatın dəyərsizləşmə faizi təşkil edilmiş inamlarla müqayisədə rasional normaların müntəzəm (sistemli) olaraq diqtə edə biləcəyindən daha yüksəkdir və insanlar gözlənilən nəticələrin artıq qurulmuş inamlara uyğun olan variantlarını seçməyə meyl edir.

Beynəlxalq siyasətdə rəhbərlərin yeni məlumatları müntəzəm olaraq dəyərdən salacağını və fundamental inamlarda dəyişikliyə müqavimət göstərəcəyini gözləmək mümkündür. Məsələn, prezident George Bush-a Mixail Qorbaçov haqqında fikrini dəyişməsi üçün uzun müddətli ardıcıl dəlillər axını tələb olunmuşdu. Hətta dəlillərin uyğun axını belə kifayət etməmişdi; onun müqavimətini qıran Berlin Divarının yıxılması oldu. Dəyərsizləşdirmə aldatma strategiyalarının və xüsusi xidmət rəsmilərinin məruz qaldığı ardıcıl strateci sürprizlərin uğurunu izah etmək üçün də istifadə edilə bilər. Amerikanın xüsusi xidmətlərinin Yaponların Pearl Harbor-a hücum məramlarını anlamaqda, İsrail xüsusi xidmətlərinin Misir və Suriyanın 1973-cü il hücumunu xəbər verməkdə, 1990-cı ildə İraqın Küveytə müdaxiləsinin öngörülməsindəki uğursuzluqlarını yaxşı dəlillərin olmaması ilə deyil, daha çox rəsmilərin üstün inamlara uyğun gəlməyən dəlilləri müntəzəm surətdə dəyərsizləşdirməsi ilə izah etmək olar. Fərqli siyasi sistemlərdə işləyən çoxlu sayda siyasi rəhbərlərin təhlili hakim inam sistemləri ilə uyğun olmayan məlumatın buna bənzər dəyərsizləşdirilməsi proseslərinin indi də fəaliyyətdə olduğunu göstərir.

Aid etmə (atribusiya) nəzəriyyəçiləri «sxemin», və ya fərdin anlayışlarının və onların müəyyən etmə xüsusiyyətlərinin (atributlarının) mühümlüyünü vurğulayırlar. Sxem ətraf mühitin müəyyən cəhəti haqqında işçi fərziyyədir və özüm (özüm-sxemi), başqa fərdlər (şəxs sxemi), qruplar (rol sxemi), və ya mühitdəki hadisələr ardıcıllığı (ssenarilər) anlayışı ola bilər.İnsanlar sxemdən öz mühitlərinin yozumunu vermək və fəaliyyətə hazırlaşmaq üçün ssenarilər – mühit haqqında işçi fərziyyələr – qurmaq üçün istifadə edirlər. İdraki uyğunluq nəzəriyyəsindən fərqli olaraq, atribusiya nəzəriyyələri fərdi sxemlər toplusunun ardıcıl sistem formalaşdırdığını fərz etmir. Lakin idraki uyğunluq nəzəriyyələri kimi onlar da fərz edir ki, bir dəfə yaranmış sxem dəyişikliklərə müqavimət göstərir.

Mövcud sxemə uyğun olmayan məlumatın məlum dəyərsizləşdirilməsi meyli idraki sabitliyə əhəmiyyətli töhfə verir. İnsanlar öz gözləntilərinə kiçik dispersiya (səpilmə) təyin edilərsə, sxemin dəyişikliklərə müqavimət göstərməsi postulatı statistik məntiqə uyğunluq kimi yozula bilərdi. Uyğun olmayan məlumatın təsirinə məruz qalmanın mövcud sxemi pozmaq deyil, gücləndirdiyini təkrar-təkrar müşahidə edən psixoloci tədqiqatlar belə yozumla ziddiyyət təşkil edir.

Ümumi evristika və əvvəlcədən yaranmış inamlar da rasional təftiş və mühakimə prseslərini zəiflədə bilər. Evristika insanların sxemlərində oturmuş fərziyyələri yoxlamaq üçün qaydalardır və məlumatın emalı üçün rahat olan ən cəld üsul və ya baş barmaq qaydası kimi başa düşülə bilər. Ən yaxşı sənədləşdirilmiş üç evristika *əlçatanlıq (mümkünlük), uyarlıq (reprezentativlik)* və *bağlamadır* (hesablama başlanğıcına). Əlçatanlıq evristikası insanların birqiymətli olmayan məlumatı ən asan yadda saxladıqları terminlərdə yozmaq meylinə aiddir. Reprezentativlik evristikası insanların bir hadisə ilə ona qədər olmuş hadisələr sinfi arasında oxşarlıqları şişirtmək meylinə aiddir və adətən ehtimal fərziyyələri və tezlik hesablamaları zaman əhəmiyyətli səhvlərə gətirir. Bağlama evristikası «əlçatan» (çox vaxt dəqiq olmayan) ilkin dəyərin bir başlanğıc nöqtəsi kimi götürülməsi və onunla müqayisə etmək yolu ilə amplitudun (miqyasın) və ya dərəcənin hesablanmasına aiddir.

Hər üç evristika, hadisədən qabaqkı idraki vəziyyətin təsirini inikas etməklə, hesablama və mühakimələrdəki həlledici səhvləri izah etməyə kömək edir. Əlçatanlıq və mötəbərlik İsrail rəhbərlərinin Ərəb təhdidlərini, imkanlar və məzmundakı fərqləri nəzərə almadan Nasist soyqırımı ilə əlaqələndirmək meylləri üçün inandırıcı hesabat təmin edir. Evristika təkcə ehtimal hesablamalarına deyil, həm də problemin İsrail rəhbərləri tərəfindən istifadə edilən təqdimat formasına da təsir edir. Lövbər atma (bərkitmə), qismən, Ərəfatın İsrailin baş nazir Barak-ın 2000-ci ilin payızında etdiyi Qərb sahilinin təqribən 90 faizinin, eləcə də Yerusəlimdəki bütün Fələstin şəhər ətraflarının Fələstin muxtariyyətinə

qaytarılmasını nəzərdə tutan təklifi ilə əvvəlki rəhbərlərin, bundan çox məhdud olan, təklifləri arasındakı mühüm fərqləri görə bilməməsində əhəmiyyətli olmuşdur.

Əvvəlcədən qəbul edilmiş idraki mövqelər də aid etmədə səhvlərə gətirir. İnsanları digərlərinin fəaliyyətinin onların əvvəlcədən üstünlük verdikləri davranışın nəticəsi olması ehtimalını və özlərinin bu fəaliyyətin hədəfi olması dərəcəsini şişirtməsinə səbəb olan əvvəlcədən formalaşmış eqoist mövqe münaqişəli vəziyyətdə daha böyük gərginliyə öz payını verir. İnsanlar özgələrinin davranışını qiymətləndirərkən şəraitlə müəyyən edilənlərlə müqayisədə mövqe ilə müəyyən edilən amillərin əhəmiyyətini şişirdirsə, özgələrinin davranışına, ümumiyyətlə stimullara gerçək olandan daha böyük ardıcıllıq və məna yazırsa, onlar fundamental aid etmə səhvi edirlər. Fundamental aid etmə səhvi rəhbərlərin digərlərinə düşmənçilik məramları aid edəcəklərini və digər rəhbərlərin üzləşdiyi şərait məhdudiyyətlərini qiymətdən salacaqlarını daha ehtimallı edir. Belə mühakimə yürütmək məramlı düşmənçiliklə əlaqədar davranışla təsdiq edilməyən qarşılıqlı gəzintiləri qidalandıra, təhlükəsizlik dilemmalarını gücləndirə, silahlanmanı stimullaşdıra və zorakılığa təhrik edə bilər.

Tədqiqat göstərir ki, müşahidə edilən davranış aktyor haqqında qabaqcadan yaranmış inamlarla üst-üstə düşürsə, fundamental aid etmə səhvinin baş verəcəyi daha ehtimallıdır. Şəraitin məcbur etməsi izahları mövcud olsa belə, uyğun davranış böyük ehtimalla mövqe amillərinin ayağına yazılacaq. Mövqenin ayağına yazılan xüsusiyyətlər ola bilsin ki, uyğun davranış üçün yüksək dərəcədə əlçatan olsun, və aktyorun «sadəcə olaraq» belə davranışda bulunan «bir şəxs olması» kimi əl altında olan hazır inam insanları güman ki, bu ardıcıllığa gətirmiş şərait amillərinə qeyri-əsas edə bilər. Ona görə də, mötəbər qabaqcadan formalaşmış fikir, müşahidə edilən davranışın əvvəlki inamlarla uyğun olduğu halda, fundamental aid etmə səhvinin baş verməsini izah etməyə yardım göstərə bilər. Bu cür əsaslandırma başqalarının məramının düşmənçilik kimi təsəvvür edilməsinə yardım edir və onu dərinləşdirir, beləliklə də münaqişənin güclənməsini daha ehtimallı, həllini isə daha çətin edir.

Sxem daxilə yerləşdirildisə, onu dəyişmək son dərəcə çətin olur. Bu, xüsusən düşmən obrazları üçün doğrudur. Obraz inamlar və ya fərdlərin, və ya qrupların doğru olduğuna inandıqları fərziyyə və nəzəriyyələr dəstinə söykənir. Obraza həm təcrübəyə əsaslanan bilik və dəyərlər, həm də arzu edilən davranış haqqında inamlar daxildir. Düşmən obrazı güclü ədavət kimi emosional ölçüyə malik olduğundan, yeni məlumat axtarmaq üçün stimul çox az olur. Stereotipləşmiş obrazlar düşmənçilik və münaqişəli davranış yaradır və rəqibin düşmənçilik hərəkəti ilə cavab verəcəyi ehtimalını artırır. Bundan sonra belə qarşılıqlı davranışların təkrarı düşmən məramların ehtimalı dəlillərini təsdiq etməklə rəqib obrazını

möhkəmlədir. Ehtimali obrazlar özünü tamamlayan və özünü möhkəmlədən olmaq meylinə malikdir və beynəlxalq münaqişənin üzərinə neft tökə bilər.

Tədqiqatlar düşmənin ən azı üç müxtəlif sxemini müəyyən etmişdir: imperiyaçılar, barbarlar və degeneratlar. Soyuq Müharibə dövründə Sovet rəhbərliyi Birləşmiş Ştatları «imperiyaçı» düşmən kimi görürdü. Çin rəhbərləri dövri olaraq başqalarını barbarlar kimi stereotipləşdirirdi, İranda Ayatolla Xomeyni isə Qərb rəhbərlərini «degenerat» kimi təsvir edirdi. Bu sxemlər problemlərin Sovet İttifaqı, Çin və İran rəhbərləri tərəfindən yaradılmış təsvirini məlumatla təmin edir və rəhbərlərin məlumatları emal etməsi və ehtimalları hesablaması üsullarına, etdikləri seçimlərə təsir göstərirdi .

İdraki proseslər stereotip obrazları və qabaqcadan yaradılmış rəyi himayə etməyə meyllidir. İnsanlar bir-birinin şəxsi xüsusiyyətlərini və davranışını əvvəlcədən müəyyən etmək üçün sosial stereotiplərdən güclü surətdə istifadə edir.

Onlar həm də stereotiplərdən istifadə edərək onların obyektiv dəqiqliyi ilə təsdiq edilə biləndən çox-çox böyük subyektiv əminliklə sosial proqnozlar verməyə meyl edirlər. Davranış yaddaşının təshih edilməsi prosesləri, qrup daxili və qrup xarici üzvlər mühakimə edilərkən müxtəlif cür işləyir və qabaqcadan formalaşmış sosial rəylərin əbədiləşməsinə yardım göstərir. Qeyri- aşkar özgələr nəzəriyyələri qiymətləndirici emaldakı fərdi fərqlərlə əlaqələndirilirdi. Aid etmə prosesləri tərəfli mühakimə yürütmə davranışına da öz təsirini göstərir.Bütün bu proseslər beynəlxalq münaqişələrin yumşaldılmasından daha çox gücləndirilməsinə işləyir. Bunlar sistemli səhvlər və qabaqcadan formalaşmış rəylər olsa da, onların təsiri qərarın qəbul edilməsinin baş verdiyi təsisatı və qrup şəraiti ilə qismən yumşaldıla bilər. Qərar qəbul ediləcək qrupdakı şərait qabaqcadan formalaşmış fərdi rəyləri yumşalda və ya gücləndirə bilər. Qrupdakı proseslər uyğun olmayan məlumatı qiymətdən salmaq meylini qrupun həmrəyliyinə müraciət etməklə möhkəmlədə və gücləndirə bilər, və ya prosesləri bilərəkdən hakim inamlara ilkin şübhələrə imkan yaradan və bu şübhələri gücləndirən qaydada qura bilər.Mən bu arqumentə kollektiv seçimin dinamikasını tədqiq edərkən qayıdıram. Daha ümumi səviyyədə, tədqiqata və hesabatlılığa imkan verən şəffaf sistemlər uyğun olmayan məlumatı sistemə vaxtında zorla daxil etmək vasitəsilə bu qabaqcadan formalaşmış rəylərin bir hissəsinin təsirini azaltmağa kömək edə bilər. Səlahiyyətlərin bölüşdürülmüş olduğu siyasi sistemlər, rəhbərlərin qabaqcadan formalaşmış bu cür rəylərinin sayını azaltmağa kömək edirsə, avtoritar dövlətlərin rəhbərlərinin Suriyada Hafez al-Asad, keçmiş Yuqoslaviyada Slobodan Miloşeviç, İraqda Saddam Hussein kimi- özünütəcrid xüsusiyyətləri qabaqcadan formalaşmış rəyləri gücləndirir. *Ceteris paribus* ( başqa şərtlər eyni olduqda) demokratik və çoxrəyli sistemlər bu növ qabaqcadan formalaşmış rəyləri qapalı avtoritar sistemlərdən daha yaxşı yumşalda bilər.

Düşmən obrazındakı sabitlik qayda, dəyişiklik isə istisnadır. Lakin istənilən halda mühafizəkarlıq qeyri şərtsiz deyil. Sxem həqiqətən də dəyişir, hərçənd ki, o, adətən cəld, uzağa gedən dəyişikliyə məruz qalmağa deyil, zaman keçdikcə tədriclə dəyişməyə meyl edir. Sxem nəzəriyyəsi hələ sxemin niyə dəyişdiyi haqqında vahid fərziyyələr dəsti yaratmamışdır. Sxem nəzəriyyələri əsasən bütöv sxemləri öyrəndiyindən nisbətən statik olur. Sxemin mərkəzi olması, onun mübahisə predmeti ola bilməsi, uyğun gəlməyən məlumata diaqnoz qoyulması, aid etmə modelləri və idraki mürəkkəblik, bunların hamısı təftiş ehtimalının, genişləndirdikdə isə mühakimənin dəyişməsinin öngörümü kimi müəyyən edilə bilər. Dəyişiklik qismən fərqli olan məlumatın daxil olma tezliyinin və müəyyənedici rəhbərlərin ona nə qiymət verməsinin funksiyasıdır. Geniş yayılmış ziddiyyətli dəlillər sxemə bir-neçə izolə edilmiş nümunələrdən daha artıq təsirə malik olmalıdır. İnsanlar məlumatı əvvəlki bilikləri ilə uyğun gəlməyən hesab etdiklərindən, sxemə onu dayanaqsız edən, tədrici dəyişikliklərə və əlavələrə imkan verən şərtləri daxil edirlər. Vacib sxemlər yalnız insanların müəyyənedici hesab etdikləri fərqli verilənləri nəzərə almağın başqa yolu qalmadıqda şübhə altına alınır. Daha böyük dəyişiklik məlumat damla-damla deyil böyük partiyalarla gələrkən baş verir. Artıq qeyd etdiyim kimi, prezident Georg Bush Qorbaçov haqqında təsəvvürlərini hətta Sovet rəhbəri Birləşmiş Ştatlara bir neçə birtərəfli cestlər etdikdən sonra belə dəyişməmişdi. Yalnız böyük dəyişikliklər haqqında məlumatlar güclü axın şəklində gəldikdə nəhayət özünün yaxşı formalaşmış təsəvvürlərini dəyişdi. Hətta ən möhkəm sxem belə uyğun gəlməyən güclü məlumatın və ya verilənləri daha yaxşı sistemləşdirən alternativ sxemin hücumuna davam gətirə bilmir.

Başqası haqqında sxemdə əhəmiyyətli dəyişiklik uyğun olmayan məlumatın təsirinə məruz qalan subyektlərin davranışın təsadüfi deyil, hədəfin xarakterini əks etdirdiyinə əmin olduğu zaman da baş verir. Məsələn, Xorvat və Müsəlman rəhbərləri Serblər haqqında təsəvvürlərini Serbiyanın siyasətindəki dəyişikliyi – hərbi səlahiyyətləri Kracina-dakı Xorvat qüvvələrinə ötürməyi gecikdirmələri ilə əlaqələndirdiklərindən dəyişmirdilər. Bu, uyğun olmayan məlumat şərait deyil, mövqe amillərinin ayağına yazıldıqda baş verir. Uyğun olmayan davranışın mövqe yox, şərait amillərinin ayağına yazılmasına üstünlük verilməsi kimi ümumi meyl isə dəyişikliklərin niyə belə gec-gec baş verdiyini izah edir.

Dəyişiklik həm də idraki mürəkkəbliyin, və ya obyektlər və şərait haqqında məlumatı emal etmək üçün istifadə edilən idraki qaydaların mürəkkəbliyinin funksiyasıdır. İdraki mürəkkəblik fikrin məzmunundan daha artıq dərk etmə prosesinin strukturu və ya təşkilinə aiddir. Mürəkkəblik sxemin dəyişməsinə bir qədər ziddiyyətli təsir göstərir. İdraki sistem nə qədər qəbul edənin yeni məlumatla qarşılaşdıqda yeni və ya incə fərqlər qoymaq imkanı o qədər böyükdür. Yüksək dərəcədə mürəkkəb sxemə malik mütəxəssislər yeni məlumata bərkidilmiş və sərt olması daha ehtimallı olan aşağı mürəkkəblik səviyyəli sxemə

malik yeni başlayanlardan daha həssasdırlar. Çoxqat mühakimə ölçülərinə malik olanlar həm də məlumatları birləşdirmək və müqayisə etməyi asanlaşdıran mücərrədləşdirmə qaydalarına malik olmağa meyl edirlər. Onlar yeni məlumatın alternativ yozumunu verməyə meyl göstərirlər, lakin mücərrədləşdirmə və birləşdirmə imkanlarından istifadə edərək bu çox variantlılığı aradan qaldırmağa qabildirlər.

Daha çox münasib məlumata malik olan mütəxəssislər uyğun olmayan məlumatı istisna və ya xüsusi hal kimi daha asan daxil edə bilərlər. Ona görə də uyğun olmayan verilənlər onların sxemlərinə yeni başlayanlarınkından daha az təsirə malikdir. Paradoksal da olsa xarici siyasətdə təcrübəli rəhbərlərin öz mühakimələrində az təcrübəyə malik yeni rəhbərlərdən daha mühafizəkar olması daha ehtimallıdır.

İdraki psixologiya yüksək dəyərlərin oyuna qoyulmuş olduğu beynəlxalq münaqişələrin mənzərəsini yaradarkən rəhbərlərin apardığı mühakimələri təhrif edə biləcək bir sıra sapıntılar müəyyən etmişdir. Tədqiqatın mühüm bir hissəsi çərçivələməni fərdlə yox, şəraitlə əlaqələndirir və seçimə güclü təsiri proqnozlaşdırır. Rasiolnal seçim nəzəriyyəsinin toplum xidmət funksiyaları variantına ən böyük düzəliş olan perspektiv (baxış bucağı) nəzəriyyəsi bildirir ki, qərarın qəbul edilməsi məsələsinin necə çərçivələnməsi (strukturlaşdırılması) seçimə təsir göstərir.

Çərçivələmə, sadəcə olaraq, variantların təqdim edilmə ardıcıllığının və ya variantları təsvir edən dilin seçimə necə təsir edə biləcəyi yolllarını göstərir. Tədqiqat intuisiyaya güclü surətdə əks olan nəticələr təklif edir: problemin məğzini dəyişmədən, seçimi mümkün variantların ardıcıllığı və təsviri vasitəsilə idarə etmək mümkündür. Sadəcə çərçivənin dəyişməsinin üstünlüklərdə dəyişiklik edə biləcəyinin aydınlaşması rasional seçimin ən fundamental aksiomlarından birini pozur. Beynəlxalq münaqişənin idarə edilməsi üçün siyasətin əhəmiyyəti şübhəsiz və güclüdür. Məsələn, Dövlət katibi Cames Baker 1991-ci ildə İsrailin baş naziri Yitzhak Shamir-i Madrid prosesinə qoşmaq üçün uğursuz cəhdlərinin yekununda ona xəbərdarlıq etmişdi ki, qoy o, masanın arxasında oturacağı halda nə əldə edəcəyini yox, kənarda duracağı halda nə itirəcəyini fikirləşsin. Shamir iştirak etməyə razılaşmışdı.

Baker təhtəlşüur (intuitiv) olaraq nəzər nöqtəsi nəzəriyyəçilərinin irəli sürdüyü mühüm bir mülahizəni qəbul etmişdi. İnsanlar aidiyyatı nöqtə ətrafında problemi çərçivələyir və variantları içəridə qalan hissənin üstünlükləri baxımından nəzərdən keçirirlər. Onların müəyyən etdikləri variantlar qazanc oblastındadırsa insanlar risk etməməyə meylli olur, əgər müəyyən etdikləri variantlar itki oblastındadırsa, insanlar riskli variantı seçməyə meylli olur. Beləliklə risk qabaqcadan formalaşmış fərdi mövqeyin deyil, problemləri çərçivələməyin funksiyasıdır.

Nəzər nöqtəsi nəzəriyyəsi riskdən qaçmağı və riski qəbul etməyi təşviq edən şəraitin şərtlərini müəyyən edir. Rəhbərlər son zamanlardakı itkilərlə barışmadıqda və kiçik ehtimallara yəqinliyin ekvivalenti kimi baxdıqda onların riskə meylliliyinin rasional seçimin fərz edə biləcəyindən daha artıq olacağı xüsusilə ehtimallıdır.

Onlar qazanc oblastında olarkən və ya qazanc üçün normalaşdırılmış olduqda, böyük itki nümunələrinə daha çox diqqət yetirmək nəticəsində kiçik itki ehtimallarını olduğundan artıq qiymətləndirdikdə və müntəzəm olaraq böyük uğur ehtimallarını olduğundan aşağı qiymətləndirəndə güman ki, risk etməməyə daha meylli olacaqlar.

Çoxlu sayda təcrübələr və mədəniyyətlərin geniş diapazonu baxış bucağı nəzəriyyəsinin xeyrinə sağlam sübutlar verir. Baxış bucağı nəzəriyyəsi xarici siyasət sahəsində qərarların qəbul edilməsinin təhlilinə geniş tətbiq olunmuş və inandırıcı izahlar təmin etmişdir, məsələn prezident Sadat-ın 1973-cü ildə müharibəyə başlamaq qərarı ilə əlaqədar; o, bundan yeddi il əvvəl Sinayın itirilməsi ilə razılaşa bilməmişdi. İsrailin təhdidə əsaslanan çəkindirmə strategiyası onu itki oblastında daha dərinə girməyə təhrik etmişdi. Nəzəriyyə 2000-ci ilin oktyabrında Arafatın zorakılığı artırmaq qərarını da izah edir; o itki oblastında idi və Şərqi Yerusəlim (Qüds) üzərində tam suverenliyin müəyyən qədər itirilməsi ilə müqayisədə zorakılığa qayıtmağın nəticəsi olacaq itkilərin ehtimalını aşağı qiymətləndirirdi. Burada da təhdidə əsaslanan strategiyaların riskə getmək meylini gücləndirdiyi və münaqişənin qızışmasına öz payını verdiyi görünür.

Baxış bucağı nəzəriyyəsi rəhbərlərin qurduqları idraki struktur daxilinə qoyulmuş qərar qəbul etmə qaydasını da verir və sövdələşmə və danışıqlarda münaqişənin qızışmasına və ruhdan düşməyə ciddi təsir edən riski qəbul etmə meylini göstərir. Liderlər etdikləri güzəştlərə özləri üçün itki, rəqibinkinə isə qazanc kimi baxdıqda öz güzəştlərini artıq, rəqibinkini isə aşağı qiymətləndirməyə meyl edirlər. Belə dinamika danışılan razılaşmaları asanlaşdırmaq yox çətinləşdirir və beynəlxalq münaqişədə iştirak edən rəhbərlərin sövdələşmə zamanı çox vaxt dəyəri stolun üstündə qoyub getməsinin mümkün izahlarından biridir. Eləcə də, rəhbərlər itirməkdən qorxduqda onların risk variantını seçəcəyi daha ehtimallıdır.

Müəyyən şəraitdə, itkilərlə barışmamaqla bağlı əvvəlcədən formalaşdırılmamış mövqe beynəlxalq münaqişələrin qızışmasının güclü izahıdır və münaqişənin qarşısını almaq strategiyalarının sistemli layihələrinə faydalı surətdə birləşdirilə bilər. Bu, ümidvericidir, xüsusən də ona görə ki, riski qəbul etməməyin şəraitin, eləcə də rəhbərin fərdi xüsusiyyətlərində yerini müəyyən edir. Rəhbərlərin problemləri çərçivələməni önə çəkməsi, onların şəxsiyyəti olduğundan artıq, seçimin şəraitlə müəyyən edilən amillərini isə aşağı qiymətləndirməyə meylli olmaları, fundamental aid etmə səhvinin gözlənilən nəticələrini tamamlayır.

İdraki psixologiya laboratoriyada yaradılmışdır. Qabaqcadan formalaşmış rəylər və evristikalar yüksək dərəcədə idarə edilə bilən mühitdə aparılan təcrübələrin gedişində kəşf edilmişdir, lakin laboratoriya gerçək aləmdən bir sıra əhəmiyyətli fərqlərə malikdir. Bu, laboratoriyada sınaqdan keçirilmiş anlayışların təbii şəraitə daşına və işlək edilə bilib-bilməyəcəyi barədə mühüm suallar qaldırır.

Aid etmə (ayağına yazma) tədqiqatları adətən subyektlərin hadisənin niyə baş verdiyini açıq müəyyən etməyini tələb edir, hərçənd ki, hadisələrin çoxu konkret səbəbiyyət sualları olmadan baş verir. Problemin strukturlaşdırılmasının və sövdələşmələrin müəyyən edilməsinin belə aşkarlanması prosesi tədqiqatların nəticələrini müntəzəm olaraq qarışdıra bilər. Bundan başqa,nəzər nöqtəsi nəzəriyyəsi təcrübələrinin çoxunda baxılması istənilən məsələlərin mövzuları ümumiyyətlə trivial (öz-özünə aşkar) və yüksək dərəcədə strukturlaşmışdır. Habelə, onlar subyektlərin güman ki, laboratoriyadan kənarda yerinə yetirdikləri məsələlər və mühakimələrləəlaqəli deyil. Bundan fərqli olaraq, siyasi rəhbərlərin xarici siyasət məsələləri barəsində apardıqları mühakimələr çox vaxt qarşılıqlı əlaqəli, mühüm və yüksək dəyərli məsələlərlə bağlı olur. İnsanların verəcəkləri qərarın əhəmiyyətli olmasına inamı məlumatı toplamaq və qiymətləndirməkdə, eləcə də qərar qəbul etmə qaydalarını seçməkdə onların daha diqqətli olmasına təsir edə bilər. Lakin bəzi idraki psixoloqlar mühüm mühakimələrin daha aşkar və aydın ifadə edilmiş idraki prosesin qəbul edilməsini həvəsləndirə biləcəyi barədə fərziyyəni mübahisəli hesab edir. Onlar bildirirlər ki, laboratoriya prosedurları çox vaxt məntiqi çıxarılmış uğursuzluqların ölçülərini olduğundan aşağı qiymətləndirməklə nəticələnir.

Qabaqcadan formalaşmış rəylər xarici siyasət qərarları qəbul edilərkən laboratoriya şəraitindəkindən daha az əhəmiyyətə malik ola bilər, çünki xarici siyasət qərarlarını verənləri əhatə edən kəsilməz mühit onları müəyyən əks-əlaqə ilə təmin edir, bu isə çox vaxt onlara qərar verilməsinə tədriclə yanaşmaq, keçmiş səhvləri müntəzəm olaraq düzəltmək imkanı verir. Qərar qəbul edənlər rəqib düşərgələrdən vaxtlı-vaxtında əks reaksiya aldıqda dəyişikliklər ən ehtimallı olur. Yuxarıda qeyd etdiyim kimi, bu növ strukturlaşmış ətraf mühit və əlüstü əks-əlaqə oyuna yüksək dəyərlərin qoyulduğu halda, yüksək dəyərli beynəlxalq münaqişəyə xas olan mürəkkəb və qeyri-müəyyən mühit şəraitində az ehtimallıdır. Mənim arqumentlərim göstərir ki, bütün başqa şərtlərin eyni olduğu halda, sistemli psixoloci sapmalar yüksək dəyərli beynəlxalq münaqişənin izahında ehtimal ki, daha mühüm olacaqdır.

Sosial və siyasi şərait də sapmaların minimuma endirilməsinə işləyə bilər. Məsələn, nəzarət edilən siyasi sistemlər daha açıq olmağa başladıqda, rəhbərlər başqalarının məramları və onlar üçün məqbul olan seçim diapazonu haqqında daha çox şey öyrənə bilərlər, və deməli öz nəzər nöqtələrini dəyişə bilər və dəyişikliyin izah edilməsində

digərlərinin atributlarına daha böyük çəki verə bilər. Bir daha təkrar edək ki, *ceteris paribus,* demokratik, çoxrəyli siyasi sistemlərin bu növ sapmaları yumşaldacağı ehtimalı ən böyükdür.

## §2. KOLLEKTİV SEÇİMİN İDEOLOJİ VƏ PSİXOLOJİ ASPEKTLƏRİ

Sosial psixologiya kiçik qrupların dinamikasını təhlil etmək vasitəsilə, müəyyən şərtlər daxilində, beynəlxalq münaqişələrlə əlaqədar mühüm qərarların qəbulunun izah edilməsinə yardım göstərir. Bu növ izahlar problemlərin pis strukturlaşmış, siyasət qurmaq prosesinin başında hansısa kiçik bir qrupun olduğu, və ya siyasətin bir neçə qrupun qarşılıqlı təsiri nəticəsində qurulduğu halda faydalıdır.

Xüsusilə maraqlı olan qrupların qərar qəbul edilməli problemin kollektiv təqdimatına (mənzərəsinə) necə gəlib çıxmasıdır. Qruplar problemin hamı tərəfindən bölüşdürülən (ümumi) təqdimatını qurmaq üçün kollektiv müzakirənin fərqləri minimallaşdırmağa, alternativlərin üstün və çatışmayan cəhətlərini ümumi təhlil etməyə xidmət göstərən «sadəcə münasibliyə» meyl edə bilər. Məsələn, onlar bunu «qabaqlayıcı razılaşma» prosesi – siyasi və inzibati tabeçilikdə aşağı səviyyədə olanların problemin yüksək səviyyəli qərar qəbul edənlərin gerçək və ya ehtimal edilən təsəvvürlərinə uyğun təqdimatını qəbul etmək meyli vasitəsilə edə bilər. Onlar bunu qrupun həmrəyliyini qorumaq və qrupun əlaqəliliyini maksimallaşdırmaq üçün də edə bilər.

Bu növ kollektiv qərar qəbul edilməsinin baş verməsi siyasət quranlar özlərini təhdid və gərginlik altında hiss etdikləri vaxt xüsusilə ehtimallıdır. Bu, siyasətin qurulmasında problemin alternativ təqdimatlarına qeyri – adekvat diqqət, məlumat üçün çox qısa axtarışın aparılması və uyğun gəlməyən məlumatın dəyərdən salınması kimi patologiyalar doğurur. Uyğunlaşmaq üçün daxilində göstərilən təzyiqlər onların problemlərin fərqləndirilən təqdimatlarını hazırlamaq, dəyərlərhaqqında mübahisə aparmaq və münaqişəni çözmək qabiliyyətini azaldır. Gerçək dünyanın siyasət qurmaq sistemində əsas izahedici dəyişənləri işçi hala gətirmək və ölçmək çox vaxt çətin olsada, fərqli siyasi və mədəni sistemlərdə, müxtəlif böhran hallarında qərar qəbul edilməsi kontekstləri üçün gözlənilən «xarab» proseslər geniş sənədləşdirilmişdir.

Uyğunlaşmaq istiqamətində bu cür meyllər heç də bütün qruplarda baş vermir. Əsas fərqləndirici amil, xüsusilə də qərar qəbul edilməsinin ilk mərhələlərində, rəhbərlərin problemin alternativ təqdimatları haqqında mübahisəyə yardım edən norma və proseslərin yaradılmasına fəal müdaxilə edib-etməməsi, daha ümumi halda isə, fərqli düşüncəyə dözümlüyünü göstərib – göstərməməsidir. Götür-qoy etmə və əsaslandırma mədəniyyəti

yalnız rəhbərlər mübahisə və fərqləndirməyə fəal kömək etdikdə çiçəklənir. Ümumiyyətlə tarazlaşdırılmış tənqidi məşvərəti hesabatlılıq normalarına vurğu edən demokratik mədəniyyətlərdə tapılması daha ehtimallı olan daha açıq çoxrəyli və qolaylaşdırıcı rəhbərlik stili ilə əlaqələndirməyə meyl edilir. Bu növ məşvərətlərin baş verməsi qrupun üzvləri arasında güc və siyasət qurma ehtiyatlarının (resurslarının) təqribi tarazlığı mövcud olduqda xüsusilə ehtimallıdır. Məlusatı əldə etmə və onu idarə etmə təqribi də olsa bərabər paylanmışsa, qrup üzvlüyü artıq bircinsdən çox qeyri-bircinsdir və ekspertiza (yoxlama) bir və ya iki üzvün inhisarında deyil, və uyğunlaşmaq üçün təzyiqlər daha az ehtimallıdır.

Beynəlxalq münaqişələr təkcə dövlətlər və onların rəhbərləri arasında toqquşma deyil, həm də, getdikcə daha çox, etnik qruplar arasındakı beynəlxalq sərhədləri keçən zorakılıq nəticəsində artır. Keçən onillik ərzində vətəndaş müharibələrində dövlətlərarası müharibələrindən qat-qat çox adam qırılmışdır və məhz vətəndaş müharibələri münaqişələrin həlli uğrunda mübarizə aparan beynəlxalq təsisatlar qarşısında böyük problemlər qoymuşdur. Sosial psixologiya qruplar arasında münaqişələrin dinamikasına, münaqişənin idarə edilməsi, azaldılması və həll edilməsi proseslərinə müraciət edir. O, münaqişənin həlledici məzmunu kimi, bir araya sığmayan qrup mənsubiyyətlərinə xüsusi diqqət yetirir.

Güclü münaqişələrə, əhəmiyyətli təsirə malik amil kimi, qruplararası fərqlərin və bir araya sığmayan qrup mənsubiyyətlərinin vacibliyini beynəlxalq əlaqələrdə, iki mühüm tədqiqatçılar qrupu şübhə altına alır. Münaqişənin struktur izahları ətraf mühitin və davranışın əlamətləri arasında vasitəçilik edən proseslərə ümumiyyətlə az diqqət yetirir. Diqqəti qıt ehtiyatlar və ya düzlənmə istiqamətlərində dəyişikliklər uğrunda rəqabət üzərində cəmləyən realist izahlar hesab edirlər ki, münaqişə iştirakçı qrupların kollektiv mənsubiyyətlərindən asılı olmayaraq izah edilə bilər. Onlar kollektiv mənsubiyyətə törəmə (efifenomenal) amil kimi baxırlar.

İkinci alimlər qrupu rasional seçim modellərindən zorakılığa əl atmağı gələcək haqqında kollektiv əndişələrə optimal cavab kimi izah etmək üçün istifadə edir. Qrup öz təhlükəsizliyi üçün qorxmağa başladığından, məlumat çatışmamazlığı və gözlənilən öhdəlik problemləri ilə gücləndirilən strateci dilemmalar meydana çıxır və münaqişə siyasi işbazlar tərəfindən yanacaqla təmin edilərək (qızışdırılaraq) zorakılığa keçir. Zorakılıq qorxu tərəfindən yanacaqla təmin edilən strateci dilemmalara verilən rasional reaksiyaya çevrilir. Burada rasional seçim izahları psixoloci izahlarla bir araya sığandır, çünki onlar qorxunu zorakılığa çevirən müdaxilə mexanizmini qurur. Məsələn, Lake və Rothchild bildirirdilər ki, etnik fəallar (aktivistlər), öz növbəsində siyasi yaddaşla və pis hadisələrlə gücləndirilən, kollektiv təhlükəsizlik üçün qorxu hissindən bilərəkdən istifadə edirlər.

Sosial psixologiya zorakılıq üçün münbit əsas yaradan kollektiv əndişənin mənşəyi və çıxmaq mexanizmlərinə müraciət edir. Sosial psixologiyadan, mədəni (kultural) antropologiyadan, beynəlxalq əlaqələrdən və müqayisəli siyasətdən gələn kəsişən dəlillər axını işarə edir ki, düşmənçilik məramları haqqında möhkəm və təsdiq edilmiş dəlillərin olmadığı halda belə, fərdlər və qruplar, düşmən obrazını kollektiv mənsubiyyətlərinin bir hissəsi kimi formalaşdırmaq və saxlamaqda maraqlıdır.

Düşmən obrazı mənsubiyyətə ehtiyacın və qrup davranışının dinamikasının məhsulu ola bilər. Sosial psixoloqlar insanların mənsubiyyətə – şəxsin var olduğu və ya özgələri tərəfindən tanınmağa ümid etdiyi yola əzəli ehtiyacı olduğunu müəyyən etmişlər; bu özgələrlə münasibətdə özüm (özümünkü) anlayışıdır. Fərdi mənsubiyyətin bir mühüm toplananı sosial mənsubiyyət və ya fərdin öz anlayışının sosial qrup və ya qruplarda üzv olmasını (bu üzvlüyün ayağına yazılmış dəyərlərlə birlikdə) bilməsindən çıxan hissəsidir. Sosial psixoloqlar fərz edirlər ki, insanlar özünü qrupa aid etməklə müsbət öz mənsubiyyətə, statusa və ya qeyri-müəyyənliyi azaltmağa olan ehtiyaclarını ödəyirlər. Bu ehtiyac «qrup daxilinin» himayə edilməsi və onun «qrupdan kənarda» əlverişli (üstünlük verən) müqayisəsinə gətirir. Qrupda üzvlük müntəzəm müqayisə və fərqləndirməyə, çox vaxt isə başqa qrupların aşağı qiymətləndirilməsinə gətirir.

Sosial psixoloqların ən heyrətləndirici tapıntısı münaqişə üçün maddi əsas olmadığı halda belə sosial bölünmənin baş verməsidir. Qıtlıq və qazancın mübahisə obyekti olmadığı halda belə, kollektiv, eləcə də fərdi mənsubiyyətə olan bu ehtiyac insanları «biz» və «onları» ayırmağa, «daxililər» və «xaricilər» arasında fərq qoymağa gətirir. Qrup mənsubiyyətini yaratmaq və ya müdafiə etmək cəhdlərində qruplar və onların rəhbərləri özlərinin fərqli xassələrini ləyaqət (məziyyət) adlandırır, özgələrinkinə isə qüsur (çatışmamazlıq) yarlığı vururlar. Bu növ «yarlıqlama» dərin sosial-psixoloci tələbata cavab verir və düşmən stereotiplərinin yaradılmasına gətirə bilir. Məsələn, qrupun yox olmasına gətirən kütləvi dövlət repressiyalarının tədqiqi belə bir nəticəyə gətirir ki, soyqırım və siyasi qırımlar (politisidlər) bir «mənsubiyyət qrupunun» öz təhlükəsizliyini digər qrupların hesabına təmin etmək üçün etdiyi ifrat cəhdlərdir.

Etnosentrizm qrup mədəniyyəti üçün mərkəzi olan əfsanələri işə cəlb edir və özgələrinin məramları barəsində stereotiplər və yersiz şübhələri bəsləyir. Lakin öz qrupun mərkəzi və üstün olması haqqında güclü hisslər mütləq ifrat kənar və ya zorakı davranışla yekunlaşmır. Həlledici dəyişənlər qrupların öz ehtiyaclarını ödəməyə səy göstərdikləri mühitin növləri və onların yaratdıqları və qəbul etdikləri normalardır. Beynəlxalq və daxili şəraitin müəyyən növləri kollektiv düşmən obrazının formalaşmasına kömək edir.

Sosial mənsubiyyət və bölünmə mütləq zorakı münaqişəyə gətirmir. Bu belə olmasaydı münaqişələr həmişə, bütün şəraitlərdə baş verərdi. Əvvəldə şəxsi və sosial mənsubiyyətlər çox vaxt bir-biri ilə gərgin münasibətdə olur.

Özünün qrupa mənsubiyyətini gücləndirməklə insanlar istər-istəməz özlərinin fərdi mənsubiyyətini zəiflədir, güclü fərdi mənsubiyyət hissinə malik olanlar özlərinin qrup mənsubiyyətinə daha az əhəmiyyət verir. Məsələn, insan haqları fəalları ənənəvi olaraq hansısa konkret qrupa deyil, daha çox fərdi mənsubiyyət hissinə mənsubluğu ilə fərqləndirilirlər. İkincisi, ümumiyyətlə insanlar müxtəlif qruplara mənsub olur, ənənəvi olaraqsa verilən şəraitdə aidiyyətinin əhəmiyyətli olduğu qrupa mənsub olduğunu bildirir. Hansı qrup mənsubiyyətinin fəal olacağı konkret şəraitdən asılıdır.

Əsas sual hansı şəraitdə mənsubiyyət və güclü münaqişənin bir-biri ilə bağlı olmasıdır. Niyə müəyyən qruplar arasındakı münasibətlər digərləri arasındakından qat-qat rəqabətli və zorakıdır. Hutu və Tutsi-lər 1962-ci ildən bu yana altı dəfə münaqişə etmişlər, Kvebeklilər və Anqlofonlar (ingilis dillilər) isə aralarındakı mühüm və dərin fərqlərə baxmayaraq, iki yüz ildir ki, bir-biri ilə vuruşmuşlar. Bundan başqa, Kvebeklilərin əhəmiyyətli hissəsi, Kanadaya güclü və müsbət mənsubiyyət də daxil olmaqla, çoxqat mənsubiyyəti bölüşdürür. Güclü qrup mənsubiyyətinin zorakı münaqişəni yalnız bəzi vəziyyətlərdə sürətləndirilməsini nə ilə izah etmək olar?

Cavab qismən vətəndaşların münaqişənin həlli normalarını mənimsədiyi demokratik çoxrəyli sistemlərin sabitliyində ola bilər. Keçmiş Yuqoslaviyadan sonrakı dövlətlərdən fərqli olaraq, Kanada sabit demokratik sistemdir. Lakin sabit demokratik sistemlər belə zorakı münaqişələri dadmışlar. Çox şey mənsubiyyətin dəyişə bilənliyindən asılı olur. Sosial mənsubiyyət əvvəlcədən verilmiş deyil; sosial tədqiqat nəzəriyyəçiləri və konstruktivistlər bildirirlər ki, o, qrupda üzvlük və digərləri ilə qarşılıqlı təsir vasitəsilə inşa edilmişdir. Mənsubiyyətin formalaşması və inikası modelləri həlledicidir. Mənsubiyyət mənbələri və ya mənsubiyyətlərin özü bir araya sığan olduqda münaqişə yaranmır. Fərdin seçdiyi mənsubiyyət digərlərinin ona yazdığı ilə və ya mənsubiyyətin daim yeniləşdiyi sosial kontekstlə bir araya sığmadıqda münaqişə inkişaf edə bilər. Məsələn, Bosniya – Hersoqovinada yaşayan müsəlmanlar, serb və xorvat mənsubiyyətlərinin müsəlmanları istisna etməklə formalaşdırılmağa başlandığı 1970-ci illərə qədər özlərini serblərə və ya xorvatlara mənsub edirdilər. Yalnız bundan sonra onlar özlərini fərqli siyasi mənsubiyyətə malik Bosniya müsəlmanları kimi müəyyən etməyə başladılar. Lakin bu halda belə, bir araya sığmayan siyasi mənsubiyyətlər zorakı münaqişə yaratmaq üçün kifayət olmaya bilər. Yenidən Kanada nümunəsinə qayıdaq; bəzi Kvebeklilər kvebekli və kanadalı mənsubiyyətləri arasında fundamental fərq görürlər, lakin hesab etmirlər ki, gücə əl atmaq olar. Ona görə ki, onlar ədalətlilik normalarına və uyğun proseslərə sadiqdirlər və güman

edirlər ki, onların sədaqəti İngilis Kanadasındakı həmkarları tərəfindən qiymətləndiriləcəkdir.

Mənsubiyyəti kəskinləşdirən və zorakı münaqişə üçün münbit şərait hazırlayan bəzi mühüm şərtlər müəyyənləşdirilmişdir. Birinci amillər dəsti qruplar arasında bir araya sığmayan mənsubiyyətlər çərçivəsində fəaliyyət göstərir, ikincisi isə qruplar üçün daxildir. Etnik və ya milli mənsubiyyətlər qeyri-müəyyənliyin artdığı, bir qrupu digərindən müdafiə edən qüvvədə olan mexanizmlərin etibardan düşdüyü sosial, iqtisadi və ya siyasi böhranlar zamanı güclənir. Sosial – iqtisadi və ya siyasi böhran kontekstində mərkəzi hakimiyyət zəiflədiyindən, fiziki təhlükəsizlik üçün əndişələr artırır, qruplar özlərini müdafiə etmək tədbirlərinə kapital qoyur və qorduqları zorakılığı daha da ehtimallı edir. Dövlətin zəiflədiyi onun bir qrupu digərinin gözlənilən zorakılığından qorumaq qabiliyyətinin azalmasının hiss edilməsi bir araya sığmayan mənsubiyyətlərə malik qruplar arasında zorakılığın ən mühüm çaxmaqlarındandır.

Mənsubiyyətlərin münaqişəsi çox vaxt dövlətə sahib olmaq və onun ehtiyatlarını idarə etmək uğrunda rəqabətdir. Dövlət bundan yüksəkdə dayana, münaqişədə vasitəçilik edə bilər, məsələn, Belçikada olduğu kimi, müxtəlif qruplara təmsilçilik hüququ verə bilər və ya Hausa Fulani-nin hərbi reciminin hakim olduğu Nigeriyadakı kimi bir müstəsna qrupun törəməsi və aləti ola bilər. Dövlətin mənsubiyyətinin, rəmzlərinin və ehtiyatlarının bir qrup tərəfindən digər qrupu istisna etmək üçün inhisara alınması zorakılığın daha ehtimallı olmasının güclü proqnozçusudur.

Qıtlıq şəraitində münaqişə qruplar arasında zorakılığa gətirə bilər. Bəzi dəlillər göstərir ki, mədəni və fiziki mənada oxşar qruplar qıt ehtiyatlar uğrunda rəqabət səbəbindən bir-biri ilə düşmənçilik apara və bir-birinə təcavüz edə bilər. Mülki zorakılığın bəzi təhlilləri də belə nəticəyə gətirir ki, nisbi məhrumiyyət kollektiv zorakılığın iştirakçıları üçün çox mühüm amildir. Maddi gözləntilər və aktivlər arasında fərq artdıqca nisbi məhrumiyyətlərin səbəbi hesab edilənlərə qarşı aqressiya artır və intensivləşir. Dövlət vacib ehtiyatların paylanmasını fəal idarə etdikdə qıt ehtiyatlar uğrunda rəqabət güclənir. Məsələn, keçmiş Yuqoslaviyada Sloveniyalılar və Xorvatiyalılar ehtiyatların mərkəzi hökumət tərəfindən daha kasıb regionlara paylanması məsələsindən möhkəm narazı idi. Qruplar qıt ehtiyatlar uğrunda rəqabəti onların azalması şəraitində apararkən itkilərin qarşısının alınması hərəkətinin ehtimalı güclənir: nəzər nöqtəsi nəzəriyyəsi güman edir ki, gözləntilərin sabit qaldığı, lakin imkanların zəiflədiyi vəziyyətdə öz aktivlərinin azalmasını və ya «itkiləri» hiss edən insanların riskli seçim etmələri daha ehtimallıdır. Hərçənd ki, çexlər və slovaklar qıt ehtiyatlar uğrunda zorakılığa əl atmadan rəqabət apardılar və aktivləri bölüşdürdülər. Rəqabətin kəskinləşmiş variantları olan ehtiyatlar uğrunda

rəqabət və nisbi məhrumiyyət fərqli və rəqabət aparan mənsubiyyətlər arasında zorakılığı məqbul formada izah edə bilmir.

Qrup üzvləri digərlərinin mənsubiyyətlərinin tanınmasının onların öz mənsubiyyətinin gözdən salınmasına gətirdiyini hesab etdikdə, digərlərinə hüquqların verilməsinin öz mənsubiyyətlərinin səlahiyyətdən düşməsi kimi qəbul etdikdə və digər qrupun onların hesabına qazanc əldə etmək üçün üstün imkanlar əldə edəcəyindən qorxduğu halda mənsubiyyətlərin münaqişəsinin zorakılığa gətirəcəyi daha ehtimallıdır.

Öz tarixinin əsas hissəsi ərzində İsrail-Fələstin münaqişəsi bu növ ekzistensial münaqişələrə aid olmuşdur; hər iki mənsubiyyət eyni bir əraziyə bağlı olduğundan, hər iki tərəfin rəhbərləri uzun müddət digərinin mənsubiyyətinin tanınmasını öz mənsubiyyətinin köklü surətdə hörmətdən salınması kimi qəbul etmişdi məsələn, bu və ya digər qrup ərazini tutmaq və mübahisəli ərazidə öz mövcudluğunu qurmaq istədikdə bu zorakılıqla nəticələnmişdir. Dövlət bir qrupun qabaqlayıcı tədbirinin qarşısını almaq üçün zəif olduqda və ya bunu etməyə meylli olmadıqda digər qrup daha əndişəli olmağa başlayır, mövcud təsisatı qurumlara etimadını itirir, etnik rəqibinin düşmən obrazını daha da dərinləşdirir və zorakılığa hazırlaşır. 2000-ci ildə Fələstinlilər və İsraillilər arasında intensiv zorakılıq danışıqların uğursuzluğundan sonra deyil, Fələstin rəhbərlərinin İsrailin Şərqi Qüdsdəki müqəddəs yerlər üzərində suverenliyini əhəmiyyətli dərəcədə təsdiq etdirdiyini hiss edəndən sonra başladı. Onlar itki hissi ilə heç vaxt barışmamışdılar. İsrailin mövqeyi isə Fələstinlilərin itki hissini gücləndirirdi.

Etnik qrupların rəhbərləri öz qrupları daxilində mövqelərini möhkəmlətmək üçün qrup əndişələrini idarə edirlər. Öz etnik qrupu ilə birgə seçilməyə güclü ehtiyacı olan etnik fəallar cəld və birbaşa sosial polyarlaşma prosesləri yaratmaq üçün mənsubiyyət və əndişələrdən sui-istifadə edir ki, bu da qruplar arasında düşmənçilik və əndişəni gücləndirir. Polyarlaşma davam etdikcə etnik qrupun üzvləri yalnız öz etnik qrupuna mənsubiyyəti göstərməsi və digərləri ilə qarşılıqlı əlaqələri kəsməsi üçün öz rəhbərləri tərəfindən təsirə və rəqib qrupda düşmənçiliyin əks təsir kimi intensivləşməsinə məruz qalır. Məsələn, keçmiş Yuqoslaviyada Xorvatlar və Serblər arasında yüksək sosial inteqrasiyaya baxmayaraq, etnik fəallar ailələri parçalamaq və üzvləri özlərini yalnız bir qrupla eyniləşdirməyə məcbur edən prosesi başlamağa qabil olmuşlar. Siyasi qazanc imkanları axtaran «siyasi işbazlar» öz siyasi məqsədələrinə çatmaq üçün bənzər proseslərdəki sosial qütbləşmə prosesinin yaratdığı üstünlüklərdən istifadə edə bilər. Onlar etnik fərqləri kəskinləşdirmək, incikliyi və əndişəni artırmaq üçün tarixi faktlara və ənənələrə bilərəkdən yeni yozum verirlər. Slobodan Miloşeviç həm etnik fəal, həm də siyasi işbaz idi: Titonun ölümündən sonra Yuqoslaviyanın dövlət strukturu zəiflədikdə o, Serblərin siyasi hakimiyyətini gücləndirmək

üçün müqəddimə kimi Xorvatiya serblərinə qarşı Xorvatların zorakılığını və Kosovoda Müsəlmanların Serbiyaya təhdidini şişirtmişdi.

«Qarətçilər» və davakar etnik fəallar da, etnik parçalanmanı yumşalda biləcək siyasi tədbirlər ehtimalı artan kimi, sosial qutbləşməni alovlandırırdılar.

Mülayim Hutu və Tutsi-lər Ruandada siyasi rəhbərlik barəsində yeni tədbirlər haqqında ağrılı kompromis əldə etdikdən sonra, silahlı Hutu-lar özlərinin siyasi hakimiyyətdən uzaqlaşdırılmalarının və təcrid edilmələrinin qarşısını almaq üçün, bilərəkdən mülayim Hutu rəhbərliyinin öldürülməsi və Tutsilərə qarşı soyqırıma bənzər zorakılıq kampaniyasını planlaşdırmışdılar. Ruanda soyqırımı tez-tez səhvən qıt ehtiyatlar uğrunda rəqabətin nəticəsi və ya dövlət strukturlarının zəifləməsi , ya da iki üstün etnik qrup arasında əzəli rəqabət kimi izah edilir. Bunlardan heç biri soyqırıma bənzər zorakılığın qızışması üçün kafi izah deyil. Silahlıların təcrid olunmaqdan və qütbləşməni zəiflədə biləcək təsisatı tədbirlər nəticəsində itirəcəklərindən qorxan rəhbərləri aşağı siyasi statusu qəbul etməkdənsə özgələrini öldürməyi üstün tutmuşdular. Onlar uzun müddət davam edən etnik əndişələrdən peşəkarcasına istifadə etdiklərindən soyqırım tədbirlərinin himayə edilməsini təşkil edə bilmişdilər.

Daxıldə himayəsi qeyri-müəyyən və ya təhdid altında olan işbaz liderlər və ya elita siyasi loyallığı saxlamaq üçün mənsubiyyətlərlə oynaya bilər. İnsan hüquqlarının aparıcı qeyri-hökumət müşahidəçisi belə nəticəyə gəlmişdir ki, «zaman-zaman zorakılığın ən yaxın səbəbi hökumətinicma fərqlərini istismar etməsidir… Məsələn, «icma kartı» çox vaxt hökumət populyarlığını və ya legitimliyini itirdikdə və özünü etnik, irqi və ya dini ritorika örtüyünə bürüməyi münasib saydığı zaman oynanılır»

Militarist və ya imperialist siyasətlərdən fayda götürən məhdud qrupla, xalqın himayəsini qazanmaq üçün strateci rasionallaşdırmalar və ya «əfsanələr» yaradır. Zaman keçdikcə elitanın müəyyən hissəsi öyrəndikləri əfsanələrə inanmağa başlayır ki, bu da həmin təsəvvürləri dəyişikliyə qarşı son dərəcə müqavimətli edir bir yerə toplanmış maraq qrupları sövdələşdikdə və bir-birini tərifədikdə düşmən obrazlarını əbədiləşdirən əfsanə yaratmaq prosesi daha ehtimallı olur. Mənsubiyyət əfsanələrinin qabarıqlığı və intensivliyi etnik münasibətlərin qavranılmış oyuna qoyulan (stavkası) ilə möhkəm əlaqəlidir. Gözləntilər və imkanlar arsındakı məsafə nə qədər böyükdürsə, azalmış imkanların təhlükə altına qoyduğu dəyərlər nə qədər əhəmiyyətlidirsə və aktivlərin itirilməsini tarazlaşdıra bilən digər güzəştlərin diapazonu qədər kiçikdirsə, əhali elitanın oynatmağa çalışdığı mənsubiyyətlərə o dərəcədə həssas olur.

Daxili siyasi şəraitdəki müxtəlifliklər əhalinin müəyyən növünü elitanın oyunlarına digərlərindən daha həssas edir. İdarə edilən siyasi recimlərdə rabitə vasitələrinə nəzarət edən rəhbərlər və elita mənsubiyyət və kütləvi təsəvvürləri daha asan idarə edə bilər.

Düşmən obrazının yaradılmasına təkcə recimin növü deyil, cəmiyyətin təşkili də öz payını verir. Düşmən obrazının saxlanmasına kifayət qədər yardım etməsi və zorakı münaqişəyə getməsi ehtimallı olan dərindən bölünmüş cəmiyyətin əlaməti mənsubiyyət əsasında təşkil olunmuş və cəmiyyətin hər sahəsinə nüfuz etmiş ayrıca strukturların olmasıdır. Məsələn, Livanda siyasi idarəçilik mərkəzdən yerlərə ənənəvi olaraq dini mənsubiyyət əsasında paylanmışdır. Belə cəmiyyətlərdə etnik stereotiplərin və düşmən obrazlarının yaradılması və saxlanması çox asan olur.

Bu təhlil təklif edir ki, fərqlənən mənsubiyyətlər öz-özlüyündə zorakı münaqişənin səbəbi deyil. Bir-biri ilə uyğun gəlməyən mənsubiyyətlərin mövcud olduğu halda belə, zorakılıq rəhbərlərin ya dövlətin ehtiyatlarını öz cəmiyyətinin daxilindəki başqa qrupların ziyanına olaraq inhisara almaq, ya da cəmiyyətdən kənardakılara qarşı iddialar irəli sürmək yoluyla qızışdırılan təcridedici fəaliyyəti nəticəsində ehtimallı olur. Rəhbərlər və elita siyasi mənsubiyyətə təhdid görüntüsü yaradırlar ki, bu da stereotiplərin yaradılmasına təhrik edir və zorakılığa öz payını verir.

## §3. MÜNAQİŞƏNİN NİZAMLANMASINDA İDEOLOJİ AMİLLƏR

Münaqişənin azaldılması və həll edilməsi üçün onun yaratdığı düşmən obrazı dəyişdirilməlidir. Dövlətlərarası münaqişələr elitada formalaşmış obrazlarda ictimaiyyətdə formalaşmış obrazlardan daha kiçik dəyişikliklər edilməklə idarə edilmiş və tənzimlənmişdir, lakin davam edən vətəndaş münaqişəsi və ya amansız dövlətlərarası münaqişə obrazlar dəyişənə, rəhbərlər və ictimaiyyət dərs götürənə qədər həll edilə bilməz. Həm də bu proses qarşılıqlı olmalıdır. Rəhbərlər və qruplar öz rəqibləri barəsində təsəvvürlərini dəyişməyə başladıqda və münaqişəni həll etmək üçün səylərdə maraqlı olduqda, münaqişənin zəifləməsində müəyyən irəliləyiş yaratmaq üçün rəqibdə özləri barəsində olan təsəvvürləri də dəyişməlidirlər.

Yalnız rəqabət aparan maraqlar üzərində cəmlənən münaqişəni çözmək strategiyaları ehtimal ki, düşmən obrazının və mənsubiyyət münaqişəsinin dəyişməsi üçün fundamental olan öyrənmə prosesini təhrik edə bilməyəcəkdir. Həm uzunmüddətli dövlətlərarası, həm də amansız etnik münaqişədə maraqlar obrazlar və inamlarla, bunlar isə öz növbəsində qismən mənsubiyyətlə formalaşdırılır. Bizim təhdid kimi gördüyümüz şey, böyük dərəcədə, bizim dünyaya baxmaq və özümüzün kim olduğunu düşünmək üsulumuzun funksiyasıdır.

Əgər təhdid altında olan mənsubiyyətlər düşmən obrazının yaradılmasını və münaqişənin güclənməsini asanlaşdırırsa, bu mənsubiyyətlərin təhlükəsizliyinin təmin

edilməsi münaqişənin həllinin fundamental toplananı olmalıdır. Amansız vətəndaş müharibələrinə və ya dövlətlərin uzunmüddətli rəqabətinə qarşı dayanan sülh yaradıcıları səmərəli olmaq istəyirlərsə, maraqlara təsəvvürlərin və mənsubiyyətlərin daha geniş kontekstində müraciət etməlidirlər. Keçmiş yuqoslaviyada münaqişə, ən yaxşı, tədriclə ərazilərin bölüşdürülməsi və orada yaşayanların təhlükəsizliyinin təmin edilməsi yoluyla həll edilə bilərdi. Münaqişə yalnız tərəflər digər mənsubiyyətlərin legitimliyini və daimlyini tanıyıcağı halda həll edilə bilərdi. Prezident Sədatın İsrailin legitimliyini tanıması İsrail və qonşuları arasında gedən çətin sülh prosesinin qıfılını həlledici açar oldu.

Dövlətlərarası münaqişələrdə legitimliyin qarşılıqlı tanınması və gücdən istifadə edilməsindən imtina edilməsi təhdid altında olan mənsubiyyətlərin təhlükəsizliyini bilavasitə təmin edə və təsəvvürləri yenidən formalaşdıra bilər. Vətəndaş münaqişələrini qismən də, toqquşan mənsubiyyətlərin yaxınlığı və əndişə və hisslərin güclü olması səbəbindən həll etmək daha çətin ola bilər.

Qəlpələnmiş dövlətlər siyasi parçalanma və rəqabət aparan mənsubiyyətlərin bir-birini qarşılıqlı tanıması yolu ilə elitanın rəhbərlərinin uyğunlaşdığı qrupların isə konstitusiya təminatları ilə ayrı qaldığı «yoldaşçılıq – consociational» və ya qruplardan ibarət inşa blokları yanaşması, ya da çarpaz bağlara malik çox etnoslu ittifaqlar yaradılmasına çalışılan birləşdirici yanaşma vasitəsilə bərpa oluna bilər.

Bir-birini qarşılıqlı tanıma və siyasi ayrılma münaqişənin zəiflədilməsinin ən uzağa gedən strategiyasıdır. Onilliklər boyu davam etmiş amansız müharibədən sonra, 1989-cu ildə Livanın dini qruplarının rəhbərləri özlərinin müharibədən əvvəlki icma (konsessional) sövdələşmələrinin təməllərini dəyişdilər. Maronit xristian icmasının hakimliyinin əvəzinə indi müsəlman və xristianlar hakimiyyəti bərabər bölüşdürürdülər. Sövdələşmə maronit xristianlar üçün prezident, sünni müsəlmanlar üçün baş nazir, şiə müsəlmanları üçün Milli Assambleyanın sədri vəzifəsini təmin etməkdə davam edir. Siyasi qərarlar, onların icmaları ayrı-ayrılıqda qalmaqla, zirvədəki rəhbərlər tərəfindən qəbul edilir.

Çarpaz əlaqəli çox etnoslu ittifaqların qurulması daha bir strategiyadır. Bu Bosniya – Hersoqovinanın dini rəhbərlərinin prinsipial tələbi idi. Dayton - da əldə edilmiş razılaşma prinsipcə çox etnoslu Bosniyaya hörmət bəsləyir, lakin bu siyasi çərçivədə Bosniya serblərinin müsəlmanlardan və xorvatlardan *de facto* ayrılmasını təmin edir. Kosovolular (kosovarlar) formal müstəqillikdə, Serbiya isə birləşməkdə təkid etdiyindən Kosovo problemi həllini tapmamış qalır. Bütün bu hallarda münaqişənin zəiflədilməsi tədrici quruculuq prosesində kiçik qarşılıqlı güzəştlər mübadiləsindən daha artıq bir şey tələb edirdi. Həllin kökü çox vaxt yüksək vəzifəli rəhbərlərin müxtəlif mənsubiyyətləri tanımaq, onlara hörmət etmək, onları uyğunlaşdırmaq və siyasi hakimiyyəti bölüşdürmək istiqamətində çətin qərarlar qəbul etməsindən keçir.

Bütün bu strategiyalar fərz edir ki, mənsubiyyət və təsəvvürlər sabitdir və onlar olduğu kimi tanınmalıdır (qəbul edilməlidir). Belə bədbin baxış qəti deyildir. Sosial psixologiya sahəsindəki tədqiqatlar işərə edir ki, fərdi stereotipləşdirmə aradan qaldırıla bilər, lakin zaman-zaman təhsil və sosial proseslər meylləri (qabaqcadan formalaşmış rəyləri) ehtiyatsız olaraq möhkəmlədə bilər. Digərləri bildirirlər ki, mənsubiyyət verilmiş (əzəli) yox, qarşılıqlı təsirlər inkişaf etdikcə və kontekstlər təkamül etdikcə sosial inşa ediləndir. Benedict Anderson müşahidə etmişdir ki, fərdlərin bir-birini tanıdığı ailələr və klanlardan fərqli olaraq, millətlər keçmişi, ənənələri və əlaqələri vaxt keçdikcə yozulan və yenidən yozulan «təsəvvüri (xəyali) icmalardır». Eləcə də, siyasi mənsubiyyətlər ənənələri inşa edilən və yenidən yozulan təsəvvüri icmalardan asılıdır. Deməli, rəhbərlər və icmalar öz münasibətlərini yenidən qurduqları halda mənsubiyyətlər yenidən formalaşa və dəyişə bilər.

Mənsubiyyətlər adətən zəiflərin müdafiə edilməsi, sosial cavabdehlik, alicənablıq, ədalətlilik və qarşılıqlıq, eləcə də hörmət, nüfuz və qisasın daxil olduğu bölüşdürülən (ümumi) icma ənənələri və normalarına vurğu edən toplananlara malik mürəkkəb strukturlardır.

Bu müxtəlif normalara edilən vurğu şəraitdən asılı olaraq dəyişir. Təcrübəli vasitəçilər cavabdehlik, ədalətlilik və şəfqətlilik kimi müsbət dəyərləri şərəf və nüfuzun vacib elementləri kimi qeyd edə bilərlər. Mənsubiyyət ənənəsində «ən yaxşıya» müraciət «təsəvvüri icma» daxilində vurğunun son nəticədə təsəvvürləri dəyişə, maraqları yenidən formalaşdıra bilən, digərlərinin mənsubiyyətinə dözümlülük və onların tanınması ilə nəticələnən ədalətlilik və qarşılıqlıq üçün meydan açılması istiqamətində sürüşməsinə gətirə bilər.

## §4.BEYNƏLXALQ ƏLAQƏLƏRLƏ BAĞLI NƏZƏRİYYƏLƏRİN PSİXOLOJİ ASPEKTLƏRİ VƏ TƏHLİLİ

Rasional seçim normalarından sistemli sapma nümunələrinin verdiyi dəlillər sağlamdır. Dəlillərin çoxu nəzarətdə saxlanılan laboratoriya təcrübələrindən qaynaqlansa da, siyasi psixoloqlar bu nümunələri yüksək dəyərli beynəlxalq münaqişələrdəki hallərin təsisatı tədbirlər və siyasi mədəniyyətlərin geniş diapazonu boyu təhlili əsasında sənədləşdirirlər. Bununla belə, beynəlxalq əlaqələrin hakim nəzəriyyələri hələ də seçim və səbəb (motiv) haqqında çox məhdud fərziyyələrdən istifadə edir: realistlər dövlətləri unitar təhlükəsizlik maksimallaşdırıcıları kimi, liberallar və neoliberal təsisatçılar isə rifahı maksimallaşdıran kimi nəzərdən keçirir. Hər ikisi problemin təqdimatını verilmiş kimi

qəbul edir və həll probleminin konturlarını ödəniş matrisinin əlamətlərindən qurur; bu mənada onlar sondan əvvələ mülahizə yürüdür. Konstruktivistlər seçimin təqdimatını sual altına alır, lakin dövlətə norma yaradıcısı kimi baxırlar. Bu nəzəri konstruksiyalar və psixoloci təhlillər arasındakı nəzəri və empirik fərq çox böyük görünür. Lakin müxtəlif nəzəri yanaşmaların sərhəd şərtləri daha diqqətlə yoxlanılsa, fərqlər göründüyündən daha kiçik ola bilər.

Mərkəzi problem təhlilin iqyas şərtlərini müəyyən etməkdir. Psixoloci alətlər izah etmə gücünü artırmaq və təhlili zənginləşdirmək üçün hansı şəraitdə aparıcı nəzəri yanaşmalarla birlikdə istifadə edilə bilər? Psixoloci təhlillər aparıcı nəzəriyyələrə rəqibdir, yoxsa müəyyən şəraitdə faydalı tamamlayıcı kimi istifadə edilə bilər? Psixoloci yanaşmalar hakim yanaşmaların struktur təhlilinin daxilinə ən yaxşı necə yerləşdirilə bilər.

Realist və liberal yanaşmalar rasional seçimi öz nüvələrinə daxil edir. Psixoloci və yanaşmalar rasional seçim fərqli müqayisəli üstünlüklərə malikdir. Rasional seçim nəzəri baxımdan şıqdırsa, psixoloci yanaşmalar qərar qəbul etmə proseslərinə əyani dəqiqlik verir. Hər birinin müxtəlif çatışmamazlıqları var: indi ən sadə və maraq kəsb etməyən vəziyyətlər istisna edilməklə adamların «rasional aktyorlar» olmaması barədə psixoloci tədqiqatlardan gələn dəlillər sağlam olsa da, psixoloqlar hələ də seçimi izah edən güclü ümumi nəzəriyyə yarada bilməyib. «Məhdud rasionallıq» anlayışlarını qəbul edən rasional seçim nəzəriyyəçiləri idraki psixoloqlarla danışıqlarda daha asan iştirak edə bilərlər.

Rasional seçim dövlətlərarası qarşılıqlı təsirlərin formal təhlili üçün qarşılıqlı əvəz edilə bilən deduktiv aparat kimi təmin edir. Müəyyən hallarda rasional seçim nəzəriyyəçiləri əyani dəqiqliyi qabaqlayır və təkid edirlər ki, modelin proqnozları davranışla müqayisə edildikdə, dövlətlərin unitar rasional aktyorlar kimi nəzərdən keçirilməsi izah etmə və proqnoz vermə qabiliyyətini daha da məhsuldar edir. Rasional seçim nəzəriyyələri strateci qarşılıqlı təsirlərin sadələşdirilmiş mənzərəsi (təqdimatı) vasitəsilə dövlət davranışının, əks halda empirik təfsilatlarla pərdələnə biləcək güclü izahını və proqnozunu təmin etdiklərini iddia edir. Rasional seçim təhlili həll problemləri tipik olaraq hadisələrin yaxşı başa düşülmüş siniflərinin, formal olaraq, çoxlu sayda digər hadisələrin eyni olan nümunələri ilə məşğul olarkən ən uğurludur. Rasional seçim rəqabət aparan bazarların və ya böyük təşkilati sistemlərin təhlilində şıq, güclü və zaman-zaman intuisiyaya zidd izahlar təmin edə bilir.

Lakin beynəlxalq münaqişə nisbətən kiçik ərazidə, az miqdarda baş verir. Ona görə də təhlili çətindir və qərar qəbul edənlərin tarixi keçmişdən problem haqqında xarakterik təsəvvürləri, ehtimal paylanmasını və müxtəlif variantların ölçüləri əsasında dəyərlərin metrikasını çıxara biləcəkləri kifayət miqdarda «bənzər» hallar müəyyən etməsi az ehtimallıdır. Beynəlxalq münaqişə rasional seçim tədqiqatlarının çoxu beynəlxalq

münaqişələrdəki həll probleminin aşkar mürəkkəbliyi və qeyri – müəyyənliyin ilə sadələşdirilmiş mənzərələr strategiyası vasitəsilə məşğul olur. Belə sadələşdirilmiş mənzərələr (təqdimatlar) çox vaxt analitik cəhətdən asan emal ediləndir, bu mənada ki, oyunların tarazlıq hƏlləri, əgər mövcuddursa, davranışın müəyyən proqnozlarına gətirir. Sadələşdirilmiş təqdimat strategiyası fərz edir ki, dövlətlər və ya qrup rəhbərlərinin oyuna qoyulanlar, variantlar, xərclər, qazanclar, ehtimallar və maraqlar, rəqiblərin məqsədləri və məramları barəsində çaşqınlığı və qeyri – müəyyənliyinə baxmayaraq, mücərrədləşdirmə həll probleminin məğzini əhatə edir. Gerçəklik və təqdimat (mənzərə) izomorfdursa bu iddia *prima facie*-dir (ən ehtimallıdır), izomorfluq pozulduqda isə daha az ehtimallı olur. Sadələşdirilmiş təqdimatlar yaxşı strukturlaşdırılmış həll problemlərində faydalı analitik strategiya ola bilərsə də, problemlərin demək olar ki, həmişə pis strukturlaşdırılmış olduğu beynəlxalq münaqişələrin həllində çətin ki, yardımçı olsun.

Pis strukturlaşmış həll problemlərində strateci qarşılıqlı təsirin təqdimatı kimi istifadə ediləcək oyunun seçilməsi (və üstün tərtibli oyunçuların müəyyən edilməsi) təqdimatın bir izah aləti kimi analitik faydalılığını aşağı salan iradi (əsassız) bir razılaşmadır.

İdraki və sosial psixologiya rəhbərlərin bu qeyri – müəyyənlik və mürəkkəbliyi necə rəf etdiyini izah edir. Onlar adətən birqiymətli olmayan vəziyyətləri onlara əhəmiyyətli görünmüş tarixi təcrübə əsasında yozurlar və ya davranışın «tarixin idiosinkretik (xarakterik) dərslərini» əks etdirən baş barmaq qaydasından istifadə edirlər. İdiosinkretik olmalarına baxmayaraq problemin təqdimatına, mühakimə yürüdülməsi və hesablama aparılmasına güclü təsir etdiyindən bunlar rasional seçim təhlilini son dərəcə mürəkkəbləşdirir. Problemin təqdimatı (qoyuluşu) hər bir beynəlxalq münaqişədə mühüm dəyişəndir və ona görə də gerçək dünyadakı həlli problemlərinin rasional seçim nəzəriyyəçilərinin istifadə etdikləri qaydada formal mücərrədləşdirmələrinə bəraət qazandırmaq çətindir. İdraki psixologiyanın anlayışları və üsulları problemin təqdimatını başa düşmək üçün nisbətən daha uyğundur.

Çəkindirmə və kəskinləşmə (eskalasiya) spiralları modelyerləri arasındakı mübahisələrin tədqiqi iki yanaşmanın bir-birini tamamladığını nümayiş etdirir. Mübahisə ən yaxşı miqyas şərtləri problemi kimi formulə edilə bilər. Rasional seçim nəzəriyyəçiləri çəkindirməni qarşılıqlı asılı rasional seçimlər dəsti kimi modelləşdirir və layihələndirdikləri dilemmaları həll etmək üçün intuisiyaya zidd strateci seçimlər müəyyən edirlər. Psixoloci izahlar diqqəti təqdimat, mühakimə, motivasiya (istək) və əndişə problemlərində cəmləyir, rəhbərlərin bir şüurlu idarəçilər kimi təhdid mühitində birqiymətli olmayan məlumatla necə davrandığını müəyyən edir və bildirir ki, rasional

modellərdən çıxarılan strategiyalar əks nəticələrə gətirən və qorxulu kəskinləşmə spiralı ilə nəticələnən ola bilər.

Nəzər nöqtəsi nəzəriyyəsi bu, zahirən bir-birinə zidd tapıntıları həll etməyə yardım göstərir. Dövlətlər status kvo (mövcud olan vəziyyət) ilə tam razıdırlarsa, onlara qazanc oblastında olan və çəkindirmə təhdidi üçün əlverişli hədəflər kimi baxmaq olar, çünki onlar güman ki, qazanclarla risk etməyin əksinə olacaq. Belə şəraitdə, ehtimal paylanmasının ekstremumları istisna edilməklə, rasional seçim güman ki, qənaətcil izah təmin edəcək. Lakin dövlətlər əhəmiyyətli itkilərə məruz qalmış və bu itkilərlə barışa bilməmişsə çəkindirmə təhdidlərinin itkiyə yol verməmək üçün riski qəbul etməyə hazır olan rəhbərlərin kəskinləşmə (eskalasiya) təhrik etməsinə gətirəcəyi daha ehtimallıdır.

İdraki psixologiya və rasional seçim kritik miqyas şərtləri (şəraiti) yaranan kimi bir-birini tamamlayan olur. Problemin təqdimatı fərz deyil, müəyyən edildikdən sonra alimlər mühitin mürəkkəbliyini, qeyri – müəyyənliklərin miqyasını və şəraitin əlamətlərini (atributlarını) tədqiq edə bilərlər. Sonra rəhbərlərin qazanc yoxsa itki oblastında olduqlarını müəyyən edə bilər və hesablamaların faydalılığı maksimallaşdıran, məqbul və ya rasional normalardan psixoloqların gözlədikləri sapmaları aqroksimasiya edən olacağı ehtimalını qiymətləndirə bilər.

Beynəlxalq münaqişələrin konstruktivist izahları ilə psixoloci təhlillər arasında daha böyük uyarlıq var. Rasional seçimin söhbəti idraki psixologiya illədirsə, konstruktivistlərin dialoqu sosial psixologiya ilədir. Konstruktivistlər seçimin rəhbərlərin mənsubiyyəti – onların öz dövlətlərini və ya qruplarını necə müəyyən etməsi, kim olması və başqaları ilə nisbətdə özlərini necə görməsi ilə dərindən məlumatlandırılan anlayışını inkişaf etdirirlər. Konstruktivistlər kollektiv mənsubiyyəti təsis edən kollektiv və ya bölüşdürülən (ümumi) inamları, norma yaradılması və ona riayət edilməsi proseslərini daxil etmək üçün beynəlxalq münaqişələrin psixoloci izahlarının adətən rəhbərlərin inamları, təsəvvürləri (obrazları) və mühakimələrini mərkəzə qoyan repertuarını genişləndirdilər. Realist və liberallardan fərqli olaraq konstruktivistlər mənsubiyyət və maraqları verilən (əzəli) kimi deyil, daha çox özgələr ilə qarşılıqlı təsir nəticəsində yaranan kimi qəbul edirlər. Onlar mənsubiyyət anlayışının içərisinə bir təsisati element kimi təkcə marağı yox həm də normalara diqqəti qoyurlar.

Seçimin izahı kimi inşa edilmiş mənsubiyyətlərə belə vurğu edilməsi normaların seçim meyarına çevrilməsi şəraitinin tədqiqi ilə məşğul sosial psixoloci nəzəriyyələrlə faydalı dialoqu mümkün edir. Sosial psixologiya bir seçim (qərar vermə) qaydası kimi bərabərlik, ədalət və ədliyyə kimi meyarların maraqların maksimallaşdırılmasını üstələdiyi şəraiti tədqiq edir. Psixologiyada sosial mənsubiyyət nəzəriyyəsi mənsubiyyətin konstruktivist arqumentlərin həlledici toplananını necə dəyişdiyinə vurğu edir.

Sosial mənsubiyyət nəzəriyyəsi mənsubiyyətin dəyişməsi haqqında arqumentləri zənginləşdirə və genişləndirə bilər. Sosial mənsubiyyət konstrukti-vistlərin fərz etdiyi kimi təkcə başqaları ilə qarşılıqlı təsir nəticəsində deyil, həm də sosial psixoloqların bildirdiyi kimi özlərini qrupa mənsub etmək prosesi vasitəsilə yaranır. Adamların müəyyən sosial qrupa mənsub olması seçim üçün əhəmiyyətlidir, yoxsa mənsubiyyəti seçərkən insanlar bir-birinə zidd olan daxil olmaq və ayrılmaq (seçilmək) imperativləri arasında mübarizə aparırlar. Məsələn, Kanada özünün mədəni müəyyənlik axtarışlarında daha geniş Şimali Amerika ticarət sisteminin tərkib hissəsidir.

Qrup eyniliyi və ya sosial mənsubiyyət yaradan idraki mexanizmlər kateqoriyalaşdırma və sosial müqayisədir. Kateqoriyalaşdırma qruplararası sərhədləri formalaşdırır və stereotip yaradır.

Lakin mənim əvvəllər müzakirə etdiyim kimi stereotipləşdirmə heç də həmişə münaqişəyə gətirmir. Qruplar və dövlətlər mənsubiyyət münaqişələri ilə əlaqədar strategiya seçiminə malikdir: onlar daha qabaqcıl mənsubiyyətə qarışmağa (assimilyasiya etməyə) çalışa bilər, öz mənsubiyyətlərinin dəyərlərini yenidən təyin edə bilər və nəhayət yarışmaq yolunu tuta bilər. Bu gün Avropa Birliyindən kənarda olan bəzi dövlətlər insan hüquqlarını gözləyən və hüquqi proseslərə uyğun gələn demokratik mənsubiyyətini xüsusi vurğulayır. Onların rəhbərləri üstün hesab etdikləri mənsubiyyətə qoşulmaq seçimi ediblər; mənsubiyyətin dəyişməsi daxil olmaq və yararlanmaq strategiyasına çevrilməyə başlamışdır. ASEAN üzvləri «Asiya yolu» kimi tanınan qrup yaratmaqla özlərinin fərqliliyinin dəyərli olduğunu vurğulamaq yolunu seçmişlər. Fövqəladə hallarda, öz mənsubiyyətlərinin təhdid altında olduğunu hiss etdikdə və daxil olma səddləri keçilməz olduqda qruplar yarışmanı (rəqabət aparmanı) seçirlər. Sosial mənsubiyyət nəzəriyyəsi rəhbərlərin niyə əl altında olan sosial təqdimatlar (təsvirlər) repertuarından seçdiklərini izah etməyə, daxil olma səddlərinin qalınlığını yoxlamaqla isə dövlətlərin və qrupların mənsubiyyəti dəyişmənin bu və ya digər strategiyasını seçməsinin ehtimallı oldüğü şəraiti müəyyən etməyə kömək edir.

Beynəlxalq siyasətə psixoloci yanaşmaların tənqidçiləri bildirirlər ki, bu yanaşmalar fərdi seçimə münasib ola bilərlər, lakin onlar çox məhdud, uyğunlaşdırılmış və çirklidir və təhlilin düya siyasətinin geniş sitemli nümunələrini (modellərini) izah etməyə uyğun gəlməyən bir səviyyəsində dururlar. Tərəfdarlar bildirirlər ki, həm fərdi, həm də kollektiv səviyyədə düşünmə və seçimin sistemli modellərinin sübutları sağlamdır və qeyri-düzgün fərziyyələr üzərində qurulmuş, fərdlərin və kollektivlərin özünü və öz seçimini necə müəyyən etməsi haqqında bizim hal-hazırda bildiklərimizin çoxunun üstündən xətt çəkən geniş deduktiv arqumentlər beynəlxalq və qruplararası münaqişələrin güclü izahları üçün çətin ki, etibarlı təməllər təmin etsin. Bu daha çox karların dialoqu idi.

Psixoloci yanaşmalar sistemli nümunələrin struktur izahları daxilində davam edən mübahisələrdə sərhəd şərtlərini qurmaq üçün faydalıdır. Onlar dolayısıyla şərtlərin dəyişməsindən asılı olaraq qeyri-məhdud olan seçim nəzəriyyələrinə söykənən izahları təmizləməyə və məlumatlandırmağa kömək edir. Psixoloci nəzəriyyələrin «çirkliliyi» və aşkarlığı (dəlilləri) beynəlxalq münaqişələrin dinamikası və qarşısının alınması barədə böyük mübahisələrə konkretlik və ciddilik verə bilər. Psixoloci yanaşmalar habelə, mənsubiyyətin formalaşması və dəyişməsi, eləcə də normaların yaradılması və onlara riayət edilməsi üzərində qurulan nəzəriyyələri konkretləşdirməyə kömək edir.

Psixoloci nəzəriyyələr, habelə, siyasi rəhəbərlərin münaqişələri qızışdırmaq və ya sakitləşdirmək üçün etdikləri məhdud seçimləri izah etməkdə və bir-biri ilə əlaqələndirilmiş seçimlər silsiləsinin nəticəsi olan qarşılıqlı təsir nümunələrinin təhlilində faydalıdır. Məsələn, sövdələşmə proseslərinin dəyəri niyə masanın üstündə qoyub getməsi barədə cari tapmaca və ya hər şeyi bilən neytral müşahidəçi üçün tam aşkar görünən razılaşmanı əldə etməkdə uğursuzluğa düçar olması da, psixoloci nəzəriyyələr tərəfindən çox vaxt yaxşı izah edilir. Əlaqədar tapmaca – rəhbərlərin bir dəstinin digər dəstin işarələrini oxumaq və dəqiq yozmaqla uğursuzluğu da psixoloci nəzəriyyələr tərəfindən yaxşı izah edilir. Münaqişənin qızışması və ya sakitləşməsinin izahındakı nəzəri və empirik inkişaf psixoloci nəzəriyyələri, onların bir araya sığanlığını və nisbi faydalılığını diqqətlə yoxlamaqla, hakim rasional və konstruktivist ənənələrin daxilinə yerləşdirməkdən qazanc əldə edə bilər.

### Ədəbiyyat:


1. Taylor D.M. Moghaddam P.M. Theories of Intergroup Relations: International and Social Psychological Perespectives. N.Y. 1987.
2. Stern P. Why do people Sacrifice for their nations?Political Psychology, 1995.

## 9-cı mövzu
## Münaqişələrin həlli texnologiyası

**Suallar:**

1. **Münaqişələrin həllində çoxvariantlılıq**
2. **Münaqişələrin həlli şərtləri və amilləri**
3. **Münaqişələrin həlli strategiyası və üsulları**
4. **Münaqişədən çıxış strategiyası**
5. **Mediatorluq**
6. **Danışıqlar prosesi və danışıq üslubları**

### § 1. Münaqişələrin həllinin çoxvariantlılığı

Münaqişəyə münasibətdə idarəedici təsirlər sırasında onun həlli mərkəzi yer tutur. Heç də bütün münaqişələrin qarşısını almaq mümkün olmur. Buna görə də münaqişədən konstruktiv şəkildə çıxmağı bacarmaq çox vacibdir.

Konfliktologiyada münaqişənin dinamikasındakı sonuncu mərhələni münaqişənin həlli termini ilə ifadə etmək ənənəyə çevrilmişdir. Lakin bir çox müəlliflər münaqişə hərəkətlərinin spesifikliyini və tam dayandırılmasını əks etdirən digər anlayışlardan, məsələn, «söndürmə», «aradan qaldırma», «nizamlama», «yoluna qoyma» və s. anlayışlarından istifadə edirlər. Münaqişənin inkişafının mürəkkəbliyi və çoxvariantlılığı onun başa çatdırılması üsullarının və formalarının birmənalı olmadığını ifadə edir. Həmin anlayışlardan münaqişənin başa çatdırılması daha geniş olub, hər hansı səbəbdən münaqişənin bitməsini ifadə edir. Münaqişənin başa çatdırılmasının əsas formaları aşağıdakılardır: həll, nizamlama, söndürmə, aradan qaldırma, başqa münaqişəyə keçmə.

**Münaqişənin həlli** onun iştirakçılarının qarşıdurmanın dayandırılmasına və toqquşmaya gətirib çıxarmış problemin həllinə yönəlmiş birgə fəaliyyətidir. Münaqişənin həlli hər iki tərəfin qarşılıqlı fəaliyyət şəraitinin dəyişdirilməsi üzrə, münaqişənin səbəblərinin aradan qaldırılması üzrə fəallığını nəzərdə tutur. Münaqişənin həlli üçün opponentlərin özlərinin (yaxud heç olmasa onlardan birinin), onların münaqişədəki mövqelərinin dəyişdirilməsi zəruridir. Çox vaxt münaqişənin həlli opponentlərin münaqişə obyektinə və bir-birinə münasibətinin dəyişməsinə əsaslanır.

**Münaqişənin nizamlanması** həlldən onunla fərqlənir ki, opponentlər arasında ziddiyyətin aradan qaldırılmasında **üçüncü tərəf** iştirak edir.

Onun iştirakı həm qarşıduran tərəflərin razılığı ilə, həm də onların razılığı olmadan mümkündür.

Münaqişənin başa çatdırılması

Opponentlər tərəfindən müstəqil surətdə

Üçüncü şəxslərin müdaxiləsi

Münaqişənin söndürülməsi

Mübarizə motivinin itməsi

Motivin istiqamətinin dəyişməsi

Ehtiyatların, qüvvələrin tükənməsi

Münaqişənin həlli

Münaqişənin nizama salınması

Danışıqlar

Əməkdaşlıq

Kompromiss

Tərəflərdən birinin güzəşti

Başqa münaqişəyə keçmə

Münaqişənin aradan qaldırılması

Bir, yaxud hər iki opponentin başqa iş yerinə keçirilməsi (işdən çıxarılması)

Münaqişə obyektinin müsadirə olunması

Münaqişə obyektinin çatışmazlığının aradan qaldırılması

Şək. 6. Münaqişənin başa çatdırılmasının əsas formaları

**Münaqişənin söndürülməsi** münaqişənin əsas əlamətləri – ziddiyyət və gərgin münasibətlər saxlanmaqla qarşıdurmanın müvəqqəti dayandırılmasıdır. Münaqişə «aşkar» formadan gizli formaya keçir. Münaqişənin söndürülməsi, adətən, aşağıdakı amillər nəticəsində baş verir:

-qarşıdurma motivinin itməsi (münaqişə obyekti öz aktuallığını itirmişdir);

-motivin istiqamətini dəyişməsi, təxirəsalınmaz işlərə keçməsi və s.;

-ehtiyatların, bütün qüvvələrin və mübarizə imkanlarının tükənməsi.

**Münaqişənin aradan qaldırılması** dedikdə ona münaqişənin əsas struktur elementlərinin ləğvi ilə nəticələnən təsir başa düşülür. Aradan qaldırmanın «qeyri-konstruktivliyinə» baxmayaraq, münaqişəyə sürətli və qəti təsirlər tələb edən vəziyyətlər mövcuddur (zorakılıq təhdidi, insanların məhvi, vaxt, yaxud maddi imkan

çatışmazlığı). Münaqişənin aşağıdakı üsulların köməyi ilə aradan qaldırılması mümkündür:

-opponentlərdən birinin münaqişədən çıxvarılması (başqa şöbəyə, filiala keçirilməsi; işdən çıxarılması);

-uzun müddət ərzində opponentlərin qarşılıqlı fəaliyyətinin istisna olunması (onların birinin, yaxud hər ikisinin uzun müddətli ezamiyyətə göndərilməsi və s.);

-münaqişə obyektinin aradan qaldırılması (ana münaqişəyə səbəb olmuş oyuncağı dalaşan uşaqların əlindən alır).

**Başqa münaqişəyə keçmə** tərəflərin münasibətlərində yeni, daha əhəmiyyətli ziddiyyət yarandıqda və münaqişə obyekti dəyişdikdə baş verir.

**Münaqişənin yekunu** tərəflərin vəziyyəti və onların münaqişə obyektinə münasibəti baxımından mübarizənin nəticəsi kimi nəzərdən keçirilir.

Münaqişənin aşağıdakı yekunları mümkündür:

-bir, yaxud hər iki tərəfin aradan qaldırılması;

-münaqişənin yenidən başlanması imkanı saxlanmaqla dayandırılması;

-tərəflərdən birinin qələbəsi (münaqişə obyektinə yiyələnməsi);

-münaqişə obyektinin (simmetrik, yaxud asimmetrik) bölünməsi;

-obyektdən birgə istifadə qaydaları haqqında razılaşma;

-digər tərəfin obyektə yiyələnməsinə görə tərəflərdən birinə eyni dəyərli kompensasiya;

-hər iki tərəfin həmin obyektə qəsddən imtina etməsi;

-hər iki tərəfin mənafelərini təmin edən obyektlərin alternativ qaydada müəyyən edilməsi.

Münaqişənin həlli meyarları məsələsi vacibdir. Amerika konfliktoloqu M.Doyçun fikrincə, münaqişənin həllinin başlıca meyarını onun nəticələrinin tərəfləri qane etməsi təşkil edir. Münaqişənin konstruktiv həllinin meyarları qismində münaqişənin əsasında duran ziddiyyətin həlli dərəcəsi və haqlı opponentin qələbəsi çıxış edir. Münaqişənin həlli zamanı onun yaranmasına səbəb olmuş problemin həllinin tapılması vacibdir. Ziddiyyət nə qədər tam həll olunmuşdursa, iştirakçılar arasında münasibətlərin normallaşdırılması imkanı bir o qədər artıqdır, münaqişənin yeni qarşıdurmaya keçməsi ehtimalı bir o qədər aşağıdır. Haqlı tərəfin qələbəsi də eyni dərəcədə vacibdir. Həqiqətin təsdiqi, ədalətin qələbəsi təşkilatın sosial-psixoloji iqliminə, birgə fəaliyyətin səmərəliliyinə müsbət təsir göstərir, potensial surətdə münaqişənin köməyi ilə hüquqi, yaxud mənəvi baxımdan şübhəli məqsədə çatmağa can ata biləcək şəxslər üçün xəbərdarlıq rolunu oynayır. Yadda saxlamaq zəruridir ki, haqlı olmayan tərəfin də öz mənafeləri mövcuddur. Onlar ümumiyyətlə nəzərə

alınmasa, haqsız opponentin motivlərinin istiqamətini dəyişməyə cəhd göstərilməsə, gələcəkdə bu, yeni münaqişələr doğura bilər.

## § 2. Münaqişənin həlli şərtləri və amilləri

Münaqişələrin uğurlu həllinin əksər şərtləri və amilləri psixoloji xarakter daşıyır, çünki opponenrtlərin davranışının və qarşılıqlı fəaliyyətinin xüsusiyyətlərini əks etdirir. Bəzi tədqiqatçılar təşkilati, tarixi, hüquqi və digər amilləri fərqləndirirlər. Onları daha ətraflı surətdə nəzərdən keçirək.

**Münaqişəli qarşılıqlı fəaliyyətin dayandırılması** hər hansı münaqişənin həllinə başlanmasının ilk və aşkar şərtidir. Bir, yaxud hər iki tərəfdən zorakılığın köməyi ilə öz mövqeyinin gücləndirilməsi, yaxud opponentin mövqeyinin zəiflədilməsi üzrə hansısa tədbirlər görüldükcə münaqişənin həllindən söhbət gedə bilməz.

Opponentlərin məqsədləri, mənafeləri naminə ü**mumi, yaxud yaxın məzmunlu təmas nöqtələrinin axtarışı** ikitərəfli prosesdir və həm öz məqsəd və mənafelərinin, həm də digər tərəfin məqsəd və mənafelərinin təhlilini nəzərdə tutur. Tərəflər münaqişəni həll etmək istədikdə diqqəti opponentin şəxsiyyəti üzərində deyil, mənafeləri üzərində cəmləşdirməlidirlər.

Münaqişənin həlli zamanı tərəflərin bir-birinə sabit mənfi münasibəti qalır. O, opponent haqqında mənfi rəydə və ona münasibətdə mənfi emosiyalarda ifadə olunur. Münaqişənin həllinə başlamaq üçün bu mənfi münasibəti yumşaltmaq zəruridir. Başlıcası opponentə münasibətdə **mənfi emosiyaların intensivliyini aşağı salmaqdır.**

Eyni zamanda, **opponenti düşmən kimi görməkdən vaz keçmək** məqsədəuyğundur. Başa düşmək vacibdir ki, münaqişənin yaranmasına səbəb olmuş problemi birlikdə, birgə səylərlə həll etmək daha yaxşıdır. Buna, birincisi, öz mövqeyinin və hərəkətlərinin hüquqi təhlili təkan verir. Öz səhvlərinin aşkara çıxarılması və etiraf olunması opponentin mənfi münasibətini aşağı salır. İkincisi, başqasının mənafelərini başa düşməyə çalışmaq vacibdir. Lakin bu, opponent haqqında təsəvvürü genişləndirə, onu daha obyektiv edə bilər. Üçüncüsü, opponentin davranışında, yaxud hətta niyyətlərində konstruktiv başlanğıcı fərqləndirmək məqsədəuyğundur. Tam pis, yaxud tam yaxşı adamlar və ya sosial qruplar olmur. Hər kəsdə hansısa müsbət cəhətlər vardır, münaqişənin həllində məhz həmin müsbət cəhətlərə istinad olunmalıdır.

**Əks tərəfin mənfi emosiyalarını azaltmaq** vacibdir. Ü sullar sırasında opponentin bəzi hərəkətlərinin müsbət qiymətləndirilməsi, mövqelərin yaxınlaşmasına getməyə

hazırlıq, opponent üçün nüfuzlu olan üçüncü tərəfə müraciət, özünə tənqidi münasibət, təmkinli davranış və s. fərqləndirilir.

**Rroblemin obyektiv müzakirəsi,** münaqişənin mahiyyətinin aydınlaşdırılması, tərəflərin başlıca cəhətləri görmək bacarığı ziddiyyətin həllinin uğurlu axtarışına təkan verir. Diqqətin ikinci dərəcəli məsələlərin üzərində cəmləşdirilməsi, yalnız öz mənafelərinin qayğısına qalma problemin konstruktiv həlli imkanlarını azaldır.

Tərəflər münaqişənin başa çatdırılması üzrə səylərini birləşdirdikdə **bir-birinin statusunu (vəzifə mövqeyini) nəzərə almaq** zəruridir. Tabeli vəziyyət tutan, yaxud kiçik statusuna malik tərəf onuni opponentinin gedə biləcəyi güzəştlərin son həddini dərk etməlidir.

İfrat radikal tələblər güclü tərəfi münaqişəli qarşıdurmaya qayıtmağa sövq edə bilər.

Daha bir mühüm şərt şəraitə uyğun **optimal həll strategiyasının seçilməsidir.** Bu strategiyalar növbəti paraqrafda nəzərdən keçiriləcəkdir.

Münaqişənin uğurla başa çatdırılması münaqişə tərəflərinin bu prosesə təsir göstərən amilləri necə nəzərə almasından asılıdır. Həmin amillərə aşağıdakılar aiddir:

**-vaxt**: problemin müzakirəsi, mövqe və mənafelərin aydınlaşdırılması, qərarların işlənib hazırlanması üçün vaxtın mövcudluğu. Razılıq əldə edilməsi üçün vaxtın mövcud olduğundan iki dəfə azaldılması böyük təcavüzkarlığı ilə fərqlənən alternativin seçilməsi ehtimalının artmasına aparıb çıxarır;

**-üçüncü tərəf:** münaqişənin başa çatdırılmasında opponentlərə problemi həll etməyə kömək göstərən neytral şəxslərin (institutların) iştirakı;

**-məqama uyğunluq:** tərəflər münaqişənin həllinə onun inkişafının erkən mərhələlərində başlayırlar. Məntiq sadədir: müqavimət, ziyan, inciklik və iddia az olduqda razılığa gəlmək imkanları daha çox olur;

**-qüvvə tarazlığı:** münaqişə tərəflərinin imkanları (statusu, vəzifə mövqeyi, silahları və s.) təxminən bərabər olduqda onlar problemin dinc həlli yollarını axtarmaq məcburiyyətində qalırlar. Opponentlər arasında işə görə asılılıq mövcud olmadıqda münaqişələr daha konstruktiv şəkildə həll olunur;

**-mədəniyyət:** opponentlərin yüksək mədəniyyət səviyyəsi münaqişənin zorakı inkişafı ehtimalını azaldır. Aşkar olunmuşdur ki, dövlət idarəetmə orqanlarında münaqişələr opponentlər yüksək işgüzar və mənəvi keyfiyyətlərə malik olduqda daha konstruktiv şəkildə həll olunur;

**-dəyərlərin vahidliyi:** münaqişə tərəfləri arasında məqbul qərarın nədən ibarət olması haqqında razılığın mövcudluğu. Başqa sözlə, «.iştirakçılar ümumi dəyərlər sisteminə malik olduqda münaqişələr az və ya çox dərəcədə nizamlana bilər»;

**-təcrübə(nümunə):** heç olmasa, opponentlərdənr birinin belə problemlərin həlli təcrübəsinə malik olması, habelə analoji münaqişələrin həlli nümunələrini bilmək;

**-münasibətlər:** opponentlər arasında münaqişəyə qədər yaxşı münasibətlərin mövcud olması ziddiyyətin daha tam şəkildə həllinə təkan verir. Məsələn, ər-arvad arasında səmimi münasibətlərin mövcud olduğu möhkəm ailələrdə münaqişələr problemli ailələrə nisbətən daha səmərəli şəkildə həll olunur.

## § 3. Münaqişələrin həlli strategiyaları və üsulları

Münaqişənin həlli çoxpilləri proses olub, vəziyyətlərin təhlilini və qiymətləndirilməsini, münaqişənin həlli üsulunun seçilməsini, hərəkət planının formalaşdırılmasını, onun reallaşdırılmasını, öz hərəkətlərinin səmərəliliyinin qiymətləndirilməsini ehtiva edir.

### Münaqişənin həlli mərhələləri

**Analitik mərhələ** aşağıdakı problemlərə dair infotmasiyanın toplanmasını və qiymətləndirilməsini ehtiva edir:

-münaqişə obyekti (maddi, sosial, yaxud ideal; bölünən, yaxud bölünməz; müsadirə oluna, yaxud əvəz oluna bilərmi; hər bir tərəf üçün nə dərəcədə əlçatandır);

-opponent (onun haqqında ümumi məlumatlar, onun psixoloji xüsusiyyətləri; opponentin rəhbərliklə münasibətləri; öz dərəcəsini gücləndirmək imkanları; onun məqsədləri, mənafeləri, mövqeyi; onun tələblərinin hüquqi və mənəvi əsasları; münaqişədəki əvvəlki hərəkətləri, yol verdiyi səhvlər; mənafelərinin nədə üst-üstə düşüb-düşməməsi və s.);

-öz mövqeyi (məqsədləri, dəyərləri, mənafeləri, münaqişədəki hərəkətləri; öz tələblərinin hüquqi və mənəvi əsasları, onların əsaslandırılması və sübutedilənliyi; yol verilmiş səhvlər və opponent qarşısında onun etiraf olunmasının mümkünlüyü və s.);

-münaqişəyə gətirib çıxaran səbəblər və birbaşa bəhanə;

-sosial mühit (təşkilatda, sosial qrupda vəziyyət; təşkilat, opponent hansı vəzifələri həll edir, münaqişə onlara necə təsir göstərir; opponentlərin hər birini kim və necə dəstəkləyir; rəhbərliyin, ictimaiyyətin, əgər varsa, opponentləriin tabeçiliyindəki şəxslərin reaksiyası necədir; münaqişə haqqında onlara nə məlumdur);

-törəmə refleksiya (subyektin onun opponentinin münaqişəli vəziyyəti necə qəbul etməsi, məni, mənim münaqişə haqqında təsəvvürümü necə qəbul etməsi haqqında təsəvvürü və s.).

İnformasiya mənbəyi qismində şəxsi müşahidələr, rəhbərliklə, tabeçilikdə olan şəxslərlə, qeyri-formal liderlərlə, öz dostları və opponentlərin dostları, münaqişənin şahidləri və s. ilə söhbətlər çıxış edir.

Münaqişəli vəziyyəti təhlil etdikdən və qiymətləndirdikdən sonra opponentlər münaqişənin həlli variantlarını proqnozlaşdırır və onun həllinin öz mənafelərinə və vəziyyətə uyğun üsullarını müəyyən edirlər. Aşağıdakılar proqnozlaşdırılır: hadisələrin ən əlverişli inkişafı; hadisələrin ən əlverişsiz inkişafı; sadəcə münaqişədəki fəal hərəkətlərin dayandırılması halında ziddiyyətin həlli.

**Münaqişənin həlli meyarlarını müəyyən etmək vacibdir**, özü də onları hər iki tərəf qəbul etməlidir. Həmin meyarlara aşağıdakılar aid edilməlidir: hüquq normaları; mənəvi prinsiplər; nüfuzlu şəxslərin rəyi; keçmişdə analoji problemlərin həlli presedentləri, ənənələr.

Nəzərdə tutulmuş planın reallaşdırılması üzrə hərəkətlər münaqişənin həllinin seçilmiş üsuluna müvafiq surətdə həyata keçirilir. Zərurət yarandıqda əvvəl nəzərdə tutulmuş plana düzəlişlər edilir (müzakirəyə qayıdış; yeni dəlillərin irəli sürülməsi; üçüncü şəxslərə müraciət; əlavə güzəştlərin müzakirəsi).

Öz hərəkətlərinin səmərəliliyinə müraciət öz-özünün aşağıdakı suallarının tənqidi surətdə cavablandırılmasını nəzərdə tutur:

-mən bunu niyə edirəm?

-nəyə nail olmaq istəyirəm?

-nəzərdə tutulan planın reallaşdırılmasını nə çətinləşdirir?

-mənim hərəkətlərim haqlıdırmı?

-münaqişənin həllinə maneələrin aradan qaldırılması üzrə hansı hərəkətlərin həyata keçirilməsi zəruridir?

-və s.

Münaqişə başa çatdırıldıqdan sonra aşağıdakılar məqsədəuyğundur: öz davranışındakı səhvləri təhlil etmək; alınmış bilikləri və problemin həlli təcrübəsini ümumiləşdirmək; keçmiş opponentlə münasibətləri normallaşdırmağa cəhd göstərmək; ətrafdakılarla münasibətlərdə narahatlığın yaranması halında onu aradan qaldırmaq; münaqişənin öz vəziyyətinə, fəaliyyətinə və davranışına mənfi nəticələrini minimuma endirmək.

## § 4. Münaqişədən çıxış strategiyaları

Münaqişənin necə başa çatdırılması üçün opponentin seçdiyi münaqişədən çıxış strategiyası prinsipial əhəmiyyətə malikdir. Çox vaxt münaqişədən çıxış üçün həlledici əhəmiyyətə onun iştirakçılarının inkişaf etdirdikləri qarşılıqlı fəaliyyət strategiyası malik olur.

Münaqişədən çıxış strategiyası onun son mərhələsində opponentin əsas davranış xəttini təşkil edir. Beş əsas strategiya fərqləndirilir: rəqabət, kompromis, əməkdaşlıq, qaçma və uyğunlaşma. Münaqişədən çıxış strategiyasının seçilməsi müxtəlif amillərdən asılıdır. Adətən, opponentin şəxsiyyətinin xüsusiyyətləri, opponentə vurulan ziyanın və özünün məruz qaldığı ziyanın səviyyəsi, ehtiyatların mövcudluğu, opponentin statusu, mmükün nəticələr, həll olunan problemin əhəmiyyəti, münaqişənin müddəti və s. göstərilir.

Bu strategiyaların tətbiqinin məqsədəuyğunluğunu nəzərdən keçirək.

**Rəqabət** digər tərəfə özü üçün əlverişli qərarın qəbul etdirilməsindən ibarətdir. Rəqabət aşağıdakı hallarda özünü doğruldur: təklif olunan həll yolunun açıq-aşkar konstruktivliyi; həll yolunun ayrıca şəxsiyyət, yaxud mikroqrup üçün deyil, bütün qrupp, təşkilat üçün əlverişliliyi; strategiyanı həyata keçirən üçün mübarizənin yekununun vacibliyi; opponenti dilə tutmaq üçün vaxtın olmaması. Bir çox tədqiqatçılar bu strategiyanı problemlərin həlli üçün zərərli hesab edirlər, çünki o, opponentə öz mənafelərini reallaşdırmaq imkanı vermir. Lakin həyat rəqabətin səmərəli olmasına dair çoxlu misallar göstərir. Özgə ərazisini tutmuş təcavüzkarı dilə tutmaqla deyil, sərt strategiya ilə dayandıqmaq daha məqsədəuyğundur. Başqa insanın həyatına qəsd edən cinayətkara qarşı da bu strategiyadan istifadə etmək zəruridir. Ekstremal və prinsipial vəziyyətlərdə, vaxt çatışmazlığı və t əhlükəli nəticələr ehtimalıın yüksəkliyi hallarında rəqabət məqsədəuyğundur.

**Kompromis** opponentlərin münaqişəni qismən güzəştə getməklə başa çatdırmaq istəyindən ibarətdir. O, əvvəllər irəli sürülmüş tələblərin bir hissəsindən imtina olunması, digər tərəfin iddialarını qismən əsaslı hesab etməyə hazır olma, bağışlamağa hazır olma ilə xarakterizə olunur. Kompromis opponentin onun və rəqibinin bərabər imkanlara malik olduğunu başa düşdüyü; bir-birini istisna edən mənafelərin mövcud olduğu; müvəqqəti həllin qaneedici olduğu; nüfuzu itirmək təhlükəsinin yarandığı hallarda səmərəlidir. Bu gün kompromis münaqişələrin başa çatdırılmasının ən çox istifadə olunan strategiyasıdır.

**Uyğunlaşma,** yaxud güzəşt mübarizədən məcburi, yaxud könüllü imtina və mövqelərindən əl çəkmə kimi nəzərdən keçirilir. Bu strategiyanı qəbul etməyə opponenti müxtəlif motivlər: öz haqsızlığının dərki, opponentlə yaxşı münasibətlərin saxlanması zərurəti, ondan güclü asılılıq; problemin əhəmiyyətsizliyi vadar edir.

Bundan başqa, münaqişənin gedişində böyük ziyana məruz qalma, daha böyük mənfi nəticələr təhlükəsi, başqa yekuna ümid qalmaması, üçüncü tərəfin təzyiqi münaqişədən belə çıxış yolunun seçilməsinə gətirib çıxarır.

**Problemin həllindən qaçma**, yaxud problemdən yayınma minimum məsrəflə münaqişədən qaçmaq cəhdidir. Münaqişənin gedişində analoji davranış strategiyasından onunla fərqlənir ki, opponent fəal strategiyalar vasitəsilə öz mənafelərini reallaşdırmağa uğursuz cəhdlərdən sonra bu strtaegiyanı seçir. Əslində, söhbət münaqişənin həllindən deyil, söndürülməsindən gedir. Münaqişədən qaçma uzanmış münaqişəyə tamamilə konstruktiv reaksiya ola bilər. Münaqişədən qaçma ziddiyyətin həlli üçün güc və vaxt olmadıqda, vaxt udmaq istədikdə, öz davranış xəttinin müəyyənləşdirilməsində çətinliklər mövcud olduqda, ümumiyyətlə problemi həll etmək istəmədikdə tətbiq olunur.

**Əməkdaşlıq** münaqişədə ən səmərəli davranış strategiyası hesab olunur. O, opponentlərin problemin konstruktiv müzakirəsinə, digər tərəfin düşmən kimi deyil, qərar axtarışında müttəfiq kimi nəzərdən keçirilməsinə yönəlməsini nəzərdə tutur. Bu strategiya aşağıdakı vəziyyətlərdə daha səmərəlidir: opponentlərin güclü qarşılıqlı asılılığı; hər iki tərəfin hakimiyyət fərqini nəzərə almamaq meyli; hər iki tərəf üçün qərarın vacibliyi; iştirakçıların qərəzsizliyi. Strategiyaların uzlaşdırılması münaqişənin əsasında duran ziddiyyətin hansı üsulla həll olunmasını müəyyən edir.

Hələ 1942-ci ildə Amerika sosial psixoloqu M.Follet münaqişələrin yatırılmasının deyil, həllinin (nizaimlanmasının) vacibliyini vurğulayırdı. O, üsullar sırasında tərəflərdən birinin qələbəsini, kompromis və inteqrasiyanı fərqləndirirdi. İnteqrasiya dedikdə hər iki tərəfin şərtlərinin yerinə yetirildiyi, özü də onlardan heç birinin ciddi itkiyə məruz qalmadığı yeni həll yolu başa düşülürdü. Sonralar münaqişənin həllinin bu üsulu «əməkdaşlıq» adını aldı.

**Güclə yatırma** rəqabət strategiyasının tətbiqinin davamıdır. Bu halda güclü tərəf öz məqsədlərinə çatır, opponentinin ilkin tələblərindən imtina etməsinə nail olur. Güzəştə gedən tərəf opponentin tələblərini yerinə yetirir, yaxud fəaliyyətində, davranışında və ya ünsiyyətində yol verdiyi çatışmazlıqlara görə üzrxahlıq edir.

Tərəflər problemin onların hər ikisi üçün vacibliyini və qarşılıqlı mənafelər nəzərə alınmaqla həll edilə biləcəyini başa düşdükdə isə danışıqlar yolundan istifadə edirlər.

Danışıqlar prosesi ərəfəsində opponentlərin münasibətlərini normallaşdırmaq vacibdir. Bunu həyata keçirməyə imkan verən üsullardan biri **GAART** (gərginliyin azaldılmasının ardıcıl və resiprok təşəbbüsləri) texnikasıdır. GAART metodu sosial psixoloq Ç.Ostud tərəfindən təklif olunmuşdur və müxtəlif səviyyəli – beynəlxalq,

qruplararası, şəxsiyyətlərarası münaqişələrin həllində uğurla tətbiq olunur. O, aşağıdakı qaydaları ehtiva edir:

-münaqişə tərəflərindən birinin münaqişənin kəskinləşməsini dayandırmaq istəməsi barədə səmimi, rəsmi bəyanatlar vermək;

-barışdırıcı addımların mütləq həyata keçiriləcəyini izah etmək. Nəyin, necə və nə vaxt həyata keçiriləcəyini bildirmək;

-vədlərini yerinə yetirmək;

-opponenti güzəştlər mübadiləsinə sövq etmək, lakin onları öz vədlərinin yerinə yetirilməsinin şərti qismində tələb etməmək;

-güzəştlər uzun müddət ərzində və hətta digər tərəfin qarşılıq verməməsi halında belə həyata keçirilməlidir. Onlar güzəştləri həyata keçirən tərəfin zəifləməsinə gətirib çıxarmamalıdır.

19770-ci ildə Misir prezidenti Ə. Sadatın Yerusəlimə səfər etməsi CAART metodundan uğurlu istifadəyə misaldır. Həmin dövrdə Misir və İsrail arasında münasibətlər çox gərgin olduğundan, səfər qarşılıqlı etimadı yüksəltməyə imkan verdi və danışıqlar üçün zəmin hazırladı.

Kompromisin əsasında «yaxınlaşma güzəştləri», yaxud başqa sözlə, sövdələşmə texnologiyası durur. Belə hesab olunur ki, kompromis çatışmazlıqlara malikdir: mövqelərlə bağlı mübahisələr natamam sazişlərə gətirib çıxarır; hiylələr üçün zəmin yaranır; münasibətlərin pisləşməsi mümkündür, çünki təhdid, təzyiq, müqavilələrin pozulması baş verə bilər; bir neçə tərəf mövcud olduqda sövdələşmə çətinləşir və s.

Real həyatda kompromiss tez-tez tətbiq olunur. Onun əldə edilməsi üçün aşağıdakılardan ibarət olan açıq söhbət texnikası tövsiyyə oluna bilər:

- münaqişənin hər iki tərəf üçün əlverişsiz olduğunu bildirmək;

-münaqişəni dayandırmağı təklif etmək;

-münaqişədə özünün artıq yol verdiyi səhvləri etiraf etmək. Belə səhvlər, yəqin ki, mövcuddur və onların etirafı iəl heç nə itirilmir;

-opponentə mümkün olduqca, başlıca olmayan məsələlərdə güzəştə getmək. İstənilən münaqişədə güzəştə getməyin mümkün olduğu xırda məqamlar tapmaq olar. Prinsipial olmayan ciddi məsələlərdə də güzəştə getmək olar;

-opponent tərəfindən zəruri olan güzəştlər haqqında istəkləri ifadə etmək. Bir qayda olaraq, onlar münaqişədəki əsas mənafelərinizə aid olur;

-qarşılıqlı güzəştləri, zərurət yarandıqda onlara düzəliş etmək imkanlarını sakit şəkildə, mənfi emosiyalar olmadan müzakirə etmək;

-razılığa gəlmək mümkün olduqda münaqişənin bitdiyini hansı yollasa təsbit etmək.

**Əməkdaşlıq** üsulunu **«prinsipial danışıqlar»** metodu üzrə həyata keçirmək məqsədəuyğundur. O, aşağıdakılardan ibarətdir:

**-Adamların problemdən ayrılması**: opponentlə münasibətləri problemdən ayırmaq; özünüzü onun yerinə qoyun; öz narahatlığınızın yedəyində getməyin; problemi aydınlaşdırmağa hazır olduğunuzu göstərin; problemə münasibətdə möhkəm və insanlara münasibətdə mülayim olun;

**-Mövqelərə deyil, mənafelərə diqqət:** «nəyə görə?» və «niyə yox?» suallarını verin; təməl mənafeləri və onların çoxluğuun təsbit edin; ümumi mənafelər axtarın; mənafelərinizin həyatiliyini və vacibliyini açıqlayın; opponentin mənafelərini problemin bir hissəsi kimi qəbul edin;

**-Qarşılıqlı faydalı variantlar təklif edin:** problemə yeganə cavab axtarmayın; variantların axtarışını onların qiymətləndirilməsindən ayırın; problemin həlli variantlarının dairəsini genişləndirin; qarşılıqlı fayda axtarın; digər tərəfin nəyə üstünlük verdiyini aydınlaşdırın;

**-Obyektiv meyarlardan istifadə edin:** digər tərəfin mülahizələri üçün açıq olun; təzyiqi deyil, yalnız prinsipi qəbul edin; problemin hər bir hissəsinə dair obyektiv meyarlardan istifadə edin; bir neçə meyardan istifadə edin; ədalətli meyarlardan istifadə edin.

Beləliklə, münaqişənin başa çatdırılması onun hər hansı səbəbdən dayandırılmasıdır. Münaqişənin başa çatdırılmasının əsas formaları həll, nizamlama, söndürmə, aradan qaldırma, başqa münaqişəyə keçmədir. Münaqişənin yekunu tərəflərin vəziyyəti və münaqişə obyektinə münasibəti baxımından mübarizənin nəticəsidir. Münaqişənin konstruktiv həllinin əsas meyarlarını ziddiyyətin həlli dərəcəsi və haqlı opponentin qələbəsi təşkil edir.

Münaqişənin konstruktiv həllinin şərtləri sırasında aşağıdakılar fərqləndirilir: münaqişəli qarşılıqlı fəaliyyətin dayandırılması, ümumi məqsəd və mənafelərin axtarılması, mənfi emosiyaların azaldılması, opponentə münasibətin dəyişdirilməsi, opponentin mənfi emosiyalarının azaldılması, problemin obyektiv müzakirəsi, bir-birinin statusunun (vəzifə mövqeyinin) nəzərə alınması, münaqişənin həllinin optimal strategiyasının seçilməsi. Münaqişənin həllinin nəticəviliyinə aşağıdakı amillər təsir göstərir: vaxt, üçüncü tərəf, məqama uyğunluq, qüvvə tarazlığı, mədəniyyət. Dəyərlərin vahidliyi, təcrübə (nümunə) və münasibətlər.

Münaqişənin bilavasitə həlli prosesi vəziyyətin təhlilini və qiymətləndirilməsini, münaqişənin həlli üsulunun seçilməsini, hərəkətlərin əməliyyat tərkibiinin formalaşdırılmasını, planın reallaşdırılmasını və (ya) ona düzəliş edilməsini, hərəkətlərin səmərəliliyinin qiymətləndirilməsini ehtiva edir. Münaqişənin həllinin

əsas strategiyaları rəqabət, əməkdaşlıq, kompromis, uyğunlaşma və problemin həllindən qaçmadır. Seçilmiş strategiyadan asılı olaraq, münaqişənin güclə yatırma (opponentin güzəştə getməsi) üsulu ilə, yaxud danışıqlar (kompromiss, yaxud əməkdaşlıq) yolu ilə həlli mümkündür. Kompromiss açıq söhbət texnikasının köməyi ilə, əməkdaşlıq isə prinsipial danışıqlar metodunun köməyi ilə əldə oluna bilər.

## § 5. Mediatorluq

Üçüncü tərəfin münaqişənin nizama salınmasında iştirakı onun başa çatdırılmasının nəticəviliyinə təsir göstərən mühüm amildir. Bu, üçüncü tərəfin iştirakı ilə münaqişə tərəflərinin problemin münaqişəni dayandırmağa imkan verən həllini axtarması prosesinin optimallaşdırılmasından ibarət olan xüsusi fəaliyyət növüdür.

Münaqişələrin nizamlanmasında üçüncü tərəf (mediator) qismində, bir qayda olaraq, bir nəfər, az hallarda iki-üç və daha çox peşəkardan ibarət qrup çıxış edir. Mediator rolunda dövlətlər də çıxış edə bilər (məsələn, 1975-ci ildə İranla İraq arasında münasibətlər nizama salınarkən Əlcəzair).

Mediatorluq münaqişələrin həllinin ən qədim üsullarından biridir. O, qədim dövrdə Çində, Afrika ölkələrində mövcud olmuş, qəbilə, yaxud tayfa ağsaqqalları peşəkar mediator qismində çıxış edərək, problemli vəziyyətlərin münaqişəsiz həllini təmin etmişlər.

İctimai əhəmiyyətli fəaliyyət kimi mediatorluq keçən əsrin 60-cı illərində ABŞ-da formalaşmışdır. Cəmiyyətin ayrı-ayrı strukturlarının müstəqilliyinin böyük olduğu ölkədə peşəkar mediatorluğa marağın meydana çıxması tamamilə qanunauyğundur. ABŞ-da mediatorluq problemlərini işıqlandıran bir sıra jurnallar, məsələn, «Rüblük mediatorluq jurnalı» buraxılır. 1983-cü ildə Milli disputların həlli institutu təsis olunmuşdur, onun vəzifələri sırasına yeni mediatorluq metodlarının, habelə danışıqların aparılmasının tədrisi proqramlarının işlənib hazırlanması daxildir. Ölkədə xüsusi və dövlət mediatorluq xidməti fəaliyyət göstərir.

Bəs münaqişədə üçüncü tərəf qismində kim çıxış edə bilər? Formal, yaxud rəsmi mediatorluq mediatorun normativ statusa, yaxud opponentlərə təsir imkanına malik olmasını nəzərdə tutur. Qeyri-rəsmi, qeyri-formal mediatorluq mediator normativ statusa malik olmadığı halda, münaqişə iştirakçıları tərəfindən belə problemlərin həllində həmin şəxslərin qeyri-rəsmi nüfuzunun tanınmasından ibarətdir.

**Rəsmi mediator** qismində aşağıdakılar çıxış edə bilər:

-dövlətlərarası təşkilatlar (məsələn, BMT və s.);

-ayrı-ayrı dövlətlər;

-dövlət hüquq institutları (arbitraj məhkəməsi, prokurorluq və s.);

-hökumət, yaxud digər dövlət komissiyaları (məsələn, tətillərin nizamlanması üçün yaradılan komissiyalar və s.);

-hüquq-mühafizə orqanlarının nümayəndələri (məsələne, hansısa məişət münaqişəsinə münasibətdə sahə müvəkkili);

-müəssisə, idarə, firma və s. rəhbərləri;

-ictimai təşkilatlar (əmək mübahisələrinin və münaqişələrinin həlli üzrə komissiyalar, həmkarlar ittifaqı təşkilatları və s.);

-peşəkar mediator-konfliktoloqlar.

Qeyri-rəsmi mediator qismində, adətən, aşağıdakılar çıxış edir:

-ictimai əhəmiyyətli fəaliyyətdə uğur qazanmış məşhur şəxslər (siyasətçilər, keçmiş dövlət xadimləri);

-dini təşkilatların nümayəndələri;

-peşəkar psixoloqlar, pedaqoqlar, sosial işçilər;

-müxtəlif səviyyəli sosial qruplarını qeyri-formal liderləri;

-yaşca böyük şəxslər (ata, ana, baba, nənə və s.);

-dostlar, qonşular, münaqişənin şahidləri.

Üçüncü tərəfin münaqişəli münasibətlərin nizamlanmasında iştirakının məqsədəuyğunluğu üçüncü tərəfə kömək üçün opponentlərin müraciət etməsindən, yoxsa onun özünün münaqişəyə müdaxilə etməsindən asılıdır. Tərəflər özləri aşağıdakı hallarda mediatora müraciət edirlər:

-nizamlama obyektini uzanmış münaqişə təşkil etdikdə. Bütün dəlillər, qüvvələr, vasitələr tükənsə də çıxış yolu görünmür;

-tərəflər əks, bir-birini istisna edən mənafeləri ifadə etdikdə və ümumi təmas nöqtələri tapa bilmədikdə;

-hüquq normaları, yaxud münaqişənin həllində aparıcı yer tutan digər meyarlar müxtəlif cür təfsir olunduqda;

-tərəflərdən birinə ciddi ziya vurulduqda və o, opponentinə münasibətdə sanksiya tələb etdikdə;

-tərəflərin yaxşı münasibətləri saxlaması vacib olduqda, münaqişə intensiv olmadıqda, lakin onlar qarşılıqlı surətdə məqbul qərar tapa bilmədikdə;

-opponentlər müvəqqəti razılaşmaya gəldikdə, lakin onun yerinə yetirilməsinə kənardan obyektiv nəzarət zəruri olduqda.

Üçüncü tərəfin münaqişəyə operativ müstəqil müdaxiləsi aşağıdakı hallarda zəruridir:

- münaqişəli hadisələr təhlükəli həddə qədər kəskinləşdikdə, bilavasitə zorakılığın tətbiqi təhlükəsi mövcud olduqda;

-tərəflərdən biri kütləvi surətdə zorakılıq tətbiq etdikdə;

-üçüncü tərəf üçün bu münaqişə şəxsən əlverişsiz olduqda;

-münaqişə üçüncü tərəfin nəzarət etdiyi mühitə mənfi təsir göstərdikdə (rəhbər kollektivə mənfi təsir göstərən münaqişəni nizamlamaq məcburiyyətində qaldıqda);

-tərəflər razılaşmaya gəlmədikdə, üçüncü tərəfin isə hər iki tərəfin mənafelərini təmin etmək imkanı mövcud olduqda. Mediatorun qəbul edilən qərara nəzarətinin dərəcəsindən asılı olaraq, münaqişədə üçüncü tərəfin bir neçə rolu fərqləndirilir: münsif, arbitr, vasitəçi, köməkçi və müşahidəçi.

**Münsif** ən avtoritar roldur, çünki o, problemin həlli variantlarının müəyyən edilməsi üzrə ən böyük imkanlara malikdir. Münsif problemi öyrənir, hər iki tərəfi dinləyir və mübahisələndirilməyən hökm çıxarır.

**Arbitr** də böyük səlahiyyətlərə malikdir. O, münaqişəni öyrənir, iştirakçılarla müzakirə edir, sonra isə icrası məcburi olan qəti qərar çıxarır.Lakin tərəflər qərarla razılaşmaya və ondan yuxarı instansiyalara şikayət verə bilərlər.

**Vasitəçi** daha neytral roldur. O, xüsusi biliklərə malik olaraq, problemin konstruktiv müzakirəsini təmin edir. Qəti qərarı isə opponentlər qəbul edirlər.

**Köməkçi** problemin məzmunu və qəti qərarın qəbul edilməsi ilə bağlı polemikaya qarışmadanproblemin müzakirəsi prosesinin təkmilləşdirilməsi, görüş və danışıqların təşkili məqsədilə münaqişənin nizamlanmasında iştirak edir.

**Müşahidəçi** münaqişə zonasında iştirakı ilə tərəfləri əvvəllər əldə olunmuş razılaşmaların pozulmasından, yaxud qarşılıqlı təcavüzdən çəkindirir. Müşahidəçinin iştirakı mübahisəli məsələlərin danışıqlar yolu ilə həlli üçün şərait yaradır.

Konfliktoloqlar bu və ya digər mediatorluq tipinin məqsədəuyğun olduğu şərtləri fərqləndirirlər. Yüksək avtoritar üslub (münsif, yaxud arbitr) sürətli həll tələb olunduqda; münaqişə davamlı olduqda, tərəflərin mövqeləri müəyyənləşsə də, onlar qarşılıqlı surətdə məqbul həll yolu tapa bilmədikdə əlverişlidir. O, münaqişə sərtləşdikdə, emosiyalarla yükləndikdə də səmərəlidir. İştirakçılar «soyuyandan» sonra daha az avtoritar üslubların tətbiqi mümkündür. Opponentlər üçüncü tərəfə etimad göstərdikdə avtoritar üslub daha asan qəbul olunur. Opponentlərin problemlərin müzakirəsi vərdişlərinə malik olması qeyri-avtoritar üslubun səmərəliliyini yüksəldir (vasitəçi, yaxud köməkçi).

Münaqişənin yekunu mediatorun hakimiyyətindən, nüfuzundan və rolundan asılıdır. Üçüncü tərəf aşağıdakıları təmin edə bilər:

-münaqişənin iradəvi qərarlar dayandırılması (münsif, arbitr);

-münaqişə tərəflərinin ayrılması (münsif, arbitr);

-mübarizənin əngəllənməsi (münsif, arbitr);

-tərəflərə qarşı sanksiyaların tətbiqi (münsif, arbitr);

-haqlının və haqsızın müəyyən edilməsi (münsif, arbitr);

-qərar axtarışında yardım göstərilməsi (köməkçi, vasitəçi);

-münasibətlərin normallaşdırılmasında yardım (vasitəçi, köməkçi);

-ünsiyyətin təşkilində yardımın təşkili (vasitəçi, köməkçi);

-sazişin yerinə yetirilməsinə nəzarət (arbitr, vasitəçi, müşahidəçi).

Mediatorun üzləşdiyi vəziyyətlər mürəkkəb və rəngarəngdir. Buna görə də mediatorluq prosesi sərt struktura malik deyildir. Yalnız üç əsas mərhələni fərqləndirmək olar.

1. **Münaqişə və münaqişə tərəfləri ilə tanışlıq.** Mediator problemin tarixini, opponentlərin tələblərini öyrənir. Bir çox münaqişələr spesifik xarakter daşıdığından, mediator problemə nüfuz etməli, müvafiq ədəbiyyatı oxumalı, mütəxəssislərlə məsləhətləşməli olur.

**2. Münaqişə tərəfləri ilə iş.** Bir qayda olaraq, mediator tərəfləri birgə danışıqların aparılması hazırlamaq məqsədilə onların hər biri ilə dəfələrlə görüşür (tələblər dəqiqləşdirilir, ittihamlar geri götürülür, ifadələr yumşaldılır və s.).

3. **Danışıqların aparılması** ən mühüm mərhələdir. Danışıqların gedişində mediator bir sıra funksiyaları yerinə yetirir: aparıcı, məşqçi, pedaqoq və s. O, opponentlərin nəyi və necə deməsini izləyir, zərurət yarandıqda düzəlişlər edir, onları həvəsləndirir, yaxud qınayır. Hər bir görüşün kiçik olsa da, real irəliləyişlə nəticələnməsi vacibdir.

Münaqişədə üçüncü tərəfin fəaliyyətinin səmərəliliyinə təsir göstərən bir sıra amillər mövcuddur.

1. Əsas amil hər iki tərəfin birgə işə motivləşməsi, vasitəçinin rəyini nəzərə almağa, onun təklif etdiyi qərarı qəbul etməyə hazır olmasıdır.

2. Mediatorluğun səmərəliliyi üçüncü tərəfin fəaliyyətinin xüsusiyyətləri və xarakteri ilə müəyyən olunur.

Onların arasında aşağıdakılar fərqləndirilir:

-üçüncü tərəfin münaqişənin nizamlanmasında maraqlı olması;

-nizamlama prosesinin həyata keçirilməsi üzrə biliklərə və peşəkar keyfiyyətlərə, habelə inandırmaq qabiliyyətinə malik olması;

-keçmişdə münaqişələrin uğurla nizamlanması təcrübəsinə malik olması;

-vəziyyəti, şəraiti, münaqişənin xüsusiyyətlərini bilməsi.

**3. Üçüncü tərəfin hərəkətlərindəki əzmkarlıq** iştirakçıların fikir ayrılıqları onlar üçün prinsipial məsələlərlə bağlı olduqda və münaqişənin gərginrliyi xüsusilə yüksək olduqda nəticə verir.

**4. Münaqişənin gərginlik dərəcəsi.** Bu məsələyə dair məlumatlar ziddiyyətlidir. Bir tərəfdən, aşkar olunmuşdur ki, əmək münaqişəsinin mediatorun köməyi ilə həlli tətil təhlükəsi yarandıqda deyil, tətil artıq davam etdikdə daha uğurlu olur. Digər tərəfdən, müəyyən olunmuşdur ki, danışıqların gedişində ehtirasların ifrat dərəcədə şiddətlənməsi vasitəçinin uğurla fəaliyyət göstərməsinə mənfi təsir göstərir.

**5. Münaqişənin davamlılığı.** Davamlı münaqişələr qısamüddətli münaqişələrə nisbətən daha çətin nizamlanır.

**6. Tərəflərin münasibətlərinin xarakteri.** Münasibətlər nə qədər mürəkkəbdirsə, gərgindirsə, vasitəçiliyin səmərəliliyi bir o qədər aşağıdır.

**7. Münaqişələrin nizamlanmasının seçilən taktika və texnikaları** mediatorun xüsusiyyətləri ilə deyil, vəziyyətlə müəyyən olunur.

Məlumdur ki, danışıqlar prosesi daxili inkişaf zəncirinə malikdir, onun gedişində iştirakçıların mediatora etimadı, münaqişənin həllinə tələbatı artıb-azalır. Vasitəçinin danışıqların böhranlı məqamlarını sezməyi bacarması vacibdir, həmin anlarda onların gördükləri tədbirlər maksimum uğurlu olacaqdır. Danışıqların gedişində mediatorun opponentlərlə qarşılıqlı fəaliyyət taktikaları müxtəlif ola bilər (şəkil 7).

1. Birgə görüşdə **növbəli dinləmə taktikası** vəziyyətin aydınlaşdırılması və kəskin münaqişə dövründə tərəflərin ayrılması mümkün olmadıqda təkliflərin dinlənilməsi üçün tətbiq olunur.

**2. Sövdələşmə** zamanı vasitəçi çox vaxt danışıqları hər iki tərəfin iştirakı ilə aparmağa çalışır, bu zaman əsas vurğu kompromis qərarların qəbul edilməsi üzərinə salınır.

**3. Məkik diplomatiyası** zamanı mediator münəqişə tərəflərini ayırır və daim onların arasında dövr edərək, sazişin müxtəlif aspektlərini razılaşdırır. Nəticədə, adətən, kompromis əldə olunur.

**4. Opponentlərdən birinə təzyiq** – üçüncü tərəf vaxtın çox hissəsini iştirakçılardan biri ilə işə həsr edərək, onunla söhbətlərdə mövqeyinin yanlış olduğunu sübuta yetirir. Son nəticədə həmin iştirakçı güzəştə gedir.

**5. Direktiv təsir** diqqətin opponentlərin mövqeyindəki zəif məqamlar, onların bir-birinə münasibətdə hərəkətlərinin yanlışlığı üzərində cəmləşdirilməsini nəzərdə tutur. Məqsəd tərəfləri barışığa sövq etməkdən ibarətdir.

Ədəbiyyatda mediatorluq prosesinin konkret texnikaları və onların tətbiqi üzrə tövsiyyələr fərqləndirilmiş və təsvir olunmuşdur.

İşin əvvəlində mediator ona problemdə istiqamətlənməyə, münaqişə iştirakçılarını mediatorluq prosesində maraqlandırmağa, onların gözündə öz nüfuzunu qaldırmağa kömək edən **refleksiv müdaxilə** texnikalarına müraciət edir. Mediator müştərilərə özü, öz imkanları, ümumiyyətlə mediatorluq haqqında danışaraq, iştirakçıları danışıqlar aparmağa motivləndirir.

Mediator texnikalarının əksəriyyəti tərəflər arasında münasibətlərin normallaşdırılmasına və onların qarşısında duran problemlərin həllinin əldə edilməsinə yönəlmişdir. Onları çox vaxt **kontekstual müdaxilə** texnikaları adlandırırlar. Müştərilər bir-birinə qarşı qeyri-real tələblər irəli sürdükdə vasitəçi tərəflərin mövqeyinin qeyri-konstruktivliyinin nədən ibarət olduğunu nümayiş etdirərək, onları dəyişdirməyə çalışır. Tərəflər düşmənçilik göstərdikdə yumordan, istehzadan istifadə etməklə, yaxud tərəflərə təzyiq göstərməklə, belə davranışın nəticələrinin dərkinə çağırmaqla vəziyyətə sərt nəzarət etmək zəruridir.

Eyni zamanda çoxlu məsələ müzakirə olunduqda mediator üstün məqsədləri fərqləndirməklə, problemlərin siyahısını müəyyənləşdirməklə, tərəflərə ən mühüm məsələlərlə bağlı sövdələşməyi təklif etməklə vəziyyəti sadələşdirməyə çalışır.

Danışıqların yekun mərhələsində vasitəçi artıq nəyin və necə edilməli olması haqqında dəqiq təsəvvürə malik olduqda o, münaqişənin həllinə fəal təsir göstərməklə, hakim rolunda çıxış edə bilər.

O, iştirakçılara sazişlərin müsbət və mənfi cəhətlərinin göstərilməsini, özünün həll variantlarının təklif olunmasını, nəzərdə tutulan razılaşmanın arzu sahəsindən gerçəklik sahəsinə keçirilməsini ehtiva edən **müstəqil müdaxilə texnikalarından** istifadə edir.

Beləliklə, üçüncü tərəfin iştirakı ilə münaqişələrin nizamlanması ictimai əhəmiyyətli fəaliyyətin mediatorluq adlandırılan spesifik növüdür. Üçüncü tərəf özü münaqişəyə müdaxilə edə, habelə münaqişəni iştirakçıların xahişi ilə nizamlaya bilər. Münaqişənin kəskinliyindən, həll olunan problemin əhəmiyyətindən və opponentlərin xüsusiyyətlərindən asılı olaraq mediator nizamlamanın aşağıdakı beş tipindən birini reallaşdıra bilər: münsif, arbitr, vasitəçi, köməkçi, müşahidəçi.

Üçüncü tərəf, adətən, münaqişənin başa çatdırılmasına müsbət təsir göstərir. Mediatorluğun səmərəliliyi mediatorun şəxsiyyətindən, münaqişənin və münaqişə tərəflərinin xüsusiyyətlərindən və opponetlərə təsirin seçilmiş taktika və texnikalarından asılıdır.

Münaqişələrin nizamlanması üzrə rəhbərin fəaliyyətində mediatorluğun arbitr və vasitəçi kimi tiplərindən istifadə etmək məqsədəuyğundur. Münaqişənin nizamlanması üzrə psixoloqun fəaliyyətinin xüsusiyyəti mediatorluq vəzifələrinin eyni zamanda həllindən və opponentlərə münasibətlərin və psixi vəziyyətin normallaşdırılmasında psixoloji yardım göstərilməsindən ibarətdir.

Psixoloqun vasitəçilik fəaliyyətinin prinsipləri aşağıdakılardan ibarətdir: opponentlərə münasibətdə neytrallıq; mövqeyin qiymətsizliyi; məxfilik; fəaliyyətin prosedur xarakteri; əməkdaşlığın stimullaşdırılması; qərarla deyil, proseslə iş.

## § 6. Danışıqlar prosesi və danışıq üslubları

**Danışıqlar** – insan ünsiyyətinin qədim və universal vasitəsidir. Onlar mənafelərin üst-üstə düşmədiyi, fikir, yaxud baxışların toqquşduğu yerlərdə razılıq əldə etməyə imkan yaradır. Tarixi planda danışıqların inkişafı üç istiqamət üzrə cərəyan etmişdir: diplomatik, ticarət və mübahisəli problemlərin həlli. Aşağıda danışıqlar opponentlərin ziddiyyəti güc yolu ilə həll etməsi imkanı tükəndikdə münaqişənin başa çatdırılması vasitəsi kimi nəzərdən keçirilir.

Tərəflər cəbhələşmə nəticə vermədikdə, yaxud əlverişsiz olduqda danışıqların zəruriliyini anlayırlar. Danışıqların iki tipii fərqləndirilir: münaqişə münasibətləri çərçivəsində aparılan və əməkdaşlıq şəraitində aparılan danışıqlar. Əməkdaşlığa istiqamətlənmiş danışıqlar tərəflərin arasında ciddi fikir ayrılıqlarının yaranmasını və bu zəmində münaqişənin meydana çıxacağını istisna etmir. Münaqişənin nizamlanmasından sonra keçmiş rəqiblərin əməkdaşlıq etməyə başladıqları əks vəziyyət də mümkündür. Danışıqlar birgə qərarların qəbul edilməsi üçün lazımdır. Danışıqların hər bir iştirakçısı bu və ya digər təkliflə razılaşıb-razılaşmamaq barədə özü qərar qəbul edir. Birgə qərar tərəflərin həmin vəziyyətdə ən yaxşı hesab etdikləri vahid qərardır.

Ziddiyyəti qanunvericilik, yaxud digər normativ aktlar əsasında aradan qaldırmaq mümkün olduqda danışıqlar lazım deyildir. Lakin bir çox məsələləri məhkəmə instansiyaları vasitəsilə deyil, danışıqlar yolu ilə həll etmək daha asan, ucuz və sürətlə başa gəlir. ABŞ-da belə vəziyyətlər bütün mülki iddiaların 90-95 %-ni təşkil edir.

Danışıqların təsnifləşdirilməsinə müxtəlif yanaşmalar mövcuddur. Onlardan biri danışıqların iştirakçılarının müxtəlif məqsədlərinin fərqləndirilməsinə əsaslanır.

**1. Mövcud sazişlərin uzadılması haqqında danışıqlar.** Məsələn, hərbi əməliyyatların dayandırılması haqqında müvəqqəti saziş.

**2. Normallaşdırma haqqında danışıqlar.** Münaqişə münasibətlərinin opponentlərin daha konstruktiv ünsiyyətinə keçirilməsi üçün aparılır. Çox vaxt onlarda üçüncü tərəf iştirak edir.

**3. Yenidən bölüşdürmə haqqında danışıqlar.** Tərəflərdən biri başqa tərəfin hesabına öz xeyrinə dəyişiklik tələb edir. Bu tələblər, bir qayda olaraq, hücum edən tərəfin təhdidləri ilə müşayiət olunur.

**4. Yeni şəraitin yaradılması haqqında danışıqlar.** Onların məqsədi yeni münasibətlərin formalaşdırılması, yeni sazişlərin bağlanmasıdır.

**5. Mənfi nəticələrin əldə edilməsi üzrə danışıqlar.** İkinci dərəcəli məsələlər (sülhsevərlik nümayişi, mövqelərin aydınlaşdırılması, diqqətin yayındırılması və s.) həll olunur.

Danışıqların iştirakçılarının hansı məqsədləri güdməsindən asılı olaraq **danışıqların** müxtəlif **funksiyaları** fərqləndirilir:

-informasiya (tərəflər baxışların mübadiləsində maraqlı olsa da, hansısa səbəblərdən birgə hərəkətlərə hazır deyildir);

-kommunikativ (yeni əlaqələrin, münasibətlərin qurulması);

-hərəkətlərin tənzimlənməsi və əlaqələndirilməsi;

-nəzarət (məsələn, sazişlərin yerinə yetirilməsinə);

-diqqəti yayındırma (tərəflərin biri qüvvəsini yenidən qruplaşdırmaq, yaxud artırmaq üçün vaxt udmağa çalışır);

-təbliğa (tərəflərdən birinə özünü ictimaiyyətin qarşısında əlverişli şəkildə göstərməyə imkan verir);

-vaxt uzatma (tərəflərin biri opponentdə problemin həllinə ümid oyatmaq, onu sakitləşdirmək üçün danışıqlara gedir).

Danışıqların iştirakçılarının birgə qərarlarının üç tipi mövcuddur:

-kompromisli, yaxud «orta qərar»;

-asimmetrik qərar, nisbi kompromis;

-əməkdaşlıq yolu ilə prinsipcə yeni qərarın tapılması.

Danışıqlar probleminə tətbiqən onları daha ətraflı surətdə nəzərdən keçirək.

Qərarın birinci mərhələsi – kompromiss zamanı tərəflər qarşılıqlı güzəştlərə gedirlər. Bu, danışıqlarda tipik qərardır. Kompromis tərəflər bir-birinin mənafelərini, heç olmasa, qismən təmin etməyə hazır olduqda realdır. Bu zaman tələblərin qanuniliyini, yaxud güzəştlərin bərabərliyini müəyyənləşdirməyə imkan verən meyarların mövcudluğu vacibdir.Bir-birinə doğru atılan addımların bərabərliyi

kəmiyyət baxımından qiymətləndirilə bilsə, daha yaxşı olardı. Lakin çox vaxt meyarların dəqiq olmadığı, yaxud tərəflərin bir-birinə güzəştə gedərək, istiqamətlənə biləcəyi «orta nöqtə»ni tapa bilmədiyi vəziyyətlərlə rastlaşmaq lazım gəlir. Özü üçün az əhəmiyyətli, lakin opponenti üçün daha böyük əhəmiyyətli məsələ üzrə böyük güzəştlərə gedən danışıq iştirakçısı onun üçün daha mühüm olan başqa məsələ üzrə daha böyük güzəşt əldə edir. Nəticədə danışıqlarda güzəştlərin «mübadiləsi» baş verir. Mühüm olanı bu güzəştlərin hər iki tərəfin minimum mənafeləri çərçivəsindən kənara çıxmamasıdır. Bu şərt həmin prinsipi hələ 1904-cü ildə ifadə etmiş məşhur italyan alimi Vilfredo Paretonun adı ilə «Pareto prinsipi» adını almışdır.

Tərəflərin statusları, hakimiyyət və nəzarət imkanları, habelə mənafeləri onlara «orta» qərar tapmağa imkan vermədikdə tərəflər asimmetrik qərara gələ bilərlər. Bu halda bir tərəfin güzəştləri digər tərəfin güzəştlərindən xeyli artıq olur. Şərti yarıdan az güzəşt əldə edən opponent buna şüurlu şəkildə gedir, çünki əks təqdirdə o, daha böyük itkilərə məruz qalır. Qərarın asimmetrikliyi danışıqların köməyi ilə tərəflərdən birinin məğlubiyyəti təsbit olunarkən müşahidə olunur. Asimmetriklik dərəcəsi müxtəlif ola bilər.

Qərarın üçüncü tipi bundan ibarətdir ki, danışıqların iştirakçıları ziddiyyətləri əhəmiyyətsiz edən prinsipcə yeni qərarın tapılması yolu ilə həll edirlər. Belə qərarın qəbul edilməsinin prinsipləri Amerika mütəxəssisləri R.Fişer və U.Yuri tərəfindən işlənib hazırlanmış və keçən əsrin 80-ci illərinin əvvəllərində dərc olunmuşdur. Bu üsul mənafelərin həqiqi nisbətinin təhlilinə əsaslanır ki, bu da hər iki tərəfin açıq və yaradıcı işini tələb edir (şək.8).

Yeni qərarın əldə olunması dəyərlər sisteminin dəyişdirilməsi, məsələn, problemin daha geniş kontekstə daxil edilməsi yolu ilə mümkündür. Buna görə də danışıqlarda bəzən iştirakçıların qoyduqları çərçivələrdən kənara çıxmaq, problemi əvvəl seçilmiş mövqelərdən daha geniş şəkildə nəzərdən keçirmək faydalı olur, bu halda tərəflərdən ümumiyyətlə güzəşt tələb olunmaya bilər. Prinsipcə yeni qərarın axtarışı daha mürəkkəbdir, qeyri=-standart yanaşma tələb edir. Lakin o, həm də tamamilə yeni perspektivlər açır. Başqa sözlə, kompromis və asimmetrik qərar danışıqlar üçün hesab rolunu oynayırsa, prinsipial yanaşma artıq danışıqlar prosesi üçün cəbr roluna malikdir.Qeyri-yekcins vəzifələrə malik olan mürəkkəb proses kimi danışıqlar bir neçə mərhələdən ibarətdir: danışıqlara hazırlıq, danışıqların aparılması prosesi, nəticələrin təhlili, habelə əldə olunmuş razılaşmaların yerinə yetirilməsi. Bu mərhələləri daha ətraflı surətdə nəzərdən keçirək.

**Danışıqlara hazırlıq.** Danışıqlar tərəflər masa arxasına oturmazdan xeyli əvvəl başlanır. Faktiki olaraq, danışıqlar tərəflərdən birinin (yaxud vasitəçinin) danışıqların

aparılmasının təşəbbüskarı qismində çıxış etməsi və iştirakçıların danışıqların hazırlanması ilə məşğul olması anından etibarən başlanır. Danışıqların və qəbul edilən qərarların gələcəyi bir çox cəhətdən hazırlığın necə aparılmasından asılıdır. Danışıqlara hazırlıq iki istiqamət üzrə aparılır: təşkilati və məzmun.

Hazırlığın təşkilati məqamlarına aşağıdakılar aiddir: nümayəndə heyətinin formalaşdırılması, görüş yerinin və vaxtının, hər bir iclasın gündəliyinin müəyyənləşdirilməsi, müvafiq məsələlərin maraqlı təşkilatlarla razılaşdırılması. Nümayəndə heyətinin formalaşdırılması, onun başçısının, say və fərdi tərkibinin müəyyənləşdirilməsi böyük əhəmiyyətə malikdir. Bəzən elə olur ki, danışıqlarda nümayəndə heyətinin başçılığına şəxs yalnız vəzifə statusu əsas götürülməklə, müzakirə olunan problemin mahiyyətinə dair onun səriştəliliyi nəzərə alınmadan təyin olunur. Nümayəndə heyətinin hamının danışıqların uğur qazanmasına çalışdığı vahid komanda təşkil etməsi vacibdir.

**Danışıqlara hazırlığın məzmun cəhəti** aşağıdakıları ehtiva edir: problemin və iştirakçıların mənafelərinin təhlili; danışıqlara və öz mövqeyinə ümumi yanaşmanın formalaşdırılması; mümkün həll variantlarının müəyyənləşdirilməsi. Tərəflər danışıqlara hazırlaşmağa başlamazdan əvvəl həll ediləcək problem təhlil olunur. Onun mahiyyəti nədən ibarətdir? Daha az məsrəf və səy tələb edən başqa həll yolları varmı? Onlar həm birtərəfli hərəkətlər çərçivəsində, həm də opponentlə danışıqlar əsasında aşkara çıxarıla bilər. Danışıqlara ümumi yanaşmanı – onların konsepsiyasını işləyib hazırlamaq zəruridir. Mövqedən fərqli olaraq, danışıqların konsepsiyası daha az dəyişkən elementdir. Danışıqlara ümumi yanaşma formalaşdırılarkən onlarda reallaşdırılacaq vəzifələr müəyyən olunur. Mümkün həll variantlarını müəyyənləşdirmək zəruridir. Müxtəlif həll variantları, onların qiymətləndirilməsi, hər iki tərəf üçün məqbulluq dərəcəsindən asılı olaraq sıralanması işlənilir.

İştirakçılar bu və ya digər həll variantına cavab verən təklifləri, habelə müvafiq dəlilləri düşünməlidir. **Təkliflər mövqeyin aparıcı elementini təşkil edir.** Hətta yaxşı ideya belə aydın forma kəsb etmədən məhv ola bilər. Təkliflərin ifadəsi sadə və birmənalı olmalıdır. Dəlillər həmişə obyektiv olmalıdır.

Hazırlığın səmərəliliyinin yüksəldilməsi üçü aşağıdakılar mümkündür:

-iqtisadi, hüquqi, yaxud başqa ekspertizanın aparılması;

-balans vərəqlərinin tərtib edilməsi (kağız vərəqində müxtəlif həll variantları, onların hər birinin qarşısında isə onun qəbul edilməsinin mümkün müsbət və mənfi nəticələri yazılır);

-«beyin həmləsi» metodu üzrə danışıqların ayrı-ayrı məsələlərinin qrup şəklində müzakirəsinin aparılması;

-həll variantlarının qiymətləndirilməsi üzrə ekspert sorğusu;

-imitasion modelləşdirmə; risk və qeyri-müəyyənlik dərəcəsinin aşkar edilməsi üçün kompüter texnikasından istifadə; qərarların qəbul edilməsi üçün norma və prosedurların seçilməsi; «üçüncü tərəf» qismində kompüterdən istifadə olunmaqla qərarların qəbul edilməsi prosesinin optimallaşdırılması.

**Danışıqların aparılması.** Danışıqlar tərəflərin problemin müzakirəsinə başladıqları andan etibarən başlanır. Danışıqlarda səmti müəyyənləşdirmək üçün danışıqlar aparlarkən qarşılıqlı fəaliyyət prosesinin nədən ibarət olmasını, hansı mərhələlərdən keçməsini yaxşı başa düşmək zəruridir. Danışıqların aparılmasının üç mərhələsindən söz açmaq olar:

-iştirakçıların mənafelərinin, konsepsiyalarının və mövqelərinin dəqiqləşdirilməsi;

-müzakirə (öz baxış və təkliflərinin əsaslandırılması);

**Mənafelərin və mövqelərin dəqiqləşdirilməsinin** gedişində müzakirə olunan problemə dair informasiya qeyri-müəyyənliyi aradan götürülür. Danışıqlar üzrə tərəfdaşla «ümumi dil» tapılır. Məsələləri müzakirə edərkən, əmin olmaqt zəruridir ki, eyni termin altında tərəflər müxtəlif deyil, eyni məsələləri başa düşürlər. Dəqiqləşdirmə mərhələsi tərəflərin öz mövqeyini açıqlamasında (rəsmi təkliflərini səsləndirməsində) və onlara dair izahat verməsində təzahür edir. Tərəflər təkliflər irəli sürərkən, öz prioritetlərini, özlərinin problemin mümkün həlli yollarına dair baxışlarını müəyyən edirlər.

**Müzakirə (dəlillərn irəli sürülməsi) mərhələsi** öz mövqeyinin maksimum anlaşıqlı şəkildə əsaslandırılmasına yönəlmişdir. O, tərəflər kompromis yolu ilə problemin həllinə istiqamətləndikdə xüsusi əhəmiyyət kəsb edir. Müzakirə zamanı opponentə tərəfin nəyə görə hansı addımlara gedə bilməyəcəyi göstərilir.

Müzakirə mövqelərin dəqiqləşdirilməsinin məntiqi davamıdır. Tərəflər diskussiyanın gedişində dəlillərin irəli sürülməsi, tərəfdaşların təkliflərinin ünvanına qiymətlərinin səsləndirilməsi yolu ilə nə ilə və nəyə görə prinsipial surətdə razılaşmadıqların, yaxud, əksinə, nəyin gələcək müzakirə predmetini təşkil edə biləcəyini göstərirlər. Tərəflər problemi danışıqlar yolu ilə həll etməyə çalışdıqda dəlillərin irəli sürülməsi mərhələsinin yekunu mümkün razılaşmaların çərçivələrinin müəyyən edilməsi olmalıdr.

Üçüncü mərhələ **mövqelərin razılaşdırılmasıdır.** Razılaşdırmanın iki mərhələsi fərqləndirilir: əvvəlcə ümumi formul, sonra is təfsilat razılaşdırılır. Sazişin ümumi formulu, sonra isə təfsilatı razılaşdırılarkən tərəflər, bir növ, hər üç mərhələni keçirlər: mövqelərin dəqiqləşdirilməsi, müzakirəsi və razılaşdırılması. Əlbəttə, fərqləndirilən

mərhələlər heç də həmişə bir-birinin ardınca gəlmir. Tərəflər mövqeləri dəqiqləşdirərkən, həm məsələləri razılaşdıra, həm də öz fikrini müdafiə edərək, xüsusi ekspert qrupları yarada bilərlər. Danışıqların sonunda iştirakçılar yenidən öz mövqelərinin ayrı-ayrı elementlərinin dəqiqləşdirilməsinə keçə bilərlər. Lakin bütövlükdə danışıqların məntiqi saxlanmalıdır. Onun pozulması danışıqların uzanmasına və hətta pozulmasına gətirib çıxara bilər.

**Nəticələrin təhlili**. Danışıqlar prosesinin yekun dövrünü danışıqların nəticələrinin təhlili və əldə olunmuş razılaşmaların yerinə yetirilməsi təşkil edir. Belə hesab olunur ki, tərəflər hansısa sənədi imzalamışdırsa, danışıqlar nəticə vermişdir. Lakin sazişin mövcudluğu hələ danışıqların uğurlu olduğunu ifadə etmir, sazişin olmaması isə heç də həmişə danışıqların iflasa uğradığını göstərmir. Danışıqlara və onların nəticələrinə verilən subyektiv qiymət danışıqların uğur qazanmasının ən mühüm göstəricisidir. Hər iki tərəf danışıqların yekunlarını yüksək qiymətləndirdikdə danışıqları uğurlu hesab etmək olar.

Danışıqların uğurla nəticələnməsinin başqa bir çox mühüm göstəricisi **problemin həllolunma dərəcəsidir.** Uğurlu danışıqlar problemin həllini nəzərdə tutur, lakin iştirakçılar problemin həllini müxtəlif cür görə bilərlər.

Danışıqların uğurla nəticələnməsinin üçüncü göstəricisi **hər iki tərəfin öz üzərinə götürdükləri öhdəlikləri yerinə yetirməsidir.** Danışıqlar başa çatsa da, tərəflərin qarşılıqlı təsiri davam edir. Qəbul olunmuş qərarlar yerinə yetirilməlidir. Bu dövrdə opponentin etibarlılığı, onun razılaşmalara dəqiq riayət etməsi haqqında təsəvvür yaranır.

Danışıqlar başa çatdıqdan sonra onların məzmun və prosessual cəhətləri təhlil olunmalıdır, yəni aşağıdakı məsələlər müzakirə olunmalıdır:

-danışıqların uğur qazanmasına nə təkan verir;

-hansı çətinliklər yaranmış və necə aradan qaldırılmışdır;

-danışıqlara hazırlıq zamanı nə və niyə nəzərə alınmamışdır;

-danışıqlarda opponentin davranışı necə olmuşdur;

-danışıqların aparılmasına dair hansı təcrübədən istifadə etmək olar.

Münaqişəli vəziyyətdə danışıqlar danışıqların xüsusi ayrıca halıdır. Buna görə də yuxarıda danışıqlar sənəti haqqında deyilənlər münaqişəli vəziyyətdə danışıqlara da aiddir. Lakin münaqişə şəraitində danışıqlar aparmaq normal, münaqişəsiz münasibətlər şəraitinə nisbətən daha çətindir. Burada danışıqların predmetinə dair əks mövqe tutan və müqavimətə köklənən tərəfdaşla üzləşmək lazım gəlir. Bu, lap əvvəldən nəzərə alınmalıdır. Başlıca vəzifələrdən birini bu müqavimətin aradan qaldırılması təşkil etməlidir.

Danışıqlara əvvəlcədən hazırlaşmaq zəruridir. İlk növbədə, birincisi, nə istədiyin və nə əldə edə biləcəyin, ikincisi, opponentin nə istədiyi və nə əldə edə biləcəyi haqqında kifayət qədər aydın təsəvvürə malik olmaq tələb ollunur.

Nə qədər qəribə görünsə də, çox vaxt münaqişəçilər özləri nə istədiklərini və prinsipcə bu istəyin həyata keçirilməsinin mümkün olub-olmadığını yaxşı bilmirlər, hərçənd onlara elə gəlir ki, hər şey aydındır və düşünməyə ehtiyac yoxdur. Rəqibinin niyyətlərini başa düşməmək hallarına isə daha çox rast gəlinir.

Özünüzün, habelə opponentinizin niyyətlərini necə müəyyən etməyinizdən və onların həyata keçirilməsi imkanlarını necə qiymətləndirməyinizdən asılı olaraq özünüz üçün ən məqbul danışıqların aparılması üslubunu seçə bilərsiniz. Münaqişədə insanların davranışının müxtəlif strategiyalarını təsvir edən Tomas-Killmen sxeminə istinadən münaqişəli vəziyyətdə danışıqların aparılmasının dörd əsas üslubunu fərqləndirmək olar:

**1.Sərt üslub. Rəqabət** strategiyasına uyğundur.

Bu üslubda danışıqları apararkən öz tələblərinizdə təkid edir, güzəştə getmir, opponentinizə təzyiq göstərməklə və onun mənafelərinin təmin edilməsinin qayğısına qalmadan qələbəyə nail olursunuz. Ümid bəslədiyiniz nəticə «udma-uduzma» (yəni sizin udmağınız – onun uduzmağı) formulu ilə ifadə olunur.Belə danışıqlar üslubunun başlıca təhlükəsi bundan ibarətdir ki, opponent də ona əsaslansa, nəticə başqa formulla ifadə olunucaqdır: «uduzma-uduzma» (yəni həm siz, həm də opponentiniz) uduzursunuz- münaqişədən qarşılıqlı surətdə məqbul çıxış yolu tapılmır).

Sərt üslubda danışıqlar onların nəticəsindən asılı olmayaraq, heç də opponentlə münasibətləri yaxşılaşdırmır.Siz həmin danışıqlarda münaqişənin öz xeyrinizə həllinə nail olduqda onun sizə qarşı düşmənçiliyi şübhə doğurmur. İstədiyinizə nail olmadınqda daha pis vəziyyətə düşürsünüz. O halda opponentin düşmənçiliyinə üstünlük və hətta nifrət hissi əlavə olunur. Bu, sizin növbəti danışıqlarda «udma-uduzma» yanaşmasını həyata keçirmək imkanınızı və ümumiyyətlə nə vaxtsa münaqişənin sizin üçün əlverişli həlli ehtimalını kəskin surətdə azaldır. Opponentiniz də sərt üslub seçdikdə və nəticədə danışıqlar dalana dirəndikdə siz ona qarşı onun sizə bəslədiyi hissləri bəsləyəcəksiniz. Burada münaqişənin ən pis dağıdıcı nəticələrindən qaçmaq mümkün olmayacaqdır.

Sərt üslub təhlükəli üslubdur. Danışıqları yalnız o halda sərt üslubda aparmağa dəyər ki, birincisi, opponentlə yaxşı münasibətlərin qurulmasında maraqlı olmayasınız, məqsədiniz yalnız mübahisəli məsələlərə dair tələblərinizin təmin edilməsi üzərində təkid etməkdən ibarət olsun, ikincisi, siz qüvvə balansında opponent üzərində aşkar üstünlüyə malik olduğunuza əmin olasınız.

Bu şərtlər mövcud olmadıqda həmin üslubdan istifadə etməmək daha yaxşıdır. Düzdür, ekstremal vəziyyətdə olduqda və artıq itirməli heç nəyin qalmadığını, seçim imkanının olmadığını hiss etdikdə sərt danışıqlar aparmaqdan başqa yol yoxdur. Lakin bu, riskli qərardır və dərk etmək lazımdır ki, burada uduzmaq ehtimalı yüksəkdir.

Sərt danışıq üslubu texnikası, əsasən, öz gücünün nümayişinin müxtəlif üsullarından ibarətdir. Bu güc real, yaxud xəyali ola bilər, lakin vacib olan opponentin onu etiraf etməsidir. O, güc əməliyyatlarının həyata keçirilə biləcəyinə əmin olduqda real əməliyyatlar zərurəti aradan qalxır.

Sərt üslubda danışıqların aparılmasının iki əsas taktikası mövcuddur: 1)ultimatum taktikası və 2) güzəşt qoparma taktikası.

**2.Mülayim üslub. Uyğunlaşma** strategiyasına cavab verir. Danışıqların aparılmasının bu üslubu nəzərdə tutur ki, opponentlə mehriban münasibətlərin qurulması münaqişədə tutduğunuz mövqeyin müdafiəsindən daha vacibdir. Siz güzəştcillik göstərir, opponentin istəyinə doğru addım atırsınız. Bu üslubda danışıqların nəticəsi «uduzma-udma» formulu ilə ifadə oluna bilər. Lakin öz tərəfindən opponentinizin də bu danışıqlar üslubunu seçməsi, yəni onun sizin güzəştlərinizə güzəştlə cavab verməsi halında nəticə «udma-udma» kimi ifadə oluna bilər.

**3. Sövdələşmə üslubu. Kompromis** strategiyasına uyğundur. Siz opponentinizin başlıca tələblərinizi təmin etməyə razılıq verməsi üçün zəruri olan minimum güzəştlərə getməklə danışıqlarda özünüz üçün əlverişli nəticəyə can atırsınız. Sövdələşmə üslubunda danışıqlar zamanı siz tərəfdaşınızın mənafelərinə doğru addım ataraq, əvəzində sizin xeyrinizə güzəştlər barədə «sövdələşməlisiniz». Belə danışıqların nəticəsi müxtəlif ola bilər: öz mövqeyinizdə təkid edib opponenti onun üçün əlverişli olmayan şərtlərə vadar edə bilsəniz, «udma-uduzma»; bunu etməyi opponentiniz bacarsa, «uduzma-udma»; razılaşma qarşılıqlı faydalı olsa «udma-udma» və nəhayət, sövdələşmə bağlandıqdan sonra onun həm sizə, həm də opponentinizə ziyan vurduğu aydınlışdıqda «uduzma-uduzma».

**4. Əməkdaşlıq üslubu. Əməkdaşlıq** strategiyasına uyğundur. Danışıqlar bu üslubda aparılarkən siz qarşınıza həm öz mənafelərinizi, həm də opponentinizin mənafelərini maksimum təmin etmək məqsədini qoyursunuz. Siz opponentinizin mənafelərinin qayğısına qaldığınızdan ümid etmək olar ki, o, sizin mübahisənin qarşılıqlı surətdə məqbul həllini tapmaq səylərinizə dəstək verəcəkdir. Sizin ümid bəslədiyniz nəticə «udma-udma»dır. Siz danışıqların aparılmasında kifayət qədər məharət, bu üslubda danışıqlar prosesinin metodikasına yaxşı yiyələnmə və zəruri çeviklik göstərsəniz, beldə nəticənin əldə edilməsi ehtimalı kifayət qədər yüksəkdir.

Tomasa–Killmen sxemi münaqişədə daha bir davranış strategiyasını nəzərdə tutur – **yayınma (qaçma)**. Lakin danışıqların aparılmasının bu strategiyaya uyğun üslubunu nəzərdən keçirməyin mənası yoxdur, çünki bu strategiyaya əsaslanan insan, bir qayda olaraq, həm münaqişəyə cəlb olunmaqdan, həm də onun həlli üzrə danışıqlardan yayınır.

Danışıqların aparılmasının müxtəlif üslubları üçü səmərəli ola biləcək çoxlu ayrı-ayrı texniki üsullar mövcuddur. Konfliktoloqlar sadalanan dörd danışıq üslubunun hər biri üçün xüsusi metodikalar da işləyib hazırlamıışlar. Sizin danışıqları aparmaq istədiyiniz üslubu müəyyən etmənizdən sonra opponentin mövqelərini, niyyətlərini və davranışını nəzərə almaqla həmin üsluba uyğun metodik vasitə və üsullardan istifadə etmək məqsədəuyğundur.

Təcrübədə müxtəlif danışıq üslubları və metodikaları həm ayrılıqda, həm də müxtəlif birləşmələr şəklində tətbiq oluna bilər.

**Ədəbiyyat:**

1.Овчинников В.С. Политические конфликты в международных отношениях и пути их разрешения. – М., 1990.

2.Социально-политические конфликты и сфере межнациональных отношений и пути их разрешения. – М., 1990.

3. Мацнев А.А. Этнополитические конфликты: природа, типология и пути урегулирования // Социально-политический журнал, 1996. - № 4.

4. Каррас Ч. Искусство ведения переговоров. – М.,1997.

5. Скотт Дж.Г. Конфликты, пути их преодоления. – Киев,1991.

6.Фишер Р., Эртель Д. Подготовка к переговорам. – М.,1996.

### 10-cu mövzu

## QAFQAZ MÜNAQİŞƏLƏR REALLIĞINDA

**Suallar:**

1. Qafqaz regionunda münaqişələrin səbəbləri.
2. Qafqazda sabit sülhün perspektivləri.

İndiki şəraitdə sülhün qorunması üzvi şurətdə XXI əsrin astanasında olan dünya birliyinin obyektiv vəziyyətindən irəli gəlir. Problemin mahiyəti ondadır ki, 50 illik konfrantasiya və soyuq müharibə erasından sonra, bəşəriyyət onu münaqişəyə gətirib çıxara biləcək, müxtəlif növ hərbi avantürlərdən, «kiçik» müharibələrdən, geostrateci yarışlarda hakimlik uğrunda döyüşlərdən, müxtəlif klanların siyasi hökmranlıq əldə etmək cəhdlərindən və sairdən qoruya biləgək universal sistem yaratmaq üçün unikal imkan əldə etmişdir. XX əsr, xüsusən də onun sonuncu onilliyi bu cür nümunələrlə zəngindir. 1 milyondan çox insan həyatına son qoymuş və BMT – nin Təhlükəsizlik Şurasının daimi üzvlərindən biri olan, Fransa respublikasının hərbi müdaxiləsini tələb edən, Ruanda (Afrika), 3 milyondan çox insanın fiziki məhvinə gətirib çıxaran Kampuçiyadakı «Qırmızı kxmirlərin» təcrübəsini yada salaq.

Geosiyasi hakimliyə parlaq misal olaraq, Sovet hərbi hissələrinin Əfqanıstana soxulmasını göstərmək olar. Sovetlər məlubiyyətə uğrayaraq, Əfqanıstanı tərk etməyə məcbur oldular, lakin onlar regional və geosiyasi hakimliyə can atan xarici qüvvələrin arxasında durduğu daxili siyasi quruplaşmalar və klanlar arasında gedən müharibəni özlərindən sonraya qoydular. Dövlətlərin geosiyasi və geostrateci mənafeləri naminə əfqanlar məhv olurlar. Və hadisələrin göstərdiyi kimi, bu qonşu ölkələrə də yayıla bilər. Əfqan konfliktinin yaxınlığı qonşu Tacikistanda öz əks sədasını tapır. Və nəticə olaraq, Rusiyanın geostrateci mənafelərinin «sıxışdırılması» və onun tərəfindən cavab reaksiyası MDB – nin «sülhsevər qüvvələri» bayrağı altında öz qoşunlarını suveren Tacikistanın öz ərazisinə yeritdi. MDB – nin «sülhsevər qüvvələrin» adlandırdıqları 100 faiz bir ölkənin vətəndaşlarından təşkil olunmuş və bütünlüklə Rusiyanın silahları, döyüş sursatları ilə təchiz, vəsaiti ilə tə'min edilir. Bəs sonra? Sonra vəziyyət daha da gərginləşə bilər, digər ölkələrin mənafeləri cavab reaksiyasına gətirib çıxaracaqdır. Beləliklə, daxili konflikt, tarixdə dəfələrlə rastlaşdığımız kimi, gözlənilməz nəticələrlə bitən beynəlxalq konfliktə keçə bilər.

Belə faktlar da mə'lumdur ki, yüzlərlə ölənlərin və yaralıların olması ilə nəticələnən konfliktlər etnik və millətlərarası zəmində yaranır. Keçmiş Yuqoslaviya İttifaqının

respublikalarından biri olan Bosniya və Hersoqovinada BMT, NATO – nun hərbi müdaxiləsini və qüdrətli dövlətlər tərəfindən qoşunlarının göndərilməsini tələb edən, serblər, xorvatlar və müsəlmanlar arasında olan qanlı hadisələri buna misal göstərmək olar. Deyilənlər, keçmiş sosialist Yuqoslaviyasının vilayətlərindən biri olan, iki milyona yaxın albanın sıx şəkildə yaşadığı Kosova hadisələrində daha aydın meydana çıxır. Serb qoşunlarının yalnız bir kənddə 50 nəfərə yaxın – kişi, qadın, qoca və uşağın fiziki məhvi, 1998, 1999 – cu ilin əvvəllərində olduğu kimi, daimi tə'qiblər, yerli əhalinin kütləvi qətlləri, sıxışdırılma, belə vəhşiliklər albanları silaha sarılmağa vadar etdi.

Uzun sürən konfrantasiya və Qərbin sə'yləri qarşıduran tərəfləri Paris ətrafındakı Rambuye sarayında danışıqlar stolunun arxasına oturmağa məcbur etdi. Qarşıduran tərəflərin görüşünə Fransa Respublikasının prezidenti Jak Şirak hakimlik edirdi. və nəticə olaraq, uzun və ağır danışıqlardan sonra, tərəflər razılığa gələrək, müvafiq sənədi imzaladılar. Bu sənədin proyekti Yuqoslaviya İttifaqının və serbiyanın sərhədlərinin pozulması çərçivəsində Kosovanın yüksək daxili muxtariyyətini şərtləndirir. Geosiyasi maraqları dövlətlərin, ilk növbədə iki əsrdən artıq olaraq bu regionu özünün yüksək geosiyasi maraq zonası sayan Rusiyanın tərəfindən fəal müdaxiləsinə mə'ruz qalırdı. İndi də Rusiya Avropada öz məqsədlərinin son dayağını saxlamağa çalışaraq, Serbiyanı yad nəzərlərdən qoruyur və ona himayədarlıq göstərir. Özünün ali rəhbərləri – Rusiyanın keçmiş prezidenti B.Yeltsin də daxil olmaqla, keçmiş baş nazir E.Primakov, xarici işlər naziri İ.İvanov tərəfindən Serbiyanın ərazi bütövlüyünün qorunması və Kosovanın Serbiyanın tərkibində muxtariyyətinin mümkünlüyü barəsində bəyanat verilmişdir. Bəli, biz Serbiyanın ərazi bütövlüyünün tərəfdarıyıq. Dövlət daxilində dövlətin olması mümkün deyil. Və bu prinsip ölkələrin coğrafi mövqeyindən, dini məzhəbindən və nəhəng dövlətlərin geostrateci maraqlarından asılı olmayaraq, hamı üçün eyni olmalıdır. Buna nail olaraq, yer kürəsinin hər bir nöqtəsində ümumi təhlükəsizliyi və sülhü saxlamaq olar. Elə görünürdü ki, tərəflər razılaşdı və Yuqoslaviya torpağından sülh qələbə çaldı. Lakin, Serbiya son anda birgə sənədi imzalamaqdan imtina etdi. Məsələ bundadır ki, Serbiya uzun müddət BMT və yaxud NATO qoşunlarının konflikt zonasına daxil olmasına qarşı çıxırdı. Serbiyanın imtina etməsi, NATO – nun hərbi müdaxiləsini avtomatik olaraq hərəkətə gətirdi və Yuqoslaviya ərazisinin hava – raket hücumu başladı. Rusiya bütün vasitələrlə NATO – nun Yuqoslaviyadakı fəaliyyətinə nail olmağa çalışırdı. Lakin, nəticədə NATO qoşunları Yuqoslaviyaya daxil oldu və Kosovada yerləşdi. Yuqoslaviya gecə qaranlığında Rusiya sülhsevər qit'əsindən 200 – ə yaxın əsgəri, Kosovanın paytaxtı Printikaya, hansı ki, Bosniyada yerləşmişdir, keçirərək öz «əzəmətini» nümayiş etdirdi. Zaman bu məsələdə qərbin mövqeyinin doğruluğunu göstərəcək. Amma indi serblərin tərəfindən Kosovanın alban əhalisinin kütləvi qətllərinin qarşısının alındığı görünür. Onları yalnız müsəlman

doğulduqları üçün, fiziki məhv edirdilər. Genosid dayandırılmışdır, sonra isə nə olacağını zaman göstərər.

İndiki şərait, sosialist sisteminin demək olar ki, mövcudluğuna son qoyulduğu və dünya birliyinin vahid şəklə salınması, yə'ni bazar iqtisadiyyatı, kapitalizmə keçidi ilə əlaqədar, dünya olduqca idarəolunan olmuşdur. Əlbəttə, hələ də «inkişaf etməkdə olan dövlətlər» termini qalmışdır, hansı ki, bu dövlətlər gec və ya tez kapitalist inkişaf yolu ilə gedəcəklər. Laosda,Kampuçiyada, İndoneziyada, Suriyada, Birma, Əlcəzair, Misir və sairdə sosialist təcrübələri iflasa uğramışdır. İndiki dövrdə bəşəriyyətin inkişafının müxtəlif pillələrində olan dövlətlərin bir-birinə qarşılıqlı fayda verməsi üçün əməkdaşlıq yollarını tapması vacibdir. Və bu qarşılıqlı əlaqənin amilləri tamamilə müxtəlif ola bilər. Hər bir ayrıca regiona, xüsusən də Qafqaza beynəlxalq hüququn dörd subyektinə fərqli yanaşma vacibdir. Rusiya, Azərbaycan, Gürcüstan və Ermənistanın milli və beynəlxalq təhlükəsizliyi naminə gözlənilməz nəticələr gətirəcək ziddiyyətləri deyil, təmas nöqtələrini tapmaq gərəkdir.

XX əsr bu cür faktlarla zəngindir, allah XXI əsri belə hadisələrdən qorusun. Bununla bağlı olaraq sülhün saxlanılması SSRİ – nin dağılmasından sonra, əmələ gələn gənc və suveren dövlətlərin daxili vəziyyətindən və xarici siyasətindən xeyli asılıdır. Dünya hər şeyi «böyük qardaş» adlandırılanın ümüdünə qoyduqda, nə baş verəcəyini hələ dərk etməmişdir. Hazırki halda bu rolda Rusiya çıxış edərək, həmin ölkələri öz geosiyasi maraqları zonası hesab edir. Bununla bərabər, digər ölkə və imperiyaların tarixindəki analoqları kənara qoymuşdur. Deyilənləri Rusiyanın Vyetnam və Kubanı, Serbiyanı və İranı, Suriya və liviyanı, Ermənistan və Belorusiyanı, Zaqafqaziya və Mərkəzi Asiyanı öz geostrateci maraqları dairəsində görmək arzusu təsdiq edir. Məntiq sadədir, belə ki, Rusiya SSRİ – nin bütün aktiv və passivlərini öz üzərinə götürərək, özünü SSRİ – nin hüquqi varisi e'lan etmişdir. Adı çəkilən respublika və regionlar da Sovet nüfuz dairəsinə daxil idi.

Qüvvələrin universal bir sistem olan kapitalizmin xeyrinə dəyişməsi, sülhün və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə imkan yaratmışdır. Əlbəttə ki, beynəlxalq əlaqələr tarixində dəfələrlə olduğu kimi, dövlətlərin eynisistemli və eynitipli olması onların arasında müxtəlif toqquşmaların baş verməsini istisna etmir. Mə'lumdur ki, XX əsrdə başlanmış hər iki dünya müharibəsi eynitipli, kapitalist dövlətləri arasında baş vermişdir. Əlbət ki, biz eynitipli kapitalist sistemində rəqabətin dünyada Qafqaza xüsusi maraq yaratdığını, toqquşmalara gətirib çıxara biləcəyini istisna etmirik. Qafqaz indiiki şəraitdə, qüdrətli və iri dövlətlərin geostrateci rəqabətinin əsas sferalarından birinə çevrilmişdir. Qafqaz sabit sülh zonası və ya dünya kataklizmlərin vulkanı ola bilər. Və bu da qanunlardan istisna deyil. Məsələ bundadır ki, mümkün konfliktin əsasında ideoloci baza yer tutmayacaqdır. Mümkün konfliktlərin xüsusiyyəti bundadır ki, ideoloci konfrantasiyanın yoxluğu, onları az

– çox gözlənilən hala salır, daha bəşəriyyət bu və ya digər sistemin ideoloci ambisiyaları naminə bıçağın tiyəsi üzərində hərəkət etmir. Mə'lumdur ki, XX əsrin 50 – 60 – cı illərində ideoloci amil dünyada beynəlxalq gərginliyin artmasına səbəb olan əsas istiqamətlərdən biri idi. SSRİ – nin təmsilində sosialist sisteminin və onun bünövrəsinin dağılması, dünyanı xeyli təhlükəsiz etmişdir. Əsas iki qarşıduran sistemlərin ideoloci, hərbi – siyasi konfrantasiyası aradan götürüldü. Geostrateji hakimliyə can atması bu iki bloku bir – birinə qarşı qoyan əsas xətt idi. İndi zidd hərbi – siyasi bloklar olmasa da, geosiyasət qalmaqdadır. Rusiyanın daima dünyanın hər hansı bir nöqtəsində öz maraqlarının sıxışdırılmasına yol veriləcəyini e'lan etməsi buna nümunədir. Son illərdə rusiyanın Vyetnamda, Kiprdə, Serbiya, İran və həmçinin Ermənistanda yerləşən SSRİ – nin keçmin hərbi bazası – Kamraya yüksək maraq göstərməsini məhz bununla izah etmək olar. NATO Serbiyaya qarşı hərbi əməliyyatları başlayan kimi, Rusiya «adekvat tədbirlər göstərəcəyini» e'lan etdi. Bu o deməkdir ki, Rusiya öz mənafelərini tələb etdiyi qədər, İraqa, İrana, Şimali Koreyaya, Liviyaya, Yuqoslaviyaya, Ermənistana silahlanmaya kömək etməyə hazırdır. Bu haqda Kosova konfliktinin qızğın çağında Rusiyanın keçmiş müdafiə naziri, indiki prezident müavini marşal İ.Sergeyev açıq bə'yan etdi. Baxmayaraq ki, onların bə'zilərində Rusiyanın hərbi bazaları yoxdur, lakin onlarda müasir Rusiya silahları var. Bunlara Kiprə satılmış SS – 300 raketlərini, İrana satılmış müasir işəsalma qurğuları, artilleriya, sualtı qayıqlar və sairi aid etmək olar. Son iki ildə Rusiya Şimal dənizində və Sakit okeanda ən müasir qit'ələrarası atom gəmilərini və təyyarə gəmilərini yerləşdirmiş və həmçinin «ulduz müharibələrinin» komponentlərindən olan müasir qit'ələrarası «Topol – M – 1» və «Topol – M – 10» raketlərini hərbi növbətdə saxlamışdır. Sual doğur: əgər dünya konfrantasiyası yoxdursa, onda bu silahlar Rusiyaya nə üçün lazımdır. Bu digər dövlətlər və xüsusilə ABŞ tərəfindən cavab reaksiyası doğuracaq çox təhlükəli və ehtiyatsız addımdır. Və ABŞ – ın prezidenti Corc Buşun ABŞ – ın raketə qarşı müdafiə konsepsiyasına və PRO - 2 müqaviləsinə yenidən baxılacağını bəyan etməsi məqsədsiz deyil. Bütün bunlar «soyuq müharibə» erasının yeni burum və bərpasını göstərir. Suveren ölkələrin üzərindən keosiyasi zontun yaradılması da, bununla izah olunur. Bu hələ 90 – cı illərdə «soyuq müharibə» dünyanı son həddəcən silahla doydurmuşdur və bununla da özündən sonra güclü gec açılan minaları qoymuşdur» deyən E.Xobsbomun qabaqgörən sözlərinə olduqca müvafiqdir.

Məsələ bundadır ki, hər bir ölkə başqa dövlətlərin arzusundan asılı olmayaraq, kənardan təzyiq olmadan öz daxili işlərini həll etmək ixtidarındadır. Və bu halda nəhəng dövlətlərin öz geosiyasi cəhdləri naminə digər dövlətlərin, xüsusən də kiçik dövlətlərin ləyaqətini sıxışdırmağa haqqları yoxdur. Belə hallarda lokal konfliktlər, bütün dünyanın və ilk növbədə iri dövlətlərin maraqlarının episentrinə çevrilir. Bir çox dövlət belə hallarda öz xarici siyasətini araşdırmağa məcbur olurlar. Rusiyanın suveren Baltikyanı dövlətlərə qarşı

siyasəti kəskinləşən kimi, Qərbi Avropa dövlətləri və ABŞ Rusiyanın bu hərəkətlərinin, onun Qərb dövlətləri ilə əlaqələrində özünü mütləq göstərəcəyini bildirdi. Bu mövqeyi ABŞ – ın keçmiş dövlət katibi Q.Kissencer dəqiq müəyyənləşdirdi: «Kremlin 300 il ərzində Rusiyanın geniş sərhədlərinin ətrafında çarlar və komissarlar tərəfindən yaradılmış təzyiq dairəsini öz əlinə almaq hüququ yoxdur».

Bununla Rusiyaya XXI əsrin astanasında özbaşına və öz istədiyi kimi hərəkət edə bilməyəcəyini başa saldılar.

Beynəlxalq təhlükəsizlik indiki dövrdə lokal deyil. Və avtonom konfliktlərin olmaması üün, bütün dünya ümumdünya vəziyyətini nəzərə almalıdır. Belə ki, Qarabağ konfliktinin təşəbbüskarları başlanğıcdan onu yerli, lakin mərhələli inkişafda olan hal kimi qiymətləndirirdilər. Bununla bərabər, onlar irəlidə çox pilləlilik variantını da nəzərdən keçirirdi. Lakin, əsas qoyulmuş məqsədə nail olmaq idi. İlkin taktika bütün problemləri ildırım sür’ətilə həll etməkdi. Ehtimal etmək olar ki, konfliktin başlanğıcında onlar qoyduqları məqsədə bir neçə gündə müvəffəq olardılar. Sonra necə? Uduzanlar kölgədə qalmazdılar, cavab reaksiyası olaraq onlar gözlənilməz nəticələrlə bitəcək qisas almağa cəhd edərdilər.

Əgər bu və ya digər avantüranı başlayanların məntiqi ilə hərəkət etsək, onda bəşəriyyət təhqirdən başqa heç nə əldə etməz, belə ki, bu cür hallar beynəlxalq və millətlərarası əlaqələrdə qüvvətli «kölgə» diplomatiyasının norması ola bilər. Belə halda BMT – nin bütün kiçik və iri dövlətlərin bərabər hüquqluluğu haqqında bəyanatı öz mə’nasını, ümumavropa müşavirəsinin sərhədlərin pozulmazlığı haqqında son aktı öz əhəmiyyətini itirər. Və iri dövlətlər kiçik dövlət və xalqların arzu və iradəsini öz rə’yinə əsasən diktə edə, alçalda, nəzərə almaya bilərlər. Dünya birliyinin gələcəyinin gələcəyi qeyri – real və gözlənilməz olar. Bu istiqamətdə inkişafda hər bir hüquqları tapdanmış və təhqir olunmuş xalq, illər və yaxud hətta əsrlər keçdikdən sonra öz şərəfini bərpa etmək və itirdiklərini qaytarmaq məntiqi olacaqdır. Dünya diplomatiyasının çoxəsrlik tarixi göstərirdi ki, dünənki qaliblər səhər yenilmiş və alçaldılmış ola bilərlər. K.Klauzevvits qeyd edir ki, müharibə «yalnız siyasi akt deyil, həm də siyasətin həqiqi aləti, siyasi əlaqələrin davamı, onların digər vasitələrlə aparılmasıdır». Müasir ingilis alimi E.Kinqston Makklori də bu fikirdədir. «Qlobal strategiya» əsərində o haqlı olaraq qeyd edirdi ki, «müharibə dövlət siyasətinin alətidir ki, dövlət onunköməyi ilə öz məqsədlərinin həyata keçməsinə nail olur və ya öz qüdrətini möhkəmləndirir». Bu sözlər «Qarabağ müharibəsinin» məqsədlərinə bütünlüklə uyğun gəlir. Onun təşəbbüskarları, oyuncaq – icraçıları deyil, öz qarışıqlarına dünya miqyaslı avantürist məqsəd qoymuş və qoyurlar. Qarabağ avantürasının təşəbbüskarları və icraçıları öz məqsədlərinə başqa vasitələrlə çatmadıqlarına görə, XX əsrin qürubunda bu dəhşətli müharibəni başladılar. Azərbaycanlılar, ermənilər, keçmiş İttifaqdan

yoldaşlar məhv olurlar. Və nəyə görə? Ancaq bir şey aydındır ki, azərbaycanlılar Vətənin azadlığı uğrunda həlak olur, öz torpaqları uğrunda vuruşurlar. Onlara bu müharibəni kənardan zorla qəbul etdirmişlər, onlar öz torpaqları uğrunda, öz torpaqlarında döyüşürlər. Digərləri niyə tələf olurlar? Keçmiş imperiya əzəməti və imperiya sərhədlərinin arzusunda olan siyasətbazların siyasi ambisiyalarına görə. Onlar bu zaman bu torpaqların vaxtilə imperiyaya zorla hansı yolla yenidən birləşdiyini yaddan çıxarırlar.

Tarixi mə'suliyyət, elementar sağlam düşüncə və allah tərəfindən verilmiş insan həyatı instinkti yer üzündə heç kimə insan həyatına son qoymağa ixtiyar vermir. Lakin, tarixi təcrübə göstərir ki, bə'zi siyasətçilər üçün, onlar minlərlə insanları, bütöv xalqları, dövlətləri məhv etməyə hazırdılar. Əvəzində imperiya müəyyən dövr üçün yenidən bərpa olacaq, öz keçmiş əzəməti və keçmiş geniş sahəsinin konturları bərpa ediləcəkdir. Digər dövlətlərin arzu və iradəsinə gəldikdə isə, bu onları çox az narahat edir. Lakin, çoxəsrlik bəşəriyyət tarixinin təcrübəsi göstərir ki, sülh və sülh şəraitində birgə yaşayış hamı – iri və kiçik dövlətlər üçün eynidir. Yaddan çıxartmaq lazım deyil ki,XX əsrdə başlayan hər iki dünya müharibəsi iri dövlətlərin kiçik dövlətlərlə toqquşması nəticəsində baş vermişdir. Tarix siyasi səhvləri bağışlamır və başqalarına dərs verməyə çalışmaqdansa, onun verdiyi ibrət dərsi ilə hesablaşmaq daha məntiqə uyğundur. Əlbət ki, hər hansı bir dövlətin mənafeləri ola bilər. Və bu da təbiidir. Lakin onları sivil yolla, açıq və gizli şantac, təzyiqə əl atmadan diplomatik və digər kanallardan istifadə edərək, həll etmək gərəkdir. Bir vaxtlar Vyetnamda olduğu kimi, cənubluların da arxasında – amerikalılar, şimallıların arxasında – sovetlər dururdu, iki super dövlətin silahları sınaqdan çıxır, əsasən isə vyetnamlılar məhv olurdular. İndi Vyetnam vyetnamlılara məxsusdur, hegomonluğa can atan gəlmələr isə öz evlərinə rədd olublar. Bu da tarix üçün dərsdir. Milyonlarla vyetnamlı həlak oldu, lakin öz şərəflərini və öz torpaqlarını qorudular. Belə faktlardan danışarkən, biz indiki başabəla siyasətçiləri düşünülməmiş addımlardan çəkindirməyə çalışırıq. Sülhü pozmaq asandır, çətin onu qorumaqdır. Bəs sonra?

Beynəlxalq təhlükəsizlik – mücərrəd anlayış deyildir. O, coğrafi mövqeyindən, ərazisinin ölçülərindən, əhalisinin sayından asılı olmayaraq hər bir dövlətin milli təhlükəsizliyi ilə tə'yin edilir. Beləliklə, beynəlxalq təhlükəsizlik barədə danışarkən onu həcmli və boşluqda başa düşmək lazımdır. Bu nə deməkdir? İndiki zamanda beynəlxalq təhlükəsizliyin taleyi birincisi təsadüfi, nadir konfliktlər, toqquşmalar, hadisələrdən, ikincisi geniş miqyaslı dövlətlərarası ziddiyyətlər və hərbi toqquşmalardan asılıdır. Nəyi həll etmək daha asandır? Fikirləşirik ki, adı çəkilən hadisələrin hər biri özlüyündə eyni dərəcədə əhəmiyyətlidir, belə ki, hər ikisi dünya konfliktinə səbəb ola, beynəlxalq şəraitin ağırlaşmasına gətirib çıxara bilər. Bu halda hər iki amil lazımi diqqət və vaxtında həll olunmağı tələb edir. Onların inkişafının gedişatı gecikdirilməsinə yol vermir. Geosiyasi və

təhlükəsizliyin konsepsiyası koordinal əhəmiyyət kəsb edir. Hamı, ilkin növbədə iri dövlətlər tərəfindən sivil yanaşma tələb edir.

H. Əliyevin dəfələrlə qeyd etdiyi kimi, toqquşma deyil, ümumi təmas nöqtələrini axtarmaq gərəkdir.

Qafqaz xalqları öz seçiminə görə deyil, allahdan qonşu olmuşlar. Deməli, qonşunun ərazisini ələ keçirmədən, ədavətsiz yaşamaq lazımdır. Qafqazda çox şey bir-birinə qarışmışdır: millətlər, onların mədəniyyətləri, adətləri, dinləri, ən'ənələri və sair. Digər tərəfdən hər hansı bir millət milli sərhədləri çoxdan aşmışdır, bir çox həmyerlilər dövlət sərhədlərindən kənarda yaşayırlar. Haqqa  görə qeyd etmək gərəkdir ki, bu Ermənistana aid deyil, burada yalnız ermənilər yaşayırlar.

Lakin Qafqazın sülh və əməkdaşlıq zonası olması üçün, ilk növbədə Azərbaycan, Gürcüstan və Rusiyanın ərazisindəki konfliktlərin ocağını söndürmək lazımdır. İkincisi «Qafqaz» anlayışına daxil olan ölkələrin ərazi bütövlüyünü və suverenliyini bərpa etmək lazımdır. Bunsuz dördlük ölkələri arasında iqtisadi əməkdaşlığın mümkün olmadığını, Rusiyanın Təhlükəsizlik Şurasının müavini ilə görüşündə H.Əliyev qeyd etmişdir.

Bu problemləri həll etdikdən sonra, gələcəkdə Türkiyə, İran, Mərkəzi Asiya və Qafqaz ölkələrinin də cəlb ediləcəyi Qafqaz Ümumi bazarını yaratmaq olardı.

Böyük enerci, mineral ehtiyyatlarının, nəqliyyat infrastrukturunun, Böyük İpək yolunun, telekommunikasiya və sairin burada cəmləşdiyini nəzərə alaraq, xarici investorları bura cəlb etmək olardı.

Biz Qafqazda inteqrasiya barəsində mücərrəd hal kimi deyil, yuxarıda və aşağıda olanların hamısını əhatə edən, üfüqi və şaquli hərəkat kimi danışırıq. Bütün bunlar regionun dövlətləri,şəhərləri, rayonları, elmi və istehsal mərkəzləri arasında elmi, iqtisadi, mədəni daha sonra isə siyasi əlaqələrin yaradılmasına imkan verəcəkdir.

Qarşılıqlı mənfəət, könüllülük, iqtisadi əməkdaşlıq hər bir xalqın və dövlətin bərabərliyi Qafqaz Ümumi bazarının hərəkətverici qüvvələri ola bilərdi.

Belə tədbirlərin həyata keçirilməsi Qafqazda rüsumsuz və vizasız zona yaradılmasına gətirib çıxarardı ki, burada bir növ «Şengenov» beynəlxalq əməkdaşlıq zonası əmələ gələrdi.

Bu regionda yerləşən dövlətlərin əməkdaşlığı inkişafının məntiqi inkişaf və rekonstruksiya Bankının yaradılmasına imkan yaradardı. Bütün bunlar isə ümumi maliyyə vasitəsinin, ödəmə və hesablama mexanizminin olmasına, iqtisadiyyatın, elmin, təhsilin, turizmin, nəqliyyatın və sairin birinci yerdə olan və perspektivin sahələrinin maliyyələşdirilməsinə imkan verərdi. Bunu etməklə, Qafqaz xalqları və dövlətləri müharibəni öz münasibətlərindən biryolluq çıxardılar.

Birgə siyasət konfliktlərin təşəbbüskarlarına qarşı ümumi mövqeyi tutmağa, gərginlik ocağını başlanğıcda söndürməyə imkan yaradardı.

Belə halda məkr, dini və geostrateci maraqlar yox olardı. Belə hallardan iri dövlətlər ümumi təhlükəsizlik naminə dar – milliyyət maraqlarına əsaslana bilməzdilər. Nə nəzərdə tutulur? Birinci beynəlxalq təhlükəsizlik yerli, təsadüfi konfliktlər, hadisələr və toqquşmalardan, ikincisi iri miqyaslı dövlətlərarası ziddiyyətlərdən asılıdır. Nə harada ağlabatandır? Fikirləşirik ki, adı çəkilən hadisələrin hər biri özlüyündə eyni dərəcədə əhəmiyyətlidir belə ki, hər ikisi dünya konfliktinə səbəb ola, beynəlxalq şəraitin ağırlaşmasına gətirib çıxara bilərdi. Beləliklə, hər iki halda problemə dəqiq və operativ yanaşma tələb olunur. Onlarının gedişatının inkişafı vaxtında və təxirəsalınmaz qərarlar tələb edir. (Onlarının gedişatının inkişafı vaxtında). Geosiyasi və təhlükəsizliyin geosiyasi koordinal əhəmiyyət kəsb edir hamının, ilkin növbədə isə hadisələr burulğununda iştirak edənlərin və bilavasitə konfliktə cəlb olunanların sivil yanaşması tələb olunur.

Bəşəriyyət tarixindəki keçmiş müharibələrin təcrübəsi göstərir ki, müharibəni başlayan uduzur və təcavüzkar dövlət tənəzzül edir, mə'nəzzül edir, mə'nəvi keyfiyyətlərini itirir. Digər tərəfdən təcavüz qurbanı güc toplayır, müvəqqəti də olsa məğlubiyyətlərdən lazımi nəticələr çıxarır. Çingizxanın, Makedoniyalı İsgəndərin, Qay Yuli Sezarın, Napoleonun, Hitlerin son dərəcə heyrətləndirici, dövr təşkil edən yürüşlərini, yaxın keçmişdəki ABŞ – ın Vyetnama, SSRİ – nin Əfqanıstana hücumlarını yada salaq. Bütün bu hərbi səfərlər səbəbkarların məğlubiyyəti ilə qurtarmışdır. Tarixin amansız qanunu və insan cəmiyyəti inkişafının məntiqi belədir. Sülhü və sakitliyi pozanlar müvəqqəti qəhrəmanların dəfnə qələngini alırlar, lakin şöhrət tezötəkdir. Bəşəriyyət isə öz növbəsində cəfalət və xarabalıq əldə edir. Heç nə sizsiz keçmir. Hər kəs laylı olduğunu almalıdır. Və bunun olmaması üçün, bu etapa gətirib çıxarmamağa dəyməz. Avantüra fikrində olan fikrindən dönməlidir. Yarı yolda dayanmaq məğlubiyyət deyil, dərk edilmiş zərurətdir. Qarşıdakı addımların marşların addımlarını ölçüb – biçmək, bəşəriyyət üçün ağır nəticələnəcək konfliktlərin girdabına düşməkdən çox – çox asandır.

Bu və ya digər dövlətin beynəlxalq təhlükəsizliyi pozmağa vadar edən amillər çox qatlı və hərtərəflidir. Bir qayda olaraq, onlar bir gün və bir saatda yaranmırlar. Onlar illərlə əmələ gəlir və formalahır. Və onları müəyyən etmək üçün, bu və ya digər regionda hüquq qaydalarının pozuntularına, sonuncda beynəlxalq təhlükəsizliyin qlobal pozuntusuna və qanlı müharibələrə gətirib çıxaran, konfliktin səbəbkarları və təşəbbüskarları olan dövlətin bütün daxili siyasətini tədqiq etmək lazımdır.

Sülhün və beynəlxalq təhlükəsizliyin qorunması BMT – nin hər bir üzvünün milli suverenliyini və ərazi bütövlüyünü təsdiq edən, BMT – nin nizamnaməsində öz əksini tapmış, hərtərəfli beynəlxalq hüquq reciminin yaradılmasına kömək edərdi. Bu Cenevrə Aktının son bəyanatında öz əksini tapmışdır.

Beynəlxalq hüquq normalarının universal xarakterli olması, onların bütün ölkələr

üçün və həmçinin ikitərəfli əlaqələrdə zərurəti göstərir ki, müasir beynəlxalq hüququn hər bir lokal normaları, ölkələr arasında əlaqələrin qəbuledilmiş və uyğun prinsiplərinə cavab verməlidir. Onların birtərəfli şərhi onlara e’tinasızlığa və sonuncda bu və ya digər dövlət tərəfindən pozulmasına bərabərdir. Bu isə hər hansı bir regionda gec və ya tez dünya konfliktinə çevriləcək konkret vəziyyətin yaranmasını göstərir. Belə vəziyyətdə müvafiq beynəlxalq təşkilatların gərginlik ocağını söndürmək və ya dayandırmaq üçün qabaqlayıcı metodlarla hərəkət etməsi, dünya yanğının var gücüylə alovvlanmasından xeyli əvvəl reaksiya göstərmisi vacibdir. Mə’lumdur ki, dünya konfliktləri uzun müddət yaranır və formalaşır. Onları əvvəldan müəyyən etmək olar. Əks halda bahalı və nüfuzlu beynəlxalq təşkilatların olmasının mə’nası yoxdur. Deyilənləri mühaibbəyə keçməzdən əvvəl bütün dünyanın gözü önündə yaranan və şiddətlənən çeçen müharibəsinin nümunəsi də analiz etmək olar. Digər tərəfdən bu konflikt bir dövlətin çərçivəsində yaranması cəhətindən nadir. Çeçen müharibəsinin teoretik konturlarını müharibənin başlanmasından bir neçə il əvvəl müəyyən etmək olardı. Əlbət ki, iri dövlətlərin maraqları var və qalmaqdadır, lakin onlar diktat yolu, silah gücünə, təzyiq metodları, gizli təhdid forması, e’lanedilməmiş blokada və sair ilə deyil, bu və ya digər dövlətlərin milli mənafelərini və şərəfini nəzərə alaraq öz həllərini tapacaqlar.

Toxunulan problemin incəliyi ondadır ki,o Qafqazda yaşayan bir çox xalqların və ölkələrin maraqlarına toxunur. Burada uğurlar və müvəffəqiyyətsizliklər olacaqdır. Əsas odur ki, bütün bu çeşidliliyə baxmayaraq,heç kimə və heç yerdə Ümumi Qafqaz evini silkələməyə imkan verilməsin. Qafqaz xalqları əsrlərlə qonşuluq etmişlər və onlar burada yaranmış bütün problemləri sülh yolu ilə həll etmək qüvvəsindədirlər.

**ƏDƏBİYYAT**


1. Г.Киссинджер. Дипломатия. М., 1997.
2. К.Клаузевиц. О войне. М., 1934.
3. Кингстон-Макклори. Глобальная стратегия. М., 1959.
4. E.Xobsvon. The Age of Extemes. A History of the World. 1914-1991. N.Y. 1994.

## 11-ci mövzu

# ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ-QARABAĞ MÜNAQİŞƏSİNİN GEOSİYASİ NƏTİCƏLƏRİ

**Suallar:**

**1.Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin əsas inkişaf mərhələləri.**

**2.Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasının perspektivləri.**

**3. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nəticələri.**

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ silahlı münaqişəsi öz başlanğıcını 1988-ci ilin feralından –DQMV Vilayət Sovetinin sessiyasının vilayətin Azərbaycan SSR-in tərkibindən çıxarılıb Ermənistana birləşdirilmsi haqqında qərar qəbul etdiyi vaxtdan götürür. Qeyd etmək lazımdır ki, miqyası lokal qarşıdurmanın sərhədlərini çoxdan keçmiş bu münaqişə uzun sürən və qanlı hərbi münaqişəyə çevrilmişdir. Münaqişənin əsasında konfessional yox, etniki faktorlar durur. Onun qaynaqları Ermənistanın siyasi müstəmləkəçiliyi və ərazi işğalları ilə bağlı olub, başlıca məqsədi hərbi güc tətbiq edilməsi yolu ilə digər müttəfiq respublikanın – Azərbaycanın ərazisinin bir hissəsinin ələ keçirilməsinə yönəlmişdir. Ermənistanın bu qara niyyətləri faktiki olaraq keçmiş SSRİ rəhbərliyi tərəfindən dəstəklənirdi. Məhz həmin rəhbərliyin ermənipərəst mövqeyi və dəstəyindən istifadə edən DQMV icra strukturları antikonstitusiya xarakterli aktlar qəbul etmişdilər ki, bunlar Ermənistanın Azərbaycana qarşı genişmiqyaslı hərbi aksiyalara başlamasının proloqu və başlıca səbəbləri olmuşdur.

Azərbaycan Ali Soveti 1991-ci il avqustun 31-də 1918-1920-ci illərdə mövcud olmuş müstəqil Azərbaycan Respublikasının bərpa olunması haqqında Bəyannamə qəbul etmişdi. Sentyabrın 2-də isə DQMV Vilayət Soveti və erməni əhalisinin məskunlaşdığı Azərbaycan Respublikası Şaumyan rayon Sovetinin birgə iclasında Dağlıq Qarabağ Respublikasının yaradıldığı elan olundu. Az sonra keçirilmiş referendum əsasında «DQR» öz müstəqilliyini elan etmiş və Azərbaycanın tərkibindən çıxmağa qərar vermişdi.

Həmin dövrdən etibarən Ermənistan hərbi birləşmələri mütəmadi olaraq Azərbaycanın ərazisinə daxil olmağa başlamış, burada hərbi meydan yaratmaq üçün böyük

miqdarda silah və sursat göndərilməyə başlmışdı. Bunlarla eyni vaxtda Azərbaycanın ərazisindəki ermənilər silahlandırılır, azərbaycanlı əhaliyə qarşı terror aktları törədilir, onların evləri yandırılır, özləri, ailələri, qoca və uşaqlar fiziki cəhətdən məhv edilir, Ermənistanla sərhəddə olan Azərbaycan kəndləri, qəsəbə və rayonları müntəzəm olaraq Ermənistanın ərazisindən atəşə məruz qalırdı.

Erməni-Azərbaycan hərbi münaqişəsinin qızışdırılmasına sovet dövlətinin imperiya siyasəti də meydan açırdı. Belə ki, Azərbaycanda genişlənməkdə olan milli-azadlıq hərəkatına divan tutmaq üçün «qayda-qanun yaratmaq» adı altında 1990-cı il yanvarın 19-dan 20-nə keçən kecə azğınlaşmış sovet qoşun hissələri Bakıya və Azərbaycanın digər rayonlarına yeridildi, hərbi cinayətlər görünməmiş miqyas aldı. «Qorbaçov» hərbi hissələrinin respublikamıza yeridilməsi nəticəsində müxtəlif millətlərə və dillərə mənsub olan yüzlərlə Azərbaycan vətəndaşı güllələndi, tankların tırtılları altında əzildi. Azərbaycanın dinc sakinlərinə qanlı divan tutulması «respublikada hakimiyyəti ələ keçirməyə çalışan islam fundamentalistlərinə qarşı mübarizə» elan olundu. İmperiya rəhbəri M.Qorbaçov sovet xalqına müraciətdə göstərdi ki, Azərbaycanda islam quruluşu yaradılmağa cəhd göstərildiyinə görə, Bakıya hərbi qüvvələr yeridilməsinə şəxsən göstəriş vermişdir. Məhz bunun nəticəsində günahsız adamlar məhv edilmiş, respublikamızın istiqlaliyyətinə böyük ziyan dəymişdi.

Faktlar şahidlik edir ki, erməni-Azərbaycan münaqişə zonasında iri miqyaslı hərbi əməliyyatlar 1991-ci ilin sonlarına təsadüf edir. Məhz həmin dövrdən etibarən müasir silahlarla silahlanmış Ermənistan hərbi qüvvələri və erməni hərbi birləşmələri bütün Ermənistan-Azərbaycan sərhəddi boyu və Dağlıq Qarabağda Azərbaycana qarşı hərbi əməliyyatlara başlamışdılar. Ermənistan silahlı qüvvələrinə həlledici dəstəyi rus ordusunun 366-cı motoatıcı alayı göstərdi, onun köməyi ilə Azərbaycana məxsus bir sıra yaşayış məskənləri tutuldu, 1992-ci il fevralın 25-26-da Xocalı şəhəri vəhşicəsinə yerlə yeksan edildi, əhalisinə qanlı divan tutuldu, min nəfərdən yuxarı dinc əhali öldürüldü. Az sonra – həmin ilin mayında Ermənistan Respublikasının silahlı qüvvələri Şuşa rayonunu işğal etdilər, on minlərlə azərbaycanlı öz yurd-yuvasından qovuldu, bununla da Dağlıq Qarabağ ərazisinin etnik təmizlənməsi başa çatdı. 1992-ci ilin mayında 1993-cü ilin oktyabrınadək Ermənistan silahlı qüvvələrinin fəal iştirakı ilə Azərbaycanın daha yeddi rayonu işğal olundu – Laçın, Kəlbəcər, Ağdam, Fizuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının işğalı və azərbaycanlı əhalinin qovulması nəticəsində Azərbaycan-İran sərhəddinin 161 km-lik hissəsi Ermənistanın əlinə keçdi və nəzarətsiz zolağa çevrildi.

Beləliklə, Ermənistan Respublikasının hamılıqla qəbul edilmiş beynəlxalq-hüquq norma və prinsiplərinə məhəl qoymaması, bunları kobud şəkildə pozması nəticəsində müasir dünya qaydasına ciddi zərər dəymiş, BMT Nizamnaməsinin müddəalarına, ATƏT-

in «Bəynnamə prinsiplərinə» məhəl qoyulmaması nəticəsində, Azərbaycanın ərazi bütövlüyü pozulmuş, əhalisi Ermənistanın sistemli şəkildə respublikamıza qarşı yeritdiyi genosid siyasəti nəticəsində fiziki cəhətdən məhv edilmiş, torpaqlarının 20 faizi işğal olunmuş, 1 mln. nəfərdən yuxarı vətəndaşı öz doğma vətənində qaçqına çevrilmişdi.

Təbii ki, yaranmış şəraitin özü hüquqa ziddir, çünki dünya birliyinin gözü qarşısında BMT Nizamnaməsinin prinsipləri pozulur, regionda qeyri-sabitliyi şərtləndirən real təhlükə ocağının mövcudluğu status qazınırdı.

Əslində bununla BMT Baş Məclisinin münaqişələrin qarşısının alınması ilə bağlı rolu və əhəmiyyəti öz dəyərini itirir, Təhlükəsizlik Şurasının bu sahədə fəaliyyəti heçə endirilirdi. BMT Nizamnaməsində xüsusi olaraq qeyd edilir ki, Təhlükəsizlik Şurası Şuranın üzvlər olmayan ölkələrdə potensial münaqişəli vəziyyətlərlə məşğul olmağı daim diqqət mərkəzində saxlamalı, Baş Məclisin üzvü olan dövlətlər isə silahlı münaqişələrin qarşısının alınması məsələlərilə bağlı öz mövqelərini bildirməlidirlər.

Son illər BMT Təhlükəsizlik Şurasının transparentik səviyyəsinin yüksəldilməsinə, iş metodlarının təkmilləşdirilməsinə baxmayaraq müasir beynəlxalq münasibətlərin reallıqları sübut edir ki, (xüsusilə Mərkəzi Qafqaz regionunda), yalnız zorakılığın kütləvi xarakter daşıdığı böhranlı və fövqəladə şəraitlərdə Təhlükəsizlik Şurası hadislərə müdaxilə edir. Bununla əlaqədar belə hesab etmək olar ki, dünya birliyinin yollar və vəsitələr axtarması məqsədilə Təhlükəsizlik Şurasının preventiv tədbirlərə əl atması beynəlxalq hüquq qaydalarına uyğundur. Belə vəsaistlərə misal olaraq BMT Baş Katibinə beynəlxalq sülhə və təhlükəsizliyə başlıca təhlükə olan münaqiəşələrə dair məruzələri, habelə ilkin xəbərdarlıq tədbirlərini aid etmək olar. Belə məruzələr əsasən regonal münaqişələrə və sərhəd məsələlərinə (qeyri-qanuni silah daşınması, qaçqınlar problemi, muzdluların göndərilməsi və s.) aid ola bilər, çünki bunlar müəyyən regionda sülh və təhlükəsizliyə potensial təhlükə mənbələri sırasındadır.

Münaqişələrin qarşısının alınmasının digər yolu və ya üsulu BMT Təhlükəsizlik Şurasının missiyaları hesab edilə bilər, bu missiyalar zamanı hərbi münaqişələrə dair faktlar dəqiq müəyyənləşdirilir ki, onların vasitəsilə preventiv tədbirləri görmək mümkün olur. Belə praktika öz başlanğıcını Kosova münaqişəsi ilə bağlı Təhlükəsizlik Şurasının 1244 (1999) saylı qətnaməsinin reallaşdırılmağa başladığı vaxtdan götürür. Bu BMT missiyasına imkan verdi ki, müəyyənləşdirilmiş faktlara əsasən potensial münaqişə rayonuna müvafiq preventiv strateji konsepsiyanın işlənib hazırlanması üçün ekspertlər qrupunun göndərilməsini həyata keçirsin.

Beləliklə, məsələ hərbi münaqişələrin qarısının alınması ilə bağlı məsələlərin müzakirəsi üçün yeni mexanizmlərin yaradılması imkanlarının müəyyənləşdirilməsindən ibarətdir. Belə mexanizmlər daimi xarakterli qeyri-rəsmi işçi qrupu və ya köməkçi

orqandan, habelə qeyri-rəsmi texniki mexanizmdən ibarət ola bilər. Onun köməyi ilə istənilən şəraitdəki hər hansı mübahisəni təhqiq etmək və müəyyənləşdirilmiş faktlardan istifadə edərək mübahisənin münaqişəyə çevrilməsinin qarşısını almaq olar.

Mərkəzi Qafqazdakı dövlətlərarası münasibətlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yollarla nizama salınması mühüm yer tutur. Yaddan çıxarmaq olmaz ki, Azərbaycan xalqının tarixi dəyərləri və milli ibadətgahları içərisində Qarabağın aran və ya dağlıq hissəsi yox, Qarabağ ərazisi bütünlüklə tarixi-mədəni, geoiqtisadi, təbii-təsərrüfat regionu olmaq baxımından həmişə prioritet əhəmiyyətə malik olmuş, indi də belədir. Çünki Qarabağ – Azərbaycan xalqının etnogenezisinin, Azərbaycanın siyasi tarixinin mühüm tarixi ocaqlarından biridir. Qarabağla Azərbaycanın milli dövlətçiliyinin, etnik identiçliyinin qorunması və möhkəmlənməsinin tarixi kökləri bağlıdır.

Buna görə də təsadüfi deyildir ki, müasir Azərbaycanın milli siyasətinin başlıca müddəalarından birini təşkil edən bu vəzifənin həll edilməsi ölkəmiz üçün həyati əhəmiyyətə malikdir.Lakin reallaqı belədir ki, bugünkü Qarabağ təcavüzün qurbanıdır. Təşəbbüskarının Ermənistan olduğu və «böyük Ermənistan» xülyası ilə bağlı olan bu müharibənin qurbanları azərbaycanlılardır – evindən, yurdundan qovulan, öz vətənində qaçqına çevrilən bir miylon nəfərdən yuxarı həmvətənimiz çadırlarda ağır həyat sürür, işğal olunmuş Azərbaycan torpaqları ətrafında siyasi alver gedir, ATƏT-in «insan ölçüləri» və «Bəyənnamə prinsiplərinin» tələbləri kobud şəkildə pozulur. Halbuki belə münaqişələrin qarşısı beynəlxalq təşkilatların və dünya birliyinin səyləri ilə vaxtında alınmazsa, onların yaratdığı potensial təhlükə nəinki regional, habelə beynəlxalq təhlükəsizliyə olduqca böyük təhlükədir.

Belə münaqişələrlə bağlı yaranmış problemlər nəinki Cənubi Qafqaz respublikaları üçün, bütövlükdə götürüldükdə MDB dövlətləri üçün də ümumidir. Bizim qarşılıqlı bağlılıqda və asılılıqda olan dünyamızda yalnız birgə səy göstərilməsi və həmrəylik yolu ilə, bütün maraqlı tərəfləri cəlb etməklə regionun xalqlarını bu münaqişə ilə bağlı sonu olmayan qeyri-müəyyənlikdən qurtarmaq olar. Bu münaqişədə Rusiyanın rolu sözün həqiqi mənasında əhəmiyyətli dərəcədə böyükdür, Rusiya habelə öz maraqları daxilində bütün Qafqaz regionu xalqlarını regional münaqişələrin məhrumiyyətlərindən dinc yollarla qurtarmaq imkanlarına malikdir. Doğrudur, regionda çox şey Rusiyanın yeritdiyi strateji xəttin ardıcılığından, həm ərazi bütövlüyünün, həm də bütün postsovet məkanında yerləşən dövlətlərin ərazi bütövlüyünün təmin edilməsi kursundan asılıdır.

Şübhəsiz, Azərbaycan xalqının taleyüklü məsələsi olan bu problemin nizamlanması yolunda Rusiya Federasiyasının vasitəçiliyi ilə Ermənistan-Azərbaycan cəbhəsində atəşkəs haqqında sazişin imzalanması müsbət addımdır. 1994-cü il mayın 12-də qüvvəyə minmiş həmin sazişə artıq 10 ildən yuxarıdır ki, əsasən əməl edilir.

Ermənistan-Azərbaycan, Dağlıq Qaraba münaqişəsinin nizamalanması yolunda fəaliyyətlərin əlaqələndirilməsi və birgə mübarizəyə toxunarkən qeyd etmək lazımdır ki, problemin aradan qaldırılması üçün beynəlxalq vasitəçilik başlıca olaran ATƏT-in Minsk qrupu vasitəsilə həyata keçirilir. 1992-ci ilin martından fəaliyyət göstərən Minsk qrupu yeganə orqandır ki, münaqişənin nizamlanması ilə bağlı hamılıqla qəbul ediləcək modelin hazırlanması imkanına malikdir.

BMT Təhlükəsizlik Şurasının ATƏT-in sülhməramlı tədbirlərinə dəstəyinə baxmayaraq, hələlik Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tamhəcmli, iriformatlı danışıqların sülh müqaviləsinin imzalanması ilə nəticələnməsi və ya Minsk konfransının çağırılması və yaxud da ATƏT-in çoxmilli, sülhməramlı qüvvələrinin regiona yerləşdirilməsi mümkün olmamışdır.

Göstərilən tədbirlərin reallaşdırılması yalnız müasir beynəlxalq hüququn dövlətlərin suverenliyi, münaqişədə olan tərəflərin ərazi bütövlüyü, habelə hələ Minsi qrupu tərəfindən BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrlə bağlı hazırladığı təxirəsalınmaz tədbirlərin yerinə yetirilməsi «Qrafikinin» dəstəklənməsi şəraitində mümkündür. Bu baxımdan Avropa Şurası Parlament Assambleyasının «ATƏT-in Minsk konfransının nizamasalınması ilə məşğul olduğu Dağlıq Qarabağ regionunda münaqişə» haqqında 1416 saylı, 25 yanvar 2005-ci il tarixli qətnamə də mühüm əhəmiyyətə malikdir.[12]

BMT-nin keçmiş Baş Katibi B.Butros Qalinin zərurət yarandıqda ATƏT-in başçılıq etdiyi, məqsədi münaqişənin hərtərəfli nizamlanmasına nail olmaqdan ibarət təşəbbüsü də əhəmiyyətli vasitələrdəndir.[13]

Danışıqlar proseisinin başlıca hadisələri kimi aşağıdakıları götürmək olar: ATƏT Şurasının Xelsinki əlavə görüşü (24 mart 1992-ci il); Budapeşt, Lissabon, İstanbul və s. sammitləri. 1994-cü il Budapeş zirvə görüşünün qərarına əsasın Minsk qrupunun həmsədrləri institutu yaradıldı. Onun başlıca məqsədi çoxtərəfli və müntəzəm olaraq aparılmış danışıqlar yolu ilə hərbi münaqişənin başa çatmasına dair siyasi Saziş (Böyük Siyasi Saziş) imzalamaq və buna əsasən hərbi münaqişənin nəticələrini aradan qaldırmaq və Minsk konfransının çağırılmasına nail olmaqdır. Hərbi-siyasi münaqişənin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi ilə nizamlanması yolunda ATƏT-in Lissabon zirvə görüşü (1996) daha böyük əhəmiyyətə malikdir. Sammitdə ATƏT-in fəaliyyətdə olan sədri F.Kottinin adından qəbul edilmiş Bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ hərbi münaqişəsinin nizamlanmasının üç prinsipi öz əksini tapmışdı: 1) Ermənistan və Azərbaycan Respublikasının ərazi bütövlüyü; 2) Dağlıq Qarabağın Azərbaycanın tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyənləşən ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu; 3) Məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla Dağlıq

Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyi.

Ermənistan-Azərbaycan münaqişəsi hər iki ölkənin xalqlarına saysız-hesabsız bəlalar gətirmişdir. Azərbaycan və erməni xalqlaırının mədəni fondlarına bir çox dəyərlər gətirən çoxəsrlik yanaşı yaşamaq təcrübəsinin üzərindən xətt çəkildi. Əsrlərlə xalqlar tərəfindən qorunan, hərbi əməliyyatlar zonasında qalan mədəni və tarixi dəyərlər ciddi təhlükəyə məruz qaldılar. Hərbi münaqişənin ilk  günlərindən Azərbaycan, nəinki təkcə Azərbaycan xalqına, həm də bütün bəşəriyyətə məxsus olan mədəni dəyərlərin, çoxsaylı abidələrin taleyi haqqında həyəcan təbili çalsa da, məlum səbəblər üzündən Azərbaycanın çağırışı eşidilmirdi.

Hər hansı bir müharibə insaların məvhi və insan zəkasının çoxəsrlik bəhrələrinin dayğıdılması deməkdir. Qarabağdakı müharibə, həm də insanın yaddaşı əleyhinə olan müharibədir. Erməni rəhbərlərinin Qarabağda azərbaycanlıları xatırlada biləcək hər şeyi məhv etmək cəhdi tarixi abidələrin, mədəni dəyərlərin məhvinə çevrildi. Bəşər tarixinin ilk dövrləri üçün səciyyəvi olan belə təzahürlərin qarşısının alınması XXI yüzilliyin əvvəllərində beynəlxalq birliyin qarşısında duran ən vacib məsələlərdən biridir.

Məlum olduğu kimi, Qarabağ tarixi öz kökləri ilə ən qədim dövrlərə bağlıdır, belə ki, Kür və Araz çayları arasındakı ərazi sivilizasiyanın ən qədim ocaqlarından biridir. Aralıq dənizi və Şimali Afrika kimi bu ərazi də etnogenez zonasına daxil olmuşdur və bunu sübut edən əsaslar çoxdur. Belə ki, məhz Qarabağda, Azıx mağarasında insan yaşayışının və fəaliyyətinin qədim izləri tapılmışdır. Bu abidə  nəinki Azərbaycan tarixinin, həm də bütün Ön Şərqin tarixinin öyrənilməsi üçün böyük əhəmiyyətə malikdir. Eyni sözləri, bəşər tarixinin öyrənilməsi üçün dəyərli material verən və dünya miqyasında böyük əhəmiyyətə mailk olan Xantəpə, Kültəpə, Şomutəpə və bir çox digər arxeoloji abidələr haqqında da demək olar.

Bundan əlavə, Qarabağda Azərbaycanın alban tarixi dövrünə məxsus olan böyük sayda abidələr qalmışdır: Vəngzəsər xristian mədəbi (Ağdərə şəhərinin yaxınlığında), Qara Böyük xanım sarayı (Şuşa), Atoğlan monastırı (Xaçın rayonu), Əsgəran qalası, Amaras monastırı (Xocavənd rayonu) və s.

Hərbi əməliyyatlar nəticəsində böyük bir zona, Azərbaycan ərazisinin demək olar ki, 20 faizi erməni silahlı quvvələri tərəfindən işğal edilmşdir. Dörd il davam edən hərbi əməliyyatlar nəticəsində minlərlə insan öldürülmüş, yüzlərlə Azərbaycan övladları girov götürülmüşdür ki, onların da əksəriyyətini qocalar, qadınlar və uşaqlar təşkil etmişdir, 1 milyondan artıq insan öz daimi  yaşayış yerini tərk etməyə məcbur olmuş, qaçqına çevrilmişdir. Bütün bu əməliyyatlar nətcəsində dünya mədəni irsinə Azərbaycan xalqının verdiyi çox qiymətli daşınan və daşınmaz abidələr, mədəni dəyərlər oğurlanmış, dağılmış və ya məhv edilmişdir. Bü müharibə Azərbayanın mədəni irsinə və son nəticədə isə bütün

bəşəriyyətə çox böyük ziyan vurmuşdur.

Hərbi əməliyyatların geidişində Ermənistan tərəfindən işğal olunmuş rayonlarda 500 tarixi-memarlıq və 100-dən çox arxeoloji abidə, 9 tarixi saray, eksponatları ilə bərabər 22 muzey, 4 rəsm qalerayası qalmışdır ki, onların da fondlarında 40 mindən artıq qiymətli əşyalar yığılmışdı. Məsələn, bizim eramızdan əvvəl III minilliyin tarixini əkst etdirən qızıl və gümüş məmulatlardan ibarət, nadir eksponatları olan Kəlbəcər tarix muzeyinin, qədim sikkələrin nadir kolleksiyasına malik olan Xaçın tarix muzeyinin, Şuşa tarix muzeyinin və Qarabağ tarix muzeyinin, Ağdam çörək muzeyinin (dünyada ikinci belə muzey yoxdur), Zəngilan rayonundakı daş monumentlər muzeyi və digərlərinin taleyi məlum deyil. Şuşadakı nadir ikiminarəli məscid və digər işğal olunmuş rayonlardakı məscidlər dağıdılmışdır. Etik normaların əksinə olaraq və silahlı münaqişə zamanı mədəni dəyrələrin qorunması haqda 1954-cü ilin Haaqa konvensiyasının qərarını pozaraq bu məscidlər anbarlara və yardımçı binalara çevrilmiş, dahi Azərbaycan şairi və mütəfəkkiri Molla Pənah Vaqifin məqbərəsi dağıdılmışdır.

Hərbi əməliyyatların getdiyi rayonlarda Azərbaycanın mədəniyyəti və incəsənəti üçün böyük əhəmiyyətə malik olan teatrlar, mədəniyyət evləri, klublar, kitabxanalar, uşaq müsiqi məktəbləri qarət edilmiş və dağıdılmışdır. Qarət edilmiş və yandırılmış 927 kitabxanada 4,5 mln. kitab və çox qiymətli əlyazmalar məhv edilmişdir. Mədəniyyət və incəsənət müəssəsələri, o cümlədən 6 dövlət teatr və konsert təşkilatı, 386 klub idarəsi və 85 müsiqi məktəbi də qarət edilmiş və dağıdılmışdır. Teatr rekvizitlərinin, səhnə kostyumlarının, texniki vəsaitlərin, müsiqi alətlərinin, dərs vəsaitlərinin, həmçinin avadanlıqların köçürülməsinə imkan verilməmişdir.

Mövcud məlumatlara görə, erməni işğalçıları tərəfindən ələ keçirilmiş qiymətli muzey sərvətləri benəlxalq hərraclarda satılm və onlara çox vaxt erməni mənşəyi verilmişdir. Bu zaman mədəni dəyərlərin milli və coğrafi mənsubiyyəti dəyişdirilirdi. Belə ki, bəstəkar Üzeyir Hacıbəyov, müğənni Bülbül və şairə Natəvan kimi Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinin Şuşadan çıxarılmış heykəlləri çox böyük çətinliklə üçüncü ölkənin vasitəsilə satın alınmışdı.

Azərbaycan hər vasitə ilə, dünya ictimaiyyətinin diqqətini tarixi və mədəni abidlərə cəlb etməyə çalışır. Bu problemə beynəlxalq əks-səda verilməsinin təşəbbüskarı olan Azərbaycan Milli Komitəsi bu istiqamətdə məqsədyönlü iş aparır ki, bu da YUNESKO və onun strkuturlarına daxil edilməklə, həlli yollarının axtarılmasında müəyyən pozitiv nəticələr vermişdir. Lakin, işğal olunmuş ərazilərdə qalmış tarixi və mədəni adbidələrin taleyi indiyə kimi məlum deyildir. Azərbaycan Milli Komitəsi İKOM muzeylərin, rəsm qalareyalarının, memarlıq adibələrinin siyahısını tərtib etmiş, şəkillərini yığmış və bunlara əsasən 1994-cü ildə Azərbaycan xalqının mədəni irsinin beynəlxalq müdafiəsi tələbi ilə YUNESKO və

İKOM-a təqdim edilən müraciət qəbul olunmşdur. Bununla əlaqədar, 1994-cü ilin nolyabrında Mərkəzi və Şərqi Avropa ölkələrinin inkişaf proqramının direktoru Alan Xankok və Mədəniyyət mərkəzi və mədəni irsin mühafiəzəsinin məsul rəhbəri Toni Tottonun rəhbərliyi altında YUNESKO-nun mədəniyyət üzrə sahələrararsı xəttinin missiyası Bakıya gəldi. Onların Azərbaycana gəlməkdə məqsədi mədəniyyət, təhsil və memarlıq obyektlərinə dəymiş ziyanı müəyyən etməkdən ibarət idi. Azərbaycan muzeyləri və rəsm qalereyalarına dəymiş ziyan haqda missiya üzvləri məlumatlandırılmış, abidə və eksponatların sənədləri, şəkilləri onlara verilmişdi. 1995-ci ilin fevralında Azərbaycan Milli komitəsi İKOM YUNESKO-nun işğal olunmış ərazlilərin rəhbərlərinə ünvanladığı qərarı aldı. Bu, hərbi münaqişə zamanı mədəni irsin mühafizəsi üzrə 1954-cü il Haaqa Konvensiyasının qərarlarına itaət çağırışı haqda qərar idi. Lakin, işğal olunmuş ərazilərin hökumət orqanları bütün məsələlər üzrə qondarma Dağlıq Qarabağ Respublikasının xarici işlər naziliyinə müraciət etməyi YUNESKO-ya məsləhət gördülər. Öz növbəsində, 1996-cı ildə Azərbaycan Milli Komitəsi İKOM YUNESKO-nun işləri üzrə Ermənistan milli komissiyasının baş katibi Asaturyana müraciət edərək, bu məsələni aydınlaşdırmağı xahiş etmişdir. Amma bütün bu tədbirlər heç bir nəticə vermədi və məsələnin aydınlaşmasına şərait yaradılmadı.

Onu da qeyd etmək lazımdır ki, YUNESKO-nun 1995-ci il «Silahlı münaqişə zamanı mədəni dəyərlərin mühafizəsi haqda konvensiyanın həyata keçirilməsi haqda məlumat» məruzəsində Dağlıq Qarabağ ətrafındakı münaqişə çox səthi işıqlandırılmışdır. Halbuki, Azərbaycanın çoxsaylı müraciətlərindən sonra belə mötəbər beynəlxalq təşkilat işğal olunmuş zonada yerləşən Azərbaycan mədəni dəyərlərinə daha böyük diqqət yetirə bilərdi.

Təəssüf ki, etiraf etmək lazım gəlir ki, mədəni irsin beynəlxalq mühafizəsinin təmin edilməsinin vacibliyi qeyd olunan Haaqa konvenisyasının beynəlxalq ictimaiyyət tərəfindən daha fəal tədbirlər görmək üçün şərait yaradılmasına baxmayaraq, beynəlxalq təşkilatlar, o cümlədən də YUNESKO, işğal olunmuş zonalarda qalan Azərbaycanın mədəni dəyərlərinin təhlükəsizliyinin təmin edilməsində lazımi fəallıq göstərmirlər. Keçmiş Yuqoslaviyanın ərazisində hərbi əməliyyatlar zonasında yerləşən mədəni və tarixi abidələrin taleyi hamıya məlumdur. Xorvatiya, Bosniya və Herseqovinanın mədəni irsinin təhlükəsizliyinin təmin edilməsi üçün YUNESKO-nun göstərdiyi texniki, maddi və iqtisadi kömək Azərbaycana münasibətdə də belə olacağına ümid etməyə imkan verir. Bununla bərabər, mədəni dəyərlərin itkilərinin minimuma endirilməsi məqsədilə özümüz də operativ sürətdə əsas tədbirlər görməliyik.

Haaqa konvensiyasını qəbul edən Azərbaycan bu gün beynəlxalq sənədin mexanizmlərinin işləyəcəyinə ümid edirdi. Lakin, təcrübənin göstərdiyi kimi, Azərbaycanın ümidləri hələ ki, həyata keçirilməmişdir. Bununla bərabər, qeyd edilən kovnensiya

Qarabağın mədəni və tarixi abidələrinin taleyinə aydınlıq gətirmək iqtidarında olan kifayət qədər sübutlara malikdir.Konvensiyanın 18-ci maddəsinin 1-ci bəndində deyilir ki, «Konvensiya iki və ya bir neçə Yüksək sazişə gələn tərəflər arasında baş verə biləcək elan olunmuş müharibə və ya hər hansı digər silahlı münaqişə zamanı, hətta muharibə vəziyyəti onlardan biri və ya bir neçəsi tərəfindən tanınmadığı halda, tətbiq ediləcəkdir». Bizim fikrimizcə, bu konvensiyasını Dağlıq Qarabağdakı silahlı münaqişənin bilavasitə iştirakçısı olan, Ermənistana tətbiq etmək üçün bütün əsaslar mövcuddur. Digər tərəfdən, işğal olunmuş zonada qalan Azərbaycanın mədəni dəyərlərinə görə məsuliyyəti də Ermənistanın üzərinə düşür. Bu Ermənistan və Azərbaycanı münaqişə tərəfləri kimi tanıyan və erməni-azırbaycanlı münaqişəsini nizama salmaq üçün ATƏT tərəfindən qəbul edilən reqlamentə də zidd olmazdı. Belə halda, əgər Ermənistan beynəlxalq – tanınmış münaqişə tərəfidirsə, onda Azərbaycan mədəni dəyərlərinin qorunub saxlanması üzrə Konvensiyanın bütün müddəalarını ona da aid edilməsini tələb edə bilər.

Onu da qeyd etmək vacibdir ki, Konvnsiyanın 19-cu maddəsi Konvensiyanı imzalamış ölkələrdən hər hansı birinin ərazisindəki münaqişədə iştirak edər tərəfləri, mədəni dəyrələrə qayğı ilə yanaşmağa aid olan müddəaları tətbiq etməyə çağırır. Həm də, YUNESKO münaqişə tərəflərinə öz xidmətlərini tətbiq edə bilər, lakin onların huquqi statusuna heç cür toxunmayacaqdır. Bizim fikrimizcə, bu konvensiya işğal olunmuş zonada qalan Azərbaycan dəyərlərinin üzə çıxarılması, mühafizəsi, lazım gələrsə, restitusiyası prosesinə daha fəal qatılmaq üçün YUNESKO-ya geniş imkanlar verir.

Bu halda, Haaqa konvensiyasının 22-ci maddəsini də tətbiq etmək olar. Bu maddəyə uyğun olaraq, münaqişə tərəflərindən biri himayəçi–dövlətlərin xidmətlərindən istifadə edə bilər. Fikrimizcə, bu ölkələrdən hər hansı birinin himayəsi altında, YUNESKO-nun fəal yardımı ilə, bitərəf ərazidə mədəni dəyərlərin mühafizəsi məsələsində məsuliyyət daşıyan Ermənistan, Azərbaycan, o cümlədən də Dağlıq Qarabağ nümayəndələrinin iclasını keçirmək olar. Bəlkə də bu, münaqişənin nizamlanması yolunda ilk addım ola və müharibənin dayandırdığı humanitar əlaqələrin bərpası üçün şərait yarada bilərdi.

Sonda istərdik ki, beynəlxalq təşkilatları və dünya ictimaiyyətini tamamilə məhv olmaq təhlükəsi ilə üzləşmiş Azərbaycanın tarixi və mədəni dəyərlərinin taleyinə biganə olmamağa cağıraq. Azərbaycan öz tərəfindən abidələrin mühafizə dərəcəsinin üzə sıxarılması üçün bütün vasitələrdən istifadə etməyə çalışır. Lakin, göründüyü kimi, bu kifayət deyil. Biz hələ ki, işğal olunmuş ərazilərdəki vəziyyətə nəzarət etmək iqtidarında olmadığımız üçün Azərbaycan bu problemin həllində YUNESKO-nun fəal iştirakına möhtacdır. Erməni təcavüzü nəticəsində bizim dövlətimizə dəyən iqtisadi, maddi ziyanların miqyası həddindən böyükdür. Dəqiq məlumdur ki, Azərbaycanın işğal olunmuş rayonları qarət olunmuş və dağıdılmış, respublikamıza qarşı təcavüz başlanan vaxtdan 877 yaşayış

məntəqəsi işğal, qarət edilmiş və yandırılmışdır. Erməni təcavüzkarları tərəfindən işğal edilmiş bütün ərazilərdə «yandırılmış torpaqlar və etnik təmizləmə» siyasətinin aparılması nəticəsində ümumi sahəsi 9,1mln.kv.m olan 150 min ev və mənzillər məhv edilmiş, dinc əhali öz evlərindən qovularaq qaçqına çevrilmiş, işğal olunmuş ərazidə yerli əhalinin nümayəndələrindən heç kəs qalmamışdır.

İşğal olunmuş zonalarda 6000-ə yaxın sənaye, kənd təsərrüfatı və digər müəssisələr qarət olunmuş və sıradan çıxarılmışdır. Bir milyon hektardan artıq kənd təsərrüfatına yararlı torpaqlar, o cümlədən 127,7 min hektar suvarılan torpaqlar və 34,6 min hektar üzüm və meyvə bağları tamamilə yararsız hala salınmışdır. 1203 km uzunluğunda olan şaxələnmiş infrastrukturu məhv edilmişdir ki, onun tərkibinə 674 mln.kub metr ümumi tutumu olan 5 su anbarı, 7296 hidrotexniki qurğular, 36 nasos stansiyası və 26 suvarma sistemi daxil idi. Süni suvarma sistemləri avadanlıqlarının bir hissəsi Ermənistana aparılmış, qalan hissəsi isə məhv edilmişdir. Azərbaycanın vahid süni suvarma infrastrukturunun bir hissəsi olan Dağlıq Qarabağ süni suvarma sisteminin məhv edilməsi nəticəsində işğal olunmuş ərazidən kənarda olan 5 rayonda 120 min hektar yararlı torpaq suvarıla bilmədiyi üçün təsərrüfat dövriyyəsindən çıxarılmışdır.

Təcavüz nəticəsində Azərbaycanın kənd təsərrüfatına yararlı torpaqlarına dəyən ziyan təqribən 472 mln ABŞ dollarına bərabər qiymətləndirilir.

İşğal olunmuş rayonlarda 244 min baş xırda buynuzlu və 69 min baş iribuynuzlu heyvan qarət edilmiş və Azərbaycan Respublikasından çıxarılmışdır. Azərbaycanın yay otlaqlarının 70%-i işğal olunmuş zonada qalmışdır.

Ermənistanın təcvüzü nəticəsində işğal edilmiş rayonlarda 4366 sosial və tibbi xidmət obyektləri, o cümlədən 690 orta məktəb, 855 məktəbəqədər müəssisə, 4 sanatoriya-kurort kompleksi və digər sağlamlıq obyektləri yararsız hala salınmışdır. 7 işğal olunmuş rayonda infrastruktur tamamilə məhv edilmişdir. 35 min abonent üçün olan avtomatik telefon stansiyaları, 2500 vahid transformator və 14,5 min km elektrik xətləri sökülərək Ermənistana daşınmışdır. Ümumi uzunluğu 3834 m olan 160 körpü partladılmış və sıradan çıxarılmışdır. 800 km avtomobil yolu yararsız hala salınmışdır. 2,3 min km su kəməri xətləri, 2 min km qaz kəməri xətləri və 35 qaz bölüşdürücü məntəqələr, həmcinin 240 km kanalizasiya xətləri tamamilə məhv edilmişdir.

Döyüş əməliyyatlarının gedişində və sonrakı işğal dövründə Azərbaycanın təbiətinə düzəldilməsi mümkün olmayan ziyan dəymişdir. Erməni təcavüzü nəticəsində 280 min hektar meşə (və ya respublikanın meşə sahəsinin 25%-i) 2 dövlət qoruğu və 4 dövlət müvəqqəti-qoruğu, həmçinin 200-dən artıq palaeontoloji fauna və coğrafi təbii abidələr işğal altında qalmışdır. Erməni təcavüzarları tərəfindən Azərbaycan təbiətinə münasibətdə planlı ekoloji qırım siyasəti aparılır. Azərbaycanın işğal olunmuş ərazilərindəki dağ

meşələrinin kəsilməsi və məhv edilməsi hesabına Ermənistana 206,6 min kub m qiymətli ağac növləri aparılmışdır. Çox qiymətli və digər növ ağacların kütləvi surətdə kəsilməsi nəticəsində eroziya prosesi başlamış və torpaqlar boşalmışdır.

İşğal olunmuş bölgənin faunasına əvəzedilməz ziyan vurulmuşdur. Bu bölgənin bioloji rəngarəngliyi təhlükə altında qalmışdır, belə ki, əksəriyyəti «Qırmızı kitaba» salınmış faunanın nəzarətsiz məhv edilməsi prosesi gedir. Ümumiyyətlə, Azərbaycanın təkcə meşə və ovçuluq təsərrüfatına 1 milyard ABŞ dollarından yuxarı məbləğdə ziyan dəymişdir.

Azərbaycanın erməni təcavüzü altındakı ərazilərində bölgənin mineral respursları vəhşicəsinə qarət və istismar edilir. İşğal olunmuş rayonların 2 qızıl, 4 civə, 2 qranit, 2 qurğuşun-sink, 1 mis və 1 antimonit yataqlarının faydalı qazıntıları Ermənistanın zənginləşdirmə müəssisələrinə aparılmışdır ki, bu Ermənistanın qiymətli, nadir və rəngli metalların dünya eksporçularının liderlərindən birinə çevrilməsinə həyasız iddiasına səbəb olmuşdur. Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonunda yerləşən Söyüdlü qızıl yataqlarının birgə işlənməsi və istismarı haqda Ermənistanın «Ferst Daynesti Mayns» Kanada şirkəti ilə bağladığı müqaviləyə əsasən Ermənistan bu yataqdan 2,52 ton qızıl götürmək, gələcəkdə isə onun hasilatını ildə 13 tona çattımaq niyyətindədir. Qiymətli nadir tapılan və rəngli metallarla bərabər işğal olunmuş ərazilərdən Ermənistana böyük miqdarda yarımqiymətli, dekarativ və yüksəkkeyfiyyətli üzlük daşlar – perlitin, obsidian, mərmər, travertin, həmçinin tikinti materialları (daş, qum, çınqıl və s.) aparılır. Tikinti daşlarının və üzlük daşların nəzartəsiz şəkildə çıxarılması son illər Ermənistanda tikintinin olduqca genişlənməsinə, həmçinin üzlük daşların xaricə satışı hesabına Ermənistanın əhəmiyyətli ixracatçı imici qazanmasına səbəb olmuşdur. Məs., 1999-cu ildə Ermənistan «Dişalite» ABŞ şirkətinin vasitəçiliyi ilə 200 min perlitinin ixracını planlaşdırmışdır.

Hər il Azərbaycanın işğal olunmuş ərazilərindən, İstisu və digər mənbələrdən hasil edilən, «Korlovı Varı» növlü təbii mineral su ixracı Ermənistanın büdcəsinə axan valyutanın əhəmiyyətli hissəsini təşkil edir.

Əvvəlcədən müəyyən edilmiş və axıra kimi dəqiqləşdirilməmiş göstəricilərə əsasən Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində ümumi ziyanın həcmi 22 milyard ABŞ dollarından yuxarıdır.

Lakin, beynəlxalq münasibətlərin tarixindən götürülən çoxsaylı faktların təsdiq etdiyi kimi, silahlı münaqişələr, harada baş verməsindən asılı olmayaraq, bu münaqişəyə sürüklənmiş xalqlara saysız-hesabsız fəlakətlər gətirir. Həm də, dinc, qonşuluq münasibətlərinin uzun təcrübəsi üzərindən xətt çəkilməklə bərabər, döyüş əməliyyatları rayonlarında qalmış xalqaların müxtəlif ümumbəşəri dəyərləri də ciddi təhlükə altında qalır. Bu, xüsusən təkcə döyüşən tərəflər üçün deyil, həm də bütün dünya ictimaiyyəti üçün qiymətli olan mədəni-tarixi irsə, memarlıq abidələrinə aiddir. Belə münaqişələr nəticəsində

qarşı duran tərəflərin iqtisadi maraqlarına və milli inkişafına da ciddi zərər vurulur.

İstər kiçik, istərsə də böyük dövlətin suverenliyi müasir beynəlxalq münasibətlərin sarsılmaz prinsipidir. Bu prinsip öz başlancığını 1815-ci il Vyana Konqresindən götürmüş, lakin yalnız II Dünya müharibəsinin axırında həmişəlik təsbit olunmuşdur ki, bu da öz əksini BMT Nizamnaməsində tapmışdır. Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin I fəslinin 2-ci maddəsinin 4-cü bəndində deyilir: «Birləşmiş Millətlər Təşkilatının bütün üzvləri özlərinin beynəlxalq münasibətlərində hər hansı bir dövlətin ərazi toxunulmazlığına və ya siyasi müstəqilliyinə qarşı istər zor iştətməklə hədələməkdən və ya zor iştətməkdən, istərsə də Birləşmiş Millətlərin məqsədləri ilə bir araya sığmayan hər hansı bir digər vasitədən imtina etdilər».

Sonralar bu prinsip 1975-ci il Helsinki Bəyannaməsində özünün dəqiq ifadəsini tapmışdır. Bəyannamədə deyilir: « -İştirakçı dövlətlər bir-birinin və eləcə də Avropanın bütün dövlətlərinin sərhədlərini pozulmaz hesab edir və buna görə də onlar indi və gələcəkdə bu sərhədlərə hər hansı bir şəkildə qəsd etməkdən imtina edəcəklər». Daha sonra «onlar müvafiq olaraq, hər hansı bir iştirakçı dövlətin ərazisinin bir hissəsinin və ya hamısının tutulmasına və zəbt edilməsinə yönəldilən hər hansı bir tələbdən və ya hərəkətdən imtina edəcəklər». Bu sənədi Ermənistan Respublikası, BMT Təhlükəsizlik Şurasının beş üzvündən dördü və ATƏT-in Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair Minsk qrupunun həmsədri olan üç dövlətin hamısı imzalamışdır.

Bununla yanaşı, son vaxtlar başıbəla erməni nəzəriyyəçiləri sərhədlərin pozulmazlıq prinsipi özlərinin bildikləri kimi şərh etməyə cəhd göstərirlər və millətlərin öz müqəddaratını təyinetmə hüququ barədə onların öz anlayışı vardır. Qeyd etmək lazımdır ki, Avropada və xüsusən Fransada Maarifçilik və inqilabi sarsıntılar dövründə bu anlayış müəyyən bir formada tətbiq edilmişdir. Lakin şəhrdə xalqların təbii olaraq öz müqəddaratını təyin etmək – çoxmillətli dövlətdə yaşamaq və ya monodövlət – bir millətin dövlətini yaratmaq hüququnun mövcud olmasından danışılırdı. Sonralar, Paris Sülh konfransında ABŞ prezidenti Vudro Vilson bildirmişdir ki, müasir şəraitdə «millətlərin öz müqəddaratını təyinetmə hüququ» haqqında danışmaq olar. Lakin bundan sonra da dünyada heç bir hadisə baş vermədi, praktikada xalqar elə yaşadıqları yerlərdə

Lakin bundan sonra da dünyada heç bir hadisə baş vermədi, praktikada xalqlar elə yaşadıqları yerlərdə qaldılar. Əməli işdə isə XX əsrin əvvəllərində, Birinci dünya müharibəsi ərəfəsində və müharibə dövründə bolşeviklər, xüsusən də V.İ.Lenin özünün «Milli məsələyə dair tənqidi qeydlər» «Millətin öz müqəddaratını təyinetmə hüququ haqqında», «Öz müqaddaratını təyinetmə haqqında diskussiyanın yekunları» və s. əsərlərində bu ideyanı inkişaf etdirdi. Leninin ideyası birləşmək naminə ayrılmaqdan ibarət

idi və Sovet İttifaqı bu prinsip əsasında yarandı. Soralar bu müddəa SSRİ Konstitusiyasında öz əksini tapdı. 26-cı maddədə deyilirdi ki, hər hansı bir müttəfiq respublika SSRİ tərkibindən çıxa bilər. Lakin bu «hüquqdan» heç vaxt və heç yerdə istifadə edilmədi.

Leninin (cənab erməni nəzəriyyəçiləri, V.İ.Lenin heç də kənar şəxs yox, sizin sevimlinizdir) 1916-ci ilin ortalarında yazdığı «Öz müqəddəratını təyinetmə haqqında diskussiyanın yekunları» əsərində deyilir: «Nə edirsinizsə edin, siz belə bir nəticədən yan keçə bilməyəcəksiniz: ilhaq millətin öz müqəddaratını təyinetmə hüququnun pozulması, əhalinin iradəsinin ziddinə olaraq dövlətin sərhədlərinin müəyyən edilməsi deməkdir» . Bizim halda Azərbaycan dövləti, Azərbaycan əhalisinin hüququnun pozulmasından söhbət gedə bilər.

Dünyada hər hansı bir dövlətin ərazisi yalnız həmin dövlətin razılığı iə dəyişə bilər. Beynəlxalq hüququn subyekti olan hər bir dövlətin dünyada bu həqiqəti başqa cür yozmağa ixtiyarı yoxdur. Azərbaycan ərazilərin zəbt edilməsi qurdurluq, qonşu dövlətin ərazisini işğal, ilhaq etməkdir. 10 ilə yaxındır Azərbaycanın milli ərazisinin böyük bir hissəsi Ermənistan Respublikasının hərbi qüvvələri tərəfindən işğal edilmişdir. Söhbət ilhaqdan gedir.

Helsinki Müşavirəsi Prinsipləri Bəyannaməsinin – «Fikir, vicdan, din və əqidə azadlığı da daxil olmaqla, insan hüquqlarına və əsas azadlaqlara hörmət»ə dair 7-ci bəndində deyilir: «Ərazisində milli azlıqlar olan iştirakçı dövlətlər bu cür azlıqlara mənsib olan şəxslərin qanun qarşısında bərabərlik hüququna hörbət edəcək, onlara insan hüquqlarından və əsas azadlıqlardan faktiki olaraq istifadə etməyə tam imkan verəcəklər».

Bəyannamənin 8-ci bəndində deyilir ki, xalqlar eyni hüquqa malikdilər və öz talelərini özlərinin həll etmək hüququ vardır. Erməni politoloqları bu bəndə tez-tez istinad edirlər. Lakin burada azlıq təşkil edən millətlərin bu və ya digər dövlətin tərkibindən çıxmaq hüququ haqqında heç nə deyilmir. Bu, sırf erməni yozumudur. Onlar «azlıq təşkil edən millətin hüququnu» vahid dövlətin xalqının hüququ kimi qələmə verirlər. bƏyannamədə bildirilir ki, xalqlar kənardan müdaxilə olmadan özlərinin siyasi, iqtisadi, sosial və mədəni inkişafını istədikləri kimi həyata keçirmək hüququna malikdirlər. Başabəla erməni nəzəriyyəçiləri Leninin əsərindən «millətlərin öz müqəddəratlarını təyin etmələri haqqında» ifadəsini qopararaq bu anlayışı şərh etməkdə çətinlik çəkməyiblər. Çünki bu anlayış erməni uydurmalarının və səhdlərinin əleyhinədir.

XX əsrdə «öz müqəddəratını təyinetmə» halları olub. Lakin bu, zorla başqalarına birləşdirilmiş dövlətlərin ayrılmasındn ibarət idi. Məsələn, Norveç İsveçdən ayrılıb. Bunlar müxtəlif xalqlar, müxtəlif millətlərdir. Finləndiyanın Ruisya imperiyasından ayrılması də belədir.

Bununla yanaşı, bu və ya digər millət və xalq öz dövlətini, özünün milli vətənini yaratmaq hüququna malikdir. Lakin keçimşdə olduğu kimi, indi də **dünya praktikasından aydındır ki, hər bir millət dobulduğu yerdən asılı olmayaraq öz müqəddəratını bir dəfə təyin edə bilər, coğrafi vəziyyətinə görə öz müqəddəratını bir neçə dəfə təyin edə bilməz.** Erməni milləti artıq bir dəfə öz müqəddəratını təyin etmişdir, həm də özünün şimaldakı hamilərinin köməyi ilə əzəli Azərbaycan torpaqlarında erməni dövləti yaratmışdır və bu dövlət beynəlxalq hüququn subyektidir. Hazırda Ermənistan Respublikasında deyildiyi kimi, hər bir erməni dünyanın hansı nöqtəsində yaşayırsa-yaşasın, avtomatik olaraq bu respublikanın vətəndaşıdır, deməli, bu və ya digər səbəbdən sıxışdırılan hər bir erməni «azad» Ermənistana gəlib burada yaşaya bilər. Ermənilərin məntiqinə görə, «öz müqəddəratını təyinetmə prinsipini» rəhbər tutmaqla ermənilərin yığcam yaşadıqları yerlərdə ən azı on yeni erməni dövləti yaratmaq olar. Bu halda Gürcüstanda, Fransada, ABŞ-da, İtaliyada, Livanda, Suriyada, Mərkəzi asiyada, Rusiya Federasiyasında (Moskva şəhərində, Rostov vilayətində, Krasnodar və Stavropol diyarlarında və s) erməni repsublikaları yarana bilər. Bu təcrübədən istifadə edərək azərbaycanlılar da öz müqəddəratlarını təyin edər və Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Türkiyədə, Almaniyada, Skandinav ölkələrində, ABŞ-da, Kanadada və s. Azərbaycan respublikaları yarada bilərlər. Bu sxemə görə Avtsraliyada, Yeni Zenlandiyada, Cənubi Afrikada, Kanadada və digər yerlərdə yaşayan ingilislər öz müqəddəratlarını təyin edə bilərlər. Göstərilən ölkələrin xalqlarının damarlarından ingilis qanı axır.

**Öz müqəddəratını təyinetməyin erməni yozumu əsassız və fitnəkar xarakter daşıyır. Həyata keçirilməsi mümkün olmayan arzularını ifadə edən müəlliflər nəyə getdiklərini özləri də bilmirlər.** Onlar kənardan köməyə və erməni sponsorlarına bel bağlayırlar. Həmin sponsorlar «Qarabat əhlikefləri»ni dəstəkləməklə məşğuldurlar. «Azadlıq» ridiosu 2001-ci il fevralın 26-da belə bir xəbər yayıb: «»Bütün dünyadakı erməni diasporu Qarabağ üçün külli miqdarda pul toplayır».[7] Rusiya curnalisti Oleq Panfilov yazır ki, söhbət etdiyi (Qarabağda) adamlar gələcəyini görmürlər.[8] **Vaxtilə Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycanın çiçəklənən regionlarından biri idi. İndi isə vulkan lavası kimi donmuş bir vilayətdir. Burada bircə müəssisə belə işləmir. Bəs Ermənistanla «iqtisadi inteqrasiya» necə oldu? Niyə vilayət tərəqqi etmir? İqtisadi inteqrasiya və tərəqqi heç vaxt olmayıb və olmayacaq, çünkiDağlıq Qarabağ Azərbaycanın üzvü tərkib hissəsidir. Ermənistanda bunu nə qədər tez başa düşsələr həm Qarabağ erməniləri, həm də Ermənistan erməniləri üçün bir o qədər yaxşı olar.** Dağlıq Qarabağ regionunun Azərbaycana məxsus olmasından şübhələnənlər qoy Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair BMT Təhlükəsizlik Şurasının 1993-cü il 29 iyul tarixli 853 nömrəli qətnaməsinin 9-cu bəndində deyilir: «Azərbaycanın Dağlıq Qarabağ regionunun (A.A.) erməniləri tərəfindən riayət

olunmasının təmin edilməsi...». Bu forma BMT Təhlükəsizlik Şurasının 1993-cü il 14 oktyabr tarixli 874 nömrəli qətnaməsində də təkrar edilmişdir. Burada deyilir: «Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda (A.A.) münaqişənin davam etməsindən ciddi narahat olduğunu ifadə edərək...». 1993-cü il 12 noyabr tarixli 884 nömrəli qətnamədə də deyilir: «Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda münaqişənin davam etməsindən özünün ciddi narahatlığını ifadə edərək...» (A.A.) Avropada Təhlükəsizliyə və Əməkdaşlığa dair Helsinki müşavirəsinin prinsipləri Bəyannaməsində yazılmış bu sözlər – «zor işlətmək və ya zor işlətməklə hədələmək» sözləri suveren Azərbaycan dövlətinin milli ərazisinə göz dikmiş ermənilərə tutarlı cavabdır. Bəyannamədə deyilir: «İştirakçı dövlətlər ümumiyyətlə, bütün beynəlxalq münasibətlərdə olduğu kimi, bir-birləri ilə olan qarşılıqlı münasibətlərdə də Birləşmiş Millətlərin məqsədləri ilə və bu bəyannamə ilə bir araya sığmayan hər hansı bir dövlətin ərazi bütövlüyünə və ya siyasi müstəqilliyinə qarşı zor ilətməkdən və ya zor işlətməklə hədələməkdən imtina edəcəklər. Bu prinsipi pozaraq zor işlətməklə hədələmək və ya zor işlətməyi əsaslandırmaq üçün heç bir mülahizədən (A.A.) istifadə etmək olmaz». **Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin hamısında «Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bir daha təsdiq edilir».**

Sual oluna bilər: bütün bunlardan sonra Dağlıq Qarabağın mənsubiyyəti məsələsini şübhə altına almaq olarmı?! Əlbəttə yox. **Dünyanın ən nüfuzlu təşkilatı Dağlıq Qarabağ regionunu Azərbaycan Respublikasının ayrılmaz hissəsi kimi tanıyır. Beynəlxalq hüquq normalarına əsasən bu məsələ müzakirə oluna bilməz. «Erməni silahlı birləşmələri deyil», Ermənistan7 Respublikası milli Azərbaycan ərazilərini tərk etməlidir. Ermənistanın himayədarları da, hərbi müttəfiqləri də bunu başa düşməlidirlər.**

Eyni zamanda ermənilərin iddialarından danışarkən beynəlxalq təşkilatların bəzi əsas sənədlərinə də müraciət etmək lazımdır. Erməni nəzəriyyəçiləri və millətçi-şovinistləri bu sənədlərə tez-tez istinad edirlər. Belə ki, milli, etnik, dini və dilə görə azlıq təşkil edən şəxslərin hüquqları haqqında 1992-ci il dekabrın 18-də BMT Baş Məclisinin sessiyasında qəbul olunmuş əyannamədə və BMT Baş Məclisinin 47/135 saylı qətnaməsində deyilir ki, milli azlıqların (bu halda Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda azlıq təhkil edən ermənilərin – A.A.) öz dinlərini inkişaf etdirmək, öz dillərində danışmaq, öz mədəniyyətlərindən istifadə etmək, öz qruplarının nümayəndələri ilə (dünyanqın digər ölkələrində yaşayan ermənilər nəzərdə tutulur – A.A.) əlaqələr yaratmaq və həyata keçirmək hüququ vardır. Bu, 1993-cü ildə Avstriyanın paytaxtı Vyanada keçirilmiş insan hüquqları Ümumdünya Konfransının sənədlərində də təsdiq edilib. BMT, ATƏT və İslam Konfransı Təşkilatının və s. sənədlərinin heç birində göstərilməyibdir ki, milli azlıq bu və ya digər dövlətin tərkibindən çıxa bilər və zorakılıq yolu ilə, ya da könüllü surətdə başqa bir

dövlətlə birləşə bilər. Bütün universal beynəlxalq təşkilatların sənədlərində dövlətlərin sərhədlərinin pozulmazlığı və ərazi bütövlüyü prinsipləri təsbit edilmişdir.

Sual olunur: əgər dünya birliyi və ya Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair ATƏT-in Minsk qrupunun 3 həmsədri azərbaycanlılarla birlikdə ermənilərin də yaşadıqları Azərbaycan ərazisinin Ermənistan Respublikasına verilməsi haqqında erməni avantüristlərinin və işğalçılarının dediklərinə əməl etsələr, nə baş verə bilər? Bu halda müasir Avropanın, Amerikanın, asiyanın və Afrikanın xəritələri yenidən çəkilməli olar. Dərhal belə bir sual ortaya çıxır: nə üçün əhalisinin 90%-i, yəni 2 milyona qədəri alban olan Kosovo Yuqoslaviyadan alınıb Albaniya dövlətinə verilməsin (ermənilərin öz müqəddəratını təyinetmə prinsipi üzrə)? Nə üçün Makedoniyanın, əhalisinin 99%-dən çoxu alban olan sərhəd rayonu və ya Makedoniya əhalisinin 40%-ə qədərini təşkil edən albanlar Albaniya ilə birləşdirilməsin? Axı, «Dağlıq Qarabağ» presedenti mövcuddur. Nə üçün ABŞ-ın ən böyük ştatı olan və əsasən meksikaların yaşadığı Texas ştatı Meksikaya verilməsin? Halbuki, bu ərazi Meksikanın milli ərazisinin bir vaxtlar tərkib hissəsi olmuşdur. Nə üçün İsveçrə Almaniya, İtaliya və Fransa arasında bölüşdürülməsin? Kvebek Kanadadan alınıb Fransaya verilməsin və s. Bu siyahını dünyadakı 200-dən çox dövlətin sayına görə uzatmaq olar. Nə üçün ermənilərin tələbi həyata keçməlidir, başqa xalqlarınkı yox? **Bu sərsəm ideyanın azacıq da olsa əsasi yoxdur.** Bu, açıq-aşkar digər dövlətin ərazisini ilhaq etmək məqsədilə qurdurluq və işğal etmək deməkdir. Söhbət təkcə respublikamızın ərazi bütövlüyündən getmir. Əvvəl-axır milli suverenliyimizi bərpa edəcəyik. Məsələ burasındadır ki, ermənilərin özbaşınalığı və avantürizmi bəşəriyyətə baha başa gələ bilər. Bu, dünyanın, xüsusən, asiya və afrikanın bir çox dövlətini şirnikləndirə bilər. Belə olduqda, yaxın gələcəkdə müasir dünyanın nə vəziyyətə düşəcəkdə müasir dünyanın nə vəziyyətə düşəcəyini təsəvvür etmək çətin deyildir. Dünya zor gücünə xəritələrin yenidən çəkilməsi kimi dəhşətli bir vəziyyətlə gərək qarşılaşmasın. Yoxsa bəşəriyyət çox ağır və gözlənilməz nəticələrlə üzləşər, yüzlərlə beynəlxalq münaqişə girdabına cəlb edilə bilər. Ermənilərin Pirr qələbəsi bəşəriyyət üçün dünya yanğınına, dünya miqyasında sarsıntılara səbəb ola bilər. Buna görə də **dünya birliyi XX1 əsrin əvvəlində erməni «cəngavərlərini» öz yerində – tarixin onlar üçün ayırdığı yerdə oturtmasa, sabah gec olacaqdır.**

Bir problemə də toxunmaq lazımdır. Erməni millətçi-şovinistləri bu məsələdə xüsusi inadkarlıq göstərirlər. Söhbət «Ümumi dövlət»dən gedir. Bu ideyanı erməni müşavirlərinin köməyilə Rusiya Federasiyasının keçmiş baş naziri Y.Primakov irəli sürmüşdür. Zənnimcə, belə bir qurumun məhiyyətini o özü də başa düşməyibdir. Məsələ isə bundadır ki, dünyada bu cür qurum nə keçmişdə olub, nə də indi var. Bu, nəsə federativ dövlətə bənzər bir simbiozdur. Bu halda Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu beynəlxalq hüququn subyekti statusunu alar və istədiyi vaxt sazişi poza bilər. Bu isə o deməkdir ki, bir

müddətdən sonra Dağlıq qarabağ müstəqil dövlət olaraq qanuni yolla və ümumxalq referendumu yolu ilə Ermənistanla birləşəcəkdir. Bədnam «Ümumi dövlət»in bütün mahiyyəti bundan ibarətdir. Belə olduqda cənab Y.Primakova və «Ümumi dövlət» ideyası üzrə onun silahdaşlarına sual vermək lazımdır: Niyə Rusiya Federasiyası Çeçenistan Respublikası ilə «Ümumi dövlət» yaratmasın? Ya da 6 milyon tatar əhalisi olan Tatarıstanla və 5 milyonluq Başkortostanla «Ümumi dövlət» yaradılmasın? Rusiya böyük dövlətdir və «Ümumi dövlət» yaratmaqda başqalarına nümunə ola bilərdi.

Konfederasiya quruluşu anlayışı da vardır. Bu halda konfederasiyanı yaradan ölkələr beynəlxalq hüququn subyektləri, beynəlxalq təşkilatların üzvləridir, müstəqil xarici siyasət yeridir, özlərinin qanunvericilik və icra orqanları vardır. XX əsrin iknci yarısında Afrikada bir cür qurumlar var idi – Seneqambiya (Seneqal və Qambiya), Birləşmiş Ərəb Respublikası (Misir və Suriya), Birləşmiş Respublika (Liviya səmahiriyyəsi və Tunis). Bir müddətdən sonra bu respublikalar parçalanaraq özlərindən sonra heç bir iz qoymadılar.

Müaisr dünyada federativ dövlət anlayışı mövcuddur. Federativ dövlət beynəlxalq hüququn üzvü olmayan ayrı-ayrı dövlətdaxili subyektdən ibarətdir. Əraziləri ayrı-ayrı ştatlardan ibarət olan ABŞ, Braziliya, Meksika, Avtsraliya, Hindistan belə dövlətlərdir. Argentina və Kanada əyalətlərdən, İsveçrə kantonlardan, AFR və Avstriya Respublikası vilayətlərdən (torpaqlardan) ibarətdir və sayrə.

Federal dövlətdə subyektlərin silahlı qüvvələri yoxdur, xarici siyasət sahəsində əlaqə saxlamırlar, vahid valyutaları və vahid ümumi federal büdcələri vardır.

ABŞ, AFR, Argentina, Kanada, İsveçrə və s. federativ dövlətlərin konstitusiyalarında federasiya üzvlərinə onun tərkibindən çıxmaq hüququ verilməyib.

Nəhayət, Azərbaycan rsepublikası tərkibində Dağlıq Qarabağa yüksək status verilməsi məsələsi barədə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bütün bütün görüşlərdə və ATƏT-in sammitlərində, habelə ABŞ-ın Dövlət katibi K.Pauelin himayəsi altında Azərbaycan və Ermənistan prezidentlərinin, ATƏT-in Minsk qrupunun həmsədrləri olan ABŞ-ın, Fransanın və Rusiyanın iştirakı ilə keçirilmiş son görüşdə və s. məclislərdə dəələrlə demişdir ki, Dağlıq qarabağın statusunu ən yüksək özünüidarəetmə statusu səviyyəsinə qaldırmaq mümkündür. Söz yox ki, bu zaman Azərbaycan Respublikasının Konstitusiyasında müvafiq dəyişiklik etmək lazım gələcək. mənə elə gəlir ki, bu halda onun qanunvericilik orqanının sədri avtomatik olaraq Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavinləri ola bilər ki, baş naziri isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Rəyasət Heyətinə daxil edilər. Öz daxili problemlərini müstəqil həll etmək hüququ almış olar. Dağlıq Qarabağ azərbaycanlıları kimi, buradakı ermənilər də özlərinin mədəniyyətini, dilini azad şəkildə inkişaf etdirə bilər, dinindən istifadə edə bilər, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşları ilə ünsiyyət yarada

bilərlər. **Bütün bunlar aparıcı beynəlxalq təşkilatların əsas sənədlərində qeyd olunmuş beynəlxalq standartlara və insan hüquqlarına uyğundur. BMT, ATƏT və s. təşkilatlar bunlara əməl edilməsinin təminatçıları olardı.**

Söylənilən fikir və mülahizələr mütləq nəticələr və tövsiyələr deyildir. Məsələnin mahiyyəti bundan ibarətdir ki, Dağlıq Qarabağ regionu Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir və yaranmış vəziyyətdən çıxış yolunu yalnız və yalnız biz özümüz tapmalıyıq.

## ƏDƏBİYYAT

Устав Организации Объединенных Наций. Нью-Йорк., 1998,

Заключительный Акт Совещания по безопасности и сотрудничеству в Европе.М., 1987,

Резолюцию СБ ООН №853(1993) 29 июля 1993, Резолюцию СБ ООН №874(1993) 14 октября 1993 , Резолюцию СБ ООН №884(1993) 12 ноября 1993

## 12-ci mövzu

# ERMƏNİSTANIN TERROR-SEPARATİZMİ SİYASƏTİ MÜNAQİŞƏDƏ ƏSAS MƏQSƏDDİR

**Suallar:**

1. **Terror separatizmin mahiyyəti.**
2. **Erməni terror-separatizminin xüsusiyyətləri.**

Terrorizm istənilən formada, istənilən ölkədə beynəlxalq xarakter daşıyır. Fərdi, yaxud kütləvi terrorizm başlanğıcdır: o, sonralar separatizm yoluna qədəm qoyur, onunla çulğalaşır və birgə hərəkət edir.

Terrorizm və separatizm ağır nəticələrə gətirib çıxarır və artıq dünya birliyi bu nəticələrlə üz-üzədir. Müasir terror-separatizmin kökləri orta əsrlərə gedib çıxır. Bu təzahür indiki anlamda XIX əsrin ikinci yarısında rus və Osmanlı imperiyalarında xüssilə inkişaf etmişdir. Bu, birinci halda rus xalqçıları, ikinci halda isə erməni terror-separatçılarıdır. Birincinin ikincidən fərqi ondadır ki, rus imperiyasında terrorçuların fəalliyəti separatizm xarakteri daşımırdı, çar reciminin ayrı-ayrı şəxsiyyətlərinə qarşı yönəlmişdi. Rus xalqçıları, sonralar isə sol eserlər hesab edirdilər ki, hakim recimin ayrı-ayrı xadimlərini məhv etməklə sadə xalqın həyat şəraitini yaxşılaşdıra bilərlər. Amma bu, utopiya idi.

İkinci istiqamətə – erməni terrorizminə gəlincə, o, tamamilə başqa xarakter daşıyır, bu bir tərəfdən mütəşəkkil, qatı millətçilik, digər tərəfdən isə açıq separatizm, siyasi qurdurluqdur.

Terror-separatizm XX əsrin ikinci yarısında daha da genişləndi. Müasir şəraitdə terrorizm və separatizm universal, dövlət terror-separatizminə çevrilmişdir. Bu klassik formada öz təcassümünü 1987-1988-ci illərdə keçmiş SSRİ-də tapmış və başlancığını Azərbaycan ərazisindən, Dağlıq Qarabağ Muxtar Vilayətindən götürmüşdür. Məhzë burada SSRİ prezidenti M.Qorbaçovun şəxsində ölkə rəhbərliyinin razılığı və birbaşa iştirakı ilə terrorizm terror-separatizmə çevrilmişdir ki, bu da öz əksini Azərbaycan Respublikasının Dağlıq Qarabağ Muxtar Vilayətinin zorla qoparılıb. Ermənistana birləşdirməsi haqqında Ermənistan Ali Sovetinin 1 dekabr 1989cu il tarixli qərarında tapmışdır. Bu, müasir terrorizmin dövlət terrorizmi səviyyəsində separatizmə çevrilməsinə klassik nümunədir.məsələ burasındadır ki, hələ o vaxt sovet dövləti mövcud idi, onun bütün vətəndaşları öz hərəkətlərində SSRİ konsultasiyasını rəhbər tutmalı idilər. Bu siyasi avantürada ölkənin ali rəhbərliyinin ilk növbədə M.Qorbaçovun razılığı və iştirakı olmasaydı erməni millətçi-şovinistləri heç vaxt SSRİ-nin siyasi xəritəsini dəyişdirməyə cürət

etməxdilər. Çünki SSRİ Konstitusiyasının 78-ci maddəsində deyilirdi ki, «müttəfiq respublikanın (indiki halda Azərbaycanın – A.A.) ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz». Ona görə də tam qətiyyətlə təsdiq etmək olar ki, Ermənistan Ali Soveti sözugedən qərarı məhz M.Qorbaçovun xeyr-duası ilə qəbul etmişdi. Çünki M.Qorbaçovun himayədarlığı olmasaydı, bu cür «düzəliş»in müəllifləri məhkəmə məsuliyyətinə cəlb edilərdilər. Nəticə etibarilə erməni terror-separatçıları ilə bərabər M.Qorbaçov və onun erməni ətrafı müttəhim kürsüsündə oturardılar. SSRİ Konstitusiyasının həmin 78 maddəsində göstərilirdi ki, hər bir müttəfiq respublika öz inzibati-ərazi quruluşunu sərbəst sürətdə müəyənləşdirib və ona görə də «DQMV-nin Azərbaycan tərkibindən çıxması» respublikanın suverenliyini və ərazi bütövlüyünü kobud şəkildə pozmaqdır. Bu, bütövlükdə beynəlxalq hüquqa, BMT və ATƏT-in prinsiplərinə ziddir. BMT-nin üzvü olan hər bir dövlətin ərazi bütövlüyü toxunulmazdır. Təşkilatın nizamnaməsindədeyilir ki, «BMT-in bütün üzvləri beynəlxalq münasibətlərdə istər hər hansı dövlətin ərazi bütövlüyünə, yaxud siyasi müstəqilliyinə qarşı, istərsə də Birləşmiş Millətlərin məqsədləri ilə bir araya sığmayan hansısa başqa şəkildə qüvvə tətbiq etməklə hadələməkdən, yaxud onu tətbiq etməkdən çəkinmələdirlər»[1]. Sonralar BMT nizamnaməsinin bu müddəası ATƏM-in Helsinki sammitinin (1975) yekun aktında öz əksini tapdı. Sənəddə deyilir ki, «İştirakçı dövlətlər həm bir-birinin, həm də Avropadakı bütün dövlətlərin sərhədlərini toxunulmaz sərhəd kimi nəzərdən keçirir və buna görə də onlar indi də gələcəkdə bu sərhədlərə hər hansı qəsddən səkinəcəklər»[2]. Bu sənədlərin altında ATƏT-in bütün üzvlərinin, o cümlədən Ermənistan Respublikasınınimzası dayanır. ATƏT-in bütün üzvlərinin, o cümlədən Azərbaycan Respublikasının ərazi bütövlüyü müzakirə, yaxud şübhə predmeti olmamalıdır. Bu müddəa BMT Təhlükəsizlik Şurasının 853, 874, 884 nömrəli qətnamələrindəbir daha qeyd edilmişdir. Dağlıq Qarabağın mənsubiyyətinə şübhə edənlər Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 853 nömrəli qətnaməsinə baxa bilərlər: «Azərbaycanın Dağlıq Qarabağ regionu»[3]. Bu, həmçinin Təhlükəsizlik Şurasının 874 və 884 nömrəli qətnamələrində də öz təsdiqini tapmışdır[4].

Erməni terror-separatçıları 1975-ci il Helsinki Yekun Aktının dövlət suverenliyi haqqında müddəalarını, Avropa dövlətləri sərhədlərinin qəti və toxunulmaz olması prinsiplərini öz qanlı fəaliyyətləri ilə pozduqları, Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunu zorla Ermənistana ilhaq etdikləri zaman Avropa ölkələri, ABŞ və Rusiya bitərəf muşavidəçi mövqeyi tutmuşdular.

Erməni terrorçu-separatçıları bir qayda olaraq V.Vilsonun xalqların öz müqəddəratını təyin etmə hüququna dair dediklərini əsas götürdülər.doğrudur, ABŞ prezidenti Birinci dünya müharibəsi dövründə Antantanın vuruşduğu Dördlər İttifaqını daxildən parçalamaq üçün öz müqəddəratını təyin etmə hüququnu irəli sürmüş və öz

məqsədilə də nail olmuşdu.

Bu baxımdan V.Vilsonun ideyası ilə erməni terror-separatizmi arasında ümumi heç nə yoxdur. Erməni lobbisinin təzyiqi altında həm Avropada, həm də ABŞ-da belə hesab edirdilər ki, Qafqaz birbaşa Rusiyanın təsir zonasındadır. Rusiya ilə «parçala və hökm qur» qədim Roma postulatına əsasən hərəkət edir və regionun özündən asılı olma düşməsinə çalışır. Digər tərəfdən Rusiya Ermənistana ABŞ-ın keçən əsrin 60-70-ci illərində İzrailə bəslədiyi analoci münasibəti bəsləmədədir. Təsadüfi deyildir ki, erməni diasporu Ermənistanı bütün dünyaya «Qafqaz İzraili» kimi təqdim edirdilər.

Erməni separatizmində bəşəriyyəti hədələyən təhlükə nədən ibarətdir?... Əgər Qarabağ ermənilərinin özmüqəddaratını təyin etmə hüququ dünya birliyi tərəyindən qəbul edilərsə onda XXI əsrdə dünyanın siyasi xaritəsinə minimum 200-300 yeni dövlət çıxacaq, bu isə ilk növbədə çoxsaylı xalqların yaşadığı böyük dövlətlərin parçalanması hesabına olacaqdır. Belə ki, ABŞ – anqlo-saks, afrikalı, meksikalı, erməni və s., Rusiya – tatar, başqırd, Dağıstan, çeçen, erməni, Fransa – fransız, ərəb, erməni və s. dövlətlərinə parçalanacaq, eyni tale Hindistan, Çin, İran və s. ölkələri də hədələyəcəkdir.

Yada salmağına dəyər ki, keçən əsrin 90-cı illərin ortalarında Avropa İttifaqı Robert Badinterin rəhbərliyi altında Konstitusiya hüququna dair xüsusi komissiya yaratmışdı ki, həmin komissiya «öz müqəddəratını təyin etmə hüququnu» «insanın fərdi hüquqlarının müdafiəsi» prinsipi kimi qiymətləndirmişdi. Bu isə erməni başabəla nəzəriyəçilərinin təqdim etdiyi və beynəlxalq hüquq normalarına yad olan ikinci dəfə öz müqəddaratını təyin etmək – yəni müstəqil dövlət yaratmaq demək deyildir.

Müasir şəraitdə terrorizm separatizmlə qovuşaraq rəqiblərə qarşı siyasi, ideoloci, dini təzyiq üsullarının müntəzam olaraq tətbiq edilməsi ilə səciyyələnir. Bu, qəti, zorakılaq, təxribat, sabotac, boykot, sui-qəsd və s. deməkdir.

Erməni terrorçu-separatçıları öz gündəlik «iş»ində mətbuat, televiziya, radio, internet, videofilmlər, disketlər, vərəqələr, çoxsaylı nəşrlər vasitəsilə yayılan təbliğat materiallarından istifadə edirlər. Bütün bunlar Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin işğalı məqsədilə aparılmış təbliğat müharibəsində öz əksini tapmışdır. Təbliğat müharibəsi Daşnaksütyun Partiyasının yaradılması ilə, yeni təxminən yüz ildir başlamış, ötən əsrin 70-ci illərindən etibarən qızıl şəkildə şiddətlənmiş, 80-cı illərdə isə artıq açıq formaya keçmişdir. SSRİ-də habelə, ABŞ-da, Fransada, Yunanıstanda, İtaliyada çoxsaylı nəşrlər peyda olmuşdur. Bütün bu nəşrlərdə əsan məqsəd Azərbaycana qarşı ərazi iddialarına haqq qazandırmaq idi. Vaxtilə Rusiya Dövlət Dumasının sabiq vitse-spikeri S.Baburin Bakı Dövlət Ukniversitetinin professor-müəllim heyəti və tələbələri ilə görüş zamanı deyirdi ki, «ermənilər Rusiya kütləvi informasiya vasitələrində antiazərbaycan xarakterli materiallar çap etdirmək üçün böyük miqdarda vəsait xərcləyirlər».

Erməni terrorizmi siyasi məqsədlər naminə dövlət separatizmidir. Dağlıq Qarabağda başlamış bu hərəkat Abxaziyada, Cənubi Osetiyada, Dnestryanı və digər bölgələrdə yayılmışdır.

Cənubi Qafqazda terror-separatizmin əsas daşıyıcıları ermənilərdir. Başlıca terrorçu-separatçı təşkilatlar isə ikidir. Daşnaksütyun və ASALA («Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu»).

Daşnaksütyun yaşca dünyanın ən «qocaman» terrorçu-separatçı təşkilatıdır. O, 1890-cı ildə fəaliyyətə başlamış və terrorçu-separatçı partiya kimi formalaşmışdır. Daşnaksütyun öz fəaliyyətində üç şuarı rəhbər tuturdu:

1) türk dövlətinə və bütün dünya türklərinə qarşı mübarizə;
2) erməni dövlətinin yaradılması;
3) Dağlıq Qarabağın Azərbaycandan qoparılması.

Son 20 ildə Daşnaksütyun 500-dən çox terror aktı törətmişdir. Təşkilatın üzvləri Türkiyənin Avtsriyadakı, Yuqoslaviyadakı, İsveçrədəki, Fransadakı səfirlərini öldürmüş, həmçinin Avstriya, Avstraliya, Belçikada, Bolqarıstan, Danimarka, İspaniya, Amerika və digər ölkələrdə çalışan türk diplomatlarını qətlə yetirmişlər. Onlar həmçinin Moskvada metronun «Pervomayskaya» stansiyasında, Lenin və Bauman rayonlarında iri mağazalarda, Bakı metrosunun stansiyalarında partlayışlar törətmişlər.

Ultraterrorçu-separatçı təşkilat olan ASALA 1975-ci ildə Türkiyə ərazisində yaradılmışdır. Onun məqsədi erməni döləti yaratmaq və bu dövlətin tərkibinə Türkiyə və İranın şimal ərazilərini, Azərbaycanın cənub-qərb və Gürcüstanın cənub rayonlarını qatmaqdır. ASALA-nın əsas bazasını Livanda, Azərbaycanın Dağlıq Qarabağ regionunda, Gürcüstanda, Rusiyada və Suriyada yaşayan ermənilər, həmçinin İran, İraq və Türkiyədə yaşayan kürdlər təşkil edir. ASALA qatı ərəb terrorçularından olan Əbu Nidalla, Hizbullahla və PKK ilə sıx əməkdaşlıq edir. PKK-nin hər üç döyüşçüsündən biri erməni mənşəlidir. Təsadüyi deyil ki, PKK-nın xaricdəki mənzil qərargahları Yerevanda, filialları isə Gömrüdə və Qorisda, yəni İran, Türkiyə və Azərbaycan sərhədlərinin yaxınlığında yerləşir.

PKK-nın bazalarında erməni terrorçuları hazırlayan ASALA hər bir erməni terrorçunun təlim keçməsi müqabilində 5 min dollar ödəyir. Təlim düşərgələrin əsas etibarilə Livan, Suriya, Türkiyə, Yunanıstan, Gürcüstan, Rusiya və Azərbaycan Dağlıq Qarabağ bölgəsidə yaşayan ermənilər cəlb edilirlər.

ASALA-ın isə öz növbəsində erməni diasporu maliyyələşdirir. Bu məqsədlə təşkilatın nəzdində bütün dünyada vəsait yığılmasına məsul olan xüsusi qərargah fəaliyyət göstərir. Erməni terrorçularırın əsas sponsorları ABŞ, Fransa, İtaliya, Livan, Suriya Braziliya və Rusiyanın erməni vətəndaşlarıdır. Kürd terrorçu-separatçıları ilə sıx əlaqədə olan erməni

lobbiçilərinin iştirak və fəal köməyi ilə Kürdüstan Fəhla Partiyası 1999-cu ilin fevralında Rusiyanın Yaroslavl vilayətində bir neçə yüz hektarlıq sahəni 99 il müddətinə icarəyə götürmüşdür. bu ərazidə kürd və erməni terrorçularının qayda-qanunları qüvvədədir.

Erməni lobbisinin fəal dəstəyi və iştirakı ilə terrorçu-separatçılarının fəaliyyət zonası genişləndirilir. 1999-cu ilin fevralında erməni lobbisinin köməyi ilə Kürd Fəhlə Partiyası Rusiyanın Yaroslavl vilayətində bir neçə yüz hektar ərazini 99 illiyə icarəyə götürülmüşdür. Hazırda həmin ərazidə kürd və erməni terrorçularının quldurları fəaliyyət göstərir.

Terror-separatçılığa qarşı mübarizədə bütün dünya öz səylərini birləşdirməlidir, əks təqdirdə o bütün ölkələri bürüyəcəkdir. Bu gün terrorçuluq BMT-nin üzvü olan 190 ölkənin 100-dən çoxunda geniş vüsət olmışdır.

Qərb ölkələrinin ikilli standart siyasəti və dünya birliyinin etinasizlığı Ermənistana on il əvvəl Azərbaycan torpaqlarını işğal etməyə imkan vermişdir. Dünyanın aparıcı dövlətlərinin erməni təcavüzkarlarına göz yumması ötən il sentyabrın 11-də ABŞ-da dəhşətli aktları həyata keçirmiş ultraterrorçular üçün hərəkətverici məqamlardan və stimullardan biri olmuşdur. Terrorizm dünyanın super dövlətini sarsıtdı. ABŞ bir neçə saatlığa iflic oldu. Erməni terrorçuları Amerikada, Fransada, Rusiyada və digər ölkələrdə özlərini cəzasız hiss etməsəydilər, bütün bünlar da olmazdı. Məsələ ABŞ ərazisində vəhşi aktlar törətmiş terrorçuların milliyətində deyil, terrorizmin mahiyyətindədir, çünki bütün cinayətkarlar kimi terrorçuların da milliyəti olmur. Beynəlxalq terrorizmin yuvalarından birinin Ermənistan olduğu hamıya məlumdur.Amma Qərb Ermənistanı terrorçu dövlətlər siyahısına daxil etməkdən israrla imtina edir. Ermənistan parlamentində spikerin, baş nazirin və nazirlərin güllələnməsi, qətillərin isə cəzalandırılmaması, Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terroraktları bu gün Rusiyada, Avropa və ABŞ-da terrorizmin meydan sulamasının səbəblərindəndir. Bəlkə indi Qərbdə, xüsusilə ABŞ-da bşa düşərlər ki, özgənin dərdinə biganəlik olmamalıdır. Bəlkə indi ABŞ-dakı bəzi siyasətçilər və konqresmenlər başa düşərlər ki, Dağlıq Qarabağdakı terrorçu-separatçı hərəkat region və bütün dünya üçün nə deməkdir.

Terror-separatizm elə bir bəladır ki, ona qarşı bütün dünya səylərini birləşdirməsə, bu bəla hər bir ölkəyə, hər bir evə qədəm başa bilər.

## ƏDƏBİYYAT

Устав Организации Объединенных Наций. Нью-Йорк., 1998,

Заключительный Акт Совещания по безопасности и сотрудничеству в Европе.М., 1987,

Резолюцию СБ ООН №853(1993) 29 июля 1993, Резолюцию СБ ООН №874(1993) 14 октября 1993 , Резолюцию СБ ООН №884(1993) 12 ноября 1993

Gow J/ Shared Soverenty. Enbanced Security. Lesson from the Yogoslav War (S.Hasmi Ced). State Soberignty. Change and Persistence in International Relations Pennsylvanie University Park.1997.

# NƏTİCƏ

Beynəlxalq münasibətlərin inkişaf tarixinə fikir versək, münaqişələrin bütün zamanlara xas olduğunu aydın görərik. Diplomatiya tarixi, xüsusilə XX yüzilliyin sonlarına doğru belə faktorlarla zəngindir.

Xarakterinə, qaynaqlarına, köklərinə və psixologiyasına görə beynəlxalq münaqişələr əsasın eyni tipli və oxşardırlar. Belə münaqişələrə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ, Moldova Respublikasında Dnestryanı, Gürcüstan Respublikasında Abxaz və Cənubi Osetiya, Ukrayna Respublikasında «Svostopol sindromu» və s. göstərmək olar. Bu münaqişələrin hamısı uydurma milli ayrı-seçkilik və təzyiqlər, milli azlıqların hüqüqlarının tapdalanması, dini motivlərlə əlaqədar sıxışdırılma şüaları və s. adları altında yaradılmışdır. Yuxarıda qeyd edilən münaqişələrin hamısı yarandığı dövrdən siyasi xarakter daşımış, bütün hallarda «təşəbbüs» Moskvadan irəli sürülmüş, məhz orada «gələcək münaqişələrin» ssenarisi yazılmış, persionajların rolları müəyyənləşdirilmiş, bir çozlə qanlı faciənin bütün atributları Moskvada hazırlanmışdı.

Dərslikdə müasir beynəlxalq münasibətlərin son dərəcə problemli problemlərindən olan münaqişələrin qaynaqlarının açılmasına, onların inkişaf dinamikası və psixologiyasının öyrənilməsinə, elmi-nəzəri ümumiləşdirmələrin aparılmasına xüsusi diqqət yetirilmiş və sonrakı inkişafında güc amilinin mahiyyəti və məzmunu açılıb göstərilmişdir.

Çoxsaylı qaynaq və nəşrlərin təhlili gedişində beklə bir nəticəyə gəlmişik ki, bir qayda olaraq dövlətlərarası, siyasi münaqişələr o zaman yaranır ki, bunların üçüncü tərəfdən dövlət ədstəyi olsun. Amerikan politoloqu Pol Qobs məhz belə mənada Cənubi Qafqazdakı münaqişələrin «üçlü təbiətə» malik olmasını hələ keçən yüzilliyin 90-cı illərinin əvvəllərində dünya ictimaiyyətinin diqqətinə çatdırmışdı.

Postsovet məkanındakı siyasi konfliktlərin istisnasız olaraq hamısının «sifarişçisi», sponsoru və hərəkətverici Rusiya Federasiyası olmuş və olaraq qalmaqdadır. Öz imperiya ambisiyalarını saxlamaqda olan Rusiya Azərbaycanda, Gürüstanda, Moldovada və Ukraynada münaqişələrin yaradılmasının və qızışdırılmasınının başlıca səbəbkarıdır. Çar Rusiyası və totalitar Sovet İttifaqının dövlət simvollarının müasir Rusiyanın simvolları kimi bərpa edilməsi məhz bu məqsədlərə xidmət edir. Çar imperiyasının ikibaşlı qartalı və Andreyevski bayrağı, «vəfat etmiş» SSRİ-nin qırmızı bayrağı və Dövlət himni müasir Rusiyanın dövlət simvolları sırasındadır. Qeyd edilənləri Rusiyanın dövlət quruculuğu siyasətinə də aid etmək olar. Belə ki, Rusiya Federasiyasının ali qanunverici orqanı olan Dövlət Duması çar Rusiyası dövründən qalmadır, ölkənin ərazisin imperiya dövründə olduğu kimi quberniyalarla bölünmüşdür, lakin bolşevik imperiyası dövrünün yadigarları sayılar Leninqrad və Sverdlovsk vilayətlərinin adları indi də saxlanmaqdadır və s. Amma

yaddan çıxarmaq olmaz ki, imperiya və müstəmləkələr uğurunda mübarizə dövrü keçmişdə qalmışdır. Rusiya nə qədər tez öz imperiya keçmişini və superdövlət olduğu zamanları unutsa, bir o qədər də tezliklə müasir sivilizasiyaya adaptasiya olmaq imkanı qazanacaq və müasir beynəlxalq hüquq normalarının aliliyinin qorunub saxlandığı, böyük və kiçik dövlətlərin hüquq bərabərliyinə əsaslanan dünya birliyində özünə layiqli yer tutacaqdır.

Hamıya məlumdur ki, öz məhdud ehtiyatlarına və imkanlarına əsaslanmaqla Ermənistan Respublikası heç zaman Ruiyanın siyasi, iqtisadi və hərbi köməyi olmadan Azərbaycan torpaqlarının 20 faizini işğal edə və bu qədər müddətə öz mandatı altında saxlaya bilməzdi. Məhz bu dəstəyə əsaslanan Ermənistan Dağlıq Qaradağ və onun ətrafındakı yeddi rayonu yandırılmış torpaqlardan ibarət oazisə çevirməyə müvəffəq olmuşdur.

Heç kəs tərəfindən tanınmayan, öz-özünə elan olunmuş «Dağlıq Qarabağ respublikası» çox texzliklə narkobiznesin qaynaqlandığı və çiçəkləndiyi cinayət yuvasına çevrildi. Qayqaz, habelə qonşu ölkələr üçün sülhə, təhlükəsizliyə təhlükə meydanı yaradıldı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tanınmaqla, müasir beynəlxalq hüquq normalarına əsasən nizamlana bilər. Bunun üçün BMT Təhlükəsizlik Şurasının qətnamə və bəyanatlarının, habelə ATƏT-in sənədlərinə əməl olunmalıdır.

Son zamanlar münaqişədə olan tərəflərin hər ikisi ilə bağlı müxtəlif səviyyələrdə kompomislərdən danışılır. Dünya ictimaiyyəti məsələnin mahiyyəti ilə tanış olmalı, bilməlidir ki, Ermənistan Respublikası təzavüzkar (bu İKT-nin və Avropa Şurasının sənədlərində öz əksini tapmışdır) və işğalçıdır. Deməli, təcavüzkarın, yəni Ermənistanın mövqeyindən yanaşılsa, onda Azərbaycan öz ərazisinin bir hissəsini Ermənistana verməlidir, bu isə kompromis yox, beynəlxalq hüquq normaları altında qərətçilikdir. Şübhəsiz Azərbaycan belə bir kompromisə getməyəcəkdir.

Azərbaycanın belə bir kompromisə getməsi ümumplanet miqyasında təcavüzkara dəstək verilməsi demək olacaqdır. Məntiq sadədir, niyə bir yerdə təcavüzkar dəstəklənir, ona haqq qazandırılır, qonşu dövlətdən işğal etdiyi ərazilər «kompromis» adı altında ona verilir, digərində isə yox!... Digər tərəfdən, təcavüzkarın mövqeyini əks etdirən belə kompromis dünyanın bir sıra ərazilərində hərbi-siyasi münaqişələri şərtləndirmiş olar. Belə ki, İtaliya və Almaniya İsveçrəni, Çin və Hindistan Tibeti bölüşdürmək uğrunda mübarizəyə başlaya bilər, bu zəncirvari proses Fransa iələ Almaniya arasında, Afrika qitəsində, Latın Amerikası və Yaxın Şərq regionlarında çoxsaylı münaqişələrə gətirib çıxarmış olar.

Dərindən təhlil etsək, görərik ki, məsələ heç də Azərbaycanın güzəştsiz, qəti mövqeyində deyil, məsələ ondadır ki, XXI yüzilliyin astanasında Azərbaycanın ərazi kompromisi son nəticədə dünyanın naməlum gələcəyə malik raket-nüvə müharibəsinin

fəlakətlərinə düçar edə bilər.

Təcavüzkarın xeyrinə böyük dövlətlər tərəfindən edilən XX yüzilliyin ortalarında dünyanı faşist Almaniyasının təcavüzünə hədəf etdi. 1938-ci ilin sentyabrında Münhendə üç böyük Avropa dövləti-İngiltərə, Fransa və İtaliya ilə Almaniya arasında imzalanmış saziş, habelə ABŞ və SSRİ-nin bunu sükutla qarşılaması nəticəsində Çexoslovakiyanın Sudet vilayəti Almaniyanın əlinə keçdi və müharibə təhlükəsi bir qədər də reallaşdı. Belə kompromisə az sonra Çexoslovakiyanın işğal olunmasını, Avstriyanın Almaniyaya anşlüsünü, Polşanın dövlət müstəqilliyinə son qoyulmasını və s. nümunə göstərmək olar. Belə nümunələrin XXI yüzillikdə təkrarlanmasına yol vermək olmaz. Dünya diplomatiyasının qanunauyğunluğu belədir.

Dünya təcrübəs öyrədir ki, harada baş verməsindən asılı olmayaraq bütün münaqişələr danışıqlar stolu arxasında əldə edilmiş sülhlə başa çatır. Azərbaycan Respublikası artıq 15 ildən yuxarıdır ki, kompromislərə gedir, güc tətbiq edilməsi faktoruna qayıtmır. Ermənistanın timsalınhda təcavüzkarla sülh danışıqlarında iştirak edir. Amma dünya təcrübəsi başqa şeyi də öyrədir, əgər təcavüzkar sülh danışıqlarının dilini başa düşmürsə, onu güc yolu ilə buna vadar edirlər (Bu BMT Nizamnaməsində nəzərdə tutulmuşdur, İraq işğal etdiyi Küveytdən bu yolla çıxarılmışdır).

Münaqişədə iştirak edən ölkə rəhbərliyinin fəal, məqsədyönlü, düşünülmüş siyasi iradə nəzərə alınmadan heç bir beynəlxalq-siyasi münaqişə yarana, dərinləşə, habelə dondurula və nizamlana bilməz. Məhz buna görə erməni tərəfinə fikirləşmək, «ağlını başına yığmaz» üçün şans verilib, qədimlərdə deyilirdi ki, ləngimək ölümə bərabərdir. Bu şansın itirilməsi onun görünməyən katoklizmin başlanğıcı ola bilər.

Beynəlxalq-siyasi münaqişələrin təhlili göstərir ki, dünya birliyinin inkişaf obyektiv, təbii-tarixi xarakter daşıyır, əslində bu obyektiv mənafelərin və subyektiv maraqların sintezidir. Obyektiv görünən odur ki, işğal olunmuş toraqlar-Azərbaycan torpaqlarıdır. Problemin subyektiv tərəfi odur ki, təcavüzkar mövqeyində olan ermənistan nəhayət başa düşməlidir ki, dünya diplomatiyasının, müasir beynəlxalq hüququn qayda və normalarını ayvqlamaq onların əlehinə getmək mümkünsüzdür. Bü gec-tez Ermənistanın dünyada təcrid olunmasına gətirib çıxaracaqdır. Bu gün Ermənistan Cənubi Qafqazla bağlı heç bir iqtisadi layihədə iştirak etmir və Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməyincə Azərbaycanın və Gürcüstanın iştirak etdiyi heç bir qlobal layihədə iştirak edə bilməyəcəkdir.

# SÖZLÜK

**Aktor** – fəal subyekt.

**Biheviorizm** – davranış psixologiyası.

**Birbaşa zorakılıq** - subyektin ziyan vurma və ya hərəkətlərin məhdudlaşdırılması məqsədilə obyektə bilavasitə təsiri.

**Cəbhələşmə** - sosial subyektlər (fərdlər, qruplar, partiyalar, ideya cərəyanları, institutlar, etnoslar, ölkələr) arasında qarşıdurma (hərbi, siyasi, sosial-psixoloji və s.).

**Desentrasiya** - əsasında subyektin başqa insanın rolunu qəbul etmək qabiliyyəti duran şəxsiyyətin eqosentrizminin aradan qaldırılması mexanizmi.

**Dərk olunmayan şəxsiyyətdaxili münaqişə** – əsasında keçmişdə tam həll olunmamış, artıq unutduğumuz, lakin şüuraltı səviyyəsində möv\ud olan və keçmişdəkinə analoji şəraitdə özbaşına təkrarlanan münaqişəli vəziyyətlərin durduğu şəxsiyyətdaxili münaqişə.

**Diskussiya** – mübahisəli məsələnin müzakirəsi.

**Dominantlıq** - sosial münasibətlərin üstün (prioritet) mövqelər uğrunda mübarizəni nəzərdə tutan iyerarxiyası.

**Düşmənçilik** – təsbit olunmuş psixoloji yönəliş, münaqişəli davranışa hazırlıq.

**Ekstrernal** – həyatında bütün baş verənlərə xarici səbəblər (qismət, təsadüf, ətraf mühit) tapmağa meylli insan.

**Empatiya** – emosional vəziyyəti dərk etmə, başqa insanın həyəcənlarına şərik olma (birgə həyəcanlanma).

**Eyniləşdirmə** (identifikasiya) - şəxsiyyətin başqa insanla, qrupla, nümunə ilə emosional və digər özünüeyniləşdirmə prosesi.

**Əmək kollektivi** - müəyyən məqsədlərin (məhsul istehsalı, binaların təmiri və s.) əldə edilməsi üçün birgə əmək fəaliyyəti ilə birləşən insanların formal birliyi.

**Frustrasiya** – insanın məqsədin əldə edilməsi yolunda yaranmış dəfolunmaz çətinliklərlə şərtlənən psixi vəziyyəti.

**Hakimiyyət** – hansısa vasitələrin (nüfuz, güc, yaxud güc işlətməklə hədələmə) köməyi ilə insanlara müəyyənedici təsir göstərmək qabiliyyəti və imkanı.

**İğtişaş** – mövcud vəziyyətdən aydın ifadə olunmamış narazılıq.

**İnsident** – münaqişədə tərəflərin bilavasitə toqquşmasının başlanması üçün formal vəsilə (bəhanə).

**İnstitutlaşmış münaqişə** – mübarizənin aparılması normalarının və qaydalarının şərtləşdirildiyi və onun başa çatdırılmasının dəqiq mexanizmlərinin mövcud olduğu münaqişə.

**Qarşıdurma** – bir-birinə qarşı yönəlmiş hərəkət.

**Qeyri-formal təşkilat** – insanların şəxsi seçim əsasında kortəbii surətdə yaranan birliyi.

**Qeyri-sosiallaşdırma** – fərdin, yaxud sosial qrupun öz mədəniyyətindən sıxışdırılıb çıxarılması.

**Qrup normaları** – qrup üzvlərinin davranışının tənziminin birgə qrup fəaliyyəti və ünsiyyət nəticəsində işlənib hazırlanmış qaydaları.

**Katarsis** – müxtəlif yayındırıcı obyektlərə (düşmən kuklaları, idman mübarizəsində iştirak və s.) yönəltməklə təcavüzkar impulslardan azad olma.

**Kompromiss -** sosial münaqişələrin nizama salınmasının tərəflərin qarşılıqlı gücəştlərinə əsaslanan metodu.

**Konqruentlik** – şəxsiyyətin münaqişəli vəziyyəti adekvat emosional reaksiyası.

**Konsensus** – sosial münaqişələrin nizama salınmasının problemin birgə həllinə yönəlmiş metodu.

**Lider** – qrupun şəxsi nüfuzu (qeyri-formal lider), yaxud tutduğu vəzifə (formal lider) ilə əlaqədar qalan iştirakçıların şüur və davranışına mühüm təsir göstərən üzvü.

**Liderlik -** şəxsi nüfuza, liderin şəxsiyyətinin tanınmasına əsaslanan qruppa təsir üsulu.

**Marginallar** – sosial şəraitə uyğunlaşmamış şəxslər.

**Mənafe** (lat. interest – əhəmiyyətli, mühüm olan) – sosial hərəkətlərin real səbəbi.

**Motivləşmə** – bizi müəyyən məqsədlə fəaliyyətə sövq edən meyl, yaxud tələbat.

**Mübahisə** – birgə problemlərin həllinin ən yaxşı variantının tapılması ilə bağlı fikir ayrılıqları.

**Münaqişə obyekti** – münaqişənin konkret səbəbi, motivləri, hərəkətverici qüvvələri.

**Münaqişəli davranış -** mübahisəli obyektin tutulub saxlanması, yaxud rəqibin öz məqsədlərindən imtina etməyə və ya onları dəyişdirməyə vadar edilməsi məqsədilə qarşı tərəfə yönəlmiş hərəkətlər.

**Münaqişədə ətraf mühit** fiziki mühitdən (coğrafi, iqlim, ekoloji və digər amillər) və sosial mühitdən (münaqişənin inkişaf etdiyi müəyyən sosial şərait) ibarətdir.

**Münaqişədə qələbə və məğlubiyyət simvolları** – münaqişədə bir tərəfin qələbəsinin və digər tərəfin məğlubiyyətinin hamı tərəfindən tanınan amilə çevrilməsi ilə nəticələnən müəyyən məqsədlərin əldə olunması (məsələn, düşmənin paytaxtının tutulması).

**Münaqişəqabağı vəziyyət** – potensial münaqişə subyektləri arasındakı münasibətlərdə müəyyən ziddiyyətlərlə şərtlənən sosial gərginliyin artması.

**Münaqişə yönəlişi** – ehtimal olunan münaqişədə müəyyən şəkildə hərəkət etməyə hazırlıq. O, tərəflərin məqsədlərini, gözləntilərini və emosional yönəlişini ehtiva edir.

**Münaqişənin diaqnostikası** – əsas xarakteristikalarının müəyyən edilməsi məqsədilə

münaqişənin tədqiqi.

**Münaqişənin genezisi** – münaqişənin yaranış, təşəkkül anı və sonrakı inkişaf prosesi.

**Münaqişənin həlli** – münaqişə doğurmuş ziddiyyətlərini aradan qaldırılması və qarşıduran tərəflər arasında normal münasibətlərin qurulması.

**Münaqişənin nizama salınması** – münaqişənin səbəblərini aradan qaldırmadan tərəflərin qarşıdurmasının kəskinliyinin götürülməsi.

**Münaqişənin strukturu -** münaqişənin sabit elementlərinin bütöv sistem təşkil edən məcmusu.

**Münaqişənin təkamülü** – münaqişənin sadə formalardan daha mürəkkəb formalara tədrici, fasiləsiz inkişafı prosesi.

**Mütləq münaqişələr** – mübarizənin bir, yaxud hər iki rəqibin tam məhvinə qədər aparıldığı münaqişələr.

**Nifrət** – insanın onun tələbatlarına, mənafelərinə, dəyərlərinə zidd təzahürə qarşı yönəlmiş sabit mənfi hissi (duyğusu).

**Nüfuz -** insanın, qrupun, institutun, yaxud təşkilatın malik olduğu, hamı tərəfindən qəbul edilən əhəmiyyət, təsir; zorakılıq işlətmədən itaəti təmin etmək qabiliyyəti.

**Potensial münaqişə -** münaqişənin yaranması üçün real əsasların mövcud olması, lakin hələlik bir, yaxud hər iki tərəfin bu və ya digər səbəblərə (məsələn, informasiya çatışmazlığına) görə hələ vəziyyətin münaqişəli olduğunu dərk etməməsi.

**Proyeksiya** – subyektin öz fikir və niyyətlərini şüurlü, yaxud şüursuz şəkildə başqalarının üzərinə keçirməsi.

**Ranq** – rütbə, çin, dərəcə, kateqoriya. Sosial konfliktologiyada «ali-ibtidai» prinsipi üzrə müəyyən olunur və münaqişə subyektlərindən birinin qarşıduran tərəfə münasibətdə tutduğu az və ya çox əlverişli ilkin mövqeyi nəzərdə tutur.

**Reqressiya** (insan psixikasında) – neqativ müdafiə mexanizmi (vəziyyətdən qaçma). Reqressiya problemi həll etmir, vəziyyət qalır və münaqişənin xaricə çıxmamış bütün enerjisi şəxsiyyətin özünün dağılmasına yönəlir.

**Rejim siyasi münaqişəsi** (radikal siyasi münaqişə) - siyasi sistemin dəyişdirilməsi (saxlanması) uğrunda mübarizə.

**Resosializasiya -** fərdin, yaxud sosial qrupun başqa mədəniyyətə məcburi (zorakı) inteqrasiyası.

**Rəqabət -** sosial münaqişənin mənfəət, aztapılan nemətlər, başqa fayda əldə etmə məqsədi güdən növlərindən biri (xüsusi mübarizə növü).

**Rəqiblik** – şəxsi nailiyyətlərin cəmiyyət, kollektiv, qrup tərəfindən tanınması.

**Rəsmiyyətdənkənar təşkilat** – rəsmi təşkilatın vəzifələrinin təsbit olunmuş üsullardan fərqli üsullarla həllinə yönəlmiş, kortəbii surətdə yaranan əlaqələr, münasibətlər, fəaliyyət

sistemi.

**Rigidlik** (psixologiyada: lat. sərt, möhkəm) – dəyişən şəraitdə qavrayış və təsəvvürlərin yenidən qurulmasının çətinliyi.

**Risk** - fəaliyyətin nəticəsinin qeyri-müəyyənliyindən və uğursuzluq təqdirində mümkün mənfi nəticələrdən ibarət olan situativ xarakteristikası.

**Rollararası münaqişə** - şəxsiyyətin icra etdiyi müxtəlif sosial rolların tələbləri arasında ziddiyyətli vəziyyət.

**Siyasi mədəniyyət** - siyasi sistemin fəaliyyət qanunları və qaydaları, siyasi həyat üsulları haqqında biliklərin, təsəvvürlərin, yönümlərin dəyər-normativ sistemi.

**Siyasi mədəniyyətlərin münaqişəsi** – müxtəlif siyasi dəyərlərin, normaların, adətlərin, ənənələrin, siyasi davranış üsullarının və siyasi inkişaf məqsədlərinin (siyasi həyat tərzlərinin) toqquşması.

**Siyasi münaqişə** - siyasi subyektlərin hakimiyyət və hakimiyyət münasibətləri ilə bağlı toqquşması.

**Sosial münaqişə** – bir-birini istisna edən tələblərin, mənafelərin, dəyərlərin toqquşması.

**Sosial münaqişədə güc** – münaqişə tərəflərinin düşmənin müqavimətinə rəğmən öz məqsədlərini reallaşdırmaq imkanı və qabiliyyəti.

**Sosial tərəfdaşlıq** - işçilər (həmkarlar ittifaqları) və sahibkarlar arasında qarşılıqlı güzəştlər vasitəsilə qarşılıqlı surətdə məqbul razılaşmaların əldə edilməsi yolu ilə əmək münasibətlərinin və münaqişələrinin tənzimlənməsi.

**Sosial yönəliş** – müəyyən vəziyyətlərdə müəyyən tərzdə hərəkət etməyə hazırlıq.

**Sosiallaşma** – fərdin (qrupun) cəmiyyətdə uğurlu həyat fəaliyyəti üçün zəruri olan davranış, sosial norma və dəyər nümunələrini mənimsəməsi prosesi.

**Sosial-əmək münaqişəsi** - əmək münasibətləri mühitində fəaliyyət göstərən subyektlərin mənafelərin əksliyi ilə şərtlənən toqquşması.

**Sosial-siyasi böhran** - sosial-siyasi ziddiyyətlərin kəskinləşərək cəmiyyətdə sabitliyin və normal inkişafın pozulması.

**Sosial-siyasi münaqişə** – əksər sosial qruplar arasında siyasi münasibətlərə toxunan və həlli üçün siyasi nizamlama metodlarının zəruri olduğu münaqişə.

**Sosial tərəfdaşlıq** – işçilər (həmkarlar ittifaqları) və sahibkarlar (sahibkar birlikləri) arasında qarşılıqlı güzəştlər vasitəsilə qarşılıqlı surətdə məqbul sazişlərin əldə edilməsi yolu ilə əmək münasibətlərinin və münaqişələrinin tənzimlənməsi metodlarından biri.

**Sosial gərginlik** – insanların mövcud vəziyyətlə, yaxud hadisələrin inkişafının gedişi ilə təmin olunmama nəticəsində yaranan psixoloji halı. Sosial gərginliyin ən xarakterik təzahür formaları qrup emosiyalarıdır.

**Staqnasiya** – inkişaf qabiliyyətinin itirilməsi.

**Status-rol siyasəti** – cəmiyyətin siyasi strukturunda şəxsi və qrup statusunun (rolunun) yüksəldilməsi (siyasi hakimiyyət iyerarxiyasında yer) uğrunda mübarizə.

**Stereotip** – sosial obyektin (insanın, qrupun, təzahürün və s.) nisbətən sabit və sadə obrazı.

**Stereotipləşdirmə** – hansısa sosial qrupun xarakteristikalarının şamil olunması yolu ilə başqasının qavranılması və qiymətləndirilməsi.

**Stress** – mürəkkəb (ekstremal) vəziyyətlərdə insanda yaranan psixi (emosional) gərginlik halı. Stress həm müsbət, səfərbəredici, həm də mənfi təsir göstərə bilər. İkinci halda çox vaxt «distress» anlayışı işlədilir.

**Struktur zorakılıq** - insanların tələbat və mənafelərini pozan müəyyən şəraitin (strukturun) yaradılması (məsələn, cəmiyyətdə insanın insan tərəfindən istismarı).

**Şaquli siyasi münaqişələr** - cəbhələşmənin «hakimiyyət-cəmiyyət» xətti üzrə keçməsi. Şaquli siyasi münaqişələrin iki növü mövcuddur: a) əsasında siyasi strukturda şəxsi və qrup statusunun və rolunun yüksəldilməsi uğrunda mübarizə duran status-rol münaqişələri; b) mövcud siyasi quruluşu devirmək, yaxud radikal surətdə dəyişdirmək məqsədi güdən rejim münaqişələri.

**Şəxsiyyət** – mövcud ictimai münasibətlər sistemi, mədəniyyət və fərdin bioloji xüsusiyyətləri ilə şərtlənən sabit sosial əhəmiyyətli əlamətlər sisteminə malik insan.

**Şəxsiyyətlərarası qavrama** – insanın insan tərəfindən qavranılması, başa düşülməsi və qiymətləndirilməsi aşağıdakı mexanizmləri ehtiva edir: 1) eyniləşdirmə; 2) sosial-psixoloji refleksiya; 3) empatiya; 4) stereotipləşmə.

**Şəxsiyyətlərarası münaqişələr** - qarşılıqlı münasibət prosesində bir-ğirini istisna edən tələblər. Mənafelər, dəyərlər, məqsədlər, yaxud şəxsi nifrət səbəbindən şəxsiyyətlərin toqquşması.

**Şəxsiyyətlərarası uyğunsuzluq** – ünsiyyət və birgə fəaliyyət tərəfdaşlarının fərdlərin dəyər yönümlərinin, temperamentlərinin, psixofiziki reaksiyalarının, fərdi-psixoloji xarakteristikalarının üst-üstə düşməsinə (qarşı-qarşıya gəlməsinə) əsaslanan qarşılıqlı nifrəti.

**Təcavüz** – fiziki, yaxud psixoloji ziyan, zərər vurmağa, yaxud başqa insanı, insanlar qrupunu və böyük sosial birlikləri məhv etməyə yönəlmiş fərdi, yaxud kollektiv davranış.

**Tələbatlar** – insanın, cəmiyyətin qrupunun həyat fəaliyyətinin və inkişafının təmin edilməsi üçün obyektiv surətdə zəruri olan nəyəsə ehtiyac, fəallığın daxili sövqedicisi.

**Təmin olunmama** – bu və ya digər amillərin, hadisələrin, halların, inkişaf meyllərinin və s. mənfi qavranılması (qiymətləndirilməsi).

**Təsadüfi münaqişə** – anlaşılmazlıq üzündən, yaxud hadisələrin təsadüfi inkişafı

nəticəsində yaranmış münaqişə.

**Təsəvvür** – əşyanın, yaxud təzahürün əvvəl qavranılmış, yaxud məhsuldar təxəyyüllün yaratdığı obrazı.

**Tətil** – işçilərin özlərinin iqtisadi, sosial-siyasi və digər mənafelərinin müdafiəsi məqsədilə təşkil etdikləri işin kollektiv surətdə dayandırılması, yaxud tənzimlənən əmək fəaliyyətində iştirakdan imtina.

**Kortəbii tətil** – sosial-psixologi gərginliyin boşaldılması məqsədi güdür. Kortəbii tətilə bu və ya digər münaqişəli insident vəsilə ola bilər.

**Tolerantlıq** – özgəsinin həyat tərzinə, rəyinə, davranışına, dəyərlərinə və s. düzümlülük.

**Tolerantlığın fərdi həddi** - psixoloji gərginliyin artmasının fərdin münaqişəyə girdiyi, yaxud frustrasiyaya düşdüyü müəyyən son həddi.

**Üfüqi siyasi münaqişələr** – mövcud rejim çərçivəsində, məsələn, icraedici və qanunverici hakimiyyət arasında hakimiyyət və hakimiyyət səlahiyyətləri uğrunda mübarizə.

**Vasitəçilik** – şəxsiyyətlərarası, qruplarası və dövlətlərarası danışıqlara təkan verən proses.

**Yalançı münaqişə** – cəbhələşmə üçün real səbəblər olmasa da, subyektin (subyektlərin) vəziyyəti münaqişə kimi qiymətləndirməsi.

**Yanlış qavranılan münaqişə** – əsl «müqəssir» olan münaqişə subyektinin «səhnə arxasında» qaldığı, qarşıdurmada isə ona bilavasitə aidiyyatı olmayan iştirakçıların iştirak etdiyi münaqişə.

**Yeri dəyişdirilmiş münaqişə** - həqiqi səbəb gizlədilərək yalançı əsasla yaranmış münaqişə.

**Yönəliş** – subyektin müəyyən vəziyyətə hazırlığı; subyektin psixika və davranış təzahürlərinin müəyyən yönümü; gələcək hadisələrin qavranılmasına hazırlıq.

**Zorakılıq -** dar mənada zorakılıq insana cismani və mənəvi zədə yetirilməsi kimi qarşılanır; geniş mənada zorakılıq dedikdə başqa şəxslərin və sosial qrupların baəsində məcburetmənin istənilən forması başa düşülür.

## İstifadə olunmuş ədədiyyatın siyahısı

1.Конфликтология.//под.ред.В.П.Ратникова.- М.,2005.

2. Конфликтология./ /под. Ред.А.С.Кармина. – Санкт-Петербург, 1999.

3. Козырев Г.И. Введение в конфликтологию. – М.,1999.

4. Дмитриев А.В. Конфликтология. – М.,2000.

5. Анцупов А.Я. , Шипилов А.И. Конфликтология. – М.,2002.

6.Здравомыслов А.Г. Социология конфликта. – М., 1995.

7. Овчинников В.С. Политические конфликты в международных отношениях и пути их разрешения. – М., 1990.

8.Социально-политические конфликты и сфере межнациональных отношений и пути их разрешения. – М., 1990.

9. Мацнев А.А. Этнополитические конфликты: природа, типология и пути урегулирования // Социально-политический журнал, 1996. - № 4.

10. Михайлов К.А. Принцип «воронки» пли механизм развертывания межэтнического конфликта // Социологические исследования, 1993. - №5

11. Бэрон Р., Ричардсон Д. Агрессия. – СПб.,1997.

12. Диксон Ч. Конфликт. – СПб.,1997.

13. Каррас Ч. Искусство ведения переговоров. – М.,1997.

14.Лоренц К. Агрессия. – М.:Прогресс,1994.

15. Основы конфликтологии //под ред. В.Н.Кудрявцева. – М.,1997.

16. Скотт Дж.Г. Конфликты, пути их преодоления. – Киев,1991.

17.Фишер Р., Эртель Д. Подготовка к переговорам. – М.,1996.

18.Шевцов В.М. Межнациональные конфликты: механизмы их разрешения. – М.:ГАВС,1994.

19.Əliyev G. Hacızadə H. Konfliktolociyaya ciriş. – Bakı.Təbib.1998.

20.Üzeyir Şəfi. Konfliktoloğiya. Siyasi-sosioloji təhlil.- Bakı. 2002.

21.Блищенко В.И.,Солнцева М.М. Региональные конфликты и международное право(вторая половина XX – начало XX1 века). – Учебное пособие. – М.,2005.

22.Коваленко Б.В., Пирогов А.И., Рыжов О.А. Политическая конфликтология. Учебное пособие. – М.,2002.

23. Лебедева М.М. Политическое урегулирование конфликтов. Подходы, решения, технологии. – М.,1999.

24.Аклаев А.Р. Этнополитическая конфликтология. Анализ и менеджмент. Учебное пособие. – М., 2005.

25.Фельдман Д.М. Политология конфликта. – М.,1998.
26. Фишер Р., Юри У. Путь к согласию или переговоры без поражения. – М.,1992.
27.Введение в теорию международного конфликта.- М.,1996.
28. Карнеги Д. Путь к согласию. – М.,1991.
29. Вебер М. Избранные произведения. М., 1990.
30. Ле Бон Г. Психология народов и масс. СПб., 1995.
31. Pruitt D., Rubin J. Social conflict: escalation, stalement, settlement. – N.Y., 1984.
32.Simmel G. Conflict. – N.Y. 1955.
33.Darendorf R. Class and Class Conflict in Industrial Society. – N.Y. 1959.
34.Schelling T.C. The Strategy of Conflict. – Camridge.1960.
35.Shikman S. Theory of political conflict. – N.Y. 1989.
36.Thomas K.W., KiLLmann R.H. Thomas-KiLLmann conflict mode instrument. XICOM, inc., 1990.